# Ayətullahül-üzma seyid Əli Xamenei həzrətlərinin dəftərxanasının şəri suallar şöbəsi

**Bu risaləyə (Əcvibətül-istiftaata) əməl etmək kifayətdir inşallah.**

## Təqlid məsələləri

### Üç yol: ehtiyat, ictihad, təqlid

---

Sual: **1** Təqlidin vacib olması təqlid olunası bir məsələdir, yoxsa ictihadi (Yəni bu məsələdə insan müctehidə təqlid etməlidir, yoxsa özü bu qənaətə gəlməlidir?)

Cavab: Bu, ictihadi-əqli bir məsələdir (Yəni insan öz ağlı ilə bu qənaətə gəlməlidir.).

---

Sual: **2**. Sizin mübarək rəyinizə görə ehtiyata əməl etmək yaxşıdır, yoxsa təqlid etmək?

Cavab: Ehtiyata əməl etmək onun yerlərini tapmağa və keyfiyyətini bilməyə bağlı olduğu üçün, həm də bu iş hamıya müəssər olmadığına görə, bundan da əlavə, bu iş çox vaxt tələb etdiyi üçün, yaxşıdır ki, "cameüş-şərait"[5212] bir müctehidə təqlid edilsin.

---

Sual: **3**. Hökmlərdə olan ehtiyatın - fəqihlərin fitvaları arasındakı - həddi-hüdudu nədir? Keçmiş fəqihlərin fitvalarını da oraya daxil etmək vacibdir?

Cavab: "Vacib olan yerlərdə ehtiyat" dedikdə, məqsəd bütün fiqhi ehtiyatların içərisindən riayət olunması vacib olan yerlərdə əməl etmək deməkdir.

---

Sual: **4**. Qızım təqribən bir neçə həftədən sonra həddi-büluğa çatacaq. Ona mərceyi-təqlid seçmək vacibdir. Halbuki, bu məsələnin dərk olunması onun üçün müşküldür. Lütfən, buyurun görək, ona vacib olan şey nədir?

Cavab: O qızın özü bu barədə şəri vəzifəsini düşünməsə, onda sizin vəzifəniz budur ki, ona yol göstərib istiqamətləndirəsiniz.

---

Sual: **5**. Məlumdur ki, mövzunu ayırd etmək mükəlləfin vəzifəsi və (həmin mövzuda) hökmü vermək müctehidin tərəfindəndir.

Mərceyi-təqlidin bu müəyyənləşdirmə müqabilindəki mövqeyi nədir? Buna müvafiq şəkildə əməl etmək vacibdirmi? Çünki biz görürük ki, çox zaman belə yerlərdə müdaxilə olunur.

Cavab: Doğrudur, mövzunu müəyyənləşdirmək mükəlləfin işidir və bu işdə müctehidinə tabe olmaq vacib deyildir. Amma ona xatircəmlik olsa və ya mövzu istinbati[5213] olsa, tabe olmaq olar.

---

Sual: **6**. Gündəlik şəri məsələləri öyrənməyi tərk edən şəxs günahkardırmı?

Cavab: Əgər (bu) şəri məsələləri öyrənməmək vacib bir əməlin tərk olunmasına, yaxud haram bir işə düşməyə səbəb olarsa, onda (o) günahkardır.

---

Sual: **7**. Biz bəzi adamlardan onların kimə təqlid etdiklərini soruşanda (onların da bu barədə geniş məlumatları yoxdur) "bilmirik", yaxud "filan mərceyə təqlid edirik" - deyə cavab verirlər, halbuki o müctehidin risaləsinə müraciət etməyi, yaxud o risaləyə əməl etməyi özlərinə vacib bilmirlər. Bu halda onların əməllərinin hökmü nədir?

Cavab: Əgər onların əməlləri ehtiyata, yaxud həqiqi hökmə, yaxud da müraciət olunası müctehidin fitvası ilə uyğun olsa, onda onların əməlləri səhih hökmündədir.

---

Sual: **8**. Məlumdur ki, ələm müctehidin (vacib-ehtiyat) etdiyi məsələlərdə başqa bir ələm müctehidə müraciət etmək olar. Sualımız budur ki, o ələm müctehid də həmin məsələdə ehtiyat (ehtiyat-vacib) etsə, o yerdə o iki müctehiddən qeyri bir ələm müctehidə müraciət etmək olarmı? Və üçüncü müctehid də olsa belə, sonrakı ələm müctehidə müraciət edə bilərikmi? Və sair... Xahiş olunur, bu məsələni izah edəsiniz.

Cavab: Ələmliyə riayət etməklə bu məsələdə ehtiyat etməyib aşkar fitva verən müctehidə müraciət etmək olar.

# Təqlidin şərtləri

---

Sual: **9** Mərceiyyəti öhdəsinə almayan və əməliyyə risaləsi olmayan müctehidə təqlid etmək olarmı?

Cavab: Mükəlləfin təqlid etmək istədiyi müctehidin cameüş-şərait bir müctehid olması (mükəlləf üçün) sübut olunsa, eybi yoxdur.

---

Sual: **10**. Bir fiqhi babda, məsələn; namaz, oruc bablarında ictihad dərəcəsinə çatmış bir şəxsə həmin bablarda təqlid etmək olarmı?

Cavab: Bəzi bablarda ictihada yetişən müctehidlərin fitvaları onların özləri üçün dəlil, höccət ola bilər, amma (həmin bablarda) başqalarının ona təqlid etməsi işkallıdır, hərçənd ki, caiz olması mümkündür.

---

Sual: **11**. Başqa ölkələrin alimlərinə - onların yanına getmək mümkün olmasa da belə - təqlid etmək caizdirmi?

Cavab: Cameüş-şərait müctehidə şəriət məsələlərində təqlid etməkdə müctehidin, mükəlləfin öz vətənindən, yaxud vətənin sakinlərindən olub-olmaması şərt deyildir.

---

Sual: **12**. Müctehiddə və mərceyi-təqliddə şərt hesab olunan ədalət, zəif və şiddətli olmaq cəhətindən imam-camaatlarda şərt hesab olunan ədalətdən fərqlənirmi?

Cavab: Mərceiyyət məqamının həssaslığına, əhəmiyyətinə diqqət yetirməklə mərceyi-təqliddə vacib ehtiyat fitvaya əsasən ədalətdən əlavə, öz tüğyan edən nəfsinə hakim olmaq, dünyaya həris olmamaq da şərt hesab olunmuşdur.

---

Sual: **13**. Zaman və məkanın vəziyyətindən agah olmaq da ictihadın şərtlərindəndirmi?

Cavab: Bunların bəzi məsələlərə dəxalət etməsi mümkündür.

---

Sual: **14**. Həzrəti imam Xomeyninin (r.ə) rəyinə əsasən mərceyi-təqlidin ibadət və müamilə (al-ver) hökmlərinə agah olmasından əlavə, siyasi, iqtisadi, hərbi, ictimai məsələlərin hamısına agah olmasına əsaslanıb o həzrətə təqlid etdikdən sonra, özümüzə (bəzi fazil alimlərin bizə yol göstərməsi, həmçinin özümüzün fikrimizə əsasən) vacib gördük ki, təqlid məsələsində Sizə müraciət edək. Buna əsasən, bu halda biz Mərceiyyəti və rəhbərliyi bir yerə yığmalı oluruq. Bu barədə Sizin rəyiniz nədir?

Cavab: Müctehid olmayan, eləcə də ehtiyata əməl edən şəxslərin təqlid etməli olduğu məsələlərdə mərceyi-təqlidin səlahiyyət şərtləri "Təhrirül-vəsilə" və qeyri kitablarda tam genişliyi ilə qeyd olunmuşdur. Amma şərtlərin aşkar olunması, həmçinin fəqihlər içərisində təqlid üçün səlahiyyətli şəxsin seçilməsi mükəlləfin şəxsən özünə həvalə olunur.

---

Sual: **15**. Təqliddə mərcenin ələm olması şərtdirmi? Həmçinin, ələmiyyətə bais olan səbəblər və meyarlar nədir?

Cavab: Ələm müctehidlə qeyri-ələm müctehidin hər hansı bir məsələdə ixtilafları olsa, ehtiyat o məsələdə ələm müctehidə təqlid etməkdir.

Ələmliyin meyarı budur ki, o müctehid Allah-Təalanın hökmlərindən agah olmaqda və ilahi hökmlərin dəlillər əsasında istinbat olunmasında, həmçinin ictihada dəxaləti olan öz zamanə vəziyyətindən şəri hökmlərin mövzularını müəyyənləşdirməkdə dəxli olan qədər məlumatlı olmaqda və eləcə də şəri vəzifələrin bəyan edilməsi üçün lazım olan fiqhi rəylərin yaradılmasında qalan müctehidlərdən qüdrətli olsun.

---

Sual: **16**. Ələm müctehiddə təqlid üçün lazım olan şərtlərin tam olmaması ehtimalı ilə qeyri-ələm müctehidə təqlid edən şəxsin təqlidinin batil olmasına dair hökm olunurmu?

Cavab: Ehtiyata görə, təkcə ələm müctehiddə mötəbər sayılan şərtlərin cəm olmaması ehtimalı ilə qeyri-ələmə (ixtilaflı məsələdə) təqlid etmək caiz deyildir.

---

Sual: **17**. Əgər bir neçə alimin müəyyən məsələlərdə ələm olmaqları müəyyənləşsə (belə ki, onların hər biri müəyyən bir məsələdə ələmdirlər), bu halda onlara müraciət etmək caizdir, yoxsa yox?

Cavab: Eyni zamanda müxtəlif məsələlərdə bir neçə müctehidə təqlid etmək olar. Hətta əgər onların hər birinin təqlid olunduğu müəyyən məsələdə ələm olması fərz olunsa və həmin məsələdə fitvaları da müxtəlif olsa, onda bu iş ehtiyata görə vacib olar.

---

Sual: **18**. Ələm müctehid ola-ola qeyri-ələmə təqlid etmək olarmı?

Cavab: Fitvası ələm müctehidin fitvası ilə müxalif olmayan məsələlərdə qeyri-ələm müctehidə müraciət etməyin heç bir eybi yoxdur.

---

Sual: **19**. Təqlid olunan şəxsin ələm olması barədə rəyiniz və dəliliniz nədir?

Cavab: Fitva vermək üçün cameüş-şərait fəqihlərin sayı çoxalsa və bir fitvada da müxtəlif rəyi olsa da, onda ehtiyata görə mükəlləflərə vacibdir ki, ələmə təqlid etsinlər. Amma (ələmin) fitvası ehtiyatla müxalif olsa, həmçinin qeyri-ələmin fitvası (ehtiyatla) müvafiq olsa, bu halda qeyri-ələmə təqlid etmək olar. Bunun dəlili "binayi-üqəladır".[5214]

Üstəlik, bu halda ağıl bu işin "təyin və təxyir" [5215] arasında dövr etməsinə hökm edir.

---

Sual: **20**. Kimə təqlid etməyimiz vacibdir?

Cavab: Mərceiyyət və fitva verməkdə cameüş-şərait olan, həmçinin ehtiyata görə ələm olan müctehidə təqlid etmək vacibdir.

---

Sual: **21**. Mərhum olan müctehidə təqlid etməyə başlamaq olarmı?

Cavab: İbtidai təqliddə ələm və diri müctehidə təqlid etmək ehtiyatı tərk olunmamalıdır.

---

Sual: **22**. İbtidai təqliddə mərhum olan müctehidə təqlid etmək diri müctehidə təqlid etməyə bağlıdır, yoxsa yox?

Cavab: İlk dəfə olaraq mərhum olan müctehidə təqlid etməyin caiz olması, yaxud ölü müctehidə təqlid etməkdə qalmaq diri və ələm müctehidin rəyindən asılıdır.

# İctihad və ələm olmağı isbat etmə və fitvani əldə etməyin yollari

---

Sual: **23**. Mənə vacibdirmi ki, müəyyən bir müctehidə təqlid etməyin məsləhət olduğunu iki adil şəxsdən öyrəndikdən sonra başqa şəxslərdən də soruşum?

Cavab: Xibrə əhlindən olan iki adil şəxs təqlid üçün müəyyən və cameüş-şərait olan bir müctehidə təqlid etməyin məsləhətli olması barədə şəhadət versə, onda buna etimad etmək olar və bundan sonra başqalarından soruşmaq vacib deyildir.

---

Sual: **24**. Mərceyi-təqlid seçmək, onun fitvalarını əldə etməyin yolları nədir?

Cavab: Mərceyi-təqlidin ictihad dərəcəsinə çatmasını, yaxud ələm olmasını bilmək üçün mövcud olan yollar bunlardır:

1-İmtahan edilməsi yolu ilə;

2-Elm (yəqinlik) hasil olması yolu ilə;

3-Arxayınlıq əldə edilməsi yolu ilə;

4-Bu sahədə mütəxəssis olan iki adil şəxsin verdiyi şəhadət yolu ilə.

Mərceyi-təqlidin fitvasını əldə etmək üçün mövcud olan yollar aşağıdakılardır:

1-Onun özündən eşitmək;

2-İki adil şəxsin söyləməsi və hətta əgər bir nəfər adil şəxsin söyləməsi yolu ilə də olsa belə;

3-Sözünə etimad olunacaq bir şəxsin (siqənin) söyləməsi;

4-O müctehidin əməl risaləsinə müraciət etməklə; bu şərtlə ki, o risalə səhv yazılmasın.

---

Sual: **25**. Mərceyi-təqlid seçməkdə vəkil tutmaq düzgündürmü? Məsələn, oğul atası və ya şagird öz müəllimini mərceyi-təqlid seçmək üçün vəkil tuta bilərmi?

Cavab: Əgər vəkil tutmaqda məqsəd cameüş-şərait müctehidin axtarışını ataya, müəllimə, tərbiyəçiyə, yaxud qeyrilərinə tapşırmaq olsa, onda heç bir eybi yoxdur. Bəli, əgər onların bu barədəki nəzərləri elm və xatircəmlik gətirsə və ya şəhadət şərtlərinə malik olsa, onda onlar höccət və mötəbər sayılar.

---

Sual: **26.** Müctehid olan bir neçə alimdən ələm barəsində soruşdum, mənə cavab verdilər ki, filankəs (Allah onun məqamını yüksəltsin) müraciət etmək üçün "mübriüz-zimmə"-dir; yəni, ona müraciət etməklə öz vəzifənizə əməl etmiş olarsınız. Bu halda onların sözlərinə etimad edə bilərəmmi? halbuki onun ələm olmasını bilmirəm, yaxud ələmliyinə ehtimal verirəm, yaxud da başqalarının da əlində ona oxşar aydın dəlillər olduğuna görə, həmin müctehidin ələmliyinə dair xatircəmliyim yoxdur. </s>

Cavab: Əgər cameüş-şərait bir müctehidin ələmliyinə dair şəri dəlil olsa, onda əgər həmin dəlilin ziddinə olan başqa bir dəlil olmasa, şəri cəhətdən höccət sayılır və ona etimad olunmalıdır. Bu halda elm və arxayınçılığın hasil olması və həmçinin bir-biri ilə zidd olan şəhadətlərin axtarılması şərt hesab olunmur.

---

Sual: **27**. İcazəsi olmayan, bəzi vaxtlarda səhvə düçar olan, hökmləri xəta əsasında nəql edən bir şəxsin şəriət hökmlərinə cavab verməyi öhdəsinə alması caizdirmi? O şəxs əməliyyə risaləsindən oxumaqla hökmləri nəql etsə, ona əməl etmək olarmı?

Cavab: Müctehidin fitvasını nəql etməyi və şəriət hökmlərini bəyan etməyi öhdəyə almaqda icazə lazım deyildir; amma bu işdə xətaya və səhvə yol versə, onda bu öhdəçilik caiz deyildir. O kəs məsələni nəql etdikdən sonra səhv etdiyini başa düşsə, onda vacibdir ki, eşidənlərə elan edib, öz səhvini desin. Hər halda eşidən üçün nəql edənin sözlərinə xatircəmlik hasil olmayınca, ona əməl etməyə icazə verilmir.

## Üdul (təqlidi dəyişmək)

---

Sual: **28**. Meyyitə təqlid etməkdə qalmaq barədə qeyri-ələmdən icazə istəmişdik. Əgər bu barədə ələmin icazəsi şərtdirsə, ələmə üdul edib, həmçinin meyyitə təqliddə qalmaqda ondan icazə almaq vacibdirmi?

Cavab: Əgər bu məsələdə qeyri-ələmin fitvası ələmin fitvası ilə müvafiq olsa, onun sözünü qəbul etməyin eybi yoxdur və bununla belə, ələmə üdul etməyə ehtiyac yoxdur.

---

Sual: **29**. Qarşıya çıxan məsələlərdə ələm müctehidin həmin məsələyə dair dəlillər əsasında düzgün hökm çıxara bilmədiyi təqdirdə ələm müctehiddən başqasına keçmək caizdirmi?

Cavab: Əgər mükəlləf hər hansı məsələdə ehtiyat etmək istəsə, yaxud ehtiyat etmək ona mümkün olmasa, bu halda qeyd olunan məsələ barəsində fitvası olan başqa bir ələm müctehid tapsa, ona üdul edib o məsələdə həmin müctehidə təqlid etməsi vacibdir.

---

Sual: **30**. İmam Xomeyninin (r.ə) fitvalarından birində üdul etməkdə meyyitə təqlid etmək üçün icazə istədiyim müctehidin fitvasına müraciət etməyim vacibdirmi? Yoxsa, başqa müctehidlərə də müraciət edə bilərəm?

Cavab: Üdulda icazə istəməyə ehtiyac yoxdur. Belə isə, təqlidin düzgün olma şərtlərinə malik olan müctehidə üdul etmək olar.

---

Sual: **31**. Ələmdən qeyri-ələmə üdul etmək caizdirmi?

Cavab: Üdul ehtiyatın əksinədir. Üstəlik, ehtiyata əsasən bir məsələdə ələm müctehidin sözü həmin məsələdəki qeyri-ələmin sözü ilə müxalif olsa da belə, üdul caiz deyildir.

---

Sual: **32**. Böyük müctehidlərdən birinin fitvasına əsasən İmama (r.ə) təqlid etməkdə qalmışdım. Sizin istiftaatdakı cavablarınızdan agah olandan, həmçinin (orada) mərhum İmama təqlid etməkdə qala bilməyə dair rəyinizi biləndən sonra ondan üdul etdim, əməllərimdə Sizin fitvalarınıza və İmamın fitvalarına müvafiq olaraq təsərrüf etdim. Mənim bu üdul etməyimdə işkal varmı?

Cavab: Bir diri müctehidə təqlid etməkdən başqa bir diri müctehidə təqlid etməyə üdul etmək caizdir. Əgər mükəlləfin nəzərində ikinci müctehid birincidən ələm olsa, ehtiyata əsasən ikinciyə üdul etməsi - onun fitvası həmin məsələdə birincinin fitvası ilə müxalif olarsa- vacibdir.

---

Sual: **33**. İmam Xomeyninin müqəllidləri olan və onun öz təqlidində qalan şəxs bəzi hallarda (məsələn, Tehran şəhərinin biladi-kəbirə sayılmaması kimi) başqa təqlid mərcələrinə müraciət edə bilər, yoxsa edə bilməz?

Cavab: Bu caizdir, hərçənd İmam rəhmətullahı diri müctehidlərdən ələm bildiyi halda müstəhəb ehtiyat budur ki, İmama təqliddə baqi qalsın. (Başqasına müraciət olunmasın).

---

Sual: **34**. Mən bir cavanam. İmama mükəlləf olmazdan (həddi-büluğa çatmazdan) əvvəl təqlid edirdim. Amma təqlidim aydın şəri dəlil üzündən yox, İmama təqlid etməyin bəriüz-zimmə olduğuna görə idi. Bir müddətdən sonra başqa bir mərceyə təqlid etdim. Amma bu üdul düzgün deyildi. Onun da vəfatından sonra Sizə təqlid etməyə başladım. O mərceyə təqlid etməyimin hökmü nədir? Əməllərimin hökmü, xüsusilə də o müddətdə necədir? Hal-hazırdakı vəzifəm nədir?

Cavab: İmama təqlid etdiyin dövrdəki əməllər həm onun mübarək həyatı dövründə, həm də vəfatından sonra (ona təqlid etməkdə qalmaq şərti ilə) düzdür. Amma başqa müctehidə təqlid əsasında olan əməllərinə gəldikdə isə, əgər əməllərin hal-hazırda sənin təqlid etməyinin vacib olduğu, yaxud əvvəllər vacib olan müctehidin fitvaları ilə müvafiq olsa, bu halda düz və kifayətdir. Əks halda (yəni müvafiq olmasa), o əməlləri yenidən yerinə yetirməyin vacibdir. Hal-hazırda isə sən vəfat etmiş mərceyə təqlid etməkdə qalmaqda, yaxud şəri qayda-qanunlara uyğun olaraq təqlid məsələsində müraciət etməyə səlahiyyətli olan bir müctehidə üdul etməkdə ixtiyar sahibisən.

## Meyyitə təqlid etməkdə qalmaq

---

Sual: **35**. Bir nəfər İmam Xomeyninin vəfatından sonra müəyyən bir mərceyə təqlid etmiş, indi isə yenidən İmama təqlid etmək istəyir. Bu caizdirmi?

Cavab: Ehtiyata görə diri, təqlid üçün bütün şərtlərə malik olan bir müctehiddən ölü müctehidə qayıtmaq caiz deyildir. Amma diri müctehid (təqlid üçün) lazım olan şərtlərə malik olmazsa, ona üdul etmək batildir və o hələ də meyyitə təqlid etməkdə qalır. Bu kəs öz təqlidində (meyyitə təqliddə) qalmaqda, yaxud təqlid etmək caiz olan diri bir müctehidə üdul etməkdə ixtiyar sahibidir.

---

Sual: **36**. Mərhum İmamın sağlığında həddi-büluğa çatmış, bəzi höklərdə ona təqlid etmişəm, lakin təqlid məsələsi mənim üçün aydın olmamışdır. İndi mənim vəzifəm nədir?

Cavab: Əgər İmamın sağlığında öz ibadi və qeyri-ibadi əməllərini o həzrətin fitvalarına müvafiq olaraq yerinə yetirmiş və ona təqlid etmisənsə, -hərçənd bəzi məsələlərdə- bütün məsələlərdə ona təqlid etməkdə qalmağın caizdir.

---

Sual: **37**. Ölmüş müctehid ələm olan halda ona təqlid etməkdə qalmağın hökmü nədir?

Cavab: Ölmüş müctehidin təqlidində qalmaq hər bir halda caizdir, vacib deyil. Amma ehtiyat müstəhəb ölmüş ələm müctehidə təqliddə baqi qalmaqdır.

---

Sual: **38**. Ölmüş müctehidə təqlid etməkdə qalmaqda diri ələmdən icazə almaq şərtdir, yoxsa hər hansı müctehidin icazəsi mümkündür?

Cavab: Ölmüş müctehidin təqlidində qalmağın caizlik məsələsində ələmə təqlid etmək vacib deyil və bu da fəqihlərin bu barədə rəy birliyi olan haldadır.

---

Sual: **39**. Bir nəfər mərhum İmama təqlid etmiş, onun vəfatından sonra bəzi məsələlərdə başqa bir müctehidə təqlid etmişdir. Sonra o müctehid də vəfat etmişdir. Bu şəxsin vəzifəsi nədir?

Cavab: O şəxs əvvəldə olduğu kimi həm birinci təqlid etdiyi şəxsin təqlidində qala bilər, həm də ikinci müctehidə üdul etdiyi məsələlərdə öz təqlidində (yəni ikinci müctehidin təqlidində) qalmaq, yaxud diri müctehidə üdul etməkdə ixtiyar sahibidir.

---

Sual: **40**. İmamın vəfatindan sonra onun öz fitvasına əsasən ölü müctehidə təqlid etməkdə qalmağın caiz olmadığını güman etdim. Buna görə də təqlid üçün diri bir müctehid seçdim. Bir daha İmamın təqlidinə qayıda bilərəmmi?

Cavab: Bütün fiqhi məsələlərində diri bir müctehidə üdul etdikdən sonra İmama təqlid etməyə qayıtmağın caiz deyildir. Amma (təqlid etdiyin) diri müctehid ələm meyyitə təqlid etməkdə qalmağın vacib olması barədə fitva vermiş olsa və sən də İmamın diri müctehidlərdən ələm olmasına etiqad bəsləsən, bu halda İmama (r.ə) təqlid etməkdə qalmağın vacibdir.

---

Sual: **41**. Mən bir məsələdə bir dəfə ölü müctehidin, başqa bir dəfə isə diri və ələm müctehidin fitvasına müraciət edə bilərəmmi? Halbuki, bu iki müctehidin bu məsələ barəsində ixtilafları vardır.

Cavab: Meyyitə təqlid etməkdə baqi qalmaq caizdir, amma ölü müctehiddən diriyə üdul etdikdən sonra yenidən ölü müctehidin fitvasına müraciət etmək caiz deyil.

---

Sual: **42**. Mərhum İmamın müqəllidləri, həmçinin onun təqlidində qalmaq istəyənlər üçün diri mərcələrin birindən icazə almaq vacibdirmi, yoxsa bu barədə alimlərin və mərcələrin əksəriyyətinin ölü müctehidin təqlidində qalmağın caiz olmasına dair rəy birlikləri kifayətdir?

Cavab: Müasir alimlərin ölü müctehidin təqlidində qalmağın caiz olması barədəki rəy birliklərinə istinad edərək İmamın təqlidində qalmaq caizdir və bu barədə müəyyən bir müctehidə müraciət etməyə ehtiyac yoxdur.

---

Sual: **43**. Mükəlləfin (müctehidin sağlığında) əməl etdiyi, yaxud etmədiyi məsələdə müctehid öləndən sonra təqlid etməkdə qalmaq barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Ölmüş müctehidə təqlid etməkdə -bütün məsələlərdə, hətta əməl etmədiyi məsələlərdə- qalmaq caiz və kifayətdir.

---

Sual: **44**. Ölü müctehidə təqlid etməkdə qalmağın caiz olmasına əsasən bu hökm həmin müctehidin sağlığında mükəlləf olmayan (həddi-büluğa çatmayan), amma onun fitvalarına əməl edən şəxslərə də aiddirmi?

Cavab: Onlar müctehidin sağlığında ona təqlid etmişlərsə, (hərçənd həddi-büluğa çatmazdan əvvəl) ölü müctehidin təqlidində qalmalarının eybi yoxdur.

---

Sual: **45**. Bir mərcenin müqəllidlərinin vəzifəsi -başqa bir mərcenin ələm olması aşkar olduqda- nədir?

Cavab: Ehtiyata əsasən, hal-hazırda təqlid olunan mərcenin fitvası ələm mərcə ilə müxalif olan məsələlərdə ələmiyyəti aşkar olan müctehidə təqlid etməlidirlər.

---

Sual: **46**. Hansı hallarda müqəllid öz mərcəsindən dönüb başqasına təqlid edə bilər?

Cavab: Başqa müctehid hal-hazırdakı müctehiddən ələm, yaxud ona bərabər səviyyədə olan surətdə ona üdul etmək olar.

---

Sual: **47**. Ələm mərcenin fitvaları o fitvaların verildiyi dövr ilə uyğun olmasa, yaxud o fitvalara əməl etmək çətin olsa, bu halda qeyri-ələmə üdul etmək olarmı?

Cavab: Təqlid olunması vacib olan ələm müctehidin fitvalarının sırf şəkildə zamanla uyğun gəlməməsi gümanı ilə, yaxud sırf şəkildə onun fitvalarına əməl etməyin çətin olması gümanı ilə başqa müctehidə üdul etmək caiz deyildir.

## Müxtəlif məsələlər

---

Sual: **48**. “Müqəssir cahil” dedikdə nə nəzərdə tutulur?

Cavab: Müqəssir cahil, öz cəhlini bilən və həmçinin, bu cəhli aradan qaldırmaqda mümkün olan yolları bilən, amma o yolları getməyən adama deyilir.

---

Sual: **49**. “Qasir cahil” kimdir?

Cavab: Qasir cahil ümumiyyətlə öz cəhlindən xəbərdar olmayan, yaxud xəbərdar olub onun aradan qaldırılması yolunu bilməyən şəxsə deyilir.

---

Sual: **50**. Vacib ehtiyat nə deməkdir?

Cavab: Vacib ehtiyat bir işin yerinə yetirilməsi, yaxud tərk olunması ehtiyat üzündən vacib olan əmələ deyilir.

---

Sual: **51**. Fitvalarda gələn “bunda işkal var” kimi ibarələr o işin haram olmasına dəlalət edirmi?

Cavab: Bu ifadə, yəni “işkallı məsələdir” müxtəlif yerlərdə müxtəlif mənalar verir. Məsələn, əgər işkal bir şeyin caiz olub-olmamasındadırsa, əməl mərhələsində nəticə etibarı ilə harama gətirib çıxarır.

---

Sual: **52** “Bunda işkal var”, “işkal gətirəndir”, “işkaldan kənar deyil”, “bunda işkal yoxdur” kimi ibarələr fitvadır, yoxsa ehtiyat?

Cavab: “İşkalı yoxdur” ibarəsi fitva, yerdə qalanlar isə ehtiyatdır.

---

Sual: **53**. “Caiz olmamaq”-la “haram”-ın arasında nə kimi fərq var?

Cavab: Əməl məqamında heç bir fərqləri yoxdur.

## Mərceiyyət və vilayət (rəhbərlik)

---

Sual: **54**. İctimai, siyasi, mədəni məsələlərdə müsəlmanların vəliyyi-əmrinin fitvası ilə başqa bir mərcenin fitvası bir-biri ilə düz gəlməzsə, hansı iş vacibdir və müsəlmanların şəri vəzifələri nədir? Belə olan halda, mərceyi-təqlidin çıxardığı hökmlərlə vəliyyi-fəqihin çıxardığı hökmlərin arasında fərq qoya biləcək bir hədd-hüdud varmı? Məsələn, musiqi məsələsində Mərceyi-təqlidin rəyi vəliyyi-fəqihin rəyi ilə müxalif olsa, hansının rəyinə tabe olmaq vacibdir və hansının rəyi kifayətdir? Ümumiyyətlə, vəliyyi-fəqihin hökmünün Mərceyi-təqlidin hökmündən üstün olduğu hökumət əhkamları hansılardır?

Cavab: İslam ölkəsinin idarə olunması və müsəlmanların ümumi işləri ilə əlaqədar olan məsələlərdə müsəlmanların vəliyyi-əmrinin rəyinə (hökmünə) itaət olunmalıdır. hər bir mükəlləf şəxs sırf şəkildə fərdi olan məsələlərdə öz mərcəi-təqlidinə tabe ola bilər.

---

Sual: **55**. Bildiyiniz kimi, “Üsuli fiqh” elmində “Əl-ictihadül-mütəcəzzi” (fiqhin bir qismətində ictihada çatmaq) barədə bəhs olunur. Elə isə İmam Xomeyninin (r.ə) rəhbəriyyəti mərcəiyyətdən ayırması ictihadda təcəzzini sabit edirmi?

Cavab: Rəhbəriyyətin mərcəiyyətdən ayrılmasının ictihadda təcəzzi məsələsi ilə heç bir rabitəsi yoxdur.

---

Sual: **56**. Mərcəi-təqlidlərdən birinin müqəllidi olan halda müsəlmanların vəliyyi-əmri zalım kafirlər əleyhinə müharibə, yaxud cihad elan etsə, mənim təqlid etdiyim mərcə də müharibəyə getmək icazəsi verməsə, bu halda onun rəyinə əməl edim, ya yox?

Cavab: Ümumi işlərdə, o cümlədən İslamı və müsəlmanları təcavüzkarlar, tüğyançılar və kafirlərin əleyhinə olaraq müdafiə etmək kimi işlərdə müsəlmanların vəliyyi-əmrinə itaət etmək vacibdir.

---

Sual: **57**. Vəliyyi-fəqihin hökmü, yaxud fitvası hansı həddə tətbiq oluna bilər və (onun hökmünün) ələm mərcenin rəyi ilə müxalif olduğu halda üstünlük hansına verilir?

Cavab: Vəliyyi-fəqihin hökmünə itaət etmək hamı üçün vacibdir. Onun hökmü ilə müxalif olan Mərceyi-təqlidin hökmünün vəliyyi-əmrin hökmü ilə qarşılaşa bilməsi mümkün deyil.

# Vilayəti-fəqih, hakimin hökmü

---

Sual: **58**. Vilayəti-fəqihin əslinə və ya hazırkı vəliyyi-fəqihə etiqad bəsləmək əqlidir, yoxsa şəri?

Cavab: Həqiqətən vilayəti-fəqih (yəni adil, dinə arif olan bir fəqih şəxsin (alimin) hökuməti) şəri və təəbbüdi[5216] bir hökmdür. Bunu əql də təsdiq edir. Burada onun nümunəsini təyin edən bir əqli yol da var ki, İslam Respublikasının Əsas Qanununda bəyan olunmuşdur.

---

Sual: **59**. Vəliyyi-fəqih İslamın və müsəlmanların mənafeyi, məsləhəti tələb edən hallarda şəriət hökmlərinin xilafına hökm verə bilərmi, (və beləliklə də) şəriət hökmləri dəyişdirilə, yaxud icra olunmaya bilərmi?

Cavab: Əlbəttə, yerlər müxtəlifdir.

---

Sual: **60**. İnformasiya vasitələrinin İslam hökuməti sayəsində vəliyyi-fəqihin, yaxud dini hövzələrin nəzarəti altında, yaxud da başqa cəhətlərdə olması vacibdirmi?

Cavab: İnformasiya vasitələrinin müsəlmanların vəliyyi-əmrinin hökmü, nəzarəti altında olması vacibdir və bu vasitələr ilahi və fiqhi təlimlərin nəşr olunub yayılması işində müsəlmanlara, İslama xidmət etməyə borcludur, həmçinin islami cəmiyyətlərin ümumi müşküllərini həll etmək üçün istifadə olunur. Xalqın fikrinin inkişaf etdirilməsi və müsəlmanların arasında vəhdət və qardaşlıq ruhiyyəsinin canlandırılması və s. kimi işlərə xidmət edir.

---

Sual: **61**. Vəliyyi-fəqihin mütləq hakimiyyətinə etiqadı olmayan şəxs həqiqi müsəlman sayılırmı?

Cavab: Etiqad və ictihad nöqteyi-nəzərindən həzrəti Hüccət ibnil həsən (ərvahüna fidah) qaib olduğu dövrdə vəliyyi-fəqihin mütləq hakimiyyətinə (vilayətinə) etiqad bəsləməmək dindən çıxmağa, mürtəd olmağa səbəb olmaz.

---

Sual: **62**. Vəliyyi-fəqihin təkvini[5217] vilayəti (hakimiyyəti) vardırmı ki, onun əsasında hər hansı bir səbəb (ümumi mənafe kimi) olduqda din əhkamlarını nəsx (əvəz) edə bilsin?

Cavab: Rəsuli-əkrəmin (s) vəfatından sonra İslam şəriət əhkamlarının nəsx edilməsi (dəyişdirilməsi) mümkün deyil. Amma mövzunun əvəz edilməsi, zərurət və iztirar hallarının qarşıya çıxması, hökmün nüfuzunun vaxtını müəyyən edən bir maneənin irəli gəlməsi isə nəsx deyildir. Təkvini vilayət-buna etiqad bəsləyənlərin rəyinə əsasən- yalnız Məsumlara (ə) aiddir.

---

Sual: **63**. Adil vəliyyi-fəqihə həsbiyyə[5218] işlərdən qeyrisində etiqad bəsləməyən şəxslərə qarşı vəzifəmiz nədir? Halbuki, onların bəziləri belə bir şayiə yayırlar ki, vilayəti-fəqihin yalnız həsbiyyə işlərdə ixtiyarı vardır.

Cavab: Vilayəti-fəqih cəmiyyətdə ictimai məsələlərin idarə edilməsində hər bir əsrdə, zamanda haqq olan 12 imam məzhəbinin rüknlərindəndir. Vilayəti-fəqihin imamətin əslində əsaslı rolu var və hər kəs buna (vilayəti-fəqihə) etiqad bəsləməmək barədə sübut gətirsə üzrlüdür, amma ixtilaf, təfriqə salması mümkün deyildir.

---

Sual: **64**. Vəliyyi-fəqihin əmrlərinin icrası bütün müsəlmanlara vacibdir, yoxsa təkcə onun müqəllidlərinə aiddir? Həmçinin (vəliyyi-fəqihin) mütləq hakimiyyətinə etiqad bəsləməyən müctehidin müqəllidinə vəliyyi-fəqihə itaət etməsi vacibdirmi?

Cavab: Şiə fiqhinə əsasən, bütün müsəlmanların onların vəliyyi-əmri tərəfindən verilən, ona məxsus olan (vilayi) əmrlərə itaət etmələri, onun verdiyi əmrlər, nəhylər qarşısında təslim olmaq - hətta sair fəqihlərə də vacibdir. O ki, qala (o fəqihlərin) müqəllidlərinə!... Vilayəti-fəqihə tabe olmağı İslama, məsum imamların vilayətinə tabe olmaqdan ayrıla biləcəyinə etiqadımız yoxdur.

---

Sual: **65**. Rəsuli-əkrəmin (s) dövründə "vilayəti-mütləqə" kəlməsinin mənası bu idi ki: həqiqətən, Rəsuli-əkrəm(s) əgər bir şəxsə hər hansı bir işi əmr etsəydi, hətta ən çətin işlərdə də olsaydı belə, o işin yerinə yetirilməsi həmin şəxsə vacib olardı. Məsələn, əgər Peyğəmbər (s) bir şəxsə, o şəxsin özünü öldürməsini əmr etsəydi, bu işin icrası o şəxsə vacib olardı. Sual budur ki, mütləq vilayət (vilayəti-mütləqə) də elə bu mənanı daşıyırmı? (Nəzərə alaq ki, Peyğəmbər (s) məsum (günahsız) idi, lakin hazırkı əsrdə camaat arasında günahsız adam tapılmaz.)

Cavab: Cameüş-şərait bir fəqih üçün mütləq vilayət dedikdə məqsəd budur ki, səmavi dinlərin sonuncusu olan, qiyamət gününə kimi qalarlı olan hənif İslam dini hökm dinidir, cəmiyyətin işlərini idarəetmə dinidir. Bu halda İslam cəmiyyəti üçün (bu cəmiyyətin bütün təbəqələri ilə belə) hökmən vəliyyi-əmr, hakimi-şər (şəriət hakimi) lazımdır. Həmçinin, ümməti və müsəlmanları düşmənlərdən qorumaq üçün, onların dövlətini qorumaq, onların arasında ədaləti bərqərar etmək, güclünün zəiflərə təcəvüz etməsinin qarşısını almaq üçün, onların mədəni təkamülü, siyasi, ictimai inkişafları, rifahları üçün lazım olan vəsaitləri təmin etmək üçün bir nəfər rəhbər lazımdır. Bu işlər də əməli olaraq nüfuzetmə məqamında bəzi şəxslərin istəkləri, tamahları, mənafeləri, azadlıqları ilə düz gəlmir. Müsəlmanların hakiminə İslam fiqhi əsasında rəhbəriyyətin mühüm işlərini icra edən vaxt vacibdir ki, ehtiyac duyulan vaxt lazım olan icariyyə əməllərini tətbiq etsin. Bu halda onun istəyi, səlahiyyəti (İslamın və müsəlmanların ümumi mənafeyi məsələsi qarşıya çıxanda) ümumxalq istəklərinə hakim olmalıdır. Bu da mütləq vilayətin kiçik işlərindəndir.

---

Sual: **66**. Fəqihlərin verdikləri fitvaya əsasən, ölü müctehidə təqlid etməkdə qalmaq diri müctehidin fitvasından asılıdır. Bu halda, vəfat etmiş vəliyyi-fəqihin verdiyi şəri-vilayi hökmlərin və əmrlərin də (nüfuzlu qalsın deyə) diri vəliyyi-fəqihin icazəsinə ehtiyacı varmı? Yoxsa, o əməllər elə-belə öz halına qalır?

Cavab: Müsəlmanların vəliyyi-əmri nahiyəsindən çıxarılan vilayi hökmlər, təyinatlar müəyyən, məhdud zamanla hüdudlanmazsa, öz nüfuzunda qalır. Amma əgər təzə vəliyyi-əmr bu hökmləri pozmaqda bir məsləhət görsə, həmin hökmləri poza bilər.

---

Sual: **67**. İran İslam Respublikasında yaşayan bir fəqih mütləq vilayəti fəqihə etiqad bəsləməsə, ona vacibdirmi ki, vəliyyi-fəqihin əmrlərinə itaət etsin? Və əgər o, vəliyyi-fəqihlə müxalifət etsə, fasiq[5219] sayılırmı? Və əgər bir fəqih vəliyyi-fəqihin mütləq vilayətinə etiqad bəsləyirsə, lakin özünü bu məqama daha layiq görürsə, bu halda əgər o, vilayət məqamında olan fəqihin əmrləri ilə müxalifət etsə fasiq sayılarmı?

Cavab: Hər bir mükəlləf şəxsə - hətta fəqihə belə- vacibdir ki, vəliyyi-fəqihin hökumətə aid olan əmrlərinə itaət etsin. Heç kəs özünün vilayət məqamına ləyaqətli olduğunu iddia edərək, vilayət işlərində o işlərin öhdədarı olan şəxslə müxalifət etməyə haqqı yoxdur. Bu deyilənlər o haldadır ki, hal-hazırda vilayəti-fəqih kürsüsündə olan şəxs bu məqam üçün nəzərdə tutulan qanuni yolla rəhbəriyyətə seçilmiş olsun. Amma bundan qeyri surətdə iş tamamilə fərqlənir.

---

Sual: **68**. İmam Zaman (ə) qaib olan hazırkı əsrdə cameüş-şərait müctehid üçün hüdudların[5220] icra olunmasında vilayət (haqqı) varmı?

Cavab: İmamın (ə) qaib olduğu əsrdə də hüdudların icrası vacibdir, bu işə rəhbərlik də yalnız müsəlmanların vəliyyi-əmrinin əli ilədir.

---

Sual: **69**. Vilayəti-fəqih məsələsi təqlid olunası bir məsələdir, yoxsa etiqadla əlaqədar olan məsələdir? Və (əgər etiqadi məsələdirsə, onda) ona iman gətirməyən şəxsin hökmü nədir?

Cavab: Vilayəti-fəqih məzhəbin əsillərindən biri olan imamət və vilayət məsələlərindəndir. Amma bu barədə olan hökmlər sair fiqhi hökmlər kimi şəri dəlillərə əsasən çıxarılır. Hər kəsin bu barədə, bu məsələni qəbul etməməyə dair dəlili olsa üzürlüdür.

---

Sual: **70**. Bəzi vaxtlar bəzi məsuliyyətli şəxslər tərəfindən "idarə vilayəti" (yəni yüksək məsuliyyətli şəxslərə etiraz etmədən itaət etmək) kimi məsələlər eşidirik. Bu barədə Sizin rəyiniz nədir? Və bizim (bu barədə) şəri vəzifəmiz nədir?

Cavab: İdarə qayda-qanunları əsasında çıxarılan (idari) hökmlərlə (əmrlərlə) müxalifət etmək, onlardan boyun qaçırmaq caiz deyildir. Lakin İslam məfhumları içərisində "idarə vilayəti" adlı bir şey mövcud deyildir.

---

Sual: **71**. Hərbi hissələrin məsuliyyətli işçiləri üçün caizdirmi ki, qoşun bölmələrini bəzi özlərinə aid işlərə əmr etsinlər? Belə ki, əgər onların (məsulların) özləri bu işi görmək istəsələr, vaxtları hədərə gedəcək.

Cavab: Bu məsullar üçün və yaxud hər hansı başqa bir şəxs üçün qoşun bölmələrini özlərinin xüsusi işlərini görmək üçün işlətmələri caiz deyildir. Əgər işlətmiş olsalar, onların zəhmət haqlarını verməlidirlər.

---

Sual: **72**. Vəliyyi-fəqihin nümayəndələri tərəfindən çıxarılan qərarlara (onun nümayəndəlik çərçivəsində olsa) itaət etmək vacibdirmi?

Cavab: Əgər onun ilzami qərarları vəliyyi-fəqihin tərəfindən olan səlahiyyəti çərçivəsində olarsa, bu halda o qərarlarla müxalifət etmək caiz deyildir.

# Təharət

## Suların hökmləri

---

Sual: **73**. Əgər üzü aşağıya təzyiqsiz gələn qəlil[5221] suyun aşağı hissəsi nəcasətlə qarışsa, onda onun yuxarı hissəsi pak qalır, ya yox?

Cavab: Əgər qəlil suyun axmasında "su yuxarıdan aşağıya axır" deyilməsi düzgün olarsa, onda onun (aşağısı nəcislə qarışsa) yuxarı hissəsi pakdır.

---

Sual: **74**. Nəcis olmuş parçanın axar[5222], yaxud kür[5223] suda yuduqdan sonra pak olsun deyə onu sudan çıxarıb sıxmaq vacibdirmi, yoxsa elə suyun içində sıxmaqla da pak olur?

Cavab: Parça və onun kimi şeylərin kür, yaxud axar suda pak edən zaman sıxılması şərt deyildir. Bu işdə (paklamada) parçanın daxilindəki suyun çıxmasına səbəb ola biləcək hər bir əməl, iş kifayətdir, hətta onu şiddətlə hərəkət etdirsə də belə.

---

Sual: **75.** Öz-özlüyündə bulaşıq olan su ilə (məsələn, təbii duzluluğunun çoxluğu suyunu bulaşıq edən dənizlər, göllər (məsələn, Urmiyə gölü) kimi, yaxud ondan da çirkli olan sular) qüsl, dəstəmaz almağın hökmü nədir?

Cavab: Təkcə duzların suda olması səbəbi ilə bulaşıqlı olmaq "mütləq su"-yun[5224] ona aid edilməsinə mane olmur. Mütləq su üçün şəri meyar bu ünvanın (mütləq su ünvanının) camaat (ürf) arasında ona deyilməsidir.

Sual: **76**. Suyun kür olmasında onun kür olmasını yəqin etmək vacibdirmi, yoxsa məqsədimizi elə onun kür olmasına qoymaq kifayətdir? (Məsələn, qatarda və s. mövcud olan paltaryuyan yerlərin suyu kimi.)

Cavab: Əgər suyun əvvəlcə kür olması məlum olsa, elə onu kür hesab etmək olar.

---

Sual: **77**. Mərhum İmamın (r.ə) risaləsində, 147-ci məsələdə deyilir ki, "müməyyiz[5225] uşağın həddi-büluğa çatana kimi pak və nəcis barədə dediyi sözə etina etmək vacib deyildir". Bu fitvaya əməl etmək çox çətindir. Məsələn, belə çıxır ki, valideyn öz uşağını 15 yaşına çatana kimi ayaq yoluna gedəndən sonra pak etməlidir. Burada şəri vəzifə nədir?

Cavab: Həddi-büluğa yaxınlaşan uşağın sözü etibarlıdır.

---

Sual: **78**. Bəzi vaxtlar suya bir maddə qatırlar ki, onu süd rəngli edir. Bu su müzaf[5226] sudurmu? Bu su ilə olan dəstəmazın, təharətin hökmü nədir?

Cavab: (Siz dediyiniz su) müzaf su hökmündə deyil.

---

Sual: **79**. Kür və axar su ilə olan təharətin (paklamanın) fərqi nədir?

Cavab: Bu barədə onların heç bir fərqi yoxdur.

---

Sual: **80**. Əgər duzlu su qaynadılsa, onun buxarından (distillədən) əldə edilən su ilə dəstəmaz almaq səhihdirmi?

Cavab: Buxarlanmış duzlu suyun damcılarından (yığılan) suya mütləq su adı deyilsə, (mütləq suyun hökmü də) ona aid olar.

---

Sual: **81**. Nəcis olmuş paltarı çox su ilə yuyanda onu sıxmaq lazımdırmı, yoxsa nəcasət aradan gedəndən sonra suyun nəcis olan yerin üstündən axması kifayətdir?

Cavab: Kəsir suyun daxilində suyun nəcis olan yerin üstündən axması, sonradan isə ondan çıxması (hətta suda hərəkət etdirməklə də olsa) kifayətdir. Sıxmaq isə lazım deyildir.

---

Sual: **82**. Nəcis xalça-palazı və s. borulara birləşmiş su krantından gələn su ilə yumaq istədikdə krantın suyu nəcis olan yerə çatan kimi pak olurmu, yoxsa (paltarın) yuyulduğu suyun (ondan) ayrılması vacibdir?

Cavab: Krant suyu ilə paklamada (paltar) yuyulan suyun ondan ayrılması şərt deyildir. Elə nəcasətin eyni (özü) aradan getdikdən sonra və həmçinin nəcasət dəymiş yerin suyu öz yerindən nəql olunduqdan sonra suyun nəcis dəyən yerə çatması ilə (o paltar) pak olar.

---

Sual: **83.** Ayağın pak olmasında 15 addım yol getmək şərt sayılır? Bu (15 addım) eyni-nəcasətin təmizlənməsindən sonradırmı, yoxsa elə nəcasət olan halda? Və eyni-nəcasət aradan getdikdən sonra ayaq 15 addım (yol) getməklə pak olurmu?

Cavab: Şərt 15 addım getmək yox, eyni-nəcasətin aradan getməsi miqdarında yerimək kifayətdir. "Yeriməyin"-də ən aşağı həddi budur ki, həmin həddən qabaq nəcasətin aradan getməsi fərz olunsun.

---

Sual: **84**. Asfalt və s. döşənmiş küçələr pakedici sayılırmı, belə ki, onun (asfaltın) üstündə getdikdə ayağımızın altı pak olsun?

Cavab: Asfalt, qır kimi şeylərlə döşənmiş yer ayaqların altını, yaxud ayağı qoruyan şeyləri (ayaqqabı kimi) pak etmir.

---

Sual: **85**. Günəş (günün nuru, şüası) pakedicilər sırasındadırmı? Əgər pakedicilərdəndirsə, onda onun paketmə şərtləri hansılardır?

Cavab: Bəli yer, həmçinin bir yerdən başqa yerə nəql oluna bilməyən hər şey (bina və ona birləşən şeylər, onun üstündə olan şeylər, taxtalar, qapılar və s.) günəşin saçması (şüalarının birbaşa ona saçması) ilə, həm də nəcasətin eyninin aradan getməsindən sonra pak olur, bu şərtlə ki, günəş onlara saçanda rütubətli (nəm) olsun.

---

Sual: **86**. Paklama əsnasında nəcis olmuş paltarın rəngi suyun rəngini dəyişdirir. Bu halda o paltar necə paklanmalıdır?

Cavab: Paltarın rənginin suda yayılması suyun müzaf olmasına gətirib çıxarmazsa, onda o paltar üzərinə suyun tökülməsi ilə pak olar.

---

Sual: **87**. Bir nəfər cənabət qüslü almaq üçün suyu qaba tökür. Qüsl əsnasında bədənindən qabın içinə su tökülür. Bu halda qabdakı su paklığında qalırmı? Və o su ilə qüslü tamamlamaqda bir maneə varmı?

Cavab: Əgər bədənin pak yerindən qaba su düşsə, qabdakı su pakdır və bu su ilə qüslü tamamlamaqda heç bir maneə yoxdur.

---

Sual: **88**. Nəcis (dəymiş) su ilə hazırlanmış palçıqdan düzələn təndiri pak etmək mümkündürmü?

Cavab: Təndirin (divarlarının) üzü yuyulmaqla pak oluna bilər. Və çörək bişirmək üçün xəmirin yapıldığı təndirin divarının üzünü (zahirini) paklamaq kifayətdir.

---

Sual: **89**. Heyvanlardan çıxarılan nəcis piy kimyəvi parçalanmadan sonra (belə ki, bu parçalanmadan sonra yeni xassələrə malik olan maddəyə çevrilir) nəcis olmağında qalırmı, yoxsa onda istihalə[5227] hökmü vardır. </s>

Cavab: Nəcis maddələrin, yaxud heyvanların haram şeylərdən alınan maddələrin pak və halal olması üçün, onlar üzərində təkcə onlara təzə xassələr verən kimyəvi əməliyyat aparmaq kifayət deyildir.

---

Sual: **90**. Bizim kənddə bir hamam var, tavanı müstəvi şəkildədir. Oradan hamama gedənlərin başlarına su damcıları düşür. Bu su da hamam suyunun buxarlarının soyumasından əmələ gəlir. (Başlara düşən) bu su damcıları pakdırmı? O damcılar düşəndən sonra edilən qüsl səhihdirmi?

Cavab: Hamamın buxarı pak hökmündədir, həmçinin o buxardan əmələ gələn su damcıları da pakdır. O damcıların bədənə düşməsi qüslün düzlüyünə zərər yetirməz, bədənin nəcis olmasına da gətirib çıxarmaz.

Sual: **91**. İçməli su mədən maddələri ilə, torpaqla və s. qarışdıqda su üçün 0,1 faiz ağırlıq gətirir. Bu, elmi tədqiqatlara əsaslanır. Sutəmizləyici komplekslər məsrəf olunan suların (tərkibini) dəyişir, ondan bu maddələri fiziki, kimyəvi, bioloji əməliyyatlar aparmaqla ayırır, təmizləyir. Belə ki, bu sular bir neçə cəhətdən: fiziki cəhətdən (rəngi, dadı, iyi), kimyəvi cəhətdən (mədən maddələri, duzlar, qarışıqlardan) və səhiyyə (bioloji) cəhətdən (zərərli maddələr, torpaqlar, mikroskopik canlıların yumurtalarından) saflaşdırıldıqdan sonra çaylarda, göllərdə olan suların çoxundan, xüsusilə də işlənmiş sulardan qat-qat yaxşı, təmiz olur.

Əgər məsrəf olunan sular nəcis olsa, yuxarıda qeyd etdiyimiz əməliyyatlardan sonra pak olurmu və istihalənin hökmü ona şamil olurmu, yoxsa saflaşdırılmadan sonra da nəcis sayılır?

Cavab: İstihalə təkcə kimyəvi maddələrin, torpağın, duzların və s. (məsrəf olunan sudan) ayrılması (çökdürülməsi) ilə baş vermir; amma əgər saflaşdırma işi distillə yolu ilə (yəni əvvəlcə buxarlandırılıb sonra yenidən suya çevrilməsi ilə) olsa, onda (əvvəlcə nəcis olan su) pak olar. Məlumdur ki, bu hökm məsrəf olunan suyun nəcis olma hallarında cərəyan edir. Heç də məlum deyildir ki, o sular həmişə nəcis olsun.

---

Sual: **92**. Bizim məntəqəmizdə meyyiti taxta təxtin üzərində yuyub qüsl verirlər. Meyyitin bədəninin də zahirini nəcis olması ehtimalı var. Bu halda meyyit pak olanda buna uyğun olaraq təxt də pak olurmu? Halbuki, təxtin birinci dəfə tökülən suyun canına çəkməsini bilirik.

Cavab: Təxt meyyitin pak olması ilə pak olur və ayrıca pak etməyə də ehtiyac yoxdur.

## Təxəllinin [5228] hökmləri

---

Sual: **93**. Köçərilərin, xüsusilə köç mövsümündə bövlün (sidiyin) məxrəcini paklamaq üçün kifayət qədər suları olmur, bu halda odun, yaxud daşla paklamaq kafidirmi?

Cavab: Bövlün məxrəci sudan qeyri heç bir şeylə pak olmaz. Və əgər su ilə pak etməyə imkan olmasa, namazı düzdür.

---

Sual: **94**. Qəlil su ilə (məsələn, aftaba suyu ilə) bövl və ğaitin məxrəcini paklamağın hökmü nədir?

Cavab: Bövlün məxrəcini paklamaqda (qəlil) su ilə bir dəfə yumaq kifayətdir, amma ğaitin məxrəcini yuyanda nəcisin eyni və onun əsər-əlaməti aradan gedənə qədər yumaq vacibdir.

---

Sual: **95**. Namaz qılan bir şəxsə adəti üzrə bövl etdikdən sonra istibra etməsi vacibdir. Mənim övrətim yaralanmışdır. İstibra əsnasında sıxanda da qan gəlir, paklamaq üçün tökülən su ilə qarışır, bədənim və paltarım nəcisə bulaşır. Və əgər istibra etməsəm, ola bilsin ki, yaram sağalsın. Yəqin də bilirəm ki, istibra etdiyimə, övrətimi sıxdığıma görə yara öz halında qalır, sağalmır. Bu hal (istibra etdikdə) davam etsə, yara 3 aydan sonra sağalacaq. Lütfən, mənə buyurun görüm, istibra edimmi, ya yox?

Cavab: İstibra vacib deyildir, (müstəhəbdir) hətta əgər zərər yetirsə, caiz deyildir. Amma əgər bövldən sonra istibra etməsə və sonra da şübhəli rütubət xaric olsa, bövl olmasına hökm olunur.

---

Sual: **96**. Mən institut tələbəsiyəm, bir neçə il bundan əvvəl məndə bir xəstəlik tapılmışdır, mənə çox əziyyət verir. Bəzi vaxtlar bövldən və istibradan sonra bövlün məhəllindən maye çıxır, onun həcmi damcının dörddə birinə çatır. Bu maye (istibradan) 5 dəqiqə, (yaxud daha çox) sonra görünür. Amma keçmişdə, istibra etmədiyim vaxtlar o suyun həcmi tam bir

neçə damcı qədərində idi. Amma indi ki istibra edirəm, o su qeyd etdiyim qədər (dörddə bir, yaxud daha az) olur. İndi bilmirəm ki, o su pakdırmı və namazlarım da onunla düzdürmü?

Cavab: İstibradan sonra xaric olan şübhəli rütubət bir halda ki bövl olmasına yəqinlik hasil edilmədi pak hökmündədir.

---

Sual: **97**. Bəzi vaxtlar bövl və istibradan sonra insandan ixtiyarsız olaraq rütubət xaric olur və bövlə oxşayır. Bu rütubət pakdır, yoxsa nəcis? Və əgər insan təsadüfən bir müddətdən sonra bu işin baş verməsindən xəbərdar olsa, əvvəllər qıldığı namazların hökmü nədir? O şəxsə gələcəkdə ixtiyarsız olaraq çıxan bu rütubətin barəsində axtarış aparması vacibdirmi?

Cavab: İstibradan sonra rütubət xaric olsa və onun bövl olub-olmamasında şəkk etsələr, onda bu rütubət üçün bövl hökmü yoxdur və pak sayılır. Bu barədə də axtarış, təftiş aparmaq vacib deyildir.

---

Sual: **98**. İmkan daxilində, insandan xaric olan rütubətlərin necəliyi barədə izahat verin.

Cavab: Bəzi vaxtlar mənidən (spermadan) sonra gələn rütubətə "vəzi", bövldən sonra çıxan rütubətə "vədi", ər-arvad arasında olan zarafatlardan sonra çıxan rütubətə isə "məzi" deyilir. Hamısı da pakdır, təharət onların vasitəsilə batil olmaz.

---

Sual: **99.** Tualetin oturacaq yeri qiblə hesab etdiyimiz cəhətlə tamamilə müxalif olan bir cəhətə qoyulmuşdu. Bir müddətdən sonra məlum oldu ki, oturacaq cəhəti qiblə ilə 20-22 dərəcə arasında fərqlidir.

Rica edirəm, bu Suala cavab verəsiniz:

-Oturacaq yerinin cəhətini dəyişmək vacibdir, ya yox?

Cavab: Fərz olunsa ki, qiblədən olan inhiraf bucağının miqdarı o qədərdir ki, artıq qiblədən dönmüş hesab olunur, bu halda heç bir işkal yoxdur.

---

Sual: **100**. Mənim bövlümün məcrasında bir xəstəlik var ki, bövl və istibradan sonra da bövl məndən kəsilmir və rütubət görürəm. Həkimə müraciət etdim, məsləhət gördüyü işləri yerinə yetirdim, lakin faydası olmadı. Mənim vəzifəm nədir?

Cavab: İstibradan sonra bövlün çıxmasındakı şəkkə etina olunmamalıdır. Və əgər bövlün qətrə-qətrə çıxmasına yəqinlik hasil olsa, İmam Xomeyninin (r.ə) risaləsində olan kimi ixtiyarsız sidiyi gələnin vəzifəsinə əməl etməyin vacibdir. Bundan sonra sənin öhdəndə heç bir şey yoxdur.

---

Sual: **101**. İstincadan (ğaitin məxrəcinin paklanmasından) əvvəl olan istibranın keyfiyyəti necədir?

Cavab: İstincadan əvvəl olan istibra ilə istincadan və ğaitin məxrəcini paklamadan sonra olan istibra arasında keyfiyyət cəhətindən heç bir fərq yoxdur.

---

Sual: **102**. Bəzi şirkət və müəssisələrdə işə qəbul olmaq tibbi axtarış icrasına bağlıdır. Bunların da bəzisi övrətin açılmasına şamildir. Bu, işlərə olan ehtiyacla belə caizdirmi?

Cavab: Mükəlləf üçün ona baxan möhtərəm şəxsin[5229] yanında öz övrətini açması caiz deyildir, hətta işə qəbul olmaq ondan asılı olsa da.

Amma əgər işlərin tərk edilməsi onu çətinliyə salsa və bu iş üçün naçar olsa, eybi yoxdur.

## Dəstəmazın hökmləri

---

Sual: **103**. Təharət niyyəti ilə məğrib (şam) namazı üçün dəstəmaz aldım. Bu halda (həmin dəstəmazla) Qurani-Kərimə məss etməyim, həmçinin işa namazını qılmağım caizdirmi?

Cavab: Düzgün dəstəmaz alınandan sonra nə qədər ki, batil olmamışdır, onunla təharət şərt olan bütün əməlləri yerinə yetirmək olar.

---

Sual: **104**. Bir nəfər başına süni tük (parik) qoyur. Onu götürəndə isə əziyyətə düşür. Bu halda parikin üstündən məss etməsi caizdirmi?

Cavab: Süni tüklərə (parikə) məss etmək caiz deyildir. Və vacibdir ki, pariki qaldırıb başın dərisinə məss çəksin. Amma bu, onu çıxaranda, adətən, dözüləsi çətin, məşəqqətli olan dərd irəli gətirsə, (üstündən çəkmək) caizdir.

---

Sual: **105**. Camaatın çoxu deyir ki, dəstəmaz alanda üzə iki ovuc su atmaq lazımdır, üçüncü ovuc isə dəstəmazı batil edir. Bu söz düzdürmü?

Cavab: Üzə iki ovuc, yaxud daha artıq su atmağın eybi yoxdur. Amma üzün, əllərin iki dəfədən artıq yuyulması caiz deyildir.

---

Sual: **106**. Bədənin təbii halda tükdə, yaxud dəridə çıxardığı (ifraz etdiyi) yağlılıqlar suyun keçməsinin qarşısını alırmı?

Cavab: Əgər onun (yağlılığın) miqdarı bir həddə çatsa ki, artıq mükəlləf onu suyun dəriyə, yaxud tüklərə yetişməsi üçün bir maneə hesab edər, yalnız bu halda (əsil maneə) sayılır. Amma əgər belə olmasa, maneə sayılmaz.

---

Sual: **107**. Bir müddət ayaqlarıma barmaqların ucundan yox, ayaqlarımın üstünə və bir az da barmaqların axırına (ayağa birləşən yerinə) məss çəkirdim. Bu məss düzdürmü? Və əgər bunda işkal olsa, onlarla qıldığım namazların qəzasını qılmağım vacibdir, yoxsa vacib deyil?

Cavab: Əgər məss barmaqların üstünü əhatə etməsə, dəstəmaz batildir. (O dəstəmazla qılınan) namazların da qəzasını qılmaq vacibdir. Amma əgər ayağa çəkilən məssin barmaqların üstünü əhatə edib-etməməsində şəkk etsələr, bu halda dəstəmaz da, (onunla qılınan) namazlar da düz sayılır.

---

Sual: **108**. Ayağa məss çəkəndə axırıncı hədd-kəb nədir?

Cavab: Alimlər arasında məşhur olan budur ki, (kəb) ayağın üstündə olan dik yerdir. Lakin ehtiyat vacib budur ki, oynağa qədər məss çəkilsin.

---

Sual: **109**. Dövlətin (İslam dövlətinin) sair İslam ölkələrində tikdiyi məscidlərdə, sərhəd məntəqələrində, hökumət binalarında dəstəmazın hökmü nədir?

Cavab: Bunun eybi yoxdur, şəri cəhətdən də heç bir maneəsi yoxdur.

---

Sual: **110**. Bir neçə dəfə ovucla üzə su atıb bir dəfə yumağın işkalı varmı? Əgər bir neçə ovuc atıb bir dəfə yumağı niyyət etsə, amma bir dəfədən artıq yuyulmaq hasil olsa, bunun hökmü nədir?

Cavab: Meyar niyyət və bir dəfə yumaqdır. Üzə çox su atmağın eybi yoxdur.

---

Sual: **111**. Bir şəxsin mülkündə bir bulaq qaynayır. Biz o suyu boru vasitəsilə, bir neçə kilometr aralıda olan bir məntəqəyə çəkmək istəyirik. Bu vaxt boruların həmin şəxsin torpağından, həmçinin başqalarının mülkü olan yerlərdən keçməsi lazım gəlir. O şəxslərin razı olmadıqları surətdə o bulağın suyundan dəstəmaz, qüsl və s. kimi təharət işləri üçün istifadə etmək caizdirmi?

Cavab: Əgər bulağın özü qaynayırsa və yerdə cərəyan etməzdən əvvəl onun suyu borunun içinə salınıbsa, həmçinin bulağın olduğu yer və başqa yerlərdən (boruların çəkildiyi yerlərdən) istifadə olunubsa, bu sudan istifadə etməyin o halda işkalı yoxdur. Bu şərtlə ki, camaat arasında bu sudan istifadə edilməsi bulağın olduğu yerin, həmçinin başqa yerlərin təsərrüf edilməsi hesab olunmasın.

---

Sual: **112**. Bizim məhəlləmizdə suyun təzyiqi çox aşağı həddədir. Belə ki, yuxarı mərtəbələrdə çox zəif olur. Hətta bəzi vaxtlar yuxarılara su gəlib çatmır. Əslində, aşağı mərtəbələrdə də təzyiq çox zəifdir. Qonşularımızın bəzisi nasos qoyub, bu nasoslar da işləyəndə yuxarı mərtəbələrdə su tamamilə kəsilir. Amma aşağı mərtəbələrdə su kəsilməyəndə onun qüvvəsi o qədər zəifləyir ki, istifadə etmək mümkün olmur. Bu da işimizi dəstəmaz, qüsl vaxtlarında çətinləşdirir, belə ki, bəzi vaxtlar sudan istifadə etmək mümkün olmur. Nasoslar işləməyəndə də sudan qüsl, dəstəmaz və namaz üçün istifadə etmək hamı üçün mümkün olur. Digər tərəfdən su idarəsinin (şəxsi) nasos qoyulmasına razılığı yoxdur. Su idarəsi bu evlərdə nasos olduğundan xəbərdar olduqda ev yiyəsinə xəbərdarlıq edir, sonra nasos götürülməzsə, özləri nasosu götürmək üçün iqdam edirlər. Bu barədə iki Sual vermək istəyirəm. 1. Şəri nöqteyi-nəzərdən şəxsi nasos qoymağa icazə verilirmi? 2. Əgər icazə verilmədiyini fərz etsək, nasos işləyən vaxt qüsl və dəstəmazın hökmü nədir?

Cavab: Fərz olunan halda nasos qoymaq, ondan istifadə etmək caiz deyildir və onunla qüsl, dəstəmaz işkallıdır.

---

Sual: **113**. Namaz vaxtı daxil olmazdan əvvəl alınan dəstəmaz barədə rəyiniz nədir? Siz istiftaatların birində buyurmusunuz ki, namazın əvvəl vaxtına yaxın zamanda alınan dəstəmazla qılınan namaz düzdür. Namazın əvvəl vaxtına yaxın zaman dedikdə, hansı vaxtı nəzərdə tutursunuz?

Cavab: Şərt budur ki, deyilən vaxt camaat arasında “namazın vaxtının daxil olmasına yaxındır” deyilsin.

---

Sual: **114**. Dəstəmaz alan şəxsin ayağına məsh çəkdikdə barmaqların altına da (yol gedəndə yerə toxunan hissəsinə də) məsh çəkmək müstəhəbdirmi?

Cavab: Məshin yeri ayağın üstü, barmaqların ucundan ayağın dik yerinə (oynağa) qədərdir, amma barmaqların altına məsh çəkməyin müstəhəbb olub-olmaması sübut olunmayıb (əsassızdır).

---

Sual: **115**. Əgər dəstəmaz alan şəxs əllərini, üzünü dəstəmaz niyyətilə yuyan vaxt su krantını açıb-bağlasa, bu cür ləms etmənin hökmü nədir?

Cavab: Heç bir eybi yoxdur, dəstəmazın düzlüyünə heç bir zərər yetirməz. Lakin sol əli yuyandan sonra və məsh çəkməzdən əvvəl əlini su ilə nəmlənmiş krantın üstünə qoysa, bu halda əlindəki dəstəmaz suyunun xaricdəki su ilə qarışacağını fərz etsək, dəstəmazın düzgün olması işkallıdır.

---

Sual: **116**. Bəzi qadınlar iddia edirlər ki, dırnaqların üstündə olan rəngin (lakın) dəstəmaza maneəsi yoxdur və həmçinin deyirlər ki, şəffaf və çox nazik corabın üstündən məsh çəkmək olar. Bu barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Əgər rəng (lak) suyun dırnaqlara çatmasına mane olsa, dəstəmaz batildir. Corab da nə qədər şəffaf olsa da belə, üstündən məsh çəkmək düzgün deyildir.

---

Sual: **117**. Onurğa beyninin zədələnməsi nəticəsində sidiyin özbaşına axması xəstəliyinə düçar olan müharibə əlilləri üçün "ixtiyarsız sidiyi axanın dəstəmazı" ilə cümə namazının xütbələrinə qulaq asmaq, cümə və əsr namazlarında iştirak etmək caizdirmi?

Cavab: Belə xəstələr üçün dəstəmaz alan kimi fasiləsiz olaraq namaza başlamaq, həmçinin əsr namazı üçün dəstəmazı təzələmək vacibdir. Amma əgər birinci dəstəmazdan sonra dəstəmazı batil edən bir şey baş verməsə, bu dəstəmaz hər iki namaz üçün kifayətdir. Həmçinin, əgər dəstəmaz alandan sonra onlarda dəstəmazı batil edən bir şey baş verməzsə, xütbədən qabaq aldıqları dəstəmaz cümə namazına da kifayət edər.

---

Sual: **118**. Onurğa beyninin zədələnməsi nəticəsində ixtiyarsız sidikaxma xəstəliyinə tutulan müharibə əlillərinin camaat namazında iştirak etmək üçün dəstəmazdan sonra namazı təxirə salmaları caizdirmi?

Cavab: Əgər dəstəmaz alandan sonra sidiyin arası kəsilməzsə onda vacibdir ki, dəstəmazla namazın arasında fasilə salınmasın.

---

Sual: **119**. Dəstəmaz almağa qadir olmayan bir şəxs dəstəmazı üçün bir nəfəri özünə naib seçir və özü niyyət edir, özü öz əli ilə məsh çəkir. Amma məsh çəkməyə də qadir olmadıqda naibi onun əlindən tutub məsh etdirir. Bunu da etməkdən aciz olsa, naib onun əlindəki rütubəti götürüb ona məsh çəkir. Naib tutan şəxsin əli olmasa, necə etməlidir?

Cavab: Əgər onun əli olmasa (biləyə qədər), naibi onun qolunun (dirsəyə qədərki məsafənin) rütubətindən götürüb məsh çəkməlidir. Əgər onun qolu da olmasa, üzünün suyundan rütubət götürüb, onun başına və ayaqlarına məsh çəkəcək.

---

Sual: **120**. Dəstəmaz almaq istədikdə dəstəmaz suyu tökülən qabın lüləsi olmalıdırmı? (Məsələn, çaydanın lüləsi kimi) Əgər onun lüləsi olmasa, ondan alınan dəstəmaz batildirmi?

Cavab: Dəstəmaz suyu tökülən qabın lüləsi olması lazım deyildir. Kasa suyu ilə dəstəmaz almağın heç bir maneəsi yoxdur, istər suyu o qabdan ələ tökməklə olsun, istərsə də əli onun içinə salıb ovucla götürməklə.

---

Sual: **121**. Cümə namazı qılınan yerin yaxınlığında came məscidinin tabeçiliyində olan bir dəstəmazxana vardır. Onun suyu üçün ödənilən məbləğ məscidin büdcəsindən yox, başqa yerdən təmin olunur. Cümə namazı qılanlar o sudan istifadə edə bilərlərmi?

Cavab: Su ümumi şəkildə namaz qılanların dəstəmazı üçün Allah yolunda ehsan olunduğu halda (dəstəmaz almağın) heç bir işkalı yoxdur.

---

Sual: **122.** Zöhr-əsr namazından əvvəl alınan dəstəmaz məğrib və işa namazları üçün də (əgər pozulmasa) kifayətdirmi? (Halbuki, bu müddət ərzində dəstəmazın pozulmasına səbəb ola biləcək bir iş baş vermədiyini bilirik.) Yoxsa, hər bir namaz üçün ayrıca niyyət və dəstəmaz almaq vacibdir?

Cavab: Nə qədər ki, dəstəmaz batil olmamışdır, bir dəstəmaz ilə istədiyi qədər namaz qıla bilər. Hər bir namaz üçün bir dəstəmaz almaq da vacib deyildir.

---

Sual: **123**. Vacib namazın vaxtı gəlib çatmamış onun üçün dəstəmaz almaq olarmı?

Cavab: Vacibi namazın vaxtı daxil olmazdan azacıq əvvəl həmin namazı qılmaq üçün dəstəmaz almağın heç bir eybi yoxdur.

---

Sual: **124**. Ayaqlarım şil olmuşdur, tibbi çəkmələrin və dəmir başlıqlı iki taxta əsanın köməyi ilə hərəkət edirəm. Dəstəmaz alanda o çəkmələri çıxarmağa heç cür imkanım yoxdur. Rica edirəm, ayaqlarıma məsh edən vaxt mənim şəri vəzifəmin nə olduğunu buyurasınız. </s>

Cavab: Ayaqlara məsh çəkmək üçün çəkmələrin çıxarılması sənə əziyyət versə, elə onun üstündən məsh çəkmək düz və kifayətdir.

---

Sual: **125**. (Çöldə) bir yerə çatdıq, bir neçə ağac (bir ağac təxminən 6 km) miqdarında məsafədə su axtardıq, nəhayət bulaşıq su tapdıq. Bu halda bizə təyəmmüm etmək vacibdir, yoxsa o su ilə dəstəmaz almaq?

Cavab: Əgər su pak olsa və onu işlətməyin heç bir zərəri olmazsa, onunla dəstəmaz almaq vacibdir. Belə olan halda təyəmmümə ehtiyac yoxdur.

---

Sual: **126**. Dəstəmaz öz-özlüyündə müstəhəbdirmi? “Qurbətən iləllah” niyyəti ilə namazın vaxtı daxil olmamışdan qabaq dəstəmaz almaq, həmçinin sonra elə bu dəstəmazla qılınan namaz düzdürmü?

Cavab: Təharətli olmaq niyyətilə alınan dəstəmaz şəri nöqteyi-nəzərdən üstün sayılır, müstəhəbbi dəstəmazla namaz qılmaq da caizdir.

---

Sual: **127**. Öz dəstəmazında daimi olaraq şəkk edən şəxs məscidə necə getsin, necə namaz qılsın, necə Quran oxusun və Məsumların qəbirini necə ziyarət etsin?

Cavab: Dəstəmaz aldıqdan sonra təharətdə şəkk etməyin etibarı yoxdur. O kəsin nə qədər ki, dəstəmazının pozulmasına yəqinliyi yoxdur namaz qılması, Quran oxuması caizdir.

---

Sual: **128**. Dəstəmazın düz olmasında suyun qolun bütün nöqtələrində cərəyan etməsi (axması) şərtdirmi, yoxsa elə rütubətli əllə (ələ) çəkmək kifayətdir?

Cavab: Yuyulmaq dedikdə əsas şərt suyun bütün (dəstəmaz) üzvülərinə çatdırılmasıdır. Hətta suyun bütün üzvlərə çatıdırılması əllə çəkilməklə də olsa belə. Amma təkcə rütubətli əlin çəkilməsi kifayət deyil.

---

Sual: **129**. Dəstəmaz aldıqda başa məsh çəkmək sol əlin rütubəti ilə (sağ əllə caiz olduğu kimi) caizdirmi? Həmçinin, başa aşağıdan yuxarı məsh çəkmək caizdirmi?

Cavab: Başa sol əllə məsh çəkməyin eybi yoxdur, hərçənd müstəhəb ehtiyat sağ əllə çəkməkdir: həmçinin müstəhəb ehtiyat başa yuxarıdan aşağı məsh çəkməkdir, hərçənd aşağıdan yuxarıya doğru çəkmək də kifayətdir.

Sual: **130**. Başa məsh çəkdikdə tüklərin rütubətli olması kifayətdirmi, yoxsa əldəki rütubətin başın dərisinə çatması vacibdir? Və süni tükdən (parikdən) istifadə edən şəxs başına necə məsh çəkməlidir?

Cavab: Başın dərisinə məsh çəkmək vacib deyildir. Süni tükün (parikin) çıxarılması qeyri-mümkün olsa, onun üstünə məsh çəkmək kifayətdir.

---

Sual: **131**. Qüsl və dəstəmazda üzvlər arasında zaman cəhətindən fasilə salmağın hökmü nədir?

Cavab: Zaman cəhətindən qüsldə fasilə salmağın (muvalata riayət etməməyin) eybi yoxdur. Amma dəstəmazda əgər dəstəmazı qurtarmağın yubadılması (bir üzvü yuyanda) ondan əvvəlki üzvün qurumasına gətirib çıxararsa, dəstəmaz batildir.

---

Sual: **132**. Daim mədə yeli (amma çox az) çıxan adamın namaz və dəstəmazda vəzifəsi nədir?

Cavab: Belə şəxs üçün namazın axırına kimi dəstəmazı qalacağı bir zaman fasiləsi olmazsa və namaz əsnasında dəstəmazını təzələməsi də ona çətin olsa, bu halda bir dəstəmazla bir namaz qılmasının eybi yoxdur. Yəni bir dəstəmaz bütöv bir namaz qılmaq üçün -hətta namaz əsnasında dəstəmazı batil olsa da belə- kifayətdir.

---

Sual: **133**. Bir yaşayış məhəlləsində bir dəstə camaat yaşayır. Lakin, onların bəziləri qapıçının, həmçinin onlara verilən isti və soyuq suyun, havatəmizləyənin və həmçinin sair xidmətlərin pulunu ödəməkdən imtina edirlər. Qeyd olunan xidmət növlərinin maliyyə pulunun yükünü öz qonşularının boynuna atan (qonşuların razılığı olmadan) şəxslərin oruc-namazları və sair ibadət əməlləri İslam şəriəti nöqteyi-nəzərindən batildirmi?

Cavab: Şəriət nöqteyi-nəzərindən o şəxslərin hər biri (pulu) qaytarılması vacib olan şeylər, ümumi xidmətlərdən istifadə qarşısında borcludurlar. Əgər onların məqsədləri suyun pulunu verməkdən boyun qaçırmaq - həm də o sudan qüsl və dəstəmaz almaq niyyəti ilə- olsa, onların qüsl və dəstəmazları işkallı və hətta batildir.

---

Sual: **134**. Bir şəxs cənabət qüslü almışdır. 3-4 saatdan sonra isə namaz qılmaq istəyir, amma bilmir ki, qüslü batil olmuşdur, yoxsa yox. O şəxs ehtiyatən dəstəmaz alsa, bir işkal qabağa gələr, yoxsa yox?

Cavab: Qeyd olunan surətdə dəstəmaz almaq vacib deyildir, amma ehtiyata əməl etməyin heç bir maneəsi yoxdur.

---

Sual: **135**. Həddi-büluğa çatmayan kiçik uşaq hədəsi-əsğərdən (bövl, ğait, hava) mühdis (təharətsiz) olurmu? Və onun Qurani-Kərimin yazısına məss etməsi caizdirmi?

Cavab: Bəli, kiçik uşaq dəstəmazı batil edən şeylərin hasil olması ilə mühdis (təharətsiz) olur. Lakin mükəlləf bir şəxsin onu Quranın yazılarına məss etməyə qoymaması vacib deyildir.

---

Sual: **136**. Dəstəmaz üzvlərindən biri üz yuyulandan sonra, lakin dəstəmaz qurtarmazdan əvvəl nəcis olsa, onun hökmü nədir?

Cavab: Bu (nəcisolma) dəstəmazın düzlüyünə zərər yetirmir. Amma namaz qılmaq üçün təharət hasil olsun deyə, o üzvü paklamaq vacibdir.

Sual: **137**. Ayaqların üstündə olan bəzi damlalar oraya məsh etməyə zərər yetirərmi?

Cavab: Məsh olunan yerdəki su damcılarını qurutmaq vacibdir, belə ki, məsh edən (əlin) təsiri məsh olunanda (ayaqda) görünsün, amma əksinə olmasın.

---

Sual: **138**. Əgər məsələn, sağ əl kökündən kəsilmiş olsa, sağ ayağa məsh çəkmək boynumuzdan düşürmü?

Cavab: Xeyr, düşmür, bu halda sağ ayağa sol əllə məsh çəkmək lazımdır.

---

Sual: **139**. Öz dəstəmazının batil olmasını bilməyən, dəstəmaz alıb qurtardıqdan sonra başa düşən adam nə etməlidir?

Cavab: Dəstəmazı təzələməsi vacibdir, həmçinin yerinə yetirilməsi təharətlə şərtlənən əməlləri (namaz kimi) də yenidən yerinə yetirməsi vacibdir.

---

Sual: **140**. Əgər insanın dəstəmaz üzvlərində (əl, üz, baş, ayaqda) həmişə qanaxma verən bir yara olsa, (hətta dəstəmaz alanda yaranın üstünə cəbirə (parça) qoysa) necə dəstəmaz almalıdır?

Cavab: O şəxsə vacibdir ki, yaranın üstünə aralarından qan keçməyən bir cəbirə (neylon kimi) qoysun.

---

Sual: **141**. İrtimasi[5230] dəstəmazda əlləri və üzü suya bir neçə dəfə salmaq caizdirmi, yoxsa yalnız iki dəfə caizdir?

Cavab: (İrtimasi dəstəmaz alan şəxs üçün) əlləri və üzü suya iki dəfə: birinci dəfə vacib yuyulma niyyəti ilə, ikinci dəfə isə mütəhəb niyyəti ilə salmaq caizdir. Amma əlləri sudan çıxaranda -dəstəmazın məshi onun suyu ilə olunması mümkün olsun deyə- (əlləri) yumağın qəsd olunması vacibdir.

---

Sual: **142**. Dəstəmazdan sonra rütubəti qurulamaq məkruhdurmu və bunun müqabilində (o rütubəti) qurulamamaq müstəhəbdirmi?

Cavab: Bu əməl üçün bir dəsmal, yaxud xüsusi bir parça təyin etsə, bunun eybi yoxdur.

---

Sual: **143**. Qadınların başlarını, qaşlarını rəngləmək üçün istifadə etdikləri süni rəng dəstəmaz və qüslə maneçilik törədirmi?

Cavab: (Bu rənglərdə) suyun tüklərə yetişməsinin qarşısını ala biləcək bir maddə olmazsa və təkcə rəng olsa, bu halda namazı, qüslləri və dəstəmazları düzdür.

---

Sual: **144**. Qaşları rəngləyərkən, rəngin (sürmənin) əlin üzərinə düşməsi dəstəmazı batil edirmi?

Cavab: Əgər o, suyun dəriyə yetişməsinin qarşısını alsa, dəstəmaz batildir. Bu məsələnin (dəriyə çatıb-çatmamasının) ayırd edilməsi mükəlləfin öhdəsinədir.

Sual: **145**. Başın məshinin rütubəti üzün rütubətinə qarışsa, dəstəmaz batildirmi?

Cavab: Bunun işkalı yoxdur, lakin ehtiyat budur ki, ayaqların məshi əllərdə qalan dəstəmaz rütubəti ilə olsun. Bu ehtiyata görə başa məsh çəkərkən əlin, alnın yuxarı hissəsinə gəlib çatmamasını gözləmək lazımdır ki, ayağa məsh çəkmək üçün lazım olan rütubət üzün rütubəti ilə qarışmasın.

---

Sual: **146**. Dəstəmaz alması camaat arasında adət olan dəstəmaz vaxtından çox vaxt tutan şəxs (vəsvas) dəstəmaz üzvlərinin yuyulmasını yəqin etmək üçün nə etməlidir?

Cavab: Vəsvəsədən çəkinməsi vacibdir. Şeytanı məyus etmək üçün onun vəsvəsəsinə etina etməməli, şəri cəhətdən vacib olan qədər yumaqla kifayətlənməlidir (sair şəxslər kimi).

---

Sual: **147**. Bədənimin bəzi yerlərində bir növ xal əmələ gəlib. Deyirlər ki, qüslün, dəstəmazın, namazın batildir. Ümidvaram ki, bu barədə mənə yol göstərəsiniz.

Cavab: Əgər xal yalnız rəngdən ibarət olarsa və həmçinin, dərinin üzərində suyun ona çatması üçün mane olacaq bir şey olmazsa, qüsl və dəstəmaz düzdür, namazda da heç bir işkalı yoxdur.

---

Sual: **148**. Bir nəfərdə bövl və məni arasında (bövl və istibra edəndən, dəstəmaz alandan sonra) şübhəli rütubət xaric olsa, onun hökmü nədir?

Cavab: Bu Sual fərz olunan halda vacibdir ki, təharətli olmağa dair yəqinlik hasil olsun deyə, həm qüsl alsın, həm də dəstəmaz alsın.

---

Sual: **149**. Lütfən kişilərlə qadınların dəstəmazları arasındakı fərqi buyurun.

Cavab: Dəstəmazın işləri, alınma tərzi və keyfiyyətində kişilərlə qadınlar arasında heç bir fərq yoxdur, amma müstəhəbdir ki, kişilər qollarını yuyanda qolun arxasından, dirsəkdən, qadınlar isə içəri tərəfdən (dirsəyin bükülən yerindən) başlasınlar.

## Allah-təala adlarına, onun ayələrinə məss etmək (əl sürtmək)

---

Sual: **150.** Allah-Təala adını göstərən əvəzliklərə "Bismihi Təala"-dakı kimi ("Bismihi"-dəki "hi") məss etməyin hökmü nədir?

Cavab: Allah-Təala adına qayıdan əvəzliklərdə Ləfzi-cəlalə (Allah kəlməsi) hökmü yoxdur.

---

Sual: **151**. Allah kəlməsini yazanda "...ərəbi" (necə ki, Ayətullah kəlməsini ...ərəbi kimi yazırlar), yaxud "İlah" sözlərindən istifadə olunur. Dəstəmazı olmayan şəxsin bu iki kəlməyə (həmzədən sonra 3 nöqtə və "İlah") məss etməsinin hökmü nədir?

Cavab: Həmzə və 3 nöqtədə Ləfzi-cəlalənin hökmü yoxdur, amma "İlah" kəlməsində bu hökm vardır.

---

Sual: **152**. Mən işlədiyim yerdə bütün məktublarda “Allah” kəlməsi «...ا» (həmzə və 3 nöqtə) şəklində yazırlar. Şəri nöqteyi-nəzərdən Ləfzi-cəlalənin (Allah kəlməsinin) yerinə həmzə və 3 nöqtə («...ا») yazılması düzgündürmü?

Cavab: Bu cür yazılışda şəri cəhətdən heç bir maneə yoxdur.

---

Sual: **153**. Dəstəmazsız adamın ləms etməsi ehtimalı ilə Ləfzi-cəlalənin (ərəbi) əvəzinə onu (ərəbi) formasında yazmaq caizdirmi?

Cavab: Bunun heç bir eybi yoxdur.

---

Sual: **154**. Korlar yazıb-oxumağı braal adı ilə məşhur olan uca xəttlərə əl sürtməklə yerinə yetirirlər. Məlumdur ki, bu süni xətt (qrafika) altı nöqtədən təşkil olunub. Lütfən cavab verin ki, korların Qurani-Kərimin qiraətini öyrənən vaxt, həmçinin həmin qrafika ilə yazılmış pak adlara ləms edəndə dəstəmazlı olmaları lazımdırmı?

Cavab: Əsli hərflər üçün əlamət sayılan uca nöqtələrdə əsl hərflərin hökmü yoxdur. Bəzi yerlərdə onlara ləms etmək (nöqtələrin Qurani-Kərimin hərfləri üçün, həmçinin pak adlar üçün bir əlamət kimi işlədildiyi hallarda) hədəsdən[5231] pak olmaqla şərtlənmir.

---

Sual: **155**. “Allah” kəlməsi olan (məsələn, Əbdüllah, Həbibullah) xüsusi isimlərə dəstəmazsız adamın məss etməsinin hökmü nədir?

Cavab: Təharətli olmayan şəxsin Ləfzi-cəlaləni (ərəbi kəlməsini) ləms etməsi (hətta mürəkkəb ismin bir hissəsi olsa da belə) caiz deyildir.

---

Sual: **156**. Heyz olan qadın üçün üstündə Peyğəmbərin (s) mübarək adı yazılan boyunbağı asmaq caizdirmi?

Cavab: Boyuna o cür (Peyğəmbərin (s) adı yazılan) boyunbağı salmağın işkalı yoxdur. Amma bu halda vacibdir ki, o ad bədənə toxunmasın.

---

Sual: **157.** Qurani-Kərimin yazılarına təharətsiz halda məss etməyin haram olması yalnız şərif Quranın yazılarında olan haldadır, yoxsa bu hökm başqa bir yazıda, lövhədə, divarda və s. də vardır?

Cavab: Bu hökm təkcə Qurani-Şərifin yazısına aid deyil, həmçinin Qurana məxsus olan hər kəlməyə, ayəyə də şamildir - hətta (Qurandan) başqa bir kitabda, qəzetdə, jurnalda, lövhədə, divarda və başqa yerlərdə həkk olunsa da belə.

---

Sual: **158**. Bir ailə düyü yemək üçün üzərində Quran ayəsi (Ayətəl-kürsü) yazılmış qabdan istifadə edir, məqsədləri də xeyir-bərəkətin hasil olmasıdır. Bunun işkalı var, ya yox?

Cavab: İşkalı yoxdur. Amma vacibdir ki, dəstəmazsız şəxslər əlini Quran ayələrinə vurmasınlar.

---

Sual: **159**. Kitabət (yazı) avadanlıqları vasitəsi ilə Allahın adlarını, Quran ayələrini və Məsumların (ə) adlarını yazan şəxslər üçün yazı yazdıqları vaxt dəstəmazlı olmaları vacibdirmi?

Cavab: (Yazı yazma vaxtı) təharət şərt deyildir, amma təharətsiz o yazılara məss etmələri caiz deyildir.

---

Sual: **160**. Üzərində Quran ayəsi yazılmış poçt vərəqlərindən istifadə etməyin hökmü nədir? Həmçinin Ləfzi-cəlaləni (ərəb), Allahın sair adlarını, Quran ayələrini, içərisində Quran ayələri olan müəssisə möhürlərini gündəlik nəşr olunan qəzet və jurnallara vurmağın hökmü nədir?

Cavab: Quran ayələrini, Ləfzi-cəlalə adlarını və s. çap və nəşr etməyin heç bir eybi yoxdur. Lakin bunları əlinə alan şəxsə vacibdir ki, bunlar barəsində olan şəri hökmləri (hörmətsizlik etməkdən, nəcisə bulaşdırmaqdan, təharətsiz əl vurmaqdan ictinab etmək kimi) nəzərə alsın.

---

Sual: **161**. Bəzi səhifələrdə İsmi-cəlalə, bəzi Quran ayələri yazılmışdır. Onlarla yeyilən şeyləri bükmək, yaxud üstündə oturmaq, yeməyin altına qoymaq, üstündə xörək yemək olarmı? Lazımsız olduqda tullamaq (onu tullamaqdan başqa çarə olmamasını nəzərə almaqla) olarmı?

Cavab: Bu səhifələrdən istifadə etmək, bu iş camaat arasında hörmətinin qorunması vacib olan Allah adı, Quran ayələrinə qarşı hörmətsizlik sayılmazsa, həmçinin nəcasətə bulaşası bir yerə qoymaq sayılmazsa işkalı yoxdur.

---

Sual: **162**. Üstündə Allahın adı olan poçt kağızlarını kağız yeşiyinə atmağın hökmü nədir? Və onlara dəstəmazsız məss etmək düzgündürmü?

Cavab: Ləfzi-cəlaləyə dəstəmazsız məss etmək, onu nəcisləmək, yaxud hörmətsizlik olunmasına səbəb olacaq bir yerə atmaq caiz deyildir.

---

Sual: **163**. Üzüklərin üstündə həkk olunan kəlmələrə məss etmək caizdirmi?

Cavab: (Üzüyün üstündə olan) kəlmələr məssinin caizliyi təharətlə şərtlənən kəlmələrdən olsa, bu halda təharətsiz onlara məss etmək caiz deyildir.

---

Sual: **164**. Məhəllə camaatı üçün aldıqları şeyləri qəzetə bükmək caizdirmi? (Halbuki o qəzetdə Allahın adları olmasını bilirik.) Və o qəzetə dəstəmazsız məss etmək olarmı?

Cavab: Nə qədər ki bu iş (aldıqlarını qəzetlərə bükmək) onların üstündə yazılan Allahın adına, Quran ayələrinə, İmamların (ə) adlarına qarşı hörmətsizlik sayılmır, onlardan bu iş üçün istifadə etmək caizdir, lakin dəstəmazsız bir adamın ondakı adlardan xəbərdar olduğu halda o adlara məss etməsi caiz deyildir.

---

Sual: **165**. Peyğəmbərlərin adlarını, Quran ayələrini qəzetlərdə dərc etməyin, o qəzetlərin yandırılması, əllərdə olması, yaxud ayaq altına düşməsini ehtimal verməklə belə hökmü nədir?

Cavab: Şəri nöqteyi-nəzərdən Quran ayələrinin, Məsumların (ə) adlarının qəzetlərdə, jurnallarda və s. yazılmasının heç bir eybi yoxdur. Lakin vacibdir ki, hörmətsizlik olunmaqdan, nəcasətə bulaşmaqdan, təharətsiz məss etməkdən qorunsun.

---

Sual: **166**. Allahın adı olan şeyləri çaya, kanala atmağın hökmü nədir? Və bu iş hörmətsizlik sayılırmı?

Cavab: Onu çaya, kanala atmağın camaat arasında hörmətsizlik sayılmazsa, eybi yoxdur.

---

Sual: **167**. Lazımsızlaşmış imtahan vərəqələrini zibil qabına atmaqda, yaxud yandırmaqda onların üzərində Allahın, yaxud Məsumların adlarının olub-olmamasını dəqiqləşdirmək şərtdirmi və üstündə yazı yazılmayan vərəqləri tullamaq israf sayılırmı?

Cavab: Bu işdə axtarış aparmaq vacib deyildir. Bu vərəqlərdə Allahın adının olması aşkar olmazsa, bu halda onların tullanmasının heç bir eybi yoxdur. Amma bir hissəsi yazılan, qalan hissəsində isə bəzi yazılar yazmaq üçün istifadə edilməsi mümkün olan, yaxud kağız-karton sənayesində istifadə oluna bilən kağızların yandırılmasında, tullanmasında israf şübhəsi vardır, həmçinin (bu iş) işkallıdır.

---

Sual: **168**. Dəstəmazsız məss olunması haram olan, həmçinin ehtiram qoyulması vacib olan mübarək adlar (əl-Əsmaül-Mübarəkə) hansılardır?

Cavab: Allah-Təalanın adlarına, Ona xas olan sifətlərin adlarına dəstəmazsız məss etmək caiz deyildir. Ehtiyat budur ki, peyğəmbərlərin, məsum imamların da adları deyilən hökmdə (dəstəmazsız məssin caiz olmamasında) Allahın adları kimi olsun.

---

Sual: **169**. Peyğəmbərlərin, məsum imamların adları və ləqəblərinin hökmləri nədir?

Cavab: Ehtiyat budur ki, onlara da dəstəmazsız məss edilməsin.

---

Sual: **170**. Bizim yanımızda səfirlik təsis olunan vaxtdan daxili müəssisələr tərəfindən bizə göndərilən çoxlu və cürbəcür qəzetlər yığılıb qalmışdır. Onların səhifələrinin çoxunda Allahın adları və bu kimi adlar vardır. Onların hifz olunması kimi bir müşkülün həlli yolunu buyurun.

Cavab: Onları yerdə basdırmağın, əgər hörmətsizlik olmazsa, çölə qoymağın heç bir işkalı yoxdur.

---

Sual: **171**. Lazım gəldikdə Əsmaül-Mübarəkəni, (mübarək adları), Quran ayələrini məhv etmək üçün şəri yollar hansılardır? Və həmçinin üzərində İsmi-cəlalə (ərəbi), Quran ayəsi yazılan vərəqləri yandırmağın, zəruri halda onları məhv etmək lazım gəldikdə (sirrin saxlanması naminə) hökmü nədir?

Cavab: Onları torpaqda basdırmağın, yaxud su ilə qarışdırmağın heç bir eybi yoxdur. Amma yandırmaq məsələsinə gəldikdə isə bu, işkallıdır. Və əgər hörmətsizlik sayılsa, caiz deyildir. Lakin zərurət bunu (yandırmağı) tələb etsə və Allahın adını, Quran ayələrini kəsib götürmək müəssər olmasa, onda eybi yoxdur.

---

Sual: **172**. Allahın adlarını, Quran ayələrini çox-çox doğramaq belə ki, hətta bir-birinə bitişmiş olan iki hərf bir yerdə qalmasa və nəticədə oxunması mümkün olmasa, bu halda onları məhv edib hökmünü aradan qaldırmaq üçün onun xətti yazılarının formasını başqa hərflər artırmaqla, yaxud bəzi hərfləri çıxarmaqla dəyişmək kifayətdirmi?

Cavab: Ləfzi-cəlalənin, Quran ayələrinin yazısının məhv olunmasına səbəb olmayan tərzdəki doğranma kifayət deyildir. Həmçinin, Ləfzi-cəlalə niyyəti ilə yazılan hərflərdən hökmü aradan götürmək üçün onların xətti surətini dəyişdirmək kifayət deyil. Bəli, hərfin surətini dəyişdirməkdə hökmün aradan getməsi - məhv edilməyə aid olunmaq üçün mümkündür. Baxmayaraq ki, ehtiyat bu işdən də çəkinməkdir.

## Cənabət qüslunun hökmləri

---

Sual: **173**. Əgər vaxt dar olsa, cunub (boynunda cənabət qüslü olan) şəxs bədəni, paltarı nəcis olan bir halda, təyəmmüm ilə namaz qıla bilərmi, yoxsa qüsl alıb, paklanandan sonra namazın qəzasını qılmalıdır?

Cavab: Əgər bədəni, paltarı paklamaq üçün, paltarı dəyişmək üçün vaxt olmasa və havanın soyuq olduğuna görə və s. çılpaq halda namaz qıla bilməzsə, cənabət qüslunun yerinə təyəmmüm alıb, namaz qılmalıdır. Bu namaz onun üçün kifayətdir və qəzasını qılmaq da vacib deyil.

---

Sual: **174**. Qadınlar möhtəlim[5232] olanda hansı halda onlara cənabət qüslü vacibdir? Və kişilər qadınlarla mazaqlaşanda qadınlardan çıxan rütubət məni hökmündədirmi? Buna əsasən də, onlara qüsl vacibdirmi? Halbuki, (qadının) bədənində süstlük hasil olmamış, ləzzət həddinə çatmamışdır. Ümumiyyətlə qadınlarda cinsi əlaqə olmadan cənabət necə yaranır?

Cavab: Qadın oyanandan sonra paltarında mənidən bir əsər-əlamət görsə, cənabət qüslu ona vacibdir. Lakin, əri ilə mazaqlaşmadan sonra xaric olan rütubət məni hökmündə deyildir. Lakin o rütubətlə birlikdə bədən süstləşsə və son dərəcədə ləzzət aparsa, (məni hökmündədir.)

---

Sual: **175**. Cavan qızlarda ixtiyarsız olaraq rütubət xaric olsa, onlara cənabət qüslu vacibdirmi? Həmçinin, bu rütubət mənidirmi və qüsla ehtiyacı vardırmı, yoxsa bu rütubət şəhvətlə birlikdə olduqda qüsla səbəb olur?

Cavab: Əgər rütubətin çıxması şəhvət üzündən olsa və onunla yanaşı olsa, məni olmasına hökm olunur, cənabətə səbəb olur. Hətta, əgər şəhvət ixtiyarsız olsa da belə.

---

Sual: **176**. Qızların eşq-məhəbbətə dair kitab oxumaqla, yaxud başqa səbəblə şəhvətləri cuşa gəlsə, qüsl vacibdirmi? Əgər qüsl vacibdirsə, onda hansı qüsl vacib olar?

Cavab: Şəhvət yaradan kitabları oxumaq caiz deyildir. Amma hər halda, məni xaric olsa, onlara cənabət qüslu vacibdir.

---

Sual: **177**. Qadın mazaqlaşan halda şəhvətlə birlikdə suyun axmasını hiss etsə, ona cənabət qüslu vacibdirmi?

Cavab: Əgər qadın özündən məni axmasını bilsə, ona qüsl vacibdir. Həmçinin, ondan axan suyun məni olub-olmamasında şəkk etsə, (və o su) şəhvətlə birlikdə olsa (yenə qüsl vacibdir).

---

Sual: **178**. Əgər qadın öz əri ilə cinsi əlaqədə olduqdan dərhal sonra qüsl etsə və kişinin mənisi onun bətnində qalsa, qüsldan sonra məni çölə gəlsə, qadının qüslu düzdürmü? Və bu qüsldan sonra xaric olan məni pakdır, yoxsa nəcis?

Cavab: Necə olursa olsun, qadından çıxan məni nəcisdir, lakin qadının qüslundan sonra çıxan məni kişinin mənisi olsa, ikinci dəfə olaraq cənabətə səbəb olmaz.

---

Sual: **179**. Heyz halında cənabət qüslu düzdürmü, belə ki, bu qüsl cünub olan qadının vəzifəsini boynundan götürsün?

Cavab: Fərz olunan halda qüslun düzlüyü işkallıdır.

---

Sual: **180**. Heyz halında cünub olan qadına (heyzdən) pak olandan sonra cənabət qüslu vacibdirmi, yoxsa (cənabət) qüslu (heyzdən) pak olmadığı üçün vacib deyildir?

Cavab: Heyz qüslu edəndən sonra cənabət qüslu də vacibdir; həm də təkcə cənabət qüslu ilə kifayətlənməsi caizdir. Lakin ehtiyat budur ki, hər iki qüslu niyyət etsin.

---

Sual: **181**. Hansı halda insandan çıxan rütubət məni hökmündədir?

Cavab: Əgər şəhvətlə eyni zamanda, bədənin süstləşməsi ilə, sıçrayışla olsa, məni hökmündədir.

---

Sual: **182**. Bəzi hallarda qüsl aldıqdan sonra əlin, ayağın dırnaqlarının ətrafında sabun qalıqları müşahidə olunur. Həmçinin, hamamın içində qüsl edən zaman görünməyən, amma hamamdan çıxıb baxandan sonra görünməyə başlayan sabunun ağlığında vəzifəmiz nədir? Halbuki, bəzi şəxslər qüsl və dəstəmaz alırlar, lakin bunu bilmirlər, yaxud diqqət yetirmirlər. Suyun da bu ağlığın altına keçməsi barədə yəqinliyimiz yoxdur.

Cavab: Sırf şəkildə ağ bir təbəqənin varlığı, yaxud bədən üzvlərinin qurumasından sonra zahir olan sabun dəstəmazın, qüslun düz olmasına zərər yetirməz. Amma, bu ağlıq üçün "dərinin yuyulmasının qarşısını alır" deyilsə, zərər yetirər.

---

Sual: **183**. Kişi arvadını öpəndə, onunla mazaqlaşanda xaric olan rütubətin hökmü nədir?

Cavab: Əgər onun çıxması sıçrayışla olmasa və bədən də süstləşməsə, məni hökmündə deyildir.

---

Sual: **184**. Qardaşlardan biri deyir ki, qüsldan əvvəl bədəni nəcasətdən paklamaq lazımdır və qüsl əsnasında paklamaq (məninin paklanması kimi) qüslu batil edir. Onun dediyini düz hesab etsək, keçmişdəki namazlarım batildirmi və qəzasını yerinə yetirmək vacibdirmi? Halbuki, bu məsələni bilmirdim.

Cavab: Bədəni paklamaq üçün olan yuyunmağın cənabət üçün olan qüsldan ayrılması vacibdir. Lakin qüsla başlamazdan əvvəl bədənin hər yerini paklamaq vacib deyildir. Hər bir üzvə qüsl verdikdə qüsl vaxtı pak olması kifayətdir. Buna əsasən, bir üzv ona qüsl etməzdən əvvəl pak olsa, qüsl və onunla qılınan namaz düzdür. Amma, əgər bir üzv qüsl ediləndən əvvəl paklanmazsa, qüsl də, onunla qılınan namaz da batildir, qəzasını qılmaq da vacibdir.

---

Sual: **185**. İnsan yuxuda olanda ondan çıxan rütubət məni hökmündədirmi? Halbuki, onda üç əlamətdən heç biri (sıçrayışla çıxma, şəhvət və bədənin süstlüyü) irəli gəlməmişdir. Bu rütubətdən də yalnız yuxudan ayılandan, alt paltarlarında rütubət görəndən sonra xəbərdar olmuşdur.

Cavab: Rütubət möhtəlim olmanın nəticəsi olaraq xaric olsa, yaxud onun məni olmasına dair yəqinlik hasil olsa, bu halda məni hökmündədir, cənabətə səbəb olar.

---

Sual: **186**. Mən bir cavan oğlanam, yoxsul bir ailədə yaşayıram. Məndən çox vaxt məni xaric olur. Atamdan hamam pulunu almağa xəcalət çəkirəm, evimizdə də hamam yoxdur. Rica edirəm, bu barədə mənə yol göstərəsiniz.

Cavab: Şəri vəzifələri yerinə yetirməkdə xəcalətin yeri yoxdur. Xəcalət çəkmək vacib əməli tərk etmək üçün şəri bir üzr deyildir. Hər halda, əgər səndə cənabət qüslu almaq üçün imkan olmasa, vəzifən namaz və oruc üçün qüsl əvəzinə təyəmmüm etməkdir.

---

Sual: **187**. Məhrumiyyətdə yaşayan kəndlərin birində hamam köhnəlib xarab olduğuna görə uzun müddət işləmədi. Oranın camaatı nəzafət, paklıq işlərində çətinliklə qarşılaşdılar. Biz də bu cəhətdən olan təzyiq nəticəsində təmir idarəsinə yazılı tələbnamə göndərdik. Lakin biz yazdıq ki, (guya) kəndimizin hamamı qar-yağış yağması nəticəsidə dağılmış, artıq təmir olunası deyildir. Bizə təzə bir hamam lazımdır. Təmir idarəsi də bunun nəticəsində məhrum məntəqələrə məxsus olan büdcədən bir məbləğ pul ayırdı, o pulu tikinti idarəsinin ixtiyarında qoydu, hamam tikildi. Yuxarıda qeyd olunanlara əsasən, o hamamda paklanmaq, qüsl almaq üçün istifadə etməyin şəri nöqteyi-nəzərdən işkalı varmı?

Cavab: Hərçənd ki, həqiqətin xilafına elan etmək, xəbər vermək caiz deyildir. Lakin fərz olunan surətdə camaatın o hamamdan istifadə etməsinin heç bir işkalı yoxdur.

---

Sual: **188**. Mən bir müşküllə qarşılaşmışam: su, hətta bir damcı da belə olsa, mənim bədənimə zərər yetirir. Hətta məsh etmək də belədir. Qüsl alanda, hətta bədənimin bir hissəsini də belə yuyanda qəlbimin döyünməsi şiddətlənir. Bundan əlavə, başqa nəticələri də olur. Bu halda öz arvadımla yaxınlıq etməyim caizdirmi? Halbuki, bir neçə ay qüsl yerinə təyəmmüm edib namaz qılmışam, məscidə daxil olmuşam.

Cavab: Sənin üçün öz arvadınla yaxınlıq etməyi tərk etmək vacib deyildir. Cünub olandan sonra cənabət qüslu almaqda üzrlü olsan, bu halda təharətlə görüləsi işlər üçün qüsl əvəzindən təyəmmüm almalısan. Bu sənin şəri vəzifəndir. Təyəmmüm aldıqdan sonra məscidə daxil olmaq, namaz qılmaq, həmçinin Quranın yazılarına məss etmək, cənabət hədəsindən pak olmaq şərt olan sair işlər görmək olar.

---

Sual: **189**. Vacibi, yaxud müstəhəb qüsl alan zaman qibləyə üz çevirmək vacibdir, ya yox?

Cavab: Qüsl alanda qibləyə doğru üz çevirmək vacib deyil.

---

Sual: **190**. Hədəsi-əkbərdən (cənabət qüslu) alınmış su ilə yenidən qüsl almaq, qüslun qəlil (az) su ilə olduğunu və qüsldan əvvəl də bədənin pak olduğunu bildiyimiz halda- düzgündürmü? Həmçinin, ər-arvadın hər biri üçün digərinin hədəsi-əkbərin qüsl suyundan istifadə etməsi düzgündürmü?

Cavab: Əgər hədəsi-əkbərin qüslundan çıxan su pak olsa, onunla qüsl almağın, həmçinin ər-arvadın hər birinin qüsl suyundan istifadə etməsinin işkalı yoxdur.

---

Sual: **191**. Cənabət qüslu alan şəxsdən qüsl əsnasında hədəsi-əsğər (sidik, yel və s.) hasil olsa, qüslu təzədən, əvvəldən başlamalıdır, yoxsa elə həmin qüslu tamamlayıb dəstəmaz almalıdır?

Cavab: Bu halda qüslu əvvəldən başlamaq vacib deyil, (hədəsi-əsğərin qüslda heç bir təsiri yoxdur) lakin bu cür qüsl namaz üçün, həmçinin hədəsi-əsğərdən pak olmaqla şərtlənən digər əməllər üçün kifayət deyildir. (Dəstəmaz almaq lazımdır.)

---

Sual: **192**. Məniyə oxşayan bulanıq rütubət, həmçinin insanın bövldən sonra gördüyü, lakin şəhvət üzündən olmayan, ixtiyarsız olan rütubət məni hökmündədirmi?

Cavab: O, məni hökmündə deyildir. Amma, əgər buna (məni olmasına) dair yəqinlik hasil olsa, yaxud məninin çıxması üçün lazım olan şəri əlamətlərlə birlikdə olsa, məni hökmündədir.

---

Sual: **193**. Bir neçə vacib, yaxud müstəhəbb və yaxud həm vacib, həm də müstəhəbb qüsullar bir yerə yığışsa, bir qüsl hamısı üçün kifayətdirmi?

Cavab: Onların arasında cənabət qüslu olsa və onu da qəsd etsə, yerdə qalan qüsullar üçün kifayətdir.

---

Sual: **194**. Cənabətdən qeyri qüsullar də dəstəmaz almamağa kifayət edirmi?

Cavab: Vacib ehtiyata əsasən kifayət etmir.

---

Sual: **195**. Sizin rəyinizcə, cənabət qüslunda suyun bədəndə axması (cərəyan etməsi) şərtdirmi?

Cavab: Şərt budur ki, bədənin yuyulması "qüsl" niyyəti ilə olsun; suyun cərəyan etməsi isə şərt deyildir.

---

Sual: **196**. Əgər insan bilsə ki özünü, arvadı ilə yaxınlıq edərək cünub etsə, qüsl üçün su tapmayacaqdır və ya bilsə ki, qüsl alıb namaz qılmağa vaxt çatmayacaq, bu halda arvadı ilə yaxınlıq etməsi caizdirmi?

Cavab: Qüsl elə bilmədiyi halda təyəmmüm etməyə qadir olsa, bu yolla özünü cünub etməyin heç bir maneəsi yoxdur.

---

Sual: **197**. Mən 22 yaşlı bir gəncəm. Bir müddətdir ki, tüklərim tökülməyə başlayıb. Bu da məni qəm-qüssəyə salmışdır. Qərara almışam ki, tükəkmə müəssisəsində başıma tük əkdirəm. Sualım budur: Əgər tük əkilməsi başımın bəzi yerlərinin dərisinə su çatmamasına səbəb olsa, bu halda qüslun hökmü nədir?

Cavab: Əgər əkilən tüklərin aradan götürülməsi mümkün olmazsa, yaxud aradan götürüldükdə sənə zərər, yaxud əziyyət versə və bununla belə, suyun dəriyə çatdırılması mümkün olmasa, bu halda qüsl səhih hökmündədir.

---

Sual: **198**. Cənabət qüslunda başla sair üzvlər arasındakı tərtib kifayətdirmi, yoxsa sağ-sol tərəfi yumaqda da tərtib lazımdır?

Cavab: Sağ-sol tərəfləri yumaqda da tərtibin (ardıcıllığın) gözlənilməsi vacibdir; belə ki, sağ tərəf sol tərəfdən əvvəl yuyulmalıdır.

---

Sual: **199**. Mən tərtibi qüsl almaq istəyəndə əvvəlcə kürəyimi yuyub, sonra niyyət edərək bundan sonra tərtibi qüsl alsam, bunun işkalı varmı?

Cavab: Kürəyi, yaxud bədən üzvlərindən hər hansı birini niyyətdən qabaq yuyub qüsla başlamaqda heç bir maneə yoxdur. Tərtibi qüslun keyfiyyəti belədir: Bədənin hamısını pakladıqda sonra qüsl niyyəti edir, sonra əvvəlcə başla boyununu yuyursan, sonra sağ tərəfi çiyindən ayağın altına kimi yumaq, sonra sol tərəfi də həmin qayda ilə yumaq lazımdır, bu halda qüsl düzdür.

---

Sual: **200**. Qadının qüsl edəndə saçlarının ucunu yuması vacibdirmi? Həmçinin, qüsl edəndə su saçların hər yerinə çatmasa, qüsl batil olurmu? Halbuki, suyun başdakı dərinin hər yerinə çatmasını bilirik.

Cavab: Vacib ehtiyata əsasən, saçların hər yerini yuması vacibdir.

## Batil qüsla aid olan hökmlər

---

Sual: **201**. Bir nəfər həddi-büluğa çatmış, lakin qüslun vacib olmasını, keyfiyyətini bilməmiş, iyirmi yaşına çatana kimi bir müddətdə təqlid məsələlərindən, qüslu vacib olmasından agah olmamışdır. Onun bu dövrdəki oruclarının, namazlarının hökmü nədir?

Cavab: Cənabət halında qıldığı namazların, tutduğu orucların qəzasını yerinə yetirməsi -əgər cənabətin möhtəlim olmaqla, məninin xaric olması və s. yollarla olmasını bilirdisə, həmçinin cünub olan şəxsə oruc tutmaq üçün qüslun vacib olmasını bilmirdisə-vacibdir. Hətta üstün rəy budur ki, əgər onun hökm qarşısındakı cəhli təqsir üzündən olsa, (yəni müqəssir cahil olsa) kəffarə də vermək vacibdir. Amma cənabət barədə ümumiyyətlə cahil (qasir cahil) olsa və oruc tutduğu gün fəcr açılanda cünub olduğunu bilməsə, bu halda heç orucun qəzası vacib deyildir, o ki, qala kəffarəyə.

---

Sual: **202**. Bir cavan məsələni bilməmək üzündən istimna edir (24 yaşından əvvəl və sonra), ondan da məni xaric olur. Amma qüsl etmir. Bu şəxsin vəzifəsi nədir? O şəxsə istimna etdiyi, məninin xaric olduğu dövrdə qüsl vacibdirmi? Həmçinin, bu dövrdə (indiyə kimi) tutduğu oruc, qıldığı namaz batildirmi və onların qəzası vacibdirmi? Halbuki, o şəxs möhtəlim olduğunu bilir, amma cənabət qüslu etməyə səy göstərmir; həmçinin bilmirdi ki, məninin xaric olması qüsla səbəb olur.

Cavab: Keçmişdə olan cənabətlərin hamısı üçün bir qüsl kifayətdir. Cünub olduğu halda qıldığına yəqini olan namazların hamısının qəzası vacibdir. Lakin o dövrdəki orucların qəzası vacib deyildir; orucluq gecələrində cünub olduğunu bilməsə, orucları düzdür. Amma ondan məni çıxmasını, cünub olmasını bilsə, lakin orucunun düz olması üçün qüslun vacib olmasını bilməsə, onda cünub halında olarkən tutduğu bütün orucların qəzası vacibdir. Ehtiyat budur ki, əgər cəhli təqsir üzündən olsa (cahili-müqəssir olsa), hər gün üçün kəffarə də versin.

---

Sual: **203**. Mən indiyə kimi yaş məsələlərindən, yəni cənabət məsələlərindən, cənabət qüslunun hökmlərindən xəbərsiz idim. Halbuki,, bu müddətdə namaz qılıb oruc tuturdum. Bu barədə şəri hökm nədir?

Cavab: Bu dövrdə tutduğun oruc günlərində cənabətin baş verməsi qaydasını bilməsən, orucların düzdür. Amma qıldığın namazların qəzası -cənabət halında qıldığını bildikdən sonra- vacibdir**.**

---

Sual: **204**. Bir şəxs cünub olub qüsl edir, lakin qüslu səhv, batil olmuşdur. Onun bu cür qüsldan sonra qıldığı namazların hökmü nədir? (O, bu barədə xəbərsiz olmasını bilir.)

Cavab: Batil olan qüsl ilə, cənabət halında qılınan namaz batildir, yenidən qılınması, yaxud qəza edilməsi vacibdir.

---

Sual: **205**. Vacibi qüsullardan birini yerinə yetirmək niyyəti ilə qüsl etdim, hamamdan çıxandan sonra başa düşdüm ki, tərtibə riayət etməmişəm, ehtimal da verirdim ki, tərtibin niyyəti kifayətdir, elə buna görə də qüslu əvvəldən başlamadım. İndi isə bu işim barədə nə edəcəyimi bilmirəm. Qıldığım bütün namazların qəzasını qılmaq mənə vacibdirmi?

Cavab: Yerinə yetirdiyin qüslun düz olmasını ehtimal verirsənsə və həmçinin, o qüslu yerinə yetirdiyin vaxt onun düz olmasındakı şərtlərindən agah idinsə, bu halda heç bir eybi yoxdur. Amma əgər qüslun batil olması barədə yəqinlik hasil olsa, bütün namazların qəzası vacibdir.

---

Sual: **206**. Cənabət qüslunu aşağıdakı ardıcıllıqla alırdım: Əvvəlcə sağ tərəfi, sonra başımı, sonra isə sol tərəfimi yuyurdum, bu barədə soruşmaqda da təqsirkar idim. Bu halda oruclarımın, namazlarımın hökmü nədir?

Cavab: Qeyd olunan ardıcıllıqdakı qüsl batildir, hədəsi (cənabəti) aradan qaldırmır. Belə isə bu qüsl ilə qılınan namazlar batildir, qəzası da vacibdir. Lakin oruclar isə - əgər qeyd olunan ardıcıllıqdakı qüslun düz olduğuna etiqad bəsləyirdinsə, həmçinin cənabət halında qalmaqda təqsirkar deyildinsə - düz hökmündədir.

# Təyəmmümün hökmləri

---

Sual: **207**. Əgər təyəmmüm etmək düz olan şeylər (torpaq, əhəng mərmər daşı) divara yapışmış olsa, orada (divarda) təyəmmüm etmək düzgündürmü, yoxsa bu kimi şeylər yerin üzündə olmalıdır?

Cavab: Təyəmmümün deyilən şeylərlə düzgün olmasında onların yer üzərində olmaları şərt deyildir.

---

Sual: **208**. (Sübh) cünub oldum, hamama getməyə də imkanım yox idi. Cənabətli halım bir neçə gün davam etdi. Keçmişdə olduğu kimi bir namaz üçün qüsl əvəzindən təyəmmüm etdikdən sonra qılacağım hər bir namaz üçün dəstəmaz almağım, yaxud təyəmmüm almağım vacibdirmi, yaxud bir dəfə (təyəmmüm) ilə kifayətlənə bilərəm? Bu fərz ilə belə, mənə vacib olan şey hər bir namaz üçün dəstəmaz almaqdır, yoxsa təyəmmüm?

Cavab: Cünub olan şəxs cənabət qüslu əvəzində düzgün təyəmmüm edəndən sonra -baxmayaraq ki, bu təyəmmümdən sonra hədəsi-əsğər hasil olmuşdur - nə qədər ki, təyəmmüm üçün olan şəri üzrü (cünub olması) aradan qıldırmayıb, təharətlə şərtlənən bütün əməllər üçün dəstəmaz alması vacibdir.

---

Sual: **209**. Qüsl əvəzində olan təyəmmüm üçün də qüslda olan qəti hökmlər vardır? Yəni, o təyəmmüm ilə məscidə daxil olmaq olarmı?

Cavab: Qüslda olan hər bir şəri təsir təmamilə onun əvəzində olan təyəmmümdə də (vaxtın dar olmasına görə olan təyəmmümdən başqa) caizdir.

---

Sual: **210**. Hərbi yaralılardan olan, onurğa beyninin zədələnməsi səbəbi ilə "ixtiyarsız sidikaxma" xəstəliyinə tutulan şəxsin müstəhəbb əməlləri (cümə qüslu, ziyarət qüslu və s.) görmək üçün qüsl yerinə təyəmmüm etməsi caizdirmi? Səbəbi də budur ki, o, hamama gedəndə azacıq məşəqqətə düçar olur.

Cavab: Təharətin şərt olunduğu yerlərdən qeyrisində qüsl əvəzində təyəmmüm etmək işkallı məsələdir. Lakin, müstəhəbb qüsulların əvəzində, çətinlik irəli gəldikdə və əziyyətə səbəb olduğu halda, rəca (Allaha yaxınlıq üçün ümidvarlıq) niyyəti ilə təyəmmüm etməyin heç bir maneəsi yoxdur.

---

Sual: **211**. Su tapmayan şəxs, yaxud su işlətməyi zərər yetirən şəxs qüsl (cənabət qüslü) əvəzinə təyəmmüm etsə, onun məscidə daxil olması, camaat namazı qılması caizdirmi? Onun Qurani-Kərim oxumasının hökmü nədir?

Cavab: Nə qədər ki, təyəmmümü caiz edən üzrü aradan qalxmayıb və təyəmmümü də batil olmayıb, bu halda təharətlə şərtlənən bütün əməlləri görə bilər.

---

Sual: **212**. İnsan yuxuda olanda ondan bir növ rütubət çıxır, oyandıqdan sonra isə heç bir şey xatırlamır, lakin paltarını rütubətli görür və onun üçün axtarış aparmağa macalı yoxdur. Çünki sübh namazı qəzaya gedir. Bu halda o, nə etməlidir? Təyəmmümü qüsl əvəzinə niyyət edəcək, yoxsa dəstəmaz əvəzinə? Əsl hökm nədir?

Cavab: Əgər möhtəlim olmasını bilsə, cünubdur. Bu halda ona qüsl vacibdir. Vaxt da dar olsa, bədənini paklayıb təyəmmüm etsin (namazdan sonra isə qüsl etsin). Amma möhtəlim olmasında, cənabətli olmasında şəkk etsə, cənabətin hökmü icra olunmayacaq.

---

Sual: **213**. Bir nəfər ardıcıl olaraq bir neçə gecə cünub olmuşdur. Onun hökmü nədir? Halbuki, hədisdə gəlib ki, ardıcıl olaraq hamama getmək insanı zəiflədir.

Cavab: Qüsl etməsi vacibdir. Amma əgər su işlətmək ona zərər yetirsə, bu halda vəzifəsi təyəmmüm etməkdir.

---

Sual: **214**. Bir şəxs namaz qılmaq, mübarək Ramazan ayının orucunu tutmaq istəyir, lakin ondan ixtiyarsız olaraq məni çıxdığına görə cünub olur. Bəzi səbəblərə görə də hər saatda, yaxud hər gündə qüsl edə bilmir. Bu şəxs orucunu tutmaq, namazını qılmaq üçün nə etməlidir?

Cavab: O, şəxsdə cənabət qüslünü tərk etmək üçün əməlli-başlı şəri üzr olsa, qüsl əvəzinə təyəmmüm etməsi vacibdir. Bu təyəmmüm ilə tutduğu oruc, qıldığı namaz düzdür.

---

Sual: **215**. Mənim səhhətim bir vəziyyətdədir ki, ixtiyarsız olaraq məni (çoxlu vaxtlarda təkrarən) xaric olur. Özü də çıxanda ləzzətlə yanaşı olmur. Namaz qılmaq üçün nə etməliyəm?

Cavab: Hər bir namaz üçün qüsl etməyin zərəri olsa, yaxud sənə əziyyət versə, bədəni paklayandan sonra təyəmmüm edib namaz qıl.

---

Sual: **216**. Sübh namazı üçün cənabət qüslü etməyib təyəmmüm edən şəxsin (qüsl edəcəyi halda xəstələnəcəyinə etiqadı var) hökmü nədir?

Cavab: Onun öz etiqadına görə qüsl ona zərər yetirərsə, təyəmmüm etməyin eybi yoxdur; namazı da o təyəmmümlə düzgündür.

---

Sual: **217**. Mən çox da qorxulu olmayan dəri xəstəliyinə tutulmuşam. Belə ki, hər dəfə qüsl edəndə dərimdə quruluq əmələ gəlir. Hətta üzümü, əlimi yuyanda da belə olur. Məcbur olub dərimə zeytun yağı sürtürəm, buna görə də dəstəmaz alanda çətinliklə qarşılaşıram. Sübh namazı üçün dəstəmaz aldıqda məşəqqətə düşürəm. Sübhlər dəstəmaz əvəzində təyəmmüm ala bilərəmmi?

Cavab: Əgər sudan istifadə etmək sənə zərər yetirsə, dəstəmazdan çəkinib, onun əvəzində təyəmmüm almalısan.

---

Sual: **218**. Bir nəfər vaxtın dar olduğuna görə təyəmmüm alaraq namaz qılır. Namazı qurtarandan sonra məlum olur ki, onun dəstəmaz alması üçün macal varmış. Bu halda onun qıldığı namazın hökmü nədir?

Cavab: Bu namazı yenidən qılması vacibdir.

---

Sual: **219**. Biz elə bir yerdə yaşayırıq ki, orada nə hamam var, nə də ki yuyunmaq üçün bir yer. Mübarək ramazan ayında sübh azanından qabaq cünub halda yuxudan dururuq. Həm də bilirik ki, cavanların gecə yarısı durub camaatın gözü önündə tuluq suyu ilə, yaxud anbardakı su ilə qüsl almaları eyibdir. Bundan əlavə, bu vaxtlar su soyuq olur. Bu halda həmin günün orucunu tutmaqda vəzifəmiz nədir? Təyəmmüm caizdirmi? Əgər qüsl etməsək, iftarın (orucu yeməyin) hökmü nədir?

Cavab: (Qüslün) təkcə məşəqqətli olması, yaxud bu işin camaatın nəzərində eyib olması şəri üzr sayılmır, bu şəxs mümkün olan hər yolla - nə qədər ki, mükəlləf üçün çətin deyil, yaxud zərər yetirmir - qüsl etməlidir. Amma onlardan biri (çətinlik, zərər) qarşıya çıxsa, təyəmmüm etməlidir. Belə olan halda fəcrdən əvvəl təyəmmüm etsə, orucu düzdür; təyəmmüm etməsə, orucu batildir, lakin bütün gün ərzində özünü (orucu batil edən şeylərdən) saxlaması vacibdir.

# Qadinların hökmləri

---

Sual: **220**. Mənim anam şərif Nəbəvi (Peyğəmbər) silsiləsindəndir. Mən də seyidə sayılırammı (və nəticədə) aylıq adətimi (aybaşımı) 60 yaşına qədər heyz qərar verə bilərəmmi? Həmçinin, o adətlərin arasında namaz qılıb oruc tuta bilərəmmi?

Cavab: Atası Haşimi tayfasından olmayan qadın - hərçənd anası seyidlərdəndir - 50 yaşından sonra qan görsə, (bu qan) istihazə hökmündədir.

---

Sual: **221**. Müəyyən bir nəzir üçün oruc tutan, bu halda heyz görən qadının vəzifəsi nədir?

Cavab: Heyz görməklə eyni zamanda - hətta oruc tutduğu günün bir hissəsində olsa da belə- orucu batil olur. Pak olandan sonra da (orucun) qəzasını tutmalıdır.

---

Sual: **222**. Qadın özünün pak olduğuna arxayın olduqdan sonra gördüyü ləkənin hökmü - bu ləkədə qanın sifətləri, yaxud su ilə qarışmış qanın sifətləri olmadığını bilsə - nədir?

Cavab: Bu (ləkə) qan olmasa, onda heyzin hökmü yoxdur. Bunu (qan olub-olmamasını) ayırd etmək qadının öz öhdəsindədir.

---

Sual: **223.** Oruc tutmaq üçün dava-dərman qəbul etməklə aylıq adətin qarşısını almağın hökmü nədir?

Cavab: Heç bir eybi yoxdur.

---

Sual: **224**. Qadının hamiləlik dövründə zəif qanaxma baş versə, lakin uşaq doğulmasa, ona qüsl vacibdir, ya yox? Onun nə etməsi vacibdir?

Cavab: Qadının hamiləlik dövründə gördüyü qanda heyzin sifətləri, yaxud şərtləri olsa, heyzdir, olmasa istihazədir. Və əgər onun istihazəsi kəsirə, yaxud mütəvəssitə olsa, qüsl etməsi vacibdir.[5233]

---

Sual: **225**. Müəyyən bir adəti (məsələn 7 gün) olan qadının adəti dəyişmiş, hər dəfə hamiləliyə mane olan su səbəbilə (qan görəndə) 12 gün qan görmüşdür. Bu halda 7 gündən artıq olan günlər (5 gün) heyzdir, yoxsa istihazə?

Cavab: Əgər on gün müddətində qan kəsilməzsə, adət günləri (7 gün) heyz, qalan günlər isə (5 gün) istihazədir.

---

Sual: **226**. Heyz, yaxud nifas halında olan qadınlar İmamların (ə) övladlarının ziyarətgahlarına daxil ola bilərlərmi?

Cavab: Əgər bu (daxil olmaları) hörmətsizlik sayılmasa caizdir.

---

Sual: **227**. Uşaqsaldırma (abort) əməlinə iqdam edən qadın nifaslıdırmı?

Cavab: Uşaq saldırandan sonra (hətta uşaq bağlı qan formasında olsa da belə) qan görsə, o qan nifas hökmündədir.

---

Sual: **228**. Qadınlar yaisəlik[5234] dövründən sonra qan görsələr, bu qanın hökmü nədir? Bu halda o qadınların şəri vəzifələri nədir?

Cavab: İstihazə hökmü vardır.

---

Sual: **229**. Hamiləliyin qarşısını almağın (xoşagəlməz doğuşlardan çəkinmək üçün) yollarından biri hamiləliyin əleyhinə dərman atmaqdır. Belə olan halda qadınlar bu dərmandan istifadə etdikdə adət dövründə və başqa dövrlərdə qan ləkəsi görürlər. Bu ləkələrin hökmü nədir?

Cavab: Əgər bu ləkədə heyz üçün olan şəri şərtlər olmazsa, onda heyz hökmü yoxdur, istihazə olmasına hökm olunur.

# Meyyitin hökmləri

---

Sual: **230**. Hazırkı dövrdə bəzi şəxslər (qəbir iişlərinə baxanlar) ölülərin kəfən-dəfn işlərini öhdələrinə alırlar (istər arvad olsun, istərsə də kişi). Bu kimi şəxslərin meyyitlərin məhrəmlərindən olmamaları bəlli olduqda dəfn işində işkal irəli gəlirmi?

Cavab: Meyyitə qüsl (meyyit qüslü) verdikdə qüsl verənlə meyyitin eyni cinsdən (yəni hər ikisi arvad, yaxud hər ikisi kişi) olması şərtdir. Meyyitə onun öz cinsindən olan şəxsin qüsl verməsi mümkün olduğu halda qeyrisinin (yəni arvada kişinin, kişiyə arvadın) qüsl verməsi düz deyildir. Əgər qüsl versə də qüslü batildir. Lakin dəfndə, kəfənə bükmədə eyni cinsdən olması şərt deyildir.

---

Sual: **231.** Hal-hazırda kənd yerlərində ölünü yaşayış evinin içində yumaq adət olmuşdur. Bəzi hallarda meyyitin canişini olmur, meyyitin isə səğir (həddi-büluğa çatmamış) övladları olur. Belə olan hallarda Sizin mübarək rəyiniz nədir?

Cavab: Meyyiti dəfn etmək üçün hazırlamaqda onun qüslü, kəfəni, dəfni üçün normal miqdarda lazım olan şeylər meyyitin kiçik yaşlı vəlisinin icazəsinə bağlı deyil. Bu kimi işlərdə vərəsələr arasında yaşda kiçik şəxslərin olması cəhətindən heç bir işkal yoxdur.

---

Sual: **232**. Bir nəfər uçqun hadisəsində, yaxud evin üstündən yıxılıb vəfat edir. Vəfat edən şəxs qanaxma halında qalsa, vəzifəmiz nədir? Onun qanının dayanmasını, yaxud tibbi vasitələrin gəlib onun qanını saxlamasını gözləməliyik? Yoxsa, mövcud olan qanaxmanın olması ilə belə dəfn etməliyik?

Cavab: İmkan daxilində qüsldən qabaq meyyitin bədənini paklamaq lazımdır. Və əgər qanaxmanın dayanması, yaxud onun qarşısını almaq üçün gözləmək mümkün olsa, (gözləmək) vacibdir.

---

Sual: **233.** 40-50 il bundan qabaq dəfn olunan bir meyyitin sümükləri qəbiri itib-batandan, ümumi bir sahəyə çevriləndən sonra, oradan su arxı çəkiləndə aşkara çıxmışdır. Bu sümüklərə ləms etməyin (baxmaq üçün götürdükdə) işkalı varmı? Bu sümüklər nəcisdirmi?

Cavab: Qüslü tamamilə yerinə yetirilən müsəlman meyyitin sümükləri nəcis deyil, lakin yenidən onları torpaqda dəfn etmək lazımdır.

Sual: **234**. İnsan öz ata-anasını, yaxud başqa qohumlarını özü üçün aldığı kəfənə bükə bilərmi?

Cavab: Bunun heç bir eybi yoxdur.

---

Sual: **235**. Bəzi tibbi cəmiyyətlər tibbi təcrübələr, tədqiqatlar aparmaq üçün meyyitin ürəyini, bəzi damarlarını çaxarmağı lazım bilirlər. Təcrübə və tədqiqat aparandan bir gün sonra dəfnə iqdam edirlər. Rica edirəm, aşağıdakı Suallara cavab verəsiniz:

1. Üzərində təcrübə, tədqiqat aparılan meyyitlərin müsəlman olduqlarını bilərək bu cür işləri görmək caizdirmi?

2. Meyyitin ürəyini, həmçinin damarlarını onun bədənindən ayrılıqda dəfn etmək olarmı?

3. Çıxarılan bu üzvləri başqa meyyitlə birlikdə dəfn etmək olarmı? Bir halda ki, bunu bilirik ki, ürəyi və damarı ayrıca basdırmağın bizə çətinliyi var.

Cavab: Meyyitin bədənini yarmaq (əgər bu halda bir insanın nicatı o meyyitin yarılmasına bağlı olsa, həmçinin, cəmiyyətin ehtiyaclı olduğu tibbi elmlərin kəşf olunmasına, yaxud insanların həyatı üçün təhlükəli bir xəstəliyin aşkar edilməsinə səbəb olarsa, bu halda meyyitin yarılması) qeydsiz-şərtsiz olaraq caizdir. Hərçənd ehtiyat müstəhəbb budur ki, bu məqsədlər üçün müsəlman meyyitinin bədənindən istifadə edilməsin. Amma müsəlman meyyitindən ayrılan üzvlərin məsələsinə gəldikdə isə, onun şəri hökmü bədənlə birlikdə dəfn olunmaqdır. Bədənlə birlikdə dəfn olunması da mümkün olmasa, ayrıca dəfn etməyin işkalı yoxdur.

---

Sual: **236**. Bir insan özü üçün bir kəfən alır, vacibi, yaxud müstəhəbbi namaz vaxtlarında, Quran oxuyanda həmişə onu ayağının altına salır, üstündə namaz qılır, öləndə isə özünə kəfən üçün istifadə olunmasını deyir. Bu caizdirmi? İslam nöqteyi-nəzərindən caizdirmi ki, insan özü üçün kəfən alsın, üstündə Quran ayələri yazsın və onu yalnız kəfən bükmək üçün istifadə etsin?

Cavab: Qeyd etdiyiniz şeylərin heç birinin maneəsi yoxdur.

---

Sual: **237**. Son zamanlar tarixi 700 ilə çatan bir qəbirdə qadın cənazəsi tapılmışdır. O, böyük cüssəli, sağlam halda bir skelet idi. Kəllə sümüyündə bir az tük var idi. O qəbiri açan qazıntı işlərinə baxanların (arxeoloqların) sözünə istinad edərək, (onlar deyirlər ki, bu, müsəlman qadındır) bu tanınmış və məlum olan skeletin təbii elmlər muzeyinə təqdim olunması, onu görən ziyarətçilərə ibrət olması və bu yolla bu haqda Quran ayələri və hədislərin onların yadına düşməsinə səbəb olacaqsa, caizdirmi?

Cavab: Əgər bu skeletin müsəlman qadın olduğu sübut olunsa, dərhal dəfn edilməsi vacibdir.

---

Sual: **238**. Bir kənddə bir qəbiristan var, heç kimin də şəxsi mülkü deyil, həmçinin vəqf də olunmayıb. Bu kənd camaatı üçün caizdirmi ki, şəhərli ölülərin, yaxud başqa bir kəndin ölülərinin, yaxud da o qəbiristanlıqda dəfn olunmasını vəsiyyət edən şəxsin dəfn olunmasına maneçilik törətsinlər?

Cavab: Kənddə olan ümumi qəbiristanlıq bir kəsin şəxsi mülkü olmazsa, yaxud həmin kənd əhalisi üçün vəqf olunmazsa, o kənd əhalisi başqalarına onların öz ölülərini dəfn etmələri barədə maneçilik törədə bilməzlər. Hətta əgər bir nəfər orada dəfn olunmasını vəsiyyət etsə, onun vəsiyyətinə əməl etmək vacibdir.

---

Sual: **239**. Bəzi rəvayətlər dəlalət edir ki, qəbirlərin üstünə su səpmək müstəhəbdir ("Ləalil-əxbar" kitabındakı kimi). Bu, meyyitin dəfn olunduğu günə məxsusdurmu? (O kitabın müəllifinin dediyi kimi). Bu barədə Sizin rəyiniz nədir?

Cavab: Dəfn günü, həmçinin ondan sonrakı günlər qəbirin üstünə su səpməyin - rəca niyyəti ilə- işkalı yoxdur, lakin bu işin müstəhəb olmasını isbat etmək müşküldür.

---

Sual: **240**. Nə üçün ölünü gecə dəfn etmirlər? Ölünü gecə dəfn etmək haramdırmı?

Cavab: Ölünün gecə dəfn olunmasının heç bir eybi yoxdur.

---

Sual: **241**. Bir nəfər maşın qəzasında ölmüşdür. Ona qüsl verib kəfənə bükəndən sonra qəbiristanlığa gətirdilər. Qəbirə qoyub dəfn etmək istəyəndə gördülər ki, tabut və kəfən meyyitin başından axan qanla bulaşmışdır. Bu halda kəfəni dəyişdirmək vacibdirmi?

Cavab: Əgər kəfənin qana batmış yerini yumaq, yaxud kəsmək, yaxud da kəfəni dəyişmək mümkün olsa, bu işləri görmək vacibdir. Amma, əgər mümkün olmasa, elə bu cür dəfn etmək caizdir.

---

Sual: **242**. Qeyd olunan şəxs qana bulaşmış halda dəfn olunmuşsa, onun hökmü nədir?

Cavab: İşkalı yoxdur, vacib də deyildir. Hətta kəfəni dəyişmək, yaxud yumaq üçün qəbiri açmaq, meyyiti çıxarmaq caiz deyildir.

---

Sual: **243**. Kəfəni qana bulaşmış halda dəfn olunan bu meyyitin dəfnindən 3 ay keçmişdir. Bu halda onun qəbirini açmaq olarmı?

Cavab: Fərz olunan halda qəbiri açmaq caiz deyildir.

---

Sual: **244**. Rica edirəm, aşağıdakı Suallara cavab verəsiniz:

1. Hamilə qadın doğuş halında ölsə, onun bətnində olan uşağın hökmü aşağıdakı hallarda nədir:

a) Yaxın zamanlarda (3 ay, yaxud ondan artıq) ruh daxil olmuşdur; (Bir halda ki, onun ana bətnindən çıxarıldığı vaxt öləcəyi ehtimalı var.)

b) Ana bətnindəki uşağın ömrü 7 ay, yaxud daha artıq olsa;

v) Uşaq ana bətnində ölmüşdürsə?

2. Qadın doğuş zamanı ölsə, digər şəxslərə o uşağın ölməsi, yaxud sağ qalması üçün tam arxayınlıq əldə etmələri vacibdirmi?

3. Əgər qadın doğuş zamanı ölsə, uşaq da ana bətnində sağ qalsa, bir şəxs də adətə uyğun olmayaraq ananın uşaqla birlikdə dəfn edilməsini (hətta diri olsa da belə) əmr etsə, bu barədə Sizin rəyiniz nədir?

Cavab: Əgər qadının ölməsi ilə uşaq da ölərsə, bu halda uşağı çıxarmaq vacib deyildir, hətta caiz də deyildir. Lakin uşaq ana bətnində sağ (diri) qalsa, ruh da o uşağa daxil olmuş olsa, çıxardanda da diri qalması ehtimal verilirsə, dərhal onu çıxarmaq üçün iqdam etmələri vacibdir. Nə qədər ki, uşağın ana bətnində ölməsi aşkar olmayıb, ananı uşaqla birlikdə dəfn etmək caiz deyildir. Əgər diri uşaq ölmüş ananın bətnində dəfn edilmiş olsa və hətta dəfndən sonra da diri qalmış olsa ( diri olması

ehtimal verilsə də belə), bu halda qəbiri açmaq, uşağı ananın bətnindən çıxarmaqda tələsmək vacibdir. Necə ki, əgər ana bətnində olan uşağın həyatını hifz etmək ananı dəfn etməkdə tələsməməyə bağlı olsa, ananın dəfn işini təxirə salmaq - uşağın həyatını hifz etmək üçün vacibdir; və əgər bir kəs desə ki ölmüş ananı bətnindəki diri uşaqla bilikdə dəfn etmək caizdir, başqaları da onun sözünün düz olmasını əsas tutaraq dəfnə iqdam etsələr, bu da uşağın qəbirin daxilində ölməsinə səbəb olsa, bu halda uşağın diyəsi dəfn edənlərin boynundadır. Amma əgər uşağın ölməsində o sözü deyən şəxsi təqsirkar bilsələr, bu halda diyə o sözü deyən şəxsin boynundadır.

---

Sual: **245**. Bələdiyyə idarəsi torpaqdan daha yaxşı şəkildə istifadə etmək üçün qəbirləri iki mərtəbə etmək barədə qərar çıxarmışdır. Bu barədə şəri hökmü bəyan edin.

Cavab: Əgər bu iş qəbirin açılmasına səbəb olmasa, bu halda müsəlmanların qəbirlərini bir neçə mərtəbə etmək caizdir.

---

Sual: **246**. Bir uşaq quyuya düşüb orada ölmüşdür. Quyuda olan su da uşağı çıxarmağa mane olur. Onun hökmü nədir?

Cavab: Bu halda meyyit orada qalmalı və quyu onun qəbiri olmalıdır. Əgər quyu qeyri şəxsin mülkü olmasa, yaxud (qeyrisinin mülkü olan halda) onun sahibi quyunu doldurmağa razı olsa, bu halda quyunun işini dayandırıb doldurmaq vacibdir.

---

Sual: **247**. Bizim məntəqənin adəti belədir ki, sinəzənlik, zəncirvurma mərasimləri təqlidi qayda ilə, yalnız məsum İmamların (ə), şəhidlərin, böyük dini şəxsiyyətlərin matəmlərində keçirilir. Bu mərasimləri bu İslam hökuməti üçün, bu müsəlman xalq üçün, silahlı qüvvələrdə olan, yaxud müəyyən bir xidmət sahəsində çalışan şəxslərin matəmlərində də keçirmək olarmı?

Cavab: Bu barədə (matəm saxlamağın) öz-özlüyündə eybi yoxdur, lakin bu əməl mərhum üçün xeyir gətirməz. Daha yaxşı olar ki, onun üçün Fatihə, Qurani-Kərim qiraəti məclisləri təşkil olunsun.

---

Sual: **248**. Gecə vaxtı qəbiristanlığa getməyi İslami tərbiyədə təsirli bir amil hesab edən bir kəsin hökmü nədir? Halbuki, qəbiristanlığa gecə getməyin məkruh olduğunu bilirik.

Cavab: Bunun heç bir eybi yoxdur.

---

Sual: **249**. Qadınlar dəfn mərasimində, cənazəni qəbiristanlığa aparmaqda iştirak edə bilərlərmi?

Cavab: Bunun heç bir eybi yoxdur.

---

Sual: **250**. Köçərilərin bəziləri arasında belə bir adət var ki, onlar bəzi şəxslərə, vəfat edən vaxt matəm mərasimində iştirak etmək üçün gələnlərə borcla qoyun alıb ehsan verirlər (bu da onlara çoxlu zərər dəyməsinə səbəb olur). Bu cür adət və təqlidləri qoruyub saxlamaq naminə bu zərərlərə dözmək caizdirmi? Dəyən bu zərər, həmçinin matəm mərasimində iştirak edənlər qarşısında müqəddəs şəriət hökmü nədir?

Cavab: Əgər bu cür ehsanvermə böyük yaşlı vərəsələrin mal-dövlətlərindən və onların razılığı əsasında olarsa, istənildiyi kimi, istədikləri miqdarda verilməsi caizdir. Lakin ehsanı meyyitin öz payından vermək istəsələr, bu halda meyyitin vəsiyyətindən asılıdır.

---

Sual: **251**. Bir nəfər hazırkı dövrdə bir məntəqədə, mina partlayışından ölsə, onun barəsində şəhidin hökmü tətbiq olunurmu?

Cavab: Qüslsüz, kəfənsiz (dəfn olunmaq) hökmü döyüş meydanında öldürülən şəhidlərə məxsusdur.

---

Sual: **252**. Üzünü qırxan şəxsin, həmçinin onun övladlarının (bu şəxslər ya qaçaq münafiqlərdəndir, ya da tövbələrini aşkar edənlərdəndir) bir mömin şəxsin cənazəsinə qılınan meyyit namazında onların möminlərə imamət (pişnamazlıq) etmələri caizdirmi?

Cavab: Camaat namazında, həmçinin başqa namazlarda pişnamazda mötəbər olan şərtlər (burada) yoxdur. Hərçənd, müstəhəb ehtiyat o şərtlərə meyyit namazında da riayət edilməsidir.

---

Sual: **253**. Bir nəfər mömin şəxs dünyanın hər hansı bir yerində İslam hökmlərini yaymaq yolunda, yaxud nümayişlərdə, yaxud da Cəfəri fiqhini yaymaq cəbhəsində öldürülsə, şəhid sayılırmı?

Cavab: O şəxsin şəhidlər kimi səvabı var. Lakin şəhid olmuş meyyitin qüsl-kəfən hökmü yalnız döyüş meydanında, döyüş mərəkəsində, döyüş odu şölələnəndə şəhid olanlara aiddir.

---

Sual: **254**. Əgər bir müsəlman qanun hökmü ilə, məhkəmə qanunçuluğunun təsdiqi ilə narkotik maddələr al-veri etməklə müttəhim olunaraq edama məhkum olunubsa və edam hökmü də icra olunubsa, onda:

1. Bu şəxsə meyyit namazı qılınacaqmı?

2. Bu şəxs üçün təşkil olunan matəm mərasimində iştirak etməyin, Quran oxumağın, Əhli-Beytin (ə) müsibətlərini yad etməyin hökmü nədir?

Cavab: Edama məhkum olunan bir müsəlman şəxsin hökmü sair müsəlmanların hökmü kimidir, onun barəsində ölülərdə icra olunan bütün İslam hökmləri, qayda-qanunlar icra olunur.

---

Sual: **255**. Üstündə ət olan sümüyə, həmçinin diri şəxsin bədənindən ayrılan sümüyə məss etmək məssi-meyyit qüslünə səbəb olurmu?

Cavab: Fərz olunan surətdə məssi-meyyit qüslü vacibdir.

---

Sual: **256**. Dişləri çəkdirəndə onlarla birlikdə dişin dibində olan toxumalar (ət) da çıxır. Bu əti məss etmək məssi-meyyit qüslünə səbəb olurmu?

Cavab: Bu deyilən qüslə səbəb olmur və əgər dişlə birlikdə onun dibinin ətindən qopsa, meytə (murdar olmuş heyvan) hökmündədir.

---

Sual: **257**. Öz paltarında dəfn olunan müsəlman şəhidə əl vurduqda məssi-meyyit hökmü icra olunurmu?

Cavab: Qeyd olunan şəhidi məss etmək məssi-meyyit qüslünə səbəb olmaz.

---

Sual: **258**. Mən tibb üzrə tələbəyəm. Bəzi vaxtlar ölülərin cəsədlərinə məss etməyə (onları yararkən) məcbur oluram. Həm də ki, o ölülərin müsəlman, yaxud kafir olmasını bilmirik. Məsuliyyətli şəxslər bizə deyirlər ki, onlara hökmən qüsl verilmişdir. Bu deyilənləri nəzərə alaraq buyurun ki, biz bu cəsədlərə məss etdikdən sonra namaz və s. kimi məsələlər qarşısında hökmümüz nədir? Deyilənlərə uyğun olaraq bizə qüsl vacibdirmi?

Cavab: Əgər meyyitə qüsl verilməsi aşkar olmazsa və siz də bu barədə şəkdə olsanız, o cəsədə, yaxud onun üzvlərinə məss etdikdə məssi-meyyit qüslü vacibdir. Və bu qüslü almadan namaz düz deyildir. Amma əgər qüsllü olması məlum olsa, onun cəsədinə, yaxud üzvlərinə məss etmək nəticəsində məssi-meyyit qüslü vacib olmaz -hətta o qüslün düz olub-olmamasında şəkk olunsa da belə.

---

Sual: **259**. Adı, ünvanı naməlum olan bir şəhid bir neçə uşaqla birlikdə bir qəbirdə dəfn olunub. Bir aydan sonra məlum olub ki, o şəhid dəfn olunduğu şəhərin əhalisindən deyil. Bu halda qəbiri açmaq olarmı?

Cavab: Əgər o şəhid şəriət qanunları, hökmlərinə müvafiq olaraq dəfn olunubsa, onda bu halda qəbiri açmaq haqları yoxdur.

---

Sual: **260**. Əgər qəbirin daxilindən xəbər tutmaq, teleaparatla qəbirin içindən xəbərdar olmaq, oranı yenidən qazmadan, qəbirin üstündəki torpağı götürmədən mümkün olsa, onda bu əməli “qəbir açmaq” kimi adlandırmaq olarmı?

Cavab: Dəfn olunmuş meyyitin bədəninin şəklini çəkmək -oranı qazmadan, yaxud qəbiri açmadan və cənazəni üzə çıxarmadan- işinə “qəbir açmaq” demək olmaz.

---

Sual: **261**. Bələdiyyə idarəsi dar yerləri genişləndirmək məqsədi ilə qəbirlərin üstündə olan otaqları sökmək istəyir. Lütfən aşağıdakı Suallara cavab verin:

1. Bu otaqlarda mövcud olan mömin qəbirləri qarşısında qəbir işlərinə baxan heyətlərin məsuliyyəti nədir?

2. Oradakı ölülərin sümüklərini çıxarıb başqa bir yerdə dəfn etmək caizdirmi?

Cavab: Möminlərin qəbirlərini açmaq, dağıtmaq caiz deyildir; və əgər qəbir açılsa və müsəlman meyyitin bədəni, yaxud həddi-büluğa çatmayan müsəlmanın bədən sümükləri üzə çıxsa, yenidən dəfn etmək vacibdir. Lakin qəbir işlərinə baxan heyətin -bu işə baxdıqlarını əsas tutaraq qarşısında xas bir məsuliyyət yoxdur.

---

Sual: **262**. Bir nəfər şəriət qanunlarına riayət etmədən müsəlmanların qəbirlərini dağıtmağa iqdam etsə, sair müsəlmanların bu şəxs qarşısındakı məsuliyyətləri nədir?

Cavab: Sair müsəlmanlara vacib olan iş budur ki, o şəxsi nəhy əz münkər -bu halda şərtlərə və dərəcələrə riayət etməklə- etsinlər.

---

Sual: **263.** Atam 36 il bundan qabaq bir qəbirdə dəfn olunmuşdur. Hal-hazırda isə bu qəbirdən şəxsi olaraq, həm də vəqf idarəsindən icazə alaraq istifadə etmək (qəbirin vəqf olunduğunu bilərək) istəyirəm. Bu halda qardaşlarımdan da icazə almağım lazımdırmı?

Cavab: Ölülərin dəfni üçün ümumi vəqf hesab edilən bir yerdə yerləşən qəbir barəsində sair vərəsələrdən icazə almaq şərt deyildir. Lakin meyyitin sümükləri torpağa çevrilməmişdən qəbiri açmaq, başqa bir meyyiti dəfn etmək üçün caiz deyildir.

---

Sual: **264**. Mən tibb fakültəsinin tələbəsiyəm. Dərs oxuduğum yerdə üzərində tədqiqat aparmaq lazım gələn təbii sümüklər az olduğuna görə, itib-batmış qəbirlərdəki sümüklərdən istifadə etmək caizdirmi? Həmçinin qəbirlərdə tapılan, yaxud muzeylərdə mövcud olan insan sümüklərinə məss etdikdə məssi-meyyit qüslü vacibdirmi?

Cavab: Əgər sümük götürülməsi qəbirin açılmasına səbəb olsa, bu halda müsəlmanların qəbirindən sümük götürmək caiz deyildir. Həmçinin, sümüklər qüsl olunub-olunmaması bəlli olmayan bir meyyitin olsa, onlara məss etdikdə qüsl vacibdir.

---

Sual: **265**. Qəbirləri hansı hallarda açmaq caizdir? Hal-hazırda bir cəmiyyət var ki, müharibə dövründə şəhid olanların cəsədlərini tanımaq üçün qəbirləri açmaqla məşğuldurlar. Bunu necə izah edə bilərsiniz?

Cavab: Əziz şəhid bütün şəriət qayda-qanunlarına riayət olunaraq dəfn edilsə, həmçinin hər hansı bir haqqın isbat olunması qəbirin açılması ilə əlaqədar olmazsa, bu halda qəbiri açmaq, hətta cəsədləri tanımaq üçün də olsa belə, caiz deyildir.

---

Sual: **266**. Qəbiri açmaq üçün caiz olan halları bəyan edin; və müsəlmanların qəbiristanlığını dağıdaraq başqa bir mərkəzə çevrilməsi üçün bir yol olsa, onu izah edin.

Cavab: Qəbirləri açmağın haram olmasındakı istisna olunan hallar əməliyyə risaləsində zikr olunmuşdur. Müsəlmanların dəfni üçün vəqf olunan qəbiristanlığı pozub başqa bir şeyə çevirmək caiz deyil.

---

Sual: **267**. Dini mərcələrdən icazə aldıqdan sonra qəbirləri açmaq, ölülərin dəfni üçün vəqf olunan qəbiristanlığı başqa bir yerə çevirmək olarmı?

Cavab: Qəbirin açılması caiz olmayan hallarda, həmçinin ölülərin dəfni üçün vəqf olunan qəbiristanlığı dağıtmaqda icazənin təsiri yoxdur.

---

Sual: **268**. 20 il bundan qabaq bir kişi ölmüş, bir neçə gün bundan qabaq elə o kənddə bir qadın vəfat etmişdir. Camaat səhvən o kişinin qəbirinin yerini qazıb qadını orada dəfn etdi. İndi bunun hökmü nədir?

Halbuki, bu kişinin qəbirində (cənazədən) heç bir əsər-əlamət tapılmayıb.

Cavab: Hal-hazırda digər şəxslərin (Sual fərz olunan halda) heç bir vəzifəsi yoxdur və məhz bir meyyitin başqa bir meyyitin qəbirində dəfn edilməsi qəbirin açılmasının -cəsədi başqa qəbirə aparmaq üçün- caiz olmasına səbəb olmaz.

---

Sual: **269**. Küçələrin birinin ortasında 4 qəbir tapılmışdır. Bu qəbirlər oradan çəkilən yolun davam etdirilməsinə maneçilik törədir. Digər tərəfdən də qəbirləri açmağın şəri nöqteyi-nəzərdən işkalı var. Ümidvarıq ki, bu barədə bizə, boynumuzda olan vacib işi yerinə yetirmək üçün yol göstərəsiniz, təki bələdiyyə idarəsi şəriətlə müxalif olan bir əmələ mürtəkib olmasın.

Cavab: Küçənin düzəldilməsi qəbirlərin qazılmasına, açılmasına bağlı olmazsa, həmçinin qəbirlərin üstündən küçə salmaq mümkün olsa, yaxud küçənin qəbirlər olan yerdən salınması zəruri olsa, bu hallarda eybi yoxdur, amma (deyilən şərtlər) olmazsa, bu halda yolun qəbirlərin üstündən salınması caiz deyildir.

# Nəcasətlər və onlarin hökmləri

---

Sual: **270**. Qan pakdırmı?

Cavab: Atıcı qanı olan canlıların (istər insan olsun, istərsə də qeyri-insan) qanı nəcisdir.

---

Sual: **271**. İmam Hüseynə (ə) əzadarlıq edəndə başın divara möhkəm vurulması nəticəsində insanın başından axan, oradan da mərasimdə iştirak edənlərin üzlərinə, başlarına sıçrayan qan pakdırmı?

Cavab: İnsanın qanı bütün hallarda nəcisdir.

---

Sual: **272**. Paltarda olan qanı yuduqdan sonra bir az əsər-əlaməti qalır. Qanın bu açıq rəngli izi nəcisdirmi?

Cavab: Qanın özü yox, yalnız onun rəngi qalsa və yumaqla da aradan getməsə, pakdır.

---

Sual: **273**. Yumurtada olan kiçik qan hissəciyinin hökmü nədir?

Cavab: Pak hökmündədir. Lakin yeyilməsi haramdır.

---

Sual: **274**. Haram yolla cünub olan şəxsin, həmçinin nəcis yeyən heyvanın tərinin hökmü nədir?

Cavab: Nəcasət yeyən dəvənin təri nəcisdir. Amma yerdə qalan heyvanlardan nəcasət yeyənlərin, həmçinin haram yolla cünub olan şəxslərin təri pakdır. Lakin vacib ehtiyat budur ki, haram yolla cünub olan şəxsdən çıxan tərlə namaz qılmaq tərk olunsun.

---

Sual: **275**. Meyyiti xalis su ilə yumazdan əvvəl və sidr-kafurla yuyandan sonra onun bədənindən damlayan su pakdır, ya yox?

Cavab: Nə qədər ki, meyyitin bədəninə verilən üçüncü qüsl qurtarmayıb, nəcis hökmündədir.

---

Sual: **276**. Bəzi vaxtlar əlin dərisindən, dodaqlardan, ayaqlardan ayrılan hissələr pakdır, yoxsa nəcis?

Cavab: Əlin, dodağın və ayaqların, yaxud bədənin sair yerlərinin dərisindən öz-özlüyündə qopan hissələr pak hökmündədir.

---

Sual: **277**. Bir nəfəri döyüş cəbhələrində donuzu öldürüb yeməyə məcbur etmişlər. Onun bədəninin rütubəti, ağzının suyu nəcis hökmündədirmi?

Cavab: Nəcis və haram ət yeyən şəxsin bədəninin təri, ağzının suyu nəcis deyildir. İstibra[5235] olunması da lazım deyil. Lakin (rütubətli halda) donuz ətinə dəyən hər bir şey nəcisdir.

---

Sual: **278**. Xəttatlıqda, rəssamlıqda istifadə olunan (toyuq qanadından olan) qələmlər və onlardan olan xoşagələn gözəl əşyalar qeyri-islam ölkələrindən gətirilir. Onlar da əksər hallarda donuz tükündən hazırlanır, həm də hamının istifadə etdiyi şeylər sırasındadır. Xüsusilə də elannamələrdə, mədəni mərkəzlərdə istifadə olunur. Bu cür qələmlərdən istifadə etməyin hökmü nədir?

İkincisi, onlarla Quran ayələri, hədis yazmağın hökmü nədir?

Cavab: Donuzun tükü nəcisdir və şəri cəhətdən təharətin olması şərt olan işlərdə ondan istifadə etmək caiz deyildir. Lakin təharətlə şərtlənməyən işlərdə onlardan istifadə etməyin eybi yoxdur. Amma əgər qələmin donuz tükündən hazırlanıb-hazırlanmaması məlum olmasa, bu halda ondan hətta təharətlə şərtlənən işlərdə də belə istifadə etməyin heç bir eybi yoxdur.

---

Sual: **279**. Almaniyaya gələn seyid alimlərdən biri dedi ki, (nəcis olması barədə) şəkkə etina etməyin vacibliyi burada üç şeydə həsr olunur: -ət, dəri, yağ. Lakin bunlardan qeyri hallarda etina etmək lazım deyildir. Bu söz düzdürmü? Bu halda bitki yağları da tapılır. Onların üstündəki yazılara istinad etməklə məlum olur ki, o yağlar işkallı olan maddələrdən xalidir. Lakin bəzi qardaşlar təhqiqat aparmış, nəticədə məlum olmuşdur ki, bu yağların bir qisminə azacıq miqdarda heyvan yağı qarışdırılır. Amma bunu o yağ qutusunun üstündə yazmırlar. Bu məsələnin hökmü nədir?

Cavab: Halal olan, yaxud halal və pak olması şəri təzkiyəyə (paklamaya) bağlı olan bütün ətlər qeyri-islami ölkələrdə murdar, yaxud təzkiyə olunmayan (paklanmayan) ət hökmündədir. Amma heyvan yağları pak hökmündədir, lakin təzkiyə olunmamış heyvan yağları, yaxud (nəcis şeylə qarışaraq) nəcis olması məlum olan yağlar nəcis hökmündədir.

---

Sual: **280**. Cünub şəxsin paltarı məni ilə nəcis olsa, bu halda:

1. Əl, yaxud paltar rütubətli olan halda əli o paltara vurduqda (əlin) hökmü nədir?

2. Cünub olan şəxs öz paltarını paklamaq üçün başqasına verə bilərmi? Həmçinin, o cünub şəxsin onun paltarını yuyan şəxsə paltarının nəcis olmasını deməsi lazımdırmı?

Cavab: Məni nəcisdir və əgər o, keçici bir rütubətli şeyə toxunsa, onun nəcis olmasına səbəb olur. Paltarı yuyan şəxsə də nəcis olmasını demək lazım deyil.

---

Sual: **281**. Mən bövl qurtarandan sonra istibra edirəm, lakin istibradan sonra məni iyi verən bir maye xaric olur. Namaz qılmaq üçün bu mayenin hökmünü bəyan edin.

Cavab: Əgər onun məni olmasına dair yəqinlik olmasa, həmçinin məninin çıxması üçün şəri əlamətlərlə yanaşı olmazsa, bu halda pakdır və məni hökmündə deyil.

---

Sual: **282**. Qarğanın fəzləsi (zılı) nəcisdirmi?

Cavab: Pakdır.

---

Sual: **283**. Əməli risalələrdə qeyd olunub ki, əti yeyilməyən quşların, heyvanların ğaiti və fəzləsi nəcisdir. Əti yeyilən heyvanların da - inək, qoyun, toyuq kimi - ğaiti və fəzləsi nəcisdirmi?

Cavab: Əti yeyilən (halal olan) heyvanların ğaiti və fəzləsi pakdır.

---

Sual: **284**. Tualetin oturacağının ətrafında, yaxud onun içində ğait kimi bir nəcis olsa, o yerdə də kür, yaxud qəlil su ilə yuyulandan sonra nəcasətin eyni qalsa, bu halda eyni-nəcasət olmayan, yaxud ora yuyulanda su dəyən yer nəcisdir, ya pak?

Cavab: Nəcasətə birləşən nəcis su, bir yerə dəyməsə, (o yer) pak hökmündədir.

Sual: **285**. Əgər qonaq, olduğu evin bir əşyasını nəcis etsə, ev sahibinə xəbər verməsi vacibdirmi?

Cavab: Yeyilib-içilənlərdən qeyrisində, həmçinin yemək qablarında demək lazım deyildir.

---

Sual: **286**. Nəcis olmuş şeyə toxunan şey nəcisdir, ya yox? Əgər nəcis olursa, onda bu (qanun) silsiləvari olaraq bütün vəsaitlərdə olur, yoxsa yalnız yaxındakılara aiddir?

Cavab: Vasitələr az olduqda üçünə qədər nəcis hökmündədir; dördüncü vasitədə və ondan sonrakılarda pak hökmündədir, baxmayaraq ehtiyat müstəhəb ondan çəkinməkdir.

---

Sual: **287**. Təzkiyə olunmamış heyvan dərisindən hazırlanan ayaqqabılardan istifadə etdikdə dəstəmazdan əvvəl ayaqları yumaq vacibdirmi? Bəziləri deyirlər ki, ayaq ayaqqabının içində tərləsə ayaqları yumaq vacibdir. Halbuki, görürük ki, ayaq hər növ ayaqqabının içində az, yaxud çox tərləyir. Bu məsələdə Sizin rəyiniz nədir?

Cavab: Əgər qeyd olunan ayaqqabının içində ayağın tərləməsi məlum olsa, namaz üçün ayaqları paklamaq vacibdir.

---

Sual: **288**. Özünü batıran uşağın əli (rütubətli), ağzının suyu, yeməyinin artığının hökmü nədir? Həmçinin rütubətli əllərini ayaqlarının üstünə qoyan uşaqların hökmü nədir?

Cavab: Nə qədər ki nəcis olmasına yəqinlik hasil olmayıb, pak sayılır.

---

Sual: **289**. Mənim dişlərinmin dibinin əti qanaxma xəstəliyinə tutulub. Həkimin məsləhəti ilə mənə vacibdir ki, həmişə dişlərimin dibinə yağ sürtəm. Bu da orada çoxlu yerlərin qaralmasına səbəb olur, elə bil içində qan yığışmışdır. Onun üstünə salfetka qoyanda isə rəngi qızarır. Buna görə də ağzımı kür su ilə yuyuram. Amma bərkimiş qan uzun müddət qalır, yumaqla getmir. Kür su kəsiləndən sonra ağzımın içində qalan və bu (qaralmış) yerlərə dəyən, sonra isə dişin dibində olan qana dəyərək çıxan su nəcisdirmi? Yoxsa ağzımın suyunun bir hissəsi sayılır və pakdır?

Cavab: Pak hökmündədir. Hərçənd ki, ehtiyat müstəhəb ondan çəkinməkdir.

---

Sual: **290**. Soruşmaq istəyirəm ki, yediyim yemək tikələri dişimin dibindəki qonmuş qanla qarışır. Bu tikələr nəcis olur, ya yox? Nəcis olsa, ağızın içi bu tikələri udandan sonra da nəcis olaraq qalırmı?

Cavab: Fərz olunan halda ağızdakı tikələr nəcis deyildir və onu udmağın eybi yoxdur, ağız boşluğu da pakdır.

---

Sual: **291**. Bir neçə müddətdir ki, belə şayiə yayılmışdır ki, gözəlləşdirmə maddələri (kosmetika) nəcisdir. Həmçinin deyirlər ki, guya uşaq doğulanda cifti götürüb soyuducuda saxlayırlar, (bəzən deyirlər ki, hətta ölmüş uşaqları da belə edirlər) bundan kosmetika maddələri -pamada kimi- hazırlayırlar. Biz də bəzi vaxtlar bu maddələrdən istifadə edirik. (Hətta dodağa çəkilən qırmızı (pamada) dodağı islatma zamanı udulur.) Bu nəcisdirmi?

Cavab: Yayılan şayiələr şəri nöqteyi-nəzərdən kosmetika maddələrinin nəcis olmasına dair dəlil ola bilməz; və nə qədər ki, onun nəcis olması mötəbər şəri yolla aşkar edilməyib, ondan istifadə etməyin heç bir eybi yoxdur.

---

Sual: **292**. Hər bir paltardan, yaxud parçadan çox nazik olan tüklər (tükcüklər) tökülür. Biz paltarları paklayanda teştdəki suya baxıb orada bu nazik tükləri görürük. Bu halda əgər teşt krantın suyuna birləşən halda su ilə dolu olsa, paltarı teştin içinə atanda su da onun kənarlarını isladır. Suda olan bu tüklərin hesabına bu sudan ehtiyat edirəm, hər yeri paklamağa başlayıram, yaxud uşaqların nəcis paltarlarını çıxaranda o paltarı çıxardığım yeri, hətta quru olsa da belə paklamağa başlayıram. Çünki fikirləşirəm ki, bu tüklər o teştə tökülmüşdür. Bu cür ehtiyat lazımdırmı?

Cavab: Teştə qoyularaq üstünə krant suyu tökülən və su ilə əhatə olunan paltarı paklama zamanı paltar, teştin içində olan su, paltardan ayrılan və suda dolanan tüklər hamısı pakdır. Bu zaman nəcis paltardan düşən tüklər, yaxud toz-torpaq paklanır. Amma əgər o tüklərin nəcis yerdən ayrılmasına dair yəqinlik hasil olsa, pak olmaz. (Tüklərin) ayrılmasında, yaxud nəcis bir yerdən ayrılmasında sırf şəkildə şəkk etməklə ehtiyat etmək lazım deyildir.

---

Sual: **293**. Bir şeydən başqa bir şeyə keçməyə səbəb olan rütubət hansıdır?

Cavab: Rütubətin keçici olmasında əsas şərt budur ki, o, (rütubət) nəm olan bir şeydən başqasına, hiss olunan dərəcədə nəql olunsun (bu iki şey bir-birinə toxunduqda).

---

Sual: **294**. Paltarları yuyub qurudan yerlərə verilən paltarların paklıq cəhətindən hökmləri nədir? Həmçinin, qeyd etməyi lazım bilirəm ki, məzhəbi cəhətdən azlıq təşkil edənlər (yəhudi, nəsrani və s. kimi) də öz paltarlarını yuyub qurutmaq üçün oraya verirlər. Həmçinin bilirik ki, bu paltar yuyanlar kimyəvi maddələrdən istifadə edirlər.

Cavab: Paltar yuyub qurulayan yerə verilən paltarlar əvvəllər nəcis olmamışsa, pak hökmündədir; və kitab əhlindən olan, məzhəbi azlıqda olan şəxslərin paltarlarına toxunmaqla o paltarlar nəcis olmaz.

---

Sual: **295.** Avtomatik işləyən ev paltaryuyan maşınlarında tam şəkildə yuyulan paltarlar paklanırmı? Bu maşınların işləmə tərzi belədir: Birinci dəfə o maşın paltarları su, sabun və s. ilə qarışdırıb fırladır və sonra ona su tökürlər ki, paltarda olan sabun və s. köpükləri getsin. Daha sonra isə maşın paltarı qəlil su ilə 3 dəfə yuyur. Buradan da paltarın yuyulduğu su maşından çıxır. Buyurun, görək, bu yol ilə yuyulan paltarlar pak olur, ya yox?

Cavab: Nəcasətin eyni zail olduqdan sonra əgər kranta birləşik olan su maşının içində paltarlara və maşının tamamilə içərisinə çatıb sonra ayrılaraq çölə çıxırsa, bu halda o paltarlar pakdır.

---

Sual: **296**. Əgər su yerə, hovuza, yaxud da paltar yuyulan hamama tökülsə və sonra da bu suyun nəmişliyi paltara dəysə, bu halda paltar nəcis olarmı?

Cavab: Əgər su pak olan məkana, yaxud pak olan torpağa tökülsə, ondan qalxan nəmişlik də pakdır.

---

Sual: **297**. Bələdiyyə idarəsinin tabeçiliyində olan maşınlardan küçələrə axan su, həmçinin bəzi vaxtlar şiddətli külək əsəndə camaatın üstünə sıçrayan sular pakdır, yoxsa nəcis?

Cavab: Bunlar pak hökmündədir. Amma əgər bir şəxs üçün həmin suyun nəcislə bulaşması nəticəsində nəcisliyinə dair yəqinlik hasil olsa, nəcis olmasına hökm olunar.

---

Sual: **298**. Küçələrdəki çuxurlarda yığışan sular pakdır, yoxsa nəcis?

Cavab: Bu sular pak hökmündədir.

Sual: **299**. Təharət və nəcasətə dair olan məsələlərə (yemək, içmək və s.) çox da riayət etməyən şəxslərlə ailəvi cəhətdən görüş keçirməyin hökmü nədir?

Cavab: Təharət və nəcasət mövzularında nə qədər ki, (bir şeyin) nəcis olmasına yəqinlik hasil olmayıb, paklığa hökm olunmuşdur.

---

Sual: **300**. Rica edirəm ki, aşağıdakı məsələlərdə (qusmanın pak və ya nəcis olması nahiyəsindən) şəri hökmü bəyan edəciniz:

1- Südəmər uşaqlarınkı;

2- Həm süd əmən, həm də çörək yeyən uşaqlarınkı;

3- Həddi-büluğa çatan insanınkı.

Cavab: Hər üç halda (qusmaq) pakdır.

---

Sual: **301**. "Məhsurə şübhəyə"-yə[5236] toxunan şeyin hökmü nədir?

Cavab: Əgər (o şey) məhsurə şübhədəki şeylərin bəzisinə toxunsa, bu halda o şey nəcis olmaz.

---

Sual: **302**. Bir nəfər yemək satır, bədənində keçici rütubət olan halda o yeməyə əl vurur, lakin dini məlum deyil. Onun hansı dində olmasını soruşmaq vacibdirmi, yoxsa pak olması əsas götürülür? Həmçinin məlumdur ki, İslam dövlətindən deyil, bu ölkəyə işləmək üçün gəlmişdir.

Cavab: Onun dini barədə soruşmaq vacib deyil: onun barəsində bədəni rütubətli olan halda toxunduğu şeylərin paklığının əsas olması hökmü icra olunur.

---

Sual: **303**. Bir nəfər insanın öz evində, yaxud qohumlarının evində olan və yaxud hər hansı bir şəxsin evinə gedib-gələn şəxs təharət-nəcasət məsələlərinə riayət etmir, nəticədə həmin şəxs evin, yaxud orada olan ev əşyalarının nəcis olmasına və həm də böyük miqyasda (belə ki, yuyulması, paklanması mümkün deyil) səbəb olur. Bu məsələ barəsində ev sahiblərinin vəzifəsi nədir? Fərz olunan halda insan necə pak qala bilər, xüsusilə də düz olması təharətlə şərtlənən namaz kimi əməllər üçün (necə pak qala bilər)? Bu barədə hökm nədir?

Cavab: Bu halda evin hər yerini paklamaq lazım deyildir; namaz qılanın paltarının, alnındakı səcdə yerinin paklığı namazın düz olması üçün kifayətdir. Ev və ondakı ev əşyalarının nəcis olması namazda, yeyib-içməkdə paklığa riayət etmək üçün əlavə bir vəzifənin irəli gəlməsinə səbəb olmur.

## Məstedici və buna oxşar şeylər

---

Sual: **304**. Üzümün və xurmanın suyu odda qaynasa və üçdə iki hissəsi azalsa, həmçinin məstedici də olmasa bunun hökmü nədir?

Cavab: Nəcis deyildir, lakin içilməsi haramdır.

Sual: **305**. Bəziləri deyirlər ki, əgər bir miqdar kal üzümün suyunu çıxarmaq üçün qaynadılanda onun içində də bir, yaxud bir neçə (yetişmiş) üzüm giləsi olsa, qaynadılandan sonra haram olur. Bu söz düzdürmü?

Cavab: Əgər (yetişmiş) üzüm gilələrinin suyu həqiqətdə az olsa və (yetişməmiş) üzüm suyunda daha "üzüm suyu" deyilməyəcək bir tərzdə qarışsa, (aradan getsə) bu halda halaldır. Amma əgər (yetişmiş) üzümün öz gilələri od üstündə qaynadılsa, haramdır.

---

Sual: **306.** Hal-hazırda spirtlərdən (əslində, məstedicidir) bəzi ədviyyələrin (xüsusilə içməli dərmanların), ətirlərin (xüsusilə xaricdən gətirilən spirt növlərinin) hazırlanmasında istifadə olunur. Bunu bilən, yaxud bilməyən şəxs üçün o maddələrlə al-ver etmək, onları hazırlamaq, istifadə etmək və s. kimi mənfəətlər götürməsinə icazə verirsinizmi?

Cavab: Əsli maye olan məstedicilər sinifindən olması məlum olmayan spirtlər pak hökmündədir; onun qarışdırıldığı mayelərdən istifadə etməyin, onlarla al-ver etməyin heç bir eybi yoxdur.

---

Sual: **307**. Ağ spirtlərdən əllərdə dezinfeksiya məqsədləri üçün, həmçinin tibbi vəsaitlərdən (qızdırmaölçən kimi) tibbi işlər sahəsində (təbibin və cərrahın vasitəsi ilə) işlətmək məqsədilə istifadə etmək caizdirmi? Ağ spirt tibbdə işlədilən, içilmə qabiliyyəti olan bir spirtdir. Onun kimyəvi tərkibi S2 NO-ONdır. Üstünə bu spirtdən bir damcı (yaxud daha çox) düşən paltarda namaz qılmaq caizdirmi?

Cavab: Əsli maye olmayan (hərçənd məstedici olsa da) spirt pak hökmündədir. Ondan tibb və s. işlərində istifadə etməyin heç bir maneəsi yoxdur. Bu cür spirt dəyən paltarda qılınan namaz düzdür, o paltarı paklamağa da ehtiyac yoxdur.

---

Sual: **308**. Bir növ maddə var ki, (adına "kəfir" deyirlər) yeyinti, dərman maddələri hazırlanmasında istifadə olunur. Xəmir yoğrulma əsnasında əmələ gələn qarışıq maddədə 5-8% o spirt əmələ gəlir. Az miqdarda olan bu spirt xəmirdə həll oluqda heç bir növ məstliyə səbəb olmur. Bu halda şəri nahiyədən bunları istifadə etməyin işkalı varmı?

Cavab: Əgər qarışıq maddədə mövcud olan spirt öz-özlüyündə məstedici olsa, nəcis və haramdır; hərçənd o spirt miqdarının azlığına və qarışıq maddəsi ilə qarışdığına görə məstedici olmasa da belə. Amma, əgər onun öz-özlüyündə məstedici olub-olmamasında, yaxud əsl etibarı ilə maye olmasında şəkk olsa, bu halda hökmlər fərqlənir.

---

Sual: **309.** 1-Etil spirti nəcisdirmi? (Zahirən bu spirt məstedicilər sırasındadır və məstliyə səbəb olur)

2- Spirtin nəcis olmasında əsas götürülən şey nədir?

3- Hər hansı bir içkinin məstedici olmasını isbat etmək üçün hansı yollar var?

4- Texniki spirt dedikdə məqsəd nədir?

Cavab: 1- Əsl etibarı ilə maye olan bütün məstedici şeylər nəcisdir.

2-Əsas budur ki, məstedici və əsl etibarı ilə maye olsun.

3- Əgər mükəlləfin özündə yəqinlik olmasa, etimadlı və (bu barədə) mütəxəssis olan şəxslərin deməsi kifayətdir.

4- Texniki spirt rənglərdə, boyalarda, rəssamlıqda işlənən rənglərdə, cərrahiyyə avadanlıqlarını və vurulan iynələri və s. dezinfeksiya etməkdə istifadə olunan spirtdir.

---

Sual: **310**. Satışda mövcud olan spirtsiz içkiləri, həmçinin ölkə daxilində hazırlanan spirtsiz içkiləri (limonad, koka-kola və s.) içməyin hökmü nədir? Halbuki, deyilənlərə görə, o içkilərin xammalı xaricdən gətirilir və ehtimalı var ki, onların içində spirt olsun.

Cavab: Bunlar pak və halal hökmündədirlər, amma mükəlləfin özündə o içkilərin əsl maye olan məstedici spirtlə qarışdırılması barədə yəqinlik olsa, bu halda nəcis və haramdır.

---

Sual: **311**. Ümumiyyətlə yeyinti məhsullarını alanda təhqiqat aparmaq zəruridirmi ki, görəsən onu satanın, yaxud hazırlayanın əli bu məhsullara toxunmuş, yaxud onun hazırlanmasında spirt işlədilmişdir?

Cavab: Bunları soruşmaq, yaxud təhqiqat aparmaq lazım deyildir.

---

Sual: **312**. Mən atrapin-sulfat dixlofosu hazırlamaq istəyirəm. Bu da spirt düzəltmək üçün onun dərman tərkibində (formulunda) əsas mərhələdir. Yəni, əgər biz bu tərkibə spirt əlavə etməsək, dixlofosu hazırlamaq mümkün olmayacaq. Əməliyyat nahiyələrində də qeyd olunan dixlofos dezinfeksiya maddəsidir, bununla əsəb sistemini iflic edən qazlar işlədiləndə İslam qüvvələrini mühafizə etmək mümkündür. Sizin mübarək rəyinizə əsasən, şəri nöqteyi-nəzərdən qeyd etdiyimiz tərzdə dava-dərman hazırlanmasında spirtdən istifadə etmək caizdirmi?

Cavab: Əgər spirt əsl maye və məstedici olsa, nəcis və haramdır; lakin dərman kimi işlədilməsinin heç bir eybi yoxdur.

## Vəsvəsə və onun əlacı

---

Sual: **313**. Bir neçə il bundan qabaq vəsvəsə bəlasına düçar olmuşam, bu da mənə doğrudan da əziyyət verir. Günbəgün bu vəsvaslıq haləti şiddətlənir, hətta, hər bir şeydə şəkk edirəm, bütün həyatım şəkk üzrədir. Şəkklərimin də əksəriyyəti yemək və rütubətli şeylərdədir. Buna görə də adi şəkildə, başqa adamlar kimi təsərrüf edə bilmirəm. Bir yerə girəndə corablarımı çıxarıram, çünki elə bilirəm ki, corabım tərləmişdir və sonra nəcis şeylərə dəyərək nəcis olacaqdır. Mən hətta səccadənin üstündə də otura bilmirəm; amma elə ki oturdum, daxilimdən gələn təhriklə ayağa dururam ki, səccadədə olan balaca tüklər paltarıma yapışmasın. Əgər yapışsa, naçar qalıb su ilə yuyuram.

Keçmişdə isə belə deyildim. Hazırda öz əməllərimdən xəcalət çəkirəm. Həmişə yuxuda bir adamı görmək, Suallarımı ona demək istəyirəm. Yaxud istəyirəm ki, bir möcüzə olsun, həyatımı dəyişsin və mən əvvəlki halıma qayıdam. Bu barədə mənə yol göstərin.

Cavab: Təharət və nəcasət hökmləri təfsilatı ilə əməliyyə risalələrində yazılmışdır. Şəriət nöqteyi-nəzərindəndə şəriət sahibinin nəcis olmasına hökm etdiyi və insanın (nəcis olmasını) yəqin etdiyi şeylərdən başqa hər şey pakdır. Belə hallarda vəsvaslıqdan xilas olmaq yuxunun, yaxud möcüzənin baş verməsinə bağlı deyil. Əksinə, mükəlləf şəxsə vacibdir ki, öz şəxsi zövqünü bir tərəfə qoysun, müqəddəs şəriət təlimlərinə qeydsiz-şərtsiz təslim olaraq qəbul etsin, onlara iman gətirsin, nəcis olduğunu yəqin etmədiyi şeyləri nəcis hesab etməsin. Sənə qapının, divarın, səccadənin, istifadə etdiyin sair əşyaların nəcis olması barədə haradan yəqin hasil olmuşdur? Haradan bilirsən ki, üstündə yeridiyin, yaxud oturduğun səccadənin tükləri nəcisdir və sonradan sənin corabına, paltarına və bədəninə keçəcək? Hər halda sənə caiz deyil ki, bu halətlə belə vəsvaslığa etina edəsən. Nəcasət vəsvaslığına etina etməməyin, həmçinin bu etinasızlığı artırmağın inşallah sənin vəsvaslıqdan xilas olmağına kömək edəcək.

---

Sual: **314**. Mən bir neçə övlad anasıyam. Onlar yuxarı siniflərdə oxuyurlar. Kömək istədiyim çətinlik təharət məsələsidir. Çünki mən dindar bir ailədə böyümüşəm, buna görə də bütün İslam təlimlərinə riayət etmək istəyirəm. Amma kiçik yaşlı uşaqlara da sahib olduğum üçün daimi onların bövl-ğait işlərilə məşğul oluram. Onların bövlünü paklayanda, bövl və ğaiti aparmaq üçün suyun şırıltı ilə (gur) axması nəticəsində su ayaqlarıma, üzümə, hətta başıma sıçrayır. Hər dəfə bu işi görəndə nəcis sıçramış bu üzvləri paklamaq kimi müşküllə qarşılaşıram. Bu da mənim məişətimdə çoxlu əlavə çətinliklərə səbəb olur; bir tərəfdən bu işlərə (paklığa) riayət etməyə bilmirəm, çünki bu iş əqidəm, dinimlə əlaqədardır. Bu barədə hətta həkimlərə də müraciət etmişəm, lakin heç bir nəticə hasil olmayıb. Başqa işlərdə də -məsələn nəcis şeyin tozu, yaxud uşağın nəcisə bulaşmış əlləri kimi işlərdə də əziyyətə düşürəm- ya paklamaq lazımdır, ya da onu (uşağı) başqa əşyalardan uzaqlaşdırmaq lazımdır. Halbuki, nəcis olan şeyi paklamaq mənim üçün çətindir. Lakin özü-özlüyündə bu paltarların və

qabların yuyulması yalnız çirkli olduqda çox asandır. Buna görə də ümidvaram ki, mənə yol göstərməklə məişət işlərimi mənə asanlaşdırasınız.

Cavab: Təharət və nəcasət babında müqəddəs şəriət nöqteyi-nəzərindən əsl (olan şey) təharətdir (pak olmasıdır). Yəni hər hansı bir yerdə nəcasətin olub-olmamasında azacıq da olsa şəkk hasil olsa, vacib olan budur ki, nəcasətin olmamasına hökm edəsən.

2- Nəcasət işlərində şiddətli nəfsani həssasiyyətləri olan şəxslər (bunlara İslamın fiqh terminində "vəsvas adamlar" deyirlər) hətta bəzi hallarda şeylərin nəcis olmasını yəqin etsələr də, onun nəcis olmamasını hökm etmələri vacibdir (nəcis olmağın hasil olmasını öz gözləri ilə görən hallar istisna olmaqla). Belə ki, əgər başqa bir şəxs onu görsə, nəcasətin keçməsinə yəqinlik tapar. Yalnız belə olan hallarda nəcis olmasını hökm etmək vacibdir. Bu hökm o şəxslər üçün bu həssaslıq tamamilə aradan qalxana kimi davam etməlidir.

3- Hər bir şey, yaxud bir üzv nəcis olsa, onu paklamaq üçün nəcasətin eyni yox olduqdan sonra krant suyunda yalnız bir dəfə yumaq kifayətdir; təkrarən yumaq, yaxud suyun altında qoymaq vacib deyildir. Əgər bu nəcis olmuş şey parça və bu kimi şeylərdən olsa, camaat arasında olan qayda üzrə sıxmaq (ondan su çıxana kimi) lazımdır.

4- Sən nəcasət məsələləri barədə şiddətli həssaslığa düçar olduğun üçün bilməlisən ki, nəcis (şeydən qalxan) tozlar sənə qarşı heç bir halda nəcis deyildir. Uşaqların pak, yaxud nəcis əlləri barədə muğayat olmağın lazım deyildir. Həmçinin qanın da bədəndən gedib-getməməsində dəqiqlik lazım deyildir. Bu hökm sənin barəndə bu həssasiyyət aradan qalxana kimi qalmalıdır.

5- İslam dinində asan və gözəl qanunlar vardır, bu qanun və hökmlər bəşər fitrəti ilə uyğundur. Onları uzatmaq və ləngitməklə özünü çətinliyə salma, öz cisminə, ruhuna zərər, əziyyət yetirmə. Bu hallarda baş verən iztirab və narahatçılıqlar ailə həyatına acılıq gətirir. Allah-Təala isə sənin və səninlə rabitədə olan adamların əzaba düşməyinə razı deyildir. Asan dinin nemətlərinə şükr et; bu nemətlərə şükr etmək Onun təlimlərinə müvafiq olaraq əməl etməkdən ibarətdir.

6- Bu halət tezkeçən və əlac olunası bir halətdir, çoxları da bu bəlaya düçar olandan sonra qeyd etdiyimiz qaydalara adət edərək rahatlanırlar.

Siz də Allaha təvəkkül edib, özünüzü iradə və səylə rahatlayın.

## Kafirlərin nəcisliyi

### Kitab əhlinin (xristian və yəhudilərin) pakliği və sair kafirlərin hökmü

---

Sual: **315**. Kitab əhli nəcisdir, yoxsa pak?

Cavab: Zatında pakdırlar.

---

Sual: **316**. Bəzi fəqihlər kitab əhlini nəcis, bəziləri isə pak hesab edirlər. Bu barədə Sizin rəyiniz nədir?

Cavab: Kitab əhlinin zati nəcasətliyi qeyri-məlumdur. Biz isə onların zatən pak olmalarına hökm edirik.

---

Sual: **317**. Xatəmün-nəbinin (s) peyğəmbərçiliyinə əqidə cəhətindən iman gətirən, lakin öz əcdadlarının adətləri əsasında rəftar edən kitab əhli təharət məsələlərində kafir hökmünə məhkum edilirlərmi?

Cavab: Sırf şəkildə Xatəmün-nəbi(s)nin peyğəmbərçiliyinə etiqad bəsləmək İslamı qəbul etməyə dair hökm etmək üçün kifayət deyildir. Lakin onlar kitab əhlindən sayılsa, bu halda pak hökmündədirlər.

---

Sual: **318**. Mən və dostlarımdan bir qrupu bir evdə kirayə otururuq və bilirik ki, onlardan biri namaz qılmır. Ondan izahat istədikdə cavab verdi ki, qəlbdə Allah-Təalaya imanı var, amma namaz qılmır. Biz onunla birlikdə çörək yeyib-içirik. Bizimlə onun arasında geniş miqyasda rabitə var. Bunları nəzərə almaqla, buyurun görək, o nəcisdir, yoxsa pak?

Cavab: Sırf şəkildə oruc, namaz, yaxud sair şəri vacibatları tərk etmək müsəlman şəxsin mürtəd olmasına, nəcis olmasına səbəb olmaz. Nə qədər ki, bir müsəlmanın mürtəd olması aşkar olmayıb, sair müsəlmanlar hökmündədir.

---

Sual: **319**. "Əhli-kitab" dedikdə hansı dinlərin tabeçiləri nəzərdə tutulur? Onlarla əlaqələrin həddi-hüdudunu təyin edən meyar nədir?

Cavab: Kitab əhli dedikdə özünü hər hansı bir ilahi dinin ardıcılı hesab edən, özünü Allah peyğəmbərlərindən birinin ümmətindən hesab edən və peyğəmbərlərə nazil olan bir səmavi kitabları olan (yəhudi, xaçpərəst, zərdüşt) şəxslər nəzərdə tutulur. (Bizim apardığımız təhqiqatlara əsasən, sabiunlar (ulduzpərəstlər) da əhli-kitabdandır.) Bu kimi şəxslərlə İslam qayda-qanunlarına, əxlaqına riayət etməklə rəftar etməyin heç bir eybi yoxdur.

---

Sual: **320**. Bir firqə vardır ki, özlərinə "Əliallahı" adı vermişlər. Onlar belə hesab edirlər ki, Əmirəl-möminin Əliyyibni Əbu Talib (ə) Allahdır. Bu şəxslər oruc-namaz yerinə raz-niyaza, duaya iman gətirirlər. Bu halda onlar nəcisdirlərmi?

Cavab: Əgər o firqə Əmirəl-möminin Əliyyibni Əbu Talib (ə) Allah olmasına etiqad bəsləyirlərsə (Allah belə şeylərdən çox-çox uzaqdır), onların hökmü əhli-kitabdan qeyriləri olan qeyri-müsəlmanların hökmüdür.

---

Sual: **321**. Bir firqə var ki, özlərini Əliallahı adlandırırlar və deyirlər ki, Əli Allah deyil, lakin heç Ondan da geri qalmır. Bunların hökmü nədir?

Cavab: Əgər onlar Vahid, Mənnan və Mütəal Allah üçün şərik qoşmasalar, onların hökmü müşrik hökmü deyil. (Müşriklər nəcisdir).

---

Sual: **322**. 12 imamçı şiələr tərəfindən imam Hüseyn (ə), yaxud Ali-əba (s) üçün nəzir olunan şeyləri Əliallahı firqəsindən olan şəxslərin yığışdığı mərkəzlərə, yaxud müəyyən yollarla o mərkəzlərin dirçəldilməsinə səbəb olan mərkəzlərə təqdim etmək olarmı?

Cavab: Təkallahlıların ağası Əmirəl-mömininin (ə) Allah olmasına etiqad bəsləmək batil bir əqidədir. Onun Allah olmasına etiqad bəsləmək İslamdan çıxmağa səbəb olar. Bu batil əqidəni yaymaq üçün göstərilən kömək haramdır. Bundan əlavə, nəzir olunan şeyləri onun nəzir olunduğu yerdən başqasına istifadə etmək caiz deyildir.

---

Sual: **323**. Bizim məntəqənin ətraf nahiyələrində, həmçinin başqa nahiyələrdə "İsmailiyyə" adlı bir firqə vardır. Onlar məsum imamlardan (ə) altısının imamətinə etiqad bəsləyirlər. Lakin heç bir dini vacibatlara imanları yoxdur, həmçinin vilayəti-fəqihə də inanmırlar. Buna görə də rica edirəm ki, buyurun görək, bu firqənin ardıcılları nəcisdir, ya pak?

Cavab: Sırf şəkildə yerdə qalan 6 imama, yaxud hər hansı bir şəriət hökmünə etiqad bəsləməmək nə qədər ki, bu şəriətin əslinin inkarına gətirib çıxarmır, həmçinin Xatəmün-nəbinin (s) nübüvvətinin inkar olunmasına gətirib çıxarmır, küfrə və nəcasətə səbəb olmur. Amma əgər onlardan hər hansı bir imama qarşı söyüş, yaxud əhanət baş versə, nəcis sayılırlar.

---

Sual: **324**. Biz yaşadığımız yerdə camaatın əksəriyyəti kafirdir. Universitet tələbəsi bir ev icarə edəndə bu evin pak, yaxud nəcis olması hökmü nədir? Bu evi yumaq zəruridirmi? Həm də evlərin çoxu taxtadan hazırlanıb, yuyulması da mümkün deyil. Həmçinin, mehmanxanalar, onlarda olan avadanlıqlar və s. qarşısındakı hökm nədir?

Cavab: Nə qədər ki kitab əhlindən olmayan kafirlərin bədənindəki keçici rütubətin dəyməsi aşkar olmayıb, nəcis hökmündə deyil; və (o evin) nəcis olmasına yəqinlik olan halda o mənzilin, yaxud mehmanxananın divarlarını, qapılarını, həmçinin o evdə olan ev əşyalarını paklamaq vacib deyil. Amma əgər yemək-içmək və namazda işlədilən şeylər nəcis olsa, yalnız bunları paklamaq lazımdır.

---

Sual: **325**. Xuzistanda yaşayanların bir qismi özlərini “sabiə” adlandırırlar, deyirlər ki, “biz Yəhya peyğəmbərin (ə) tabeçiləriyik və onun kitabı bizim əlimizdədir”. Lakin din alimləri üçün sübut olunmuşdur ki, onlar adları Qurani-Kərimdə qeyd olunan sabiunlardır. Rica edirik buyurun görək onlar kitab əhlidirlərmi?

Cavab: Qeyd olunan tayfa kitab əhli hökmündədir.

---

Sual: **326**. Deyirlər ki, kafirin əli ilə tikilən evlər nəcis olur və onda namaz qılmaq məkruhdur. Bu söz düzdürmü?

Cavab: Qeyd olunan evdə namaz qılmaq məkruh deyildir.

---

Sual: **327**. Yəhudilər və sair kafir firqələr üçün işləyib muzd almağın hökmü nədir?

Cavab: Nə qədər ki, bu iş haram işlərdən, həmçinin müsəlmanların, İslamın ümumi mənafeyinin ziddinə deyil, öz-özlüyündə bu işin heç bir eybi yoxdur.

---

Sual: **328**. Əsgərlik xidmətini yerinə yetirdiyimiz məntəqədə özlərinin “Əl-həqq” məzhəbində olduqlarını deyən bəzi köçərilər vardır. Onların əllərində mövcud olan südü, yağı, pendiri istifadə etmək olarmı?

Cavab: Əgər İslam üsullarına etiqad bəsləsələr, təharət-nəcasət məsələlərində sair müsəlmanlar kimidirlər.

---

Sual: **329**. Dərs dediyimiz kəndin əhalisi namaz qılmırlar, çünki onlar “Əl-həqq” firqəsindəndirlər. Biz də çarəsizlik üzündən onların çörəklərindən, yeyinti məhsullarından yeyirik. Gecə-gündüz o kənddə qaldığımız üçün oradakı namazlarımızın işkalı varmı?

Cavab: Əgər tövhidi, nübüvvəti, həmçinin dinin zərurətindən olan bir şeyi inkar etməzlərsə və həmçinin İslam Peyğəmbərinin (s) risalətini naqis hesab etmirlərsə, onların küfr, nəcis olmaları hökm olunmaz. Bundan qeyri hallarda onlarla görüşəndə, onların yeyinti məhsullarını yeyəndə təharət-nəcasət məsələlərini nəzərə almaq lazımdır.

---

Sual: **330**. Qohumlarımızdan biri kommunist olmuşdur. Uşaqlıq vaxtında isə bizə çoxlu mal-dövlət, avadanlıq vermişdir. O mal-dövlət və avadanlıqlar hal-hazırda mövcud olsa, hökmü nədir?

Cavab: O qohumun küfrü, mürtəd olması sübut edilsə və küfrü də həddi-büluğ çağında, İslamı qəbul etməzdən əvvəl seçmişdirsə, onda onun mal-dövlətinin hökmü sair kafirlərin hökmü kimidir.

---

Sual: **331**. Rica edirik, aşağıdakı Suallara cavab verəsiniz:

1. Müsəlman şagirdlərlə azğın bəhai firqəsinin şagirdləri (istər oğlan olsun, istərsə də qız; istər mükəlləf olsun, istərsə də qeyri-mükəlləf; istər məktəbin daxilində olsun, istərsə də xaricində) arasında (ibtidai, orta və müqəddimati illərdə) bir yerdə oturmaq, gediş-gəliş, (əllə) görüşmək kimi işlərin hökmü nədir?

2. Müəllimlər, tərbiyəçilər öz bəhai olmalarını aşkar edən, yaxud bəhai olmaları barədə yəqinlik hasil olan şagirdlərlə necə rəftar etməlidirlər?

3. Şəriət nöqteyi-nəzərindən bütün şagirdlərin istifadə etdikləri avadanlıqların -su və tualet krantları, su lülələri, sabunlar və s. kimi- hökmü nədir? Halbuki, onların bədən və əllərinin rütubətli olmasına yəqinliyimiz var.

Cavab: Azğın bəhai firqəsindən olan şəxslərin hamısı nəcisdir. Onlar bir şeyə toxunduqda təharət məsələlərinə riayət etmək (təharətlə şərtlənən işlərdə) vacibdir. Lakin müəllimlərin, müdirlərin, tərbiyəçilərin bəhai şagirdlərlə rəftarları hökmən İslam əxlaqına, qoyulan qanunlara müvafiq olmalıdır.

---

Sual: **332**. Mömin və möminələrin zəlalətdə olan bəhai firqəsi ilə qarşılaşanda vəzifələri, İslam təşkilatlarının içində olan bu firqə ilə dostluq təzahür etməyə bağlı olan vəzifələri nədir?

Cavab: Bütün möminlərə vacibdir ki, zəlalətdə olan bəhai firqəsinin fəsad törətməsini, hiyləgərliklərini camaata çatdırsınlar, başqa şəxslərin bu azğın firqəyə doğru yönəlmələrinin, inhirafa düşmələrinin qarşısını alsınlar.

---

Sual: **333**. Bəzi vaxtlar zəlalətdə olan bəhai firqəsinin ardıcılları bizə yeyinti məhsulları və başqa şeylər gətirirlər. Bu kimi şeylərdən bəhrələnmək bizim üçün caizdirmi?

Cavab: Onların hədiyyələrini geri qaytarmaq, onları qəbul etməkdən imtina etmək vacib deyil. Əgər onların bədənlərinin o hədiyyələrə toxunmasında (rütubətli olan halda) şəkk edirsinizsə, (o şeylərin) pak olduğunu qəbul etməlisiniz. Lakin sizin vəzifəniz budur ki, onları İslama təmayüllü edib yol göstərəsiniz.

---

Sual: **334**. Bizim qonşuluğumuzda çoxlu bəhai yaşayır və bizim evimizə get-gəl edirlər. Bəzi şəxslər deyirlər ki, bəhailər nəcisdirlər, baziləri isə deyirlər ki, pakdırlar. Bəhailərin əxlaqları çox da pis deyil. Onlar nəcisdirlərmi?

Cavab: Onlar nəcisdirlər, sənin din və iman düşmənindir. Ey əziz oğlum, onlardan ciddi şəkildə uzaq ol!

---

Sual: **335**. Müsəlmanların və kafirlərin istifadə etdikləri qatar və maşın oturacaqlarının hökmü -bəzi məntəqələrdə kafirlərin müsəlmanlardan çox olmasını bilərək- nədir? Bu oturacaqlar pak sayıla bilərmi, halbuki, havanın istiliyi bədənlərin tərləməsinə və bu rütubətin oturacaqlara keçməsinə səbəb olur!

Cavab: Bu oturacaqların nəcisliyinə dair elm olmadıqda pak hökmündədir.

---

Sual: **336**. Xarici ölkələrdə təhsil almaq kafirlərlə əlaqə saxlamağı tələb edir. Belə olan hallarda o kafirlərin əlləri ilə hazırlanan yeyinti məhsullarının (təzkiyə olunmamış ət və s. kimi haram qarışıqların olmaması şərtilə), bu məhsulların kafirin əlinə rütubətli olan halda toxunması ehtimalı ilə hökmü nədir?

Cavab: Kafirin rütubətli əllərinin o məhsullara toxunmasını sırf olaraq ehtimal vermək ondan çəkinməyin vacibliyinə səbəb olmaz; nə qədər ki, əllərin toxunmasına dair yəqin hasil olmayıbdır, pak hökmündədir. Kafir də kitab əhlindən olsa, nəcis olması zati deyildir və onun rütubətli əllərinin toxunması nəcisliyə səbəb olmaz.

---

Sual: **337**. İslam hökuməti sayəsində yaşayan müsəlman bir şəxsin bütün məxarici və məsrəfləri təmin olunsa və həmçinin qeyri-müsəlman bir şəxsin qulluğunda olsa və o şəxslə yaxın əlaqəsi olsa, bu halda onunla möhkəm ailəvi əlaqələr bərqərar etmək, bəzi vaxtlar onun yeməyindən yemək caizdirmi?

Cavab: Müsəlmanların qeyd olunan müsəlmanla əlaqə yaratmasında heç bir işkal yoxdur. Lakin qeyd olunan müsəlman şəxsdə xidmət etdiyi qeyri-müsəlman şəxs tərəfindən öz əqidəsindən inhirafa yuvarlanması və sair qorxulu olsa, bu halda bu əməldən uzaq olması vacibdir. Fərz olunan halda başqalarına da vacibdir ki, o müsəlmanı pis işlərdən çəkindirsinlər.

---

Sual: **338**. Arvadımın qardaşı müxtəlif səbəblərə görə fəsada çəkilmiş, tamamilə dindən çıxmışdır. Hətta iş o yerə çatıb ki, bəzi dini müqəddəslərə təhqirlə yanaşır, bunu ört-basdır etmək istəyir. Hal-hazırda, İslamdan çıxıb mürtəd olmasından bir neçə il keçəndən sonra, göndərdiyi bir məktubda bildirmişdir ki, o, İslama iman gətirib, lakin qəti olaraq namaz qılıb oruc tutmur. Bu halda atasının, anasının və başqa ailə üzvlərinin ona qarşı məhəbbəti necə olacaq? Kafirin hökmü ona aiddirmi və onu nəcis hesab etmək vacibdirmi?

Cavab: Onun keçmişdə dindən çıxmasının sübut edildiyi halda, əgər bundan sonra tövbə etsə, pak hökmündə olar; onun valideyninin, sair ailə üzvlərinin onunla əlaqə saxlamalarının heç bir eybi yoxdur.

---

Sual: **339**. Dinin bəzi zəruri işlərini, oruc və s. kimi, inkar edən şəxsə kafirin hökmü aid edilirmi?

Cavab: Əgər onun dinin zəruri işlərindən birini inkar etməsi risalətin inkarına, yaxud İslam Peyğəmbərinin (s) təkzib olunmasına, yaxud da şəriətə nöqsan gətirilməsinə səbəb olarsa, bu küfr və dindən çıxmaq olur.

---

Sual: **340**. Mürtəd və hərbi kafirlər[5237] üçün nəzərdə tutulan cəza tədbirləri siyasi işlər sırasındadırmı, rəhbəriyyət məsuliyyətindəndirmi, yoxsa bu cəzalar qiyamət gününə kimi sabit olaraq qalır?

Cavab: Bu cəza tədbirləri ilahi-şəri hökmdür.

# Namaz

## Namazın əhəmiyyəti və şərtləri

---

Sual: **341**. Namazı qəsdən tərk edən, yaxud onu yüngül sayan şəxsin hökmü nədir?

Cavab: İslam şəriətində beşlik təşkil edən gündəlik vacib namazlar çox mühüm vacibatlardandır; namaz dinin rüknüdür; onu tərk etmək, yaxud yüngül saymaq şəriət nöqteyi-nəzərindən haramdır, əzaba düçarolma səbəbidir.

---

Sual: **342**. Təharət üçün su və ya torpağı olmayan şəxsə namaz vacibdirmi?

Cavab: Əda vaxtında qılmaq vacib deyildir, hərçənd müstəhəb ehtiyat budur. Və vacib ehtiyat qəzasını qılmaqdır.

---

Sual: **343.** Sizin rəyinizə görə, vacibi namazda hansı hallarda üdul etmək (niyyətdən dönmək) olar?

Cavab: Aşağıdakı hallarda namaz qılana üdul etmək vacibdir:

-Əsr namazı əsnasında başa düşsə ki, zöhr namazını qılmayıb, bu halda əsr niyyətindən zöhr niyyətinə keçməlidir.

-İşa namazı əsnasında və üduletmə məhəllinə (4-cü rəkətin rükusuna) çatmazdan əvvəl başa düşsə ki, məğrib namazını qılmayıb, bu halda niyyəti məğrib namazına döndərməlidir.

-İnsanın boynunda tərtiblə olan iki namazın qəzası olsa və o da unudaraq sonrakı namazı başlamış olsa, bu halda əvvəlki namazın niyyətinə keçməlidir.

Aşağıdakı hallarda niyyəti dəyişmək müstəhəbdir:

-Ədadan vacibi qəzaya dəyişmək, əgər bununla ədanın fəzilət vaxtı əldən çıxmazsa.

-Camaat namazına çatmaq üçün vacibi namazın niyyətini müstəhəbbi namaza döndərmək.

-Cümə gününün zöhründə "Cümə" surəsini yaddan çıxarıb başqa bir surə oxuyan, bu surənin yarısına çatan, yaxud yarıdan keçən şəxs üçün müstəhəbdir ki, vacibi namazını müstəhəbbi namaza döndərsin, təki vacibi namazı "Cümə" surəsilə birlikdə qılsın.

---

Sual: **344**. Cümə günü günorta çağı cümə və zöhr namazının hər ikisini qılmaq istəyən şəxs hər birində yalnız qürbət qəsdi (vacibliyi qəsd etmədən) niyyət edir, yoxsa həm qürbət və həm də vacib niyyəti edir?

Cavab: Hər birində qürbət qəsdi etmək kifayətdir; heç birində vacib olma qəsdi etmək lazım deyildir.

---

Sual: **345**. Əgər vacib namazın əvvəl vaxtından axır vaxtına qədər ağızdan, yaxud burundan dayanmadan qan axırsa, bu halda namazın hökmü nədir?

Cavab: Bədəni pak etmək mümkün olmazsa və vacib namazın vaxtının keçməsi gözlənilirsə, elə bu halda namaz qılmalıdır.

---

Sual: **346**. Namazda müstəhəbb zikrləri deyəndə bədənin tamamilə aram olması vacibdirmi?

Cavab: Namazın zikrlərini deyəndə bədənin aram, sakit olmasının vacibliyində vacib və müstəhəbb zikrlər arasında heç bir fərq yoxdur.

---

Sual: **347**. Xəstəxanlarda bəzi xəstələrin bövl etməsi üçün şlanq qoyulur və bu halda bövl xəstədən ixtiyarsız olaraq çıxır (ayıqlıqda, yuxuda, namaz vaxtı). Rica edirik, aşağıdakı Suala cavab verin:

-Namazını yenidən qılması vacibdirmi, yoxsa elə bu halda qıldığı namaz kifayətdir?

Cavab: Bu halda qıldığı namaz hal-hazırdakı şəri vəzifəsinə müvafiq olsa, düzdür və qəzası, yaxud yenidən qılınması vacib deyil.

---

Sual: **348**. Müstəhəbb qüsl ilə, dəstəmaz almadan qıldığım namazlar düzdürmü?

Cavab: Əgər namazları şəri cəhətdən təqlidinə vəzifəli olduğun, etiqad bəslədiyin mərcenin fitvasına müvafiq olaraq qılmısansa, bu halda düz hökmündədir.

## Namazin vaxtları

---

Sual: **349**. Gündəlik vacib namazların vaxtları barədə şiə məzhəbinin arxalandığı dəlil nədir? Bildiyiniz kimi sünnilər işa namazının vaxtının daxil olmasını məğrib namazının qəzaya getməsi üçün şərt bilirlər. Həmçinin, zöhr və əsr namazlarında da elə bu cür deyirlər. Elə buna görə də elə ki, işa namazına başlandı, daha məmumlar onunla birlikdə (məğrib və işa namazlarını bir yerdə qılsınlar deyə) məğrib namazını qıla bilməzlər.

Cavab: Bu kimi dəlillərimiz bu barədə olan rəvayətlərdən, xüsusilə iki namazı bir yerdə qılmağın caiz olduğuna dəlalət edən rəvayətlərdən əlavə, şərif Peyğəmbər (s) sünnəsi və Quran ayələridir. Halbuki, məlum olduğu kimi sünnilərdə də iki namazı bir yerdə qılmağın (onlardan birinin vaxtında) caiz olmasına dəlalət edən rəvayətlər vardır.

---

Sual: **350**. Əsr namazının axır vaxtının məğrib olmasını, zöhr namazının axır vaxtının məğribdən bir az əvvəl -əsr namazına lazım olan vaxta qədər olduğunu nəzərə alaraq soruşmaq istəyirəm ki, məğrib dedikdə, nə nəzərdə tutulur? Məğrib Günəşin batmasıdır, yoxsa məğrib azanı deyilən vaxtdır? (Yerli vaxtlara əsasən)

Cavab: (Məğrib dedikdə) Günəşin batması nəzərdə tutulmur; məqsəd məğrib azanının vaxtı, yəni məşriqdəki qızartının yox olması vaxtıdır ki, bu da əsr namazının axırıncı vaxtı, məğrib namazının əvvəl vaxtına birləşmiş olur.

---

Sual: **351**. Günəşin batması ilə məğrib azanının arasında nə qədər zaman fasiləsi var?

Cavab: İlin fəsilləri dəyişdikcə bu fasilə də dəyişir.

---

Sual: **352**. Mən iş yerindən təxirlə gəlirəm. Belə ki, gecə saat 11-də evə qayıdıram, işdə də müraciət edənlərin çoxluğuna görə, məğrib və işa namazlarını qılmağa macal olmur. Bu halda məğrib və işa namazlarını gecə saat 11-dən sonra qılsam düzdürmü?

Cavab: Nə qədər ki, namazların təxirə salınması gecə yarısından o tərəfə keçməsinə gətirib çıxarmır, eybi yoxdur. Lakin çalış ki, namazın gecə saat 11-dən gec olmasın, üstəlik çalış ki, namazı əvvəl vaxtda qılasan.

---

Sual: **353**. Hansı vaxta qədər namazın əda niyyəti ilə qılınması düz olar və bu miqdar namazın namaz vaxtı daxilində olub-olmamasında şəkk olunsa, bu halda hökm nədir?

Cavab: Namazda bir rəkət miqdarında vaxtın axırında qılınması onun əda sayılması üçün kifayətdir və əgər bu vaxtın aşağısı bir rəkət üçün kifayət edib-etməməsində şəkk etsək, gərək boynunda olan namaz qəsdi ilə namaz qılasan, əda, yaxud qəza niyyəti də etməyəsən.

---

Sual: **354**. İİR-nın qeyri-islami ölkələrdə səfirliklər və konsulluqlarda böyük şəhər və mərkəzlərdə şəri vaxtları təyin etmək üçün bir cədvəl tərtib edilmişdir. Bu cədvələ nə dərəcədə etimad etmək olar?

İkinci Sual da budur ki, bu ölkələrin sair şəhərlərində nə etmək lazımdır?

Cavab: Əsas meyar mükəlləf şəxs üçün arxayınçılığın hasil olmasıdır. Amma əgər onun üçün bu cədvəllərin həqiqətə uyğun olması barədə etimad hasil olmazsa, vacibdir ki, ehtiyat etsin, şəri vaxtın daxil olmasına dair yəqinlik hasil olsun.

---

Sual: **355**. Sadiq və kazib fəcrlər barədə Sizin rəyiniz nədir? Bu barədə mükəlləf şəxsin vəzifəsi nədir?

Cavab: Namazın, orucun vaxtlarında şəri meyar sadiq fəcrdir, onun aşkar olması da mükəlləf şəxsin ayırd etməsi ilədir.

---

Sual: **356.** Məktəblərin birində məktəbin məsuliyyətli şəxsləri zöhr və əsr namazlarını camaatla, zöhrdən sonra saat ikidə, həm də ikinci növbə dərslərinin başlanmasından azacıq əvvəl qılırlar. Namazın təxirə düşməsinin səbəbi budur ki, sübh növbəsində olan dərslər şəri zöhrdən qabaq qurtarır, şagirdləri də şəri zöhrə qədər saxlamaq çətin məsələdir. Namazın əvvəl vaxtda qılınmasının əhəmiyyətini nəzərə alaraq, bu barədə Sizin rəyiniz nədir?

Cavab: Namaz qılanların məktəbdə əvvəl vaxtda bir yerə yığışmalarının mümkün olmamasını nəzərə alaraq, camaat namazının təxirə düşməsinin (namaz qılanlar bir yerə yığışsın deyə) eybi yoxdur.

---

Sual: **357**. Zöhr namazını zöhr azanından sonra, əsr namazını onun vaxtı daxil olandan sonra (həmçinin məğrib, işa namazlarını da həmin qayda ilə) qılmaq vacibdirmi?

Cavab: Vaxt daxil olandan sonra mükəlləf şəxs onları bir yerdə, yaxud ayrı-ayrı qılmaqda ixtiyar sahibidir.

---

Sual: **358**. Aylı gecələrdə sübh namazını qılmaq üçün azandan sonra 15-20 dəqiqə gözləmək vacibdirmi? Halbuki, vaxt çoxdur və fəcrin açılmasına dair yəqinliyin hasil olması mümkündür.

Cavab: Aylı gecələrlə sair gecələr arasında fəcrin açılmasının, sübh namazının vaxtının, oruc tutmağın vacib olma vaxtının heç bir fərqi yoxdur. Hərçənd, belə vaxtlarda ehtiyat etmək yaxşıdır.

---

Sual: **359**. Əyalətlərin şəri vaxtlarında üfüqlərin dəyişməsi səbəbilə olan fərqlərin miqdarı gündəlik vacibi namazlarda (zöhr, əsr, məğrib) eynidirmi? Məsələn, zöhr vaxtında iki əyalət arasındakı fərq 25 dəqiqədir. Başqa vaxtlarda da belə olmalıdırmı, yoxsa bu fərq sübh və işa vaxtlarında dəyişir?

Cavab: Onların arasında olan sırf şəkildə fərqin miqdarının eyni olması (fəcr açılanda, günorta çağı, gün batanda) başqa vaxtlarda da bir olmasına gətirib çıxarmır. Müxtəlif məntəqələr arasındakı fərqin miqdarı əksər vaxtlar hər 3 vaxtda dəyişir.

---

Sual: **360**. Sünnilər məğrib namazını şəri qürubdan əvvəl qılırlar. Həcc mövsümündə və sair vaxtlarda bizə caizdirmi ki, onlara iqtida edərək namaz qılaq və elə bu namazla da kifayətlənək?

Cavab: Onların namazının vaxt daxil olmamışdan qılınması məlum deyil. Onların camaat namazında iştirak etməyin və onlara iqtida etməyin heç bir eybi yoxdur, belə qılınan namaz kifayətdir. Lakin namazın vaxtının daxil olmasını bilmək labüd olan məsələlərdəndir. Amma təqiyyə məsələsində eybi yoxdur.

---

Sual: **361**. Norveçdə və Danimarkada günəş sübh saat 7-də çıxır və günortadan sonra gecə saat 12-yə qədər parlayır, halbuki, başqa yaxın ölkələrdə saat 12-də artıq gecədir. Bu halda mənim namaz-oruca dair olan vəzifəm nədir?

Cavab: O yerin şəri vaxtlarına (gündəlik namazların vaxtları qarşısında) riayət etmək vacibdir. Əgər oruc tutmaq gündüzün uzun olması səbəbilə əziyyət yetirsə, əda vaxtında boynundan düşür, qəzası vacib olur.

---

Sual: **362**. Günəş şüaları təqribən 7 dəqiqə müddətində yerə gəlib çatır. Sübh namazının axır vaxtında günəşin çıxması əsas götürülür, yoxsa şüanın yerə çatması?

Cavab: Əsas günəşin çıxması, namaz qılanın olduğu yerdə görünməsidir.

---

Sual: **363**. İnformasiya vasitələri hər günün şəri vaxtlarını bir gün əvvəldən elan edirlər. Bunlara etimad etmək, azanın radio və televiziyadan efirə buraxılmasından sonra vaxtın daxil olduğunu qəbul etmək caizdirmi?

Cavab: Əsas mükəlləf üçün vaxtın daxil olmasına dair arxayınçılığın hasil olmasıdır.

---

Sual: **364**. Namazın vaxtı azanın başlanması ilə başlayırmı? Yoxsa azanın qurtarmasını gözləmək, sonra namaza başlamaq lazımdır? Həmçinin oruc tutan şəxsin azanın başlaması ilə eyni zamanda iftarını açması caizdirmi, yoxsa azanın qurtarmasını gözləməlidir?

Cavab: Əgər məlum olsa ki, azan vaxtın daxil olması ilə eyni zamanda verilir, bu halda qurtarmasını gözləmək lazım deyildir.

---

Sual: **365**. İkinci namazı birincidən əvvəl (məsələn, işa namazını məğribdən əvvəl) qılan şəxsin namazı düzdürmü?

Cavab: Səhvən, yaxud qəflət üzündən ikincini qabağa salsa və qurtarsa, düz olmasında heç bir işkal yoxdur; amma bilərəkdən qabağa salsa, batildir.

## Qiblənin hökmləri

---

Sual: **366**. Rica edirəm, aşağıdakı Suallara cavab verin:

1-Bəzi fiqh kitablarına istinad edərək qeyd olunub ki, günəş xordadın 4-ündə (mayın 25-də) və tirin 26-sında (17 iyulda) [5238] Kəbənin üzərində tam şaquli vəziyyətdə olur. Belə olan hallarda qiblənin istiqamətini şaquli basdırılan ağac vasitəsi ilə Məkkə azanı deyilən vaxtda təyin etmək olarmı? Və məscidlərin mehrablarında qiblənin cəhəti şaxisin kölgəsinin cəhəti ilə fərqlənsə, hansı daha düzdür?

2- Qiblənaməyə etimad etmək olarmı?

Cavab: Qiblənaməyə, şaxisə etimad etməklə mükəlləf üçün qiblənin cəhəti barədə yəqinlik hasil olsa - düzdür və ona uyğun olaraq əməl etmək vacibdir. Amma deyilənlərə yəqinlik hasil olmasa, bu halda qiblənin cəhətini təyin etmək üçün məscidlərin mehrablarına, yaxud müsəlmanların qəbirlərinə etimad etməyin heç bir eybi yoxdur.

---

Sual: **367**. Hərbi əməliyyatlarda döyüşün şiddəti qiblənin cəhətini təyin etməyə maneçilik törətsə, hər hansı bir istiqamətə qılınan namaz düzdürmü?

Cavab: Əgər vaxt olsa, dörd tərəfə namaz qılmaq lazımdır. Amma əgər vaxt olmasa, bu halda vaxtın imkan verdiyi qədər (qiblə üçün) ehtimal verilən cəhətlərə təkrarən namaz qılmaq lazımdır.

---

Sual: **368**. Kəbənin qarşısında olan bir nöqtənin yer kürəsinin başqa bir cəhətində olduğu məlum olsa, belə ki, əgər Kəbənin olduğu yer onu kəsən halda düz bir xətt keçirilsə, yerin mərkəzindən keçib, bu nöqtədə olan başqa bir nahiyədən çıxacaq. O nöqtədə qiblə ilə necə üzbəüz durmaq lazımdır?

Cavab: Üzü qibləyə durmaqda əsas vacib olan yer səthində Kəbə Evinə doğru durmaqdır. Belə ki, yerin üstündə duran şəxs üzünü Məkkədəki Kəbə Evinə tərəf döndərsin. Bu halda əgər yer üzərində hər hansı bir nöqtədə dursa və yerin kürəvi səthinə toxunaraq onun durduğu yerdən keçən xətlər məsafədə bərabər olsa, bu halda həmin şəxs ixtiyar sahibidir, hər hansı istiqamətdən istəsə, üzünü qibləyə döndərsin. Amma əgər məsafə bəzi tərəflərdən az və qısa olsa və bu miqdarla camaat arasında (qibləyə) "üz tutma" fərqlənsə, bu halda ən qısa tərəfi seçməsi vacibdir.

---

Sual: **369**. Bir yerdə olub qiblənin cəhətini bilmədikdə və həmçinin qibləni təyin etmək üçün bir vəsait də olmadıqda nə etməliyik? Qiblənin də hər dörd cəhətdə olması ehtimalı var.

Cavab: Əgər qiblənin cəhəti ehtimalı hər dörd tərəfdə bərabər olsa, hər dörd tərəfə namaz qılmaq lazımdır ki, nəhayət namazın qibləyə doğru qılınması yəqin olunsun.

---

Sual: **370**. Qiblənin cəhətini necə təyin etmək olar? Şimal və cənub qütblərdə namaz necə qılınır?

Cavab: Qiblənin qütblərdə təyin olunmasında əsas namaz qılanın olduğu yerdən Kəbəyə qədər ən qısa xətti təyin etmək, sonra bu xətt əsasında qibləyə üz tutmaq lazımdır.

## Namaz qılanın məkanının hökmləri

---

Sual: **371**. Zalım dövlətin qəsb etdiyi məkanlarda oturmaq, namaz qılmaq, yaxud onun üstündən keçmək olarmı?

Cavab: Onların qəsb olunmasını bildikdə hökmləri istifadə etməyin caiz olmamasında və zamin olmamasında qəsb olunmuş şeylərin hökmü kimidir.

---

Sual: **372**. Keçmişdə vəqf olunan və hökumət tərəfindən (onun) mülkünə qatılıb mədrəsə tikilən yerdə namaz qılmağın hökmü nədir?

Cavab: Əgər bunun dövlət mülkünə qatılmasına dair şəri bir icazə olması barədə etimad olunası bir şəkildə ehtimal verilirsə, onda namaz qılmağın heç bir eybi yoxdur.

---

Sual: **373**. Mən məktəblərin birində camaat namazı qılıram. Bu məktəbin bəzi yerləri onun keçmiş sahiblərindən, onların icazəsi olmadan alınmışdır. Mənim və şagirdlərin belə bir məktəbdə qıldığı namazın hökmü nədir?

Cavab: Əgər o yerin şəri sahibindən qəsb olunması aşkar olmazsa, onda namaz qılmağın heç bir eybi yoxdur.

---

Sual: **374**. Bir şəxs uzun müddət xums düşən bir səccadənin üzərində, yaxud belə bir paltarda namaz qılsa, o namazın hökmü nədir?

Cavab: O şəxs xumsun belə şeylərə düşməsini bilməsə, yaxud o şeylərə malik olmaq hökmünü bilməsə, o paltarda (yaxud səccadədə) qıldığı keçmiş namazlar düz hökmündədir.

---

Sual: **375**. Deyirlər ki, namazda kişilərin qadınların qabağında olmaları vacibdir. Bu düzdürmü?

Cavab: Vacib deyildir. Hərçənd (bu məsələdə) ehtiyata riayət etmək daha yaxşıdır.

---

Sual: **376**. Bir nəfər hökumət evində yaşayır və onun bu evdə yaşama müddəti qurtarmış, evi boşaltmağın vacibliyi barədə xəbər çatmışdır. Evi boşaltmaq üçün təyin olunmuş vaxtdan sonra o şəxsin orucları, namazlarının hökmü nədir?

Cavab: Əlaqədar təşkilatların məsuliyyətli şəxsləri tərəfindən o evdən, müəyyən olunmuş vaxt qurtarandan sonra istifadə etmək üçün icazə verilməzsə, o evdən istifadə etmək qəsb hökmündədir.

---

Sual: **377**. Üzərində şəkil olan səccadənin, yaxud üstündə naxışlar olan türbətin üstündə namaz qılmaq məkruhdurmu?

Cavab: Bunun öz-özlüyündə eybi yoxdur, lakin əgər bu iş şiələrə ittiham, töhmət vuran şəxslərin əlinə bir bəhanə verirsə, bu halda onları hazırlamaqdan, üzərində namaz qılmaqdan çəkinmək vacibdir.

---

Sual: **378**. Namaz qıldığımız yer pak olmasa, yalnız səcdə yeri pak olsa, bu halda namazımız düzdürmü?

Cavab: Əgər o yerin nəcasəti paltara, yaxud bədənə keçən olmasa və səcdə yeri pak olsa, orada namaz qılmağın heç bir eybi yoxdur.

---

Sual: **379**. Bizim iş yerinin idarəsinin yeri əvvəldə qəbiristanlıq olub və 40 il bundan əvvəl bu qəbiristanlıq unudulmuş, 30 il bundan qabaq onun üzərində bu bina tikilmişdir. Hal-hazırda bu bina ilə əhatələnən yerlərin hamısında tikinti işləri sona çatmış, qəbiristandan heç bir əsər-əlamət qalmamışdır. Qeyd olunanları nəzərə alaraq, buyurun görək bu kimi idarədə namaz qılmaq -vəzifəli şəxslər tərəfindən- şəri cəhətdən düzdürmü?

Cavab: Bu idarədə namaz qılmağın, onda təsərrüf etməyin heç bir eybi yoxdur. Amma əgər şəri yolla sübut olunsa ki, qeyd olunan binanın tikildiyi yer ölülərin dəfni üçün vəqf olunub, bu halda işkal var.

---

Sual: **380**. Mömin cavanlar (əmr be məruf etmək üçün) namazı həftədə bir, yaxud iki gün parkda qılmağı qərara almışlar. Amma bəzi simalar, böyük yaşlılar irad tutub deyirlər ki, park kimi ümumi istirahət yerlərinin mülkiyyət məsələsi məlum deyil. Bəs bu necə namazdır?

Cavab: Hazırkı istirahət parklarından namaz qılmaq və s. kimi işlərdə istifadə etməyin heç bir eybi yoxdur; və sırf şəkildə qəsb olunmasına ehtimal verməyə məhəl qoyulmur.

---

Sual: **381**. Bizim şəhərdəki hazırlıq məktəblərinin birinin yeri bir nəfərin mülküdür. Şəhərin xəritəsinə uyğun olaraq deyilib ki, bu yeri bağçaya döndərmək lazımdır. Bundan sonra və zəruri ehtiyac səbəbilə mühafizə idarəsinin razılığı əsasında məktəb tikilməsi qərara alındı. Bu yerin sahibi də yerinin hökumət mülkünə keçirilməsinə razı deyildi, buna görə də namaz və s. kimi əməllərin icrasına razı olmadığını bildirdi. Rica edirik, buyurasınız, bu məkanda namaz qılmaq barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Əgər o yerin, şəri sahibindən alınması İslam parlamenti tərəfindən təsbit olunmuş (İslam parlamentinin təsbit etdiyi və qanun mühafizə şurasının təsdiq etdiyi) qanunlara uyğun şəkildə alınmış olsa, bu halda o yerdən istifadə etməyin, orada namaz qılmağın heç bir eybi yoxdur.

---

Sual: **382**. Bizim yerdə iki qonşu məscid var idi. Onlar bir-birindən aralarındakı divarla ayrılırdılar. Bir neçə vaxt bundan əvvəl möminlərdən bir neçəsi bu divarı uçurmağa başladılar. (Məscidləri bir-birinə birləşdirmək məqsədi ilə) Bu iş də bəzilərində bu iki məsciddə namaz qılmağa dair şübhə yaranmasına səbəb oldu və bu işdə də əvvəlki kimi yenə də şübhədədirlər. Bu məsələdə bizə bir yol göstərin.

Cavab: İki məscidin arasındakı divarın sökülməsi onlarda namaz qılmağın işkallı olmasına səbəb olmaz.

---

Sual: **383**. Ümumi yollarda yeməkxanalar, onların yanlarında isə namaz qılmaq üçün yer vardır. Əgər bir şəxs o yeməkxanalarda yemək yeməsə, orada namaz qılması caizdirmi, yoxsa icazə almaq lazımdır?

Cavab: Əgər ehtimal verilsə ki, namazxana yeməkxana sahibinin mülküdür və onda namaz qılmaq həmin yeməkxanada yeyənlər üçün nəzərdə tutulubdur, bu halda (namaz qılmaq üçün) icazə almaq vacibdir.

---

Sual: **384**. Qəsb olunmuş yerdə namaz qılan, namazı da səccadənin, yaxud taxtın üzərində olan şəxsin namazı batildirmi, yoxsa düzdür?

Cavab: Qəsb olunmuş yerdə (qılınan) namaz batildir, hərçənd səccadənin, taxtın üstündə olsa da belə.

---

Sual: **385**. Hazırkı vaxtda hökumətin ixtiyarında olan bəzi müəssisə və şirkətlərdə bəzi şəxslər orada qılınan camaat namazında iştirak etmirlər. Çünki bu yerlər onların öz sahiblərindən şəriət məhkəməsinin hökmü ilə müsadirə olunmuşdur. Bu barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Camaat namazında iştirak etmək əsas etibarı ilə icbari deyildir. Hər kəs, hər hansı səbəbə görə onda iştirak etməyə bilər. Amma (namaz qılınan) yer barəsində şəriət hökmünə gəldikdə isə, əgər ehtimal versələr ki, müsadirə hökmünü çıxaran məsuliyyətli şəxsin qanuni səlahiyyəti var və müsadirə hökmünü şəriət meyar və qanunları əsasında çıxarmışdır, onun gördüyü iş şəri nöqteyi-nəzərdən düz hökmündədir. Belə olan halda bu məkanlardan istifadə etmək caizdir, qəsb hökmü ona aid edilmir.

---

Sual: **386**. Əgər hüseyniyyənin qonşuluğunda bir məscid olsa, bu halda hüseyniyyədə camaat namazı qılmaq düzdürmü? Və onların (məscid və hüseyniyyənin) savabları bərabərdirmi?

Cavab: Şəkk yoxdur ki, məsciddə qılınan namazın savabı ayrı yerdə qılınan namazın savabından çoxdur. Lakin şəri cəhətdən camaat namazını hüseyniyyədə, yaxud başqa yerdə qılmağın heç bir maneəsi yoxdur.

---

Sual: **387**. Haram musiqi verilən yerdə qılınan namaz düzdürmü?

Cavab: Əgər (orada olmaq) haram musiqiyə qulaq asmağı lazım gətirərsə, belə yerdə dayanmaq caiz deyildir, lakin orada qılınan namaz düz hökmündədir. Və əgər musiqinin səsi diqqətin, fikrin yayılmasına səbəb olarsa, bu halda orada qılınan namaz məkruhdur.

---

Sual: **388**. Qayıqlarda məmuriyyətə göndərilən və bu səbəbə görə də namazlarının vaxtı bir az keçən şəxslərin namazlarının hökmü nədir? Belə ki, əgər bu vaxtda qılmasalar, daha namazı (namazın) vaxtı daxilində qıla bilməyəcəklər.

Cavab: Fərz olunan halda vacibdir ki, namazı qayığın içində, mümkün olan hər bir yolla qılsınlar.

# Məscidin hökmləri

---

Sual: **389**. Namazı məhəllənin məscidində qılmağın müstəhəb olmasını nəzərə alaraq məhəllə məscidini tərk edib şəhərdəki came məscidinə camaat namazı qılmaq üçün getməyin eybi varmı?

Cavab: Məhəllə məscidini tərk etmək başqa bir məscidə, xüsusilə came məscidinə gedib orada camaat namazında iştirak etmək xatirinə olsa, bunun heç bir eybi yoxdur.

---

Sual: **390**. Bir məscidin tikilməsində iştirak edən bəzi şəxslər iddia edirlər ki, onlar məscidi öz qəbilələri üçün tikmişlər. Bu məsciddə qılınan namazın hökmü nədir?

Cavab: Məscid tikiləndən sonra bir qövmə, qohum-qardaşa, qəbiləyə, bəzi şəxslərə aid edilə bilməz. Bütün müsəlmanların ondan istifadə etməsi caizdir.

---

Sual: **391**. Qadınların evdə qıldıqları namaz fəzilətlidir, yoxsa məsciddə qıldıqları namaz?

Cavab: Məsciddə qılınan namazın fəzilətli olması təkcə kişilərə məxsus deyil.

---

Sual: **392**. Hazırkı vaxtda Məscidül-Həramla (Səfa və Mərva arasındakı) səy yerinin arasında eni bir metr, hündürlüyü isə yarım metr olan bir divar çəkilir, bu da Məscidül-Həram və Məsa arasında müştərəkdir. Qadınlar adət günlərində, Məscidül-Hərama daxil olmaq caiz olmayan vaxtlarda o divarın üstündə otura bilərlərmi?

Cavab: Bunun heç bir eybi yoxdur, amma bu divarın məscidin bir hissəsi olmasına yəqinlik hasil olsa, caiz deyildir.

---

Sual: **393**. Məhəllə məscidində riyazət məşqləri etmək, yaxud yatmaq caizdirmi? Bu işlərin başqa məscidlərdəki hökmü nədir?

Cavab: Məscid riyazət yeri deyildir, orada yatmaq da məkruhdur.

---

Sual: **394**. Məscidin həyətindən cavanların fikir mübadiləsi, mədəni, əqidə məsələləri, hərbi (hərbi dərslər keçməklə) və s. kimi məqsədlər üçün istifadə etmək olarmı? Həmçinin, bu kimi işləri görməkdə məscidin istifadəsiz qalan eyvanından istifadə etməyin şəri cəhətdən hökmü nədir? (Bu kimi işlər üçün olan yerlərin azlığını nəzərə almaqla)

Cavab: Bu məsələlər məscidin həyətinin, eyvanının vəqf olunma keyfiyyətindən asılıdır. Siz gərək məscidin imamından, məscidin işlərinə öhdədar olan heyətdən tələb edəsiniz ki, bu barədə öz rəylərini bildirsinlər. Həmçinin, qeyd etmək lazımdır ki, məscidlərdə cavanlar arasında dostluq yaradılması, dini dərslərin bərqərar olunması məscidin imam-camaatının, məscidin heyətinin razılaşması ilə olması yaxşı və bəyənilən bir işdir.

---

Sual: **395**. Bəzi məntəqələrdə (xüsusilə kənd yerlərində) toy mərasimlərini məscidlərdə keçirirlər. Yəni toy şənliklərini evdə keçirir, sübh, yaxud axşam yeməyini məsciddə yeyirlər. Şəri nöqteyi-nəzərdən bu caizdirmi?

Cavab: (Toya) çağırılanlara məsciddə yemək verməyin öz-özlüyündə heç bir eybi yoxdur. Lakin toy məclislərini məsciddə keçirmək məscidin şərəfi, mənziləti ilə müxalifdir və caiz deyildir. Şəri haramlara düşmək isə (ğinaya, ehtirasları qaldıran musiqiyə qulaq asmaq kimi) ümumiyyətlə haramdır.

---

Sual: **396.** Milli-kooperativ şirkətlər yaşayış binaları tikirlər. İlk əvvəldə qərara alınır ki, bu camaat üçün ümumi məkanlar (məscid kimi) olsun. İndi isə yaşayış binaları şirkətdə üzv olanlara təhvil verilir. Bu halda onların bəziləri keçmiş qərar barədə fikirlərindən dönüb deyə bilərlərmi ki, biz məscid tikilməsinə razı deyilik?

Cavab: Bu şirkət öz üzvlərinin hamısından razılıq alaraq məscid tikməyə iqdam etsə, bu tikinti işi qurtarsa və məscid vəqf olunsa, bu halda onların bəzilərinin öz fikirindən dönməsinin heç bir təsiri yoxdur. Amma, əgər məscidin vəqfolunma işi hasil olmamışdan əvvəl öz fikirlərindən dönsələr, bu halda şirkət üzvlərinin hamısının pulu ilə, hamısına aid olan yerdə, lakin onların razılıqları olmadan məscid tikmək caiz deyildir. Amma əgər qərar bağlanarkən şirkətin bütün üzvlərinə, şirkətin ixtiyarında olan yerdən bir hissəni məscidə məxsus etmələri şərt olunsa və şirkətin üzvləri də bu şərti qəbul etsələr, bu halda öz fikirlərindən dönmək haqları yoxdur, dönsələr də faydası yoxdur.

---

Sual: **397**. (İranda) İslami Mədəniyyət Nazirliyi tərəfindən məscidlərdə Quran məclislərinə gələnlər üçün qoyulan filmlərin şəri cəhətdən eybi varmı?

Cavab: Məscidi film göstərilən yerə döndərmək caiz deyildir, lakin məscidin imamının rəyi əsasında ehtiyac duyulan qədər filmlərin göstərilməsinin heç bir eybi yoxdur.

---

Sual: **398**. Məsum imamların (ə) miladları münasibəti ilə olan bayramlarda məscidlərdə şadlıq musiqilərinin yayılmasının şəri cəhətdən işkalı varmı?

Cavab: Aydındır ki, məscidin özünə məxsus şəri bir məqamı, mənziləti vardır; və əgər musiqi yayılması məscidin mənziləti ilə münasib olmazsa, bu halda o, haramdır; hətta o musiqi ehtirası qaldırmayan olsa da belə.

---

Sual: **399**. Məscidlərdə olan mikrofonlardan, səsi çölə yayılan aparatlardan istifadə etmək nə vaxt caizdir? Azandan qabaq yayılan Quran səsinin, inqilabi nəğmələrin hökmü nədir?

Cavab: Qonşuların, məhəllə camaatının əziyyətə düşməsinə, narahat olmasına səbəb olmayan vaxtlarda azandan bir neçə dəqiqə əvvəl Qurani-Kərim səsinin qoyulmasının heç bir eybi yoxdur.

---

Sual: **400**. Came məscidi nə deməkdir?

Cavab: (Came məscidi) bir şəhərdə, oranın əhalisinin böyük hissəsinin yığışması üçün tikilən, bir qəbiləyə, yaxud bazar əhlinə məxsus olmayan məscidə deyilir.

---

Sual: **401**. Məscidlərin birinin üstü örtülmüş hissəsi 30 il bundan qabaq tərk olunmuşdur və orada namaz qılınmır. Artıq bir xarabaya çevrilmişdir, onun bir hissəsi anbar kimi istifadə olunur. Son zamanlar bəzi bərpa işləri (15 il bundan qabaq tavanı olan qismətdə qərarlaşan silahlı qüvvələr tərəfindən) görülmüş, bu bərpa işlərinin səbəbi o binanın qeyri-münasib bir vəziyyətdə olması idi. Xüsusilə də onun tavanı uçmaq ərəfəsində idi. Silahlı qüvvələrdə olan qardaşlar məscidin şəri hökmlərini bilmədikləri üçün (bilənlər də yol göstərmirdilər) məscidin (bu xarab) yerində bir neçə kiçik otaq tikməyə başladılar. Bu bərpa işlərinə də çoxlu məbləğ pul sərf olundu. Hal-hazırda binadakı bərpa işləri sona çatmışdır. Aşağıdakı məsələlər barəsindəki şəri hökmü bəyan edin:

1- Bu işin öhdədarı olan şəxslərin, məsullar heyətinin üzvlərinin məsələnin hökmünü bilmədiklərini fərz etsək, bu halda onlar beytül-maldan sərf olunan pullar barədə şəri cəhətdən məsuliyyət daşıyırlarmı və onlar günahkardırlarmı?

2- Pulların beytül-maldan sərf olunmasını nəzərə alaraq (nə qədər ki, məscidin bu hissələrə ehtiyacı yoxdur və orada namaz qılınmır) Siz icazə verirsinizmi ki, bu otaqcıqlardan (məscid üçün qoyulan şəri qayda-qanunlara tam şəkildə riayət etməklə) təlim işlərinə: Qurani-Kərimin, şəriət hökmlərinin öyrənilməsinə iqdam etmək üçün istifadə edək? Həmçinin, o otaqlardan məscidin işləri üçün istifadə etmək olarmı? Yoxsa, bu otaqları sökmək üçün tələsmək vacibdir?

Cavab: Məscidin tavanlı hissəsindəki otaqları sökməklə əvvəlki vəziyyətinə qaytarmalısınız. Bu otaqlara xərclənən pullar da əgər (xərclənmədə) ifratçılıq, həddi-aşmaq olmayıbsa, həmçinin qəsdən və təqsir üzündən olmayıbsa, bir kəsin zaminliyində olması məlum deyil. Məscidin tavanlı hissəsindən Quran qiraəti və əhkam təlimi, İslam maarifini öyrənmək üçün, həmçinin sair məzhəbi-dini mərasimlər keçirmək üçün (namaz qılanlara maneçilik törətməmək və məscidin imam camaatının nəzarəti altında olması şərtilə) heç bir eybi yoxdur. İmam camaat və sair məsuliyyətli şəxslərin məsciddə bir-biri ilə həmkarlıq etməsi -məsciddəki silahlı qüvvələrin əlaqə və hüzurları hifz olunsun deyə, həmçinin məscidin ibadi vəzifələrinin (namaz və s. kimi) əda olunmasına xələl yetişməsin deyə vacibdir.

---

Sual: **402**. Küçələrdən birinin genişləndirilməsi işində plana düşüb sökülməli olan bir neçə məscid var ki, lahiyənin şamil olduğu sahədə yerləşirlər. Belə ki, nəqliyyat vasitələrini və s. hərəkətini asanlaşdırmaq üçün onların bəzilərini tamamilə sökmək, bəzilərinin isə bir qismini sökmək lazım gəlir. Bu barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Məscidi, yaxud onun bir hissəsini sökmək caiz deyil. Lakin nəzərdən qaçırılması, əhəmiyyət verilməməsi mümkün olmayan bir məsləhət qarşıya çıxdıqda, eybi yoxdur.

---

Sual: **403**. Məscidlərdə camaatın dəstəmaz alması üçün məxsus olan sudan azacıq miqdarda şəxsi istifadə etmək mümkündürmü? Məsələn, mağaza sahibləri sərin su içmək, çay qoymaq, maşına tökmək məqsədi ilə o sudan götürə bilərmi, halbuki, məscidin bir vəqf edəni yoxdur ki, bu işə mane olsun?

Cavab: Əgər, vəqfiyyə suyun yalnız namaz qılanların dəstəmazı üçün olması məlum olmasa, camaat da o məhəllə məscidində alicənablıq edib, məscidin qonşularının və suyun yanından keçənlərin sudan istifadə etmələrinə icazə versələr, bu halda heç bir eybi yoxdur. Hərçənd bu barədə ehtiyat etmək daha yaxşıdır.

---

Sual: **404**. Qəbiristanlığın yanında bir məscid var. Möminlərdən bəziləri qəbirləri ziyarət etməyə gələndə məscidin suyundan, qohumlarından birinin qəbirinə səpmək üçün götürürlər. Biz bu suyun məscidə vəqf olunub-olunmamasını bilmirik. Suyun məscidə vəqf olunmamasını, lakin yalnız dəstəmaz və tualet işinə məxsus olduğunu bildiyimizi fərz etsək, onda qeyd olunan tərzdə istifadə etmək caizdirmi?

Cavab: Əgər, suyun məsciddən götürülməsi, məsciddən kənarda qəbirə səpmək üçün olması camaat arasında şərafətli bir iş olsa və münkər (pis) iş sayılmazsa, həmçinin o suyun yalnız təharət, dəstəmaz üçün vəqf olunmasına dair bir dəlil də olmasa, bu halda onun heç bir eybi yoxdur.

---

Sual: **405**. Əgər, bir məscidin təmirə ehtiyacı olsa, bu halda şəriət hakimindən, yaxud onun vəkilindən icazə almaq vacibdirmi?

Cavab: Məscidin ehsan naminə öz malından, yaxud xeyirxah, ehsan verən şəxslərin malından təmir edilməsində şəriət hakiminin icazəsinə ehtiyac yoxdur.

---

Sual: **406**. Ölümümdən sonra, məhəllə məscidində dəfn olunmağımı vəsiyyət etməyim caizdirmi? Çünki mən orada dəfn olunmağımı arzu edirəm (istər içəridə olsun, istərsə də eyvanda).

Cavab: Məscidin vəqf siğəsi oxunanda (orada) meyyitin dəfn olunması istisna olunmayıbsa, orada dəfn olunmağın caiz deyildir. Belə olan halda vəsiyyət etibarsız sayılır.

---

Sual: **407**. Bir məscid iyirmi il bundan əvvəl tikilib, İmam Zamanın (ə) mübarək adına zinətlənibdir. Bu mübarək adın məscidin vəqf siqəsində qeyd olunması məlum deyil. Bu halda məscidin adı verilməklə dəyişib "Came məscidi" qoymağının hökmü nədir?

Cavab: Yalnız adın dəyişdirilməsinini heç bir maneəsi yoxdur.

---

Sual: **408**. Bizim məhəllə məscidlərində qədimdən belə bir adət var ki, məscidə nəzir verirlər ki, məhərrəmlik günlərində, səfər ayında, ramazan ayında və s. məzhəbi günlərdə sərf olunsun. Son zamanlar məscidlərə kəhrəba, qızdırıcı sobalar vermişlər. Bir şəxs vəfat edəndə həmin kəhrəbadan, sobalardan da istifadə edilir. Məclisdə iştirak edənlər məsrəf olunan pulu qaytarmırlar. Şəri nöqteyi-nəzərdən bu caizdirmi?

Cavab: Məscidin imkanatlarından xas bir matəm məclislərində və s. istifadə etməyin caiz olması o avadanlıqların, imkanatların məscidə vəqf olunma, yaxud nəzir olunma keyfiyyətindən asılıdır.

---

Sual: **409**. Kənddə təzə tikilən bir məscid var (və köhnə məscidin yerində tikilib). Bu məscidin bir guşəsində (yeri isə keçmiş məscidindir) və məsələni bilməməzlik üzündən orada çay dəmləmək və s. üçün bir otaq tikilib. Həmçinin məscidin daxilində olan eyvanın üzərində kitabxana inşa olunub. Bu barədə Sizin rəyinizi bilmək istərdik. Həmçinin daxili otaqların yarısından istifadə edib tamamlanmasının məsələsini bilmək istərdik.

Cavab: Keçmiş məscidin yerində çayxana tikmək düz deyildir. Bu məkanı məscid halına qaytarmaq vacibdir. Məscidin üstü elə məscid hökmündədir, ondan məscid üçün olan bütün şəri əhkamlar təsirlidir. Lakin kitab qiraət və mütaliəsi məqsədi ilə kitab rəfləri qoyulmasının bu məkanda olması namaz qılanlara maneçilik törətməsə heç bir eybi yoxdur.

---

Sual: **410**. Bu barədə Sizin rəyiniz nədir: Kəndlərin birində xarab olma ərəfəsində olan bir məscid var. Onun sökülməsi üçün hökm verə biləcək bir şəxs də yoxdur, çünki onun yol çəkmək üçün maneçiliyi yoxdur. Bu məscidi tamamilə sökmək olarmı? Həmçinin, bu məscidin bir az əşyası, malı vardır. Bunları kimə verək?

Cavab: Məscidi sökmək, xarab etmək caiz deyildir. Ümumiyyətlə, məscidin xarab edilməsi onu məscid olmaqdan çıxarmır. Məscidə aid olan əşyaların və gəlirlərin həmin məsciddə istifadəsinə ehtiyac duyulmadıqda başqa məscidlərə (orada istifadə etmək üçün) aparılmasının heç bir eybi yoxdur.

---

Sual: **411**. Şəri nöqteyi-nəzərdən məscidin həyətindəki guşədə məscidin binasına təsərrüf və dəxalət etmədən muzey tikmək (hal-hazırdakı kimi məscidin bir hissəsini təşkil edən və orada tikilən kitabxana kimi) caizdirmi?

Cavab: Məscidin həyətindəki bir guşədə kitabxana, yaxud muzey icad etmək məscidin sahəsinin vəqfinin keyfiyyəti ilə müxalif olarsa, yaxud məscidin tikilişinin dəyişdirilməsinə səbəb olarsa, bu halda caiz deyildir. Yaxşı olardı ki, məscidin qonşuluğunda qeyd olunan məqsədlər üçün bir yer düzəldəsiniz.

---

Sual: **412**. Vəqf olunmuş bir yerdə məscid, hövzə mədrəsəsi və ümumi kitabxana tikilmişdir, hamısı da hazırda istifadə mərhələsindədir. Bu yer indi xəritədə bələdiyyə idarəsi tərəfindən sökülməli yerlər sırasındadır. Bələdiyyə idarəsi ilə necə həmkarlıq edib oranı sökmək və onlardan bu binanı gözəl bir binaya çevirməkdə avadanlıq almaq olar?

Cavab: Əgər bələdiyyə idarəsi oranı söküb əvəzində yenisini qurmaq istəsə, bu halda heç bir eybi yoxdur. Lakin vəqf olunan mədrəsəni, məscidi sökməyin özü, mühüm bir məsləhət olmadan caiz deyildir.

Sual: **413**. Came məscidini genişləndirmək üçün onun həyətindəki bir neçə ağacı çıxarmaq lazımdır. Bu iş caizdirmi? Halbuki, məscidin həyəti böyükdür, orada çoxlu əlavə ağaclar da vardır.

Cavab: Əgər məscidi genişləndirməyə ehtiyac duyulsa və məscidin (həyətyanı) sahəsinin məscidə daxil edilməsi, ağacların kəsilməsi vəqfdə dəyişiklik edilmək sayılmazsa, heç bir eybi yoxdur.

---

Sual: **414**. Məscidin eyvanının bir hissəsi olan, sonra isə bələdiyyə idarəsi tərəfindən aparılan abadlıq işləri layihəsinə düşərək küçəyə çevrilən yerin hökmü nədir? Halbuki zərurətə görə oranın bir hissəsinin sökülməsi sona yetmişdir.

Cavab: Əvvəlki məscid vəziyyətinə qaytarılması ehtimalı çox az olarsa, məscid üçün olan şəri hökmlərin ora aid olub-olmaması məlum deyildir.

---

Sual: **415**. Bir müddətdir ki, məscidlərin birində camaat namazı qılıram. Məscidin vəqf olunma keyfiyyətindən də xəbərim yoxdur və məscid məxaric nahiyəsində çoxlu çətinliklərlə rastlaşır. Bunu nəzərə almaqla məscidin sərdabəsini özünə münasib olan bir iş üçün icarəyə vermək olarmı?

Cavab: Əgər sərdabə məscid sayılmazsa və məscidin ehtiyacı olduğu yerlərin bir hissəsi olmazsa, onda heç bir eybi yoxdur.

---

Sual: **416**. Məscid üçün, onun idarə olunmasına aid olan işlərin qaydaya salınması mümkün olacaq bir mülk yoxdur. Məscidin idarə heyəti də məscidin eyvanının altında sərdabə qazılmasına rəy vermişdir, təki bununla məscidin ümumi xidmətlərinə aid olan bir bina, iş yeri düzəlsin. Bu iş caizdirmi?

Cavab: (Məsciddə) eyvanın altını idarə və s. kimi yerlərin təsis edilməsi məqsədi ilə qazmaq caiz deyildir.

---

Sual: **417**. Ümumi halda kafirlərin müsəlman məscidlərinə daxil olması - hətta əgər tarixi əsərləri görmək üçün olsa da belə - caizdirmi?

Cavab: (Kafirlərin) Məscidül-Həram və Peyğəmbər (s) məscidindən savayı sairməscidlərə daxil olmalarının öz-özlüyündə heç bir maneçiliyi yoxdur. Lakin, əgər (daxil olmaları) məscidin nəcis olmasına, yaxud ona qarşı hörmətsizlik olunmasına, yaxud da cünub şəxsin məsciddə dayanmasına səbəb olsa, caiz deyildir.

---

Sual: **418**. Kafirlərin əli ilə tikilən məsciddə namaz qılmaq caizdirmi?

Cavab: O məscidlərdə namaz qılmağın heç bir eybi yoxdur.

---

Sual: **419**. Kafir bir şəxs məscid tikmək üçün bir şey ehsan etsə, yaxud başqa bir yardım göstərsə, onu qəbul etmək caizdirmi?

Cavab: Bunun heç bir eybi yoxdur.

---

Sual: **420**. Əgər bir şəxs gecə vaxtı məscidə gəlib orada yatsa və (elə oradaca) cünub olsa, oyanan vaxt da məsciddən çıxa bilməsə onun vəzifəsi nədir?

Cavab: Məsciddən çıxa bilməsə, yaxud başqa yerə gedə bilməsə, onun məsciddə qalması caiz olsun deyə, dərhal təyəmmüm etməlidir.

## Sair dini məkanlarin hökmü

---

Sual: **421**. Şəri nöqteyi-nəzərdən hüseyniyyələri müəyyən bir şəxsin adına yazmaq olarmı? Və əgər bu xeyir işdə (bina tikilməsində) iştirak edən şəxslər bu işə razı olmasalar, bu zaman nə etmək lazımdır?

Cavab: Dini məclislərin keçirilməsi üçün vəqf olunan hüseyniyyəni müəyyən şəxslərin adına yazmağa heç bir ehtiyac yoxdur; hər halda onu bəzi şəxslərin adına yazanda, oranın tikilməsində iştirak edən şəxslərin hamısının icazəsi vacibdir.

---

Sual: **422**. Əməliyyə risalələrində yazılır ki, cünub şəxsin, heyzli qadının imamların (ə) hərəmlərinə daxil olmaları caiz deyildir. Buyurun ki, hərəm dedikdə təkcə günbəzin altı nəzərdə tutulur, yoxsa günbəzə birləşən bütün yerin hamısına şamil olur?

Cavab: Hərəm dedikdə mübarək günbəzin altı, ürfi cəhətdən hərəm adı ilə adlanan yer, həmçinin, şərif məşhəd (şəhadət yeri) nəzərdə tutulur. Amma ora birləşdirilən bina, kölgə üçün düzəldilən yer hərəm hökmündə deyil və bu yerlərə (məscid kimi olmazsa) cünub şəxsin, heyzli qadının daxil olmasının heç bir eybi yoxdur.

---

Sual: **423**. Qədim bir məscidin yanında bir hüseyniyyə təsis olunub. Hal-hazırda o qədim məscid namaz qılanlara kifayət etmir. Bu halda bu hüseyniyyəni məscidə birləşdirmək və məscid kimi istifadə etmək caizdirmi?

Cavab: Hüseyniyyədə namaz qılmağın heç bir eybi yoxdur. Lakin əgər hüseyniyyə düzgün yolla, şəri cəhətdən bir hüseyniyyə kimi vəqf olunsa, onu məscidə çevirmək, onu bir məscid kimi qonşu bir məscidə birləşdirmək caiz deyil.

---

Sual: **424**. İmam (ə) övlarlarının (imamzadələrin) birinin qəbirinə nəzir olunan xalçaları, əmtəələri məhəllələrin came məscidində işlətməyin hökmü nədir?

Cavab: İmam (ə) övladlarının qəbiri üçün edilən nəzirlər onun zəvvarlarının ehtiyacından artıq olsa, came məscidində işlətməyin eybi yoxdur.

---

Sual: **425**. Əbül Fəzlin (ə) və s. adına təsis olunan hüseyniyyələr məscid hökmündədirmi? Rica edirik, bu kimi yerlərin hökmünü buyurasınız.

Cavab: Hüseyniyyələrin məscid hökmü yoxdur.

## Namaz qılan şəxsin paltarı

---

Sual: **426**. Paltarımın nəcis olmasında şəkkim olsa, o paltarda qıldığım namazlar batildirmi?

Cavab: Nəcis olub-olmamasında şəkk olunan paltar pak hökmündədir və onda qılınan namazlar da düzdür.

Sual: **427.** Almaniyadan dəri qayış almışam. Onunla namaz qılmağın şəri cəhətdən işkalı varmı? O qayışın təbii, yaxud süni dəridən, həmçinin təzkiyə olunmuş heyvan dərisindən olub-olmamasında şəkk edirəm. O qayışla qıldığım namazın hökmü nədir?

Cavab: Əgər qayışın təbii, yaxud süni olmasında şəkk edirsənsə, bu halda onunla namaz qılmağın heç bir eybi yoxdur. Amma, əgər təbii dərindən olduğunu yəqin etdikdən sonra şəriət yolu ilə kəsilmiş heyvan dərisindən olub-olmamasında şəkk etsən, meytə hökmündədir, amma keçmişdə onunla qıldığın namazlar düzdür.

---

Sual: **428**. Namaz qılan şəxs elə bilir ki, bədənində, yaxud paltarında heç bir nəcis şey mövcud deyil, bu halda o namaz qılır, sonra məlum olur ki, bədəni, yaxud paltarı nəcis imiş. Bu şəxsin namazı batildirmi? Bədənin, yaxud paltarın nəcis olmasını namaz əsnasında başa düşsə, hökm necədir?

Cavab: Namaz qılan şəxs ümumiyyətlə paltarın, yaxud bədənin nəcis olmasını bilməsə, namazdan sonra nəcis olduğunu başa düşsə, namazı düzdür, yenidən qılmaq (əgər vaxt varsa), yaxud qəza etmək (əgər vaxt keçibsə) vacib deyildir. Amma bunu namaz əsnasında başa düşsə, bu halda əgər nəcasəti namazı pozmadan təmizləmək mümkün olsa, təmizləyib, namazı qurtarmalıdır. Amma əgər namazı pozmadan nəcasəti təmizləməyə imkanı olmasa və vaxt da geniş olsa, namazı kəsməli, nəcasəti təmizləyəndən sonra yenidən başlamalıdır.

---

Sual: **429**. Bir nəfər təqlid mərcelərindən birinin müqəllidlərindəndir. O, bir müddət təzkiyə olunması şəkli olan heyvan dərisində, namaz düz olmayan paltarda namaz qılıb. Onun mərcesinin rəyinə görə "əti yeyilməyən heyvanın hissələrindən biri üstündə olsa, vacib ehtiyat budur ki, namazı yenidən qılsın." Təzkiyə olunmasında şəkk olunan şeylərin hökmü əti yeyilməyən heyvanın hökmü kimidirmi?

Cavab: Təzkiyə olunmasında şəkk olunan şeylər nəcis olmasında, yeyilməsinin haram olmasında və namaz qılınmasının caiz olmamasında meytə hökmündədir.

---

Sual: **430**. Bir nəfər qadın tüklərinin bəzisinin namaz əsnasında açıldığını görür, dərhal örtür. Bu halda namazını yenidən qılması vacibdir?

Cavab: Nə qədər ki, tükün açılması qəsdən olmayıb, yenidən qılmaq vacib deyildir.

---

Sual: **431**. Bir nəfər bövl məxrəcini naçar olaraq daşla, yaxud odunla, yaxud başqa bir şeylə paklayır, evə qayıdanda isə su ilə paklayır. Bu halda namaz üçün alt paltarını dəyişmək, yaxud paklamaq vacibdirmi?

Cavab: Əgər paltarı üzvün bövlü ilə nəcis olmayıbsa, bu halda paltarı paklamaq vacib deyildir.

---

Sual: **432**. Ölkəmizə idxal olunan sənaye alətlərinin bəzisinin kapital qoyuluşu əcnəbilərin köməyi ilə başa gəlir. Onlar da İslam fiqhinə əsasən, kafir və nəcisdirlər. Halbuki alətlərin işləməsində zeytun yağının tökülməsi və sair kimi işlər əllərlə görülərək başa gəlir. Buna görə alət və avadanlıqların pak olması mümkün deyil. Nəzərə alsaq ki, o işçilərin paltarı, bədəni iş əsnasında bu alətlərə toxunur və iş vaxtında paltarlarımızı və əllərimizi tam şəkildə paklamaq üçün vaxt yoxdur, bu halda namaz qılmaq üçün nə etməliyik?

Cavab: Əgər o maşın və alətlərlə işləyən kafirin paklıqlarına hökm olunan kitab əhlindən olması ehtimal verilsə və işləyəndə əlcək geysələr, sırf şəkildə kafirin bu alət və məkanda işləməsi ilə oranın nəcis olmasına yəqinlik hasil olmaz; və iş əsnasında alətlərin, bədən və paltarın nəcis olmasına dair yəqinlik hasil olması fərz olunsa, namaz üçün bədənin paklanması, paltarın isə paklanması, yaxud dəyişdirilməsi vacibdir.

Sual: **433**. Əgər namaz qılanın üstündə qana batmış dəsmal olsa, yaxud onu cibinə qoysa, namazı batildirmi?

Cavab: Əgər dəsmal çox kiçik (onunla övrəti örtmək mümkün olmayacaq qədərində) olsa, heç bir eybi yoxdur.

---

Sual: **434**. İçərisində spirt olan sıxılmış ətirlə ətirlənən paltarda namaz qılmaq düzdürmü?

Cavab: Nə qədər ki, o ətirin nəcis olması məlum deyil, namaz qılmağın eybi yoxdur.

---

Sual: **435**. Qadının namaz əsnasında haralarını örtməsi vacibdir? Əgər qadın bir az qısa paltar geysə, yaxud corab geyməsə işkal irəli gələrmi?

Cavab: Meyar budur ki, qadının paltarı üzü, əli və ayaqlarından başqa bütün bədənini örtsün; üzünü dəstəmazda yuyulması vacib olan qədər, əllərini biləyə qədər, ayaqlarını isə topuğa qədər - hərçənd, örtük çadra kimi də olsa.

---

Sual: **436**. Qadınlar üçün namaz əsnasında ayaqlarını örtmək vacibdirmi?

Cavab: Ayaqları topuğa qədər örtmək vacib deyil.

---

Sual: **437**. Çənəni hicab geyəndə və namazda tam şəkildə örtmək vacibdirmi, yoxsa təkcə onun aşağı hissəsini örtmək kifayətdir? Yaxud çənəni örtmək üzün şəri cəhətdən vacib olan hissəsini örtmək də müqəddimə olduğu üçün vacibdir?

Cavab: Çənənin özünü yox, aşağısını örtmək vacibdir, çünki o üzün bir hissəsidir.

---

Sual: **438**. Namazın caiz olması hökmü - nəcis olan paltar onunla namaz qılınması düz olmayan paltarlardan olsa,[5239] mövzuya[5240] olan şübhəyə məxsusdur, yoxsa hökmə[5241] olan şübhəyə? Yaxud ümumiyyətlə hər ikisinə?

Cavab: Bu növ nəcis olan paltarda namaz qılmaq caizdir. İstər bilməməzlik, istərsə də unutmaq üzündən olsun, hətta bilərəkdən olsa da belə.

---

Sual: **439**. Namaz qılanın paltarında pişiyin tükü, yaxud ağzının suyu olsa, namaz batil olarmı?

Cavab: Bəli, bu, namazın batil olmasına səbəb olar.

## Qızıl-gümüşdən istifadə edilməsi, geyilməsi

---

Sual: **440**. Kişinin qızıl üzük taxmasının hökmü (xüsusilə də namazda) nədir?

Cavab: Kişinin qızıl üzük taxması caiz deyil, onunla qıldığı namaz da batildir.

Sual: **441**. Kişilərin ağ qızıldan olan üzük taxmasının hökmü nədir?

Cavab: Ağ qızıl sarı qızıldan qeyri bir maddə ilə qarışıq olsa, ondan olan üzüyü taxmaq haram deyildir.

---

Sual: **442**. Əgər qızıldan olan geyimlər zinət və başqalarına göstərmək üçün olmazsa, şəri nöqteyi-nəzərdən bunun işkalı varmı?

Cavab: Kişi üçün qızıl geyim mütləq şəkildə haramdır, hərçənd zinət məqsədilə olmasa və başqalarının nəzərlərindən gizli olsa da belə.

---

Sual: **443.** Kişi üçün qızıl geyməyin hökmü nədir? Çünki bəzi şəxslər iddia edirlər ki, qızıl köynəyi qısa müddətdə (əqd oxunan vaxt kimi) geyməyin eybi yoxdur.

Cavab: Kişi üçün qızıl geymək haramdır. Bu barədə vaxtın uzun, yaxud qısa olmasının heç bir fərqi yoxdur.

---

Sual: **444**. Namaz qılan şəxsin geyiminin hökmlərini, həmçinin kişinin qızıl geyməsinin haram olduğunu nəzərə alaraq aşağıdakı Suallara cavab verin:

1- Qızılla zinət vermək dedikdə, kişi üçün mütləq şəkildə qızıl işlətməkdir, hətta sümük yarası üçün, diş düzəltdirmək üçün də olsa?

2- Bizim ölkənin adətlərindən biri də budur ki, təzə evlənən cavanlar qızıldan olan nişan üzüyü taxırlar. Bu iş də ümumxalqın nəzərində kişi üçün bir növ zinət sayırlar. Üstəlik, bu bir şəxsin ailə həyatının başlanması əlamətidir. Bu iş barəsində Sizin rəyiniz nədir?

Cavab: 1- Kişilərin qızıl geymələrinin haram olmasını əsaslandıran şey zinət sayılması deyildir. (Kişi üçün) Qızıl hər hansı yolla, hər hansı məqsədlə olmuş olsa, yenə də haramdır, hətta üzük, boyunbağı və s. olsa da belə. Lakin kişi üçün qızıldan cərrahiyyə və diş düzəltmə əməliyyatlarında istifadə etməyin heç bir eybi yoxdur.

2- Kişi üçün sarı qızıldan nişan üzüyü taxmaq hər bir halda haramdır.

---

Sual: **445**. Qadınların geymədiyi, kişilərə məxsus olan qızıl məmulatlarının düzəldilməsinin, al-verinin hökmü nədir?

Cavab: Əgər qızıl məmulatlarının düzəldilməsi kişilərin istifadəsi üçün olsa, haramdır. Həmçinin, o məmulatların al-veri də elə buna görə haramdır.

---

Sual: **446**. Bəzi ziyafət məclislərində şirnidən əvvəl gümüş sinidə halva verirlər. Yemək yeməkdəki bu iş gümüş qabdan sayılırmı və bunun hökmü nədir?

Cavab: Yeməyi və bu kimi şeyləri gümüş qabdan götürmək -yemək niyyəti ilə olsa- haramdır.

---

Sual: **447**. Kişi üçün dişləri qızılla örtmək, yaxud qızıl diş saldırmaq caizdirmi?

Cavab: Bunun heç bir eybi yoxdur. Amma əgər qabaq dişlərində və zinət məqsədilə olsa, işkalı var.

---

Sual: **448**. Dişin qızıl ilə örtülməsinin işkalı varmı? Dişlərin platinlə örtülməsinin hökmü nədir?

Cavab: Dişlərin qızıl, yaxud platinlə örtülməsinin heç bir eybi yoxdur. Amma əgər dişlərin, xüsusilə də qabaq dişlərin qızılla örtülməsi zinət məqsədilə olsa, bu halda işkallıdır.

# Azan və iqamə

---

Sual: **449**. Kəndimizin müəzzini mübarək ramazan ayında həmişə sübh azanını vaxt daxil olandan bir neçə dəqiqə əvvəl verir, təki adamlar azanın ortasına, yaxud axırına qədər yeyib-içə bilsinlər. Bu iş düzdürmü?

Cavab: Azanın deyilməsi camaatın vəhmə (səhvə) düşməsinə səbəb olmazsa, həmçinin fəcrin açılmasını elan etmək kimi nəzərə çarpmazsa, heç bir eybi yoxdur.

---

Sual: **450**. Bəzi şəxslər əmr be məruf, nəhy əz münkər işini yerinə yetirmək üçün azanı ümumi yollarda, dəstə şəklində verirlər. Allaha şükr olsun ki, bu iş məntəqə mühitində aşkar fəsadın qarşısının alınmasında, adamların, xüsusilə də cavanların namazı əvvəl vaxtda qılmağa üz gətirmələrində çox böyük təsir buraxmışdır. Lakin onlardan biri deyir ki, bu əməl İslam şəriətində yoxdur və bidətdir. O şəxsin sözü şübhə yaratmışdır. Bu barədə Sizin mübarək rəyiniz nədir?

Cavab: Azanın gündəlik namazların əvvəl vaxtlarında namaz üçün bir elan kimi verilməsi, eşidənlər tərəfindən təkrar edilməsi, onun deyilməsində səsin ucaldılması təkidli şəri müstəhəblərdəndir.

Azanın yolların ətraflarında cəmlikdə deyilməsinin heç bir maneəsi yoxdur (əgər hörmətsizliyə, yolun bağlanmasına, başqalarının əziyyətə düşməsinə səbəb olmazsa).

---

Sual: **451**. Azanın ucadan deyilməsinin ibadi-siyasi bir əməl olduğu, onda böyük savab olduğu üçün möminlər qərara almışlar ki, namaz vaxtları, xüsusilə sübh namazı vaxtı daxil olanda evlərinin üstündə azan səsini (mikrofon olmadan) ucaltsınlar. Bəzi qonşular bu işə etiraz etməsələr, bu işin hökmü nədir?

Cavab: Azanın damın üstündə, normal səslə deyilməsinin heç bir eybi yoxdur; bu şərtlə ki, başqalarının əziyyətə düşməsinə, qonşuların evlərinə baxmağa səbəb olmasın.

---

Sual: **452**. Mübarək ramazan ayının səhərlərindəki məxsus proqramları (sübh azanından başqa) hamı eşitsin deyə, məscidin mikrofonu ilə çölə buraxılmasının hökmü nədir?

Cavab: Mübarək ramazan ayının gecələrində Qurani-Kərim oxumaq, dua tilavət etmək, dini mərasimlərdə iştirak etmək və bu kimi işlər üçün camaatın çoxu oyaq olan yerlərdə bu işin heç bir eybi yoxdur. Lakin əgər məscidin qonşularının əziyyətə düşməsinə səbəb olsa, bu halda caiz deyildir.

---

Sual: **453**. Məscidlərdə, mərkəzi yerlərdə sübh azanından əvvəl Quran tilavətini, azandan sonra isə duanı uca səslə buraxmaq (belə ki, bir neçə kilometr məsafəyə gedib çatsa) caizdirmi? Halbuki bu, bəzi vaxtlar yarım saatdan çox çəkir.

Cavab: Sübh namazının vaxtının daxil olmasını mikrofonla elan etmək üçün adi normal qaydada azan verməyin heç bir eybi yoxdur, lakin Quran ayələrinin, duanın və s. hər hansı bir vaxtda məsciddən mikrofonla çölə buraxılması qonşuların əziyyətə

düşməsinə səbəb olarsa, şəri cəhətdən yaxşı deyil, hətta onda işkal da vardır. Əsasəndə, Quran və dua sədalarını səsləndirmək ilə başqaları üçün əziyyət etmək düzgün bir iş deyildir.

---

Sual: **454**. Kişi öz namazında qadının verdiyi azanla kifayətlənə bilərmi?

Cavab: Əgər kişi qadının dediyi azanın bütün fəsillərin eşitsə, onunla kifayətlənə bilər.

---

Sual: **455**. Namazların azan və iqaməsində Seyidül-ovsiya həzrət Əlinin (ə) vilayətinə (hakimiyyət və rəhbərliyinə) dair üçüncü şəhadət (yəni "Əşhədu ənnə Əmirəl-mömininə Əliyyən vəliyyullah" demək) barəsində Sizin mübarək rəyiniz nədir?

Cavab: Şəri nöqteyi-nəzərdən bu şəhadət vermək azan və iqamənin hissəsindən deyildir; lakin əgər azan, iqamə hissəsi niyyəti ilə deyilməzsə, eybi yoxdur. Üstəlik əgər o həzrətin, Rəsuləllahın (s) xəlifəsi (canişini) olmasına dair öz etiqadı barəsindəki etirafını, yəqinini izhar etsə, bu halda savabı çoxdur.

## Qiraət və onun hökmləri

---

Sual: **456**. Namazda qiraətimiz aşkar səslə olmasa, onun hökmü nədir?

Cavab: Kişilər üçün sübh, məğrib və işa namazlarında həmd-surəni ucadan oxumaq vacibdir.

---

Sual: **457**. Sübh namazının qəzasını qılmaq istədikdə uca səslə oxunmalıdır, yoxsa alçaq səslə?

Cavab: Sübh, məğrib və işa namazlarının həm ədasında, həm də qəzasında həmd-surəsi uca səslə oxumaq hər halda; hətta, qəzaları gündüz də olsa belə vacibdir.

---

Sual: **458**. Biz bilirik ki, namazın bir rəkəti niyyət, təkbirətül-ehram, həmd, surə və səcdədən təşkil olunub. Digər tərəfdən, zöhr və əsr namazlarını, məğrib namazının üçüncü rəkətini, işa namazının axırıncı iki rəkətini alçaq səslə qılmaq vacibdir. Lakin radio-televiziyada üçüncü rəkətin rüku və səcdəsini uca səslə qılırlar. Halbuki, rüku və səcdə alçaq səslə qılınmalı olan rəkətin hissəsidir. Bu məsələdə hökm nədir?

Cavab: Məğrib, işa və sübh namazlarını uca səslə qılmağın vacib olması, zöhr və əsr namazlarını isə alçaq səslə qılmağın vacib olması yalnız həmd və surənin oxunuşundadır. Necə ki, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərindən savayı, yerdə qalan rəkətlərin alçaq səslə qılınması da həmd, yaxud təsbihati-ərbəə xüsusundadır. Amma rüku və səcdənin zikrlərində, həmçinin təşəhhüd və salamda və beşlik təşkil edən vacibi namazların sair zikrlərində mükəlləf şəxs bunları alçaqdan, yaxud ucadan deməkdə ixtiyar sahibidir.

---

Sual: **459**. Bir nəfər 17 rəkət gündəlik vacibi namazlardan əlavə, ehtiyat olaraq 17 rəkət qəza namazı qılmaq istəsə, onda sübh, məğrib və işa namazlarında (əvvəldəki iki rəkətlərdə) qiraəti aşkar demək vacibdir, yoxsa alçaq səslə?

Cavab: Gündəlik namazlarda alçaq səslə, yaxud uca səslə qılınmağın vacib olmasında qəza namazı, yaxud əda namazı arasında heç bir fərq yoxdur. hətta, ehtiyat üzündən də olsa.

---

Sual: **460**. Bilirik ki, “səlat” kəlməsi mərbutə ta (ərəbcə ta) ilə qurtarır. Lakin azanda “həyyə ələs-səlah” (ərəbcə “ta”-nın yerinə ərəbcə “ha”) deyirlər. Bu düzgündürmü?

Cavab: Salat sözünü vəqf edəndə “ha” ilə qurtarmağın heç bir eybi yoxdur, əksinə (vəqfdə) elə “ha” ilə qurtarmaq lazımdır.

---

Sual: **461**. Həzrəti İmam Xomeyninin (r.ə) mübarək “Həmd” surəsinin təfsirində “məlik” kəlməsinin “malik” kəlməsindən üstünlüyünə dair rəyini nəzərə almaqla bu mübarək surəni vacibi, yaxud qeyri-vacibi namazlarda oxuyanda hər iki tərzdə (malik və məlik kimi) oxumaq düzgündürmü?

Cavab: Bu barədə ehtiyat etməyin heç bir eybi yoxdur.

---

Sual: **462**. Namaz qılan şəxs “ğayril-məğzubi əleyhim”-i deyib dayansa, sonra isə “vələzzallin “-i desə, düzgün olarmı? Həmçinin təşəhhüdü deyəndə salavatın “Allahummə səlli əla Muhəmməd” hissəsini deyib vəqf etmək, sonra isə “və ali Muhəmməd” i demək düzgündürmü?

Cavab: Nə qədər ki, bu, cümlənin vəhdətinə (tamlığına) xələl gətirməyib, heç bir eybi yoxdur.

---

Sual: **463**. İmam Xomeyniyə (r.ə) belə bir Sual verilmişdi:

“Təcviddə “zad” hərfinin tələffüzündəki rəylərin çoxluğunu nəzərə alsaq, Siz hansı yola əməl edirsiniz”?

İmam (r.ə) belə bir cavab yazmışdı: “Hərflərin məxrəclərini (ağızdan çıxdıqları yeri) təcvid alimlərinin sözlərinə əsasən öyrənmək vacib deyildir. Hər hansı bir hərfi tələffüz etdikdə, ərəblər arasında “Filan hərfi tələffüz etdi” desələr, elə bu qaydada tələffüz etmək vacibdir”. İndi ərəblər arasında “bu hərfi tələffüz etdi” ibarəsi necə izah olunur?

İkincisi, məgər təcvid elmi (qrammatika və sintaktika kimi) ərəb camaatından, onların lüğətindən əldə edilməyibmi? Bu halda necə ola bilər ki, bəziləri bəzilərindən ayrı salınsın?

Üçüncüsü, mötəbər yolla bir şəxs bilsə ki, hərfləri qiraət əsnasında düzgün məxrəclərindən tələffüz etmir, yaxud ümumi şəkildə hərfləri və kəlmələri düzgün şəkildə tələffüz etmir, onları da hərtərəfli şəkildə öyrənmək üçün münasib bir şərait var (məsələn, öyrənmə qabiliyyəti çox yaxşıdır, yaxud elmi öyrənmək üçün münasib bir fürsət var), bu halda o şəxsə vacibdirmi ki, qabiliyyəti dairəsində düzgün, yaxud ortabab qiraəti öyrənmək üçün səy etsin?

Cavab: Qiraətin düzgünlüyündə əsas meyar lüğətçilərin yanında olan qiraətin keyfiyyəti ilə müvafiq olmaqdır. (Təcvid qayda-qanunlarının çıxarılması, iktibas olunması işi lüğət əhli ilədir.) Buna əsasən, əgər təcvid alimlərinin özləri arasında, hər hansı bir hərfin tələffüzünün keyfiyyətinin lüğət alimləri yanında necə başa düşülməsində rəy ixtilafları əmələ gəlsə, bu halda əsl və müraciət yeri lüğətçilərdir. Amma əgər onların ixtilafları lüğət əhlinin özlərinin, tələffüzün keyfiyyətindəki fikir ayrılığından irəli gəlsə, bu halda mükəlləf bunlardan hər birini seçməkdə ixtiyar sahibidir.

---

Sual: **464**. Bir şəxsin əvvəldən niyyəti, yaxud adəti “Fatihə” ilə “İxlas” surəsini oxumaq olsa, “Bismilləhir-rahmənir-rahim”-i səhvən, (surəni) müəyyən etmədən desə, ona vacibdirmi ki, əvvələ qayıtsın, surəni müəyyən edib, sonra bismilləh desin?

Cavab: Bismillahı yenidən deməsi vacib deyildir, hər hansı surəni bismillahdan dediyi qədərə kifayət etməlidir, bundan sonra istədiyi surəni oxuya bilər.

---

Sual: **465**. Vacib namazlarda ərəbcə olan sözləri tam şəkildə tələffüz etmək vacibdirmi? (Namazın) sözləri ərəbcə düzgün və kamil surətdə tələffüz olunmayan surətdə namaz düz olarmı?

Cavab: Namazın bütün zikrləri, hətta surə və s. də düzgün surətdə olmalıdır. Əgər namaz qılan şəxs ərəb sözlərini vacib olan tərzdə bilmirsə, öyrənməsi vacibdir. Əgər öyrənməkdə aciz olsa, üzrlü sayılır.

---

Sual: **466**. Namazda kəlmələri ürəkdən keçirmək (dildə tələffüz etmədən) qiraət sayılırmı?

Cavab: Buna qiraət deyilməz. Namazda qiraət deyiləcək tərzdən başqa cür tələffüz olunsa, kifayət deyildir.

---

Sual: **467.** Bəzi müfəssirlərin rəyinə uyğun olaraq Qurani-Kərimin bir neçə surəsi "Fil", "Qüreyş", "İnşirah", "Züha" tam bir surə sayılmır. Onlar deyirlər ki, hər kəs bu surələrdən birini (namazda) oxusa, (məsələn " Fil" surəsini) hökmən ondan sonra "Qüreyş" surəsini oxumalıdır. Həmçinin "İnşirah" və "Züha" surələrində də belədir (yəni bir yerdə oxunmalıdır). Əgər bir şəxs namazda təkcə "Fil" surəsini, yaxud təkcə "İnşirah" surəsini oxusa, (bu məsələni bilmədən) onun vəzifəsi nədir?

Cavab: Keçmişdə bu surələrdən birini "Fil" və "İlaf", yaxud "Züha" və "İnşirahı"-ı oxumaqla kifayətləndiyi namazlar düz hökmündədir (əgər bu məsələni bilmirdisə).

---

Sual: **468**. Bir şəxs namaz əsnasında qəflət edərək məsələn, zöhr namazının üçüncü rəkətində Həmd-surə oxusa və (bu) namazı qurtarandan sonra yadına düşsə, namazı təzədən qılmalıdırmı? Və əgər (namazdan sonra da) yadına düşməsə, namazı düzdürmü?

Cavab: Əvvəlki iki rəkətdən savayı yerdə qalan rəkətlərdə Həmdin oxunması (qəflət, yaxud unutmaq üzündən kifayətdir. Surəni isə qəflət üzündən, yaxud bilməməzlik üzündən artıq oxusa, heç bir eybi yoxdur.

---

Sual: **469**. İmam Xomeyninin (r.ə) rəyi budur ki, zöhr və əsr namazlarını ucadan, yaxud alçaqdan qılmaqda meyar səsin çıxmamasıdır. Biz də bilirik ki, 10 hərf istisna olmaqla qalan hərflər səsli hərflərdir. Buna əsasən, əgər zöhr və əsr namazlarını alçaqdan qılsaq, qalan 18 hərfin (səsli hərfin) haqqı necə olacaq? Bu məsələni izah edin.

Cavab: Namazın alçaqdan qılınmasında meyar səsin cövhərinin tərk olunması yox, səsin cövhərinin aşkar olunmamasıdır. Səsin cövhərinin də qarşılığında "cəhr" durur. Cəhrin də meyarı səsin cövhərinin aşkar edilməsidir.

---

Sual: **470**. İslama daxil olan əcnəbi şəxslər (istər arvad olsun, istərsə də kişi) ərəb dilini bilmirlər. Onlar dinin vacibatlarını, namaz və qeyriləri necə yerinə yetirə bilərlər? Və ümumiyyətlə, bu kimi yerlərdə ərəb dilini öyrənməyə ehtiyac varmı?

Cavab: Namazdakı təkbirətül-ehramı, Həmdi, surəni, təşəhhüdü, salamı və ərəbcə deyilməsi şərt olunan hər şeyi öyrənməsi vacibdir.

---

Sual: **471.** Gecə nafilələrinin, ucadan qılınan namazların nafilələrinin ucadan oxunmasına dair bir dəlil varmı? Həmçinin, alçaqdan oxunan namazların da nafilələri alçaq səslə oxunar. Əgər Sualın cavabı "bəli" olsa, bu halda məsələn, uca səslə qılınan namaza tabe olan bu nafilələri alçaq səslə, yaxud əksinə oxumaq kifayətdirmi?

Cavab: Müstəhəbdir ki, uca səslə qılınan namazların nafiləsi uca səslə, alçaq səslə qılınan namazların nafiləsi də alçaq səslə qılınsın. Bu iş əksinə olsa, yenə də kifayətdir.

---

Sual: **472.** Namazda həmddən sonra bütöv bir surə oxumaq vacibdirmi, yoxsa Qurandan bir az oxumaq kifayətdir? Birinci halda surəni oxuduqdan sonra Quranın bəzi ayələrini də oxumaq caizdirmi?

Cavab: Gündəlik vacibi namazlarda bütöv bir surənin əvəzinə Quranın (başqa) ayələrindən oxumaq kifayət deyildir, lakin bütöv bir surəni oxuduqdan sonra Quran oxumaq kimi bir neçə ayəni oxumağın heç bir eybi yoxdur.

---

Sual: **473**. İnsanın danışdığı ləhcə, yaxud əhəmiyyət verməmək səbəbilə Həmd-surənin qiraətində, yaxud namazın kəlmələrinin hərəkəsində xəta etsə, məsələn "yuləd "-i "yulid" kimi oxusa, namazının hökmü nədir?

Cavab: Əgər (o) qəsdən etsə, yaxud müqəssir cahil (öyrənməyə qadir olan) olsa, namazı batildir; belə olmazsa, namazı düzdür.

---

Sual: **474**. Bir nəfərin 35-40 yaşı var. Uşaqlıqdan valideynləri ona namaz öyrətməmişlər. Bu şəxsin də savadı yoxdur, düzgün şəkildə öyrənməyə səy etmişdir, lakin namazın kəlmələrini, zikrlərini düzgün şəkildə tələffüz edə bilmir. Hətta bəzi kəlmələri ümumiyyətlə deyə bilmir. Onun namazı düzdürmü?

Cavab: Bacardığı qədər desə, namazı düzdür.

---

Sual: **475**. Namazın kəlmələrini valideynlərimdən öyrəndiyim qaydada tələffüz edirdim. Elə ki, məktəbdə mənə öyrətdilər, başa düşdüm ki, əvvəllər kəlmələri səhv deyirmişəm. İndi mənə vacibdirmi ki, (İmamın fitvasına uyğun olaraq) namazları təzələyim? Yoxsa elə bu keyfiyyətdə qıldığım namazlar düzdür?

Cavab: Qeyd olunan halda keçmişdəki namazların hamısı düz hökmündədir, nə təzələnməli, nə də qəzası qılınmalıdır.

---

Sual: **476**. Lallıq xəstəliyinə tutulan adam hiss üzvləri sağlam olan, lakin danışmaq qüdrəti olmayan halda namazı işarə ilə qılsa, namazı düzdürmü?

Cavab: Qeyd olunan halda o şəxsin namazı düz və kifayətdir.

## Zikrlər

---

Sual: **477**. Rüku və səcdənin zikrlərinin yerini dəyişərək birini o birisinin yerinə demək olarmı?

Cavab: Əgər o zikrləri mütləq şəkildə, Allahın zikri kimi desə səcdə, rüku, namaz hamısı düzdür.

---

Sual: **478**. Əgər bir nəfər səhvən səcdədə rükunun zikrini (yaxud əksinə, rükuda səcdənin zikrini) desə və elə bu vaxt yadına düşsə və səhvini düzəltsə, namazı batildirmi?

Cavab: Onun heç bir eybi yoxdur və namazı da düzdür.

---

Sual: **479**. Namaz qılan şəxsin namazı qurtarandan sonra, yaxud namaz əsnasında yadına düşsə ki, zikri səhv demişdir, bu məsələnin hökmü nədir?

Cavab: Zikrin məhəlli keçmiş olsa (yəni rüku və səcdədən qalxmış olsa), bu halda heç bir işkalı yoxdur.

Sual: **480**. Üçüncü və dördüncü rəkətlərdə təsbihati-ərbəəni bir dəfə demək kifayətdirmi?

Cavab: Kifayətdir, hərçənd müstəhəb ehtiyat onu üç dəfə deməkdir.

---

Sual: **481.** Namazda təsbihati-ərbəənin sayı üçdür, amma əgər bir şəxs səhvən dörd dəfə desə, onun namazı Allah dərgahında qəbuldurmu?

Cavab: Onun heç bir eybi yoxdur.

---

Sual: **482**. Üçüncü və dördüncü rəkətdə təsbihati-ərbəəni 3 dəfə, yaxud ondan çox, yaxud da az dediyini bilməyən şəxsin hökmü nədir?

Cavab: Onu bir dəfə demək kifayətdir və eybi də yoxdur. Nə qədər ki, rükuya getməyib, təsbihati-ərbəədə qəsdi aza qoyaraq 3 dəfə olduğuna dair yəqinə yetişənə qədər təkrarlaya bilər.

---

Sual: **483**. "Bihövlillahi və qüvvətihi əqumu və əqud" zikrini bədən hərəkət edən halda demək caizdirmi? Həmçinin, bu zikri qiyam halında da demək düzdürmü?

Cavab: Bunun eybi yoxdur. Bu zikrin qaydası sonrakı rəkət üçün ayağa duranda deməkdir.

---

Sual: **484**. Zikr nədir? Zikr Peyğəmbər və onun Əhli-beytinə olan salavata da şamildirmi?

Cavab: Allahın zikrinə şamil olan hər bir ibadət zikr sayılır. Peyğəmbərə (s) və onun övladlarına (Əhli-beytinə) salavat göndərmək ən fəzilətli zikrlərdəndir.

---

Sual: **485**. Bir rəkətli "vitr" namazında əllərimizi qunut üçün qaldırıb Allahdan öz hacətlərimizi istədiyimiz zaman hacətlərimizi öz dilimizdə desək, eybi varmı?

Cavab: Qunutda duanı hər dildə deməyin heç bir eybi yoxdur. Ümumiyyətlə, qunutda duanı ərəb dilində olmayan hər hansı bir dildə də demək olar.

## Səcdənin hökmləri

---

Sual: **486**. Sementə və daş döşənən yerə (keramik maddələrə) səcdə etməyin, təyəmmüm etməyin hökmü nədir?

Cavab: O ikisinə səcdə etməyin eybi yoxdur, lakin onlara təyəmmüm etmək vacib ehtiyata əsasən caiz deyil.

---

Sual: **487**. Namaz qılan halda əli kiçik deşiyi olan daşın deşiyinə qoymağın eybi varmı?

Cavab: Heç bir eybi yoxdur.

---

Sual: **488**. Qaralan və çirklənən səcdə türbətindən (belə ki, o türbətin üstünü çirk qatı örtür və alınla türbət arasında fasilə salır) istifadə etməyin işkalı varmı?

Cavab: Əgər türbətin üstündəki çirk alınla türbət arasında bir pərdə qatı şəklinə düşəcək miqdarda olsa, səcdə batildir, həmçinin namaz da batildir.

---

Sual: **489**. Bir nəfər qadın türbətə səcdə edir, alnı isə hicabla (xüsusilə də səcdə yeri) örtülmüşdür. O qadın belə qıldığı namazları təzələməlidirmi?

Cavab: Səcdə edəndə alnı ilə möhürün arasında pərdə olduğunu bilməsə, namazı yenidən qılması vacib deyil.

---

Sual: **490**. Bir nəfər qadın başını möhürün üstünə qoyur, başa düşür ki, alnı torpağa tam şəkildə toxunmur. Belə ki, dəsmal, yaxud çadra tam toxunmanın qarşısını alır. Buna görə də başını qaldırır, pərdəni götürəndən sonra yenidən başını möhürə qoyur. Bu məsələnin hökmü nədir? Əgər axırıncı işi müstəqil bir səcdə sayılsa, qıldığı namazların hökmü nədir?

Cavab: Vacibdir ki, alnını (başını qaldırmadan) türbətə dəyənə qədər hərəkət etdirsin. Əgər yenidən türbətə səcdə etməkdən ötrü alnını möhürdən qaldırması bilməməzlik, yaxud yaddan çıxmaq üzündən olsa və bu işi də iki səcdədən birində və bir rəkətdə etmiş olsa namazı düzdür, yenidən qılması vacib deyil. Amma əgər başını səcdədən qaldırıb möhürə qoyması qəsdən (bilərəkdən) olsa, yaxud bu iş hər bir rəkətin hər iki səcdəsində olsa, namazı batildir və yenidən qılması da vacibdir.

---

Sual: **491**. Səcdə halında yeddilik təşkil edən səcdəgahların (alın, əllərin içi, dizlərin gözü və ayaqların baş barmaqlarının ucu, ət hissəsi) yerə qoyulması vacibdir. Lakin biz bu işi edə bilmirik, çünki biz xas əlillik vəziyyətindəyik. Belə ki, biz müharibə əlilərindənik, hərəkət edən stuldan istifadə edirik. Namaz qılmaq üçün ya möhürü qaldırıb alnımıza qoyuruq, yaxud da möhürü stulun oturacağına qoyub üstünə səcdə edirik. Bu iş düzdürmü?

Cavab: Əgər möhürü stulun dəstəyinə qoyub səcdə edə bilirsinizsə, elə belə də edin, namazınız düzdür. Əgər ora qoya bilməsəniz, sizin üçün nə cür mümkündürsə, elə o cür də səcdə edin; hətta işarə ilə, gözlə işarə etməklə də olsa belə səcdə, rüku edin və bunun da heç bir eybi yoxdur. Allah sizi müvəffəq etsin.

---

Sual: **492**. Şərif hərəmlərə döşənən mərmər daşına səcdə etməyin hökmü nədir?

Cavab: Mərmər daşına səcdə etməyin heç bir eybi yoxdur.

---

Sual: **493**. Səcdə edəndə ayağın baş barmağı ilə belə, bəzi barmaqların yerə qoyulmasının hökmü nədir?

Cavab: Heç bir eybi yoxdur.

---

Sual: **494.** Son zamanlar səcdə üçün "əmin möhürü" adlı bir möhür hazırlamışlar ki, namaz qılan şəxsin rəkətlərinin səcdələrini sayır, şəkki müəyyən qədər aradan qaldırır. Onu düzəldən şirkət iddia edir ki, təqlid mərcələri o möhürə səcdə etməyə icazə vermişlər. Rica edirik, bu barədə öz rəyinizi bildirəsiniz. Qeyd edək ki, o möhürə səcdə edəndə aşağıya doğru hərəkət edir, çünki möhürün altında dəmir yay vardır. Bununla belə, ona səcdə etmək düzdürmü?

Cavab: Əgər o möhür səcdə etməyin düz olduğu şeylərdən olsa və alını onun üzərinə qoyandan, ağırlıq düşəndən sonra qərarlaşıb sabit vəziyyətdə qalırsa, ona səcdə etməyin heç bir eybi yoxdur.

---

Sual: **495**. Səcdədən qalxandan sonrakı istirahət oturmasında hansı ayağı o birisinin üstünə qoymaq lazımdır?

Cavab: Müstəhəbdir ki, sağ ayağı sol ayağın üstünə qoyasan.

---

Sual: **496**. Səcdədə və rükuda vacib zikrdən sonra hansı zikri demək daha fəzilətlidir?

Cavab: Elə həmin vacib zikri tək ədədlə (3, 5, 7 və s.) qurtarana kimi təkrar etmək. Səcdədə bundan əlavə, dünya və axirət hacətləri üçün dua etmək də müstəhəbdir.

---

Sual: **497**. Əgər Quran oxuyan şəxs yanımızda olmasa və Quran səsinə radiodan, maqnitofondan qulaq assaq, səcdə ayələrini eşidəndə şəri vəzifəmiz nədir?

Cavab: Səcdə ayələrini kasetdən eşitmək səcdəyə səbəb olmaz, amma radiodan eşitdikdə, yaxud diri bir şəxsin mikrofondan yayılan səsini eşitdikdə, vacib ehtiyata əsasən, səcdə etmək vacibdir.

## Namazda salam verməyin hökmləri

---

Sual: **498**. Uşaqların salamını almaq vacibdirmi?

Cavab: Kişilərin və qadınların salamını almaq vacib olduğu kimi, müməyyiz (yaxşını-pisi seçən) oğlan və qızların da salamını almaq vacibdir.

---

Sual: **499**. Əgər bir şəxs salamı eşitsə, lakin qəflət üzündən, yaxud hər hansı başqa səbəbdən cavabını qaytarmasa (belə ki, arada kiçik zaman fasiləsi düşsə), bu halda salamın cavabını vermək vacibdirmi?

Cavab: Əgər fasilə o qədər çox olsa ki, cavab versə daha salamın cavabı sayılmayacaq, bu halda vacib deyildir.

---

Sual: **500**. Əgər bir nəfər bir dəstə adama salam verib desə ki, "Əssəlamu əleykum cəmiən" və onlardan biri də namaz qılan halda olsa, ona da vacibdirmi ki (sair şəxslər salamı aldıqda) salamın cavabını alsın?

Cavab: Ehtiyat budur ki, qeyriləri salamı aldığı halda o (namaz qılan) şəxs salamın cavabını almasın.

---

Sual: **501**. Salam siğəsi ilə olmayan salamın (yəni "əssələmu əleyk" kimi deyilməyən salamın) cavabını vermək barədə Sizin rəyiniz nədir?

Cavab: Əgər namaz üstündə olsa, salamın cavabını qaytarmaq caiz deyildir. Lakin əgər namaz üstündə olmasa, bu halda ehtiyat budur ki, əgər camaat arasında salam sayılsa və məfhumu olsa, cavabı alınsın.

---

Sual: **502**. Əgər bir şəxs eyni vaxtda bir neçə dəfə salam versə, yaxud bir neçə şəxsə salam versə, bu halda onların hamısı üçün bir cavab vermək kafidirmi?

Cavab: Birinci halda bir dəfə cavab vermək kifayətdir. İkinci halda isə əgər salamın cavabını onların hamısına şamil olacaq bir tərzdə, onların cavabını almaq niyyətilə versə, kifayətdir.

---

Sual: **503**. Bir şəxs salamı "Salamün əleykum" əvəzinə "Salam" deyərək verir. Bu halda onun salamının cavabını qaytarmaq vacibdirmi?

Cavab: Əgər camaat arasında onu salam hesab etsələr, cavabını almaq vacibdir. Əgər salam verən müməyyiz uşaq olsa, cavabını almaq vacibdir.

## Namazı batil edən şeylər

---

Sual: **504**. Təşəhhüddə "əşhədü ənnə Əliyyən vəliyyullah" demək namazı batil edərmi?

Cavab: Vacibi namazların təşəhhüdündə (hədisdə) gəlməyən şeyləri şəri cəhətdən təşəhhüdün bir qismi kimi gəlməsi niyyəti ilə desə, namazı batil olar; hətta bu artıq şeylər öz-özlüyündə haqq və düzgün olsa da belə.

---

Sual: **505**. Bir nəfər öz ibadətlərində riyaya mübtəla olub, hal-hazırda öz nəfsi ilə cihad edir. Bu da riya sayılırmı? Riyadan necə uzaqlaşsın?

Cavab: Vacibdir ki, ibadətlərini qürbətən iləllah (Allaha yaxın olmaq) qəsdi ilə yerinə yetirsin. Riyadan xilas olmaq üçün isə, Allahın əzəmətində, öz nəfsinin zəifliyində, sair şəxslər kimi Allaha ehtiyaclı olması, özünün, həmçinin sair şəxslərin də Allaha bəndəliyi barədə təfəkkür etsin, fikirləşsin.

---

Sual: **506**. Qadınların namaz halında bir əlini digərinin üstünə qoymaları vacibdirmi?

Cavab: Bu, vacib deyildir və əgər əllərin əlləri üstünə (sünnilər kimi) qoysa bu, caiz deyildir.

---

Sual: **507**. Sünni qardaşlarla birlikdə camaat namazında iştirak edəndə imam fatihəni oxuyandan sonra uca səslə "Amin" deyilir. Bunun hökmü nədir?

Cavab: Əgər təqiyyə üzündən "amin" sözünün deyilməsi (fərz olunan halda) tələb olunsa, onda eybi yoxdur; əks halda caiz deyildir.

---

Sual: **508**. Bəzi vaxtlar vacibi namaz əsnasında görürük ki, uşaq təhlükəli bir işə əl atır. Bu halda təhlükənin aradan qalxması üçün Həmdin, yaxud başqa surənin bəzi kəlmələrini, yaxud da bəzi zikrləri uca səslə uşağı başa salmaq, yaxud evdə olanlara bu işi başa salmaq üçün oxumaq olarmı? Namaz əsnasında əli hərəkətə gətirməklə, qaşları tərpətməklə bir nəfərə müəyyən bir şeyi başa salmaq, yaxud bir Suala (işarə ilə) cavab vermək olarmı?

Cavab: Başqalarına bir şeyi başa salmaq üçün zikrləri, Quran ayələrini dedikdə səsin ucaldılması namaz halətindən çıxmağa səbəb olmazsa, bu halda heç bir eybi yoxdur; bu şərtlə ki, qiraət və zikr onları demək niyyəti ilə tələffüz olunsun. Bəli, namaz halında namazdakı bədənin sakit, qərarlaşmış halı ilə düz gəlməyən bir danışıq, yaxud hərəkət namazın batil olmasına səbəb olur.

---

Sual: **509**. Bir şəxs namaz əsnasında güldürücü bir söz desə, yaxud gülüş əsəri olan bir məqsədlə gülsə, namazı batil olarmı?

Cavab: Əgər gülüşdə səs (qəh-qəhə) olsa, namaz batildir.

---

Sual: **510**. Namaz qılanda qunutdan sonra əlləri üzə çəkmək namazı batil edirmi? Batil olmasına səbəb olan halda günah sayılırmı?

Cavab: Bunun eybi yoxdur, namazı da batil etmir.

---

Sual: **511**. Namaz halında gözləri yummaq caizdirmi? Çünki gözləri açıq saxlamaq insanı namazdan yayındırır.

Cavab: Şəri cəhətdən gözləri namazda yummağın heç bir eybi yoxdur.

---

Sual: **512**. Bəzi vaxtlar namaz əsnasında kafir əsgərləri ilə döyüş zamanı keçirdiyim bəzi mənəvi halları, iman mərhələlərini yadıma salıram, bunlar da xüşunun çoxalmasında mənə kömək edir. Bunlar namazı batil edirmi?

Cavab: Bunlar namazı düzlüyünə zərər yetirməz.

---

Sual: **513**. İki nəfər arasında 3 günlük düşmənçilik, ayrılıq baş versə oruc-namazları batil olarmı?

Cavab: İki nəfər arasında baş verən ayrılıq və düşmənçilik namazı, orucu batil etmir.

## Şəkklər və onların hökmü

---

Sual: **514**. Bir nəfər namazın 3-cü rəkətində qunut tutub-tutmamaq barədə şəkk edir. Bunun hökmü nədir: namazı tamamlamalıdır, yoxsa şəkk edən vaxt kəsməlidir?

Cavab: Qeyd olunan şəkkə etina edilməməlidir. Namazı da düzdür, bu barədə mükəlləfin boynunda heç nə yoxdur.

---

Sual: **515**. Nafilənin rəkətlərindən qeyri yerində şəkkə etina etmək olarmı? Məsələn bir səcdə, yaxud iki səcdə yerinə yetirilməsində şəkk olunsa.

Cavab: Nafilənin işlərində, sözlərində olunan şəkkin hökmü vacib namazlardakı (şəkkin məhəlli keçməmiş etina olunmasında, məhəlli keçdikdə isə etina olunmamasında) şəkk hökmündədir.

---

Sual: **516**. Kəsirüş-şəkk (çox şəkk edən adam) öz şəkkinə etina etməməlidir. Lakin onun üçün namazda şəkk irəli gəlsə, vəzifəsi nədir?

Cavab: Vəzifəsi budur ki, qəsdi şəkk etdiyinin olduğuna qoysun. Amma əgər qəsdi onun olmasına qoyması namazın pozulmasına səbəb olsa, bu halda qəsdini əməlin olmamasına qoysun. Bu barədə rəkətlərin, namazın əməllərinin, sözlərinin arasında heç bir fərq yoxdur.

---

Sual: **517**. Bir şəxs bir neçə ildən sonra başa düşsə ki, ibadətləri batil olmuşdur, yaxud bu barədə şəkk etsə, vəzifəsi nədir?

Cavab: Bir əməli görəndən sonra edilən şəkkə etina olunmur, amma batil olduğuna dair yəqini olsa, yerinə yetirilməsi mümkün olanları qəza etməlidir.

---

Sual: **518**. Səhvən namazın bəzi hissələri digərinin yerində görülsə, yaxud namaz əsnasında hər hansı bir yerə baxsa və ya səhvən danışsa, namazı batildirmi? Nə etmək lazımdır?

Cavab: Namazda səhvən baş verən əməllər namazı batil etmir; bəzi vaxtlarda səcdeyi-səhvə səbəb olar, lakin bir rüknü azaltsa, yaxud çoxaltsa namazı batil olar.

---

Sual: **519**. Əgər namazın bir rəkəti yaddan çıxsa və axırıncı rəkətdə yadına düşsə (məsələn, birinci rəkətdə elə bilsə ki ikinci rəkətdir bu fikirlə üçüncü və dördüncü rəkəti də qılıb sonra başa düşsə ki, o, dördüncü hesab etdiyi üçüncü rəkət imiş), bu halda onun şəri vəzifəsi nədir?

Cavab: Salam verməzdən əvvəl namazının naqis qalan rəkətini yerinə yetirməli, sonra isə salamı deməlidir. Bu halda səhvən rükn olmayan bir şey artırsa, yaxud səhvən rükn olmayan bir vacibatı tərk etsə, səcdeyi-səhv etməsi vacibdir və əgər vacib təşəhhüdü öz yerində tərk etsə, ehtiyata əsasən qəzasını etməlidir.

---

Sual: **520**. Bir şəxs ehtiyat namazının rəkətlərinin miqdarını -bir rəkət, yaxud iki rəkət olması nahiyəsindən- necə öyrənə bilər?

Cavab: Ehtiyat namazının rəkətlərinin miqdarı namazda ehtimal verilən nöqsan qədər olmalıdır; əgər 2-ci rəkətlə 4-cü rəkət arasında şəkk etsə, 2 rəkət ehtiyat namazı vacibdir və əgər şəkk 3-lə 4 arasında olsa, bir rəkət ehtiyat namazı vacibdir.

---

Sual: **521**. Namazın zikrlərindən birini, yaxud Quran ayələrindən birini, yaxud da qunut dualarından birini səhvən oxuduqda səcdeyi-səhv vacibdirmi?

Cavab: Vacib deyildir.

## Qəza namazı

---

Sual: **522**. Mən 17 yaşıma qədər möhtəlim olmaq, qüsl və bu kimi məsələləri bilmirdim, bu barədə də heç kimdən heç nə eşitməmişdim. Özüm də cənabətin, qüslün vacibliyinin mənasını başa düşmürdüm. Buna görə də bu yaşa qədərki oruc-namazlarım işkallıdır. Yerinə yetirilməsi vacib olan vəzifələri mənə buyurun.

Cavab: Cənabət halında qıldığın bütün namazların qəzasını etməlisən, lakin cənabət halında (cənabət əslini bilmədiyi halda) tutduğun oruc düzdür və kifayətdir, qəzasını tutmaq vacib deyildir.

---

Sual: **523**. Təəssüf olsun ki, cəhalət və iradəsizlik üzündən qəbih istimna əməli ilə məşğul olurdum. Buna görə də bəzi vaxtlar namaz qılmırdım. Amma namazı tərk etdiyim müddətin miqdarını bilmirəm, çünki namazı tərk etməyim ardıcıl olmayıb. Cünub olduğum və qüsl etmədiyim vaxtların müddəti zənnimcə altı ay olmuşdur. İndi qərara almışam ki, bu müddətdəki namazların qəzasını qılam. Bu namazların qəzası vacibdirmi?

Cavab: Əda etmədiyini bildiyin, yaxud cünub halında qıldığını bildiyin bütün gündəlik namazların qəzası sənə vacibdir.

---

Sual: **524**. Boynunda qəza namazı olmasını bilməyən şəxsin qıldığı müstəhəbbi namazlar, yaxud nafilə namazları onun qəza namazlarından (əgər onun boynunda qəza namazı olmasını fərz etsək) hesab olunarmı?

Cavab: Nafilə namazları, yaxud müstəhəbb namazlar qəza namazı hesab olunmur və əgər o şəxsin boynunda qəza namazı olsa, onları qəza namazı niyyəti ilə qılmalıdır.

---

Sual: **525**. Təqribən 7 aydır ki, həddi-büluğa çatmışam. Həddi-büluğa çatmazdan bir neçə həftə əvvəl belə güman edirdim ki, həddi-büluğa çatmağın əlamətlərindən biri hicri-qəməri tarixi ilə 15 yaşa çatmaqdır. Lakin bu vaxtlar kişilərdə büluğun əlamətlərindən bəhs edən bir kitab mütaliə etdim, orada oxudum ki, büluğ üçün başqa əlamətlər də vardır ki, artıq o əlamətlər məndə vücuda gəlib. Amma o əlamətlərin zühura gəlməsi tarixini bilmirəm. İndi mənim boynumda namaz, oruc qəzası varmı? Halbuki mən bəzi vaxtlar namaz qılırdım, keçən ilin orucunu da tam şəkildə tutmuşam. Bu məsələnin hökmü nədir?

Cavab: Şəri cəhətdən həddi-büluğa çatdıqdan sonra fövt etməsinə yəqinliyin olan bütün oruc-namazların qəzasını yerinə yetirməlisən.

---

Sual: **526**. Bir şəxs mübarək ramazan ayında 3 dəfə -məsələn, 20-ci, 25-ci, 27-ci günlərdə cənabət qüslü alsa, sonra da yəqin surətdə bilsə ki, bu qüsllərdən biri batil olmuşdur, onda onun bu oruc-namazlar qarşısındakı hökmü nədir?

Cavab: Orucu düzdür, lakin namazların, ehtiyatən, qəzasını qılması vacibdir.

---

Sual: **527**. Bir nəfər bilməməzlik üzündən qüsldə tərtibə riayət etməyib. Onun oruc-namazının hökmü nədir?

Cavab: Əgər tərtibə riayət etməmək qüslü batil edəcək bir dərəcədə olsa (məsələn sağ tərəfini başla-boyundan əvvəl yusa, yaxud sol tərəfi sağdan əvvəl yusa) hədəsi-əkbərdə (cənabətdə) qalır və bu halda qıldığı namazların qəzası vacibdir, lakin qüslünün düz olduğuna etiqad bəsləmiş olsa, orucları düz hökmündədir.

---

Sual: **528**. Bir nəfər bir ilin namazının qəzasını qılmaq istəsə, necə qılmalıdır?

Cavab: Namazlardan birindən başlamalı, gündəlik namazları qıldığı ardıcıllıqla qılmalıdır.

---

Sual: **529**. Əgər bir nəfərin boynunda bir neçə namazın qəzası olsa, o, aşağıdakı ardıcıllıqla qıla bilərmi:

1- 20 ədəd sübh namazı,

2- 20 ədəd zöhr və əsr namazı,

3- 20 ədəd məğrib və işa namazı.

Bu ardıcıllığı bu minvalla bir il davam etdirə bilərmi?

Cavab: Qeyd olunan ardıcıllıqla qılmasının eybi yoxdur.

---

Sual: **530**. Bir nəfərin başı yaralanmış, beyin sümüyünün bir hissəsi zədələnmişdir. Bunun nəticəsində sağ əli, sağ ayağı və dili tutulmuşdur. O, namazın qılınma tərzini yaddan çıxarmışdır, öyrənə də bilmir. Lakin namazın müxtəlif hissələrini kitabdan oxuyaraq, yaxud maqnitofona qulaq asaraq seçə bilir. Hal-hazırda namaz üçün iki müşkülü var: 1) Bövlün məxrəcini paklaya bilmir, dəstəmaz ala bilmir; 2) Namazda qiraəti yerinə yetirə bilmir.

Onun hökmü nədir? Həmçinin onun təqribən 6 ay müddətində fövtə getmiş namazlarının hökmü nədir?

Cavab: Əgər dəstəmaz almağa, yaxud təyəmmüm etməyə imkanı olsa, (hətta başqalarının köməyi ilə də) bu halda vacibdir ki, mümkün olan hər bir halda -hətta kasetə qulaq asmaqla, yaxud yazılmış vərəqə baxmaqla da olsa belə- namaz qılsın. Fövtə getmiş namazların da qəzasını qılmaq -bütün vaxt ərzində olan bihuşluq nəticəsində fövtə gedən namazlardan başqa- vacibdir.

---

Sual: **531**. Cavanlıqda zöhr və əsr namazlarından qəzaya gedənlərin sayı məğrib, işa, sübh namazlarından qəzaya gedənlərdən çox olub. Onların ardıcılığını, silsiləsini, sayını da bilmirəm. Bu halda dövr namazı varmı? Dövr namazı nədir? Bu barədə məlumat verin.

Cavab: Tərtibə riayət etmək vacib deyildir. Fövtə getməsini yəqin etdiyin namazlardan hər birinin qəzasını qılmaq kifayətdir. Həmçinin, tərtibin aşkar olması məqsədi ilə namazları təkrarlamaq da vacib deyildir.

---

Sual: **532**. Kafir şəxs bir müddətdən sonra İslamı qəbul etsə, (keçmişdə) yerinə yetirmədiyi namaz-orucların qəzası vacibdirmi?

Cavab: Vacib deyil.

---

Sual: **533**. Evlənəndən sonra bəzi vaxtlar məndən maye xaric olur. Mən elə bilirdim ki, nəcisdir, buna görə də cənabət qüslü niyyəti ilə qüsl alırdım, digər tərəfdən də (qüsldən) sonra dəstəmaz almadan namaz qılırdım. Əməli risalələrdə isə bu su məzi adlanır. İndi bilmirəm ki, cünub olmadan cənabət qüslü alıb dəstəmaz da almadan qıldığım namazların hökmü nədir.

Cavab: Bu maye xaric olandan sonra cənabət qüslü alaraq dəstəmazsız qıldığın namazların hamısının qəzasını qılmalısan.

---

Sual: **534**. Zəlalət yaradan təbliğat nəticəsində bəziləri bir neçə il namazlarını, vacibatlarını tərk etdilər. Lakin imam Xomeyninin (r.ə) risalətindən sonra tövbə edib, Allaha doğru qayıtdılar. İndi isə fövtə getmiş namazların qəzasını qıla bilmirlər. Onların hökmü nədir?

Cavab: Fövtə gedən ibadətlərdən mümkün olan qədər qəza etməlidirlər.

---

Sual: **535**. Bir nəfər vəfat etmişdir, onun boynunda bir ay oruc qəzası, elə o qədər də namaz qəzası vardır. Onun malından bir miqdar qalmışdır. Əgər bu mal onun oruc qəzalarının tutulması üçün sərf olunsa, namazlarına çatmaz, yaxud da əksinə. Bu halda hansını qabağa salmaq lazımdır?

Cavab: Orucla-namazın arasında üstünlük yoxdur. Nə qədər ki sağdır, onların qəzasını özü yerinə yetirməlidir. Özü yerinə yetirməsə, ömrünün axırında vəsiyyət etməlidir ki, onun üçün əcir tutsunlar; o da meyyitin malının üçdə birindən həmin miqdarın çatdığı qədər oruc-namazın qəzasını etməlidir.

---

Sual: **536**. Əksər vaxtlar namaz qılırdım və qəzaya gedənlərin də bəzisini sonradan yerinə yetirirdim. Fövtə gedən namazlar onların vaxtında yuxuda olduğum, yaxud bədənim və paltarım nəcis olandakı (paklamağa da çətinlik çəkirdim) namazların əvəzində idi. İndi boynumda olan gündəlik, ayət, qəsr namazlarını necə hesab edim?

Cavab: Sənin vəzifən budur ki, fövtə gedən namazlardan yəqinlik hasil olan qədərinin qəzasını qılasan və bunlardan da qəsr və ayət olduğuna yəqinliyin olanların qəzasını, yəqinliyinə müvafiq olaraq yerinə yetirməlisən. Yerdə qalanları isə gündəlik namazların əvəzində bütöv qılarsan. Sənin daha bundan çox vəzifən yoxdur.

## Böyük oğulun atanın qalmış namazlarının qəzasını qılması

---

Sual: **537**. Atam burunqaşınma xəstəliyinə tutulub, iki il xəstə oldu. Bu səbəbə görə də pisi-yaxşıdan seçə bilmirdi. Yəni onun təfəkkür və şüur qüvvəsi alınmışdı. Həmin iki il müddətində oruc-namazını yerinə yetirməmişdir. Mən də ailənin böyük oğluyam. Atamın qəzaya getmiş oruc-namazını yerinə yetirmək mənə vacibdirmi? Təbii olaraq bilirəm ki, əgər atam sağlam olsaydı, onların qəzası mənə vacib olacaqdı. Bu məsələdə mənə yol göstərin.

Cavab: Əgər onun əqli zəifliyi dəlilik deyiləcək bir həddə çatmamışdısa və namaz vaxtlarının bütövlüyündə bihuşluq vəziyyətində olmayırdısa, onun fövtə gedən namazlarını qılmaq sənə vacibdir.

---

Sual: **538**. Əgər bir nəfər ölsə, onun oruclarının kəffarəsini vermək kimə vacibdir? Kəffarəni vermək o şəxsin oğlanlarına, qızlarına vacibdirmi? Yaxud başqa bir şəxs o kəffarələri verə bilərmi?

Cavab: Atanın boynunda olan oruc kəffarəsi müxəyyər olsa (yəni oruc tutmağa, fəqirlərə yedizdirməyə imkanı olsa), bu halda əgər tərəkədən (meyyitin qoyub getdiyi mal-dövlətdən) verilməsi mümkün olsa, elə oradan çıxarılsın; yox əgər mümkün olmasa, vacib ehtiyat budur ki, böyük oğul orucu tutsun.

---

Sual: **539**. Yaşlı bir kişi öz əhli-əyalından müəyyən səbəblərə görə ayrılmışdır, bir daha onlara qovuşması çətindir. O, ailənin böyük oğludur, atası da bu müddət əsnasında vəfat etmişdir. Böyük oğul da qəza namazlarının və s. miqdarını bilmir. Əcir tutmaq üçün də kifayət qədər pulu yoxdur. Yaşı da çox olduğuna görə özü bunların qəzasını yerinə yetirə bilmir. O, nə etməlidir?

Cavab: Fövtə getməsi məlum olanlardan başqa heç bir namazın qəzası böyük oğula vacib deyil. Böyük oğul atasının qəza namazlarını mümkün olan hər hansı bir yolla qılmalıdır. Lakin heç cür qılması mümkün olmasa, üzrlü sayılır.

---

Sual: **540**. Meyyitin böyük övladı qız, ikinci oğlan olsa, bu halda ata-ananın oruc-namazlarının qəzası bu oğula vacibdirmi?

Cavab: Əsas budur ki, (böyük) oğul oğlanların içində ən böyük olsun. Əgər atanın çoxlu oğul övladı olsa, Sualın fərz olunduğu halda atanın oruc-namaz qəzaları onun ikinci övladı olan oğlana vacibdir. Amma anasının qəzaya gedən oruc-namazlarının qəzasının vacibliyi sübuta yetməyib, hərçənd müstəhəb ehtiyat onların da qəzasını yerinə yetirməkdir.

---

Sual: **541**. Böyük oğul atadan qabaq vəfat etsə (istər baliğ olsun, istərsə də olmasın), bu halda atanın qəza namazları digər uşaqların boynundan düşürmü?

Cavab: Atanın oruc-namaz qəzalarını yerinə yetirmək vəzifəsi atanın vəfatı zamanı diri olan böyük oğula aiddir. Hərçənd o, atanın birinci övladı, yaxud birinci oğlu deyil.

---

Sual: **542**. Mən ailənin böyük oğluyam. Atamın vacibatının qəzasını yerinə yetirmək üçün mənə vacibdirmi ki, onların miqdarını atamın sağlığında öyrənim, yoxsa onun özünə vacibdir ki, onların miqdarını mənə desin? Əgər miqdarını mənə deməsə, vəzifəm nədir?

Cavab: Sənə vacib deyil ki, bu barədə axtarış aparıb soruşasan. Lakin belə olan halda atanın vəsiyyət etməsi vacibdir. Hər halda, oğlanların ən böyüyü atası vəfat edəndən sonra onun fövtə getmiş oruc-namazlarının yəqin olunmuş miqdarının qəzasını yerinə yetirməlidir.

---

Sual: **543**. Bir nəfər vəfat etsə və onun varı-yoxu övladlarının yaşadığı ev olsa, həm də ölən şəxsin boynunda oruc-namaz qəzası olsa, böyük oğlu da gündəlik məşğuliyyətlər səbəbi ilə qəzasını yerinə yetirə bilməsə, onda bu evi satıb atanın oruc-namazının qəzasına sərf etmələri vacibdirmi?

Cavab: Atanın boynunda olan oruc-namazın qəzasını yerinə yetirmək hər bir halda böyük oğulun boynundadır. Amma, əgər ölən şəxs bu işləri yerinə yetirmək üçün tərəkənin üçdə birindən əcir tutulmasını vəsiyyət etsə və bu da boynunda olan bütün oruc-namazlara kifayət etsə, tərəkənin üçdə birini orada sərf etmək lazımdır.

---

Sual: **544**. Atanın qəza namazlarının qılınması boynunda olan, oğlanlar içində böyük olan oğul ölsə, böyük oğulun varisləri bu işlə məşğul olmalıdırlarmı, yoxsa qəzaları qılmaq (atanın övladlarından olan) ikinci oğulun öhdəsinə keçir?

Cavab: Böyük oğula vacib olan atanın oruc-namaz qəzası onun (böyük oğulun) oğluna və qardaşına vacib deyildir.

---

Sual: **545**. Ata bütün ömrü boyu namaz qılan olmasa, bu halda onun bütün namazları qəzadırmı və böyük oğula onların qəzasını qılmaq vacibdirmi?

Cavab: Vacib ehtiyat budur ki, belə olan halda da (onun əvəzindən) yerinə yetirilsin.

---

Sual: **546**. Bütün ibadi əməlləri bilərəkdən tərk edən atanın böyük oğluna vacibdirmi ki atasının fövtə getmiş bütün oruc-namazlarını (təqribən əlli illik) qəza etsin?

Cavab: Qəsdən tərk edən halda böyük oğula, onların qəzasını yerinə yetirməsi vacib deyil, lakin müstəhəb ehtiyat budur ki, belə olan halda da (atanın əvəzində) onların qəzasını yerinə yetirsin.

---

Sual: **547**. Böyük oğulun boynunda oruc-namaz qəzası olsa, bundan da əlavə, atasının oruc-namazı da onun boynunda olsa, bu halda (qəzalardan) hansını birinci etməlidir?

Cavab: Bu halda ixtiyar sahibidir; hansından başlasa, elə o da düzdür.

---

Sual: **548**. Mənim atamın boynunda bir qədər qəza namazı vardır, lakin qəzasını qıla bilmir. Mən də ailədə böyük oğlanam. Atamın sağlığında onun fövtə getmiş namazlarını qılmağım, yaxud bu işi görmək üçün bir nəfəri əcir etməyim caizdirmi?

Cavab: Diri bir şəxsin oruc-namazının qəzasını yerinə yetirmək üçün naib tutmaq düz deyil.

## Camaat namazı

---

Sual: **549**. İmam camaat (pişnamaz) namazda necə niyyət edir? Fürada (tək özü üçün) niyyət edir, yoxsa camaatla birlikdə?

Cavab: Əgər (pişnamaz) camaat namazının fəzilətini əldə etmək istəyirsə, imam olmağı və camaat namazının niyyətini etməlidir. Əgər bu niyyətlə (imam olmaq niyyəti ilə) namaza başlamasa, onun namazının -sair şəxslərin ona iqtida etməsində- heç bir eybi yoxdur.

---

Sual: **550**. Əsgərlik yerində camaat namazında (bu da idarə işləri vaxtında qılınır) bir neçə nəfər camaat namazında iştirak etmir (iş vaxtı olması səbəbilə). Halbuki bu işləri idarə vaxtından sonra da görmək olar. Bu iş namazı yüngül saymaq sayılırmı?

Cavab: Camaat namazında iştirak etmək öz-özlüyündə vacib deyil, lakin əvvəl vaxtda qılınması əfzəldir. Əvvəl vaxtın və camaat namazının fəzilətinə nail olmaq üçün idarə işlərini elə tənzim etməlidirlər ki, bu vaxtda bu ilahi fərizəni camaatla, həm də ən az vaxtda qılmaq mümkün olsun.

---

Sual: **551**. Hökumət idarələrində qılınan camaat namazlarında (namazdan əvvəl, namazdan sonra və namaz əsnasında) oxunan uzun dualar, "Təvəssül duası", müstəhəbb namaz kimi müstəhəbbi əməllər barəsində Sizin mübarək rəyiniz nədir? (Bu dualar idarənin namazxanasında və həm də camaat namazı fərizəsinin vaxtından uzun olur).

Cavab: Camaat namazı ilahi bir fərizə, ilahi bir ayindir. Bu ilahi fərizənin əda olunması məqsədilə təşkil olunan camaat namazında əlavə müstəhəbb əməllər, dualar idarə işlərinin vaxtının daralmasına, vacibatın əda olunmasının təxirə düşməsinə səbəb olsa, işkalı vardır.

---

Sual: **552**. Sayca çox olan namaz qılanlarla birlikdə camaat namazı qılınan yerdən 50-100 metr olan bir məsafədə, onların azan-iqamə səsləri eşidilsə, ikinci bir camaat namazı təşkil etmək olarmı?

Cavab: Belə bir ikinci, camaat namazı qılmağın heç bir eybi yoxdur. Amma möminlərin camaat namazı üçün olan dini mərasimlərə əzəmət bəxş etmək üçün bir yerə yığışıb, bir camaat namazı qılmaları daha münasibdir.

---

Sual: **553**. Məsciddə camaat namazı qılınanda bir, yaxud bir neçə nəfər (pişnamazı zəiflətmək, fasiq etmək niyyəti ilə) fərdi halda namaz qılırlar. Bu işin hökmü nədir?

Cavab: Onda işkal vardır; çünki camaat namazını zəiflətmək, camaatın ədalətli olmasına etiqad bəslədikləri pişnamaza qarşı hörmətsizlik etmək, ihanət etmək caiz deyildir.

---

Sual: **554**. Bir məhəllədə bir neçə məscid vardır, hamısında da camaat namazı qılınır. İki məscidin arasında da bir ev vardır. Belə ki, bu evin bir məsciddən on ev, o birisindən isə iki ev fasiləsi var. Bu evdə qılınan camaat namazının hökmü nədir?

Cavab: Yaxşı olar ki, camaatla qılınan namaz vəhdət, ülfət vasitəsi olsun, nəinki təfriqə və ixtilaf fəzasının yaranmasına səbəb olsun. Və məscidin qonşuluğunda yerləşən evdə camaat namazı qılınması da ixtilafa, çəkişməyə səbəb olmazsa, heç bir eybi yoxdur.

---

Sual: **555**. Bir şəxs məscidin pişnamazının icazəsi olmadan, həmçinin məscidlər idarəsi mərkəzinin təsdiqi olmadan bu məsciddə camaat namazı qıla bilərmi?

Cavab: Camaat namazını qılmaq pişnamazın icazəsinə bağlı deyil. Lakin pişnamaz namaz vaxtı məsciddə olarkən orada camaat namazının qılınmasına maneçilik törətməməsi yaxşıdır. Hətta, bəzi hallarda, əgər maneçilik törətməsi fitnəyə və s. səbəb olarsa, haram olur.

---

Sual: **556**. İmam camaat bəzi vaxtlar zövqə uyğun gəlməyən bir söz desə, yaxud zarafat etsə, (belə ki, onun bu işi bir din aliminin şənində olmazsa, ona münasib olmazsa) bu halda ədalətdən düşürmü?

Cavab: Bu iş namaz qılanların öhdəsinə verilir və əgər onun danışığı şəriətlə müxalif olmazsa, həmçinin mürüvvətlə zidd olmazsa, ədalətdə işkal sayılmaz.

---

Sual: **557**. Bir imam camaata, onu lazımi qədər tanımadan iqtida etmək caizdirmi?

Cavab: Əgər iqtida edənlər üçün onun ədaləti hər hansı yolla aşkar olarsa, ona iqtida etmək caizdir. Onunla qılınan namaz da düzdür.

---

Sual: **558**. Əgər bir şəxs əvvəllər birisinin ədalətinə, təqvasına etiqadı olmuş olsa, hal-hazırda isə bəzi hallarda ona zülm etdiyini güman etsə, o şəxs ümumi halda adil sayıla bilərmi?

Cavab: Nə qədər ki bu şəxsin (zülmkar hesab etdiyi şəxsin) əməllərinin elm, qəsd və ixtiyar üzündən olması, həmçinin şəri yolla olmaması aşkar olmayıb, onun fasiq (ədalətsiz) olmasına dair hökm etmək caiz deyildir.

---

Sual: **559**. Camaat namazını qılan şəxsə, onun adını bilmədən, üzünü görmədən iqtida etmək düzdürmü?

Cavab: Hər hansı bir yolla onun ədalətinə dair arxayınlıq hasil olsa, iqtida etmək düzdür.

---

Sual: **560**. Əmr be məruf, nəhy əz münkər edən, lakin özü bunlara əməl etməyən bir pişnamaza iqtida etmək caizdirmi?

Cavab: Sırf şəkildə əmr be mərufu, həmçinin mükəlləfin nəzərində üzrlü səbəbdən ehtimal verilən şeyləri tərk etmək ədalətə zərər yetirməz və ona iqtida etməyin heç bir maneəsi yoxdur.

---

Sual: **561**. Sizin rəyinizcə ədalətin mənası nədir?

Cavab: Ədalət-şəri haramlara mürtəkib olmağın qarşısını alan təqvaya bais olan nəfsani bir halətdir. Ədalətin aşkar olmasında onu (ədaləti) etibarlı zənn cəhətindən kəşf edən zahirdəki hüsn kifayətdir.

---

Sual: **562**. Biz bir qrup cavanıq və birlikdə hüseyniyyələrdə də otururuq. Namaz vaxtı gəlib çatanda içimizdəki ədalətli şəxslərdən birini (ona iqtida etmək üçün) qabağa keçiririk. Lakin, qardaşların bəzisi irad tutub deyirlər ki, imam Xomeyni (r.ə) din alimindən qeyrisinin arxasında namaz qılmağı haram etmişdir. Bu barədə bizə vacib olan nədir?

Cavab: Əgər qardaşlarınızın asanlıqla (iqtida etmək üçün layiq olan) din alimi arxasında namaz qılmağa imkanları olsa, -hətta bəzi qonşu məscidlərə getməklə də olsa- bu halda qeyri-alimə iqtida etmələri yaxşı deyil, hətta bəzi hallarda qeyri-alimə iqtida etmək işkallıdır.

---

Sual: **563**. İki nəfər camaat namazı təşkil edə bilərmi?

Cavab: Əgər məqsədiniz camaat namazını bir imam və bir də iqtida edən şəxsdən (ibarət olaraq) təşkil etmək olsa, bunun heç bir işkalı yoxdur.

---

Sual: **564**. Əgər məmum zöhr və əsr namazlarını camaatla qılan zaman Həmd və surəni oxusa, (Həmd-surənin onun boynundan düşməsini fərz edirik) amma bu işi zehninin təmərküzləşməsi, ibadət halından çıxmaması niyyəti ilə görsə, onun namazının hökmü nədir?

Cavab: Alçaq səslə qılınan namazlarda (zöhr və əsr kimi) imam Həmd-surəni qiraət edərkən məmumun sakit durması vacibdir. Onun qiraət etməsi caiz deyildir - hətta zehninin təmərküzləşməsi xatirinə də olsa belə.

---

Sual: **565**. Əgər imam-camaat camaat namazına getmək üçün motorsikletdən istifadə edirsə, (yol hərəkət qaydalarına tamamilə riayət etməklə) bu halda onun hökmü nədir?

Cavab: Məntəqə camaatının nəzərində pis, şən və mürüvvətlə zidd olan bir iş olmazsa, bu, onun ədalətinə, düzlüyünə zərər yetirməz.

---

Sual: **566**. Camaat namazının axırında ona çata bilməsək, onun savabını əldə etmək üçün təkbirətül-ehramı deyib otururuq, sonra təşəhhüd vaxtı çömbələn formada oturub imamla birlikdə təşəhhüdü deyir, imam salam verəndən sonra ayağa dururuq və birinci rəkəti qılırıq. Sualımız budur: Dördrəkətli namazın ikinci rəkətinin təşəhhüdündə də bu işi görmək olarmı?

Cavab: Bu deyilən qayda imam-camaat axırıncı təşəhhüddə olanda camaat namazının savabına çatmaq üçün məxsusdur.

---

Sual: **567**. Pişnamazın namaz üçün muzd alması caizdirmi?

Cavab: Caiz deyildir.

---

Sual: **568**. Pişnamaz iki bayram namazını, yaxud ümumiyyətlə iki namazı bir vaxtda qıla bilərmi?

Cavab: Gündəlik namazda camaat namazını ikinci dəfə olaraq qılmağın (başqa məmumlar üçün) heç bir eybi yoxdur. Əksinə, müstəhəbdir. Amma bayram namazında işkallıdır.

---

Sual: **569**. Camaat namazında (məsələn, işa namazında) imam 3-cü, yaxud 4-cü rəkətdə, məmum isə 2-ci rəkətdə olsa, bu halda məmum üçün Həmd-surəni ucadan oxumaq vacibdirmi?

Cavab: Vacibdir ki, Həmd-surəni alçaq səslə oxusun.

---

Sual: **570**. Camaat namazında salamlardan sonra Peyğəmbərə (s) salavat göndərmə ayəsi oxunsa və namaz qılanlar Peyğəmbər (s) və onun övladlarına 3 dəfə salavat göndərsələr, bunların ardınca da siyasi şüarlar (müsəlmanlara dua edib, kafirlərə qarğış etmək) uca səslə deyilsə, bunun işkalı varmı?

Cavab: Salavat ayəsini oxumaq, Peyğəmbərə (s) və onun övladlarına salavat göndərmək kimi işlərdə heç bir işkal yoxdur, üstəlik yaxşı işlərdəndir, savabı vardır. Hal-hazırda isə İslam İnqilabının məqsədlərini, amallarını göstərmək, İslam şüarlarına, İslam İnqilabına məxsus olan şüarlara (təkbir və sonrakılara) riayət etmək də gözəldir.

---

Sual: **571**. Əgər bir şəxs məscidə camaat namazının ikinci rəkətində çatsa və məsələni bilməməzlik üzündən sonrakı rəkətdə vacib olaraq deməli olduğu təşəhhüdü və qunutu yerinə yetirməsə namazı düzdür, yoxsa yox?

Cavab: Namazı düzdür, lakin təşəhhüdün qəzasını etmək, səcdeyi-səhv etmək vacibdir.

---

Sual: **572**. Namazda iqtida olunan şəxsin razılığı şərtdirmi? Məmuma iqtida etmək düzdürmü?

Cavab: Camaat namazında pişnamaza iqtida etmək üçün onun razılığı şərt deyildir. Namazda məmum olan şəxsə iqtida etmək düz deyil.

---

Sual: **573**. İki nəfər camaat namazı qılır: biri imam, biri isə məmumdur. Üçüncü bir şəxs elə təssəvür edir ki, (məmum olan) ikinci şəxs imamdır, ona iqtida edir. Namazı qurtarandan sonra məlum olur ki, bu şəxs imam yox, məmum imiş. Bu halda üçüncü şəxsin namazının hökmü nədir?

Cavab: Məmuma iqtida etmək düz deyil. Ancaq bilmədən (məmuma) iqtida etsə, sonra rükuda və səcdədə fərdi vəzifəyə əməl etsə, belə ki, rüknü qəsdən və səhvən azaldıb çoxaltmasa, namazı düzdür.

---

Sual: **574**. İşa namazını qılmaq istəyən şəxs məğrib namazını qılan camaat namazına iqtida edə bilərmi?

Cavab: maneəsi yoxdur.

---

Sual: **575**. İmamın namaz qıldığı yerin məmumların yerindən uca olmaması məsələsinə riayət etməmək məmumların namazını batil edirmi?

Cavab: İmamın yerinin məmumların yerinə nisbətən icazə verilən miqdardan artıq dərəcədə uca olması camaat namazının batil olmasına səbəb olar.

---

Sual: **576.** Camaat namazının cərgələrindən biri tam şəkildə qəsr qılanlardan, onun arxasındakı cərgə isə namazı tam qılanlardan təşkil olunur. Birinci cərgə iki rəkət qılıb dərhal sonrakı iki rəkətə iqtida etmək üçün qalxırlar. Bu halda arxa cərgədə olanların son iki rəkətləri camaat namazı sayılırmı?

Cavab: Əgər fərz etsək ki, birinci cərgədəkilərin hamısı namazı qəsr qılırlar, bu halda ikinci cərgənin camaat namazının düzlüyündə işkal vardır. Ehtiyat budur ki, sonrakı cərgələr birinci cərgədəkilər salam verən vaxtda namazı fərdi etsinlər.

---

Sual: **577**. Əgər məmum birinci cərgənin axırında namazda dayanmış olsa, onunla imam arasında olan şəxslər namaza daxil olmamış o, namaza daxil ola bilərmi?

Cavab: İmam namaza daxil olandan sonra imamla kənardakı şəxsin arasında olan məmumlar namaza daxil olmaq üçün hazırlaşsalar, o da camaat namazı niyyəti ilə namaza daxil ola bilər.

---

Sual: **578**. Bir şəxs imamın birinci rəkətdə olmasını fikirləşərək, əslində üçüncü rəkətə daxil olsa və buna görə də heç nə oxumasa, namazı yenidən qılmalıdırmı?

Cavab: Bunu (üçüncü rəkət olmasını) rükudan əvvəl başa düşsə, qiraəti yerinə yetirməlidir. Amma əgər rükudan sonra başa düşsə, namazı düzdür, boynunda da heç bir şey yoxdur. Hərçənd, müstəhəb ehtiyat qiraəti tərk etdiyi üçün səcdeyi-səhv etməkdir.

---

Sual: **579**. Dövlət idarələrində, müqəddimati məktəblərdə camaat namazı qılmaq üçün

pişnamaza çox ehtiyac duyulur. Məntəqədə də məndən başqa din alimi tapılmadığı üçün məcbur olaraq müxtəlif yerlərdə eyni bir namazı 3-4 dəfə imam oluram. İkinci dəfə qılmağı bütün mərcələr icazə verir, ondan artığında qəza namazı niyyət etmək (ehtiyatən) caizdirmi?

Cavab: Başqa bir dəstə üçün qılınan namazın yenidən qılınmasının eybi yoxdur. Lakin bu iş bir dəfədən artıq olduqda işkallıdır, ehtiyatən qəza namazı ilə imamlıq etmək də düz deyildir.

---

Sual: **580**. İnstitutların birində onun öz tabeçiliyində və şəhər məscidlərinin birinin qonşuluğunda olan bir binada camaat namazı qılınır. Hər vaxt da o məsciddə camaat namazı qılınır. Bu halda institutda qılınan camaat namazında iştirak etməyin hökmü nədir? Məsuliyyətli şəxslərin məcbur etmələri hökmü dəyişirmi?

Cavab: Məmumun nəzərində camaat namazının, iqtida etməyin düz olması üçün şəri şərtlərə malik olan namazda iştirak etməyin heç bir eybi yoxdur, hərçənd hal-hazırda camaat namazı qılınan məscidin yanındadır. Lakin məmumları camaat namazında iştirak etmək üçün məcbur və vacib etməkdə şəri bir dəlil yoxdur.

---

Sual: **581**. Məhkəmədə işləyən, lakin müctehid olmayan bir imamın arxasında qılınan namaz düzdürmü?

Cavab: Onun məhkəmədəki işi onu təyin etməyə səlahiyyəti olan şəxs tərəfindən təyin olunandan sonra ona iqtida etməyin maneəsi yoxdur.

---

Sual: **582**. Səfər məsələlərində imam Xomeyniyə (r.ə) təqlid edən şəxsin ondan qeyrisinə təqlid edən pişnamaza iqtida etməsinini hökmü - xüsusilə də cümə namazında - nədir?

Cavab: Müxtəlif adamlara təqlid etmək iqtida etməyin düz olmasına mane olmaz. Lakin məmumun mərceyi-təqlidinin fitvasına uyğun olaraq qəsr olan, pişnamazın isə mərceyi-təqlidinin fitvasına uyğun olaraq tamam olan namazda iştirak etmək düz deyil.

---

Sual: **583**. İmam təkbirətül-ehramdan sonra səhvən rükuya getsə, məmumun vəzifəsi nədir?

Cavab: Əgər məmum, camaat namazına daxil olandan sonra bu məsələni başa düşsə, vacibdir ki, niyyəti fərdi edib, Həmd-surəni oxusun.

---

Sual: **584**. Həddi-büluğa çatmayan məktəb uşaqlarından bir neçəsi üçüncü, yaxud dördüncü cərgədən sonra camaat namazına dayanırlar. Onlardan arxada da həddi-büluğa çatanlar dayansa, bu halda namazın hökmü nədir?

Cavab: Fərz olunan halda namazın işkalı yoxdur.

---

Sual: **585**. İmam üzrlü olduğu halda qüsl əvəzindən təyəmmüm etsə, onun camaat namazı qılmasında təyəmmüm kifayətdirmi?

Cavab: Əgər o, (imam) şəri cəhətdən üzrlü olsa, cənabət qüslü əvəzindən təyəmmüm alaraq pişnamaz olması mümkündür və ona iqtida etməyin heç bir eybi yoxdur.

## İmamın qeyri-səhih qiraətinin hökmü

---

Sual: **586**. Fərdi namazla, imamın və məmumun namazı arasında qiraətin düz olması məsələsində bir fərq varmı? Yoxsa qiraətin düz olması hər bir halda vahid bir məsələdir?

Cavab: Əgər mükəlləf şəxsin qiraəti düz olmazsa və düz qiraəti də öyrənə bilməsə, bu halda namazı düzdür. Lakin başqalarının ona iqtida etməsi düz deyildir.

---

Sual: **587**. İmam-camaatlardan bəzisiniin qiraətləri hərflərin məxrəcləri baxımından düz deyildir. Bu halda hərfləri öz məxrəclərindən düzgün şəkildə tələffüz edə bilən şəxs onlara iqtida edə bilərmi? Bəzi şəxslər deyirlər ki, bu halda camaat namazını qılmalı, sonra isə namazını təzələməlidir. Lakin mənim namazı təzələməyə imkanım yoxdur. Bu halda vəzifəm nədir? Mümkündürmü ki, camaat namazında iştirak edim, amma, alçaq səslə Həmd-surəni oxuyum?

Cavab: Əgər məmumun nəzərində imamın qiraəti düz olmasa, ona iqtida etməsi və camaat namazı batildir. Namazı da təzədən qıla bilməsə, iqtida etməməsinin maneəsi yoxdur, lakin uca səslə oxunası namazları alçaq səslə oxumaq (pişnamaza iqtida etdiyini göstərmək məqsədi ilə) düz və kifayət deyildir.

---

Sual: **588**. Bəzilərinin fikrinə görə, imam cümələrin bəzisinin qiraəti düz deyildir: ya hərflərin lazımi qaydada tələffüz olunmamasına görə, ya da hərflərin hərəkələrini olduğu kimi demədiklərinə görə. Onların arxasında qıldığımız namazları təzələmədən iqtida etmək olarmı?

Cavab: Qiraətin düzgün olmasında əsas meyar hərflərin öz məxrəclərindən, dilçilərin başqa hərfin yox, həmin hərfin tələffüzü kimi hesab etdikləri tərzdə tələffüz olunması, əsaslı və kəlmənin heyətində (quruluşunda) dəxaləti olan şeylərin hərəkələrinə ərəb alimlərinin yazdığı qanunlar əsasında riayət etməkdir. Əgər məmum bilsə ki, imamın qiraəti qaydalara müvafiq deyil və düz deyildir, bu halda ona iqtida etməsi düzgün deyildir. Əgər iqtida etsə, namazı düz olmaz və təzədən qılması vacibdir.

---

Sual: **589**. İmam namaz əsnasında bir kəlməni deyib keçəndən sonra onun tələffüzünün necəliyi barədə şəkk etsə və namazı qurtarandan sonra bilsə ki, düz tələffüz etməmişdir, bu halda onun öz namazının, məmumların namazının hökmü nədir?

Cavab: Namaz düz hökmündədir.

---

Sual: **590**. İmamın təcvid cəhətindən səhv namaz qılmasını bilən şəxsin, xüsusilə Quran müəlliminin şəri vəzifəsi nədir? Halbuki o, camaat namazında iştirak etməməsi səbəbilə çoxlu töhmətlərə məruz qalır.

Cavab: İmamın qiraəti məmumun nəzərində düz olmazsa və nəticə etibarı ilə namazı da (məmumun nəzərində) düz olmazsa (məmum) ona iqtida edə bilməz. Lakin ağılasığan bir məqsədlə, formal şəkildə iştirak etməyin maneəsi yoxdur.

## Naqis (yarımçıq) imamət

---

Sual: **591**. Aşağıdakı hallarda əziz əlillərin imamət ilə olan (namaza) iqtida etməyin hökmü nədir?

1- Heç bir bədən üzvünü itirməmişdir. Lakin ayağın şil olması nəticəsində əsaya (çəliyə), divara dayanmaqla ayaq üstə duran əlillər;

2- Əlin, yaxud ayağın barmağının bir hissəsini, yaxud bir barmağını itirən əlillər;

3- Ayaqlarında, yaxud əllərində və yaxud da hər ikisində (həm əl, həm də ayaq) bütün barmaqlarını itirən əlillər;

4- Bir əlin, yaxud bir ayağın, yaxud da bir əl və bir ayağın bir hissəsini itirən əlillər;

5- Bədənin bir üzvünü itirən əlillər (bunlar dəstəmaz almaq üçün bir şəxsi naib tuturlar).

Cavab: Ümumi halda əgər onlar qiyam halında qərarlaşsalar və namazı zikrlərini deyəndə, əməllərini yerinə yetirən halda bu qərarlaşmanı qoruyub saxlaya bilirlərsə, həmçinin kamil bir rükunu, 7 üzv üzərində olan kamil bir səcdəni yerinə yetirə bilirlərsə, həm də düzgün şəkildə dəstəmaz ala bilirlərsə, bu halda onlarda imamət üçün lazım olan sair şərtlər mövcud olduqda, digər şəxslərin ona iqtida etmələrinin heç bir eybi yoxdur. Əks halda düz və kifayət deyildir.

---

Sual: **592**. Mən dini elmlər üzrə tələbəyəm. Cərrahiyyə əməliyyatı nəticəsində sağ qolumu itirmişəm. Son vaxtlar bilmişəm ki, mərhum İmam kamil adamın naqis adama iqtida etməsini caiz bilmir. Buna görə də rica edirəm buyurasınız ki, bu vaxta qədər imamı olduğum məmumların namazlarının hökmü nədir?

Cavab: Məmumların və şəri hökmü bilmədən sənə iqtida edənlərin keçmiş namazları düz hökmündədir, qəzası və yenidən qılınması vacib deyildir.

---

Sual: **593**. Mən dini elmlər üzrə tələbəyəm. İİR-na qəbul etdirilmiş müharibədə ayaqlarımın barmaqları zədələnmişdir (ayağımın baş barmağı isə tamamilə salamatdır). Hal-hazırda hüseyniyyələrin birində pişnamazam. Bunun şəri cəhətdən işkalı varmı?

Cavab: Səcdə halında yerə qoya bildiyin baş barmağın salamat olduğu halda camaata imamlıq etməyinin heç bir işkalı (qeyd olunan cəhətdən) yoxdur.

## Qadınların camaat namazında iştirak etməsi

---

Sual: **594**. Müqəddəs şəriət sahibi kişilərdə olduğu kimi qadınların da məscidlərdə, camaat namazında, yaxud cümə namazında iştirak etməsini təbliğ edirmi, yoxsa onların namazı evdə daha fəzilətlidir?

Cavab: Əgər onlar bunu istəsələr, iştirak etmələrinin heç bir eybi yoxdur və camaat namazının savabı onlara aid olur.

---

Sual: **595**. Qadın nə vaxt pişnamaz ola bilər?

Cavab: Qadın yalnız qadınların camaat namazında pişnamaz ola bilər.

---

Sual: **596**. Qadınlar kişilər kimi camaat namazında iştirak etsələr, onda müstəhəb və ya məkruh olmaq cəhətindən bunun hökmü nədir? Bunun hökmü, onlar kişilərin arxasında dayandıqda nədir? Kişilərin arxasında camaat namazı qıldıqda aradan pərdə asmağa ehtiyac varmı? Kişilərin yanında namaz qıldıqda örtük cəhətindən hökm nədir? Nəzərə alaq ki, qadınların camaat namazı, xütbələr, mərasimlər əsnasında pərdə arxasında olmaqları onların xar sayılmalarına, şənlərinin azalmasına səbəb olur.

Cavab: Qadınların camaat namazında iştirak etmələrinin heç bir eybi yoxdur; kişilərin arxasında dayansalar, pərdəyə ehtiyac yoxdur, lakin kişilərin yan tərəflərində dayansalar, pərdənin olması -namazda qadınların kişilərlə qarşılaşmasının məkruh olmasını aradan qaldırmaq üçün- yaxşıdır. Amma namaz vaxtı kişilərlə qadınlar arasında pərdənin olması onların şəninin alçalmasına, kəramətlərinin azalmasına səbəb olması kimi yanlış təsəvvür (boş) xəyaldan başqa bir şey deyildir və bunun heç bir əsası yoxdur. Bundan əlavə, şəxsi fikirləri fiqhə daxil etmək düz deyildir.

---

Sual: **597**. Namazda pərdə olmadan qadınlarla kişilərin cərgələrinin bitişik olub-olmamasının keyfiyyəti nədir?

Cavab: Budur ki, qadınlar kişilərin arxasında, fasilə olmadan dayansınlar.

## Əhli-sünnətə (sünnilərə) iqtida etmək

---

Sual: **598**. Camaat namazını sünnilərin arxasında qılmaq caizdirmi?

Cavab: Əgər onlarla keçinmək üçün olsa, onların arxasında camaat namazı qılmaq caizdir.

---

Sual: **599**. Mənim iş yerim kürdlər yaşayan məntəqələrin birindədir. Oranın cümə və camaat namazının imamlarının əksəriyyəti sünnidir. Onlara iqtida etməyin hökmü nədir? Onların qeybəti caizdirmi?

Cavab: Onların cümə, camaat namazlarında iştirak etməyin heç bir eybi yoxdur. Lakin qeybətdən çəkinmək lazımdır.

---

Sual: **600**. Sünnilərin camaat namazında iştirak edəndə (onlarla birlikdə işləyib, qaynayıb-qarışdığımız yerlərdə) bəzi hallarda onlar kimi əməl edirik (Əli bağlı halda namaz qılmaq, vaxta riayət etməmək, xalçaya səcdə etmək və s. kimi işlərdə). Belə qıldığımız namazları yenidən qılmalıyıqmı?

Cavab: Sünnilərlə yola getmək bunların hamısını tələb edirsə, bu halda onlarla qılınan namaz düz və kifayətdir, hətta xalçaya səcdə etmək və s. kimi olsa da belə. Lakin mükəlləf şəxs yalnız zərurət tələb edən vaxt bu işləri görə bilər.

---

Sual: **601**. İmam Xomeyninin (r.ə) fitvasına istinad edərək Məkkədə və Mədinədə camaat namazını sünnilərlə birlikdə qılırıq. Bəzi vaxtlar da məsciddə namazın fəzilətinə çatmaq üçün (məsələn, zöhr namazından sonra əsri, məğrib namazından sonra işanı), sünnilərin məscidlərində fərdi halda namaz qılmaq istədikdə, möhürsüz olaraq xalçaya səcdə edirik. Bu cür qıldığımız namazların hökmü nədir?

Cavab: Fərz olunan halda namaz düz hökmündədir.

Sual: **602**. Biz şiələrin başqa ölkələrin məscidlərində sünnilərlə namazda iştirak etməyin keyfiyyəti necə olacaq, bir halda ki onlar əlləri bağlı namaz qılırlar? Biz də onlar kimi əllərimizi bağlayaq, yoxsa əlləri açıq qılaq?

Cavab: Əgər bu iş onlarla keçinmək üçün olsa, onlara iqtida etmək caizdir, namaz da düz və kifayətdir, lakin vacib deyildir; üstəlik əlləri bağlamaq caiz deyil, lakin bunu (əli bağlı olmağı) tələb edən bir zərurət olsa, eybi yoxdur.

---

Sual: **603**. Sünnilərlə camaat namazında iştirak edəndə ayaqların yan tərəflərini yan tərfdəki şəxslərin ayaqlarına yapışdırmağın (onlar bunu vacib bilirlər) hökmü nədir?

Cavab: Bu, vacib deyildir, amma, etsələr - namazın düzlüyünə zərər yetirməz.

---

Sual: **604**. Sünnilər məğrib namazını (şəri) məğribdən əvvəl qılırlar. Həcc mövsümündə, yaxud sair vaxtlarda onlara iqtida edib, elə bu namazla kifayətlənə bilərikmi?

Cavab: Onların namazı vaxtdan əvvəl qılmaları məlum deyil. Lakin mükəlləf şəxs vaxtın daxil olmasına dair yəqinlik tapmasa, namaza başlaması düz deyildir. Amma əgər onlarla yola getmək məsələsi bunu tələb etsə, bu halda onlarla birlikdə namaza başlayıb, bununla da kifayətlənməyin heç bir maneəsi yoxdur.

## Cümə namazı

---

Sual: **605**. Cümə namazında iştirak etmək barədə Sizin rəyiniz nədir? Biz İmam Zamanın (ə) qaib olduğu əsrdə yaşayırıq. Əgər imam cümənin ədalətinə etiqadı olmayan şəxslər olsa, cümə namazında iştirak etmək onların boynundan düşürmü?

Cavab: Cümə namazı hərçənd hal-hazırda belə ixtiyari-vacibdir və onda iştirak etmək vacib deyildir, lakin cümə namazında iştirak etməyin fayda və əhəmiyyətini nəzərə alsaq, bu halda möminlər üçün özlərini belə bir namazda iştirak etməyin bərəkətlərindən məhrum etmələri (sadəcə olaraq imam cümənin ədalətində şəkk etməklə, yaxud digər yersiz üzrlərlə) yaxşı bir iş deyildir.

---

Sual: **606**. Cümə namazında deyilən "təxyiri-vacib "-in mənası nədir?

Cavab: Onun mənası budur ki, mükəlləf şəxs cümə gününün vacibini yerinə yetirməkdə cümə namazı qılmaq, yaxud zöhr namazı qılmaqda ixtiyar sahibidir.

---

Sual: **607**. Cümə namazına əhəmiyyət verməyərək getməmək barədə Sizin rəyiniz nədir?

Cavab: İbadi-siyasi cümə namazında iştirak etməmək (deyilən səbəbə görə) şəri cəhətdən məzəmmət olunubdur.

---

Sual: **608**. Bəzi şəxslər əsassız üzr səbəbilə cümə namazında iştirak etmirlər (Bəzi hallarda isə rəylərin ixtilaflı olması səbəbi ilə). Bu barədə Sizin rəyiniz nədir?

Cavab: Cümə namazı hərçənd təxyiri-vacibdir, lakin daimi olaraq onda iştirak etməkdən boyun qaçırmaqda heç bir şəri dəlil yoxdur.

---

Sual: **609**. Cümə namazı qılınan vaxtla eyni bir vaxtda zöhr namazını, cümə namazı qılınan yerin yaxınlığında və camaat namazı şəkilində qılmaq caizdirmi?

Cavab: Bunun öz-özlüyündə heç bir eybi yoxdur və cümə günündə mükəlləfin vəzifəsini -hazırkı əsrdə cümə namazının təxyiri-vacib olduğunu nəzərə almaqla- boynundan götürər. Lakin cümə günündə zöhr namazını camaatla, cümə namazı qılınan yerin yaxınlığında qılmaq möminlərin cərgələrində təfriqənin yaranmasına səbəb olar, hətta bəzilərinin nəzərində imam cüməyə qarşı təhqir, hörmətsizlik sayılır, cümə namazına bir növ etinasızlıqdan söz açır. Bu səbəbdən də möminlərin bu işə iqdam etməsi yaxşı deyil, üstəlik əgər iştirak etməmək fəsada, harama səbəb olsa, ondan uzaq olmaq vacibdir.

---

Sual: **610**. Cümə namazı ilə əsr namazı arasındakı boş vaxtda imam cümə zöhr namazını qıla bilərmi? Əgər əsri başqa bir şəxs - imam cümədən qeyrisi qılsa, əsr namazında ona iqtida etmək olarmı?

Cavab: Cümə namazı zöhr namazını əvəz edir, lakin zöhr namazını ehtiyatən cümə namazından sonra qılmağın eybi yoxdur. Və əgər əsr namazını camaatla qılmaq istəsə, kamil ehtiyat budur ki, əsr namazında, cümə namazından sonra zöhrü də ehtiyatən qılan şəxsə iqtida olunsun.

---

Sual: **611**. İmam cümə namazından sonra zöhr namazını qılmasa, məmum ehtiyatən zöhrü qıla bilərmi?

Cavab: Bu caizdir.

---

Sual: **612**. İmam cümə üçün şəriət hakimindən icazə almaq vacibdirmi? Şəriət hakimi dedikdə kim nəzərdə tutulur? Bu hökm uzaq ölkələrdə də icra olunurmu?

Cavab: İmamın cümə namazı qılmaqda caizliyinin əsli buna bağlı deyildir, lakin onun imam cüməni təyin etmək hökmlərinin aidiyyəti müsəlmanların vəliyyi-əmri tərəfindən nəsb olunmasına bağlıdır. Bu hökm də bütün ölkələr, yaxud müsəlmanların vəliyyi-əmrinə itaət olunan şəhərə şamildir.

---

Sual: **613**. Təyin olunmuş imam cümə, cümə namazını ona mane ola biləcək bir şey olmadıqda ona mənsub olmayan bir yerdə qıla bilərmi?

Cavab: Bu öz-özlüyündə caizdir, lakin cümə namazının imaməti üçün nəsbolunma hökmləri o namaza aid olmaz.

---

Sual: **614**. Müvəqqəti imam cümələrin seçilməsi vəliyyi-fəqih tərəfindən olur, yoxsa imam cümələrin özlərinin bəzi şəxsləri müvəqqəti imam cümə seçmələri mümkündür?

Cavab: Mənsub olunmuş imam cümə özü üçün müvəqqəti naib seçə bilər, lakin vəliyyi-fəqih tərəfindən nəsb olunan hökmlər naibin imaməti barədə təsirsizdir.

---

Sual: **615**. Əgər mükəlləf şəxs nəsb olunan imam cüməni adil hesab etməsə, yaxud onun ədalətində şəkk etsə, bu halda, müsəlmanların vəhdəti hifz olunsun deyə, ona iqtida edə bilərmi? Cümə namazında iştirak etməyən şəxslərin sair şəxsləri iştirak etməmək barədə cürətləndirmələri caizdirmi?

Cavab: Bir şəxs imam cümənin ədalətli olmadığını hesab etsə, yaxud ədalətində şəkk etsə, ona iqtida etməsi düzgün deyil, onunla qıldığı camaat namazı da düz deyil. Lakin vəhdətin hifz olunması üçün zahirdə camaat namazında iştirak etməsinin heç bir eybi yoxdur. Hər halda, başqalarını cümə namazında iştirak etməməyə rəğbətləndirmək haqqı yoxdur.

---

Sual: **616**. Mükəlləf üçün imam cümənin yalançı olması sübuta yetsə, onun qıldığı cümə namazının hökmü nədir?

Cavab: Sadəcə olaraq imam cümənin sözlərində xilafın aşkar olması onun yalançı olduğuna dair bir dəlil deyil. Çünki, mümkündür ki, onun dediyi səhv, xəta, tövriyə olsun. Bu halda o şəxs özünü cümə namazının bərəkətlərindən məhrum etməsi -sırf şəkildə imam cümənin ədalətdən düşməsi xəyalı ilə- yaxşı bir iş deyildir.

---

Sual: **617**. Məmum üçün imam Xomeyni (r.ə) tərəfindən, yaxud adil bir fəqih tərəfindən nəsb olunmuş imam cümənin ədaləti barədə axtarış aparmaq vacibdir, yoxsa onun ədalətli olmasında imamın nəsb etməsi kifayətdir?

Cavab: Əgər (İmamın, yaxud digər adil bir fəqihin) imam cümə nəsb etməsi, onun ədalətli olması barədə məmumlarda etimad, arxayınçılıq yaradarsa, bu ona iqtida etməyin düz olması üçün kifayətdir.

---

Sual: **618**. Etimadlı alimlər tərəfindən məscidlərdə imam-camaatın təyin edilməsi, yaxud vəliyyi-fəqih tərəfindən imam cümənin təyin edilməsi onların (imamların) ədalətli olmasına dair şahid sayılırmı, yoxsa onların ədalətində təhqiqat aparmaq vacibdir?

Cavab: Əgər onun imam cümə, yaxud imam camaat nəsb etməsi məmumlarda onların (imamların) ədalətli olması barədə etimad, arxayınçılıq yaradarsa, məmum iqtida etməkdə o imama etimad edə bilər.

---

Sual: **619**. Arxasında namaz qıldığımız imam cümənin ədalətində şəkk olsa, yaxud (Allah eləməmiş) onun ədalətsizliyinə dair yəqin hasil olsa, o namazları yenidən qılmaq lazımdırmı?

Cavab: Əgər ədalətdə olan şəkk, yaxud ədalətin olmaması namazdan sonra olsa, qılınmış namazlar düzdür, yenidən qılınması vacib deyildir.

---

Sual: **620**. Avropa dövlətlərində və sair ölkələrdə İslam ölkələrindən olan tələbələr tərəfindən, həm də iştirak edənlərin əksəriyyəti və imam cüməsi sünni olan halda qılınan cümə namazlarında iştirak etməyin hökmü nədir? Və bu halda cümə namazı qılınandan sonra zöhr namazını qılmaq lazım gəlirmi?

Cavab: Müsəlmanların vəhdət və ittihadlarını hifz etmək məqsədi ilə orada iştirak etməyin eybi yoxdur.

---

Sual: **621**. Pakistanın şəhərlərindən birində 40 ildir ki, cümə namazı qılınır. İndi isə bir nəfər iki cümə namazı arasında olacaq şəri məsafəyə riayət etmədən başqa bir cümə namazı qılmağı başlayır, bu da namaz qılanlar arasında ixtilafa səbəb olur. Bu əməlin şəri cəhətdən hökmü nədir?

Cavab: Möminlərin arasında ixtilafa, cərgələrində təfriqə düşməsinə səbəb olan bir iş caiz deyildir, o ki, qala İslam ayinlərindən olan, müsəlmanların səflərini vəhdətə salan işlərdən olan cümə namazı!

---

Sual: **622**. Rabelbendi şəhərində Cəfəriyyə came məscidinin xətibi elan etmişdir ki, bu məsciddə qılınan cümə namazı, binada təmir işləri ilə əlaqədar olaraq tətil olacaqdır. İndi məscidin təmir işləri qurtarmış, qarşımıza başqa bir müşkül

çıxmışdır; o da budur ki, başqa bir məsciddə 4 kilometr uzunluğunda cümə namazı qılınır. Bu uzun məsafəni nəzərə alaraq, bizim məsciddə cümə namazı qılmaq düzdürmü?

Cavab: Əgər iki cümə namazı arasındakı məsafə şəri fərsəx miqdarında olmazsa, sonradan qılınan cümə namazı, yaxud eyni vaxtda qılınan ikinci cümə namazı batildir.

---

Sual: **623.** Camaatla qılınan cümə namazını fürada şəkildə qılmaq olarmı? Belə ki, bir nəfər cümə namazını camaatla qılanların yanında fürada şəkildə cümə namazı qıla bilərmi?

Cavab: Cümə namazının düz olma şərtlərindən biri də camaatla qılınmasıdır. Cümə namazını fürada qılmaq düz deyildir.

---

Sual: **624**. Namazı qılanın hökmü qəsr qılmaq olsa və cümə namazı qılan imam cümənin arxasında camaat namazı qılmaq istəsə, bunu etməsi düzdürmü?

Cavab: Müsafir olan məmumun cümə namazı qılması düzdür, zöhrün də əvəzində kifayətdir.

---

Sual: **625**. Müsəlmanların imamlarından biri kimi həzrəti Zəhranın (ə) adını ikinci xütbədə demək vacibdirmi? Yoxsa onun adını müstəhəb olaraq demək vacibdir?

Cavab: Müsəlmanların imamlarının adı həzrəti Zəhraya (ə) şamil deyil və onun mübarək adını cümə namazı xütbələrində zikr etmək vacib deyildir. Lakin onun mübarək adını təbərrük kimi zikr etməyin eybi yoxdur.

---

Sual: **626**. İmam cümə cümə namazı qılan halda məmum ona iqtida edərək cümə namazından qeyri bir vacib namazı qıla bilərmi?

Cavab: Bunun düz olması işkal məhəllidir.

---

Sual: **627**. Cümə namazının xütbələrini şəri zöhr vaxtından əvvəl oxumaq düzdürmü?

Cavab: Xütbələri günortadan əvvəl oxumaq o halda caiz olar ki, xütbələr günorta qurtarsın.

---

Sual: **628**. Əgər məmum xütbələrə çatmasa, hətta namaz əsnasında çatıb imama iqtida etsə, namazı düz və kifayətdirmi?

Cavab: Əgər imama, hətta axırıncı rəkətin rükusunda da çatsa, namazı düz və kifayətdir.

---

Sual: **629**. Şəhərimizdə cümə namazı zöhr azanından saat yarım sonra qılınır. Bunu qıldıqda zöhr boynumuzdan düşürmü, yoxsa zöhrü təzədən qılmaq lazımdır?

Cavab: Cümə namazının vaxtı günortanın olması ilə daxil olur. Vacib ehtiyat camaatın nəzərində günortanın əvvəlləri hesab olunan vaxtdan təxirə salınmamasıdır. Onun vaxtı zöhrdən sonra əmələ gələn kölgənin insan boyunun 2/7 qədərinə çatdığı vaxta qədər uzanır. Əgər bu vaxta qədər cümə namazı qılınmasa, vacib ehtiyata görə onun yerinə zöhr namazı qılınmalıdır.

Sual: **630**. Bir nəfər cümə namazına gedə bilmir. Bu halda zöhr və əsr namazlarını əvvəl vaxtda qıla bilərmi? Yoxsa cümə namazının qurtarmasını gözləməli, sonra isə zöhr-əsr namazlarını qılmalıdır?

Cavab: Gözləmək vacib deyildir, elə əvvəl vaxtda zöhr-əsr namazlarını qıla bilər.

Sual: **631**. Təyin olunmuş imam cümə sağlam halda öz yerində hazır olsa, cümə namazını qılmaq üçün müvəqqəti imam cüməyə tapşıra bilərmi və onun özü də müvəqqəti imam cüməyə iqtida edə bilərmi?

Cavab: Təyin olunmuş imamın naibinin imaməti ilə cümə namazı qılınamsının heç bir maneəsi yoxdur, təyin olunan imam da cümə namazında öz naibinə iqtida edə bilər.

## Bayram namazları

Sual: **632**. Sizin rəyinizcə cümə və bayram namazları hansı vacibatlardandır?

Cavab: Hazırkı dövrdə bayram (fitr və qurban) namazları müstəhəbdir, vacib deyildir. Amma cümə namazı təxyiri-vacibdir.

Sual: **633**. Bayram namazında qunutların az-çox olması namazı batil edirmi?

Cavab: Namaz bununla batil olmaz.

Sual: **634**. Qədimdə adət belə idi ki, hər bir imam camaat fitr namazını öz məscidində qılırdı. Hazırda da bayram namazlarının imam camaatlar tərəfindən qılınması caizdirmi?

Cavab: Hal-hazırda vəliyyi-fəqih tərəfindən icazəli olan nümayəndələr üçün bayram namazı qılmaq caizdir. Həmçinin, onun tərəfindən qoyulan imam camaatlar üçün də bayram namazını (camaatla) qılmaq caizdir. Onlardan qeyrisində isə, ehtiyat budur ki, fürada (tək) qılsınlar, amma camaatla qılmağın şərdə gəlməsi niyyəti ilə yox, rəcaən (Allaha yaxınlaşmaq niyyəti ilə) qılınmasının eybi yoxdur. Amma, məsləhət tələb etsə ki, şəhərdə bir bayram namazı qılsınlar, bu halda daha yaxşı olar ki, onu qılmağı vəliyyi-fəqih tərəfindən seçilən imam cümədən qeyrisi öhdəsinə almasın.

Sual: **635**. Fitr bayramı namazının qəzası varmı?

Cavab: Qəzası yoxdur.

Sual: **636**. Fitr bayramının iqaməsi varmı?

Cavab: Onda iqamə yoxdur.

Sual: **637**. Əgər imam camaat fitr bayramı namazı üçün iqamə desə, bu halda onun və sair şəxslərin namazlarının hökmü nədir?

Cavab: İqamənin deyilməsi imamın və məmumların namazlarına heç bir zərər yetirməz.

## Müsafirin namazı

---

Sual: **638**. Müsafir üçün qəsrin vacib olması bütün vacibi namazlara aiddir, yoxsa bəzilərinə?

Cavab: Qəsrin aid olması yalnız 4 rəkətli gündəlik namazlara (zöhr, əsr, xiftən) aiddir, sübh və məğrib namazlarında isə qəsr məsələsi yoxdur.

---

Sual: **639**. Müsafir üçün 4 rəkətli namazları qəsr qılmağın şərtləri nədir?

Cavab: Bunun 8 şərti vardır:

1- Səfərin məsafəsi (getmək, qayıtmaq, yaxud həm getmək və həm də qayıtmaq) 8 şəri fərsəx olsun. Bu şərtlə ki, getməsi 4 fərsəxdən az olmasın;

2- Səfərə çıxan andan etibarən o məsafəni getmək qəsdi (niyyət) olsun. Əgər məsafəni qəsd etməsə, yaxud ondan az məsafəni qəsd edib mənzilə çatdıqdan sonra başqa bir yeri qəsd etsə və qəsd etdiyi o yerlə əvvəlki yerin arası qəsr üçün olan şəri məsafə qədərində olmasa (amma evindən ora qədər şəri məsafə olsa da belə), qəsr qılmayacaq;

3- O məsafəni keçib gedənə qədər öz qəsdindən dönməsin. Əgər 4 fərsəxə çatmamış qəsdindən dönsə, yaxud qəsdində tərəddüddə olsa, bundan sonra səfər hökmü ona aid olmaz, hərçənd qəsdindən dönməmiş qəsr qıldığı namaz keçmiş olsa da belə;

4- Bu məsafəni keçib getmək əsnasında öz vətənindən keçib getmək niyyətində olmasın, yaxud orada 10 gün, yaxud daha artıq qalmaq niyyətində olmasın;

5- Səfəri şəriət nöqteyi-nəzərindən caiz olsun. əgər səfəri məsiyyət (günah), haram səfər olsa, (istər cihaddan qaçmaq kimi öz-özlüyündə günah olsun, istərsə də sonu haram olan bir iş (məsələn, yol kəsmək) üçün səfər etmək) səfər hökmü onda icra olunmaz;

6- Müsafir müəyyən bir qərargahı olmayan, evləri özləri ilə olan, çöllərdə gəzən və otlaq, su olan yerlərdə köç salan köçərilər kimi olmasın;

7- Səfəri özünə iş seçməsin (yəni, işi kirayəçi, sürücülük, dənizçilik və sairdən ibarət olmasın). Həmçinin, işi səfərdə olan şəxslər də bura daxildir.

8- Təraxxüs yerinə çatsın. Təraxxüs yeri dedikdə, şəhərin azan səsi eşidilməyən, yaxud şəhərin divarları gözdən itən yer nəzərdə tutulur.

## İşi, yaxud işinin müqəddiməsi səfər olan şəxs

---

Sual: **640**. Səfər işi üçün bir müqəddimə olan şəxs səfərində namazı tam qılmalıdır, yoxsa bu məsələ yalnız işi səfər olan şəxsə aiddir? İmam Xomeyni (r.ə) kimi mərceyi-təqlidlər “işi səfər olan şəxs” dedikdə nəyi nəzərdə tuturlar? Elə bir şəxs tapmaq olarmı ki, səfər onun işi olsun? Çünki çobanın, sürücünün, matrosun və s. kimi şəxslərin də işi elə çobançılıq, sürücülük, dənizçilikdir. Ümumiyyətlə bir şəxs tapılmaz ki, səfəri özünə peşə seçmiş olsun.

Cavab: Səfəri peşəsi üçün bir müqəddimə olan şəxs hər 10 gün içində aşağısı bir dəfə öz iş yerinə, orada işləmək üçün gedib-gəlsə, orada namazını tamam qılacaq və orucu da düzdür. Fiqh terminində “işi səfər olan şəxs” dedikdə, işinin özü səfərə bağlı olan, ünvan olan şəxs başa düşülür (Sualda qeyd olunan işlər kimi).

---

Sual: **641**. İşi səfər olan şəxsin (sürücü, dənizçi və s. kimi) oruc-namazının hökmü nədir?

Cavab: Səfərdə namazını tamam qılmalıdır, orucu da düzdür.

---

Sual: **642**. İşi səfərdə olan şəxslərin (öz iş yerlərinə səfər edən vəzifəli şəxslər, qulluqçular kimi) oruc-namazlarının hökmü nədir?

Cavab: Hər 10 günün içində aşağısı bir dəfə işləmək üçün öz iş yerinə səfər etsə, bu halda onun hökmü, işi səfər olan şəxsin hökmü kimidir (namazının tamam olmasında, orucunun düz olmasında).

---

Sual: **643**. Şəhərdə (işləmək üçün) bir ildən çox bir müddətdə qalan şəxslər, yaxud 1-2 il müddətində əsgəri xidmətini yerinə yetirmək üçün şəhərdə, qoşun bölməsində olan şəxslər hər bir səfərdən sonra namazı tamam qılsınlar deyə, yaxud orucu tutsunlar deyə, 10 günlük qəsdi-iqamət etməlidirlərmi? Əgər onların qalmaq niyyəti 10 gündən az olsa, bu halda oruc-namazlarının hökmü nədir?

Cavab: Sualın fərz olunduğu halda onların hökmü nə qədər ki 10 gün qalmağı niyyət etməyiblər, namazın qəsr qılınmasında, oruc tutmağın düz olmamasında sair müsafirlərin hökmü kimidir.

---

Sual: **644**. Günlərin çoxunu uçuşda, şəri məsafədən qat-qat çox məsafə gedərək yenidən qayıdan hərbi təyyarəçilərin oruc-namazlarının hökmü nədir?

Cavab: Onların bu barədəki hökmləri sair sürücülərin, təyyarəçilərin, gəmi sürücülərinin hökmü kimidir (səfərlərində namazın bütöv olmasında və oruclarının düz olmasında).

---

Sual: **645**. Öz iqamətgahlarından 1, yaxud 2 ay müddətində köç edən, lakin ilin başqa vaxtlarını qışlaqda, yaxud yaylaqda keçirən qəbilələrin qışlaqları, yaxud yaylaqları onların vətəni sayılırmı? Onların bu yerlərdəki (yaylaq və qışlaqdakı) öz iqamətləri əsnasında etdikləri səfərlərin hökmü (namazı qəsr, yaxud tamam qılmaqda) nədir?

Cavab: Əgər onlar yaylaqdan qışlağa və qışlaqdan yaylağa köç etmədə daimi olmaq qərarına gəlsələr (ilin bir hissəsini qışlaqda, bir hissəsini isə yaylaqda keçirmək üçün), həmçinin hər iki yeri daimi yaşayış yeri kimi seçsələr, bu halda onların hər ikisi vətən sayılar, o tayfa üçün hər ikisində vətən hökmü icra olunar. Amma, əgər iki vətən (yaylaq və qışlaq) arasındakı məsafə şəri məsafə qədərində olsa, onların hökmü bir vətəndən digərinə səfər etdikləri vaxt sair müsafirlər hökmü kimidir.

---

Sual: **646**. Mən şəhərdəki dövlət idarələrindən birində qulluqçuyam. İş yerimlə yaşayış yerim arasındakı məsafə təqribən 35 km-dir. Gündəlik olaraq iş yerinə getmək üçün bu məsafəni gedib-gəlirəm. Mənim xas bir işim olduqda, şəhərdə bir neçə gün qalmağı qəsd edəndə namazım necə olmalıdır? Orada qaldıqda namazı tamam qılmalıyam, yoxsa qəsr? Misal üçün, cümə günü Simnan şəhərinə qohumları görmək üçün səfər edəndə namazı bütöv qılmalıyam, ya yox?

Cavab: Əgər səfərin gündəlik olaraq getdiyin iş üçün olmazsa, səfər hökmü bu iş üçün aid olmaz. Amma, səfərin işinin özü üçün olsa, lakin iş yerində, işin əsnasında xas bir işlər görürsənsə (dost-tanışı, qohumları görmək kimi) və hərdən də bir, yaxud bir neçə gecə orada qalırsansa, bu işlərin xatirinə iş üçün olan səfərin hökmü dəyişmir: namazı bütöv qılacaq, oruc tutacaqsan.

---

Sual: **647**. İş yerində, mühüm idarə işləri vaxtı (bu işlərə görə səfər etmişdim) qurtarandan sonra bəzi şəxsi işləri görürəm. Məsələn, sübh saat 7-dən gecə saat 2-yə qədər idarə işində oluram, saat 2-dən sonra isə xüsusi işlərimi görürəm. Bu halda oruc-namazımın hökmü nədir?

Cavab: Mühüm idarə işləri üçün olan səfərdə o işlər qurtarandan sonra görülən xüsusi işlər səfər hökmünün dəyişilməsinə səbəb olmaz.

---

Sual: **648.** Hər hansı bir yerdə 10 gündən artıq qalacaqlarını bilən, lakin işləri öz əllərində olmayan qoşun bölmələrinin oruc-namazlarının hökmü nədir? Xahiş edirik ki, bu barədə İmamın (r.ə) da fitvasını buyurasınız.

Cavab: Qeyd olunan halda çox qalacaqları barədə arxayınçılıqları olsa, vacibdir ki, namazlarını bütöv qılsınlar və oruc tutsunlar. Bu, həm də İmamın (r.ə) fitvasıdır.

---

Sual: **649**. Qoşunun istifadə etdiyi daimi kadrların, həmçinin alaylarda, sərhəd məntəqələrində 10 gündən artıq qalan şəxslərin oruc-namazının hökmü nədir? Bu barədə İmamın (r.ə) da fitvasını buyurun.

Cavab: Əgər onlar bir yerdə 10 gün, yaxud ondan artıq qalmaq qərarına gəlsələr, yaxud bunu bilsələr, vacibdir ki, namazı bütöv qılıb oruc tutsunlar və bu həm də İmamın (r.ə) fitvasıdır.

---

Sual: **650**. Mübarək ramazan günlərində bir yerdə qalırdım. İqamətgahla xəbər tutmağım vacib olan sair məntəqələr arasındakı məsafə tərəxxüs həddində idi. Bu halda namaz tamam olurmu? Oruc tutmaq mənə vacibdirmi?

Cavab: Əgər işində sənə xəbər tutmağın vacib olan yerlərə gedib-qayıtmaqla dövr edirsənsə, yaxud sənin iqamət seçdiyin yerdən şəri məsafə qədərində olmayan yerlərə doğru getməyin (namazı) tamam qılmaq hökmü iqamət yerində aid olandan sonradırsa, (hərçənd orada 4 rəkətli bir namaz qılmaq qədərində), yaxud 10 gün içində o yerə getməyinin cəmi 3 gecə-gündüz, yaxud ondan da az olsa, onda iqamət yerində və bu yerlərdə namazı bütöv qılıb orucu da tutmalısan. Əks halda isə qəsr qılırsan, oruc tutmaq isə düz deyil.

---

Sual: **651**. İmam Xomeyninin (r.ə) Əməliyyə risaləsində, "Müsafirin namazı" babında, 1306-cı məsələdə gəlib ki, sürücü birinci səfərindən qeyrilərində namazı bütöv qılmalıdır, amma birinci səfərdəki namazı qəsrdir, hərçənd uzun çəksə də belə. Burada deyilən "birinci səfər" dedikdə vətəndən hərəkətə başlayıb ora qayıdana kimi olan səfər nəzərdə tutulurmu? Bu səfər 1 ay, yaxud daha çox uzansa da belə, hətta bu müddətin uzunluğu (əsl vətəni olmayan) bir şəhərdən başqa bir şəhərə 10 dəfə, yaxud daha çox mal daşımaqla da olsa belə?

Cavab: Onun ilk səfəri vətənindən, yaxud maşını sürmək, malı daşımaq üçün iqamət seçdiyi yerdən çıxarkən, qəsd etdiyi mənzilə çatan kimi sona çatır. Bu vaxt əvvəlki yerə qayıtmaq səfərin bir hissəsi sayılmır. Amma əgər onun səfər etməsi maşını sürmək, yaxud oradan əmtəələri əvvəlki yerə daşımaq üçün olsa, səfərin bir hissəsi sayılır.

---

Sual: **652**. İşi sürücülük olmayan, lakin qısa müddətdə sürücülük vəzifəsinə qoyulan şəxs (misal üçün, hərbi hissələrdə maşın sürmək həvalə olunan qoşun bölmələri kimi) müsafir hökmündədirmi, yoxsa namazları tamam qılmalı, orucu da tutmalıdır?

Cavab: Əgər camaat arasında bu müvəqqəti müddətdə maşın sürmə onların işi sayılsa, bu işdə onların hökmü sair sürücülərin hökmü kimidir.

---

Sual: **653**. Əgər sürücünün maşını xarab olsa, sürücü də onu təmir etmək məqsədilə ehtiyat hissələri almaq üçün başqa bir şəhərə səfərə çıxsa, belə bir səfərdə namazı bütöv qılmalıdır, yoxsa qəsr? (Maşını da özü ilə birlikdə aparmamışdır).

Cavab: Bu səfərdə onun işi maşın sürmək olmasa, bu halda sair müsafirlərin hökmündədir.

## Tələbələrin hökmü

Sual: **654**. Hər həftə aşağısı 2 gün müddətində təhsil almaq məqsədi ilə səfərə çıxan institut tələbələri, yaxud öz işləri üçün bir həftə müddətində səfərə çıxan qulluqçuların hökmü nədir? Halbuki, onlar hər həftə səfərə çıxırlar, lakin (tələbələr) institutun buraxılış günlərində, yaxud (qulluqçular) iş yerinin işləməməsi səbəbilə öz əsli vətənlərində 1 ay müddətində qalırlar, bu müddət ərzində isə səfərə çıxmırlar. Bu 1 aydan sonra (ki, səfəri yenidən başlayırlar) ilk səfərdəki namazları qəsr və sonrakı səfərdə tamam olurmu (qaydaya əsasən)?

Cavab: Elm öyrənmək üçün olan bu səfərdə namazı qəsr qılmaları vacibdir, o səfərdə oruc düz deyil -istər səfərləri həftəlik olsun, istərsə də hər gün olsun. Amma, iş üçün (istər idarə işi olsun, istərsə də azad iş) səfər edən şəxs vətəni (yaxud yaşadığı yer) ilə iş yeri arasında hər 10 gündə aşağısı 1 dəfə gedib-gəlirsə işi, peşəsi üçün olan 2-ci səfərdə namazı tamam qılır, o səfərdə orucu da düzdür. Amma əgər 2 iş səfəri arasında 10 gün müddətində vətənində, yaxud qeyri yerdə qalsa, iş üçün olan 1-ci səfərdə bu 10 gün keçəndən sonra namazı qəsr qılır, orucu da tutmur.

---

Sual: **655**. Əgər dini elmlər üzrə tələbə olan bir şəxs işini təbliğ qərar verməyə dair niyyət etsə, bu halda bu səfərdə namazı bütöv qılıb, oruc tuta bilərmi? Əgər bir şəxs təbliğdən, əmr be məruf, nəhy əz münkər işindən başqa bir iş üçün səfər etsə, onun oruc-namazlarının hökmü nədir?

Cavab: Əgər təbliğ, irşad, əmr be məruf, nəhy əz münkər işi camaat arasında o şəxs üçün iş, peşə sayılsa, bu işlərdən ötrü etdiyi səfərdə onun hökmü iş, peşə üçün səfər edən sair şəxslər kimidir. Lakin əgər bəzi vaxtlar təbliğ işindən qeyrisi üçün səfər etsə, bu səfərdə onun hökmü sair müsafirlərin hökmü (namazın qəsr olmasında, oruc tutmağın düz olmamasında) kimidir.

---

Sual: **656**. Təyin olunmamış bir müddətdə səfər edən şəxslərin (təhsil almaq məqsədi ilə elmiyyə hövzələrinə din tələbələri kimi, yaxud bir şəhərə, müəyyən olunmamış müddət ərzində məmuriyyətə gedən dövlət qulluqçuları kimi) oruc-namazlarının hökmü nədir?

Cavab: Onların dərs oxuduqları yerdə, yaxud məmuriyyət yerlərindəki hökmləri, nə qədər ki, 10 gün qalmağı niyyət etməyiblər, sair müsafirlərin hökmü kimidir (namazı qəsr qılmaqda, oruc tutmağın düz olmamasında).

---

Sual: **657**. Bir tələbə öz vətənindən xaricdə təhsil alır, bir həftəlik öz vətəninə qayıdır. Bu iki yer arasında da müəyyən bir məsafə vardır. Onun təhsil aldığı yerdə namazı qəsrdirmi?

Cavab: Təhsil almaq üçün olan səfərə iş, peşə üçün olan səfərin hökmü aid olmur. Tələbənin təhsil almaq üçün etdiyi səfərdə sair müsafilərin hökmü icra olunur.

---

Sual: **658**. Əgər dini elmlər üzrə bir tələbə öz vətəni olmayan bir şəhərdə yaşasa və 10 gün qəsdi-iqamət etməmişdən əvvəl gedəcəyini bilsə, yaxud şəhərin yaxınlığında yerləşən məscidə hər həftə gedib-gəlsə, bu halda 10 günlük qəsdi iqamət edə bilərmi?

Cavab: Qəsdi-iqamət etməyi qərara alan vaxtda iqamət yerindən (10 günün ərzində) 1 saatdan 3 günə kimi müddətdə çıxmağı (şəri məsafədən az) qəsd etsə, qəsdi-iqamənin düzlüyünə zərər yetirməz. Getmək istədiyi yerin də iqamət yerinin daxilində olub-olmamasını ayırd etmək camaat nəzərində deyilənlərdən asılıdır.

## Məsafənin və 10 gün qalmağın niyyət edilməsi

---

Sual: **659**. İş yerim, oranın qonşuluğundakı şəhərdən şəri məsafədən azdır. Belə ki, bu iki məntəqənin heç biri mənim vətənim deyildir. Buna görə də iş yerində 10 gün qalmağı qəsd edirəm ki, namazı bütöv qılıb orucu da tutam. İş yerində 10 gün qalmağı qəsd edəndə, bu 10 gün arasında və ondan sonra oradan qonşu şəhərə çıxacağımı niyyət etmirəm. Aşağıdakı hallarda şəri hömk nədir:

1- Bu 10 gün sona çatmazdan əvvəl müəyyən bir səbəb, yaxud iş üçün o şəhərə gedib, orada 2 saat qalandan sonra iş yerinə qayıtsam;

2- 10 gün qurtarandan sonra o şəhərin müəyyən bir məhəlləsini qəsd edib o şəhərə getsəm və ora gedəndə də şəri məsafəni ötməsəm, o gecəni orada qalıb, sonra iqamət etdiyim yerə qayıtsam;

3- 10 gün tamam olandan sonra bu şəhərə getsəm və gedəndə də müəyyən bir məhəlli qəsd etsəm, lakin o məhəllə çatandan sonra, fikrimi dəyişib, iqamət yerimdən şəri məsafədən çox olan başqa bir yerə getməyi niyyət etsəm?

Cavab: 1-2-ci hallarda iqamət yerində qərarlaşma hökmü tamam olandan sonra (hərçənd, orada aşağısı bir dənə 4 rəkətli namaz qılmaqla belə) oradan, şəri məsafə miqdarından az olan bir yerə getməyin zərəri yoxdur (hətta bir gündə, yaxud bir neçə gündə bir, yaxud bir neçə saatdan artıq müddətdə). Bu zaman o yerdən 10 günün tamam olmasından əvvəl, yaxud sonra çıxmağın heç bir fərqi yoxdur; təzə bir səfər qarşıya çıxana kimi namazı tamam qılır, orucu da tutursan.

3- Niyyət dəyişdiyin yerdən şəri məsafəyə səfər etməyi qərara aldıqdan sonra öz qabaqkı iqamət məhəllinə qayıtsan, bu məsafəni qət edəndən sonra qabaqkı iqamət hökmü sınar. İqamət məhəllinə qayıtdıqdan sonra yenidən iqamət niyyəti etməlisən.

---

Sual: **660**. Müsafir öz vətənindən xaric olandan sonra əgər bir yoldan keçsə və o yolda öz əsli vətəninin azan səsini eşitsə, yaxud evlərinin divarlarını görsə, onda bu, şəri məsafənin qət olunmasına zərər yetirərmi?

Cavab: Bu, nə qədər ki öz vətənindən keçməyib, məsafənin qət olunmasına zərər yetirməz və bu səbəblə onun səfəri sınmaz, lakin nə qədər ki, o yerdədir, ona səfər hökmü aid olunmaz.

---

Sual: **661.** Hal-hazırda yaşadığım və işlədiyim yer mənim əsl vətənimdən qeyri bir yerdədir. Bu yerlə mənim əsl vətənim arasındakı məsafə şəri məsafə miqdarından artıqdır. Mən bu iş yerini özüm üçün vətən seçməmişəm. Ola bilsin ki, mən orada bir neçə il qalım. Bəzi vaxtlar oradan mühüm bir idarə işi üçün (ayda 2-3 gün) xaric oluram. Yaşadığım bu şəhərdən şəri məsafə həddindən çox çıxıb getdiyim və qayıtdığım vaxt 10 gün qalmağı qəsd etməyim vacibdirmi? Yoxsa buna ehtiyac duyulmur? Və əgər 10 gün qalmağı qəsd etməyim vacib olsa, mənim şəhər ətrafında, gedib-gəlməyim caiz olan yerlər hansıdır?

Cavab: Yaşadığın şəhərdən şəri məsafə qədərində səfər edib, səfərdən oraya qayıdan zaman yenidən 10 gün qalmaq qəsdi etməlisən və elə ki səndən 10 günlük iqamət qəsdi düzgün şəkildə yerinə yetdi və tamam olmaq hökmü qərarlaşdı (hətta aşağısı bir dənə 4 rəkətli namaz qılmaqla da olsa), bu halda iqamət məhəllindən şəri məsafə qədərindən az olan məsafəyə getmək iqamət hökmünə zərər yetirməz; necə ki 10 günün içində iqamət seçilən şəhərin bostanlarına, əkin sahələrinə getmək qəsdi-iqamət qəsdinə zərər yetirmir.

---

Sual: **662**. Bir şəxs bir neçə il müddətində öz vətənindən 4 km bir məsafədə olur, həftəlik öz evinə gedir. Bu şəxs səfər etsə və öz vətənindən 25 km məsafədə, bir neçə il təhsil aldığı yerdən isə 22 km olsa, onun namazının hökmü nədir?

Cavab: Əgər o, təhsil aldığı yerdən öz gedəcəyi yerə və şəri məsafədən az olan yerə qədərki məsafəni keçib getməyi qəsd etsə, bu halda ona səfər hökmü aid edilməz. Lakin əgər o, gedəcəyi yeri öz vətənindən qəsd etsə, bu halda ona səfər hökmü aid olunar.

---

Sual: **663**. Bir nəfər 3 fərsəxlik məsafəyə səfər etməyi qəsd edir, lakin səfərin əvvəlindən müəyyən bir işi yerinə yetirmək üçün 1 fərsəxlik fəri yola daxil olmağı, sonra isə əsli yola qayıdıb səfərini davam etdirməyi qəsd edir. Bu müsafirin oruc-namazının hökmü nədir?

Cavab: Onun haqqında səfər hökmü icra olunmaz və əsli yoldan çıxmasının, sonra ora qayıtmasının şəri məsafəyə, onun tamamlanması üçün qatmaq kifayət deyildir.

---

Sual: **664**. 8 fərsəxlik bir məsafəyə səfər etdikdə namazın qəsr, orucun isə tutulmamasının vacibliyi barədə İmamın (r.ə) fitvasını nəzərə alaraq, əgər bizim getməyimiz 4 fərsəxdən az olsa, lakin qayıdan zaman (yol çətinlikləri və maşının olmaması səbəbilə) miqdarı 6 fərsəxdən çox olan bir yolla getməyimiz vacib olsa, bu halda namazı qəsr qılıb orucu da tutmuruqmu?

Cavab: Əgər getməyiniz 4 fərsəxdən az olsa və qayıtmaq yolu da ayrılıqda şəri məsafə qədərində olmazsa, bu halda namaz tamamdır, oruc da tutulur.

---

Sual: **665**. Bir şəxs yaşadığı yerdən başqa bir yerə, şəri məsafədən az olmaqla səfər etsə və həftəarası günlərdə də bu yerdən başqa yerlərə bir neçə dəfə səfər etsə, belə ki, məsafələrin məcmusu 8 fərsəxdən çox olsa, o şəxsin vəzifəsi nədir?

Cavab: O şəxs mənzilindən çıxanda şəri məsafəni qəsd etməsə və onun əvvəlki qəsd etdiyi yer ilə bu məkanlardakı sonradan qəsd etdiyi yerlər arasındakı fasilə şəri məsafə qədərində olmazsa, bu halda o şəxsə səfər hökmü aid olunmaz.

---

Sual: **666**. Əgər bir şəxs öz ölkəsindən çıxaraq müəyyən bir məkanı qəsd etsə və bu məkanda ora-bura səyahət etsə, bu halda onun səyahəti öz mənzilindən etibarən qət etdiyi məsafəyə əlavə olunurmu?

Cavab: Onun oradakı səyahəti şəri məsafədən hesab olunmaz.

---

Sual: **667**. Qəsd əsnasında bir günlüyə iqamət yerindən çıxıb, həmin yerdən 4 fərsəxdən az bir məsafədə yerləşən iş yerimə getməyi niyyət etməyim caizdirmi?

Cavab: İqaməti qəsd edən vaxt 10 günün əsnasında şəri məsafədən az olan bir yerə getməyi qəsd etmək iqamət qəsdinin düzlüyünə o halda zərər yetirər ki, oradan çıxmaq camaatın arasında iqamət yerində 10 günlük iqamətin aid edilməsinə zərər yetirsin. Məsələn, tam bir gün çıxıb getsə, o ki qala iqamət yerindən hər gün getməyə! Amma əgər (10 günlük iqamətin camaat arasında deyilməsinə) zərər yetirməzsə, (məsələn, gündüz bir neçə saat müddətində, yaxud gecədən gündüzün 1/3 vaxtı keçənə qədər, yaxud da gecədə 1 dəfə, yaxud daha çox, amma, müddətlərin məcmusu gündüzün, yaxud gecənin 1/3-dən keçməmək şərtilədir) bu halda onun əvvəldə etdiyi qəsd iqamət qəsdinin düzlüyünə zərər yetirməz.

---

Sual: **668**. Yaşadığım yerdən iş yerinə (araları 24 km-dən çoxdur) gedib-gəlmək namazın tamam olmasına səbəb olur. Bunu nəzərə alaraq, əgər mən iş yerim olan şəhərdən çıxıb onun hüdudlarından xaricə, yaxud işlədiyim şəhərdən şəri məsafə qədərindən uzaq olmayan bir şəhərə getsəm və zöhrdən əvvəl, yaxud sonra iş yerinə qayıtsam, namazım tamam olacaqmı?

Cavab: Sənin iş yerində oruc-namazının hökmü oradan çıxıb şəri məsafədən az olan bir yerə getməyinlə dəyişməz, hətta bu getməyin gündəlik işinlə əlaqədar olmasa da belə. Bu halda iş yerinə günortadan əvvəl, yaxud sonra qayıtmağın arasında heç bir fərq yoxdur.

---

Sual: **669**. Mən İsfahan əhalisindənəm. Bir müddətdir ki, İsfahanın tabeçiliyindəki Şahinşəhr şəhərindəki institutda işləyirəm. İsfahanın tərəxxüs həddindən Şahinşəhrin girişinə qədər olan məsafə də səfər məsafəsindən azdır (təqribən 20 km), lakin şəhərin ətrafında yerləşən insituta qədərki məsafə səfər məsafəsindən artıqdır (təqribən 25 km). İnstitutun Şahinşəhrdə yerləşdiyini və mənim yolumun şəhərin ortasından keçdiyini (amma mənim əsl məqsədim institutdur) nəzərə alaraq, mən müsafir sayılırammı?

Cavab: 2 şəhər arasındakı məsafə 4 şəri fərsəxdən az olsa, bu halda səfər hökmü aid olmaz.

---

Sual: **670**. Mən hər həftə xanım Məsumənin (ə.s) qəbirini ziyarət etmək və Cəmkəran məscidinin əməlini yerinə yetirmək üçün Qum şəhərinə səfər edirəm. Bu səfərdə namazı tamam qılım, yoxsa qəsr?

Cavab: Bu kimi səfərlərdə sənin hökmün namazı qəsr qılmaqda sair müsafirlərin hökmü kimidir.

---

Sual: **671**. Mənim doğulduğum yer Kəşmir şəhəridir. 1345-ci şəmsi ilində 1369-cu ilə qədər Tehranda sakin olmuşam. 3 ildir ki, məmuriyyət üçün ailəmlə birlikdə Bəndər-Abbas limanına gəlmişəm. Təqribən 1 ilə öz vətənim Tehrana qayıdacağam. Bəndər-Abbasda olduğum müddətdə hər hansı bir məmuriyyət üçün limanın tabeçiliyində olan şəhərlərə gedib, orada bir müddət qalmaq gözlənilirdi. Mənə tapşırılacaq idarə məmuriyyətinin vaxtını da əvvəlcədən bilmək olmur. Mənim üçün aşağıdakıları bəyan edin:

1- Namaz-oruc xüsusundakı hökmüm nədir?

2- Bəzi vaxtlarda, yaxud ilin bəzi aylarında bir neçə günlük məmuriyyətdə oluram, bu halda mən kəsirüs-səfər (çox səfər edən) sayılırammı?

3- Yoldaşımın namaz-orucları xüsusundakı şəri hökmləri bəyan edin. Halbuki o, evdar qadındır, Tehranda anadan olmuşdur və Bəndər-Abbasa gəlmiş, mənimlə birlikdə orada sakin olmuşdur.

Cavab: Hal-hazırda sənin üçün vətən sayılmayan hazırkı məmuriyyət yerində oruc-namazının hökmü müsafirin oruc-namazının hökmündədir (namazın qəsr qılınıb orucun tutulmamasında). Amma əgər sən orada 10 günlük iqamət niyyəti etsən, yaxud hər 10 gündə aşağısı 1 dəfə məmuriyyət yerindən şəri məsafəyə qədər bir neçə dəfə (işinlə əlaqədar olaraq) səfər etsən, namazı tamam qılmalı, orucu da tutmalısan. Lakin səninlə birlikdə iş yerinə gedən həyat yoldaşın əgər orada 10 günlük iqamət niyyət etsə, namazı tamam qılacaq, orucu da tutacaqdır; əks halda, (niyyət etməsə) namazı qəsr qılacaq, orucu da tutmayacaq.

---

Sual: **672**. Bir nəfər 10 günlük iqaməti qəsd edir (ya 10 gün qalacağını bildiyi üçün, ya da bunu qərara aldığı üçün). Sonra 4 rəkətli bir namaz qılmaqla tamam qılmaq hökmü ona aid olandan sonra onun üçün (qəsd etdiyi yerdən) başqa bir səfər qarşıya çıxır, səfəri də zəruri deyildir. Bu səfər onun üçün caizdirmi?

Cavab: Hərçənd səfəri zəruri olmasa belə, səfər etməsinin heç bir maneəsi yoxdur.

---

Sual: **673**. Bir nəfər imam Rzanın (ə) məqbərəsini ziyarət etmək üçün səfərə çıxır və 10 gündən az qalacağını bilir. Lakin namazı tamam olsun deyə, 10 günlük iqamət niyyət edir. Bunun hökmü nədir?

Cavab: Əgər 10 gün qalmayacağını bilsə, bu halda 10 günlük iqamət niyyət etməsinin heç bir mənası yoxdur; bu qəsdinin təsiri yoxdur, orada namazı qəsr qılmalıdır.

---

Sual: **674**. Ölkə əhalisindən olmayan, hər hansı bir vaxt şəhərdə 10 gün qalmayan qulluqçuların səfəri şəri məsafədən azdır. Onların namazı qəsr, yaxud tam qılmaq cəhətindən vəzifələri nədir?

Cavab: Onların vətənləri və vəzifə yerləri arasındakı məsafə şəri məsafə qədərində olmazsa, (hətta gedib-gəlmək də hesab olunsa) bu halda onlar barəsində müsafir hökmü icra olunmaz; və vətəni ilə iş yeri arasındakı məsafə şəri məsafə qədərində olan şəxs bu iki yerə 10 gün arasında gedib-gəlirsə, (hətta aşağısı bir dəfə də olsa belə) namazı tamam qılmalıdır, əks halda (10 gün arasında aşağısı bir dəfə gedib-gəlmirsə) onun birinci səfərindəki hökmü sair müsafirlərin hökmü kimidir.

---

Sual: **675**. Bir kəs müəyyən bir yerə səfər edir və orada nə qədər (10 gün, yaxud az) qalacağını bilmir. O, namazlarını necə qılacaq?

Cavab: Qəsr qılmalıdır.

---

Sual: **676**. Bir nəfər iki yerdə təbliğat işi aparır və o məntəqədə 10 gün qalmağı qəsd edir. Onun oruc-namazlarının hökmü nədir?

Cavab: O iki məntəqə camaatın nəzərində iki yer hesab olunsa, hər iki yerdə iqamət qəsdi etməsi düz deyil, həmçinin 10 gün içərisində birindən digərinə getmək qəsdi olsa, heç birində iqamət qəsdi etməsi düz deyil.

## Tərəxxüs həddi

---

Sual: **677**. Almaniyada və bəzi Avropa ölkələrində çox hallarda bir şəhəri digərindən ayıran məsafə (yəni bir şəhərin çıxışında sancılan "çıxış" lövhəsi ilə o biri şəhərin girişindəki "giriş" lövhəsi arasındakı məsafə) 100 metrə çatmır. Bir şəhərin evləri və küçələrinin bəziləri digər şəhərinkinə birləşib. Belə olan hallarda tərəxxüs həddi nədir?

Cavab: Bir şəhərin digərinə, Sualda qeyd olunduğu kimi, birləşməsi hallarında o iki şəhər bir şəhərin iki məhəlləsi kimidir, belə ki, onların birindən digərinə getmək səfər sayılmaz ki, onda tərəxxüs həddi də nəzərə alınsın.

---

Sual: **678**. Tərəxxüs həddində ölçü azanın eşidilməsi və şəhərin divarlarının görünməsidir. Bu halda, bu şərtin hər ikisi olmalıdır, yoxsa biri kifayət edər?

Cavab: Ehtiyat hər iki əlamətə riayət etməkdir; hərçənd tərəxxüs həddinin təyin olunmasında azan səsinin eşidilməsi kifayətdir.

---

Sual: **679**. Tərəxxüs həddində meyar azan səsinin müsafirin ilk daxil olduğu məhəllənin evlərindən eşidilməsi sayılır, yoxsa şəhərin ortasında?

Cavab: Əsas meyar azan səsinin müsafirin xaric olduğu, yaxud daxil olduğu cəhətdən şəhərin axırında eşidilməsidir.

---

Sual: **680**. Bir məntəqənin əhalisi arasında şəri məsafə barəsində fikir müxtəlifliyi vardır; bəziləri deyirlər ki, bunda əsas götürülən meyar məntəqənin kənarında bir-birinə birləşən evlərin axırının divarlarıdır. Bəziləri isə deyirlər ki, şəri məsafə şəhərin binalarından sonra aşkar şəkildə görünən şirkətlərdən, dükanlardan hesablanmalıdır. Sual budur: Şəhərin axırı haradır?

Cavab: Şəhərin axırını təyin etmək camaatın nəzərinə həvalə olunur.

---

Sual: **681**. Biz institut tələbəsiyik, dərs oxuduğumuz yer Təbəs şəhərinin qəsəbələrindən birindədir. Bizim öz vətənimiz bu qəsəbədən 100 km, o qəsəbə də Təbəs şəhərindən 5 km məsafədədir. Lakin bu qəsəbə ilə şəhər arasında ayrılıq sala bilən bir şey yoxdur. Onun divarları Təbəs şəhərinin içindən görünür, amma azan səsi eşidilmir. Bu halda əgər qəsəbədə 10 gün qalmağı qəsd edib sonra Təbəs şəhərinə, 2 saatdan artıq bir vaxtda getsək, bu iş bizim iqamət qəsdimizə xələl yetirərmi?

Cavab: Divarların gözdən itməsində əsas meyar divarın özünün, şəklinin itməsidir, divarların qaraltısının görünməsi etibarlı deyildir. Belə olan halda, Təbəs şəhərində qəsəbənin divarlarının gözdən itməsini fərz etsək, əgər qeyd olunan qəsəbə

şəhərin bir hissəsi, yaxud şəhərə birləşən və ona tabe olan bostanlardan, əkin sahələrindən sayılsa, bu qəsəbədə iqamət qəsd edən vaxtda şəhərə gedib-gəlmək iqamət qəsdinə zərər yetirməz. Mövzunun ayırd edilməsi də mükəlləfin öz öhdəsinədir.

## Məsiyyət (günah) səfəri

---

Sual: **682**. Əgər insan bilsə ki, etdiyi səfərdə günahlara və haramlara düçar olacaq, bu halda onun namazı qəsr olacaq, yoxsa tamam?

Cavab: Nə qədər ki, onun səfəri bir vacibin tərk olunması üçün, yaxud haram bir iş üçün deyilsə, bu halda onun hökmü sair müsafirlərin hökmü (namazın qəsr qılınmasında) kimidir.

---

Sual: **683**. Bir kəs məsiyyət qəsdi ilə səfər etməsə, amma, yol boyu səfərini məsiyyət üçün tamamlamağı qəsd etsə, bu halda bu şəxsə namazları qəsr qılmaq vacibdir, yoxsa tamam? Və yolda qəsr qıldığı namazlar düzdür, ya yox?

Cavab: Vacibdir ki, səfərini məsiyyət üçün davam etdirməyi qəsd etdiyi zamandan etibarən namazlarını tamam qılsın və səfərini məsiyyət üçün davam etdirdiyi vaxtdan sonra qəsr qıldığı namazların qəzasını yenidən, tamam şəkildə qılsın.

---

Sual: **684**. Gəzinti üçün, yaxud məişət ehtiyaclarını almaq üçün səfər etməyin hökmü (səfərdə namaz üçün yerin, namazın müqəddimə işlərini görməyi mümkün olmayacağını fərz etməklə) nədir?

Cavab: Əgər bilsə ki, səfərdə namazında vacib olan bəzi şeylərin tərk olunmasına düçar olacaq, bu halda ehtiyat vacib bu cür səfəri tərk etməkdir. Amma əgər bunu tərk etməkdə bir zərər, yaxud əziyyət olsa, eybi yoxdur.

## Vətənin hökmləri

---

Sual: **685**. Mən özüm Tehran şəhərində doğulmuşam, valideynlərim isə Məhdişəhrlidirlər. Buna görə də mən onlarla il ərzində bir neçə dəfə Məhdişəhrə gedirəm. Mənim valideynlərimin vətənində həmişəlik yaşamaq üçün qayıtmamaq və Tehranda daimi olaraq məskunlaşmaq qərarımı nəzərə almaqla namaz və orucumun hökmü necədir?

Cavab: Belə olan təqdirdə, sizin namaz və orucunuzun hökmü valideynlərinizin vətənində müsafir şəxsin hökmüdür.

---

Sual: **686**. Mən il ərzində 6 ay bir şəhərdə və 6 ay da öz doğulduğum və eləcə də ailəmin və özümün məskunlaşdığım şəhərdə yaşayıram. Lakin birinci şəhərdə yaşamağım ardıcıl deyildir. Məsələn, orada 2 həftə, 10 gün və ya ondan da az qalıb öz vətənimə qayıdıram. Sualım budur ki, əgər birinci şəhərdə 10 gündən az qalsam, mənim hökmüm müsafir hökmüdür, yoxsa yox?

Cavab: Əgər o şəhər sənin vətənin deyilsə və oranı özün üçün vətən qəbul etməmisənsə, onda orada 10 gündən az qaldığınız vaxtlarda müsafir hökmündəsiniz.

---

Sual: **687**. On iki ildir ki, özüm üçün daimi olaraq vətən qəbul etmədiyim bir şəhərdə yaşayıram. Bu şəhər mənim üçün vətənə çevrilibmi? Bu şəhərin mənim üçün vətənə çevrilməsindən ötrü nə qədər vaxt lazımdır? Eləcə də, bu şəhərin mənim üçün vətənə çevrilməsi nə ilə aşkar olar?

Cavab: Daimi olaraq məskunlaşmaq məqsədi olmasa və bir müddət bu niyyətlə orada yaşamasan, o yer yeni vətən hesab olunmaz, yaxud da bir yerdə daimi olaraq yaşamaq məqsədi olmasa, lakin onun orada yaşamaq müddəti çox uzansa və yerli əhali də onu öz həmyerlisi hesab etsələr, belə olan surətdə o yer onun üçün yeni vətən hesab olunar.

---

Sual: **688**. Vətəni Tehran olan bir şəxs özü üçün Tehran yaxınlığında olan şəhərlərin birini vətən qəbul edir, amma, onun iş yeri Tehran oludğu üçün altı ay yox, heç 10 gün də ardıcıl olaraq orada qala bilmir ki, o yer onun üçün vətənə çevrilsin. Əksinə, hər gün səhər işə gedir və axşamlar evinə qayıdır. Bu şəxsin namaz və orucunun hökmü nədir?

Cavab: Bir yerdə məskunlaşıb oranı vətən qəbul etməyin şərti 6 ay orada ardıcıl qalmaqdan asılı deyildir. Ailəsi orada məskunlaşdıqdan sonra yerli xalqın onu öz həmyerlisi hesab edənə qədər gündəlik işə gedib axşamlar evinə qayıtması və onların yanında gecələməsi kifayətdir.

---

Sual: **689**. Mənim və həyat yoldaşımın doğma vətəni Kəşmir şəhəridir. Lakin hökumət orqanlarının birində vəzifəyə seçildikdən sonra Nişapur şəhərinə köçdüm. Ata-anam isə öz vətənimizdə yaşayırlar. Nişapura köçdüyüm ilk illərdə öz ana vətənimizə (Kəşmirə) qayıtmaq fikrindən daşındım, amma 15 il keçdikdən sonra yenidən fikrimi dəyişdim və nə vaxtsa doğma vətənə qayıtmağı qərara aldım. Xahiş edirəm, bununla bağlı aşağıdakı Suallara cavab verin:

1. Biz (mən və ailəm) ata-anamızın evinə gedib bir neçə gün orada qalmaq istədikdə, namazı necə qılmalıyıq?

2. Bizim indiki yaşayış yerimiz olan Nişapur şəhərində dünyaya gələn və burada həddi-büluğa çatan uşaqlarımız ata-anamızın yaşadığı Kəşmir şəhərinə getdikdə və bir neçə gün orada qaldıqda onların vəzifəsi nədir? (Yəni müsafir hökmündədirlər, yoxsa yox?)

Cavab: Doğma vətəniniz olan Kəşmir şəhərində daimi yaşamaq üçün qayıtmaqdan imtina etdikdən sonra orada sizin üçün vətən hökmü icra olunmaz. Lakin siz də oraya daimi yaşamaq məqsədi ilə qayıtsanız və bir müddət o şəhərdə yaşasanız, onda orada sizin üçün vətən hökmü icra olunar. Bu şəhər hal-hazırda sizin övladlarınız üçün də vətən sayılmır və siz hamınız bu şəhərdə müsafir hökmündəsiniz.

---

Sual: **690**. Bir nəfərin iki vətəni vardır (və təbiidir ki, o şəxs o yerin hər ikisində namazını tamam qılır və orucunu tutur). Xahiş edirik izah edəsiniz ki, o şəxsin himayəsində olan həyat yoldaşı və övladlarına bu məsələdə öz sahiblərinə tabe olmaq vacibdir, yoxsa onlar bu barədə müstəqil qərara gələ bilərlər?

Cavab: Həyat yoldaşı ərinin yeni vətənini özü üçün vətən qəbul etməyə bilər. Lakin yaşayış və iradəsində müstəqil olmayan kiçik uşaqlar, eləcə də atasının iradəsinə tabe olan hər bir övlad üçün atanın yeni vətəni vətən hesab olunur.

---

Sual: **691**. Doğum evi atanın vətənindən xaricdə olduğu üçün ananı bir neçə günlüyə oraya aparmaq məcburiyyətində qalırlar və uşaq dünyaya gəldikdən sonra yenidən ananı öz vətəninə qaytarırlar. Bu uşağın vətəni hara sayılır?

Cavab: Xəstəxana ata-ananın yaşadığı vətəndə olsa, o yer uşaq üçün də əsas vətən sayılır və əks təqdirdə (yəni uşaq xaricdə dünyaya gəlsə), təkcə orada doğulmaqla o yer uşaq üçün vətənə çevrilə bilməz. O uşağın vətəni valideynlərinin vətənidir. Hansı ki, doğulduqdan sonra oraya aparılacaq və valideyinləri ilə birlikdə orada yaşayacaqdır.

---

Sual: **692**. Bir nəfər bir neçə ildir ki, Əhvaz şəhərində yaşayır, lakin oranı özü üçün ikinci vətən qəbul etməyib. Bu adam şəhərdən çıxıb şəri məsafədən[5242] az və ya çox yol getdikdən sonra, yenidən o şəhərə qayıdan zaman oruc-namazının hökmü nədir?

Cavab: Əhvazda qalmaq qərarına gəlib orada yerləşdikdən sonra onun hökmü ən azı dörd rəkətli namazları tamam qılmağıdır. Şəri məsafədən keçməyənə qədər namazlarını tamam qılar və orucunu tutar. Amma oradan şəri məsafə qədər və ya ondan çox xaric olarsa, onda onun hökmü başqa müsafirlərin hökmü kimidir.

Sual: **693**. Mən iraqlı bir şəxsəm. İstəyirəm, İraq vətəndaşlığımdan imtina edəm. Mən İranı bütövlüklə vətən qəbul edim, yoxsa yaşadığım yeri və ya gərək ev alım ondan sonra özüm üçün vətən qəbul edim?

Cavab: Yeni vətən üçün müəyyən bir şəhəri vətən qəbul etmək və bir müddət orada yaşamaq şərt hesab olunur. Özü də xalq arasında "bu şəxs buralıdır" deyilsin. Lakin evə sahib olmaq və bu kimi şeylər şərt deyildir.

---

Sual: **694**. Vətəndən imtina etməyin nə olduğunu bilməyən şəxs həddi-büluğa çatmamış öz doğulduğu vətənindən başqa bir şəhərə köçür. Artıq o şəxs həddi-büluğa çatıb. Orada oruc-namazının hökmü nədir?

Cavab: Əgər o şəxs oradan ata-anası ilə birlikdə köçübsə və atasının bir daha daimi yaşamaq üçün oraya qayıtmaq fikri olmayıbsa, onda o yerdə o şəxs üçün vətən hökmü icra olunmaz.

---

Sual: **695**. Bir kişi hal-hazırda öz vətənində yaşamır (o yer onun vətəni hesab olunduğu halda), amma bəzi vaxtlar öz həyat yoldaşı ilə oraya gedir. O qadın əri kimi orada namazı tamam qılmalıdır, yoxsa yox? Eləcə də, o qadın oraya tək getsə, onun namazının hökmü necə olmalıdır?

Cavab: O yerin təkcə əri üçün vətən olması o qadına orada vətən hökmünün icra olunması üçün kifayət deyildir.

---

Sual: **696**. İş yerinin hökmü vətən hökmüdürmü?

Cavab: Bir yerdə işlə məşğul olmaq o yerin onun vətəninə çevrilməsi üçün kifayət deyildir. Lakin onun yaşadığı yerlə şəri məsafədən uzaq olan iş yerinə get-gəl ən azı 10 gündə bir dəfə olsa, onda o iş yerində onun üçün namazın tamam və orucun düzgün olması kimi vətən hökmü icra olunar.

---

Sual: **697**. Bir şəxsin öz vətənindən imtina etməsi dedikdə nə nəzərdə tutulur? Qadının təkcə ailə qurması və öz əri ilə getməsi onun öz vətənindən imtina etməsi sayılır, yoxsa yox?

Cavab: Vətəndən imtina etmək dedikdə, bir şəxsin bir daha yaşamaq üçün oraya qayıtmamaq fikri ilə vətəndən xaric olması nəzərdə tutulur və təkcə başqa şəhərə ərə getmək öz vətənindən imtina etmək deyildir.

---

Sual: **698**. Xahiş edirik, əsas və ikinci vətən barəsində nəzərinizi bildirəsiniz.

Cavab: Əsas vətən insanın doğulduğu, bir müddət orada qaldığı və böyüyüb boya-başa çatdığı yerdir. İkinci vətən isə həddi-büluğa çatan şəxslərin daimi yaşayış üçün, hətta hər ildə bir neçə aylığa qəbul etdiyi yerdir.

---

Sual: **699**. Valideynlərim Savə şəhərindəndirlər və hər ikisi gənc yaşlarından Tehrana gəlib, orada yaşayıblar. Onlar ailə qurduqdan sonra Çalusa, atamın işlədiyi şəhərə gəlib orada yaşayıblar. Buna görə də bilmək istəyirəm hal-hazırda mən Tehran və Savə şəhərində necə namaz qılım? Onu da diqqətinizə çatdırım ki, mən Tehranda doğulmuşam və daimi olaraq orada yaşamaq fikirində olmamışam.

Cavab: Əgər Tehranda doğulduqdan sonra orada böyüyüb boya-başa çatmamısınızsa, onda ora sizin üçün əsas vətən sayılmır. Buna gərə Tehran və Savə şəhərlərini özünüz üçün vətən qəbul etməyincə, o yerlərin heç birində sizin üçün vətən hökmü icra olunmaz.

Sual: **700.** Vətənindən imtina etmədən 6 il müddətində başqa şəhərdə yaşayan şəxs öz vətəninə qayıdarkən namazını tamam qılmalıdır, yoxsa qəsr?[5243] Onu da qeyd edim ki, bu şəxs mərhum həzrət Ayətullah Xomeyniyə təqlid etməkdə davam edir.

Cavab: Öz əvvəlki vətənindən imtina etməyincə, o yer vətən hökmü yerində qalır və orada namazları tamam, orucları da düzgündür.

---

Sual: **701**. Bir nəfər universitet tələbəsi Təbriz şəhərində təhsillə bağlı dörd il qalacağına görə orada bir ev icarəyə götürmüşdür. Bundan da əlavə, əgər mümkün olsa, təhsildən sonra daimi olaraq orada qalmaq fikrindədir. Hal-hazırda, mübarək ramazan ayının günlərində bəzi vaxtlar öz əsas vətəninə get-gəl edir. Bu yerlərin hər ikisi onun üçün vətən sayılır, yoxsa yox?

Cavab: Əgər o şəxs hal-hazırda təhsil aldığı şəhərdə daimi yaşayış üçün qəti qərara gəlməyibsə, onda o yerdə onun üçün vətən hökmü icra olunmaz. Əsas vətəninə gəldikdə isə, oradan imtina etməyincə, vətən hökmü yerində qalır.

---

Sual: **702**. Mən Kirmanşəhr şəhərində dünyaya gəlmişəm və 6 ildir ki, Tehran şəhərində yaşayıram. Əsas vətənimdən imtina etməmişəm və Tehran şəhərini özüm üçün vətən qəbul etmişəm. İldə, yaxud 2 ildə bir dəfə Tehranın bir rayonundan digərinə köçürəm. Bizim oruc-namazımızın hökmü necədir? Artıq 6 aydan çoxdur ki, Tehran daxilində salınmış yeni rayonların birində yaşayırıq. Burada bizim üçün vətən hökmü icra olunar, yoxsa yox? Gün ərzində Tehranın müxtəlif nöqtələrinə get-gəl etməyimizi nəzərə almaqla bizim oruc-namazımızın hökmü nədir?

Cavab: Əgər hazırda olan Tehran şəhərini və ya onun müəyyən bir məhəlləsini özünüz üçün vətən qəbul edibsinizsə, onda Tehran şəhəri bütövlükdə sizin üçün vətən hesab olunur və şəhərin bütün nöqtələrində sizin üçün namazın tamam qılınması, orucun düzgün olması kimi vətən hökmləri icra olunur. Tehran şəhərinin daxilində get-gəl etməyinizə səfər hökmü aid edilməz.

---

Sual: **703.** Hal-hazırda yaşayış və iş yeri Tehranda olan bir kəndli şəxs kənddə evi və həyat-bacası olan ata-anasına kömək etmək və eləcə də onları görmək məqsədi ilə oraya gedir. O yerin bu şəxs üçün doğma vətən olmasına baxmayaraq, oraya daimi yaşayış üçün qayıtmaq fikrində deyildir. Bu şəxsin o kənddə oruc-namazının hökmü nədir?

Cavab: O kəndə yaşamaq üçün qayıtmaq fikri yoxdursa, o yerdə onun üçün vətən hökmü icra olunmaz.

---

Sual: **704**. İnsanın doğulduğu yer orada yaşamadığı halda onun üçün vətən sayılırmı?

Cavab: Əgər o yerdə bir müddət yaşayıbsa və orada böyüyüb boya-başa çatıbsa, onda oradan imtina etməyincə həmin yerdə onun üçün vətən hökmü icra olunar və əgər belə olmazsa, onda o yer onun üçün vətən hesab olunmaz.

---

Sual: **705**. Uzun müddət (9 il) vətəninə qayıtmağı qadağan olunan, lakin qayıtmaq qərarı qəti olan şəxsin vətən qəbul etmədiyi bir şəhərdə oruc-namazının hökmü nədir?

Cavab: Onun hal-hazırda sakin olduğu o şəhərdə oruc-namazının hökmü başqa müsafirlərin hökmü kimidir.

---

Sual: **706**. Ömrümün 6 ilini kənddə və 8 ilini şəhərdə yaşadıqdan sonra təhsil almaq məqsədi ilə Məşhəd şəhərinə gəlmişəm. Bu yerlərin hər birində mənim oruc-namazımın hökmü nədir?

Cavab: Əgər doğulduğunuz kənddə yaşamaqdan imtina etməyibsinizsə, orada sizin oruc-namazlarınız üçün vətən hökmü icra olunar. Məşhəd şəhərinə gəldikdə isə, əgər oranı özünüz üçün vətən qəbul etməyibsinizsə, onda orada müsafir hökmündəsiniz. Amma bir neçə il yaşadığınız şəhəri vətən qəbul etmişdinizsə və hal-hazırda da oradan imtina etməyibsinizsə, onda ora da sizin üçün vətən hökmündədir və əgər belə deyilsə, onda orada da müsafir hökmündəsiniz.

## Qadının asılılığı

---

Sual: **707**. Qadın vətən hökmündə və iqamətdə[5244] öz ərinə tabedirmi?

Cavab: Təkcə ər-arvadlıq zəruri tabelik demək deyildir. Mümkündür ki, qadın vətən seçməkdə və iqamətdə öz ərinə tabe olmasın. Amma qadın öz yaşayış və iradəsində müstəqil olmazsa, yəni vətən seçməkdə və vətəndən imtina etməkdə ərinin iradəsindən asılı olsa, onda ərinin niyyət və məramı onun üçün kifayət edər və ərinin daimi yaşayış məqsədi ilə vətən seçdiyi və oraya köçdüyü şəhər onun üçün də vətən sayılar. Eləcə də ərinin vətəndən imtina etməklə oradan xaric olub başqa yerə getməsi o qadın üçün də vətəndən imtina etmək sayılar. Həmçinin ərinin iradəsinə tabe olduğu təqdirdə, əgər bir qadın ərinin səfərə getdiyi yerdə 10 gün qalmaq niyyətindən xəbərdar olsa, onda həmin niyyət o qadın üçün də kifayət edər və hətta, əgər o qadın, əri ilə orada qalmağı məcburiyyət qarşısında qəbul etsə də, məsələnin mahiyyəti dəyişilməz.

---

Sual: **708**. Nişanlı qız müsafir namazına aid olan məsələdə öz (gələcək) ərinə tabedirmi?

Cavab: Ər-arvadlıq rabitəsi qadının öz ərinə səfər, iqamət, vətəndən imtina etmək və ya vətən qəbul etmək məsələlərində tabe olmaq zəruriyyətini doğurmur və qadın bu işlərdə müstəqildir.

---

Sual: **709**. Bir gənc oğlan başqa bir şəhərdən olan qızla ailə qurub. O qız öz ata-anası yaşayan şəhərə gedərkən namazını tamam qılmalıdır, yoxsa qəsr?

Cavab: Əgər öz əsas vətənindən imtina etməyibsə, onda orada namazlarını tamam qılar.

---

Sual: **710**. Qadın və ya övlad həzrət Ayətullahül-üzma imam Xomeyninin (r.ə) risaləsinin 1284-cü məsələsinə aid olunurlarmı? (Yəni, onların səfərinin həyata keçməsi üçün onların da səfərə çıxmaq məqsədi lazım deyildir?) Eləcə də, atanın vətəni ona tabe olanlar üçün namazın tamam qılınması üçün səbəb ola bilərmi?

Cavab: Əgər onlar səfərdə ataya tabedirlərsə və onun bu niyyətindən xəbərdardırlarsa, hətta məcburiyyət qarşısında olsalar da, onda atanın bu məsafəni qət etmək niyyəti onlar üçün də kifayət edər. Amma vətən seçməkdə və ya ondan imtina etməkdə, əgər həyat və məişətlərində müstəqil olmasalar, yəni ailə başçısı olmaq baxımından ona müti olsalar, onda, vətəndən imtina etməkdə və ya daimi yaşayış üçün ata ilə birlikdə köçdükləri yeri yeni vətən qəbul edilməsində ona tabedirlər.

## Böyük şəhərlərin hökmləri

---

Sual: **711**. Sizin, böyük şəhərlərdə oranı vətən qəbul etmək və ya 10 gün qalmaq barəsində rəyiniz necədir?

Cavab: Müsafir üçün vətən qəbul etmək və ya bir yerdə 10 gün qalmağın hökmlərində böyük şəhərlərlə adi şəhərlərin arasında heç bir fərq yoxdur. Böyük şəhərlərdə vətən qəbul etmək niyyəti ilə müəyyən bir məhəl təyin etmədən bir müddət orada qalmaqla onun üçün o yerdə vətən hökmü icra olunar. Həmçinin, belə şəhərlərdə xüsusi bir yeri qəsd etmədən, 10 gün qalmaq niyyətində olsa, oruc-namazın tam hökmü icra olunar.

---

Sual: **712**. Bir nəfər həzrət Ayətullah imam Xomeyninin (r.ə) Tehran haqqında olan "böyük şəhər" hökmünü bilməyib, lakin İslam İnqilabından sonra bu fitvadan xəbərdar olub. Bu şəxsin adi qaydada yerinə yetirdiyi oruc-namazın hökmü nədir?

Cavab: Əgər bu şəxs hal-hazırda bu məsələdə rəhmətlik İmama təqlid etməkdə davam edirsə, vacibdir ki, o fitva ilə uyğun gəlməyən keçmiş əməllərinə düzəliş versin. Yəni qəsr yerinə tamam qıldıqlarının qəzasını qəsr şəklində təzələsin və müsafir halında tutduğu orucların qəzasını yerinə yetirsin.

## İcarə namazı

---

Sual: **713**. Mənim namaz qılmağa taqətim yoxdur. İcazə verilirmi ki, başqa bir adam mənim əvəzimə namaz qılsın? Naibin (yəni təyin olunan adamın) muzdla və ya pulsuz tutulmasının fərqi vardırmı?

Cavab: Şəri baxımdan hər bir mükəlləfə vacibdir ki, ölənə qədər namazlarını özü qılsın və icazə verilmir ki, onun namazlarına başqası naib olsun. Bu işdə naibin muzdla və ya pulsuz tutulub-tutulmaması arasında fərq yoxdur.

---

Sual: **714**. İcarə namazını qılanlar üçün aşağıda qeyd olunan işlər vacibdirmi?

1) Azan və iqamə oxumaq, salamların hər üçünü demək və "təsbihati-ərbəə"-ni tam şəkildə yerinə yetirmək vacibdirmi?

2) Məsələn 1-ci gün günorta və əsr namazını qılsa və gündəlik namazın beşini də yerinə yetirsə, burada tərtib lazımdırmı?

3) İcarə namazında meyyitin xüsusiyyətlərini qeyd etmək şərt hesab olunur, yoxsa yox?

Cavab: Meyyitin xüsusiyyətlərini qeyd etmək lazım deyil. Yalnız, günorta və axşam namazlarının arasında tərtib şərt hesab olunur. İcarə əqdi (müqavilə) oxunan zaman icarəni qəbul edən şəxsin öhdəsinə xüsusi keyfiyyət qoyulmazsa və ya icarə əqdinin aid olacağı müəyyən keyfiyyətə söz verilməzsə, onda namaz adi qaydada müstəhəb əməlləri ilə birlikdə yerinə yetirilər. Azana gəldikdə isə ona hər bir namazda azan demək vacib deyildir.

## Ayət namazı

---

Sual: **715**. Ayət namazı nədir və şəri cəhətdən onun vacib olma səbəbləri hansılardır?

Cavab: Ayət namazı iki rəkətdir və hər bir rəkətdə beş rüku və iki səcdə vardır. Şəri cəhətdən vacib olma səbəbləri aşağıdakılardır:

Günəş və ayın tutulması, hətta, bəzi hissəsi olsa da, zəlzələ və camaatın çoxunun qorxmasına səbəb olan hər bir hadisə, məsələn qara, qırmızı və sarı və ümumiyyətlə adi olmayan küləklər, şiddətli zülmət və qaranlıqlar, göy gurultusu, şimşək və ildırım, uçqun və dağıntı səsləri. Ay və gün tutulması istisna olmaqla qalan hadisələr əgər qorxuya səbəb olmazsa və ya çox az adamların qorxusuna səbəb olarsa, onda onlar ayət namazının vacib olmasına səbəb olmaz.

---

Sual: **716**. Ayət namazı necə qılınır?

Cavab: Birinci şəkil: Niyyət edib təkbirətül-ehram dedikdən sonra həmd və surəni oxuyar və sonra rükuya gedər. Rükudan sonra yenidən Həmd və surə oxuyub bir daha rükuya gedər və beləliklə, bu rəkətdə beş rüku və hər dəfə rükuya getməzdən əvvəl həmd və surə oxuyar, sonra əyləşib 2 səcdəni yerinə yetirər, ikinci rəkəti qılmaq üçün ayağa qalxar və bunu da birinci rəkət kimi səcdələr tamam olana qədər qılar və səcdələrdən sonra təşəhhüd və salam oxuyub, namazı qurtarar.

İkinci şəkil: Niyyət edib təkbirətül-ehram dedikdən sonra həmdi və "Qulhuvəllah" surəsinin bir ayəsini oxuyub rükuya gedər, rükudan qalxıb o surənin ikinci ayəsini oxuyub və yenidən rükuya gedər və beləliklə, beşinci rükuya qədər bu surənin növbəti ayəsini rükudan qabaq oxuyar və ondan sonra əyləşib, səcdələri yerinə yetirər və səcdələrdən sonra qalxıb, ikinci

rəkəti də eyni ilə birinci rəkət kimi yerinə yetirər, səcdələrdən sonra təşəhhüd və salam oxuyub, namazı qurtarar. Qeyd etmək lazımdır ki, ikinci şəkildə qılınan ayət namazının hər rəkətində bir həmd və beş yerə bölünən bir "Qulhuvəllah" surəsi vardır.

Üçüncü şəkil: İki rəkətdən birini birinci şəkildə digərini isə ikinci şəkildə qılmaq.

Dördüncü şəkil: Birinci qiyamda bir ayəsini oxuduğu surəni ikinci, üçüncü və ya dördüncü qiyamda tamamlamaq. Belə olan halda vacibdir ki, növbəti qiyamda həmd surəsini yenidən oxusun və surənin bir ayəsini və ya əgər beşinci rükudan qabaqkı qiyam olsa, surənin hamısını oxusun. Əgər beşincidən əvvəlki qiyamda surənin bir ayəsini oxumaqla kifayətlənibsə, onda vacibdir ki, beşinci rükudan qabaq surəni tamamlasın.

---

Sual: **717**. Ayət namazı təkcə hadisə baş verən şəhərdə olanlara vacibdir, yoxsa ümumi olaraq bu hadisədən xəbəri olanlara, hətta orada olmasalar da?

Cavab: Bu namaz hadisə baş verən şəhərdə olanlara vacibdir. Bu məsələ o şəhərdə bitişik olan və onunla bir sayılan şəhərlərdə olanlara da aiddir.

---

Sual: **718**. Zəlzələ baş verən zaman bihuş olan və zəlzələdən sonra ayılan şəxs üçün ayət namazı vacibdirmi?

Cavab: Əgər hadisədən sonra özü ayılsa və zəlzələ baş verməsini bilsə, onda onun üçün ayət namazı vacib olar və əgər belə olmazsa, vacib deyildir.

---

Sual: **719**. Adətən, müəyyən bir məntəqədə zəlzələ baş verdikdən sonra qısa müddətdə onlarla zəif zəlzələlər və yer silkələnmələri müşahidə olunur. Belə hallarda ayət namazlarının hökmü necədir?

Cavab: Şiddətli və ya zəif olmasından asılı olmayaraq hər bir müstəqil zəlzələ üçün ayət namazı qılınmalıdır.

---

Sual: **720**. Zəlzələ- seysmik mərkəzlərindən bizim yaşadığımız ərazidə bir neçə zəif yer silkələnməsi hadisəsi elan olunsa, onların sayı da qeyd olunsa və lakin biz özümüz bunu heç cür hiss edə bilməsək, onda bizim üçün ayət namazı vacib olarmı?

Cavab: Zəlzələ baş verən zaman və ya bu zamana bitişik vaxtda onu özünüz hiss etməsəniz, onda sizin üçün ayət namazı vacib olmaz.

## Müstəhəbb namazlar

---

Sual: **721**. Müstəhəbb namazları ucadan və ya ahəstə qılmaq vacibdirmi?

Cavab: Müstəhəbdir ki, bu namazları gündüzlər ahəstə və gecələr isə ucadan qılınsın.

---

Sual: **722**. İcazə verilirmi ki, gecə namazı (iki rəkətli namazları) iki dörd rəkətli namaz, bir iki rəkətli və bir də "Vitr" namazı qılınmaqla yerinə yetirilsin?

Cavab: Gecə namazını dörd rəkətli namaz şəklində qılmaq düzgün deyildir.

---

Sual: **723**. Vacibdirmi ki, biz gecə namazı qılarkən heç kəs bizdən xəbərdar olmasın? Və eləcə də bu namazı qaranlıqda qılmaq vacibdirmi?

Cavab: Bu namazın qaranlıqda və başqalarından gizlində qılınması şərt deyildir. Amma, bu işdə riya edilməsinə icazə verilmir.

---

Sual: **724**. Günorta və əsr namazlarının nafiləsi o namazlardan və vaxtı keçəndən sonra qılınsa niyyət əda olmalıdır, yoxsa qəza?

Cavab: Ehtiyat budur ki, bu namazlar belə olan surətdə əda və qəza niyyəti edilmədən "qürbətən iləllah" qılınsın.

---

Sual: **725**. Cəfər Təyyar (ə) namazını qılan şəxs, təkcə bu namazı qılmaqla ona müəyyən olan savaba nail ola bilər, yoxsa bunun üçün başqa işlərə də riayət etmək vacibdir?

Cavab: Mümkündür ki, burada duaların qəbul olunması üçün başqa işlər də daxil olsun. Amma, hər halda Cəfər Təyyar (ə) namazını qılmaqla hacət və istəklərin rəva olunmasını istəyin. Allah-Təala tərəfindən bu savabların hasil olunması rəvayətdə varid olduğu kimi, bu namazın həmin şəkildə yerinə yetirilməsi ilə vəd olunmuşdur.

---

Sual: **726**. Xahiş edirik ki, gecə namazının necə qılınmasını bizim üçün geniş şəkildə şərh edəsiniz?

Cavab: Gecə namazı bütövlükdə 11 rəkətdir. Onun 8 rəkəti "Gecə namazı" adlanır və dörd ədəd 2 rəkətli namaz şəklində qılınır. 2 rəkəti isə "Şəf" namazı

adlanır və sübh namazı kimi qılınır. Axırıncı 1 rəkət "Vitr" namazı adlanır və müstəhəbdir ki, bu namazın qunutunda dua kitablarında yazılan tərtiblə bağışlamaq istəsin, möminləri dua etsin və bağışlayan, mehriban və nemət verən Allahdan hacət və istəklərinin rəva olunmasını diləsin.

---

Sual: **727**. Gecə namazının surəti necə olmalıdır? Yəni onda olan surələr dualar və istiğfarlar hansı şəkildə oxunmalıdır?

Cavab: Gecə namazından nə bir surə, dua və istiğfar məxsus şəkildə müəyyən olunub və nə də bu əməl vacib bir təklif hesab olunur. Hər bir rəkətdə niyyətdən sonra təkbirətül-ehram, həmd, rüku, səcdələr və onların zikrləri, təşəhhüd və salam oxumaqla namazı qurtar.

## Namaza aid olan müxtəlif məsələlər

---

Sual: **728**. Ailə üzvlərini sübh namazı qılmaq üçün oyatmağın qaydası necədir?

Cavab: Bu barədə ailə üzvləri üçün xüsusi şərtlər yoxdur.

---

Sual: **729**. Müxtəlif fikirlərə mənsub olan, o cümlədən bir-birinə qarşı həsəd və paxıllıq edən şəxslərin oruc-namazlarının hökmü necədir? Qeyd edək ki, bu şəxslər hətta əbəs yerə bir-birləri ilə düşməçilik də edirlər.

Cavab: Heç bir mükəlləfə icazə verilmir ki, digərlərinə qarşı həsəd, paxıllıq və düşmənçilik göstərsin, amma bu işlər oruc-namazın batil olmasına səbəb olmaz.

---

Sual: **730**. Ön cəbhədə vuruşan şəxslər şiddətli atışmaya görə namazın “Fatihə” surəsini oxuya bilməsə və ya səcdə və rükunu yerinə yetirə bilməsə namazı necə qılsın?

Cavab: Hansı şəkildə mümkün olsa, elə o şəkildə də qılsın və əgər səcdə və rükunu yerinə yetirə bilməsə, onlara işarə etməklə kifayətlənsin.

---

Sual: **731.** Ata-anaya öz övladlarına neçə yaşında şəriət hökmlərini öyrətmək vacib olur?

Cavab: Müstəhəbdir ki, uşaqların sahibləri onlara yaxşını-pisdən ayırmaq vaxtına çatanda şəriət hökmlərini təlim versinlər.

---

Sual: **732**. Şəhərlər arası sərnişin daşıyan bəzi sürücülər müsafirlərin namazına əhəmiyyət vermir və onların vacibatı əda etmək üçün nəqliyyatı saxlamaq tələblərini qəbul etmirlər. Buna görə də bəzi vaxtlar onların namazı qəzaya gedir. Belə olan hallarda sürücülərin hökmü nədir və sərnişinlərin öz namazları barəsində vəzifələri necədir?

Cavab: Namaz vaxtının keçməsi təhlükəsi olan zaman sərnişinlərə vacibdir ki, sürücüdən tələb etsinlər ki, avtomobili münasib bir yerdə namaz qılmaq üçün saxlasın və eləcə də sürücüyə vacibdir ki, onların tələbini qəbul etsin. Əgər sürücü üzrlü səbəbə görə və ya üzrsüz olaraq avtomobili saxlamaqdan imtina etsə, onda sərnişinlərin vəzifəsi budur ki, (əgər namazın qəzaya getmək qorxusu varsa) avtomobilin hərəkətdə olmasına baxmayaraq qiblə, qiyam, rüku və səcdələrə mümkün qədər riayət etməklə namazların qılsınlar.

---

Sual: **733**. “Şərab içənlərin qırx gün namazı və orucu yoxdur”. Bu hədisdən məqsəd nədir? Görəsən, bu o deməkdir ki, bu müddət ərzində namaz qılmasın və sonradan onların qəzasını yerinə yetirsin? Yaxud, məqsəd əda ilə qəzanın toplanmasıdır və yaxud da ona qəza vacib deyildir və təkcə əda ilə kifayətlənməlidir və bu halda onun savabı başqa namazlardan azdır?

Cavab: Məqsəd budur ki, şərab içmək oruc-namazın qəbul olunmasına mane olur və bu heç də o demək deyildir ki, oruc-namaz o şəxsin boynundan götürülür.

---

Sual: **734**. Bir şəxsin namazın bəzi işlərini səhv yerinə yetirdiyini gördükdə mənim vəzifəm nədir?

Cavab: Bu barədə sizin üzərinizə heç bir məsuliyyət düşmür, amma, onun bu səhvi hökmü bilməməzlik üzündən olsa, onda ehtiyat budur ki, onu düzgün qılmağa istiqamətləndirəsiniz.

---

Sual: **735**. Namaz qurtardıqdan sonra namaz qılanların bir-birləri ilə əl verib salamlaşması barədə Sizin rəyiniz necədir? Onu da qeyd edək ki, hörmətli alimlərdən bəziləri deyirlər ki, bu barədə bizə məsum imamlardan (ə) bir şey gəlib çatmamışdır və salamlaşmaq üçün heç bir səbəb yoxdur. Amma biz görürük ki, salamlaşmaq namaz qılanlar arasında məhəbbət və dostluq əlaqələrini artırır.

Cavab: Namaz qurtardıqdan sonra salamlaşmağın eybi yoxdur. Ümumiyyətlə, möminlərin bir-birləri ilə salamlaşması müstəhəbdir.

# Oruc

## Orucun vacib və düzgün olma şərtləri

---

Sual: **736**. Bir nəfər həddi-büluğa çatıb, lakin fiziki cəhətdən bədəni çox zəif olduğu üçün mübarək ramazan ayının orucunu tuta bilmir və gələn ilin ramazan ayına qədər keçən orucların qəzasını tutması mümkün deyildir. Onun hökmü necədir?

Cavab: Təkcə zəiflik və imkan olmaması üzündən oruc və onun qəzasını tutmaqda aciz olmaq, onun üzərindən orucun qəzasını götürməz. Vacibdir ki, ramazan ayında tutmadığı orucların qəzasını yerinə yetirsin.

---

Sual: **737**. Yenicə həddi-büluğa çatan və oruc tutması müəyyən qədər çətin olan qızların hökmü nədir? Qızların şəri həddi-büluğ vaxtı doqquz yaşlarıdırmı?

Cavab: Qızların həddi-büluğ vaxtı qəməri ili ilə doqquz yaşın tamam olmasıdır və bu vaxt onlar üçün oruc tutmaq vacib olur. Yalnız bəzi üzrlərə görə onların oruc tutmasına icazə verilmir. Amma orucu tutmaq gündüzlər onlara zərər yetirsə və ya dözülməz vəziyyət yaratsa, onda onlara oruc açmağa icazə verilir.

---

Sual: **738**. Mən bilmirəm ki, həddi-büluğa nə vaxt çatmışam. Xahiş edirəm bəyan edəsiniz ki, mənim oruc-namazımın qəzası nə vaxtdan vacib olur? Mənim üçün orucun kəffarəsi də vacibdir, yoxsa təkcə qəzası kifayət edər? Çünki mən öz məsələmi bilməmişəm.

Cavab: Sizin üçün təkcə həddi-büluğa çatdıqda sonra qəzaya getməsi yəqin olan namazın qəzası vacibdir. Oruclarınız isə, əgər həddi-büluğa çatmağınız yəqin olan vaxtda onu bilərəkdən açmısınızsa, onda qəzadan başqa kəffarə də vacibdir.

---

Sual: **739**. Qızın doqquz yaşı var və oruc ona vacib olur. Lakin məşəqqətli olduğu üçün orucunu açdı. Bunların qəzası ona vacibdir, yoxsa yox?

Cavab: Ramazan ayında yediyi orucların qəzası ona vacibdir.

---

Sual: **740**. Əgər insan şiddətli üzrə görə 50 faiz ehtimal versə ki, oruc tutmaq ona vacib deyildir və buna görə də oruc tutmasa, lakin, sonra məlum olsa ki, onun üçün oruc tutmaq vacib imiş, qəza və kəffarə cəhətindən bunun hökmü nədir?

Cavab: Əgər oruc tutmamaq təkcə onun vacib olmamasını ehtimal verməklə olsa, onda Sualda fərz olunan halda ona qəzadan əlavə kəffarə də vacib olar. Lakin oruc tutmamaq zərər qorxusundan olsa və bu qorxu da ağıl qəbul eləyən bir şey olsa, onda ona kəffarə lazım deyildir və təkcə qəzasını tutmaq vacib olar.

---

Sual: **741**. Hərbi xidməti yerinə yetirməyə məşğul olan bir şəxs xidmət etdiyi yerdə olduğuna və səfərə getdiyinə görə keçən il ramazan ayının orucunu tuta bilməyib. Bu il də ramazan ayı çatana qədər həmin yerdə olacaq və ehtimalı var ki, yenə də mübarək ramazan ayının orucunu tuta bilməsin. Əgər bu şəxs həmin iki ayın qəzasını hərbi xidmətdən sonra yerinə yetirmək istəsə, kəffarə vacib olar, yoxsa yox?

Cavab: Səfərə getmək üzrü ilə ramazan ayının orucunu tutmayan və üzrü növbəti ramazan ayına qədər davam edən şəxsə təkcə qəza vacibdir və kəffarə lazım deyildir.

---

Sual: **742**. Günorta azanına qədər boynunda cənabət qüslünün olmasını unudan və sonra irtimasi qüsl edən şəxsin orucu batil olarmı? Əgər qüsldən sonra başa düşsə, ona həmin orucun qəzası vacibdirmi?

Cavab: Əgər irtimasi qüsl onun oruc olmasını unutması və yaddan çıxarması ucbatından olsa, onda oruc və qüslü düzgündür və orucunun qəzası vacib deyildir.

---

Sual: **743**. Bir nəfər günortadan qabaq öz qaldığı yerə çatmaq məqsədi ilə yola düşsə və yolda baş verən hadisə ona vaxtında istədiyi yerə çatmağa mane olsa, bu adamın orucu necədir? Bu şəxs üçün kəffarə də vacibdir, yoxsa təkcə qəza kifayət edər?

Cavab: Bu səfərdə həmin şəxsin orucu düzgün deyildir və ona yalnız qaldığı yerə çata bilmədiyi günün orucunun qəzası vacibdir və kəffarə də lazım olmaz.

---

Sual: **744**. Təyyarəçi və yaxud təyyarə heyəti üzvləri uzaq şəhərlərə uçan zaman çox yüksək hündürlüklərə qalxmalı olurlar və bu uçuş təqribən iki saat yarım və ya üç saat davam edir. Bu halda onlar öz müvazinətlərini saxlamaq üçün hər iyirmi dəqiqədən bir su içməlidirlər. Ramazan ayında o şəxsə kəffarə də vacibdir, yoxsa təkcə qəza kifayət edər?

Cavab: Əgər oruc tutmaq ona zərər yetirsə, onda icazə verilir ki, su ilə orucunu açsın və sonra da həmin orucun qəzasını tutsun. Lakin bu halda ona kəffarə vacib deyildir.

---

Sual: **745**. Əgər bir qadın ramazan ayında məğrib azanına 2 saat və ya bir qədər də az qalmış heyz olsa, orucu batil olarmı?

Cavab: O qadının orucu batil olar.

---

Sual: **746**. Xüsusi üzgüçülük paltarı ilə suyun altına batan şəxsin orucunun hökmü nədir? Qeyd edək ki, bu paltarı geyindikdə bədən islanmır.

Cavab: Əgər həmin paltar başa yapışmış halda olsa, onda o şəxsin orucunun düzgün olması işkal məhəllidir (münaqişəlidir). Vacib ehtiyat budur ki, həmin orucun qəzasını tutsun.

---

Sual: **747**. Ramazan ayında bilərəkdən orucunu açmaq və tutmamaq üçün səfərə çıxmağa icazə verilir?

Cavab: Eybi yoxdur, hətta, əgər oruc tutmamaq üçün səfər etsə də, vacibdir ki, orucunu açsın.

---

Sual: **748**. Boynunda vacib oruc olan bir şəxs onun qəzasını tutmaq istəyir. Lakin qarşıya bir iş çıxır və ona bu iş də mane olur. Məsələn, gün çıxdıqdan sonra səfərə çıxmalı olur. Səfərə gedir və günortadan sonra qayıdır. Bu müddət ərzində heç bir şey yeyib-içmir, lakin artıq vacib orucun vaxtı keçdiyi üçün həmin gün müstəhəbb oruclar tutulan günlərdən sayılır. O şəxs üçün müstəhəbb oruc niyyət etmək düzgündürmü?

Cavab: Əgər o şəxsin boynunda ramazan ayının orucunun qəzası varsa, onda müstəhəbb oruc niyyət etməsi düzgün deyildir, hətta vacib oruc niyyət etməyin vaxtı keçsə də.

---

Sual: **749**. Mən daimi siqaret çəkən şəxslərdənəm və mübarək ramazan ayında nə qədər çalışıramsa, özümü bu işdən saxlaya bilmirəm. Belə halda öz ailəmə qarşı da çox narahatedici işlərin qarşısını ala bilmirəm. Əsəb gərginliyi cəhətindən dərd çəkirəm. Mənim vəzifəm nədir?

Cavab: Ramazan ayının orucu sizə vacibdir və oruc tutduğunuz halda siqaret çəkməyə icazə verilmir. Başqaları ilə də əbəs yerə hiddətli davranmaq olmaz və siqareti tərgitməyin əsəbləşməklə heç bir əlaqəsi yoxdur.

## Hamilə və südverən qadınlar

---

Sual: **750**. Hamiləliyin ilk aylarında qadına oruc tutmaq vacibdirmi?

Cavab: Təkcə hamiləliyin orucun vacibliyi üçün heç bir maneəsi yoxdur. Amma oruc tutmaqla qadının özü və ya bətnində olan uşağı üçün zərər təhlükəsi olsa və bu təhlükə ağıl qəbul eləyən bir ehtimaldan doğsa, onda o qadına oruc tutmaq vacib deyildir**.**

---

Sual: **751**. Əgər hamilə qadın oruc tutmağın bətnində olan uşağa zərər olub-olmamasını bilməsə, onda oruc tutmaq ona vacib olarmı?

Cavab: Əgər oruc tutmaqla qadının bətnində olan uşaq üçün zərər təhlükəsi olsa və bu təhlükə ağıl qəbul edən ehtimaldan doğsa, onda ona vacibdir ki, orucunu açsın; belə olmazsa, onda vacibdir ki, orucunu tutsun.

---

Sual: **752**. Uşağına süd verən hamilə qadın eyni vaxtda ramazan ayının orucunu da tuturdu. Bu qadın hamiləlikdən azad olarkən uşaq dünyaya ölü gəldi. Əgər bu qadın əvvəldən oruc tutmağın bətnində olan uşağa zərərli olmasını ehtimal versəydi, bu halda: 1) Onun orucu düzgündür, yoxsa yox? 2) Boynuna diyə (cərimə) gələr, yoxsa yox? 3) Əgər əvvəldən zərərli olmasını ehtimal verməsəydi, lakin sonradan ziyanı məlum olsaydı, onda hökmü necə olar?

Cavab: Əgər ağıl qəbul edən dərəcədə zərərli olmaq ehtimalı verildiyi halda oruc tutsaydı və, yaxud sonradan məlum olsaydı ki, oruc tutmaq ona və ya uşağa ziyan yetirib, onda onun orucu düzgün deyil və gərək həmin orucun qəzasını tutsun. Amma diyənin vacib olmasına gəldikdə isə, bu o uşağın həmin orucdan ölməsini sübut etməkdən asılıdır.

---

Sual: **753**. Həmd olsun Allaha ki, hamiləlikdən sonra mənə bir övlad verdi və o, hal-hazırda süd əmir. İnşallah qarşıdan mübarək ramazan ayı gəlir və mənim də oruc tutmağa imkanım var. Lakin mən fiziki cəhətdən zəif olduğum üçün oruc tutanda südüm quruyur. Əlhəmdu-lillah, uşaq da hər on dəqiqədən bir məndən süd istəyir. Mən nə etməliyəm?

Cavab: Əgər oruc tutmaqla südün azalması və ya quruması uşağınıza zərər təhlükəsi yaratsa, onda icazə verilir ki, orucunuzu yeyəsiniz və hər günə bir "müdd"[5245] fəqirə verməklə orucun qəzasını tutasınız.

## Xəstəlik və həkimin qadağan etməsi

---

Sual: **754**. Bəzi laqeyd həkimlər xəstəyə zərər olmasını əsas tutmaqla oruc tutmağı qadağan edirlər. Belə həkimlərin sözü höccətdir, yoxsa yox?

Cavab: Əgər həkim inanılmış adam olmasa və sözü xatircəmlik doğurmasa, həmçinin zərər təhlükəsinə bir səbəb yoxdursa, onda onun sözü mötəbər hesab olunmaz.

---

Sual: **755.** Anam təqribən on üç ildir ki, xəstədir və buna görə də oruc tutmaqdan məhrum olub. Mən dəqiq bilirəm ki, onun bu vacibdən məhrum olmağının səbəbi dərman qəbul etmək ehtiyacı olub; Xahiş edirəm bəyan edəsiniz ki, ona orucların qəzası vacibdirmi?

Cavab: Əgər onun oruc tutmaq imkansızlığı xəstəliyə görə olubsa, onda qəza lazım deyildir.

---

Sual: **756**. Mən (bir qız uşağı) həddi-büluğa çatan vaxtdan on iki yaşıma qədər fiziki cəhətdən zəif olduğum üçün oruc tutmamışam. Hal-hazırda mənim vəzifəm nədir?

Cavab: Həddi-büluğa çatan vaxtdan qəzaya gedən bütün oruclarınızın qəzası vacibdir və əgər ramazan ayının orucunu bilərəkdən, öz ixtiyarınızla və şəri cəhətdən üzrsüz olaraq yesəniz, onda sizə qəzadan əlavə kəffarə də vacibdir.

---

Sual: **757**. Göz həkimi mənə oruc tutmağı qadağan edib dedi: "Gözünüz xəstə olduğu üçün sizə icazə verilmir ki, oruc tutasınız". Narahatçılıq üzündən oruc tutmağa başladım, amma sonra bir sıra çətinliklərlə üzləşməli oldum. Məsələn, bəzi günlər iftar vaxtı gözüm ağrımağa başlayır və bəzi günlərdə də bu ağrını günortadan sonra hiss edirəm. Belə hallarda orucumu açmaq və ya göz ağrısına dözmək barəsində tərəddüddə qalıb, özümü axşama çatdırıram. Sualım budur ki, mənə oruc tutmaq vacibdirmi? Oruc olduğum günlərdə axşama qədər dözüb-dözməyəcəyimi bilməyəndə orucumu açım, yoxsa o halda qalım? Mənim niyyətim necə olmalıdır?

Cavab: Əgər dindar, inanılmış və xatircəm bir həkim sizə oruc tutmağın zərərli olmasını desə, yaxud oruc tutmağın gözünüzə zərərli olmağından qorxsanız, onda sizə vacib deyildir və hətta icazə də verilmir ki, oruc tutasınız. Zərər təhlükəsi olduğu halda orucu niyyət etmək düzgün deyil. Amma təhlükə olmazsa, heç bir maneçilik yoxdur. Lakin orucunuzun düzgün olması həqiqi mənada zərərin olub-olmamasından asılıdır.

---

Sual: **758**. Mən həkim göstərişinə əməl edirəm və hal-hazırda zəifliyim çoxalıbdır. Həkimə müraciət edən zaman mənə bildirdi ki, əgər özümə yaxşı qulluq etməsəm, gözlərimdə zəifliyin dərəcəsi artacaq. Buna görə də əgər ramazan ayında oruc tuta bilməsəm, onda mənim hökmüm necə olmalıdır?

Cavab: Əgər oruc tutmaq gözlərinizə zərər yetirsə, onda sizə oruc tutmaq yox, əksinə, orucunuzu yemək vacib olar. Xəstəliyiniz gələn ilin ramazan ayına qədər uzansa, gərək hər bir günün əvəzində fəqirə bir "müdd" yemək fidyə verəsiniz.

---

Sual: **759**. Anam ağır xəstəliyə düçar olub və atam da həmçinin, bədən zəifliyidən əziyyət çəkir. Onların hər ikisi oruc tutur və bəzi vaxtlar məlum olur ki, oruc tutmaq onların xəstəliklərini şiddətləndirir. Bu vaxta qədər onları razı sala bilməmişəm ki, heç olmasa xəstəlikləri şiddətli olanda oruc tutmasınlar. Xahiş olunur, onların orucunun hökmünü bəyan edəsiniz.

Cavab: Orucun təsiri ilə xəstəliyin yaranması və ya onun şiddətlənməsi və, yaxud da oruc tutmağa qüvvənin olmamasını müəyyənləşdirməkdə əsas meyar oruc tutanın öz aydınlaşdırmasıdır. Amma zərər olduğunu bilə-bilə oruc tutmaq haramdır.

---

Sual: **760**. Keçən il mütəxəssis həkimlər böyrəyim üzərində cərrahiyyə əməliyyatı aparıblar və mənə ömürümün axırına qədər oruc tutmağı qadağan ediblər. Hal-hazırda özümdə heç bir çatışmamazlıq hiss etmirəm və təbii halda yeyib-içirəm. Xəstəlik əlamətləri hiss etmədiyim halda mənim vəzifəm nədir?

Cavab: Əgər özünüz şəxsən oruc tutmaqdan qorxmursunuzsa, onda sizin üçün heç bir şəri sübut yoxdur və vacibdir ki, ramazan ayında oruc tutasınız.

---

Sual: **761**. Həkim bir nəfərə oruc tutmağı qadağan etsə, onun sözünə qulaq asmaq lazımdırmı? Bunu da nəzərə almaq lazımdır ki, bəzi həkimlər şəri məsələlərdən xəbərdar deyildirlər.

Cavab: Əgər o şəxs həkimin sözündən xatircəm olsa ki, oruc tutmaq ona zərərdir və ya bu, həkimin məlumatından hasil olsa, yaxud da digər bir mötəbər şeydən başa düşülsə ki, bununla zərər təhlükəsi yaranacaq, onda oruc tutmaq ona vacib deyildir.

Sual: **762**. Mənim böyrəklərimdə daş əmələ gəlir və bunun da qarşısının alınmasının yeganə yolu müntəzəm olaraq maye şeylərdən qidalanmaqdır. Həkimlərin də nəzəri budur ki, mənə oruc tutmaq olmaz. Mübarək ramazan ayının orucunun müqabilində mənim üzərimdə olan vacib vəzifə nədir?

Cavab: Əgər böyrəkdə yaranan bu xəstəliyin qarşısını almaq üçün gündüzlər su və ya başqa mayelərlə qidalanmaq lazımdısa, onda sizə oruc tutmaq vacib deyildir.

---

Sual: **763**. Şəkər xəstəliyinə düçar olmuş şəxslər gün ərzində bir-iki dəfə dərmandan istifadə etmək məcburiyyətində qalırlar. Vaxtı gec və ya tez olmadan qidanı əvəz edən vitamin ampulları vurdurmalı olurlar. Çünki bu, qanda şəkərin faizinin aşağı düşməsinə səbəb olur və bunun da nəticəsində ürəkkeçmə və bihuşluq halına düşür. Buna görə də həkimlər məsləhət görürlər ki, belə adamlar yeməyi gün ərzində dörd dəfəyə yesinlər. Rica edirik, belə şəxslərin orucu barəsində nəzərinizi bildirəsiniz.

Cavab: Sübh azanından axşama qədər yeyib-içməmək onlara zərər yetirsə, oruc vacib deyildir və hətta icazə də verilmir.

## Qarşısı alınmağı vacib olan şeylər haqqında

---

Sual: **764**. Oruc tutan şəxsin ağzından qan gəlsə, orucu batil olarmı?

Cavab: Bununla oruc batil olmaz, amma vacibdir ki, qanın boğazına çatmasının qarşısını alsın.

---

Sual: **765**. Xahiş edirəm, oruc tutan şəxsin mübarək ramazan ayında burnuna dərman tökməsi barədə nəzərinizi bildirəsiniz.

Cavab: Əgər ondan istifadə etməklə burundan bir şey keçib boğaza daxil olarsa, onda oruc tutana icazə verilmir.

---

Sual: **766**. Tütündən və başqa şeylərdən hazırlanan "Nas" maddəsi, hansı ki, bir neçə dəqiqəliyə dilin altına qoyurlar və sonra bayıra atırlar, orucu batil edirmi?

Cavab: Əgər "Nas" maddəsinə qarışan ağız suyu udulsa, onda o, orucun batil olmasına səbəb olar.

---

Sual: **767**. Təbabətdə şiddətli təngənəfəs (asma) xəstəliyinə tutulmuş xəstələr üçün içərisində sıxılmış maye olan qutu dərmanlar vardır. Onun üzərində olan tıxacı basarkən xəstənin ağız boşluğuna qaz halında olan maye daxil olur və oradan da keçib ağ ciyərə çatır və ona sakitlik gətirir. Xəstə bəzi günlərdə o dərmandan bir neçə dəfə istifadə etmək məcburiyyətində qalır. Bu dərmandan istifadə edildiyi halda oruc tutmağa icazə verilirmi? Qeyd edək ki, bunsuz onların oruc tutması mümkün deyil və, yaxud da çox çətindir.

Cavab: Əgər ağız boşluğundan keçib ciyərə çatan maddə yalnız hava olsa, onda onun oruc tutmağa heç bir maneçiliyi yoxdur. Amma sıxılmış hava ilə birlikdə boğaza dərman da daxil olsa, hətta tüstü və ya duman şəklində olsa da, onda bu orucun düzgün olması müşkül olar və ondan qorunmaq vacibdir. Əgər bu dərmansız oruc tutmaq mümkün olmasa və ya məşəqqətli və çətin olsa, onda icazə verilir ki, bu müalicədən istifadə edilsin.

---

Sual: **768**. Mənim Sualım orucum mövzusu barəsindədir. Çox vaxtlar ağzımın suyu dişlərimin dibindən gələn qanla qarışır. Bəzi vaxtlar bilmirəm ki, boğazıma gedən ağız suyunda qan var, yoxsa yox? Xahiş edirəm, mənim bu çətinliyimin necə həll olmasını bəyan edəsiniz.

Cavab: Dişlərin dibindən gələn qan ağız suyunda həll olub yoxa çıxsa, pak hökmündədir və onu udmağın da eybi yoxdur. Ağız suyunda qan olub-olmamasında şəkk etsəniz, yenə də udmağın eybi yoxdur və orucun düzgünlüyündə maneçiliyi yoxdur.

---

Sual: **769**. Ramazan ayının günlərinin birində dişlərimi fırça ilə yumadan oruc tutdum. Təbiidir ki, mən özüm dişlərimin arasında qalan yemək qırıntılarını udmamışam, lakin onlar boğazıma gedib. O günün orucunun qəzası mənə vacibdirmi?

Cavab: Əgər siz dişlərinizin arasında bir şey qalmağın və tezliklə onun boğazınıza gedəcəyini bilmirsinizsə və eləcə də onun udulması sizin hiss etdiyiniz halda və bilərəkdən deyilsə, onda orucunuza heç bir xələl yetirməz.

---

Sual: **770**. Oruc tutan bir şəxsin dişlərinin dibindən şiddətli qan gəlir. Onun orucu batildirmi? İcazə verilirmi ki, o şəxs başına qabla su töksün?

Cavab: Dişlərin dibindən gələn qan udulmasa, orucu batil etməz. Eləcə də qab və ya başqa əşyalarla başa su tökmək oruca xələl yetirməz.

---

Sual: **771**. Bəzi qadın xəstəliklərini müalicə etmək üçün onların daxilinə ( cinsiyyət üzvünə) xüsusi dərmanlar qoyulur. Belə şeylər oruca təsir edərmi?

Cavab: Belə dərmanların istifadə olunması oruca zərər yetirməz.

---

Sual: **772**. Xahiş olunur, mübarək ramazan ayında diş həkimləri və eləcə də başqa həkimlərin oruc tutan şəxslərə iynə vurmaları barəsində nəzərinizi bəyan edəsiniz.

Cavab: Oruc tutan şəxslərə iynə vurdurmağın eybi yoxdur. Amma ehtiyat budur ki, qidanı əvəz edən vitamin ampullarını vurdurmaqdan qorunsunlar.

---

Sual: **773**. Xəstəxanalarda edildiyi kimi damarlara qidanı əvəz edən mayelərin vurulması orucu batil edərmi?

Cavab: Oruc halında damarlara qida maddələrini əvəz edən mayelərin vurulmasına icazə verilməsi işkal məhəllidir. Bu işdən qorunsunlar və ehtiyatı tərk etməsinlər.

---

Sual: **774**. Oruc olduğum halda qan laxtalanmasını müalicə etmək məqsədi ilə dərman (həbb) ata bilərməmmi?

Cavab: Ramazan ayında qan laxtalanmasının qarşısını almaq üçün dərman atmağınız zəruri olsa, eybi yoxdur, istifadə edə bilərsiniz, amma orucunuz batil olacaq.

---

Sual: **775**. Mən və eləcə də bəzi adamlar belə fikirləşirik ki, müalicə dərmanlarından istifadə etmək yemək-içmək sayılmaz. Mənə belə bir iş görməyə icazə verilirmi və bu işi görsəm orucuma zərər yetirərmi?

Cavab: Əgər dərmanlardan istifadə ötürmə[5246] yolu ilə olsa, oruca eybi yoxdur, amma atma üsulu ilə olsa orucu batil edər.

---

Sual: **776.** Ramazan ayında həyat yoldaşım məni cinsi əlaqəyə məcbur etdi. Bizim hökmümüz necədir?

Cavab: Sizə bilərəkdən orucu açan hökmü aid olur və hər ikinizə orucun qəzasından başqa kəffarə də vacibdir.

---

Sual: **777**. Ramazan ayının gündüzlərində kişinin öz yoldaşını tumarlaması onun orucuna nöqsan gətirərmi?

Cavab: Əgər bu iş ondan məni (sperma) xaric olmasına səbəb olmasa, onda orucuna nöqsan gətirməz və əks təqdirdə, icazə verilmir.

## Bilərəkdən cənabətli qalmaq

---

Sual: **778**. (Bəzi çətinliklərə görə) sübh azanına qədər cənabətli halda qalan şəxs həmin gün oruc tuta bilərmi?

Cavab: Ramazan ayının orucu və qəzası deyilsə, onun orucuna maneçiliyi yoxdur. Amma ramazan ayının orucunda və qəzasında qüsl edə bilməsə, vacibdir ki, təyəmmüm etsin və əgər təyəmmüm də edə bilməsə, orucu düzgün deyildir.

---

Sual: **779**. Təharətin orucda şərt olmasından məlumatı olmayan şəxs bir neçə gün cənabətli halda oruc tutub. Cənabətli halda oruc tutduğu günlərə kəffarə də vacibdir, yoxsa təkcə qəza kifayət edər?

Cavab: Bir şəxs cənabətli olmağından xəbərdar olsa, amma qüslün və ya

vacib olmasını bilməsə, onda ehtiyata görə vacibdir ki, o şəxs qəzadan başqa kəffarə də versin. Amma onun məsələni bilməməzliyi qüsur üzündən olsa, kəffarənin verilməsi ehtiyat müstəhəb olmasına baxmayaraq, vacib deyildir.

---

Sual: **780**. Cənabətli şəxs gün çıxandan sonra qüsl edib müstəhəbb və ya qəza orucu tuta bilərmi?

Cavab: Əgər bilərəkdən gün çıxana qədər cənabətli qalsa, ramazan ayının orucunu və qəzasını tuta bilməz. Amma bunlardan qeyrilərini, xüsusilə müstəhəbbi orucları tuta bilər.

---

Sual: **781**. Bir mömin qardaş aşağıdakı şəkildə Sual verir: Ramazan ayından 10 gün qabaq ailə qurmuşam. Eşitmişdim ki, hər kim gün çıxandan sonra cinsi yaxınlıq etsə, gərək günorta azanından qabaq qüsl etsin və orucu düzgündür. (Bu hökmün dəqiq olması gümanı ilə) qadınla yaxınlıq oldu və sonradan başa düşüldü ki, bu məsələnin hökmü belə deyilmiş. Bu işin hökmü nədir?

Cavab: Gün çıxandan sonra bilərəkdən cənabətli olmağın hökmü qəsdən orucu yeməyin hökmü kimidir və qəzadan əlavə, kəffarə vermək də vacibdir.

---

Sual: **782**. Bir nəfər ramazan ayında qonaq gedir və gecəni orada qalmalı olur. Gecəyarısı möhtəlim[5247] olur. Qonaq olduğu üçün və özü ilə paltar götürmədiyinə görə oruc tutmamaqdan ötrü sabahısı gün səfərə çıxacağını qəsd edir. Sübh azanından sonra heç bir şey yemədən səfər məqsədi ilə hərəkət edir. Sualımız budur ki, bu şəxsin səfər məqsədi onun boynundan kəffarəni götürər, yoxsa yox?

Cavab: Əgər bu şəxs bilərəkdən sübh azanından qabaq qüsl və ya təyəmmüm etməyib cənabətli halda qalıbsa, onda təkcə gecə səfər niyyəti etmək və gündüz də səfərə çıxmaq onun boynundan kəffarəni götürməz.

---

Sual: **783**. Su tapa bilməyən və ya cənabət qüslü etməyə başqa üzrləri olan şəxslər (vaxtın azlığı istisna olmaqla) mübarək ramazan ayının gecələrində bilərəkdən özlərini cənabətli edə bilərlərmi?

Cavab: Əgər onun üzərində vacib olan hökm təyəmmüm olacaqsa və özünü cənabətli etdikdən sonra təyəmmüm etməyə kifayət qədər vaxtı qalacaqsa, onda icazə verilir.

---

Sual: **784**. Bir nəfər ramazan ayı sübh azanından qabaq yuxudan ayılır və öz möhtəlim olmağından xəbərdar olmayıb yenidən yuxuya gedir, sübh azanı vaxtı ayılıb başa düşür ki, möhtəlim olub və yəqinləşdirir ki, bu iş sübh azanından qabaq olub. Bu şəxsin orucunun hökmü necə olmalıdır?

Cavab: Sübh azanından qabaq möhtəlim olmağından xəbər tutmasa, orucu düzgündür.

---

Sual: **785**. Mükəlləf şəxs ramazan ayında sübh azanından sonra yuxudan ayılsa və möhtəlim olduğunu bilsə və sonra yenidən gün çıxana qədər yatsa (sübh namazını qılmadan) bu şəxsin qüsl etməsi günorta azanına qədər geciksə və azandan sonra qüsl edib günorta və ikindi namazlarını qılsa, həmin günün orucunun hökmü necə olmalıdır?

Cavab: Orucu düzgündür və cənabət qüslünün günortaya qədər gecikdirməyin zərəri yoxdur.

---

Sual: **786**. Əgər mükəlləf ramazan ayının gecələrinin birində möhtəlim olub-olmaması barədə şəkk etsə, lakin şəkkini müəyyənləşdirmədən yatsa və sübh azanından sonra ayılıb möhtəlim olduğunu görsə və bilsə ki, bu iş sübh azanından qabaq olub, onda onun orucunun hökmü necə olmalıdır?

Cavab: Birinci dəfə ayıldıqdan sonra özündə möhtəlim olmanın əlamətlərini görməsə və bunu təkcə ehtimal verib heç bir şey aşkar etmədən sübh azanından sonraya qədər yatsa orucu düzgündür, hətta bu işin sübh azanından qabaq olmasını aydınlaşdırsa da.

---

Sual: **787**. Əgər bir nəfər mübarək ramazan ayında murdar su ilə qüsl edib bir həftədən sonra başa düşsə ki, həmin su təmiz deyilmiş, bu şəxsin bu müddət ərzindəki oruc-namazının hökmü nədir?

Cavab: Namazları batildir və gərək qəzalarını qılsın. Amma orucları düzgün hökmündədir.

---

Sual: **788**. Bir nəfər müvəqqəti sidikaxıtma xəstəliyinə düçar olub. Yəni bayıra çıxdıqdan (ifrazatdan) bir saat, ya bir qədər artıq sonra da sidik damla-damla gəlməkdə davam edir. Bu adamın orucunun hökmü nədir? Çünki o, bəzi gecələr cənabətli olub və azandan bir saat qabaq yuxudan ayılır. Ehtimal vermək olarmı ki, sidik damlaları ilə məni (sperma) xaric ola? Hansı vaxtda pak olacağı barədə bu şəxsin vəzifəsi nədir?

Cavab: Bu şəxs sübh azanından qabaq cənabət qüslü, yaxud onun əvəzində təyəmmüm etsə, orucu düzgündür, hətta bundan sonra ondan ixtiyarsız olaraq məni xaric olsa da.

---

Sual: **789**. Əgər bir nəfər sübh azanından qabaq, yaxud sonra yatıb yuxuda möhtəlim olsa və sübh azanından sonra ayılsa, belə vəziyyətdə qüslü nə vaxta qədər gecikdirmək olar?

Cavab: Sualda deyilən şəraitdə cənabətli qalmaq həmin günün orucuna zərər yetirməz, lakin namaz qılmaq üçün qüsl etmək vacibdir və bu şəxs namaz vaxtına qədər qüslü gecikdirə bilər.

Sual: **790**. Ramazan ayı və ya başqa günlərin orucu üçün cənabət qüslü etmək yaddan çıxarsa və gündüz yada düşərsə, onun hökmü necə olar?

Cavab: Ramazan ayının orucunda gecədən sübh azanına qədər cənabət qüslü yaddan çıxarsa və o halda da sübhü açarsa, orucu batil olar. Ehtiyat budur ki, ramazan ayının qəza oruclarını da bu hökmə aid edək. Amma başqa oruclar bununla batil olmaz.

## Oruc tutanda və başqa hallarda istimna [5248]

---

Sual: **791**. Yeddi il ramazan ayının oruclarından bir neçə gününü istimna etməklə batil etmişəm. Lakin onlardan üç ramazan ayında batil etdiklərimin sayını bilmirəm. Səhv etməsəm azı 25-30 gündür. Buna görə də dəqiq bilmirəm ki, vəzifəm nədir? Xahiş edirəm, mənim üçün kəffarəmin qiymətini müəyyənləşdirəsiniz.

Cavab: Haram əməl olan istimna yolu ilə mübarək ramazan ayının hər bir gününü batil edən şəxslər üçün iki kəffarə vardır: onlar hər bir gün üçün altmış gün oruc tutmaq və altmış miskinin qarnını doyurmaqdan ibarətdir. Altmış fəqiri doyurmaq əvəzində onların hər birinə bir müdd yemək vermək mümkündür. Amma pulunu vermək kəffarə hesab olunmaz. Lakin onu sizin əvəzinizdə yemək almaq üçün fəqirə verməyin eybi yoxdur. Onu özü üçün kəffarə adı ilə qəbul etmək və kəffarə yeməyinin alınma qiymətini müəyyənləşdirmək verəcəyi yeməyin qiymətindən asılıdır. Mümkündür, kəffarəni buğda, düyü və ya başqa qida maddələrindən versin, amma istimna ilə batil etdiyiniz günlərin sayına gəldikdə isə, icazə verilir ki, kəffarəni verməkdə və orucların qəzasını tutmaqda dəqiq bildiyiniz günlərlə kifayətlənəsiniz.

---

Sual: **792**. İstimnanın orucu batil etməsini bilən şəxs bilərəkdən bu işi görərsə, ona bütün kəffarələr[5249] vacib olarmı? Əgər bu işin orucu batil etməsini bilmədiyi halda etsə, hökmü necə olar?

Cavab: Hər iki halda bilərəkdən istimna edərsə, onda bütün kəffarələr vacib olar.

---

Sual: **793**. Mübarək ramazan ayında istimna əmələ gətirən şeylərdən heç biri hasil olmadan məndən məni xaric oldu. Lakin naməhrəm qadınla telefonla danışarkən iztirab keçirmişdim. Onu da qeyd edim ki, mənim bu söhbətim ləzzət almaq məqsədi ilə deyildi. Xahiş edirəm bildirəsiniz ki, mənim orucum batil olub, yoxsa yox? Əgər batil olubsa, kəffarə də vacibdir, yoxsa yox?

Cavab: Əgər əvvəldən adətiniz qadınla söhbət edərkən sizdən məni xaric olmaq deyildisə və o qadınla telefon danışığınız ləzzət və ehtiras məqsədi ilə olmayıbsa, bunlarla yanaşı, sizdən məni ixtiyarsız olaraq xaric olubsa, onda belə şeylər orucu batil etməz və buna görə də sizə heç bir şey vacib deyildir.

---

Sual: **794**. Bir nəfər neçə illərdir ki, ramazan ayında və başqa vaxtlarda istimna etməyə adət etmişdir. Bu şəxsin oruc-namazının hökmü necədir?

Cavab: İstimna mütləq şəkildə haramdır. Bu halda əgər ondan məni xaric olsa, boynuna cənabət qüslü gələr və əgər oruc halında olsa, onda haram şeylə orucunu yeyən hökmündədir. Əgər cənabətli halda qüsulsüz və təyəmmümsüz oruc tutub namaz qılsa, onda onun oruc-namazı batildir və hər ikisinin qəzası vacibdir.

---

Sual: **795**. Kişiyə öz yoldaşının əli ilə istimna etməyə icazə verilirmi? Bu işin cinsi əlaqədə olan zaman baş verməsi ilə başqa vaxtda olmasının fərqi varmı?

Cavab: Kişinin öz arvadı ilə mazaqlaşması və məni xaric etmək üçün bədənini onun bədəninə sürtməsinin heç bir eybi yoxdur. Eləcə də qadının öz ərinin cinsiyyət aləti ilə oynamasının (məşğul olmasının) maneçiliyi yoxdur və bu haram istimna deyildir.

---

Sual: **796**. Əgər həkim subay adamdan (analiz üçün) məni istəsə, ona istimna etməyə icazə verilirmi? Çünki onun xaric olması yalnız bu yolla mümkündür.

Cavab: Əgər müalicəsi buna bağlı olsa, eybi yoxdur.

---

Sual: **797**. Bəzi tibbi mərkəzlər kişidən onun mənisi üzərində tədqiqat aparmaq üçün istimna etməsini tələb edirlər. Çünki onlar bu yolla onun uşağı olub-olmayacağını müəyyənləşdirirlər. Belə şəxslərə istimna etməyə icazə verilirmi?

Cavab: Şəri cəhətdən o şəxsə istimna etməyə icazə verilmir, hətta onun uşağı olmasının mümkünlüyünü yoxlamaq üçün olsa da. Amma, ər-arvadın xəstəliyini müəyyənləşdirmək onların uşağı olub-olmaması ilə bağlı olsa, müstəsna hal hesab olunar.

---

Sual: **798**. Aşağıda qeyd olunan elmi yolla məni xaric etmək olarmı? Anus dəliyindən (nəcis ifraz olan yerdən) şəxsin öz barmağı ilə prostat vəziləri hərəkətə gətirilir və bədən tərpənmədən və süst olmadan məni xaric olur.

Cavab: Qeyd olunan işə icazə verilmir, çünki bu da bir növ haram istimna hesab olunur.

---

Sual: **799**. Yoldaşının yanında olmayan kişi, şəhvət və ehtiras məqsədi ilə onu yadına salıb təsəvvüründə canlandıra bilərmi?

Cavab: Əgər onun ehtiraslı təxəyyülləri məni xaric etmək məqsədi ilə olsa, ya bilsə ki, bu iş axırı məni xaric olmaqla nəticələnəcək, onda haramdır.

---

Sual: **800**. Bir nəfər həddi-büluğa çatdığı vaxtdan ramazan ayının orucunu tutur. Lakin o, oruc olduğu halda istimna edib və boynuna cənabət qüslü gəlir. Bu adam oruc tutan şəxsə cənabət qüslünün vacib olduğunu bilməyib və o halda bir neçə gün oruc tutub. Bu şəxs üçün təkcə o orucların qəzası vacibdir, yoxsa başqa şey də lazımdır?

Cavab: Sualda qeyd olunan şəraitdə qəzadan əlavə, kəffarə də vacibdir.

---

Sual: **801**. Bir nəfər ramazan ayında oruc olduğu halda pornoqrafiyaya- ehtiras doğuran şəkillərə baxıb və boynuna cənabət qüslü gəlib. Bununla onun orucu batil olarmı?

Cavab: Əgər onun baxışı məni xaric etmək məqsədi ilə olsa, yaxud bilsə ki, bu baxış axırda onunla nəticələnəcək və yaxud da bu iş onun adəti olsa və bilərəkdən bu işi görsə, boynuna cənabət qüslü gəlsə, onda onun hökmü bilərəkdən boynuna cənabət qüslü gətirən şəxsin hökmü kimidir.

## İftarın hökmləri

---

Sual: **802**. Ümumi yerlərdə və rəsmi məclislərdə iftar vaxtının təyin olunmasında sünni qardaşlara tabe olmaq olarmı? Əgər belə yerlərdə onlara tabe olmaq təqiyyə sayılmazsa, onda mükəlləfin üzərinə düşən vacib nədir? Bundan başqa bir yol varmı?

Cavab: Mükəlləfə icazə verilmir ki, iftar vaxtının çatmasında başqasına tabe olsun və öz ixtiyarı ilə iftar etsin. Amma öz dərki ilə gündüzün qurtarması və gecənin çatmasını dəqiqləşdirsə, yaxud başqa bir şəri sübut olsa, iftar etməyə icazə verilir.

---

Sual: **803**. Oruc olarkən anam məni yeyib-içməyə məcbur edirdi. Bununla mənim orucum batil olarmı?

Cavab: Yemək və içmək orucu batil edir, hətta başqasının dəvəti və təkidi ilə olsa da.

---

Sual: **804**. Əgər oruc tutanın ağzına zorla bir şey daxil edilsə, yaxud başını suya batırsalar, orucu batil olarmı? Yaxud da, onu orucunu batil etməyə məcbur etsələr, məsələn desələr ki, əgər yemək yeməsən sənə, yaxud malına ziyan yetiriləcək. Bu şəxs də bu zərəri dəf etmək üçün yemək yeyir. Bu adamın orucu düzgündürmü?

Cavab: Oruc tutanın ağzına bir şey daxil etmək və ya başını suya batırmaq onun orucunu batil etməz. Amma, zorla, başqasının məcburiyyəti ilə özü yesə, onda orucu batil olar.

---

Sual: **805**. Əgər oruc tutan şəriətdə müsafir üçün təyin olunan məsafəyə günortadan qabaq çatmamış orucu açmağın düzgün olmamasını bilməsə və özünü müsafir hesab edib orucunu açsa, onda bu şəxsin orucunun hökmü necə olacaq? Bu adam üçün təkcə qəza kifayət edər, yoxsa ona başqa şey də vacibdir?

Cavab: Bu şəxsin hökmü bilərəkdən orucunu yeyən adamın hökmüdür.

---

Sual: **806**. Zökəm olarkən ağzımda qatı maddə toplanmışdı və mən onu bayıra tüpürməyib uddum. Orucum düzgündür, yoxsa yox?

Mübarək ramazan ayının bəzi günlərini qohumlarımızdan birinin evində qalırdım. Burada zökəm olmağımdan əlavə, xəcalətimdən vacibi qüsl əvəzinə torpağa təyəmmüm etdim və bu işi bir neçə gün təkrarladım. Mənim o günlərdə tutduğum oruc düzgündür, yoxsa yox? Düzgün olmasa, kəffarə də vacibdirmi?

Cavab: Ağzının suyunu və həmçinin ağızda toplanan qatı maddəni udmaqla orucunuza heç bir şey olmaz. Əlbəttə, ehtiyat budur ki, əgər o qatı maddə ağız boşluğuna çatıbsa, gərək həmin günün qəzası tutulsun. Amma oruc tutduğunuz gün sübh azanına qədər cənabət qüslünü etməyibsinizsə və onun əvəzində təyəmmüm edibsinizsə, bu halda əgər o iş şəri cəhətdən müəyyən bir səbəbə görə olubsa və ya vaxt çox az olduğu üçün qüsl imkanı olmayıb təyəmmüm edibsinizsə, onda orucunuz düzgündür və əgər belə olmazsa, orucunuz batildir.

---

Sual: **807**. Mən dəmir mədənində çalışıram və işimlə əlaqədar olaraq hər gün oraya daxil olub işləyirəm. İş alətlərindən istifadə edərkən ağzıma toz dolur. İlin bütün ayları mənim üçün belə keçir. Mənim vəzifəm nədir? Belə halda mənim orucum düzgündürmü?

Cavab: Oruc halında toz udmaq orucu batil edər və ondan qorunmaq vacibdir. Amma onun təkcə ağız-buruna daxil olması və udulmaması orucu batil etməz.

---

Sual: **808**. Tərkibində qida maddələri və vitaminlər olan ampulların oruc tutana vurulmasının hökmü nədir?

Cavab: Əgər həmin ampulların tərkibində qida maddələri varsa və damara vurulursa, ehtiyat budur ki, oruc tutan şəxs özünü ondan qorusun. Əgər o halda istifadə olunubsa, ehtiyat budur ki, həmin orucların qəzası tutulsun.

---

Sual: **809**. Ramazan ayında bir nəfər oruca zərərli olmasına inandığı bəzi işləri görüb. Ramazan ayından sonra məlum olub ki, o işlərin oruca ziyanı yox imiş. Bu adamın orucunun hökmü necə olmalıdır?

Cavab: Əgər orucunu batil etmək fikri olmayıbsa və doğurdan da, orucu batil edən bir iş görməyibsə, onda orucu düzgündür.

## Orucun kəffarəsi və onun miqdarı

---

Sual: **810**. Fəqirə bir müdd yeməyin pulunu vermək olarmı ki, onu özü alsın?

Cavab: Əgər xatircəmlik olsa ki, fəqir bu pulla sizin əvəzinizdə yemək alacaq və onu kəffarə adı ilə götürəcək, onda eybi yoxdur.

---

Sual: **811**. Bir dəstə fəqiri yedizdirmək üçün vəkil olan adam ona verilən kəffarə pulundan bişirmək və zəhmət haqqını götürə bilərmi?

Cavab: O adama zəhmət haqqı almağa icazə verilir, lakin o pulu kəffarədən hesablaya bilməz.

---

Sual: **812**. Hamilə və doğuş vaxtı yaxınlaşan bir qadın oruc tuta bilməzsə və bu orucların qəzasının növbəti ilin ramazan ayına qədər vacib olmasını bildiyi halda yerinə yetirməzsə və bu işi bilərəkdən, yaxud çarəsizlikdən bir neçə il gecikdirsə, onda ona təkcə həmin ilin kəffarəsi vacib olar, yoxsa gecikdirdiyi bütün illərin? Yeri gəlmişkən, bu işin bilərəkdən, ya çarəsizlikdən edilməsi də ayırd edilsin.

Cavab: Əgər qəzanı gecikdirməyi neçə illər olsa da, kəffarə bir dəfə vacibdir və o da hər günə bir müdd yemək verməkdir. Kəffarənin də verilməsi o vaxt vacib olar ki, qəzanın növbəti ramazan ayına qədər gecikdirilməsi səhlənkarlıqdan və şəri üzürsüzlükdən olsun, amma orucun düzgünlüyü üçün şəri cəhətdən maneçilik olsa, onda ona kəffarə vacib deyildir.

---

Sual: **813**. Bir qadın xəstə oluğu üçün oruc tuta bilməyib və növbəti ilin ramazan ayına qədər qəzasını da yerinə yetirməyib. Bu halda kəffarə ona vacibdir, yoxsa ərinə?

Cavab: Sualda qeyd olunan şəraitdə hər günə bir müdd yemək kəffarə vermək ərinə deyil, özünə vacibdir.

---

Sual: **814**. Bir nəfərin boynunda on günün qəza orucu var. O, şəban ayının iyirmisi bu orucları tutmağa başlayır. Belə olan surətdə mümkündürmü ki, o şəxs günortadan qabaq, yaxud sonra orucunu açsın? Əgər günortadan qabaq, yaxud sonra orucunu açsa, kəffarənin miqdarı nə qədərdir?

Cavab: Qeyd olunan şəraitdə ona orucu açmağa icazə verilmir. Əgər orucunu bilərəkdən açsa və bu iş günortadan qabaq olsa, onda ona kəffarə vacib deyildir, əgər günortadan sonra olsa, gərək kəffarə versin və bu da on fəqiri doyurmaqdır və əgər buna imkanı olmasa, onda gərək üç gün oruc tutsun.

---

Sual: **815**. Bir qadın ardıcıl olaraq iki il ərzində iki dəfə hamilə olub və bu illərin heç birində oruc tuta bilməyib. İndi isə artıq oruc tutmağa imkanı var. Bu qadının hökmü necədir? Buna kəffareyi-cəm vacibdir, yoxsa təkcə qəza kifayət edər? Bu orucu gecikdirməyin hökmü necədir?

Cavab: Əgər onun orucu tutmaması şəri cəhətdən üzrlü olsa, təkcə qəza kifayət edər. Amma orucunu yeməsinin səbəbi hamiləliyinə və ya uşağına zərər qorxusundan olsa, onda qəzadan başqa hər günə bir müdd yemək kəffarə verər. Əgər

ramazan ayının orucunun qəzasını gələn ilin ramazan ayına qədər gecikdirsə və bu təxir şəri cəhətdən üzrsüz olsa, onda hər günə bir müdd yemək fəqirə kəffarə verər.

---

Sual: **816**. Orucun kəffarəsində qəza ilə kəffarə arasında tərtib lazımdır, yoxsa yox?

Cavab: Vacib deyildir.

## Orucun qəzası

---

Sual: **817**. Mənim boynumda mühüm bir dini səfərə görə on səkkiz gün ramazan ayının orucunun qəzası var. Mənim vəzifəm nədir, o günlərin qəzasını tutmaq vacibdirmi?

Cavab: Səfərə görə tuta bilmədiyiniz bütün orucların qəzası vacibdir.

---

Sual: **818**. Əgər muzdla başqasının ramazan ayı orucunun qəzasını tutan şəxs günortadan sonra orucu açsa, ona kəffarə vacib olarmı?

Cavab: Ona kəffarə yoxdur.

---

Sual: **819**. Ramazan ayında mühüm dini səfərlərə görə oruc tuta bilməyən şəxslər, hal-hazırda, üstündən neçə il keçdikdən sonra onların qəzasını tutmaq istəsələr, onlara kəffarə də vacibdirmi?

Cavab: Əgər onların bu orucların qəzasını gələn ramazana qədər gecikdirmələri bu işə mane olan üzrün davam etməsindən irəli gəlsə, onda keçən orucların qəzasını tutmaq kifayət edər və hər günə bir müdd yemək kəffarə vermək vacib deyildir, baxmayaraq ki, ehtiyat müstəhəb onları cəm etməkdir. Amma bu gecikdirmək səhlənkarlıq və üzrsüzlükdən irəli gəlsə, onda həm qəza və həm də kəffarə vacibdir.

---

Sual: **820**. Bir nəfər nadanlıq üzündən 10 il nə namaz qılıb və nə də oruc tutub. Sonra tövbə edib, Allahın yoluna qayıdıb və qəzaya verdiyi əməlləri yerinə yetirmək istəyir. Lakin qəzaya verdiyi orucların qəzasını tuta bilmir və kəffarəni də verməyə maddi imkanı yoxdur. Bu adam təkcə tövbə-əstəğfirullah etməklə kifayətlənə bilərmi?

Cavab: Heç bir halda qəza orucları onun boynundan götürülmür. Kəffarəyə gəldikdə isə, əgər hər günün müqabilində 60 gün oruc tuta bilməsə və 60 fəqirə yemək yedizdirə bilməsə, onda vacibdir ki, fəqirlərə imkanı olan qədər sədəqə versin.

---

Sual: **821**. Əgər bir nəfər ramazan ayı orucunun qəzasının növbəti ilin ramazan ayına qədər vacib olmasını bilməsə və bu bilməməzlik ucbatından onları tutmasa, onda bu şəxsin hökmü necə olar?

Cavab: Nadanlıqdan qəzanı gələn ramazana qədər gecikdirməklə kəffarə boynundan götürülməz.

---

Sual: **822**. Bir nəfər 120 gün oruc tutmayıb. Bu adam necə əməl etməlidir? Hər günə 60 gün oruc tutmalıdır, yoxsa yox? Bu şəxsə kəffarə də vacibdirmi?

Cavab: Ramazan ayında tutmadığı bütün orucların qəzası vacibdir. Bu orucları bilərəkdən və şəri cəhətdən üzrsüz olaraq yeyibsə, onda orucların qəzasından əlavə, kəffarə də vacibdir. Kəffarə də ya 60 gün oruc tutmaq, ya 60 fəqirə yemək yedizdirmək və, yaxud da 60 fəqirə, hərəsinə 1 müdd olmaqla 60 müdd yemək verməkdən ibarətdir.

---

Sual: **823**. Təqribən bir ay oruc tutmuşam və belə niyyət etmişəm ki, əgər boynumda qəza olsa, onda bu oruclar qəza hesab olunsun və əgər qəza olmasa, "Qürbətən iləllah" niyyəti ilə tuturam. Tutduğum bu bir ay boynumda olan qəza oruclarından hesab olunarmı?

Cavab: Əgər bu orucları hal-hazırda sənə əmr olunmuş qəza və ya müstəhəb niyyəti ilə yerinə yetirmişsənsə və boynunda qəza orucları vardırsa, onda bunlar qəza hesab olunar.

---

Sual: **824**. Boynunda qəza orucları olduğu halda onun miqdarını bilməyən şəxs müstəhəbb oruc tutarsa, bu oruclar onun üçün qəza hesab olunarmı, halbuki bu şəxs onun boynunda qəza oruclarının olmamasına etiqadı var?

Cavab: Müstəhəbb niyyəti ilə tutduğu oruclar boynunda olan qəza oruclarından hesab olunmaz.

---

Sual: **825**. Nadanlıqdan, susuzluqdan və aclıqdan bilə-bilə orucunu açan şəxsin hökmü nədir? O şəxsə təkcə qəza kifayət edər, yoxsa kəffarə də vacibdir?

Cavab: Əgər bu adam "cahili-müqəssir" olsa, onda ona ehtiyata görə qəzadan başqa kəffarə də vacib olar.

---

Sual: **826**. Fiziki cəhətdən zəiflik və qüvvəsizlik ucbatından həddi-büluğa çatdığı ilk illərdə oruc tutmayan şəxslərə təkcə qəza vacibdir, yoxsa bundan əlavə kəffarə də verməlidir?

Cavab: Əgər oruc tutmaq onun üçün müşkül deyilmişsə və bilərəkdən orucunu açıbsa, onda ona qəzadan əlavə, kəffarə də vacibdir.

---

Sual: **827**. Yerinə yetirmədiyi oruc-namazların sayını bilməyən adam nə etməlidir? Yaxud da yediyi orucların şəri cəhətdən üzrlü və ya üzrsüz olmasını bilməyən şəxsin hökmü nədir?

Cavab: Qəzaya verdiyi oruc-namazlarını miqdarını dəqiq bildiyi qədər yerinə yetirsə, kifayət edər və bilərəkdən orucunu yeməkdə şəkk edərsə, kəffarə vacib olmaz.

---

Sual: **828**. Ramazan ayında bir nəfər obaşdanlıq (sübh azanından qabaq yemək) yemədən oruc tutur və buna görə də axşam azanına qədər oruc halında qala bilmir və ona hadisə baş verən halda orucunu açır. Bu adama bir kəffarə vacibdir, yoxsa kəffareyi-cəm?

Cavab: Əgər bu adam aclıq, susuzluq və başqa şeylərdən yaranan dözümsüzlüyə qədər oruc halında qalıbsa, onda ona təkcə qəza vacibdir və kəffarə lazım deyildir.

---

Sual: **829**. Əgər mən boynumda olan qəzaları yerinə yetirib-yetirməməkdə şəkk etsəm, vərzifəm nədir?

Cavab: Əgər əvvəldən boynunuzda qəzanın olmasına yəqinliyiniz olubsa, onda vacibdir ki, onların boynunuzdan götürülməsi üçün də yəqinlik hasil edəsiniz.

---

Sual: **830**. Həddi-büluğa yetəndə oruc tutmayan, daha doğrusu 11 gün tutduqdan sonra, o biri gün günorta vaxtı orucunu açan və qalan 18 günü heç tutmayan şəxsin hökmü -həmin 18 günə kəffarə vacib olacağını bilmədiyi halda- necə olmalıdır?

Cavab: Əgər ramazan ayında onun orucunu açmağı bilərəkdən və öz ixtiyarı ilə olubsa, onda ona vacibdir ki, qəzadan əlavə, kəffarə də versin və bu işdə onun kəffarənin vacib olmasını bilib-bilməməsinin fərqi yoxdur.

---

Sual: **831**. Əgər həkim xəstəyə, ona oruc tutmağın zərərli olduğunu desə və o da oruc tutmasa, lakin o, bir neçə ildən sonra bilsə ki, oruc tutmaq ona zərərli deyilmiş və həkim ona orucu tutmamaq məsləhətini verməkdə səhv edib. Bu şəxsə qəza və kəffarə vacibdirmi?

Cavab: Əgər o şəxs mütəxəssis və inanılmış bir həkimin sözü ilə və ya ağıl qəbul edəsi bir işdən doğan zərərin qorxusu ilə oruc tutmayıbsa, onda o şəxsə təkcə qəza vacibdir.

## Oruca aid olan müxtəlif məsələlər

---

Sual: **832**. Müəyyən olunmuş nəzir orucunu tutan qadın heyz olsa, hökmü necə olar?

Cavab: Heyz görməklə orucu batil olar və pak olduqdan sonra qəzasını tutmaq vacibdir.

---

Sual: **833**. Dəyyir limanında yaşayan bir nəfər ramazan ayının əvvəlindən iyirmi yeddisinə qədər oruc tutur və iyirmi səkkizinci gün səhər çağı Dubaya səfər edib, iyirmi doqquzuncu gün oraya çatır. Həmin gün orada ramazan ayının qurtarması ilə bayramın olması elan olunur. İndi isə həmin şəxs vətəninə qayıdır. O adama qəzaya gedən orucun qəzası vacibdirmi? Əgər bir gün qəza tutsa, onda ramazan ayı bu şəxs üçün 28 gün olar və əgər 2 gün qəza tutsa, onda onun bir günü bayram elan olunan 29 günə aid olacaq. Bu adamın hökmü nədir?

Cavab: Əgər o yerdə bayram şəriət qaydasına uyğun şəkildə elan olunubsa və 29-cu günə təsadüf edibsə, onda həmin günün qəzası vacib deyildir, lakin buradan məlum olar ki, ramazan ayının əvvəlindən bir gün tutulmayıb, ona görə də yəqin olunduğu halda həmin günün qəzasını tutmaq vacib olar.

---

Sual: **834**. Əgər bir nəfər oruc tutan bir ölkədə axşam azanından sonra orucunu açıb başqa ölkəyə səfər etsə və orada hələ axşam azanının olmamasını görsə, onda onun hökmü necə olar?

Cavab: Əgər bu adam bir ölkədə axşam azanından sonra orucunu açıbsa, onda səfər etdiyi ölkədə də axşam azanından qabaq yemək yeyə bilər və orucu da düzgündür.

---

Sual: **835**. Bir nəfər şəhid dostlarından birinə ehtiyat üçün ona qəza orucları tutmağı vəsiyyət edib. Şəhidin vərəsələri belə şeylərə əhəmiyyət vermirlər və bu işi onlara demək mümkün də deyildir. Eyni zamanda bu orucları tutmaq o dost üçün də çox çətindir. Bunu başqa cür həll etmək olarmı?

Cavab: Əgər şəhid oruc tutmağı dostuna vəsiyyət edibsə, onda onun ailəsi bu işə öhdədar deyil və bu iş əgər onun özü üçün də müşkül olsa, onda onun da boynundan götürülər.

Sual: **836**. Mən çox şəkk eləyən bir adamam, daha doğrusu vasvasıyam. Dini məsələlərdə, xüsusilə firuuddin məsələlərində daha çox şəkk edirəm. Məsələn, o yerlərdən biri keçən ramazan ayında ağzıma qalın tozun daxil olmasında və onu udub-udmamağımda, yaxud da ağzıma aldığım suyu qaytarıb bayıra töküb-tökməməkdə idi. Orucum düzgündür, yoxsa yox?

Cavab: Sualda qeyd olunan şəraitdə orucunuz düzgündür və belə şəklərə etina yoxdur.

---

Sual: **837**. Həzrət Fatimeyi Zəhradan (s.ə) nəql olunmuş mübarək "Kisa" hədisi mötəbər hədisdirmi və oruc halında onu o həzrət haqqında nəql etmək mümkündürmü?

Cavab: Əgər bu danışıq o hədis varid olan kitablardan nəql və hekayət olunması yolu ilə olsa, eybi yoxdur.

---

Sual: **838**. Bəzi alimlərdən və eləcə də başqa şəxslərdən eşitmişik ki, bir nəfəri müstəhəbb oruc tutduğu halda qonaq çağırsalar və ona yemək təklif etsələr, o adam dəvət və təklifi qəbul edib yemək yeyə bilər, orucu batil olmaz və savabı da yerində qalar. Xahiş edirik, bu barədə öz fikrinizi bildirəsiniz.

Cavab: Şəri cəhətdən müstəhəb orucda iftar üçün möminlərin dəvətini qəbul etmək yaxşı işdir. Oruc tutan şəxs mömin qardaşının dəvəti ilə yemək yesə, orucun batil olmasına baxmayaraq, onun savabından və əcrindən məhrum olmaz.

---

Sual: **839**. Ramazan ayının hər bir günü üçün xüsusi şəkildə dualar varid olub. İnsan bu duaların düzgünlüyündə şəkk etdiyi halda onları oxusa, onda onun hökmü necə olar?

Cavab: Bu duaların varid olması və lazımlığı ümidi ilə oxunsa, hər halda eybi yoxdur.

---

Sual: **840**. Bir nəfər oruc tutmaq istədiyi halda onu obaşdanlıq yeməyinə oyatmırlar və buna görə də sabahısı gün oruc tuta bilmir. Bunun günahı o şəxsin öz boynunadır, yoxsa onu oyatmayan adamın? Obaşdanlıq yemədən oruc tutan adamın orucu düzgündürmü?

Cavab: Orucu tutmağa aciz olan adamın yemək yeməsi günah deyildir, hətta obaşdanlıq yeməsə də. Bu işdə başqalarına da heç bir günah yoxdur. Obaşdanlıq yemədən tutulan oruc da düzgündür.

---

Sual: **841**. Məscidül-Həramda etikaf günlərindən 3-cü günün oruc tutmağının hökmü nədir?

Cavab: Əgər o adam müsafir olarsa və Məkkeyi-Mükərrəmədə 10 gün qalmaq niyyəti edərsə, yaxud da səfərdə oruc tutmağı nəzir edərsə, onda etikafın 3-cü günündə oruc tutmaqla əməlin tamamlamaq vacibdir. Amma orada 10 gün qalmaq niyyətində deyilsə və səfərdə oruc tutmağı nəzir etməyibsə, onda səfərdə oruc tutmağı düzgün deyil və oruc düzgün olmasa, etikaf da düzgün olmaz.

## Ayı görmək

---

Sual: **842**. Bildiyimiz kimi ayın axırında (yaxud əvvəlində) ayın vəziyyəti aşağıdakı hallardan birində olur:

1) Ayın qürub etməsi gün batmazdan əvvəl olar;

2) Ayın qürub etməsi günortanın qürubu ilə birlikdə olar;

3) Ayın qürub etməsi günəşin qürubundan sonra olar. Xahiş edirik bəyan edəsiniz ki, əvvəla fiqhi baxımdan bu üç halın hansı birində ayın əvvəlinin müəyyənləşməsi mötəbərdir? İkincisi, əgər mötəbər qəbul olunsa, bu üç vəziyyət dünyanın uzaq nöqtələrində dəqiq elektron hesablayıcı proqramları ilə müəyyənləşir. Ayın əvvəlini müəyyənləşdirmək üçün bu hesablardan istifadə etmək olarmı, yoxsa ay hökmən gözlə görünməlidir?

Cavab: Ayın əvvəlini təyin etməkdə meyar olan gün batandan sonra görünən və həmçinin günəşin qürubundan əvvəl adi qaydada görülən aydır.

---

Sual: **843**. Əgər şəhərlərin birində şəvvalın ayı görünməsə, amma radio-televiziyada ayın görünməsi elan olunsa, onunla kifayətlənmək olarmı, yoxsa bu işdə tədqiqat aparmaq lazımdır?

Cavab: Əgər ayın görünməsi barədə xatircəmlik hasil olunsa və ya bu hökm vəliyyi-fəqih tərəfindən verilsə, onda kifayət edər və tədqiqata ehtiyac yoxdur.

---

Sual: **844**. Əgər ramazan ayının əvvəlini və fitr bayramını müəyyənləşdirmək havanın tutqunluğuna və ya başqa səbəblərə görə ayı görməklə mümkün olmasa, şəban və ramazan ayı günlərinin sayı 30-a çatmayıbsa, biz yaponiyalılar İran üfüqünə əməl edək, yoxsa təqvimə əsaslanaq? Bizim hökmümüz nədir?

Cavab: Əgər ayı görməklə ayın əvvəli məlum olmayıbsa, hətta bir üfüqün qonşuluğunda yerləşən şəhərlərin üfüqü ilə olsa da və ya iki nəfər ədalətli şahidin şəhadəti ilə olmaqla və yaxud da hakimin hökmü ilə məlum olmasa, onda ehtiyat vacib budur ki, ayın əvvəli yəqinləşdirilsin. Yaponiyalılar üçün (onun qərbində yerləşən) İranda ayın görünməsi mötəbər deyildir.

---

Sual: **845**. Üfüqlərdə müştərək olma ayın görünməsi üçün şərt hesab olunurmu?

Cavab: Üfüqlərdə müştərək və yaxın olan ölkələrdə və yaxud da onların şərqində yerləşən ölkələrdə ayın görünməsi kifayətdir.

---

Sual: **846**. Müştərək üfüqlər dedikdə, nə başa düşülür?

Cavab: Bir xətt boyunca yerləşən şəhərlər nəzərdə tutulur; Yəni, əgər şəhərlər uzunluq etibarı ilə bir xətt boyunca müştərəkdirlərsə (burada uzunluq astronomiya elminə aid olan termindir), onda bunlara "üfüqdə müştərəkdirlər" deyilir.

---

Sual: **847**. Əgər ayın 29-da bəzi şəhərlərdə (məsələn Tehran, Xorasan) fitr bayramı olsa, onda başqa şəhərlərdə (məsələn Buşehrdə) yaşayanlar oruclarını aça bilərlərmi? Onu da nəzərə almaq lazımdır ki, bu şəhərlərin (Tehran və Xorasan) üfüqü o şəhərlə (Buşehrlə) müştərək deyildir.

Cavab: Əgər bu şəhərlərin üfüqləri bir-birləri ilə o qədər müxtəlif olsa ki, bunların birində ayın görünməsi ilə digərində də görünmək fərzi mümkün olmaz, onda şərqdə yerləşən şəhərlər üçün (hansı ki, günəş orada qərb şəhərlərinə nisbətən tez qürub edir) qərb şəhərlərində ayın görünməsi kifayət etməz.

---

Sual: **848**. Əgər bir şəhərdə alimlər arasında ayın görünüb-görünməməsi barədə ixtilaf olsa və o alimlərin hamısının ədalətli olması mükəlləf üçün sübut olunsa, bu mübahisədə onların hər birinə dəqiq şəkildə xatircəmlik olduğu halda mükəlləfin üzərinə düşən vacib iş nədir?

Cavab: Əgər ixtilaf mənfi ilə müsbətin sübut olunmasında olsa, (yəni bəziləri ayın görünməsini və bəziləri isə görünməməsini iddia etsələr) onda bu sübutların toqquşması olar və mükəlləfin vəzifəsi budur ki, bu iki nəzəri tərk etsin və əslin[5250] tələb etdiyi şeyi qəbul etsin. Lakin əgər ixtilaf müsbət və müsbətə dair məlumatın olmamasında baş versə (yəni bəziləri iddia etsələr ki, biz ayı gördük və digərləri desələr ki, biz ayı görməmişik), onda əgər mükəlləf üçün iki ədalətli şahidin sözü dəlil hesab olunsa, gərək "ayı gördük" deyənlərin sözünü vacib şəkildə qəbul etsin. Eləcə də əgər şəriət hakimi ayın görünməsi barədə hökm etsə, onun sözü bütün mükəlləflər üçün dəlil hesab olunar və ona tabe olmaq vacibdir.

---

Sual: **849**. Əgər bir nəfər ayı görsə və bilsə ki, şəriət hakimi öz şəhərində müəyyən səbəblərə görə ayı görə bilməyəcək, o mükəlləf ayı görməsini hakimə bildirməlidir, yoxsa yox?

Cavab: Əgər onu deməməklə fəsad törənməzsə, vacib deyildir.

---

Sual: **850**. Bildiyiniz kimi, fazil fəqihlərin çoxu öz əməliyyə risalələrində şəvval ayının əvvəlinin sübut olunması üçün beş yol müəyyənləşdiriblər. Amma, onların içərisində bu işin şəriət hakimi üçün sübut olunması yoxdur. Əgər belədirsə, onda möminlərin çoxu təkcə böyük mərceyi-təqlidlər üçün ayın əvvəlinin sübut olunması ilə oruclarını necə açarlar? Bu yolla ayın görünməsi barədə xatircəm olmayan şəxslərin vəzifəsi nədir?

Cavab: Hakim ayın görünməsi barədə hökm verməyincə, ayın təkcə ona (o şəxsə) görünməsi başqalarının həmin şəxsə tabe olmasında kifayət etmir. Amma bu işdən insan üçün xatircəmlik hasil olsa, olar.

---

Sual: **851**. Müsəlmanların vəliyyi-əmri hökm versə ki, məsələn sabah bayramdır və eləcə də radio-televiziyada filan şəhərlərdə ayın görünməsini elan etsələr, bununla bütün ölkələrdə bayram olması sübut olunur, yoxsa təkcə elan olunan və onlarla müştərək üfüqləri olan şəhərlərdə?

Cavab: Əgər şəriət hakiminin hökmü bütün ölkələrə aid olsa, onda onun hökmü bütün ölkələrin şəhərlərində şəri cəhətdən etibarlıdır.

---

Sual: **852**. Ayın kiçilməsi, nazikləşməsi və birinci gecəyə məxsus olan xüsusiyyətlərə malik olması keçən gecənin ayın əvvəli yox, 30-cu gecə olmasını dəlil ola bilərmi? Həmçinin, bir nəfər fitr bayramından sonra, qeyd olunan şəkildə keçən günün bayram olmamasını yəqinləşdirsə, ramazan ayının 30-cu gününün qəzasını tutmalıdırmı?

Cavab: Təkcə ayın kiçilməsi və aşağıya gəlməsi, böyüməsi və yuxarıya qalxması, genişlənməsi və ya zəifləməsi şəri cəhətdən onun bir, yaxud iki gecəlik olmasına dair dəlil ola bilməz. Lakin bu yolla mükəlləf üçün elm hasil olsa, onda bu yerdə vacibdir ki, öz elminin tələbinə uyğun olaraq əməl etsin.

---

Sual: **853**. Ayın 14-də ayın tam dairə (bədr) şəklini almasına əsaslanmaq və onun günün hesablanmasında dəlil olmasına etibar etmək olarmı? Həmin günü ayın əvvəli hesab etmək vasitəsi ilə şübhəli gündə ramazan ayının 30-cu gününün olmasını aydınlaşdırmaq olar və bununla da o gündə oruc tutmayanlar üçün 30-cu günün qəzasının onlara vacib olması məlum olar və "İstishab "a[5251] görə oruc tutanların boynundan götürülər.

Cavab: Qeyd olunan şeylər deyilən məsələlər üçün şəri dəlil deyil, lakin müəyyən bir vasitə ilə mükəlləf üçün elm hasil olsa, onda ona uyğun şəkildə əməl etmək vacibdir.

---

Sual: **854**. Ayın əvvəlini görmək ehtiyat vacibdir, yoxsa vacibi-kifayi?

Cavab: Ayı görmək özü-özlüyündə şəri cəhətdən vacib deyildir.

---

Sual: **855**. Mübarək ramazan ayının əvvəl-axırının subut olunması, hətta şəban ayının 30-u tamam olmasa da, ayın görünməsi ilədir, yoxsa təqvimlə?

Cavab: Bu iş ya mükəlləfin öz görməsi ilə, ya iki nəfər adil kişinin şəhadəti ilə, ya yəqinlik doğuran ümumi xəbərlə, ya 30 günün qurtarması ilə, yaxud da şəriət hakiminin hökmü ilə sübut olunar.

---

Sual: **856**. Ayın görünməsində dövlət elan etdiyi xəbərlərə tabe olmağa icazə verilərsə və bu elan başqa ölkələrdə elmi meyarlarla ayın görünməsinin sübutu üçün müşkül olsa, o ölkənin İslam hökuməti olması şərt hesab olunurmu, yoxsa bu hökumət zalım hökumət olsa da belə, ona əməl etmək olar?

Cavab: Bu işdə meyar, o məntəqədə mükəlləf üçün kifayət qədər mötəbər sayılan ayın görünməsi ilə xatircəmlik hasil olunmasıdır.

# Xums

## Hibə, hədiyyə, mükafat, mehriyyə və irs

---

Sual: **857**. Hibə və bayram hədiyyələrinə xums düşürmü?

Cavab: Hibə və hədiyyəyə xums düşmür, əlbəttə ehtiyat müstəhəb budur ki, illik dolanışıqdan artıq qalanının xumsü verilsin.

---

Sual: **858**. Qərzül-həsənə müəssisələrinin və bankların səhmdarlara verdiyi mükafatlara xums düşürmü? Eləcə də insanın qohumlardan və dost-tanışlardan aldığı nəqdi hədiyyələrin vəziyyəti necə olmalıdır?

Cavab: Şübhəli olmayan hədiyyə və mükafatlarda xums vacib deyildir, amma onlar şübhəli olsa, xums vermək vacib olar.

---

Sual: **859**. "Şəhid təşkilatı"-nın şəhid ailələrinə verdiyi məbləğlərdə, onların illik dolanışığından artıq qalanına xums vacibdirmi?

Cavab: O təşkilatın əziz şəhid ailələrinə verdiyi hədiyyələrə xums düşmür.

---

Sual: **860**. Ata, qardaş və ya qohumlardan birinin verdiyi təminat xərcləri hədiyyə sayılırmı? Bu xərcləri verən adam malının xumsunu ayırmayıbsa, alan şəxsə onun xumsunu vermək vacibdirmi?

Cavab: Verilən xərclərin hibə, yaxud hədiyyə adı daşıması onu verənin niyyətindən asılıdır. Ona verilən şeyin üzərinə xums gəlməsini yəqin etməyincə, onun xumsunu vermək vacib deyildir.

---

Sual: **861**. Qızıma bir qədər məişət avadanlığı cehiz vermişəm. Bu cehizə xums düşür, yoxsa yox?

Cavab: Əgər verdiyin cehiz xalqın nəzərində sizin vəziyyətinizə uyğundursa, onda verdiyiniz məişət avadanlığına xums gəlməz.

Sual: **862**. İnsan malını, bir ili tamam olmamış öz həyat yoldaşına hədiyyə edə bilərmi? Özü də elə bir vaxtda ki, o adam yoldaşının bu malı gələcəkdə ev alması üçün ehtiyat saxlayacağını və ya lazım olan yerlərdə yardım edəcəyini bilir.

Cavab: Bu işə icazə verilir və öz yoldaşına hibə etdiyi şeylərə xums düşmür. Amma bu şərtlə ki, o, xalqın nəzərində öz vəziyyətinə uyğun və münasib olsun, həm də xumsdan boyun qaçırmaq niyyəti ilə də olmasın.

---

Sual: **863**. Kişi və arvad onların malına xums gəlməsin deyə, xums ili çatmamış illik qazanclarını bir-birlərinə hədiyyə edirlər. Xahiş olunur ki, bunların xumsunun hökmünü bəyan edəsiniz.

Cavab: Onların öz vəziyyətlərinə uyğun olan hədiyyədən başqa yerdə qalanında, belə hibə etməklə boyunlarından vacibi xums götürülməz.

---

Sual: **864**. Bir nəfər müstəhəbb həccə getmək üçün həcc idarəsinin fonduna müəyyən məbləğdə pul köçürüb və həcc ziyarətinə getməmiş vəfat edib. Bu fonda köçürülən məbləğin hökmü necə olmalıdır? O pulla naib tutub mərhumun əvəzindən həccə göndərmək vacibdirmi? Həmin pula xums düşürmü?

Cavab: O şəxsin həcc idarəsinin fonduna köçürdüyü məbləğin əvəzində verilən sənəd hal-hazırdakı dəyəri ilə onun mirasından sayılır. Əgər o şəxsin boynunda həcc yoxdursa, onda o məbləği mərhum üçün niyabəti həccdə sərf etmək vacib deyil. Eləcə də, əgər həcc səfəri üçün ayrılan məbləğ o idarəyə verilən zaman xumslu deyildirsə, onda onun xumsunu vermək vacib deyildir. Çünki o məbləğ buna görə mərhumun öz dolanışığına xərcləndiyi puldan hesab olunur.

---

Sual: **865**. Atanın bostanı hibə, yaxud irs yolu ilə oğluna çatıb və o zaman bostan çox da qiymətli hesab olunmurdu. Amma onun qiyməti (hal-hazırda satılan zaman) əvvəlki qiyməti ilə fərqlənir. Qiymətlərin qalxması nəticəsində, onun artan miqdarına xums düşürmü?

Cavab: İrsə, hibəyə və onlar satılan zaman pullarına, hətta qiymətləri artsa da xums düşmür.

---

Sual: **866**. Sığorta idarəsi mənə müəyyən məbləğdə pul borcludur. Müqaviləyə görə, bu yaxınlarda o pulu mənə qaytarmalıdırlar. Həmin məbləğə xums düşür, yoxsa yox?

Cavab: Sığorta və zəmanət puluna xums düşməz.

---

Sual: **867**. Aylıq əmək haqqı alan şəxs o pulları evlənmək üçün gələcəyə ehtiyat saxlasa, onlara xums düşərmi?

Cavab: Əgər aylıq əmək haqqından alınan pulların özünü ehtiyat saxlasa, onda ona ilin başında xums gələr, hətta gələcəkdə evlənən zaman cehiz almaq üçün olsa da.

---

Sual: **868**. “Təhrirül-vəsilə” kitabında yazılıb ki, qadının mehriyyəsinə xums düşmür. Lakin orada qeyd olunmayıb ki, bu “təcili” üçündür, yoxsa müəyyən müddət üçün. Xahiş edirik bunu bizə izah edəsiniz.

Cavab: Mehriyyənin təcili olması ilə müəyyən müddətdə olmasının və eləcə də pulla malın arasında heç bir fərq yoxdur.

---

Sual: **869**. Hökumət, bayram günlərində işçilərə bayramlıq adı ilə əmtəə verir. Bəzi vaxtlar da bu malların bir miqdarı xums ilinin əvvəlinə qədər qalır. İşçilərə verilən bayram hədiyyəsinə xumsun düşməməsini nəzərə almaqla, (qeyd edək ki, biz də bu əmtəələrin əvəzində müəyyən məbləğ veririk, yəni, bunlar tamamilə hədiyyə deyillər və biz onların pulunu ucuz qiymətdən veririk) verdiyimiz pulun xumsunu verək, yoxsa onların azad bazarda olan qiymətini hesablayıb tam xumsunu verək və yaxud da bayramlıq olduğu üçün ona xums düşməz?

Cavab: Qeyd olunan şəraitdə, sizə vacibdir ki, qalan malların özünün, yaxud da hazırkı qiymətinin xumsunu verəsiniz.

---

Sual: **870**. Vəfat etmiş bir şəxs, vəfatından qabaq öz dəftərində boynunda xumsu olmasını və onu vermək niyyətində olmasını yazıb. İndi isə onun qızlarından biri istisna olmaqla, qalan bütün ailə üzvləri onu verməkdən imtina edirlər və mərhumun mirasından özləri üçün, mərhumun (hüzrünə) xərcləmək və eləcə də başqa şeylərə işlədirlər. Xahiş olunur, aşağıdakı məsələlər barəsində fikrinizi bildirəsiniz:

1) Kürəkənə və ya başqa vərəsələrin birinə mərhumun malından, istər mənqul (daşınan əmlak) olsun, istərsə də qeyri-mənqul (daşınmaz əmlak) istifadə etməyin hökmü nədir?

2) Kürəkən və ya başqa vərəsələrin biri üçün mərhumun evində yemək yeməyin hökmü nədir?

3) Qeyd olunan şəxslərin artıq orada yedikləri yeməklərin və istifadə etdikləri əmlakın hökmü nədir?

Cavab: Əgər mərhum mirasından xums adı ilə müəyyən məbləğin verilməsini vəsiyyət edibsə, yaxud vərəsinin özü üçün mərhumun müəyyən məbləğdə xums borcu olması yəqinləşibsə, onda vərəsə mərhumun vəsiyyətini yerinə yetirməyincə, yaxud da ona vacib olan xumsu verməyincə mirasdan istifadə edə bilməz. Mərhumun vəsiyyətinə əməl olumamış, yaxud borcunu qaytarmamış onun malından istifadə etmək vəsiyyət və ya borc qədər qəsb etmək hesab olunur. Onlar bu vaxta qədər istifadə etdiyi şeylərə zamindirlər.

## Borc, aylıq maaş, zəmanət, təminat və təqaüd

---

Sual: **871**. Məndə bir miqdar xumsu vacib olan illik əmək haqqımın qazancı var. Hal-hazırda üzərimdə müəyyən məbləğdə borc da vardır. Sualım budur ki, mən borcum qədəri illik qazancımdan ayıra bilərəm, yoxsa yox? Onu da nəzərə alın ki, mən şəxsi maşın aldığım üçün borca düşmüşəm.

Cavab: Maşın almaq üçün etdiyiniz borc illik əmək haqqı qazancından istisna olunmaz.

---

Sual: **872**. İşçilərin illik dolanışığından artıq qalanına xums vacibdirmi? Onu da nəzərə alın ki, onların nəqd və kredit borcları vardır.

Cavab: Əgər onların borcu həmin il ərzində lazım olan dolanışıq və ya bəzi illik ehtiyaclarını ödəmək üçün edilən nisyədirsə, onda o, qazancın artığından istisna olunar; və əgər belə olmazsa, onda ona xums vacib olar.

---

Sual: **873**. Həcci-təməttö üçün olunan borca xums düşürmü ki, o, verildikdən sonra həccə gedilsin?

Cavab: Alınan borca xums vacib deyil.

---

Sual: **874**. Mən beş il ərzində evlər idarəsinə, yer alıb ev tikmək üçün müəyyən məbləğdə pul vermişəm, lakin bu vaxta qədər yerlər bölüşdürülməyib. Buna görə də qərara almışam ki, o məbləği evlər idarəsindən geri götürüm. Onu da qeyd etmək lazımdır ki, o pulun bir hissəsini borc almışam, bir hissəsini xalçamızı satmaqla əldə etmişəm. Qalanı da müəllimə işləyən yoldaşımın əmək haqqıdır. Buna görə də aşağıdakı iki Suala cavab verməyinizi xahiş edirik:

1) O pulları götürüb məskən təmin olunmasında xərcləsəm, onlara xums gələrmi?

2) Onlara gələn xumsun miqdarı nə qədər olar?

Cavab: Yoldaşınızın sizə hibə etdiyi pullara, həmçinin borc aldığınız məbləğə xums düşməz. Amma satdığınız xalçaya gəldikdə isə, əgər onları dolanışıq hesabına illik qazancınızdan almışdınızsa, onda ehtiyata görə Sualda qeyd olunan şəraitdə o pullara xums vermək vacibdir. Amma əgər o pullara (ev almaqda) ehtiyacınız olsa, belə ki, əgər o pulların xumsunu versəniz, onda qalan məbləğlə daha ehtiyacınız olan evi ala bilməyəcəksiniz, onda o pulların xumsunu vermək vacib deyildir.

---

Sual: **875**. Bir neçə il bundan əvvəl bankların birindən borc almışam və onu bir illiyə öz cari hesabıma qoymuşam. O borcları ödəyib qurtara bilməmişəm və kredit yolu ilə hər ay onların bir hissəsini qaytarıram. O borca xums düşərmi?

Cavab: Sualda yazılan şəraitdə götürülən borcun kredit yolu ilə, qazancınızdan ödədiyiniz miqdarına xums vacib deyil.

---

Sual: **876**. Mən xums ilinin əvvəlində öz mallarımın xumsunu hesabladım. Qalan pullar və ərzaq mallarının xumsu 810 tümən oldu. Onu da qeyd edim ki, yaşadığım bina üçün borcum var və bundan sonra da 12 il müddətində borclu qalacağam. Xahiş edirəm, mənim xums məsələmin həllini buyurasınız.

Cavab: Yaşayış binasının kredit borclarının və bu kimi şeylərin, illik qazancdan ödənilməsinə icazə verilir, lakin əgər onlar ödənməsə, o ilin qazancından istisna olunmaz və ilin axırına qədər qalan qazanclara xums vermək vacibdir.

---

Sual: **877**. Tələbə özünün gəliri olmadığı halda, atanın pulu ilə və ya universitetin verdiyi borcla aldığı kitablara xums vacibdirmi? Həmçinin, əgər məlum olsa ki, ata alınan kitablara xərc olunan pulun xumsunu verməyib, onda vacib olarmı?

Cavab: Borcla alınan kitablara, eləcə də atanın hibə etdiyi pulla alınan kitablara xums düşməz. Amma əgər o malların özünün xumsunun verilməməsi məlum olsa, onda vacibdir ki, onların xumsu verilsin.

---

Sual: **878**. Bir nəfər müəyyən məbləğdə pul borc alıb və onu il qurtarmamış qaytara bilmir. Borcu alana, yaxud verənə onun xumsunu vermək vacibdirmi?

Cavab: Borc alan adamın aldığı borca xums düşməz. Lakin borc verən adam onu, illik qazancının xumsunu verməzdən qabaq veribsə və onu ilin axırına qədər həmin şəxsdən ala biləcəksə, onda gərək hesab ili çatanda onun xumsünü versin və əgər ilin axırına qədər borcunu ala bilməzsə, onda hələlik onun xumsunu vermək vacib deyildir və borc ödənənə qədər gözləməli, aldıqdan sonra vacibi halda xumsunu verməlidir.

---

Sual: **879**. Təqaüd vaxtı çatan və müntəzəm olaraq təqaüd alan şəxslərə illik əmək haqlarının xumsunu vermək vacibdirmi?

Cavab: Əgər aldığı təqaüd onun qulluqçu və ya fəhlə işlədiyi zaman əmək haqqından tutulan pullardandırsa və sonradan təqaüd adı ilə ona qaytarılırsa, onda onun illik dolanışıqdan artığına xums vermək vacibdir.

---

Sual: **880**. Əsirlərin valideynlərinə, övladları əsirlikdə olan müddətdə İslam Cumhuriyyəti tərəfindən aylıq maaş verilir və onlar da bu məbləğləri banklarda saxlayırlar. O pullara xums düşürmü? Onu da bilmək lazımdır ki, əgər o əsirlər azad olsaydılar, bu pulları xərcləyəcəkdilər.

Cavab: Həmin pullara xums düşmür.

Sual: **881**. Mən bir qədər pul borcluyam. Əgər ilin başı gəlib çatsa və borc sahibi pulunu tələb etməzsə, həmçinin məndə də illik qazancımdan bir qədər artıq qalsa, (mən də borcumu qaytara bilərəm, amma borc sahibi istəmir) o borc illik qazancdan ayrılmalıdır, yoxsa yox?

Cavab: Nəqdi, yaxud da nisyə yolla məişət avadanlıqları almaqla edilən borc, əgər illik dolanışıq xərclərini təmin etmək üçün olsa, illik qazancdan ayrılmalıdır və həmin məbləğinə xums düşmür. Amma o borc illik dolanışıq xərclərini təmin etmək üçün olmasa, yaxud qabaqkı illərin borcu olsa, onda onu ödəmək üçün illik qazancdan götürülməsinə icazə verilməsinə baxmayaraq, ilin axırına qədər ödənməsə, o qazancdan ayırmaq olmaz.

---

Sual: **882**. Öz hesab ilinin axırına pulu və ya malı qalan, eyni zamanda borcu da olan adama xums vacibdirmi? Özü də bu adamın, borcunu bir neçə il müddətində ödəməyə fürsəti var.

Cavab: Borc qısa, yaxud uzun müddətli olmasından asılı olmayaraq, illik qazancdan ayrılmaz. Amma illik dolanışıq üçün edilən borclar belə deyildir və onlar illik qazancdan ayrılar və ümumi məbləğdən borcların dəyəri qədərinə xums düşməz.

---

Sual: **883**. Təminat idarələrinin verdiyi mallara xums gələrmi? Özü də müqaviləyə əsasən bu mallara xəsarət toxunarsa, əmanət götürən onun pulunu ödəməlidir.

Cavab: Təminat idarələrinin vətəndaşlara verdiyi mallara xums düşməz.

---

Sual: **884**. Keçən il müəyyən məbləğdə pul borc götürdüm və həmin pulla bir yer aldım ki, onu qiymətlər qalxdıqdan sonra satıb pulunu hal-hazırda yaşadığım evi satdıqdan sonra alacağım pulun üstünə qoyum və öz məskən problemimi həll edim. İndi isə mənim xumsumün hesab ili gəlib çatıb. Sualım budur ki, xumslü pulların içərisindən həmin borcumu ayıra bilərəmmi ki, ona xums verməyim?

Cavab: Aldığınız borc gələcəkdə satmaq məqsədi ilə alınan həyat üçün olubsa, onda onu illik qazancınızdan ayıra bilməzsiniz və illik dolanışığınızdan artıq qalan bütün qazanclar üçün xums vacibdir.

---

Sual: **885**. Bankdan müəyyən məbləğdə pul borc almışam. Onun ödənmə tarixi mənim xums ilimdən sonra qurtarır. Qorxuram ki, o borcu bu il ödəməsəm, gələn il də ödəyə bilməyəm. Mənim xums ilim başa çatan zaman xumsu vermək barəsində məsələm necədir?

Cavab: Əgər iliniz qurtarmamış illik qazancdan borcunuzu vermisinizsə və bu borc da sərmayənizi artırmaq üçün olmayıbsa, onda o pula xums düşmür. Amma əgər o borc sərmayəni artırmaq üçün olubsa və ya il qurtarmamış borcu qaytardıqdan sonra illik qazancı ehtiyat saxlamaq niyyəti ilə olubsa, onda vacibdir ki, xumsu verəsiniz.

## Ev, nəqliyyat vasitələri və torpaq al-veri

---

Sual: **886**. Əvvəllər xumssüz pulla tikilən evlərə xums düşürmü? Əgər xums düşürsə, onun pulu indiki qiymətlə hesablanmalıdır, yoxsa qədimki qiymətlə?

Cavab: Əgər ev yaşayış binası deyilsə və binanın tikinti materialları, eləcə də orada sərf olunan zəhmət haqları xumsu verilməmiş puldandırsa, onda onun xumsunu indiki qiymətlə hesablayıb verməlidirlər. Amma əgər onu borc və ya nisyə ilə tikib, sonradan o borcları xumssüz puldan ödəyiblərsə, onda yalnız o vaxtkı borcun xumsunu hesablayıb ödəməlidirlər.

Sual: **887**. Mən öz evimi, başqa ev almaq niyyəti ilə satdıqdan sonra puluma xums gəldiyini başa düşdüm. Hal-hazırda əgər bu pulun xumsunu versəm, daha ev ala bilməyəcəyəm. Onu da qeyd edim ki, evimi satmazdan əvvəl o evi döşəmək üçün xalça-palaz almağa ehtiyacım var idi. Bu məsələnin hökmü necədir?

Cavab: Əgər satılan evin pulu həmin il yaşamaq üçün ehtiyaclı olduğunuz evin alınmasına, yaxud dolanışığa sərf olunsa, onda onlara xums düşməz.

---

Sual: **888**. Bir müddət bundan əvvəl yaşadığım evi satdım və bu iş mənim xums ilimə eyni vaxta təsadüf etdi. Bir tərəfdən şəri haqqın verilməsini özümə vacib bilirəm, digər tərəfdən də yaşayışımla bağlı xüsusi şərait məni çətin vəziyyətdə qoyur. Xahiş edirəm, mənə bu məsələdə yol göstərəsiniz.

Cavab: Əgər satdığınız evi xumsu verilmiş pulla almışdınızsa, onda bu pula da xums düşmür. Həmçinin, o pulla həmin ildə yaşamaq üçün ehtiyaclı olduğunuz ev və ya məişət üçün zəruri olan avadanlıq alsanız, onda ona xums vermək lazım deyil.

---

Sual: **889**. Mənim şəhərlərin birində tikintisi yarımçıq qalan bir evim var, özüm də hökumət evində yaşadığım üçün ona ehtiyacım yoxdur. İstəyirəm o evi satıb onun pulu ilə istifadə etmək üçün şəxsi maşın alım. Onun puluna xums düşərmi?

Cavab: Əgər qeyd olunan evi illik qazancınızdan tikən, yaxud alan zaman orada dolanışıq və ya yaşamaq məqsədiniz olubsa, onda satılan zaman onun puluna xums düşməz, bu şərtlə ki, o pulu həmin il dolanışığa sərf edəsiniz və əgər belə olmasa, ehtiyata görə onun xumsunu vermək vacibdir.

---

Sual: **890**. Yaşadığım ev üçün bir neçə ədəd profilli qapı aldım, amma iki ildən sonra xoşuma gəlmədiyi üçün onları satdım. Həmin pulu aliminium qapı düzəltdirmək üçün aliminium şirkətinin hesabına köçürdüm. O pullara xums düşürmü?

Cavab: Sualda qeyd olunan şəraitdə, o pulları həmin ildə evə qapı almaq üçün sərf etmisinizsə, onda o pullara xums düşmür.

---

Sual: **891**. Həyətyanı sahə almaq üçün bir müəssisənin hesabına 100 min tümən pul köçürmüşəm. Artıq o məbləğin üstündən bir il keçir. Digər tərəfdən də o pulun bir hissəsi mənimdir, qalanını isə borc almışam. O borcun da bir miqdarını qaytarmışam. O pula xums düşürmü və əgər düşürsə, miqdarı nə qədər olmalıdır?

Cavab: Əgər yaşayış üçün ehtiyaclı olduğunuz səhənin alınması qabaqcadan pulunun verilməsinə bağlıdırsa, onda verdiyiniz məbləğə, hətta zəhmət haqqınızdan da olsa, xums vacib deyildir.

---

Sual: **892**. Əgər bir nəfər evini satıb pulunu da (qazancından istifadə etmək üçün) banka köçürsə və bir müddətdən sonra xums ili gəlib çatsa, onda bunun hökmü necə olmalıdır? Həmçinin, əgər ev almaq üçün ehtiyat saxlasa, necə olmalıdır?

Cavab: Əgər həmin ev tikilən və ya alınan zaman illik qazancdan və eyni zamanda dolanışıq və ya yaşamaq məqsədi ilə olubsa, bu halda əgər o pulu həmin xums ilində dolanışıq üçün sərf etsə, onda ona xums vacib deyildir və əgər belə olmasa, ehtiyata görə onun xumsunu vermək vacibdir.

---

Sual: **893**. 1) Ev üçün verilən “rəhn” [5252] puluna xums düşürmü? 2) Ev, yaxud maşın almaq üçün tədricən toplanıb ehtiyat saxlanılan pula xums düşürmü?

Cavab: Məişət ehtiyacları üçün ehtiyat saxlanılan pullar, qazancdan olarsa və üstündən bir xums ili keçərsə, onda ona xums gələr. Amma illik qazancından olan pulu ev sahibinə borc versə, onda onu geri alana qədər xums vacib deyildir.

---

Sual: **894**. Bir nəfər illik qazancından xüsusi maşın almışdı və onu bir neçə ildən sonra, xums ili ərəfəsində satdı. O pulun bir hissəsini bu maşını satmazdan qabaq maşının borcuna qaytardı, bir hissəsini qabaqkı illərin gəlir vergisini ödəmək üçün banka və qalanını da işlətmək üçün öz hesabına köçürdü. Belə olan surətdə:

1) Maşının satılmasından əldə edilən pulun hamısına xums düşürmü?

2) Hazırkı maşına verdiyi borcu ondan ayırmalıdırmı?

3) Maşın və kreditin borcları tamamilə və ya ən azı həmin ilin kredit borcları çıxarılıb, qalanına xums verilməlidirmi?

Cavab: Satılan maşının pulundan həmin xums ilində borcların ödənməsi kimi dolanışıq işlərinə sərf olunanlara xums yoxdur. Amma, ehtiyata görə, xums ili çatanda istifadə etmək üçün banka köçürdüyü pullara, yaxud gələcəkdə verməli olduğu gəlir vergisinə xums vermək vacibdir.

---

Sual: **895**. Bir neçə il bundan əvvəl maşın almışam və indi onu aldığımdan baha qiymətə sata bilərəm. Qeyd edim ki, onu xumsu verilməmiş puldan almışdım. Onu satdıqdan sonra onun pulu ilə yaşamaq üçün ev almaq istəyirəm. O pulların hamısına xums düşür, yoxsa maşını aldığım məbləğə? Qalanı, yəni maşının əvvəlki qiymətindən bahalandığı məbləğ, maşını satmaqla illik qazancdan hesab olunurmu ki, üstündən bir il keçdikdən sonra, dolanışığa sərf olunmazsa, üstünə xums gəlsin?

Cavab: Əgər maşın dolanışığınızdan sayılırsa və onu almaq üçün verdiyiniz pul həmin ildə keçinəcəyiniz hesab olunurdusa, onda satılan zaman onun puluna -əgər həmin xums ilində ehtiyaclı olduğunuz yaşayış yeri almaq kimi dolanışıq işlərinə xərcləsəniz- xums düşməz. Amma əgər belə olmazsa, onda ehtiyata görə vacibdir ki, xums ilinin axırında həmin pulun xumsunu verəsiniz. Amma əgər maşın işlətmək üçün olsa və onu nisyə, yaxud borc pulla alsanız, sonradan da həmin borcları qazancınızdan ödəsəniz, onda sizə təkcə borca xərc etdiyiniz pulların xumsunu vermək vacibdir. Həmçinin, əgər o maşını öz qazancınız ilə alıbsınızsa, onda sizə vacibdir ki, satış günü bütün pulların xumsunu verəsiniz.

---

Sual: **896**. Çox kiçik bir evim var idi və müəyyən səbəblərə görə başqa bir ev almaq qərarına gəldim. Amma borclarıma görə çarəsiz qalıb işlətdiyim maşını satdım və əmanət bankından, həmçinin şəhərimizdə olan qərzül-həsənə bankından evin pulunu vermək üçün müəyyən məbləğdə borc götürdüm. Onu da qeyd edim ki, maşını xums ili çatmamış satdım və ondan aldığım pulun bir hissəsini borclarıma verdim. Maşının satışından əldə edilən pula xums düşürmü?

Cavab: Sualda göstərilən halda maşının satışından əldə edilən pula xums düşmür.

---

Sual: **897**. İnsanın özünün və ya ailəsinin ehtiyacına görə illik qazancından alınan ev, maşın və başqa əşyaları zəruri halda satanda və ya ondan yaxşısı ilə dəyişdirəndə hökmü necə olar?

Cavab: Xums ilində dolanışıq üçün lazım olan şeyləri satmaqla əldə edilən puldan həmin şeylərdə sərf olunsa, ona xums vacib deyildir. Amma belə olmazsa, ehtiyata görə vacibdir ki, xums ili çatanda onun xumsunu versin. Amma əgər gələn ilin dolanışığında sərf etmək üçün saxladığı hissə ehtiyacını ödəməsə, ona xums vacib deyildir.

---

Sual: **898.** Bir nəfər dindar adam öz xüsusi maşınını və evini yaxşısı ilə dəyişdirmək üçün satıb. O şəxs evini və maşınını dəyişdirib, pulu da artıq qalıb. Onun xumsunun hökmü necədir?

Cavab: Əgər xums ilində dolanışıq hesab olunan şeylərdən satılmaqla əldə edilən pul, yenidən həmin şeylərə xərclənsə, onda ona xums vacib deyildir. Amma o pul onun əlində ilin axırına qədər qalsa, ehtiyata görə onun xumsunu vermək vacibdir. Lakin xums verildikdən sonra qalanı gələn ilin dolanışıq ehtiyacını ödəməsə, vacib deyildir.

Sual: **899**. Xumsu verilmiş puldan alınan ev, yaxud maşın satmaq və ticarət məqsədi ilə yox, istifadə etmək məqsədi ilə alınarsa və bundan sonra müəyyən səbəblərə görə satılarsa, onun azad bazarda artan qiymətinə xums düşərmi?

Cavab: Sualda göstərilən şəraitdə qiymətlərin qalxması ilə əlaqədar olaraq əldə edilən pula xums düşməz.

# Xəzinə, qənimət və harama qarışmış halal

Sual: **900**. Şəxslərin malik olduğu yerlərdə tapdığı xəzinə barəsində nəzəriniz necədir?

Cavab: Əgər tapılan şeyin ondan qabaqkı yer sahibinin olması ehtimalı verilməzsə, onda o, həmin şəxsə çatır və əgər onun miqdarı 20 dinar qızıla, yaxud 200 dinar gümüşə və ya ikisindən birinin digəri ilə qiymətinə çatarsa, xums verilməlidir. Bu o vaxt olar ki, ona bu xəzinəyə malik olmağı qadağan etməyələr, amma hökumət və ya başqaları ona malik olmağı qadağan etsə və onu həmin şəxsdən alsa, bu halda əgər tapdığı şeydən ona bir şey qalsa və o “nisab”[5253] həddində olsa, xums təkcə ona vacib olar. O şəxs əlindən məcburi şəkildə alınan miqdarın xumsunə zamin deyildir.

Sual: **901**. Bir nəfərin malik olduğu binada 100 il bundan qabaq basdırılmış gümüş pullar tapılsa, o pullar bu binanın sahibinə çatır, yoxsa onun qanuni varisinə?

Cavab: Bunun hökmü eyni ilə əvvəldə bəyan olunan xəzinənin hökmüdür.

Sual: **902**. Bizim bir qaranlıq məsələmiz vardır. O da, hazırkı vaxtda istismar olunan mədənlərə xumsun vacib olmasıdır. Çünki mədənlərə xumsun vacib olması böyük fəqihlərin nəzərində aşkar bir məsələdir və təkcə hökumətin onu ölkəyə və müsəlmanlara verməsi xumsun vacib olmasının qarşısını almır. Çünki istismar ya əsasən, hökumət tərəfindən olub və sonradan ondan istifadə etmək xalqın üzərinə düşür (Belə olan halda o mədəni istismar edib sonradan ələ gələn şeyləri başqasına hədiyyə, hibə və sədəqə verən şəxs kimidir. Bu da xums dəlillərinin ümumi olmasına qayıdır, çünki burada qeyd gətirilməsi üçün sübut yoxdur). Yaxud da, hökumət xalqın tərəfindən vəkil olmaqla mədənləri istismar edir və həqiqi istismarçı xalq özü olur. Bu da başqa vəkalətlər kimidir və burada xums müvəkkilə və, yaxud da vilayətlə xalqa vacibdir. Belə olan halda istismarçı ya sahibin özüdür, yaxud da naiblik kimidir, yəni sahibin təyin etdiyi (müvəlla əleyh) sahib həqiqi istismarçıdır. Hər halda mədənlərin ümumi şeylərdən istisna olunması barədə aşkar bir dəlil yoxdur və mədən özü-özlüyündə nisab həddinə çatsa, ona xums gəlməsi hibə olunan və xərclənən qazanc kimi deyildir ki, onlar illik dolanışıqdan hesab oluna və xumsdən istisna ola. Sizin bu mühüm məsələdə rəyiniz necədir?

Cavab: Mədənlərə xumsun vacib olmasının şərti, onun müəyyən bir şəxs və ya hər birinə nisab həddi düşməklə şəxslər tərəfindən müştərək şəkildə istismar olunması və istixrac olunan şeylərin onun özünə çatmasıdır. Amma hökumət tərəfindən istismar olunan mədənlər bir və ya bir neçə şəxsin xüsusi mülkü deyildir və burada xumsun vacib olma şərti yoxdur... Bununla yanaşı, dövlət və hökumət üçün xumsun vacibliyinə yer yoxdur və bu mədənlər üçün xumsun vacib olması istisna olunan bir məsələ deyildir. Əlbəttə, xüsusi şəxs və ya şəxslərin müştərək halda istismar etdiyi mədənlərdə onlara xums vacibdir, o da bu şərtlə ki, istismarçı bir nəfər olarsa, təklikdə onun özünə və əgər bir neçə nəfər olarsa hər birinə ayrı-ayrılıqda, istixrac və saflaşdırma xərclərini çıxdıqdan sonra nisab həddində ( yəni 20 və 200 dinarın özü və ya qiyməti) qalsın.

Sual: **903**. Əgər haram mal insanın mallarına qarışsa, onun hökmü necə olar və necə halala çıxar? Həmçinin, bu qarışan şeyin haramlığı yəqin olsa və ya olmasa, necədir və o şəxsə vacib olan vəzifə nədir?

Cavab: Əgər malların içərisində haram bir şeyin olması yəqin olsa, lakin dəqiq şəkildə onun miqdarını bilməsə və sahibini tanımasa, onda onun halala çıxmaq yolu xumsunun verilməsi ilədir. Amma əgər haram bir şeyin qarışmasında şəkk etsə, onda ona heç bir şey lazım deyildir.

Sual: **904**. Şəri il (xums ili) çatmamış bir nəfərə müəyyən məbləğdə pul borc verdim. Həmin adam da bu məbləğdən istifadə etməklə pul qazanıb mənimlə yarı bölmək niyyətindədir. Diqqətinizə çatdırım ki, həmin pul hal-hazırda mənim əlimdə deyil və mən onun xumsunu da verməmişəm. Bu barədə rəyiniz necədir?

Cavab: Əgər pulu borc vermisinizsə, onda sizə hələlik onun xumsunu vermək vacib deyildir və o pul sizin əlinizə gəlib çatdıqdan sonra xumsunu vermək vacib olar. Amma belə bir halda sizin borc verdiyiniz adamın qazancında haqqınız yoxdur və əgər ondan bir şey tələb etsəniz, o, sələm və haram olar. Lakin o pulu həmin şəxsə "müzaribə"[5254] sərmayəsi adı ilə versəniz, onda siz qazancda şərik olarsınız və sizə vacibdir ki, sərmayənin xumsunu verəsiniz.

---

Sual: **905**. Mən bank işçisiyəm və özüm bu işlərlə məşğul olduğum üçün banka 500 min tümən məbləğində pul köçürmüşəm (təbiidir ki, bu məbləğ mənim öz adıma, uzunmüddətli hesaba köçürülüb və hər ay onun qazancını alıram). Bu köçürülən məbləğə xums düşürmü? Onu da qeyd edim ki, bu məbləği dörd il bundan əvvəl köçürmüşəm.

Cavab: Əgər o məbləği hal-hazırda götürmək mümkün deyilsə, onda o sizin əlinizə gəlib çatana qədər xumsunu vermək vacib deyildir.

---

Sual: **906**. Banklara, istifadə edən şəxsin əlinə nəqdi yolla qaytarmamaq üsulu ilə, pulköçürmə üslubu vardır. Lakin o, hələlik bankda müəyyən miqdarda həmin şəxsin hesabında qeydə alınır. Bu mallara xums vacibdir, yoxsa yox?

Cavab: Əgər banklara köçürülən pul qazancdan olubsa və ilin axırında xumsunu vermək üçün ələ gətirmək mümkündürsə, onda ilin axırında həmin malın xumsunu vermək vacibdir.

---

Sual: **907**. Ev icarə edən adamın ev sahibinə "rəhn" (girov) adı ilə verdiyi pula xums vermək ev sahibinə vacibdir, yoxsa kirayəçiyə?

Cavab: Əgər o pul qazancdandırsa, onda qaytardıqdan sonra kirayəçiyə vacibdir ki, onun xumsunu versin və onu borc adı ilə alan ev sahibinə xums vermək vacib deyildir.

---

Sual: **908**. Hökumət tərəfindən bir neçə il gecikdirilən qulluqçu maaşları alınan zaman həmin ilin qazancından hesab olunurmu və o xums ilinin axırında xumsunu hesablamaq vacibdirmi, yoxsa belə mallara ümumiyyətlə xums düşmür?

Cavab: Elə maaşlar alınan ilin qazancından hesab olunur və o ilin dolanışığından artıq qalanına xums vacibdir.

## Məunə və ya insanın həyatda tələbati olduğu şeylər

---

Sual: **909**. Bir nəfərin şəxsi kitabxanası var və orada olan kitablardan müəyyən vaxtlarda istifadə edir. Onun üstündən illər keçir, lakin onlardan bir daha istifadə olunmur. Amma gələcəkdə istifadə olunması ehtimalı var. İstifadə olunmayan müddətdə o kitablara xums düşürmü? Həmçinin, xumsun vacib olmasında o kitabların özü və ya atası tərəfindən alınmasının fərqi vardırmı?

Cavab: Əgər o kitablara gələcəkdə müraciət etmək üçün ehtiyac olacaqsa və onlar xalqın nəzərində həmin adamın öz səviyyəsinə uyğundursa, onda onlara, bir müddət istifadə etməsə də belə, xums düşməz. Həmçinin, əgər o kitablar ona valideynlərindən və ya başqa adamlardan irs, yaxud hədiyyə yolu ilə çatıbsa, ona xums düşmür.

---

Sual: **910**. Ərin öz arvadı üçün aldığı qızıla xums düşürmü?

Cavab: Əgər onun öz vəziyyətinə münasib olan adi səviyyədədirsə, onda ona xums vermək lazım deyildir.

---

Sual: **911**. Kitab almaq üçün qabaqcadan dövlət kitab satış mərkəzlərinə verilən pula xums düşərmi? Hələlik bu vaxta qədər kitablar göndərilib qurtarmayıb.

Cavab: Əgər o kitablara ehtiyac vardırsa və xalqın nəzərində öz səviyyənizə uyğundursa, həmçinin onun təmin olunması qabaqcadan pulunun verilməsinə bağlı idisə, onda ona xums düşmür.

---

Sual: **912**. Bir nəfərin öz səviyyəsinə uyğun ikinci həyətyanı sahəsi vardır və ailə sahibi olduğu üçün ona ehtiyaclıdır. Xums ilinin ərzində orada ev tikə bilməyib və ya bir ilin içərisində tikib qurtara bilməyib. Ona xums vacibdirmi?

Cavab: Xumsun vacib olmamasında insanın ehtiyaclı olduğu yaşayış yerinin bir və ya bir neçə həyətyanı sahə və ev olmasının fərqi yoxdur. Bu işdə həmin ehtiyacın onun həyat səviyyəsinə uyğun olması və tədrici tikintiyə də maddi vəziyyətinin səbəb olması meyar hesab olunur.

---

Sual: **913**. Mənim bir neçə dəst qab-qacaq varımdır. Onların bəzisini işlətdikdə xumsun vacib olmamasına kifayət edərmi?

Cavab: Mənzil və ev avadanlıqlarına xumsun vacib olmamasının meyarı xalqın nəzərində onlara öz səviyyənizə uyğun ehtiyacınızın olmasıdır, hətta il ərzində ondan istifadə etməsəniz də.

---

Sual: **914**. Əgər bəzi qab-qacaq və döşənəcəklərin üstündən bir il keçsə də işlətməsəm, lakin həmin şeylərdən qonaqlar üçün istifadə etməkdə ehtiyacım olsa, onların xumsunu vermək vacibdirmi?

Cavab: Onların xumsunu vermək vacib deyildir.

---

Sual: **915**. Həzrət imam Xomeyninin (r.ə) risaləsində ailə qurarkən qızın ər evinə apardığı “gəlin cehizi” məsələsini nəzərə almaqla, əgər bəzi yerlərin adətinə görə bu şeylərin alınması (yəni evə lazım olan əşyalar və məişət avadanlıqlarının əldə edilməsi) oğlan evinin öhdəsinə olsa və onlar da həmin şeyləri tədricən alsalar və müəyyən müddətdən sonra o şeylərin alınmasının bir ili tamam olsa, onda bunun hökmü necə olar?

Cavab: Əgər həmin avadanlıqların təmin olunması gələcək üçün və eyni zamanda xalqın nəzərində dolanışıq üçün lazım olan şeylər hesab olunsa, həmçinin onların təmin olunması üçün tədrici toplamaqdan başqa bir yol da olmasa, onda ona xums düşməz.

---

Sual: **916.** Çox cilidli kitabların yalnız bir cildini oxumaqla o kitabların hamısının üzərindən xums götürülər, yoxsa cildlərin hər birindən bir neçə səhifə oxumaq lazımdır?

Cavab: Əgər o cildlərin hamısına ehtiyac varsa, yaxud o kitabların bütün cildləri hamısı birlikdə (nəinki ayrı-ayrı) satılırsa, onda ona xums yoxdur. Əgər belə olmazsa, onda hal-hazırda ehtiyac olmayan cildlərin xumsunu vermək vacibdir və təkcə o kitabların hər bir cildindən bir səhifə oxumaq xumsun düşməsi üçün kifayət etməz.

---

Sual: **917**. İlin ortasında qazancdan alınan dərmanlar (hansı ki, pulu sonradan səhiyyə-təminat idarələri tərəfindən ödənilir) xarab olmadan xums ilinin axırına qalsa, ona xums aid olar, yoxsa yox?

Cavab: Əgər onu ehtiyaclı olduğunuz üçün alıbsınızsa və həmin məqsədlə istifadə olunubsa, həmçinin, yenə də həmin məqsədlə saxlanılırsa, xums vacib deyildir.

---

Sual: **918**. Əgər yaşamaq üçün evi olmayan adam ev almaq məqsədi ilə müəyyən məbləğdə pulu ehtiyat saxlayarsa, həmin məbləğə xums vacib olarmı?

Cavab: İllik qazancdan ehtiyat məqsədi ilə saxlanan malın üstündən bir xums ili keçərsə, hətta gələcəkdə yaşayışını təmin etmək üçün olsa da, xumsunu vermək vacibdir.

---

Sual: **919**. Yoldaşım xalça toxumaqla məşğuldur və xalçanın maya dəyərinin malikiyyəti bizə aid olmalıdır, çünki biz bu məqsədlə müəyyən məbləğdə pul borc etmişik. Bu vaxta qədər bu xalçanın bir hissəsinin toxunuşu başa çatıb və bir tərəfdən də artıq xums ili qurtarıb. Xalçanın toxunuşu və satışı qurtardıqdan sonra bu vaxta qədər toxunan miqdara və eləcə də evin ehtiyaclarına xərcləyəcəyim pullara xums düşərmi? Bu xalçanın maya dəyərinin işi necə olmalıdır?

Cavab: Satılan xalçanın pulundan borc aldığınız sərmayəni çıxdıqdan sonra, qalanı satdığınız ilin qazancı hesab olunar. Həmin pullar toxunuş və satış qurtaran ildə dolanışıq xərclərinə sərf olunsa, ona xums düşməz.

---

Sual: **920**. Üç mərtəbəli bir evim var. Hər mərtəbədə də iki otaq var. Bu mərtəbələrin birində özüm, qalan ikisində isə övladlarım yaşayır. Bu evə və həyətə xums düşürmü? Mənim vəfatımdan sonra necə? (Vəfatımdan sonra düşəcəksə, vəsiyyət edim, məndən sonra onu yerinə yetirsinlər.)

Cavab: Sualda göstərilən şəraitdə, sizin evinizə xums düşmür.

---

Sual: **921**. Ev ləvazimatlarının xumsu necə hesablanır?

Cavab: Xalça və bu kimi özü saxlanılmaqla istifadə olunan avadanlıqlara xums yoxdur, amma düyü, zeytun və bu kimi gündəlik tələbat mallarına (ilin axırına qalanlarına) xums düşür.

---

Sual: **922**. Bir nəfərin bir qədər torpaq sahəsi var, amma orada yaşamaq üçün evi yoxdur. Torpaq sahəsini özünə ev tikmək üçün almışdır. Əlində kifayət qədər pul olmadığı üçün, orada nə ev tikə bilib, nə də ki, satıb. Ona xums vacibdirmi? Vacib olan təqdirdə, o yeri alarkən verdiyi pulun xumsunu versin, yoxsa indiki qiymətlə hesablasın?

Cavab: Əgər onu, alınan ildə ehtiyaclı olduğu evi təkmək üçün alıbsa, onda ona xums düşməz.

---

Sual: **923**. Yuxarıda qeyd olunan Sualda əgər ev tikilməyə başlansa və qurtarmamış üstündən bir xums ili keçsə, o binada işlədilən materiallara xums vacib olarmı?

Cavab: Sualda göstərilən şəraitdə xums vacib olmaz.

---

Sual: **924**. Özü birinci mərtəbədə yaşayan adam, hal-hazırda ehtiyacı olmadığı, lakin gələcəkdə oğlanlarının istifadəsi üçün ikinci mərtəbəni tikir. Bu mərtəbədə istifadə olunan tikinti materiallarına xums düşərmi?

Cavab: Əgər gələcəkdə övladlarının yaşaması üçün tikdiyi bu mərtəbə hal-hazırda xalqın nəzərində öz səviyyəsinə uyğun hesab olunsa, onda orada istifadə olunan materiallara xums düşməz.

---

Sual: **925**. Siz buyurursunuz ki, illik dolanışıqdan hesab olunan şeylərə xums vacib deyildir. Bəs necə olur ki, yaşamaq üçün evi olmayan, amma bir qədər torpaq sahəsi olan və üstündən bir il və ya çox keçməsinə baxmayaraq ev tikmək imkanı olmayan şəxsə o yer dolanışıq sayılır?

Cavab: Əgər torpaq sahəsi yaşayış üçün ehtiyaclı olduğu evi tikmək üçündürsə, onda o yer onun dolanışığından hesab olunur və ona xums vacib deyildir. Amma o yeri satıb onun pulunu yaşayış binasına xərcləmək istəsə, bu da bir növ qazancından olsa, onda onun xumsunu vermək vacibdir.

---

Sual: **926**. Xums ilimin əvvəli şəmsi ili ilə 6-cı ayın əvvəlidir və adətən, 2-ci 3-ci aylarda ali və orta məktəblərin imtahanları başlayır, üstündən 6 ay keçdikdən sonra imtahan günlərində çalışdığımız üçün əlavə zəhmət haqqı verilir. Xahiş edirəm izah edəsiniz ki, xums ilim qurarmamış qazandığım məvacibi il qurtardıqdan sonra alsam, ona xums düşərmi?

Cavab: Həmin pul, aldığınız ilin əmək haqqı hesab olunur və işlədiyiniz ildən sayılmır.

---

Sual: **927**. Bəzi vaxtlarda soyuducu və ya bu kimi ev əşyalarımızdan bəzisini bazar qiymətindən də ucuz satırıq. Bu əşyalar gələcəkdə, yəni ailə qurduqdan sonra bizə zəruri olacaq. Bu əşyaları gələcəkdə indiki qiymətindən də baha alacağımızı nəzərə almaqla, evdə qalan işlətmədiyimiz mallara xums gələrmi?

Cavab: Əgər onları gələcəkdə istifadə etmək məqsədi ilə illik qazancınızdan almısınızsa və aldığınız ildə ehtiyacınız olmayıbsa, onda onun ilin axırında, aldığı qiymətinə xums verilməlidir. Amma ehtiyac olan zaman birdəfəyə almaq imkanı olmadığı üçün tədricən alınıb gələcəyə ehtiyat saxlanılırsa və öz səviyyənizə uyğundursa, onda bu surətdə dolanışıq hesab olunar və xums də vermək vacib deyildir.

---

Sual: **928**. Xeyriyyə işlərində sərf olunan pullar, məsələn məktəblərə, seldən zərər çəkənlərə, Fələstin və Bosnya xalqlarına edilən köməklər illik xərclərdən sayılırmı? Məqsədim budur ki, biz əvvəlcə o pulların xumsunu verib sonra onu o hesablara köçürək, yoxsa onlara xums düşmür?

Cavab: Bu xeyriyyə işləri illik xərclərdən hesab olunur və xumsunu vermək lazım deyildir.

---

Sual: **929**. Keçən il döşənəcək almaq üçün bir qədər pul ehtiyat saxlamışdıq. İlin axırında bir neçə məhəllədə yerləşən xalça dükanlarına müraciət etdik, onların biri ilə bizim zövqümüzə uyğun olacaq münasib xalça hazırlamalarını danışdıq. Bu iş bu ilin ikinci ayına qədər uzandı. Bizim xums ilimizin hicri şəmsi ilinin əvvəli olmasını nəzərə almaqla, həmin məbləğə xums düşərmi?

Cavab: Xums ilinizin axırına qədər saxladığınız həmin məbləği ehtiyaclı olduğunuz xalçanı almağa sərf edib qurtarmasanız, gərək xumsunu verəsiniz.

---

Sual: **930**. Bir neçə nəfər məhəllə məktəbi tikməyə başladı. Təsis heyəti şəriklərin pulundan bir qədər istifadə etdikdən sonra banklardan başqa yardımlar etmək üçün borc pul götürdük. Təsis heyəti istifadə olunan məbləği təkmilləşdirmək və eləcə də bankların kredit borclarını ödəmək üçün hər bir üzvün müəyyən məbləğdə aylıq pul verməsini qərara aldı. Bu müəssisə bu vaxta qədər qazanc mərhələsinə çata bilməyib. Sualımız budur ki, şəriklərin verdiyi aylıq üzvlük haqqına, eləcə də müəssisənin ümumi dəyəri olan sərmayəyə xums düşürmü?

Cavab: Üzvlərin şirkətin sərmayəsində istifadə olunmaq üçün verdikləri aylıq pula, həmçinin məktəb tikintisində şərik olduqları hər bir hissəyə xums vermək vacibdir. Hər bir üzv şirkətin sərmayəsinə qoyduğu pulun xumsunu verdikdən sonra, qalan pula xums vermək vacib deyildir.

---

Sual: **931**. Bir neçə il bundan qabaq mənə borclu olan və hələ də borcumu qaytarmayan adamın işlədiyi yerdən alacağı pula, əlimə çatan kimi xums düşər, yoxsa vacibdir ki, üstündən bir il keçsin?

Cavab: Xums ilində o məbləğin əlinizə çatması mümkün olmayıbsa, onda o əlinizə çatan ilin qazancından hesab olunur; və əgər aldığınız ildə dolanışıq xərclərinə sərf olunsa, ona xums vermək lazım deyil.

---

Sual: **932**. İllik qazancdan dolanışıq xərclərinə xumsun düşməməsinin meyarı həmin ildə onlardan istifadə olunmasıdır, yoxsa il boyu təsadüfən istifadə olunması da ona ehtiyacın olmasıdır?

Cavab: Paltar, avadanlıq və bu kimi özü saxlanılmaqla istifadə olunan şeylərdə meyar, ona olan ehtiyacdır. Amma düyü, zeytun və bu kimi gündəlik tələbat mallarından isə onların işlədilməsi şərt hesab olunur və illik məsrəf olunanlardan artıq qalanına xums vermək vacibdir.

---

Sual: **933**. Bir nəfər ailənin rifahını yaxşılaşdırmaq və eləcə də başqa ehtiyaclarını təmin etmək üçün ilin orta ayında, xumsu verilməmiş puldan maşın alır. Həmin pulun xumsunu vermək vacibdir, yoxsa yox? Əgər bu maşını təkcə işlətmək və ya hər iki məqsəd üçün, yəni həm işlətmək və həm də öz ailə işlərində istifadə etmək üçün alıbsa, onda onun hökmü necə olar?

Cavab: Əgər maşını, iş və qazancla bağlı olan işlər üçün alıbsa, onda onun hökmü (xumsun vacib olmasında) qazanc alətləri kimidir. Amma əgər məişət ehtiyaclarını təmin etmək üçün olsa və onun ehtiyacları xalqın nəzərində öz səviyyəsinə uyğun olsa, onda ona xums vermək lazım deyildir.

## Xumsun alinıb-qaytarılmasi, müsalihə və başqa şeylə qarışması

---

Sual: **934**. Bəzi adamlar var ki, onlara vaxtı ilə xums vacib olduğu halda verməyiblər və hal-hazırda da ya onu verə bilmirlər, yaxud da onu ödəmək onlar üçün həddindən artıq çətindir. Onların hökmü necə olmalıdır?

Cavab: Vacibi xums sırf şəkildə ödəməyin çətin olduğuna görə insanın boynundan götürülməz. Hətta onlara vacibdir ki, imkan olan kimi onu ödəsinlər. Bu iş xums işlərinə öhdədar olan şəxsin və ya onun nümayəndəsinin alıb-qaytarması[5255] yolu ilə, bunların zaman və miqdar baxımından imkanları nəzərə alınmaqla (bir neçə dəfə alıb-verməklə olsa da) yerinə yetirilməlidir.

---

Sual: **935**. Mənim borcu kreditlə ödəməli olduğum yaşayış evim və pul qazanmaq üçün bir dükanım var. Şəri vəzifəmə əməl etmək üçün özümə xums ili ayırmışam. Xahiş edirəm, ailəmin yaşadığı həmin evin xumsunu mənə bağışlayasınız. Amma ticarət yerim olan həmin dükanın xumsunu tədricən, bir neçə dəfəyə ödəməyə imkanım vardır.

Cavab: Sualda qeyd olunan yaşadığınız evin xumsu yoxdur, amma ticarət yerinizin xumsunu vermək vacibdir, hətta bu iş bizim icazə verdiyimiz vəkillərin birinin alıb-qaytarması və sonra tədricən ödəməsi yolu ilə olsa da.

---

Sual: **936**. Xaricdə olan bir nəfər xums vermirdi. O, artıq xumsu verilməmiş puldan ev alıb və hal-hazırda boynunda olan vacibi xumsləri ödəmək üçün kifayət qədər pulu yoxdur. Lakin hər il o ilin xumsundən əlavə, boynunda olan borc xumslərdən də bir qədərini ödəyir. Onun bu verdikləri qəbul olunar, yoxsa yox?

Cavab: Sualda göstərilən şəraitdə o şəxsə vacibdir ki, xumsunu alıb-qaytarma yolu ilə versin və sonra onları tədricən ödəsin. O şəxsin bu vaxta qədər verdikləri də məqbul hesab olunur.

---

Sual: **937**. Bir nəfərə bir neçə illik qazancının xumsunu vermək vacib olub, lakin bu vaxta qədər xums adı ilə heç bir şey verməyib və vermədiyi vacibi xumslərin miqdarını da bilmir. İndi o adam həmin xumsləri boynundan necə götürə bilər?

Cavab: O şəxsə vacibdir ki, üzərinə xums gələn bütün malları hesablayıb xumsunu versin və şəkk etdiyi yerlərdə xums işlərinə rəhbərlik edən şəxs və ya onun vəkili ilə müsalihə (razılaşma) etmək kifayətdir.

---

Sual: **938**. Mən valideynlərimlə yaşayan bir cavanam. Atam xums zəkat vermir, hətta riba (sələm) pulları ilə ev tikib. Evimizdə yediyim yeməklərin haram olması mənim üçün aşkardır. Ailəmdən ayrılmağı bacarmadığımı nəzərə almaqla, xahiş edirəm, mənim bu mövzuda vəzifəmi müəyyənləşdirəsiniz.

Cavab: Atanızın malına sələm qarışmasının yəqin, yaxud onun boynunda olan vacibi xums-zəkatını verməməsinin məlum olması o demək deyildir ki, onun əmlakından işlətdiyiniz və ya istifadə edəcəyiniz malların haram olmasına dair yəqinlik hasil olub. Və sizin üçün haram olması yəqin olmayan şeylərdən istifadə etmək heç də haram deyildir. Bəli, istifadə etdiyiniz şeylərin haram olması sizə yəqin olsa, onda ona icazə verilmir. Amma, ailənizdən ayrılmaq və onlarla birgə yaşayışı tərk etmək sizə çətin olsa, onda bu halda o mallardan istifadə etməyinizə icazə verilir. Amma istifadə etdiyiniz mallarda xums-zəkata və başqasının malına zaminsiniz.

---

Sual: **939**. Mən dəqiq bilirəm ki, atam xums-zəkat vermir. Bu məsələni ona deyəndə cavab verdi ki, bizim özümüzə xums düşür və buna görə də bizə xums-zəkat vermək vacib deyildir. Bu məsələnin hökmü necədir?

Cavab: Əgər onun xums-zəkat vacib olan malı yoxdursa, onda ona xums-zəkat vermək, sizə də bu məsələdə də axtarış aparmaq vacib deyildir.

---

Sual: **940**. Biz bəzi şəxslərlə işləyirik, onlar xums vermirlər və illik hesabları da yoxdur. Biz onlarla al-ver edirik, işləyirik, görüşürük və bir yerdə çörək yeyirik. Bu məsələnin hökmü necədir?

Cavab: Onlardan al-ver yolu ilə aldığınız, yaxud onların yanına gələrkən istifadə etdiyiniz mallarda xumsun olmasını yəqin etsəniz, onda sizə onlardan istifadə etməyə icazə verilmir və götürdüyünüz malların xums vacib olan miqdarında al-ver etmək füzuli[5256] hesab olunur. Buna görə də mütləq həmin miqdarda xums işlərinə rəhbərlik edən şəxsin və ya onun vəkilinin icazəsi olmalıdır. Əgər onlarla əlaqəni kəsmək və ya onlarla birgə çörək yeməkdən və mallarından istifadə etməkdən əl çəkmək sizin üçün çətin olsa, onda o şeylərdən istifadə etməyə icazə verilir, lakin işlətdiyiniz malların xumsunə zaminsiniz.

---

Sual: **941**. Yaşayış evi tikmək və ya almaq üçün qazancdan yığılıb saxlanılan pulun xumsunu vermək vacibdirmi?

Cavab: Xums ilində ev tikilməsi və ya alınmasında sərf olunmayan pulun üstündən bir il keçsə, onda mükəlləfə onun xumsunu vermək vacibdir.

---

Sual: **942**. Əgər bir nəfər məscidə xumsu verilməmiş pul bağışlasa, həmin pulu almağa icazə verilirmi?

Cavab: Əgər verilən həmin pulda xumsun olması yəqin olsa, onda onu almağa icazə verilmir və əgər götürülsə, onda vacibdir ki, xums vacib olan miqdarında xums işlərinə rəhbərlik edən şəxsə və ya onun vəkilinə müraciət edilsin.

---

Sual: **943**. Dini işlərə, xüsusilə namaza və xumsə əhəmiyyət verməyən müsəlmanlarla get-gəl etməyin hökmü necədir? Onların evində çörək yeməyin eybi vardırmı? Əgər eybi varsa, onda bu vaxta qədər dəfələrlə bu işi görən adamların hökmü nədir?

Cavab: Əgər onlarla ünsiyyətdə olmaq onların dini işlərə qarşı etinasızlığını təsdiq etmək demək deyildirsə, onda eybi yoxdur. Amma əgər onlarla get-gəli kəsmək həmin adamların dini işlərə əhəmiyyət verməsində təsirli olacaqsa, onda əmr be məruf və nəhy əz münkər cəhətindən müvəqqəti olaraq onlarla əlaqəni kəsmək vacibdir. Onların yemək və bu kimi mallarından istifadə etməyə gəldikdə isə, həmin mallara xums gəlməsini yəqin etməyincə, onlardan istifadə etməyin heç bir maneçiliyi yoxdur. Amma belə olmazsa, onda xums işlərinə rəhbərlik edən adamın icazəsi olmasa, onlardan istifadə etməyə icazə verilmir.

---

Sual: **944**. Rəfiqəm məni çox zaman qonaq çağırır, mən isə axır zamanlarda bilmişəm ki, onun həyat yoldaşı xums vermir. Xums verməyən adamın evində çörək yeyə bilərəmmi?

Cavab: Sizin qarşınıza qoyulan yeməyə xumsun gəlməsini dəqiq bilməsəniz, həmin xörəkdən yeməyinizin heç bir maneçiliyi yoxdur.

---

Sual: **945**. İlk dəfə öz əmlakının xumsunu hesablayıb vermək istəyən şəxs üçün yaşadığı evin hökmü necə olar? Onu da qeyd edək ki, həmin şəxs vaxtilə o evi alıb, amma onu hansı pul ilə alması yadına gəlmir. Əgər o evi bir neçə il topladığı pulla almasını bilsə, onda onun hökmü necə olar?

Cavab: Əgər onu necə almağı yadında deyilsə, onda ehtiyata görə vacibdir ki, onun xumsu barəsində bir şeylə, xums işlərinə rəhbərlik edən şəxslə müsalihə etsin. Amma əgər həmin evi xumslü pulla alıbsa, onda ona vacibdir ki, indiki qiymətlə onun xumsunu versin. Lakin, o evi borc pulla alıbsa və sonradan da xumsu verilməmiş puldan borcunu ödəyibsə, onda ona vacibdir ki, ödədiyi borcun xumsunu versin.

---

Sual: **946**. Şəhərlərin birində bir nəfər alim xalqdan xums pulunu təhvil alır, lakin onun üçün həmin pulların özünü Sizə və ya dəftərinizə göndərmək çox çətindir. Həmin şəxs o pulları Sizə bank yolu ilə göndərə bilərmi? Onu da nəzərə almaq lazımdır ki, burada Sizin əlinizə gəlib çatacaq pul, orada banka köçürülən pulun özü deyildir.

Cavab: Xumsun və eləcə də başqa şəri vergilərin bank yolu ilə təhvil verilməsinin heç bir maneçiliyi yoxdur.

---

Sual: **947**. Xumsu verilməmiş pulla alınan yerdə namaz qılmaq olarmı?

Cavab: Əgər o yer xumsu verilməmiş pulun özü ilə alınsa, onda orada xumsun miqdarı füzuli hesab olunar və xums işlərinə rəhbərlik edən şəxsin icazəsi olmasa, o yerdə namaz qılmağa icazə verilmir.

---

Sual: **948**. Əgər alıcı bir şey alsa və satıcının həmin şeyin xumsunu verməməsini və ona xums vacib olmasını bilsə, onda ona o şeydən istifadə etməyə icazə verilirmi?

Cavab: Satılan şeydə xums olsa, onun xums miqdarı füzuli hesab olunur və o da xums işlərinə rəhbərlik edən şəxsin icazəsinə bağlıdır.

---

Sual: **949**. Mağazanın sahibi müştərinin ona verdiyi pulun xumsunu verib-verməməsini bilmir və onunla pul qazanır. Belə olan halda o şəxsə həmin pulların xumsunu vermək vacibdir, yoxsa yox?

Cavab: Əgər o, müştəridən aldığı pulda xumsun olmasını dəqiq bilməsə, onun boynunda heç nə yoxdur və bu barədə axtarış aparmaq da vacib deyildir.

---

Sual: **950**. 4 nəfər müəyyən bir şey istehsal edib, pul qazanmaq üçün birgə şərik olub, ortaya 100 min tümən məbləğində pul qoyurlar. Bu şəxslərin biri xums verməsə, onunla şərik olmaq düzgündür, yoxsa yox? Mümkündürmü ki, xums verməyən adamdan pul alınsın və istifadəyə qoyulsun (yəni pul ondan qərzül-həsənə adı ilə alınsın)? Ümumiyyətlə, əgər bir neçə nəfər şərik olsa, qazanclarından ayrı-ayrılıqda və müstəqil şəkildə xums verməlidirlər, yoxsa vacibdir ki, ümumi hesabdan xums versinlər?

Cavab: Sərmayəsinə xums gələn və onu verməyən adamla şərik olmaqda, onun malının xums vacib olan miqdarı füzuli hesab olunur və mütləq bu işdə xums işlərinə rəhbərlik edən şəxsə müraciət etmək lazımdır. Müştərək sərmayədə pul qoyan şəriklərin bəzisi mallarının xumsunu verməyibsə, onda o sərmayədən istifadə etməyə icazə verilmir. Həmin sərmayədən qazanc götürülən zaman, o şəxslərin hər biri öz payından illik dolanışığından artıq qalanına xums verməlidir.

---

Sual: **951**. Şəriklərimin illik xums hesabı olmasa, mənim vəzifəm nədir?

Cavab: Müştərək mallardan istifadə etməyin halal olması üçün şəriklərin hər birinə vacibdir ki, öz paylarında olan vacibi vergiləri versinlər. Əgər sizin şərikləriniz onu vermirlərsə və bu şərikliyi pozmaq və ya onlardan ayrılmaq sizin üçün çətindirsə, onda bu müştərək işinizi davam etdirə bilərsiniz.

## Sərmayə

---

Sual: **952**. Hicri şəmsi tarixi ilə 1365-ci ildə maarif işçiləri üçün şirkət yaradıldı. Şirkətin ilk maliyyə bünövrəsi maarif işçilərinin öz səhmdarlığı, hərəsinin 100 tümən verməsi ilə başlandı. Əvvəllər şirkətin sərmayəsi az idi, lakin hal-hazırda üzvlərin artması ilə sərmayə çoxalaraq şirkətin tabeliyində olan maşınlardan əlavə, 18 milyon tümənə çatmışdır. Şirkətin qazancı isə səhmdarların arasında bölüşdürülür. Səhmdarların hər biri istədiyi vaxt, asanlıqla öz sərmayələrini şirkətdən hesablayıb götürə bilərlər. Bu vaxta qədər şirkətin sərmayə və qazancının xumsu verilməyib. Əgər şirkətin hesabına xums gəlibsə, mən bu şirkətin idarə heyətinin rəisi kimi həmin xumsu verə bilərəmmi? Bu işdə səhmdarların razılığı şərt hesab olunurmu?

Cavab: Şirkətin sərmayəsinin və onun qazancının xumsunu vermək şirkətin üzvlərinin -hər birinə ümumi maldan öz səhmlərinə düşən qədərin- öz vəzifəsidir. Şirkətin idarə heyətinin rəisi səhmdarların icazəsi ilə və onların tərəfindən vəkil olmaqla onun xumsunu verə bilər.

---

Sual: **953**. Bir neçə nəfər öz aralarında ehtiyacları olan zaman borc götürmək üçün qərzül-həsənə bankı açmaq istəyirlər. Üzvlər qoyduqları ilk puldan başqa, sərmayənin artması üçün aylıq pul da verməlidirlər. Xahiş edirik bəyan edəsiniz ki, hər bir üzvün xums verməsi necə olmalıdır? Bu bankın sərmayəsi daimi olaraq üzvlərin boynunda borc halında olan surətdə onun xumsunu vermək necə mümkün olar?

Cavab: Üzvlərin oraya qoymaq istədiyi pul xums ili qurtardıqdan sonrakı qazancdan olsa, onda vacibdir ki, pulu oraya qoymazdan əvvəl xumsunu versin. Amma əgər ilin ortasında olsa, onda vacibdir ki, ilin axırında -əgər o pulu götürmək mümkün olsa- versin. Əgər ilin axırında pulu oradan götürə bilməsə, onda nə vaxt götürə bilsə, o vaxt da xumsunu vermək vacibdir.

---

Sual: **954**. Qərzül-həsənə müstəqil və şəxsi bankdırmı? Əgər belə olsa, orada hasil olan qazanca xums düşər, yoxsa yox? Əgər o, şəxsi və müstəqil bank olmazsa, onda onun xums məsələsi necə olar?

Cavab: Əgər bankın sərmayəsi müştərək halda o şəxslərə məxsusdursa, onda orada hasil olan qazanc, üzvlərin hər birisinin qoyduğu məbləğin faizinə uyğun olaraq onların şəxsi malı hesab olunar və onun xumsunu vermək vacibdir. Amma sərmayə bir və ya bir neçə nəfərin şəxsi malı olmasa, məsələn vəqf olunan ümumi maldan və ya bu kimi sərmayələrdən olsa, onda orada hasil olan qazanca xums düşməz.

---

Sual: **955**. Möminlərdən 12 nəfəri birləşib ümumi kassa yaradır və hər ay hərəsi o kassaya 20 dinar məbləğində pul qoyurlar. Hər ay yığılan o pulu bir nəfər götürür və istədiyi şeylərə xərcləyir. Bu qayda onların arasında davam edir və nəhayətdə 12 aydan sonra növbə axırıncı üzvə çatır. O da il ərzində 240 dinar məbləğində verdiyi pulu bir dəfəyə götürür. Bu pula xums düşür, yoxsa həmin məbləğ onun dolanışığından hesab olunar? Əgər bu şəxsin müəyyən xums ili varsa və o il qurtardıqdan sonra həmin pulun bir miqdarı onun əlində qalarsa, xums verməkdən xilas olmaq üçün əlində qalan həmin məbləğə yeni xums ili müəyyən edə bilər, yoxsa yox?

Cavab: Əgər kassaya verdiyi pullar illik qazancdandırsa, onda əgər illik dolanışıq üçün əlinə gələn pullar həmin ildə kassaya verdiyi pullardandırsa, bu halda ona xums düşməz, amma qabaqkı ildə verdiyindən olsa, onda vacibdir ki, əlinə gələn pulların xumsunu versin. Əgər onlar hər iki ildə verdiyi pullardan olsa, onda hər ilin öz hökmünə əməl olunacaq. İllik qazancdan verdiyi pullardan əlinə gələnlər, illik dolanışığından artıq qalarsa, ona (xumsdən xilas olmaq üçün) yeni və müstəqil xums ili müəyyən edə bilməz. Ona vacibdir ki, bütün qazancları üçün bir xums ili təyin etsin və illik dolanışığından artıq qalanlarının xumsunu versin.

---

Sual: **956**. Rəhn (girov) verməklə bir ev kirayə etmişəm və ev sahibinə qabaqcadan müəyyən məbləğdə pul rəhn vermişəm. Verdiyim bu rəhnin üstündən bir il keçsə, ona xums gələrmi?

Cavab: Əgər qazancınızdan olsa, ev sahibindən aldıqdan sonra vacibdir ki, xumsu verilsin.

---

Sual: **957**. Bizim təmir və abadlıq işlərinə həddindən artıq ehtiyacımız var və bu işləri bir dəfəyə görmək bizim üçün çox çətindir. Buna görə də həmin işləri görmək üçün kassa yaratmışıq. Hər ay oraya müəyyən məbləğdə pul köçürürük və bir qədər sərmayə topladıqdan sonra götürüb, o işlərə sərf edirik. Yığılan bu pullara xums düşərmi?

Cavab: Hər bir şəxs tərəfindən verilən pullar abadlıq işləri görülənə qədər onun hesabında qalsa və onu xums ilinin sonunda kassadan götürmək mümkün olsa, ona xums vermək vacib olar.

---

Sual: **958**. Bir neçə il bundan qabaq əmlakımı hesablayıb özüm üçün xums ili təyin etdim. Motorsikletdən başqa bir qədər pul və 98 baş qoyunum var idi. Bir neçə il ərzində qoyunları tədricən satmaqla azaltdım və bunun da nəticəsində nəqdi pulum artdı. Hal-hazırda 60 baş qoyunum və bir miqdar da pulum var. Bu mala və ya onun artan hissəsinə xums düşərmi?

Cavab: Hal-hazırda mövcud olan qoyunla nəqdi pulun cəmi 98 baş qoyunun qiymətindən və əvvəldə xumsunu verdiyin puldan çox olsa, onda onun artığına xums düşər.

---

Sual: **959**. Bir nəfərin, üzərinə xums gələn həyəti, yaxud evi olsa, onun xumsunu illik qazancından verə bilər, yoxsa əvvəlcə qazancdan xumsunu vermək vacibdir, sonra da həmin qazancdan əmlakın xumsunu?

Cavab: Əgər illik qazancdan əmlakın xumsunu vermək istəsə, vacibdir ki, o qazancın öz xumsunu də versin.

---

Sual: **960**. Biz əziz şəhid ailələrinə məxsus olan fabrik, əkin sahəsi və bu kimi başqa şeylərin qazancından onlar üçün pul ehtiyatı saxlayırıq (Qeyd olunan yerlərin qazancı şəhidlər idarəsinin onların ailələrinə dolanışıq və ya körpə uşaqları üçün aylıq verdikləri puldur). Bəzi vaxtlar ehtiyat saxlanan o puldan onların zəruri ehtiyaclarını ödəmək üçün verilir. Xahiş edirik bəyan edəsiniz ki, o qazanc və aylıq ehtiyat pullarına xums vermək vacibdir, yoxsa onlar böyüyənə qədər gözlənilməlidir?

Cavab: Əziz şəhid övladlarına valideynlərindən irs yolu ilə çatan və ya şəhidlər idarəsi tərəfindən verilən mala (pula) xums vacib deyildir. Amma onlara irs yolu ilə çatan və ya şəhidlər idarəsinin hədiyyə etdiyi malların qazancına -əgər o mallar, onlar şəri cəhətdən həddi-büluğa çatana qədər öz hesablarında qalsa- onda ehtiyata görə onların hər birisinə vacibdir ki, həddi-büluğa çatandan sonra o qazancın xumsunu versinlər.

---

Sual: **961**. İnsanın ticarət işləri və qazanc mənbələrində sərf etdiyi pullara xums düşərmi?

Cavab: Əgər sərmayənin özü qazancdandırsa, onda ona xums düşür. Amma sərmayədən qazanc əldə etmək üçün sərf olunan işlərə, məsələn anbar pulu, daşınma haqqı, çəki və dəllallara verilən pullar ticarət qazancından istisna olunur və ona xums vermək vacib deyildir.

---

Sual: **962**. Sərmayənin özünə və qazancına xums düşərmi?

Cavab: Əgər sərmayə insanın qazandığı pullardandırsa, (istər maaşla olsun, istərsə də başqa işlərlə) ona xums düşər. Amma ticarət yolu ilə qazanılan pullara, illik dolanışıqdan artıq qalanına xums vermək vacibdir.

---

Sual: **963**. Əgər bir nəfərin nisab həddinə çatan qədər sikkə qızılı varsa, ona zəkat vermək kifayət edərmi, yoxsa zəkatdan başqa xumsunu də verməlidir?

Cavab: Əgər onlar qazancın bir hissəsidirsə, onda başqa qazanclara xumsun vacib olması ona da aid olar.

---

Sual: **964**. Həyat yoldaşım və mən özüm hər ikimiz maarif işçisiyik. Yoldaşım hər ay öz maaşını mənə hədiyyə edir. Üzv olduğum maarif işçilərinin əkinçilik şirkətinin hesabına bir qədər pul qoymuşam. Lakin bilmirəm oraya qoyduğum pul öz maaşımdandır, yoxsa yoldaşımın? Ancaq onu da bilirəm ki, xums ilinin sonunda yoldaşımın maaşlarından toplanan pulun hamısı onun illik qazancından az oldu. Həmin məbləğə xums gələrmi?

Cavab: Sizin öz maaşlarınızdan toplanan pula xums düşür, lakin yoldaşınızın sizə hədiyyə etdiyi pullara isə xums vermək lazım deyildir. Amma sizin, yoxsa yoldaşınızın maaşından olmasında şəkk etdiyiniz pullara isə xums vermək vacib deyildir. Lakin müstəhəb ehtiyata görə, onun da xumsunu verin və yaxud da bir şey verməklə onun da xumsundə müsalihə edin.

---

Sual: **965**. Bankda iki il müddətində qərzül-həsənə adı ilə saxlanan pullara xums düşərmi?

Cavab: İllik qazancdan toplanan pulun bir dəfə xumsu verilməlidir və onun bankda qərzül-həsənə şəklində saxlamaqla üzərindən xums götürülməz. Bəli, borc verdiyin şəxsdən onu geri götürənə qədər xumsunu vermək vacib deyildir.

---

Sual: **966**. Əgər bir nəfər yaşayış çətinliklərini həll etmək üçün ailə içərisində çox qənaətcilliklə keçinsə və bir qədər pul toplasa və ya bir miqdar pul borc etsə və həmin topladığı puldan və ya götürdüyü borcdan xums ilinin axırına qalsa, həmin pula xums düşər, yoxsa yox?

Cavab: Hər bir halda qazancdan toplanan pulun üstündən bir xums ili keçsə, gərək onun xumsunu versin... Amma götürülən borca xums vacib deyildir, lakin onu öz qazancından bir neçə dəfəyə ödəsə və həmin borc ilin axırında özündə qalsa, ona xums vermək vacibdir.

---

Sual: **967**. İki il bundan qabaq ev tikmək üçün bir həyətyanı sahə aldım. Özüm kirayənişin olduğum halda, ev tikmək üçün gündəlik dolanışığımızdan qənaət edib, bir qədər pul topladım. İlin axırında həmin məbləğə xums gələr, yoxsa yox?

Cavab: İllik qazancınızdan toplanan pulun üstündən bir xums ili keçsə, onun xumsu verilməlidir. Amma ilin axırı çatmamış həmin pullarla ehtiyaclı olduğun tikinti materialları alsan, onda ona xums düşməz.

---

Sual: **968**. Mən evlənmək istəyirəm, elə buna görə də sərmayəmin bir hissəsini bir neçə nəfərə al-ver məqsədi ilə vermişəm. İndi isə mənim pula olan ehtiyacımı və həmçinin universitet tələbəsi olmağımı nəzərə almaqla, xums məsələsində mənimlə müsalihə etməyə imkan vardırmı?

Cavab: Qeyd olunan pullar sizin qazancınızdan olsa, bir xums ili keçməklə ona xums vermək vacibdir və onunla verilməsi qəti olan xums üçün müsalihə yeri yoxdur.

---

Sual: **969**. Keçən il həcc idarəsi karvanlar (həccə gedən dəstələr) üçün lazım olan bütün şeyləri alırdı. Bu ilin yayıda onlardan, satdığım şeylərin pulunu (214 min tümən) aldım. Bunlardan da əlavə, 80 min tümən də keçən il almışdım. Mən özüm üçün xums ili təyin etdiyimə görə, illik dolanışığımdan artıq qalanının xumsunu verirəm. Qeyd etdiyim şeylərə özümün ehtiyaclı olduğumu nəzərə almaqla, həmin məbləğin xumsunu vermək mənə vacibdir, yoxsa yox? Onu da qeyd edim ki, sərf olunan şeylərin qiyməti bu vaxta qədər çox dəyişmişdir.

Cavab: Əgər qeyd olunan şeyləri xumsu verilmiş puldan almışdınızsa, onda onları satanda puluna xums düşməz. Amma əgər belə olmazsa, onda onun xumsunu vermək vacibdir.

---

Sual: **970**. Mənim bir dükanım var və hər il bütün mallarımın və pulumun xumsunu hesablayıram. Bəzi mallar xums ilinin sonuna qədər satılmır. Onların xumsunu ilin axırında satılmaqdan qabaq verməliyəm, yoxsa satdıqdan sonra vacibdir? Əgər onu, xumsunu verdikdən sonra satsam, onu gələn ildə necə hesablamaq vacibdir? Əgər satılmayıb qalanda qiyməti dəyişsə, hökmü necə olar?

Cavab: Satılmayan malları ilin axırında alan olmasa, hələlik onun bahalanan qiymətinin xumsunu vermək vacib deyildir, gələcəkdə onu satarkən əldə edilən qazanc satılan ilin qazancı hesab olunur. Amma qiyməti qalxan malları həmin ildə almaq istəyən olubsa, lakin qiymətlərin qalxması üçün gələn ilə saxlanılıbsa, onda onun qiymətinin bahalanan hissəsinin də xumsunu verməlisiniz.

---

Sual: **971**. Burada üç mərtəbəli bir ev var və rəsmi məlumata əsasən o, 1352-ci hicri şəmsi ildən bəri dörd nəfərə məxsusdur; evin beşdə üç hissəsi, hərəsinə bir hissə çatmaqla üç övladın və qalan iki hissə isə onların anasınındır. Evin bir mərtəbəsində övladlardan biri yaşayır, qalan iki mərtəbəni isə onların dolanışığını təmin etmək üçün icarəyə veriblər. Ev sahiblərindən birinin bu evdən başqa evi olmamasını nəzərə almaqla, o iki təbəqəyə xums vermək vacibdir, yoxsa yox? O iki mərtəbə onların dolanışığı hesab olunarmı?

Cavab: Həmin evdən dolanışıqlarını təmin etmək üçün icarəyə verdikləri hissə sərmayə hökmündədir və o qazancdan olsa xums düşər, amma irs, hədiyyə yolu ilə onlara çatsa, xums vermək lazım deyildir.

---

Sual: **972**. Bir nəfərin xumsu verilmiş bir qədər buğdası var idi. Növbəti məhsul yığımında həmin buğdalar işlədilir və yerinə təzə buğda qoyulur. Bu qayda ilə uzun illər həmin iş təkrarlanır. Yeyilən buğdaların yerinə qoyulan təzə buğdaya xums düşərmi? Xums düşsə, onların hamısına aid olar, yoxsa yox?

Cavab: Xumsu verilən buğda işlədilən zaman, onun yerinə qoymaq üçün təzə buğda yox idi ki, xumsu də verilməyə; buna görə də köhnə buğdanın yerinə qoyulan təzə buğda il ərzində dolanışığa sərf olunsa, ona da xums düşməz. Amma, əgər ondan yeni ilə bir şey qalsa, o miqdarın xumsunu vermək vacibdir.

---

Sual: **973**. Mən hər il Allahın köməyi ilə bütün mallarımın xumsunu verirəm. Amma hər il xumsumü hesablayarkən, onların hesabında şəkk edirəm. Bu şəkkin hökmü necədir? Bu il bütün pullarımın xumsunu hesablamaq vacibdir, yoxsa bu məsələdə yaranan şəkkə əhəmiyyət verməк lazım deyildir?

Cavab: Əgər şəkkiniz keçən illərdəki qazanclarınızın xumsunun düzgün olub-olmamasında olsa, ona əhəmiyyət verməyin; onların ikinci dəfə xumsunu vermək vacib deyildir. Amma, əgər bir qazancın keçən ildə xumsunu verdiyiniz, yaxud bu ilin xumsunu vermədiyiniz maldan olmasında şəkk etsəniz, onda onun xumsunu vermək vacibdir. Amma əgər onun əvvəllər xumsu verilməsi aşkar olsa, onda ona heç bir şey lazım deyil.

---

Sual: **974**. Əgər 10 min tümənə bir xalça alsam və bir müddətdən sonra 15 min tümənə satsam, onun xumsunu verdiyim puldan artıq qalan 5 min tüməni qazanc hesab olunurmu və onun xumsunu vermək vacibdirmi?

Cavab: Əgər onu satmaq məqsədi ilə almışdınızsa, onda həmin məbləğ qazanc hesab olunur və illik dolanışıqdan artıq qalanın xumsunu vermək vacibdir.

---

Sual: **975**. İllik qazanclarının hər birinə xums ili təyin edən adam, üstündən bir il keçməyən qazanclardan ili çatmış malların xumsunu verə bilərmi? Bu qazanclardan dolanışıqda istifadə olunmayıb, ilin axırına qədər onun tamamilə qalacağını bilsə, hökmü necə olar?

Cavab: Əgər onlara hər bir qazanc üçün müstəqil xums ili təyin etməyə icazə verilsə, onların ixtiyarı yoxdur ki, xumsu verilməmiş bir qazancdan başqa bir qazancın xumsunu versin, amma xumsunu verdikdən sonra bu işə icazə verilir. Amma dolanışıqda işlətməyəcəyi mallarda isə qazanc hasil olan kimi xumsunu vermək və ya ilin axırına qədər gözləməkdə ixtiyar sahibidir.

---

Sual: **976**. Bir nəfərin iki mərtəbəli bir evi var. O şəxs həmin evin yuxarı mərtəbəsində özü yaşayır, aşağı mərtəbəsini isə başqa bir nəfərə verib. Ev sahibi borclu olduğu üçün həmin adamdan müəyyən məbləğdə borc pul götürüb və icarə haqqı almır. Aldığı həmin məbləğə xums düşərmi?

Cavab: Evini pulsuz, borc almaq müqabilində başqasına verməyin şəri yolu yoxdur, hər halda borc aldığı pula xums düşmür.

---

Sual: **977**. Vəqflər idarəsindən və onun rəisindən ayda müəyyən qədər kirayə pulu verməklə tibbi müayinə məqsədi üçün bir yer icarə etmişəm. Bu yeri icarəyə vermək üçün məndən əvvəldən də müəyyən məbləğdə pul aldılar. Həmin məbləğə xums düşərmi? Onu da qeyd edim ki, həmin məbləğ hal-hazırda mənim mülkiyyətimdən xaric olub və heç vaxt ona malik olmayacağam.

Cavab: Əgər bu məbləği vermək "sərqüfli" dəyişmək hökmündədirsə və qazanc pulundandırsa, onda onun xumsunu vermək vacibdir.

---

Sual: **978**. Bir nəfər istifadəsiz torpaqları diriltmək, orada ağac əkmək və meyvəsindən istifadə etmək arzusu ilə artezian quyusu qazdırır. Məlumdur ki, bu ağaclar bir neçə ildən sonra məhsul verəcək və o vaxta qədər də çoxlu xərclər də aparacaqdır. Bu şəxs isə indiyə qədər oraya çox pul xərcəyib və həmin xərclər təqribən 1 milyon tüməni keçib. Həmin adamın bu vaxta qədər xums ili olmayıb indi isə istəyir ki, mallarını hesablayıb boynunda olan bütün xumslərini versin. Amma baxıb görür ki, yerin, quyunun, bostanın qiyməti ölkədə baş verən bahalaşma nəticəsində çox artıb. Əgər o, xumsunu indiki qiymətlə hesablayıb versə, gücü çatmaz; yerin, bostanın və bu kimi şeylərin də özündən xums vermək istəsə, çətin vəziyyətdə qalar. Çünki o, bu bağdan məhsul götürmək arzusu ilə əmlakını bu işdə sərf edib və çalışıb ki, ailəsinin həyat şəraitini yaxşılaşdırsın. Onun xums məsələsində vəzifəsi nədir? Ona asan olmaq üçün xumsunu necə hesablamaq lazımdır?

Cavab: İstifadəsiz torpaqları, orada meyvə ağacları əkməklə bağ salıb diriltmək üçün çəkilən xərcləri çıxdıqdan sonra, sözsüz xums verilməlidir. Xumsu də yerin özündən və ya indiki qiymətlə pulundan verməkdə ixtiyar sahibidir. Amma quyu, şitillər, su arxları, ağaclar və bu kimi başqa şeylər borcla, yaxud nisyə alıbsa və sonra da o borcları xumsu verilməmiş puldan ödəyibsə, onda təkcə borca ödədiyi pulların xumsunu verər. Lakin o şeyləri xumsu verilməmiş pulun özü ilə əldə edibsə, onda vacibdir ki, onu indiki qiymətlə versin. Əgər boynunda olan vacibi xumsləri bir dəfəyə ödəyə bilmirsə, onda bizim vəkillərimizdən biri ilə "alıb-qaytarma"-dan sonra tədricən öz borclarını ödəyər.

---

Sual: **979**. Bir nəfərin xums vermək üçün hesab ili yoxdur. İndi isə boynunda olan vacibi xumsləri vermək istəyir, lakin evlənən gündən həmişə borclu olub. O şəxs xumsunu necə hesablasın?

Cavab: Əgər o şəxsin keçmişdən indiyə qədər dolanışığından artıq pulu qalmayıbsa, onda keçən illər üçün heç bir şey vermək lazım deyildir.

---

Sual: **980**. Vəqf olunan əşya və ərazilərin xums-zəkat baxımından məhsul və qazanclarının hökmü necədir?

Cavab: Vəqf olunan şeylərə, hətta xüsusi də olsa, xums-zəkat yoxdur. Onlardan artan şeylərə də ümumi şəkildə xums düşmür. Həmçinin, ümumi vəqflərin artımına (vəqf olunan ildə vəqf olunan şəxsin əlinə çatmazdan qabaq) zəkat yoxdur. Amma əlinə çatdıqdan sonra, zəkatın vacib olma şərtləri toplanan zaman, vəqfin artımından ələ gələn şeylərə zəkat vermək vacibdir. Xüsusi vəqflərin artımına gəldikdə isə, vəqf olunan şəxslərin payına düşən hissə nisab həddinə çatarsa, onda ona zəkat vermək vacibdir.

---

Sual: **981**. Uşaqların qazancına imam və seyid malı gələrmi?

Cavab: Ehtiyata görə onlara vacibdir ki, həddi-büluğa çatana qədər qazandıqları pullar onların hesabında qalıbsa, xumsunu versinlər.

---

Sual: **982**. Qazanc mənbələrində işlədilən əmək alətlərinə xums düşürmü?

Cavab: Xumsun vacib olmasında əmək alətlərinin hökmü sərmayə hökmüdür.

---

Sual: **983**. Bir neçə il bundan qabaq həccə getmək məqsədi ilə adımızı yazdırmaq üçün banka müəyyən məbləğdə pul köçürmüşük. Lakin bu vaxta qədər həccə gedə bilməmişik və bilmirik ki, o vaxt verdiyimiz pulların xumsunu vermişik, yoxsa yox? İndi o pulların xumsunu vermək vacibdirmi? Ümumiyyətlə həccə getmək üçün ad yazdırılan zaman verilən pulların üstündən bir il keçsə, ona xums vermək vacib olar, yoxsa yox?

Cavab: Əgər həccə ad yazdırmaq üçün illik qazancınızdan onlara verdiyiniz nəqdi pul, yaxud həcc və ziyarət idarəsi ilə sizin aranızda bağlanan müqavilə əsasında səfər zamanı sizə veriləsi zəhmət haqqı olsa, onda sizə onun xumsunu vermək vacib deyildir.

---

Sual: **984**. Xums illəri ilin axırında olan qulluqçular 12-ci ayın maaşını il qurtarmağa 5 gün qalmış alsalar və onu təzə ilin birinci ayında xərcləsələr, o pula xums düşərmi?

Cavab: İl qurtarmamışdan alınan maaşlar xums ili qurtarana qədər dolanışığa xərclənməsə, xumsunu vermək vacibdir.

---

Sual: **985**. Tələbələrin çoxu gələcəkdə gözlənilməz çətinlikləri həll etmək üçün dolanışıqda qənaətçiliklə keçinirlər və buna görə də təhsil mərkəzlərində verilən təqaüdlərdən bir qədəri onların əlində qalır. Sualımız budur ki, onların maarif nazirliyi tərəfindən verilən təqaüdlə qənaətçiliklə keçinmələrini nəzərə almaqla, topladıqları pula xums düşər, yoxsa yox?

Cavab: Təhsil üçün verilən təqaüdlərə və yardımlara xums düşməz.

## Xumsun hesablanma yollari

---

Sual: **986**. Gələn ilə qədər xumsu gecikdirməyin hökmü nədir?

Cavab: Xumsun verilməsi, hətta gecikdirildikdən sonra, bu ildən gələn ilə saxlansa da vacibdir. Lakin, xums ili qurtardıqdan sonra mallarının xumsu verilməyənə qədər onlardan istifadə etməyə haqqı yoxdur. Əgər xumsunu verməkdən qabaq ondan mal və ya yer alıb-satmaq kimi işlərdə istifadə etsə, onda xums işlərinə rəhbərlik edən şəxsin xums miqdarında olan mallardan işlətmək icazəsi ilə o malların və yerin indiki qiymətlə xumsunu hesablayıb vermək vacibdir.

---

Sual: **987**. Mənim bir qədər pulum var. O pulların bir hissəsi nəqdi şəkildə özümdə, digər hissəsi isə qərzül-həsənə şəklində başqalarının əlindədir. Digər tərəfdən də yaşadığım həyəti alarkən borclu qalmışam və vacibdir ki, bir neçə aydan sonra həmin həyətin borc qəbzlərindən birini ödəyim. Həmin məbləğdən (nəqd pul və qərzül-həsənə) yerin borcunu ödədikdən sonra qalanının xumsunu verə bilərəmmi? Yeri gəlmişkən onu da soruşum ki, yaşayış üçün alınan yerə xums düşərmi?

Cavab: Xums ili çatmamış illik qazancınızdan bir neçə ay bundan sonra vaxtı sona çatacaq borcunuzu verə bilərsiniz. Lakin il ərzində borcunuzu qaytarmasanız, daha onu xums ili qurtardıqdan sonra malınızdan ayıra bilməzsiniz və vacibdir ki, onların hamısının xumsunu verəsiniz. Amma yaşamaq üçün aldığınız evə ehtiyacınız olsa, ona xums düşməz.

---

Sual: **988**. Mən bu vaxta qədər evlənməmişəm. İcazə verilirmi ki, gələcəkdə istifadə etmək üçün ehtiyaclı olacağım malları indidən alıb ehtiyat saxlayım?

Cavab: İllik qazancınızdan alıb ehtiyat saxladığınız mallar xums ilinin axırına qədər qalsa, onlara xums vermək vacibdir, hətta gələcəkdə işlətmək üçün olsa da.

---

Sual: **989**. Mənim xums ilimin başlancığı hər il onuncu ayın sonudur. Həmin 10-cu ayın maaşına (hansı ki, onu ayın axırında alıram) xums düşərmi? Onu aldıqdan sonra yoldaşıma bağışladığım qalan hissəsinə də xums düşərmi? (Yoldaşım adətən verdiyim pulları ehtiyat saxlayır).

Cavab: Xums ili qurtarmamışdan qabaq və ya onun qurtarmağına bir gün qalmış alınması mümkün olan pullar dolanışıqdan artıq qalarsa, onlara xums vermək vacibdir. Amma yoldaşınıza və başqa adamlara bağışladığınız pullar xums verməkdən boyun qaçırmaq məqsədi ilə olmasa və eyni zamanda xalqın nəzərində öz səviyyənizə uyğun olsa, onda ona xums vermək lazım deyildir.

---

Sual: **990**. Mənim xumsu verilmiş pulum və ya malım var idi, mən onu işlətdim. Xums ilinin sonunda xumsunu verdiyim pul və ya maldan işlətdiyim qədər və onun əvəzində illik qazancımdan ayıra bilərəmmi?

Cavab: Xumsu verilmiş mal və ya pulun işlədilənlərinin əvəzində illik qazancınızdan heç bir şey ayıra bilməzsiniz.

---

Sual: **991**. Əgər xums vacib olmayan mal (məsələn, mükafat) sərmayəyə qarışsa, icazə verilirmi ki xums ilinin sonunda onu sərmayədən ayıraq və bundan sonra qalan malların xumsunu verək?

Cavab: Onun sərmayədən ayırmaqda heç bir maneə yoxdur.

---

Sual: **992**. Mən üç il bundan qabaq xumsu verilmiş pulla bir dükan açmışam. Xums ilim şəmsi ilinin sonundan, yəni novruz bayramına keçən axşamdan başlayır. Bu vaxta qədər, hər ilin başlanğıcında xumsumü hesablamaq istəyən zaman görürəm ki, sərmayəm camaatın mənə verməli olduqları borclardır. Hal-hazırda mənə böyük məbləğdə pul borcludurlar. Xahiş edirəm, mənim vəzifəmi müəyyənləşdirəsiniz.

Cavab: İl başı çatan zaman sərmayənizdən və ya qazancınızdan əlinizdə bir şey olmasa, yaxud da əlinizdə olan nəqdi pullarla dükanda olan əmtəələrin cəmi sərmayəniz qədər olmasa, onda sizə xums vermək vacib deyildir, amma camaatdan nisyə al-verlərə görə almalı olduğunuz borclar illik qazancdan hesab olunur.

---

Sual: **993**. İlin əvvəlində dükanda mövcud olan mallara qiymət qoymaq bizim üçün çox çətin olur. Bunu hansı yolla hesablamaq bizə vacibdir?

Cavab: Hər hansı bir yolla dükanda mövcud olan malların qiymətini müəyyənləşdirmək vacibdir. Bu iş hətta, xumsu verilməsi vacib olan illik qazancı hesablamaq üçün təqribi olsa da, müəyyənləşdirilməlidir.

---

Sual: **994**. Əgər bir neçə il, mallarım pula çevrilənə və sərmayəm artana qədər xumsumü hesablamamışamsa və bundan sonra əvəlki sərmayəmdən başqa yerdə qalan malların xumsunu vermək istəyirəmsə, bunun bir eybi vardırmı?

Cavab: Əgər xums ilinin əvvəli çatan zaman sizin pullarınızda, az da olsa, xums olubsa və mallarınızı hesablayıb xumsunu verməmisinizsə, onda o malları işlətməyə haqqınız yoxdur. Amma, əgər xumsu verməzdən qabaq, o şeylərdən alıb-satmaq kimi işlərdə istifadə olunubsa, onda o malın xums qədərindən olunan istifadə füzuli hesab olunur və xums işlərinə rəhbərlik edən şəxsin icazəsindən asılıdır. O şəxs də icazə verdikdən sonra, sizə vacibdir ki, əvvəla o malın hamısının, sonra isə illik dolanışıqdan artıq qalanın xumsunu verəsiniz.

---

Sual: **995**. Xahiş edirik, dükan sahibləri üçün xums verməyin ən sadə yolunu bəyan edəsiniz.

Cavab: Əlində olan pulların və dükanda olan malların qiymətini toplayır, onun cəmindən sərmayəni çıxır. Çıxdıqdan sonra yerdə bir şey qalsa, qazanc hesab olunur və ona xums vermək lazımdır.

---

Sual: **996**. Keçən ilin 3-cü ayının əvvəlini özüm üçün xums ili təyin etmişəm. Bu isə mənim məxaric hesablarımdan hasil olan qazanclarımın xumsunu hesablamaq üçün müraciət etdiyim zamana təsadüf edirdi. Mən o zaman bu qazanclara ehtiyaclı idim, lakin onlara dəyməyib, xumsu olmayan başqa mallardan istifadə edirdim. Bu mənim illik xumsumün hesablanması üçün düzgün üslubdurmu?

Cavab: Sizin xums ilinizin başlanğıcı ilk dəfə əlinizə gəlməsi mümkün olan qazancları hasil etdiyiniz gündür və ilin başlanmasını həmin gündən gecikdirmək düzgün deyildir.

---

Sual: **997**. Bir nəfər bir neçə il bundan qabaq ucuz qiymətə həyət alıb. İndi isə istəyir ki, onun xumsunu verməklə mallarını təmizləsin. O şəxs həmin yerin xumsunu keçmiş qiymətlə verməlidir, yoxsa indiki qiymətlə ( hansı ki, həddindən artıq bahalaşmışdır)?

Cavab: Əgər o yeri boynunda olan pulla (yəni borc pulla) alıbsa, onda yalnız verdiyi pulların xumsunu ödəyər. Amma əgər özünün xumsu verilməmiş şəxsi pulu ilə alıbsa, həmçinin il ərzində illik qazancla olubsa, onda vacibdir ki, onun xumsunu o yerin özündən və ya indiki qiymətlə başqa puldan ödəsin. Əgər o yeri xums ili qurtardıqdan sonra keçən ilin qazancından

alsa, onda orada xums miqdarında işlədilən pul füzuli hesab olunur və şəriət hakiminin icazəsinə bağlıdır. Əgər vəliyyi-əmr və ya onun vəkili icazə versə, onda mükəlləfə vacibdir ki, o yerin xumsunu və ya hazırkı qiymətinin xumsunu versin.

---

Sual: **998**. Əgər bir nəfər öz pulunun bir hissəsini xums ili qurtarmazdan qabaq borc versə və bir neçə aydan sonra ilin başında geri alsa, onda bu məbləğin hökmü necə olar?

Cavab: Sualda göstərilən şəraitdə o şəxsə vacibdir ki, borc verdiyi şəxsdən pulunu aldıqdan sonra xumsunu versin.

---

Sual: **999**. Xums ilində alınan və xums ili qurtardıqdan sonra satılan şeylərin hökmü necədir?

Cavab: Əgər o şey satılmaq məqsədi ilə alınıbsa və onu xums ilinin əvvəlinə qədər satmaq mümkün olubsa, onda qazancının xumsunu vermək vacibdir. Lakin əgər belə olmasa və onu xums ilinin əvvəlinə qədər satmasa, onda onun xumsunu vermək vacib deyildir. Amma əgər satılsa, onda o, satılan ilin qazancı hesab olunar.

---

Sual: **1000**. Əgər bir nəfər işçi xums ilinə aid olan maaşını həmin il qurardıqdan sonra alsa, onun xumsunu verməlidir, yoxsa yox?

Cavab: Əgər onun xums ilinin əvvəlinə qədər almaq mümkün olubsa, onda (hətta almasa da) o şəxsə vacibdir ki, onun xumsunu versin. Amma əgər belə olmasa, onda o, alınan ilin qazancı hesab olunar.

---

Sual: **1001**. Əgər bir nəfərin xums ilinin sonunda həmin ilin qazancı qədər borcu olsa, həmin miqdara xums düşər, yoxsa yox?

Cavab: Əgər o borc həmin şəxsin o ildəki dolanışıq xərcləri imişsə, onda o illik qazancdan çıxılar və əgər belə deyilmişsə, onda qazancından çıxılmaz.

---

Sual: **1002**. Müntəzəm olaraq qiyməti dəyişən qızıl sikkələrinin xumsu necə hesablanır?

Cavab: Əgər xumsu onun qiymətindən vermək istəsələr, onda meyar onun hesablandığı və verildiyi gündür.

---

Sual: **1003**. Əgər bir nəfər xums ilinin hesabını qızıl qiyməti ilə hesablamaq istəsə, məsələn, onun bütün sərmayəsinin dəyəri 100 ədəd “azadlıq baharı” (sikkə növüdür) qiymətində olsa, onun 20 ədədini xumsə verdikdən sonra qalan məbləğ 80 sikkə dəyərində xums verilmiş halda qalsa və gələn ilin qızıl sikkələrinin qiyməti artan zaman o şəxsin sərmayəsi 80 sikkə dəyərində qalsa, ona xums düşər, yoxsa yox? O şəxsə, qiymətlərdə yaranan bahalaşmanın xumsunu vermək vacibdirmi?

Cavab: Xumsu verilmiş sərmayənin çıxılmasında meyar əsl sərmayənin özüdür. Əgər işlədilən əsl sərmayə “azadlıq baharı” növündən olan qızıl sikkələridirsə, onda xums ilinin əvvəlində həmin xums verilmiş sikkələr çıxılar. Baxmayaraq ki, onun qiyməti riyalın dəyəri hesabına keçən illə müqayisədə qalxıbdır. Amma onun sərmayəsi nəqdi pul olsa və onu xums ilinin əvvəlində qızıl sikkələrlə hesablayıb xumsunu veribsə, onda o gələn xums ilinin əvvəlində sikkələrin sayını yox, yalnız keçən il hesabladığı sikkələrin dəyərini ayıra bilər. Buna görə də əgər gələn il sikkələrin qiyməti qalxsa, həmin artan miqdar çıxılmaz, əksinə qazanc hesab olunar və xumsunu də vermək vacibdir.

## Xums ilinin təyin edilməsi

---

Sual: **1004**. Bir nəfər arxayındır ki, illik qazancından ilin sonuna qədər heç bir şey qalmayacaq və onun bütün mədaxil və qazancları il ərzində dolanışıq xərclərinə sərf olunacaq. Bunlarla yanaşı, o şəxsə özü üçün xums ili təyin etmək vacibdirmi? İlin əvvəlini müəyyənləşdirmək vacibdirmi? İlin axırına artıq bir şey qalmayacağına arxayın olan adam özü üçün il əvvəli müəyyənləşdirməsə, hökmü nədir?

Cavab: Xums ilinin başlanması mükəlləf tərəfindən müəyyənləşdirməklə deyildir. O, həqiqi və baş verəsi bir işdir və qazanc mənbələrində məşğul olan şəxslərin qazanca başlaması, əkinçiliklə məşğul olanlar üçün məhsul yığımının gəlib çatması və fəhlə və qulluqçuların zəhmət haqlarının hasil olması ilə başlanır. İl başının sayılması və illik mədaxilin hesablanması müstəqil şəkildə vacib deyildir. Həqiqətdə bu, boynuna vacibi xumslərin gəlməsini bilmək üçün bir yol olduğuna görə vacib olmuşdur. Əgər onun qazancından bir şey qalmasa və bütün qazandıqlarını dolanışıq xərclərinə sərf etsə, onda ona heç bir şey vacib deyildir.

---

Sual: **1005**. Xums ilinin başlanğıcı işə məşğul olunan birinci aydır, yoxsa ilk dəfə maaş alınan ay?

Cavab: Fəhlə və qulluqçular üçün xums ilinin başlanması maaş alınan və ya alınması mümkün olan birinci gündür.

---

Sual: **1006**. Xums vermək üçün ilin başlancığını necə təyin etmək olar?

Cavab: Fəhlə və qulluqçular üçün xums ili onların işlərindən ilk dəfə qazanc hasil olan tarixdən başlanır. Amma ticarətçilər üçün, xums ili onların al-verə başladığı tarixdən hesablanır.

---

Sual: **1007.** Ata-anaları ilə birlikdə yaşayan subay cavanlar üçün xums ili təyin etmək vacibdirmi?

Onların ili nə vaxtdan başlanır və onu necə hesablayırlar?

Cavab: Əgər subay gənclərin şəxsi qazancı varsa (hətta az da olsa), onda onlara vacibdir ki, xums ilinin əvvəlini yadda saxlasın və illik mədaxilini hesablasın, əgər ilin axırına bir şey qalsa, gərək xumsunu versin. Onların xums ili ilk dəfə qazanc hasil olan tarixdən başlanır.

---

Sual: **1008**. Aylıq maaşlarını evin ümumi xərclərinə müştərək şəkildə xərcləyən ər-arvad xums ilini müştərək olaraq təyin edə bilərlərmi?

Cavab: Onların hər biri üçün müstəqil xums ili olmalıdır və vacibdir ki, xums ilinin sonunda maaşlarından və illik mədaxillərindən artıq qalanının xumsunu versinlər.

---

Sual: **1009**. Mən həzrət imam Xomeyniyə (r.ə) təqlid edən evdar qadınam. Ərim özü üçün xums ili təyin edib və hər il öz malının xumsunu verir. Mən də bəzən evə qazanc gətirirəm. Mümkündürmü ki, mən də özüm üçün xums ili təyin edim və onun əvvəlini ilk dəfə pul qazandığım, lakin xumsunu vermədiyim vaxtdan hesablayım, ilin axırında da dolanışıqdan artıq qalanının xumsunu verim? Həmçinin, ilin ortasında ziyarət, hədiyyə və bu kimi şeylərə xərclədiyim pullara xums düşərmi?

Cavab: Sizin üçün vacibdir ki, ilk dəfə olan qazancınızın tarixini xums ilinin əvvəli təyin edəsiniz. Xums ili ərzində illik qazanc və mədaxilinizdən xərclədiklərinizə, o cümlədən qeyd etdiyiniz şəxsi məsrəflərə və bu kimi şeylərə xums düşmür. İllik qazanclarınızdan, həmin ilin dolanışıq xərclərindən xums ilinin əvvəlinə bir şey artıq qalarsa, onda sizə vacibdir ki, onun xumsunu verəsiniz.

---

Sual: **1010**. Xums ilinin təyin olunması və hesablanması şəmsi ili ilə vacibdir, yoxsa qəməri ili ilə?

Cavab: Mükəlləf bu işdə ixtiyar sahibidir.

---

Sual: **1011**. Bir nəfər deyir ki, mənim xums ilim ilin 11-ci ayıdır. Lakin o şəxs bunu yaddan çıxarıb və mallarının xumsunu verməmiş, o pullardan öz evi üçün xalça, saat və yorğan-döşək alıb. Hal-hazırda da istəyir ki, xums ilinin vaxtını dəyişdirsin və ramazan ayını özü üçün il təyin etsin. Onu da qeyd edək ki, həmin şəxsin bu və keçən ilin hesabından 83 min tümən borcu vardır və onu bir neçə dəfəyə verməklə ödəyər. Həmin malların xumsu barədə nə buyurursunuz?

Cavab: İldən keçən vaxtın qazanclarının xumsunu verməyincə, xums ilinin vaxtını gecikdirmək və ya tezləşdirmək düzgün deyildir. Bu da o şərtlə ki, xums sahiblərinə zərər dəyməsin. Amma xumsu verilməmiş pulla alınan mallara gəldikdə isə, onlarda xums miqdarında işlədilən pul füzuli hesab olunur və o da xums işlərinə rəhbərlik edən şəxs və ya onun vəkilinin icazəsinə bağlıdır. İcazə verildikdən sonra vacibdir ki, onların indiki qiymətlə xumsunu versin.

---

Sual: **1012**. Mümkündürmü ki, insan öz xumslərini özü hesablasın və ondan sonra verilməsi vacib olan məbləği Sizin vəkillərinizə versin?

Cavab: Bu iş xums ili olan şəxslər üçün düzgündür.

## Xums işlərinə öhdədar olan şəxs və xumsun sərf olunma yerləri

---

Sual: **1013**. Sizin xums haqqında olan cavablarınızdan birində oxudum ki, onu xums işlərinə öhdədar olan şəxsə və ya onun vəkilinə verin. Sualım budur ki, Siz xums işlərinin öhdədarı dedikdə, kimi nəzərdə tutursunuz, ümumi olaraq müctehidləri və ya müsəlmanların vəliyyi-əmrini?

Cavab: Xumsə öhdədar olan şəxs müsəlmanların işlərinə rəhbərlik edən vəliyyi-əmrdir.

---

Sual: **1014**. Seyid malını xeyriyyə işlərində, məsələn seyidlərin toyunda xərcləməyə icazə verilirmi?

Cavab: Seyid malı imam malı kimi xums işlərinə öhdədar olan şəxsə aiddir və onun xüsusi icazəsi olsa, qeyd olunan yerlərdə sərf etməyin heç bir maneçiliyi yoxdur.

---

Sual: **1015**. İmam malını xeyriyyə işlərində, məsələn elmiyyə hövzələrində və ya yetimlər evində sərf etmək üçün təqlid olunan müctehiddən icazə almaq zəruridir, yoxsa hər hansı bir müctehiddən icazə alınsa kifayət edər? Ümumiyyətlə müctehiddən icazə almaq zəruridirmi?

Cavab: Hər iki malın (həm imam malı və həm də seyid malının) işi ümumi şəkildə müsəlmanların vəliyyi-əmrinə aiddir. Hər kəsin boynunda, yaxud malında İmamın (ə) haqqı və ya seyid malı olsa, o şəxsə vacibdir ki, onu xums işlərinə öhdədar olan şəxsə və ya onun tərəfindən icazəli olan vəkilə təqdim etsin. Bunları müəyyən yerlərə sərf etmək istədikdə, ona vacibdir ki, verməzdən qabaq bu barədə icazə alsın. Bunlarla yanaşı, gərək mükəlləf bu barədə təqlid etdiyi müctehidin də fitvasına riayət etsin.

---

Sual: **1016**. Şəriət hakimi və mərceyi-təqlid ayrı-ayrı şəxslər olsa, onda xumsu onların hansına vermək vacibdir?

Cavab: Xumsu müsəlmanların işlərinə rəhbərlik edən xums işləri sahibinə təqdim etmək -əgər təqlid etdiyi müctehidin fitvası ayrı şəkildə olmasa- vacibdir.

---

Sual: **1017**. Sizin nümayəndələriniz, yaxud şəri vergiləri almağa vəkil olmayan şəxslər, onlara verilən imam malını və seyid malını aldıqdan sonra onu verən şəxslərə qəbz verməlidirlərmi?

Cavab: Şəri vergiləri bizim hörmətli nümayəndələrimizə və ya dəftərimizə çatdırmaq üçün başqa şəxslərə verən adamlar onlardan o məbləğin bizə çatması barədə möhürümüz olan qəbz tələb etsinlər.

---

Sual: **1018**. Bəzi şəxslər və ya Sizin nümayəndələriniz onlara verilən imam malını və seyid malını aldıqdan sonra qəbz verməsələr, həmin xums onu verənin boynundan götürülərmi?

Cavab: Müxtəlif hallar ola bilər, bizim məşhur nümayəndələrimiz istisna olunmaqla, əgər başqa şəxslər bizim qəbzlərimizdən verməsələr, onda bundan sonra bizə çatmalı olan şəri vergiləri o şəxslərə təqdim etməyin.

---

Sual: **1019**. Həzrəti imam Xomeyninin (r.ə) müqəllidləri öz mallarının xumsunu kimə versinlər?

Cavab: Onlar onu bizim Tehrandakı dəftərimizə göndərə və yaxud da bizim şəhərlərdə icazəli nümayəndələrimizə təqdim edə bilərlər.

---

Sual: **1020**. Bəzi vaxtlarda xumsu, Sizin yerlərdəki nümayəndələrinizə verən zaman, onu (imam malını) özümüzə qaytarıb deyirlər ki, bu barədə Sizdən icazə alıblar. Bizə qaytarılan məbləği öz ailə işlərimizdə sərf etməyə icazə verilirmi?

Cavab: Əgər o şəxslərin bizim tərəfimizdən icazəli olmasına şübhə etsəniz, onda mədəni şəkildə onlardan yazılı icazəni göstərməyi və yaxud da pulların çatması barədə bizim möhürümüz olan qəbz tələb edin. Əgər o şəxslər icazəyə uyğun şəkildə əməl ediblərsə, onda bu iş imza olunmuşdur.

---

Sual: **1021**. Bir nəfər xumsu verilməmiş puldan bir neçə qat bahasına bir ev alıb və onun təmir işlərinə böyük məbləğdə pul xərcləyib. Sonra həmin evi həddi-büluğa çatmayan oğluna bağışlayıb, rəsmi şəkildə onun adına keçirib. Evi bağışlayan şəxsin hal-hazırda sağ olmasını nəzərə almaqla, həmin mükəlləfin xums məsələsi necə olmalıdır?

Cavab: Əgər evin alınmasına və təmirinə xərclənən pullar illik qazancdan olubsa və həmin ildə o evi övladına hədiyyə etmək xalqın nəzərində onun öz səviyyəsinə uyğun olubsa, onda bu işdə ona xums düşməz. Əgər belə olmasa, onda vacibdir ki, o evin xumsunu versin. Hədiyyənin xums miqdarı füzuli hesab olunur və icazədən asılıdır.

# Seyid malı

## Seyidliyin çatması

---

Sual: **1022**. Mənim anam seyiddir və xahiş edirəm aşağıdakı Suallara cavab verəsiniz:

1) Mən seyid sayılırammı?

2) Mənim övladlarım və onların uşaqları seyid sayılırmı?

3) Ata tərəfdən seyid olanlarla ana tərəfdən seyid olanların fərqi nədir?

Cavab: Seyidlər üçün şəri hökmlərin icra olunmasındakı meyar, onlara ata tərəfdən seydliyin çatmasıdır. Lakin, ana tərəfdən həzrət Rəsulullaha (səlləllahu əleyhi və alihi və səlləm) çatanlar da o həzrətin övladı hesab olunurlar.

---

Sual: **1023**. Əbbas ibni Əli ibni Əbu Talibin (ə) övladları üçün də başqa seyidlərə aid olunan hökmlər vardırmı? Məsələn, bu ailəyə nəsəbi çatan dini tələbələr seyid paltarı geyinə bilərlərmi? Eləcə də Əqil ibni Əbu Talibin (ə) övladlarına da bu hökmlər aiddirmi?

Cavab: Nəsəbi Əbbas ibni Əli ibni Əbu Talibə (ə) çatan şəxslər Ələvi seyidləri hesab olunurlar və haşimi tayfasından olan bütün Ələvi və Əqili seyidlərinin haşimilərə məxsus olan bütün imtiyazlardan istifadə etmək haqları vardır.

---

Sual: **1024**. Son vaxtlarda atamın əmisi oğlanlarından birinin şəxsi vəsiqəsi tapılıb. Orada vəsiqə sahibinin seyid olması yazılmışdı. Qohum-əqrəbaların arasında bizim seyid olmağımızın məşhur olmasını və son zamanlarda hasil olan aşkar dəlili nəzərə almaqla, mənim seyidliyimin hökmü barəsində Sizin nəzəriniz necədir?

Cavab: Təkcə qohumlardan birində belə bir vəsiqənin olması şəri cəhətdən sizin seyid olmağınız üçün dəlil ola bilməz. Seyid olmağınız barədə tam xatircəmlik hasil olmayınca, yaxud bu haqda şəri bir höccətə istinad olmayınca, siz seyidlərə aid olan şəri hökmlərə əməl edə bilməzsiniz.

---

Sual: **1025**. Bir uşağı oğulluğa götürmüşəm və adını Əli qoymuşam. Ona sənəd düzəltmək üçün şəhər sovetinə müraciət etdikdə, oğulluğa götürdüyüm uşağın adını mənə seyid ləqəbi ilə təqdim etdilər. Mən isə bu işi qəbul etmədim, çünki cəddim Peyğəmbər səlləllahu əleyhi və alihi və səlləmdən qorxuram. İndi mən iki işin arasında qalmışam: Bu uşağı oğulluqdan çıxarım, yoxsa bu günaha (yəni, seyid olmayanı seyidliyə qəbul etmək kimi günaha) batım?! Xahiş edirəm, mənə aydınlaşdırasınız ki, bu iki yoldan hansını seçim.

Cavab: Oğulluğa götürməklə şəri cəhətdən həqiqi oğulluq hökmləri icra olunmaz və doğma atası seyid olmayan şəxslər üçün seyidlərə məxsus olan hökmlər icra olunmaz. Amma hər halda, valideyn qayğısından məhrum olan sahibsiz uşağı himayəyə götürmək çox gözəl bir işdir və şəri cəhətdən bəyənilir.

## Sərf olunma yerləri, icazələr, hədiyyələr və elmiyyə hövzələrindən verilən aylıq təqaüd

---

Sual: **1026**. Bəzi şəxslər özbaşına olaraq seyidlərin işıq və su pullarını ödəyirlər. Bu şeyləri xumsə hesablamağa icazə verilirmi?

Cavab: Bu vaxta qədər seyid malı adı ilə ödənən bu məbləğlər məqbul hesab olunur, lakin bundan sonra bu kimi işləri görmək üçün icazə almaq vacibdir.

---

Sual: **1027**. Siz imam malının üçdə bir hissəsinin dini kitabların alınıb paylanmasında sərf olunmasına icazə verirsinizmi?

Cavab: Əgər bizim səlahiyyətli nümayəndələrimiz faydalı olan dini kitabların alınıb paylanmasını məsləhət görsələr, onda onlara icazə verilir ki, müəyyən şəri yerlərdə, onlar üçün xərclənməsinə icazə verilən üçdə bir hissədən bu işləri görsünlər.

---

Sual: **1028**. Ərə getmiş, övladı da olan, lakin əri qeyri-ələvi və fəqir olan bir kasıb ələvi qadına seyid malı verməyə icazə verilirmi? Bundan da əlavə, əgər icazə verilirsə, həmin məbləği ərinə və övladlarına xərcləyə bilərmi?

Cavab: Əgər əri fəqir olduğu üçün yoldaşını maddi cəhətdən təmin etməyə aciz olsa və o qadın da şəri baxımdan fəqir olsa, onda ona öz ehtiyaclarını ödəmək üçün seyid malı götürməyə icazə verilir və o götürdüklərindən özünə, övladlarına və hətta ərinə də xərcləyə bilər.

---

Sual: **1029**. Hövzəvi gəlirlər istisna olmaqla, başqa yerdən dolanışığını ödəyəcək qədər gəliri olan şəxslərin imam malı və ya seyid malı almaqlarının hökmü necədir?

Cavab: Şəri cəhətdən müstəhəq (layiq) olmayan və elmiyyə hövzələrinin maaş qanunlarına şamil edilməyən şəxslər imam malı və seyid malı ala bilməzlər.

---

Sual: **1030**. Bir nəfər ələvi qız iddia edir ki, atası ailədə onlara qarşı çox xəsislik edir və onların vəziyyəti o yerə çatıb ki, özlərinə pul qazanmaq üçün məscidin qarşısında oturub dilənçilik edirlər. Digər tərəfdən də o yerin camaatı bilir ki, o seyid (onların atası) varlıdır, lakin öz ailəsinə qarşı çox xəsislik edir. Fərz edək ki, ata onlara yemək və paltar verməyi özünə vacib bilir və deyir ki, başqa şeylər, məsələn qadına məxsus olan əşyalar və ya kiçik uşaqlara verilən gündəlik xərclik mənə vacib deyildir. Onlara ehtiyaclarını ödəyəcək qədər seyid malı verməyə icazə verilirmi?

Cavab: Birinci surətdə, əgər onlar atalarından maddi təminat ala bilməsələr, onda icazə verilir ki, onlara təmin edəcək qədər seyid malı verilsin. İkinci surətdə də, əgər onların yemək, paltar və məskəndən əlavə, öz səviyyələrinə uyğun olan başqa ehtiyacları da varsa, onda onlara ehtiyaclarını ödəyəcək qədər seyid malı verməyə icazə verilir.

---

Sual: **1031**. Özbaşına olaraq ehtiyacı olan seyidlərə seyid malı verməyə icazə verilirmi?

Cavab: Üzərində seyid malı olan şəxslərə vacibdir ki, bu işdə icazə alsınlar.

---

Sual: **1032**. Sizin müqəllidləriniz seyid malını fəqir seyidlərə verə bilərlər, yoxsa onlara vacibdir ki, xumsun hamısını (yəni həm imam və həm də seyid malını) şəri yerlərdə sərf etmək üçün Sizin nümayəndələrinizə təqdim etsinlər?

Cavab: Bu barədə imam malı ilə seyid malının arasında heç bir fərq yoxdur.

---

Sual: **1033**. Şəri vergilər (xums, məzləmə, zəkat) hökumətin işlərindən hesab olunur, yoxsa yox? Üzərində xumsu olan şəxs özbaşına seyid malını, məzləmə və zəkatı müstəhəqqinə verə bilərmi?

Cavab: Zəkat və məzləməni vəziyyəti ağır olan dindar fəqirlərə verməyə icazə verilir. Xumsu isə bizim dəftərimizə və ya müəyyən olunmuş şəri yerlərdə sərf etmək üçün səlahiyyətli nümayəndələrimizdən birinə təqdim etmək vacibdir.

---

Sual: **1034**. İş yeri və qazanc mənbəyi olan seyidlərə xums vermək olar, yoxsa yox? Xahiş edirik, bu məsələni izah edəsiniz.

Cavab: Əgər onların gəliri xalqın nəzərində öz səviyyələrinə uyğun olan normal şəkildə dolanışıqlarına kifayət edərsə, onda onlar xumsə müstəhəq deyildir.

---

Sual: **1035**. Mən 25 yaşlı qulluqçu bir gəncəm. Hələ də subayam və ata-anamla birlikdə yaşayıram. 4 ildir ki, ailənin bütün təminatını mən ödəyirəm. Atam qoca kişidir, heç bir yerdə işləmir və heç bir yerdən də maddi gəliri yoxdur. Bir tərəfdən mənim illik xumsumü verməyə imkanım yoxdur, digər tərəfdən də ailənin bütün dolanışıq xərcləri mənim üzərimdədir və

hətta 19 min tümən keçən ilin xumsunə borcum var ki, onu da yazmışam, olanda verəcəyəm. Bütün bunları nəzərə almaqla, xahiş edirəm izah edəsiniz ki, mən illik qazancımın xumsunu ata-anama və bu kimi yaxınlarıma verə bilərəmmi?

Cavab: Əgər ata-ananızın gündəlik dolanışıq üçün maddi imkanları yoxdursa və onları təmin etməyə sizin imkanınız çatırsa, onda bu iş sizə vacibdir. İcazə verilmir ki, şəri cəhətdən sizə vacib olan bu təminatı üzərinizdə verilməsi vacib olan xumsə hesablayasınız.

---

Sual: **1036**. Mənim boynumda 100 min tümən məbləğində imam malı vardır və vacibdir ki, onu Sizə təqdim edim. Digər tərəfdən də burada yardıma ehtiyacı olan bir məscid vardır. İcazə verirsinizmi ki, o məbləği məscidin tikinti və tamamlama işlərinə sərf etmək üçün həmin məscidin imam camaatına verək?

Cavab: Hal-hazırda imam və seyid malını elmiyyə hövzələrinin idarə olunmasında sərf olunmasını lazım bilirəm. Amma məscid binasının tamamlanmasına gəldikdə isə, onun üçün möminlərin yardımlarından istifadə etmək mümkündür.

---

Sual: **1037**. Mülahizələrə görə, ehtimal verilir ki, atamız sağ olarkən öz malının xumsunu tam şəkildə verməmişdir. Biz onun mülkündən bir qədər torpaq sahəsini xəstəxana tikintisi üçün hədiyyə etmişik. O yeri mərhum atamızın malının xumsundən hesablamağa icazə verilirmi?

Cavab: O yer xumsdən hesab olunmaz.

---

Sual: **1038**. Hansı yerdə xumsu, onu verən şəxsin özünə hədiyyə etmək olar?

Cavab: İki mübarək hissələr, yəni imam və seyid malı hədiyyə olunası deyillər.

---

Sual: **1039**. Əgər bir nəfərin xums ilinin sonunda dolanışığından artıq qalan 100 min tümən pulu olsa və bu məbləğin xumsunu versə, gələn il isə artıq qalan məbləğ 150 min tümənə qalxsa, o şəxs yeni ildə 50 min tümənin xumsunu verməlidir, yoxsa bir daha bütövlükdə 150 min tümənin?

Cavab: Xumsu verilən pul yeni ildə xərclənməyib öz vəziyyətində qalsa, ona bir daha xums düşməz. Amma əgər illik dolanışığında həm o ilin qazancından, həm də xumsu verilmiş puldan xərcləsə, onda ona vacibdir ki, ilin sonunda artıq qalan məbləğdən xumsu verilənləri çıxsın və qalanının xumsunu versin.

---

Sual: **1040**. Hələ də evlənməyən və yaşamaq üçün evi olmayan dini təhsil alan tələbələrin təbliğ, iş və ya imam malından əldə etdiyi qazanca xums düşürmü? Yaxud onlar xums vermədən o pulları -əgər xumsdən istisna olunarsa- evlənmək xərcləri üçün ehtiyatda saxlaya bilərlər?

Cavab: Elmiyyə hövzələrində təhsilə məşğul olan möhtərəm tələbələrin müctehidlər tərəfindən hədiyyə olunan şəri maaşlarına xums düşməz. Amma təbliğ, işləmək və bu kimi şeylərdən əldə edilən qazancın özü xums ilinin sonuna qalsa, onlara vacibdir ki, xumsunu versinlər.

---

Sual: **1041**. Bir nəfərin ehtiyat üçün pulu var və onda xumslü pulla xumsu verilmiş pul bir-birinə qarışmış haldadır. Həmin şəxs bəzi vaxtlarda o puldan öz təminatı üçün götürür və bəzi vaxtlarda da onun üzərinə bir qədər əlavə edir. Xumsu verilən pulun miqdarının məlum olmasını nəzərə almaqla, ehtiyatda olan bütün pulların xumsunu vermək lazımdır, yoxsa təkcə xumsu verilməyən pulların?

Cavab: O şəxsə vacibdir ki, bütün pullardan xumsu verilənləri çıxsın və qalanının xumsunu versin.

Sual: **1042**. Bir neçə il bundan qabaq alınıb saxlanan kəfənin xumsunu indiki qiymətlə vermək vacibdir, yoxsa alındığı qiymətlə?

Cavab: Kəfən almaq üçün verilən pulun xumsu verilmişdirsə, onda ona xums düşmür, amma əgər belə olmasa, onda ona indiki qiymətlə xums vermək vacibdir.

Sual: **1043**. Mən dini təhsil alan tələbəyəm. Özümdə müəyyən qədər pul var idi, bir qədər də başqaları yardım etdi. Bir miqdar da seyid malı və borc götürməklə kiçik bir ev aldım. İndi isə o evi satmışam. Əgər bu pulun üstündən bir il keçsə və ev almasam, ona xums gələrmi?

Cavab: Əgər evi elmiyyə hövzəsindən verilən maaş, xeyriyyə yardımları və şəri vergilərdən alıbsınızsa, onda satdığın evin puluna xums düşməz.

## Xumsə aid olan müxtəlif məsələlər

Sual: **1044**. Qiymətlərin sabit olmamasını nəzərə almaqla, şəri vergiləri dollara çevirmək olarmı?

Cavab: Üzərində şəri vergisi olan şəxslərə bu işi görməyə icazə verilir. Lakin ona vacibdir ki, verəcəyi vergini həmin günün qiyməti ilə hesablayıb təhvil versin. Vəliyyi-əmr tərəfindən olan nümayəndə etibarlı alan şəri vergiləri olan zaman icazəsi olmasa, həmin pulu başqa pul vahidinə çevirə bilməz. Qiymətlərin dəyişməsi isə vergilərin başqa pul vahidinə çevrilməsində heç bir maneə yaratmır.

Sual: **1045**. Bir mədəniyyət müəssisəsi yaradılıb və onun da nəzdində gələcəkdə maddi ehtiyaclarını ödəmək üçün sərmayəsi şəri vergilərdən olan bir ticarət şöbəsi açılıb. O şöbənin qazancına xums vermək vacibdirmi? Onun xumsunu müəssisəyə lazım olan işlərdə sərf etmək olarmı?

Cavab: Sərf olunması qadağan, müəyyən olunmuş yerlərdə işlədilməsi vacib olan şəri vergilərlə ticarət etmək işkallıdır. Hətta onun qazancının mədəniyyət müəssisəsi üçün xərclənməsi nəzərdə tutulsa da. Onunla ticarət olunan təqdirdə, qazanc şəriətdə müəyyən olunmuş yerlərdə xərclənərsə, sərmayəyə tabedir və ona xums düşməz. Bəli, müəssisəyə hədiyyə olunmuş yardımlarla ticarət etmək pis deyildir və əgər sərmayə şəxsi yox, ümumi və müəssisənin olsa, onda onun qazanclarına xums düşməz.

Sual: **1046**. Əgər bir şeyin xumsunu verib-verməmək barəsində şəkk etsəm və daha çox xumsun verilməsi ehtimalı nəzərə gəlsə, onda nə etmək lazımdır?

Cavab: Əgər şəkk olunan şeyə xumsun gəlməsi yəqindirsə, onda vacibdir ki, xumsu verməklə yəqinlik hasil olsun.

Sual: **1047**. Ümumi olaraq xalqın buğdasını çəkən dəyirmana xums gələr, yoxsa yox?

Cavab: Əgər dəyirman ümumxalq üçün vəqf olunubsa, onda ona xums düşməz.

Sual: **1048**. Yeddi il bundan qabaq boynuma müəyyən məbləğdə xums gəlmişdi. Onu müctehidlə “alıb-qaytarma” etdikdən sonra, bir hissəsini ödəmişəm və qalanı boynumda qalır. Bu vaxta qədər boynumda olan o məbləği ödəyə bilməmişəm. Mənim vəzifəm nədir?

Cavab: Təkcə hal-hazırda onu ödəmək üçün aciz olmaqla, insanın boynundan götürülməz və vacibdir ki, tədricən, imkanınız olduqca o borcları ödəyəsiniz.

---

Sual: **1049**. Atamın vaxtı ilə xums vacib olmayan şeylərə verdiyi məbləği, indiki malların xumsundən hesablamaq mümkündürmü?

Cavab: Əvvəllər verilən pul indiki xums borclarınızdan hesab olunmaz.

---

Sual: **1050**. Həddi-büluğa çatmayan övladlarıma xums-zəkat vacib olarmı?

Cavab: Həddi-büluğa çatmayan şəxslərin malına zəkat gəlməz. Amma mallarının qazancından başqa şeylərə xums gəlsə, onda ona şəri cəhətdən sahib sayılan şəxsə vacibdir ki, onların xumsunu versin. Çünki, o sahibə həmin qazancların xumsunu vermək vaciib deyildir və ehtiyata görə uşağa vacibdir ki, həddi-büluğa çatdıqdan sonra onun xumsunu versin.

---

Sual: **1051**. Əgər bir nəfər xərclənməsi müctehidlərdən birinin icazəsi ilə olan şəri vergilərdən və imam malından bir dini mədrəsə, yaxud hüseyniyyə tikdirsə, o şəxsin haqqı vardırmı ki, boynunda olan şəri vergiləri vermək adı ilə sərf etdiyi pulları və ya yeri geri götürsün, yaxud o binanı satsın?

Cavab: Əgər o pulları şəri vergiləri verməsi vacib olan şəxsin icazəsi ilə mədrəsə və ya bu kimi şeylərin tikintisinə sərf edibsə və bu işdə onun şəri vergiləri vermək niyyəti olubsa, onda o şəxsin bundan sonra o şeyləri geri götürmək haqqı yoxdur və onlardan şəxsi mülkü kimi istifadə edə bilməz.

# Sahibsiz və ümumi mallar ( ənfal)

---

Sual: **1052**. Şəhərlərin torpaq qanununa əsasən:

1) İstifadəsiz ərazilər ənfalın bir hissəsidir və İslam hökmumətinin ixtiyarındadır.

2) Ölkə torpaqlarının sahiblərinə vacibdir ki, şəhərlərdə hökumətin və eləcə də yerli hökmumətin ehtiyacı olan əraziləri onlara, həmin məntəqədəki torpaqların qiymətinə satsınlar.

Sualım budur ki: 1) Əgər bir nəfər istifadəsiz torpağı (o yerin sənədi bu şəxsin adınadır, lakin o sənəd bu qanuna əsasən etibardan düşüb) imam və seyid malı adı ilə versə, hökmü necə olar?

2) Əgər bir nəfərin torpaq sahəsi olsa və onu hökumətə və ya yerli hökumətə satmaq (qanuna əsasən) məsuliyyəti daşısa, o yerlərin ümumxalq malından olub-olmamasından asılı olmayaraq, onu imam və seyid malı adı ilə təhvil versə, hökmü necə olar?

Cavab: Əsas etibarı ilə istifadəsiz torpaqları (o yerlər barədə sənədi olanların şəxsi mülkünə çevrilməzdən qabaq) xums adı ilə vermək və ya boynunda olan xums borclarından hesab etmək düzgün deyildir. Həmçinin, hökumət orqanları tərəfindən qanuna müvafiq şəkildə vətəndaşlardan satın və ya pulsuz alınan şəxsi torpaq sahələrinin sahibləri də onlardan alınan torpaq sahələrini xums adı ilə verə bilməz və ya boynunda olan borcu xumsdən hesablaya bilməzlər.

---

Sual: **1053**. Bir nəfər kərpic zavodlarının birinin qonşuluğunda özü üçün torpaq sahəsi alır və məqsədində də var ki, o yerlərin torpağını satmaqla pul qazansın. Bu, “sahibsiz mallar”-dan hesab olunurmu? Tutaq ki, o yerlər “sahibsiz mallar” hesab olunmur, bu halda dövlətin o torpaqlar üçün vergi tələb etmək haqqı varmı? Onu da nəzərinizə çatdırım ki, yerli hökumət orqanları oradan 10 % gəlir vergisi alır.

Cavab: Əgər bu, İranın İslam Şura Məclisinin (parlamentin) qəbul etdiyi qanuna istinad edilirsə və bu da qanun məhkəməsi (konstitusiya məhkəməsi) məhkəməsi tərəfindən təsdiq olunubsa, onda bu iş düzgün hesab olunur.

---

Sual: **1054**. Yerli hökumət orqanları çayların məcrasından qum çıxarıb, şəhər binalarının tikintisində və başqa yerlərdə işlətməkdə xüsusi hüquqa malikdirmi? Bu hüquqa icazə verildiyi halda, hökumət orqanlarından olmayan başqa bir şəxs o yerlərin özünün xüsusi mülkü olmasını iddia etsə, onun iddiası dinlənilməlidir, yoxsa yox?

Cavab: Bu iş üçün yerli hökumət orqanlarına icazə verilir və ayrı-ayrı şəxslərin böyük çayların məcrasındakı mülkiyyət iddiası qəbul edilməz.

---

Sual: **1055**. Heyvandarlıqla məşğul olan köçəri tayfaların öz otlaq sahələrindən (yenidən oraya qayıtmaq məqsədi ilə) köçməsi onların o yerlərdən istifadə etməkdə üstünlük haqlarının əllərindən çıxmasına səbəb olarmı? (Hər tayfanın öz otlaq sahəsi var.) Onu da nəzərə almaq lazımdır ki, köç məsələsi bu tayfalar üçün həmişə olub və yenə də davam edir.

Cavab: Otlaqlardan köçdükdən sonra, o yerlərdə onların şəri cəhətdən üstünlük haqlarının qalması “işkal məhəlli”-dir və bu işdə ehtiyat etmək yaxşıdır.

---

Sual: **1056**. Bir kəndin otlaq və əkin sahələri azdır. Onun əhalisinin ümumi dolanışığı otlaq sahələrinin otunu satmaqla təmin olunurdu. Bu iş İslam İnqilabından sonra da davam edirdi. Hal-hazırda məsul şəxslər bu işi qadağan ediblər və buna görə də bu kəndin camaatı maddi cəhətdən çox çətinlik çəkir. Bu otlaqlar istifadəsiz torpaqlar olduğu halda, kəndlər şurası məclisi otlaqlardakı otun satılaraq kəndlilərin ümumi mənafeyinin təmin olunmasını qadağan edə bilərlərmi?

Cavab: Şəri cəhətdən heç kəsin şəxsi mülkü olmayan ümumi otlaq sahələrinin otunu satmağa icazə verilmir. Lakin dövlət tərəfindən olan kənd işləri məsuluna icazə verilir ki, otlaq sahələrində heyvan otarmaq üçün icazə verən şəxsdən kəndlərin abadlaşdırılması üçün bir şey alsın.

---

Sual: **1057**. Köçəri tayfalara icazə verilirmi ki, uzun illər get-gəl etdikləri yaylaq və qışlaqlara həqiqi sahib olsunlar?

Cavab: Əvvəldən heç kəsin şəxsi mülkü olmayan otlaqlar sahibsiz və ümumi mallardan hesab olunur və onun ixtiyarı müsəlmanların vəliyyi-əmrinin əlindədir. O tayfaların əvvəldən oraya get-gəl etmələri o yerlərin onların mülkiyyətinə çevrilməsinə səbəb ola bilməz.

---

Sual: **1058**. Köçəri tayfalara otlaq sahələrinin alınıb-satılması nə vaxt düzgün olar və nə vaxt düzgün olmaz?

Cavab: Sahibsiz və ümumi mallardan olan qeyri-mülki otlaq sahələrinin alınıb-satılması heç bir halda düzgün deyildir.

---

Sual: **1059**. Bizim qoyun sürülərimiz var və onları meşələrin birində otarırıq. Əlli ildən artıqdır ki, bu işlərlə məşğuluq və bu meşənin irs yolu ilə şəri cəhətdən bizə çatması barədə qanuni sənədimiz var. Bundan da əlavə, bu meşə Əmirəl-möminin (ə), imam Hüseyn (ə) və Əbülfəzlül-Əbbasa (ə) vəqf olunub. Sürü sahibləri bu yerlərdə yaşamaqla həmin meşədən istifadə edirlər. Həmçinin onların burada evi, əkin sahələri və bostanları vardır. Axır vaxtlarda meşənin qoruqçuları bizi buradan çıxarıb, oraya sahib olmaq istəyirlər. Onların bizi bu meşədən çıxarmağa haqları var, yoxsa yox?

Cavab: Vəqfin və eləcə də irs yolu ilə bir şeyin çatmasının düzgün olması, şəri cəhətdən həmin şeyin şəri mülkiyyətindən asılıdır. Əgər o meşələr və ümumi otlaq sahələri heç kəsin şəxsi mülkü olmayıbsa və orada əvvəldən əkin üçün hazırlıq və abadlıq işləri aparılmayıbsa, onda o yerlər heç kəsin şəxsi mülkü hesab olunmaz ki, o da onu vəqf etsin və ya irs yolu ilə başqasına çatdırsın. Hər halda o meşələrin əkin, yaşayış və bu kimi işlər görülən və şəri cəhətdən xüsusi mülkiyyətə çevrilən miqdarından istifadə etmək haqqı, o yer vəqf olsa ona şəri cəhətdən cavabdeh olan şəxsə, vəqf olmasa isə sahibinə məxsusdur. Amma meşənin və münbit torpaqların və ya otlaqların qalan təbii hissəsi sahibsiz və ümumi mal hesab olunur və onun işləri qanunlara müvafiq şəkildə İslam dövlətinin öhdəsindədir.

---

Sual: **1060**. Qoyun sürülərinin sahiblərinə (otarmaq icazəsi olan şəxslərə) icazə verilirmi ki, qoyunları suvarmaq üçün otlaqların kənarında olan xüsusi əkin sahələrinə keçib sahibindən icazəsiz orada olan bulaqlardan istifadə etsinlər?

Cavab: Təkcə qoyunları ayrı-ayrı şəxslərin mülkü olan otlaqlardan sürüb aparmaq icazəsi, başqasının yerində oturmaq və ya onun suyundan istifadə etməkdə kifayət etməz. Sahibinin razılığı olmasa, bu işə icazə verilmir.

# Cihad

---

Sual: **1061**. Məsum İmam (ə) qeybdə olan zaman ibtidai cihadın hökmü nədir? İmkanları geniş olan (müsəlmanların vəlliyyi-əmri) və bütün şəraitlərə malik olan fəqihə bu barədə hökm verməyə icazə verilirmi?

Cavab: Müsəlmanların vəliyyi-əmri, bütün şəraitlərə malik olan fəqih şəraitin bunu tələb etməsini gördükdə, mümkündür ki, bu hökmü verməyə icazəli olsun; hətta bu, o barədə olan rəylərin ən qüvvətlisidir.

---

Sual: **1062**. İslam dininin təhlükə qarşısında qaldığını gördükdə, onun müdafiəsinə qalxan zaman valideynlər narazı olsa, onun hökmü necə olar?

Cavab: İslam və müsəlmanların vacibi müdafiəsi valideynlərin icazəsindən asılı deyildir; lakin bununla yanaşı, çalışmaq lazımdır ki, onların da razılığı əldə olunsun.

---

Sual: **1063**. İslam ölkələrində yaşayan "Əhli-kitab" üçün "Əhlüz-zimmə"[5257] hökmü icra olunarmı?

Cavab: Onlar, təhlükəsizliyin xilafına bir iş görməyənə və yaşadıqları İslam dövlətinin qayda-qanunlarına tabe olana qədər, həmpeyman hökmündədirlər.

---

Sual: **1064**. Müsəlmanlara icazə verilirmi ki, İslam və ya küfr ölkələrində

"Əhli-kitab" və ya başqa kafirlərin kişi, yaxud arvadlarını əsir götürsünlər?

Cavab: Bu işə icazə verilmir, amma kafirlər İslam ölkələrinə hücum edərsə, hərbiçilərin əsir alınması İslam rəhbərinin əlindədir. Müsəlmanlara da başqa şəxslər kimi bu səlahiyyət verilmir.

---

Sual: **1065**. Fərz edək ki, həqiqi və Muhəmmədi İslamın qorunması bir nəfər günahsız şəxsin qurban getməsindən asılıdır. Bizə belə işlər görməyə icazə verilirmi?

Cavab: Nahaq yerə bir nəfərin qanını axıtmaq şəri cəhətdən haramdır və bu iş özü həqiqi və Muhəmmədi İslamla düz gəlmir. Buna görə də "həqiqi və Muhəmmədi İslamın qorunması bir nəfər günahsız adamın öldürülməsindən asılıdır" sözünün

mənası yoxdur. Amma, bu sözü deməkdə mükəlləfin məqsədi Allah yolunda cihada qalxmaq, həqiqi və Muhəmmədi İslamı müdafiə etmək və bu vəziyyətdə ehtimal verilən ölüb-öldürməkdirsə, onda bu müxtəlif şəkillərdə olur. Məsələn, əgər mükəlləf öz mülahizələri ilə başa düşsə ki, İslam torpaqları təhlükə qarşısındadır, onda ona vacibdir ki, hətta ölüm təhlükəsi olsa da, müdafiəyə qalxsın.

# Əmr be məruf və nəhy əz münkər və onların vacib olma şərtləri

---

Sual: **1066**. Əmr be məruf və nəhy əz münkər edən zaman yaxşı işləri tərk edən və pis işlər görən adamlar təhqir olunsa və camaatın gözü qarşısında onların şəxsiyyətinə və heysiyyətinə toxunulsa, bunun hökmü necə olar?

Cavab: Əgər bu zaman əmr və nəhy etməyin şərtlərinə və onun ədəb qaydalarına riayət olunsa, onların həddi aşılmasa, bu işin ona heç bir eybi yoxdur.

---

Sual: **1067**. İslam hökumətinin sayəsində əmr be məruf və nəhy əz münkərin xalqa vacib olmasına əsasən, təkcə dillə əmr və nəhy etmək kifayətdirmi və onun qalan mərtəbələri məsulların üzərində qalırmı? Hökumət tərəfindən verilən bu rəy hökm hesab olunur, yoxsa fitva?

Cavab: Bu, fiqhi fitva olar.

---

Sual: **1068**. Əgər pis iş görən şəxsi o işdən ayırmaq fiziki qüvvə tətbiq etmək, yaxud həbs etmək, yaxud da ona təzyiq göstərmək və ya hətta malından (onun əleyhinə tələf olunsa da belə) istifadə etməkdən asılıdırsa, bu halda hakimin izni olmadan bu vasitələrlə əmr be məruf və nəhy əz münkər etməyə icazə verilirmi?

Cavab: Bu mövzunun müxtəlif şəkilləri vardır. Ümumiyyətlə, əgər əmr be məruf və nəhy əz münkərin mərtəbələri o işi görən şəxsin canı və malından istifadə edilməsindən asılı olmasa, bu işdə heç kəsin icazə verməsinə ehtiyac yoxdur. Əksinə, bu, mükəlləflər üçün vacib olan işlərdəndir. Amma, əmr be məruf və nəhy əz münkər şifahi deməkdən başqa, əlavə şeylərdən də asılı olan yerlərə gəldikdə isə, o, İslam qanunlarının hakim olduğu və İslamın bu vacibi hökmünə əhəmiyyət verildiyi bir dövlətdə olsa, onda bu iş hakimə, xüsusi məsullara, rəsmi olan yerli qüvvələrə və səlahiyyətli məhkəmə orqanlarına həvalə olunur.

---

Sual: **1069**. Əgər çox mühüm işlərdə əmr be məruf və nəhy əz münkər etmək xəsarət yetirmək, bəzən də öldürməklə qurtaran fiziki güc tətbiq etməkdən asılıdırsa, belə yerlərdə (məsələn, günahsız bir adamın həyatını xilas etməkdə) hakimin icazəsi lazımdır, yoxsa yox?

Cavab: Əgər günahsız bir adamın qorunması və ölüm hadisəsinin qarşısının alınması bilavasitə onun gecikmədən işə qarışmasından asılıdırsa, onda icazə verilir və hətta günahsız bir şəxsi müdafiə etdiyi üçün şəri cəhətdən vacibdir də. Bu iş hakimin icazəsindən və ya başqa şəxslərin razılığının hasil olmasından asılı deyildir. Amma günahsız adamın müdafiə olunması hücum edən şəxsin öldürülməsindən asılı olsa, onda bunun müxtəlif şəkilləri var və ola bilsin ki, hökmləri də bir-birindən fərqli olsun.

---

Sual: **1070**. Başqasına əmr be məruf və nəhy əz münkər etmək istəyən şəxsin bu iş üçün qüdrətinin olması vacibdirmi? Ona nə vaxt əmr be məruf və nəhy əz münkər etmək vacibdir?

Cavab: Əmr və nəhy edən şəxsə vacibdir ki, yaxşı və pis işləri tanısın, həmçinin o, bilməlidir ki, qarşı tərəf də o işləri bilir və bununla yanaşı, onlarla şəri cəhətdən üzrsüz və bilərəkdən müxalifət edir. Eləcə də vacibdir ki, əmr be məruf və nəhy əz münkər edən şəxs müqabil tərəfə təsir etmək ehtimalı olduqda bu işə qoşulsun. Həmçinin, əmr be məruf və nəhy əz

münkərin əhəmiyyəti ilə gözlənilən zərər təhlükəsinin fərqlərini mülahizə etməklə, bu işin təhlükəsindən amanda qalsın. Amma belə olmazsa, onda bu iş ona vacib deyildir.

---

Sual: **1071**. Əgər bir nəfərin məhrəm adamlarından biri günah işlər görürsə və bu işdən çəkinmirsə, o şəxsin onunla rabitəsi necə olmalıdır?

Cavab: Əgər onunla əlaqəni kəsməklə, o şəxsin günahdan uzaqlaşmağı ehtimal verilsə, onda o şəxsə əmr be məruf və nəhy əz münkər cəhətindən vacibdir ki, rabitəni kəssin. Əks halda, əlaqəni kəsməyə icazəsi verilmir.

---

Sual: **1072**. İşdən qovulmağın qorxusundan əmr be məruf və nəhy əz münkəri tərk etməyə icazə verilirmi? Məsələn, gənc nəsillə məşğul olan təlim mərkəzlərindən birinin rəisi şəriət qanunlarının ziddinə bir iş görür və ya həmin yerdə günah işlər görülməsi üçün şərait yaradır.

Cavab: Ümumiyyətlə, əmr be məruf və nəhy əz münkər etməklə insan üçün zərər təhlükəsi yaransa, onda bu iş ona vacib deyildir.

---

Sual: **1073**. Əgər bəzi yerlərdə yaxşı işlər tərk olunsa və pis işlər adət olsa, həmçinin o yerlərdə əmr be məruf və nəhy əz münkər üçün bütün şərtlər mövcuddursa, lakin yaxşı işlərə dəvət edən və pis işlərdən çəkindirən şəxs ailə qurmamış və subay adamdırsa, həmin şəxs bu vəzifəni icra etməkdən azaddırmı?

Cavab: Əgər əmr be məruf və nəhy əz münkərin mövzu və şərtləri mövcuddursa, onda bu iş bütün mükəlləflər üçün şəri vəzifə, insani və ictimai bir zərurət, vacib hesab olunur. Mükəlləfin evli, yaxud subay olmasının bu işə dəxli yoxdur və təkcə subay olmaqla bu vəzifə heç kəsin boynundan götürülmür.

---

Sual: **1074**. Bəzi işlərin sayəsində müəyyən qüdrətə malik olan şəxsin düzgün adam olmaması, günah və xoşagəlməz işlər görməsinə dəlalət edən şahidlər olarsa, lakin onun imkan və qüdrətindən qorxsaq, bizə icazə verilirmi ki o şəxsə əmr be məruf və nəhy əz münkər etməyək, yoxsa zərər təhlükəsi olsa da bu işi görmək vacibdir?

Cavab: Əgər orada ağıla batan bir zərər təhlükəsi olsa, onda o şəxsə əmr be məruf və nəhy əz münkər etmək vacib deyildir, hətta bu vəzifə sizin üzərinizdən götürülür də. Lakin bir kəs üçün heç də yaxşı deyildir ki, mömin qardaşına nəsihət verməsin və təkcə günah işlər görən və yaxşı işləri tərk edən şəxsin vəzifəsinə, yaxud o işdən gözlənilən zərər təhlükəsinə görə əmr be məruf və nəhy əz münkər kimi bir vacib əməli tərk etsin.

---

Sual: **1075**. Bəzi yerlərdə əmr be məruf və nəhy əz münkər edən zaman günah edən şəxsin İslam qanunları və vacibləri barədə məlumatsızlığı nəticəsində, o şəxsdə dinə qarşı ikrah və sui-zənn yaranır. Digər tərəfdən də, biz bu işi tərk etdikdə o şəxs cürətlənir və digərlərinin də günaha mürtəkib olmasına, fəsad üçün şəraitin yaranmasına səbəb olur. Belə hallarda bizim vəzifəmiz nədir?

Cavab: Şərait mövcud olarkən əmr be məruf və nəhy əz münkər etmək İslam qanunlarını qorumaq və cəmiyyətin sağlamlığını hifz etmək üçün ümumi və şəri bir vəzifədir. Sırf şəkildə onun bəzi şəxslərdə İslama qarşı ikrah və ya sui-zənn yaratması gümanı ilə belə bir ciddi və mühüm vəzifəni tərk etmək lüzumu yoxdur.

---

Sual: **1076**. İslam dövləti tərəfindən fəsadın qarşısını almaq üçün təyin olunmuş məmurlar öz vəzifələrinə əməl etməsələr, camaata vacibdirmi ki, bu işi özləri görsünlər?

Cavab: Təhlükəsizlik və məhkəmə qüvvələrinə vacib olan məsələlərə ayrı-ayrı şəxslərin dəxalət etməsinə icazə verilmir. Amma qayda-qanunlara riayət etməklə, xalqın əmr be məruf və nəhy əz münkər etməsinə heç bir maneçilik yoxdur.

---

Sual: **1077**. Sərnişin daşıyan bəzi sürücülər haram hökmündə olan musiqi və qina yazılmış maqnitofon lentləri oxudurlar. Onlar heç bir nəsihət və tövsiyəyə qulaq asmır, maqnitofonu söndürmürlər. Xahiş edirik, belə bir şəraitlərin hökmünü bəyan edəsiniz. Belə şəxslərə qarşı kobud rəftar etməyə icazə verilirmi?

Cavab: Nəhy əz münkər etməyin şərtləri mövcud olarsa, sizə bu işi dillə icra etməkdən başqa heç bir şey vacib deyildir. Əgər həmin yolla onlara təsir etmək mümkün olmasa, onda vacibdir ki, haram musiqi və qina səslərini eşitməkdən özünüzü qoruyasınız. Amma əgər o səslər qeyri-ixtiyari olaraq sizin qulağınıza gəlib çatsa, onda sizə heç bir şey (günah) yoxdur.

---

Sual: **1078**. Mən xəstəxanaların birində müqəddəs həkim vəzifəsində çalışıram. Bəzi vaxtlarda xəstələrin bəzilərinin haram və yaramaz musiqi kasetlərinə qulaq asdıqlarını görürəm. Onları bu işdən ayırmaq üçün nəsihət edirəm və onlar üçün dəfələrlə etdiyim nəsihətlərin faydasız olduğunu gördükdə, həmin kaseti maqnitofondan götürüb içərisindəki yazıları pozduqdan sonra özlərinə qaytarıram. Xahiş edirəm, bəyan edəsiniz ki, mənim bu cür işlər görməyimə icazə verilir, yoxsa yox?

Cavab: Onları haram yazılara qulaq asmalarının qarşısını almaq üçün o lentlərdə yazılmış batil səsləri pozmağın heç bir maneçiliyi yoxdur, lakin bu iş lent sahibinin və ya şəriət hakiminin icazəsindən asılıdır.

---

Sual: **1079**. Bəzi evlərdə maqnitofon lentlərindən (qulaq asılmasına icazə verilib-verilməməsi məlum olmayan) musiqi səsləndirilir. Onlar bəzi möminlərə əziyyət edərək, bu musiqini son dərəcə yüksəkdən səsləndirirlər. Bu işlərin qarşısında vacib olan şey nədir?

Cavab: Camaatın evlərinə daxil olmağa icazə verilmir. Nəhy əz münkər isə mövzunun və şərtlərin mövcud olmasını müəyyənləşdirməkdən asılıdır.

---

Sual: **1080**. Hicab qaydalarına düzgün şəkildə riayət etməyən qadınlara əmr be məruf və nəhy əz münkər etməyin hökmü necədir? Əgər o şəxs dillə nəhy əz münkər etdikdə bu işin ehtiraslarına təsir edəcəyindən qorxsa, onun hökmü necə olmalıdır?

Cavab: Nəhy əz münkər etmək naməhrəmə ehtirasla baxmaqdan asılı deyildir. Hər bir mükəlləfə vacibdir ki, özlərini naməhrəmə baxmaqdan saxlasınlar. Xüsusilə, əmr be məruf və nəhy əz münkər kimi vacib bir hökmü yerinə yetirdikdə bu işə diqqətli olsunlar.

# Əmr be məruf və nəhy əz münkər etməyin keyfiyyəti

---

Sual: **1081**. Mallarının xums-zəkatını ayırmağa əhəmiyyət vermədikləri təqdirdə, övladın valideynə və arvadın ərinə qarşı vəzifəsi nədir? Xums-zəkatı verilməyən maldan, onun haramla qarışması cəhətindən istifadə etməyə icazə verilirmi? Halbuki, elə mallardan istifadə olunmaması barədə çoxlu təkidlər olunub, çünki haram mal insanın ruhunu çirkləndirər.

Cavab: Valideynlər və ya qadınların əri yaxşı işləri tərk və pis işləri görərkən onlara (övlad və qadına) vacibdir ki, şərtlər mövcud olarsa, əmr be məruf və nəhy əz münkər etsinlər. Onların malından istifadə etməyə gəldikdə isə, bunun eybi yoxdur. Amma xüsusi olaraq istifadə etmək istədikləri malda xums-zəkatın olmasını yəqin etsələr, ona icazə verilmir və vacibdir ki, xums-zəkata öhdədar olan şəxsdən bu miqdar üçün icazə alınsın.

---

Sual: **1082**. Oğul, etiqadın kamil olmaması səbəbindən öz dini vəzifələrinə əhəmiyyət verməyən valideynlərini yola gətirmək üçün hansı layiqli üslubdan istifadə etsin?

Cavab: Ona vacibdir ki, valideynlərinin ehtiramını saxlamaqla mülayim tərzdə onlara əmr be məruf və nəhy əz münkər etsin.

---

Sual: **1083**. Qardaşım şəriət və əxlaq məsələlərinə riayət etmir və bu vaxta qədər olunan nəsihətlər ona təsir etməyib. Ondan belə şeyləri müşahidə etdiyim zaman mənim üzərimə düşən vacib vəzifə nədir?

Cavab: Sizə vacibdir ki, şəri məsələlərin xilafına bir iş görən zaman ona qarşı öz narahatçılığınızı bildirəsiniz və onu qardaşcasına, məsləhət və faydalı bildiyiniz yolla danlayasınız, lakin əlaqəni kəsməyin, çünki bu işə icazə verilmir.

---

Sual: **1084**. Əvvəllər haram işlərə mürtəkib olan (məsələn şərab içən) şəxslərlə əlaqə necə olmalıdır?

Cavab: Bu işdə meyar o şəxslərin indiki vəziyyətidir. Əgər onlar gördüyü işlərdən tövbə ediblərsə, onda onlarla əlaqə başqa möminlər kimi olmalıdır. Amma hal-hazırda haram işlər görən şəxslərə gəldikdə isə, onlara əmr be məruf və nəhy əz münkər etməklə bu işlərdən çəkindirmək vacibdir. Əgər onları bu işdən ayırmaq yalnız onlardan üz döndərməklə mümkün olsa, onda vacibdir ki, həmin şəxslərdən uzaq gəzsinlər və onlarla əlaqəni kəssinlər.

---

Sual: **1085**. İslam əxlaqının ziddinə olan qərb mədəniyyəti tərəfindən olan müntəzəm hücumlar, eləcə də qeyri-islami adətlərin yayılması (məsələn, bəzi kişilərin boyunlarından qızıl asması, əlvan rəngli paltarlar geyməsi, yaxud bəzi kişi və qadınların xüsusi saatları vurması) xalqın nəzərində qəbahətli sayılır. Bəzi şəxslər hətta onlara əmr be məruf və nəhy əz münkər olunmasına baxmayaraq, bu işləri yenə də təkrarlayırlar. Xahiş edirik ki, belə şəxslərə qarşı hansı üslubdan istifadə olunmasını bəyan edəsiniz.

Cavab: Kişilərə qızıl geyinmək və boynundan asmaq mütləq şəkildə haramdır. Tikiliş, rənk və başqa cəhətdən qeyri-müsəlmanların mədəniyyət hücumlarının yayılması və təqlidi sayılan paltarların geyilməsinə icazə verilmir. Eləcə də, İslam və müsəlmanların düşmənləri tərəfindən mədəniyyət hücumu üçün təqlid sayılan şalvar və eynəklərdən də istifadə etməyə icazə verilmir. Belə yerlərdə digərlərinin üzərinə düşən vacib vəzifə, onlara dillə nəhy əz münkər etməkdən ibarətdir.

---

Sual: **1086**. Bəzi hallarda görürük ki, universitet tələbəsi və ya bir qulluqçu, dəfələrlə ona nəsihət və tövsiyələrin olunmasına baxmayaraq, günah işləri görməkdən çəkinmir, əksinə, ümumi yerlərdə fəsadın yaranmasına səbəb olan bu pis işləri təkrarlayır. Belə hallar ciddi olarsa, həmin şəxslərin idari yolla cəzalanması, məsələn, bu nöqsanları onların sənədlərində qeyd etmək kimi işlər barəsində rəyiniz necədir?

Cavab: Hamı üçün daxili qanunlara riayət etməklə bu işləri görməyin eybi yoxdur.

Əziz gənclərə tövsiyə edirəm ki, əmr be məruf və nəhy əz münkər məsələlərinə ciddi yanaşsınlar və onun şəri şərtlərini və hökmlərini diqqətlə öyrənsinlər. Onlar gərək bu mənbəni ümumiləşdirsinlər və yaxşı işlərin görülməsi, həmçinin pis işlərin qarşısını almaq üçün əxlaq qaydalarından və təsirli üslublardan istifadə etsinlər. Bu işləri görərkən şəxsi qərəzlərdən qorunsunlar. Onlar bilməlidirlər ki, bu məsələ yaxşı işlərin yayılması və pis işlərin qarşısının alınmasında ən yaxşı və təsirli üslubdur. Allah-Təala sizlərə Öz razılığında müvəffəqiyyət versin.

---

Sual: **1087**. Pis iş görən şəxsi narahat etmək üçün onun salamının cavabını qaytarmamağa icazə verilirmi?

Cavab: Əgər bu iş xalqın nəzərində pis işlərdən çəkindirən tədbir və bir növ vicdan əzabı sayılarsa, onda icazə verilir ki, nəhy əz münkər məqsədi ilə onun salamının cavabı alınmasın.

---

Sual: **1088**. Əgər məsul şəxslərə onların bəzi işçilərinin namaz kimi vacib hökmlərə qarşı səhlənkarlıq etməsi və ya onu tərk etməsi dəqiq şəkildə məlum olsa və onlara nəsihət və tövsiyələr təsir etməsə, onda belə şəxslərə qarşı hökm nədir?

Cavab: Əgər daimi olaraq şərtlərə riayət etməklə bu işə başlanılsa, onda vacibdir ki, əmr be məruf və nəhy əz münkərin təsiri unudulmasın. Onlara əmr be məruf və nəhy əz münkər etməkdən məyus olduqda isə, əgər qanun məcəllələrində belə şəxsləri vəzifə və imtiyazlardan məhrum etməyə icazə verilərsə, onda həmin şəxslərin haqqında belə cəza tədbirlərinin görülməsi vacibdir və xəbərdarlıq etmək lazımdır ki, ilahi hökmlərin yerinə yetirilməsində səhlənkarlıq etdiklərinə görə onlara qarşı bu kimi tədbirlər görülmüşdür.

## Müxtəlif məsələlər

---

Sual: **1089**. Bir müddətdir ki, mənim bacım namaz qılmayan bir kişi ilə ailə qurub. Həmişə bizimlə olduğuna görə, onunla söhbət etmək, oturub-durmaq məcburiyyətində qalıram. Hətta bəzi vaxtlarda onun tələbinə görə, ona kömək etməli oluram. Sualım budur ki, mənə onunla söhbət etməyə, oturub-durmağa və bəzi işlərində kömək etməyə icazə verilirmi? Mənim bu işdə vəzifəm nədir?

Cavab: Sizə, vacib şərtlər mövcud olarkən, müntəzəm şəkildə əmr be məruf və nəhy əz münkər etməkdən başqa bir şey vacib deyildir. Onunla oturub-durmaq və kömək etməyin (onun namaz qılmamağında cürət və cəsarəti artırmasa) eybi yoxdur.

---

Sual: **1090**. Əgər böyük alimlərin zalım və sitəmkar hökumət başçılarının yanına get-gəl etmələri və oturub-durmaları onların zülmlərinin azalmasına səbəb olarsa, bu işə icazə verilirmi?

Cavab: Əgər alimlərə belə hallarda zalımlara yaxınlaşmaqla onların zülmlərinin qarşısını almaq və ya pis işlər görməkdən çəkindirmək məlum olsa və yaxud da onlara tabe olmaq və əhəmiyyət verməkdə mühüm bir hadisə görsə, onda eybi yoxdur.

---

Sual: **1091**. Bir neçə ildir ki, ailə qurmuşam, şəri məsələlərə və dini işlərə çox əhəmiyyət verirəm. Mən həzrət imam Xomeyninin (r.ə) müqəllidiyəm. Lakin təəssüflə qeyd edim ki, mənim həyat yoldaşım dini məsələlərə çox da əhəmiyyət vermir. Bəzi vaxtlarda aramızda söz-söhbət olan zamanda bir dəfə namaz qılır və neçə dəfə qılmır. Bu iş mənə çox əzab verir. Belə hallarda mənim vəzifəm nədir?

Cavab: Sizə vacibdir ki, onun yola gəlməsi üçün hansı yolla olursa olsun, münasib şərait yaradasınız. Bu işdə heç cürə əxlaqa zidd olan kobud hərəkət və ölçülüb-biçilməmiş işlərə əl atmayın. Lakin sizə xatırladıram ki, dini məclislərdə iştirak etməyin və dindar ailələrlə get-gəl etməyin onun islah olunmasında çox təsiri vardır.

---

Sual: **1092**. Bir nəfər müsəlman kişi əlamətlərə istinad edərək xəbərdar olur ki, onun həyat yoldaşı neçə uşaq anası olduğu halda gizli şəkildə qadın iffətinə yaraşmayan işlər görür. Lakin o kişinin əlində bu məsələni sübut etmək üçün heç bir şəri dəlil (məsələn, şəhadət verməyə hazır olan şahidlərin olması kimi) yoxdur.

O kişinin övladlarının belə bir qadının himayəsində yaşayacağını nəzərə almaqla, şəri nöqteyi-nəzərdən bu qadınla necə rəftar etmək mümkündür? Ümumiyyətlə, ilahi hökmlərə müxalif olan belə çirkin işlər tutan şəxs və ya şəxslərlə (əgər onlar tanınarsa) necə davranmaq lazımdır?

Onu da bilmək lazımdır ki, şəri məhkəmələrə təqdim etmək üçün əldə bu şəxslərin əleyhinə sübut və dəlil yoxdur.

Cavab: Vacibdir ki, bu işdə sui-zənn etməkdən və günah ehtimal verilən əlamət və şahidlərin göstərilməsinə çalışmaqdan qorunsunlar. Şəri haramların baş verməsi aşkar olan halda, vacibdir ki, onu nəsihət, danlamaq və nəhy əz münkər etməklə bu işdən çəkindirsinlər. Əgər nəhy əz münkər etmək təsir etməsə, onda əgər əldə dəlil olsa, səlahiyyətli məhkəmə qüvvələrinə müraciət etmək mümkündür.

---

Sual: **1093**. Cavan qıza icazə verilirmi ki, İslam qanunlarına riayət etməklə cavan oğlana tövsiyə etsin və ona təhsildə və başqa işlərdə kömək etsin?

Cavab: Verilən Sualda bu işdə heç bir maneçilik yoxdur. Lakin yaxşı olar ki, bu işdə şeytanın hiylə və vəsvəsələrindən ciddi şəkildə qorunsunlar. Vacibdir ki, bu işdə naməhrəmlə xəlvətdə qalmamaq kimi şəri hökmlərə riayət etsinlər.

---

Sual: **1094**. İdarə və müəssisələrdə işləyən fəhlələrin öz iş yerlərində, bəzi vaxtlarda yüksək vəzifəli məsul şəxslərin idarə və şəriət qanunlarının xilafına bir iş tutmalarını gördükdə vəzifələri nədir? Əgər bu şəxs nəhy əz münkər etməklə, həmin yüksək vəzifəli məsul şəxslər tərəfindən ona zərər dəyəcəyindən qorxsa, bu vəzifə onun boynundan götürülərmi?

Cavab: Əgər əmr be məruf və nəhy əz münkər etməyin şərtləri mövcud olsa, onda gərək onlar bu vəzifəni icra etsinlər. Əgər belə olmazsa (yəni şərtlər mövcud olmazsa), onda onların üzərinə heç bir tapşırıq düşməz. Məsələn, əgər bu işdə onlar üçün zərər qorxusu olsa, onda bu vəzifə onların boynundan götürülür. Belə hallar İslam hökmlərinə əhəmiyyət verilməyən ölkələrdə olar. Amma burada İslam hökuməti olduğu üçün belə ilahi qanunlara əhəmiyyət verilir. Əmr be məruf və nəhy əz münkər etməkdə aciz olan şəxslərə vacibdir ki, hökumət tərəfindən bu işlər üzrə xüsusi şəkildə təyin olunmuş yerlərə məlumat verib, fəsad və onu törədən şəxslərin kökü kəsilənə qədər bu mövzunun arxasınca düşsünlər.

---

Sual: **1095**. Əgər idarələrin birində beytül-malın qanunsuz olaraq dağıdılmasına yol verilsə və bu iş hələ də davam etsə, bir nəfər də baxıb görsə ki, əgər bu vəzifəni öz üzərinə götürsə bu işlərin qarşısını almaq imkanına malik olar. Bu vəzifənin əldə olunması da müəyyən şəxslərə rüşvət verməklə mümkün olsa, belə olan halda beytül-malın dağıdılmasının qarşısını almaq üçün rüşvət verməyə icazə verilirmi? Həqiqətdə bu, şiddətli bir fəsadı ondan yüngülü ilə dəf etmək deməkdir.

Cavab: Şəri qanunlar pozulan zaman bu işdən xəbərdar olan şəxslərə vacibdir ki, şəriət qanunlarına və onun şərtlərinə riayət etməklə nəhy əz münkər etsinlər. Hətta fəsad baş verməsinin qarşısını almaq üçün olsa da belə, qeyri-qanuni yollar və rüşvət verməklə vəzifə əldə etməyə icazə verilmir. Bəli, əgər belə məsələlər İslam qanunlarına əhəmiyyət verilən ölkədə fərz olunsa, onda xalqa vacibdir ki, təkcə əmr be məruf və nəhy əz münkər etməkdən aciz olmaqla bu işi boşlamasınlar. Hətta onlara vacibdir ki, bu işi xüsusi yerlərə çatdırmaq və həmin məsələnin arxasınca getməklə aradan qaldırsınlar.

---

Sual: **1096**. Pis işlər, ictimai mühitlərdə mövcud olan ağır cinayətləri müqayisə etmək və bunun da sayəsində bir günahı bəzi günahların müqabilində kiçik sayaraq qarşısını almamaq, onun haram və pis iş olmasını şərt bilməyərək onunla mübarizə aparmamaq üçün nisbi bir iş sayılırmı?

Cavab: Pis işlər günah olub-olmaması cəhətindən nisbi iş sayılır. Amma mümkündür ki, öz vaxtında bəzi günahların haramlığı başqaları ilə müqayisədə daha şiddətli olsun. Hər halda nəhy əz münkər şərtləri mövcud olan şəxslər üçün şəri cəhətdən vacib bir iş sayılır və ona icazə verilmir ki, bu işi görməkdən boyun qaçırsın. Bu işdə bəzi günahların bir-birilə və hansı cəmiyyət daxilində olub-olmamasının heç bir fərqi yoxdur.

Sual: **1097**. Bəzi vaxtlarda İslam ölkəsi müəssisələrində də tapılan xarici mütəxəssislərdə olan spirtli içkilərin hökmü nədir? Onlar bu içkiləri evlərdə və ya öz yaşadıqları yerlərdə içirlər. Eləcə də onlar donuz əti əldə edib yeyirlər və camaatın qarşısında qadınların iffət və həyası ilə düz gəlməyən işlər görürlər. Zavod məsullarının və həmçinin bunlarla bağlı olan şəxslərin vəzifəsi nədir? Zavod məsulları və bu işlə bağlı təyin olunmuş xüsusi yerlər, onlara xəbərdarlıq etdikdən sonra həmin işlərinə düzəliş verməsələr, onda onlara qarşı nə kimi tədbirlər görülməlidir?

Cavab: Xüsusi məsullara vacibdir ki, onlara əmr etsinlər ki, şərab içmək, haram ətlər yemək və bu kimi başqa şeyləri zahir etməsinlər və onların belə şeyləri aşkarda yeməklərinə mane olsunlar. Amma ümumi olan iffət və həya qaydalarına sığmayan işlərə gəldikdə isə, onlara belə işlər görməyə icazə vermək yaxşı deyildir. Hər halda lazımdır ki, xüsusi məsullar vasitəsi ilə onların özlərinə uyğun tədbirlər görülsün.

---

Sual: **1098**. Bəzi qardaşlar çox zaman hicabsız qadınlar toplanan yerlərə, onlara əmr be məruf, nəhy əz münkər, nəsihət və tövsiyə etmək məqsədi ilə gedirlər. Onlara icazə verilirmi ki, hicabsız qadınlara baxsınlar? (Bu şərtlə ki, onlar həmin yerə əmr be məruf etmək üçün gedirlər).

Cavab: Məqsədli olmayan ilk baxışın eybi yoxdur. Amma üz və iki əllərindən başqa qalan yerlərinə baxmağa icazə verilmir, hətta bu iş əmr be məruf etmək məqsədi ilə olsa da.

---

Sual: **1099**. İctimai pozğunluqlar yayılan cəmiyyətlərdə mömin cavanların üzərinə düşən vacib nədir?

Cavab: Onlara, özlərini bu pozğunluqlardan qorumaqla yanaşı vacibdir ki, şərtlər mövcud olan və imkanları çatan zamanda zəruri hökm olan əmr be məruf və nəhy əz münkəri yerinə yetirsinlər.

# Haram ticarətlər

## Nəcis şeylərin al-veri

---

Sual: **1100**: Ovçuluq idarəsi və yerli əkinçilər otlaqları və əkin sahələrini qorumaq üçün vəhşi donuzları ovlayırlar. Bu donuzları alıb, ətlərini konservləşdirərək qeyri-islami ölkələrə ixrac etmək caizdirmi?

Cavab: Donuz ətini, insan yeməyi üçün, hətta alıcı müsəlman olmasa belə, alıb-satmaq caiz deyil. Amma əgər onun halal və etina olunacaq qədər normal mənfəətləri olsa, məsələn, ondan heyvanların yemi üçün istifadə olunsa, yaxud piyindən sabundüzəltmə sənayesində istifadə olunsa və bu kimi başqa istifadələr edilsə, bu surətdə onu alıb-satmağın eybi yoxdur.

---

Sual: **1101**: Donuz əti konservləşdirən zavodda, yaxud gecə eyş-işrət məclislərində (barlarda) və yaxud fəsad (günah) yerlərində işləmək caizdirmi? Bu işdən əldə edilən qazancın hökmü nədir?

Cavab: Haram işlərlə məşğul olmaq caiz deyil, o cümlədən donuz əti, yaxud şərab satmaq, gecə eyş-işrət məclislərini (barları), fəsad, günah, qumar, şərab və bunun kimi məclisləri təşkil və idarə etmək caiz deyil. Bu yollarla kəsb edilən qazanc haramdır. İnsan bu işlərdən əldə edilən pula (şərən) malik olmur.

---

Sual: **1102**: Şərabı, donuz ətini və ya yeyilməsi haram olan hər bir şeyi, onu halal hesab edənə satmaq, yaxud hədiyyə vermək düzgündürmü?

Cavab: Yeyilməsi və ya içilməsi haram olan şeyləri satmaq, yaxud hədiyyə vermək yemək-içmək məqsədi ilə olsa, yaxud satıcı müştərinin onu yemək, yaxud içmək məqsədi ilə aldığını bilsə, müştəri onu halal bilsə belə, caiz deyil.

---

Sual: **1103**: Bizim yerdə yemək və istehlak maddələri satan bir kooperativ şirkətindəki yeyinti məhsullarının bəzisi ölmüş heyvandan və yaxud yeyilməsi haram olan heyvanlardan hazırlanır. Bundan hasil olan və səhmdarlara bölünən illik qazancın hökmü nədir?

Cavab: Haram olan yeyinti məhsullarını alıb-satmaq haram və batildir. Bunların satışı müqabilində əldə edilən pul da haramdır. Bu yoldan hasil olan qazancın səhmdarlara bölünməsi caiz deyildir. Əgər şirkətin malları bu haram mala qarışsa, haram mala qarışmış mal hökmündə olacaqdır və bunun özünün də bir neçə qismi var və əməli risalələrdə yazılıb.

---

Sual: **1104**: Əgər müsəlman bir şəxs qeyri-islami bir ölkədə mehmanxana açıb orada bəzi şərabları və haram yeməkləri satmağa məcbur olsa, onun bu işi caizdirmi? Halbuki, əgər bu şeyləri satmasa, onun mehmanxanasına qalmaq üçün heç kəs gəlməz, çünki orada yaşayan əhalinin çoxu məsihidir və şərab olmadıqda yemək yemir, şərab verilməyən mehmanxanalara getmirlər. Digər tərəfdən də bilirik ki, mehmanxana açanın məqsədi haram şeylərdən əldə edilən qazancın hamısını şəriət hakiminə verməkdir.

Cavab: Qeyri-müsəlman ölkələrində mehmanxana, yaxud yeməkxana açmağın eybi yoxdur. Amma müştəri onları halal bilən şəxslərdən olsa, belə şərab və haram yeməkləri satmaq caiz deyil. Şərab və haram yeməyin pulunu almaq da caiz deyil, hətta şəxsin niyyəti onu şəriət hakiminə vermək olsa belə.

---

Sual: **1105**: Əti haram olan su heyvanları sudan diri çıxarılsa, murdar hökmündədirmi və onları alıb-satmaq haramdırmı? İnsan yeməyindən başqa məqsədlər üçün, məsələn, quş və heyvanlar üçün yem hazırlamaq və sənayedə istifadə etmək üçün onları alıb-satmaq caizdirmi?

Cavab: Əgər bu heyvanlar müxtəlif balıq növlərindən olsa və sudan diri çıxarılıb ölsə, murdar hesab olunmur. Hər halda, yeyilməsi haram olan heyvanları yemək üçün satmaq və almaq, müştəri onu halal bilənlərdən olsa belə, caiz deyil. Amma bu heyvanların yeməkdən başqa əql sahibləri arasında etina olunacaq halal mənfəətləri olsa, məsələn, təbabətdə və sənayedə istifadə olunsa, yaxud quş və ev heyvanlarına yemək hazırlansa və ya başqa şəkildə istifadə edilsə, bu halda onları qeyd olunan bu istifadələr üçün alıb-satmağın eybi yoxdur.

---

Sual: **1106**: Aralarında şəriət yolu ilə kəsilməmiş heyvan əti olan yeyinti məhsullarının daşınması işində çalışmaq caizdirmi? Həmin ətlərin daşınması ilə əlaqədar hökmdə onun yeyilməsini halal bilənlərlə halal bilməyənlər arasında fərq varmı?

Cavab: Şəriət yolu ilə kəsilməmiş heyvan ətini daşımaq, onu yemək istəyənlər üçün caiz deyil. Bu məsələdə onu yeməyi halal bilən müştəri ilə haram bilənin arasında fərq yoxdur.

---

Sual: **1107**: Qanı, ondan istifadə edən bir şəxsə satmaq caizdirmi?

Cavab: Qanı satmaq, əgər şəriətin qəbul etdiyi bir tərzdə istifadə üçün olsa, eybi yoxdur.

---

Sual: **1108**: Müsəlman şəxs üçün kafir ölkələrində haram olan yeməyi (misal üçün, içində donuz əti, yaxud şəriət göstərişi ilə kəsilməyən heyvan əti olan yeməyi) və yaxud spirtli içkiləri müsəlman olmayan müştərilərə satmaq caizdirmi? Aşağıdakı halların hökmü nədir:

a) Əgər yeməklər və spirtli içkilər onun özününkü deyilsə və o, bunların satışından heç bir qazanc əldə etməsə, onun işi sadəcə olaraq bunları halal yemək maddələri ilə birlikdə müştəriyə təqdim etməkdir.

b) Əgər qeyri-müsəlman bir şəxs ilə o yerdə şərik olsa, belə ki, müsəlman halal malların, qeyri-müsəlman isə spirtli içkilərin və haram yeməklərin maliki olsa və hər biri öz malından əlahiddə şəkildə malın qazancını götürsə.

v) Əgər müsəlman şəxs haram yeməklər və spirtli içkilər satılan bir yerdə işçi kimi işləyir və müəyyən miqdarda sabit maaş alırsa, istər iş yerinin sahibi müsəlman olsun, istərsə qeyri-müsəlman.

q) Əgər haram yemək və spirtli içkilər satılan yerdə fəhlə, yaxud şərik kimi işləyir, lakin bunların al-verində müdaxilə etmirsə və bunlar onun malı da deyildirsə, o, sadəcə olaraq yeyinti məhsullarının hazırlanmasında və satılmasında müdaxilə edir. Müştərilərin spirtli içkiləri o yerdə içmədiklərini nəzərə alsaq o şəxsin işinin hökmü nədir?

Cavab: Spirtli və məstedici içkiləri və haram yeməkləri təqdim etmək və satmaq, bunların satıldığı yerdə işləmək, onları hazırlamaq, alqı-satqısında iştirak etmək və bu işlərdə başqasına itaət etmək şərən haramdır – istər sərmayədə şərik olsun, istərsə olmasın, istər gündəlik işçi kimi işləsin, istərsə də işləməsin, istər təkcə haram yeməklər və spirtli içiklər göstərilsin və satılsın, istərsə də onlarla yanaşı halal yemək də göstərilsin və satılsın, istər qazanc və maaş almaq məqsədilə işləsin, istərsə də pulsuz. Bütün bu hallarda iş sahibinin, yaxud şərikin müsəlman olması ilə qeyri-müsəlman olması arasında, həmçinin bunları müsəlman müştəriyə göstərmək və satmaqla qeyri-müsəlmana göstərmək və satmağın fərqi yoxdur. Ümumiyyətlə müsəlman şəxsə vacibdir ki, bütün hallarda haram yeməkləri və spirtli içkiləri hazırlamaqdan, satmaqdan və bu yolda qazanc əldə etməkdən uzaq olsun.

---

Sual: **1109**: Spirtli içkiləri daşıyan maşınları təmir etmək yolu ilə qazanc əldə etmək caizdirmi?

Cavab: Əgər bu maşınlar spirtli içkiləri daşımaq üçün hazırlanıbsa, bu halda onları təmir etmək caiz deyildir.

---

Sual: **1110**: Camaata yeyinti məhsulları satmaq üçün müxtəlif şöbələri olan bir ticarət şirkəti fəaliyyət göstərir. Bu yemək məhsullarının bəzisi şərən haram növlü yeməklərdir (xaricdən gətirilən murdar heyvan ətləri kimi), nəticədə şirkətin mallarından bir qismi şərən haram mal hesab olunur. İçərisində həm halal, həm də haram mallar olan bu şirkətin şöbələrindən gündəlik tələbat mallarını almaq caizdirmi? Caiz olan surətdə, satıcıya verilən pulun qalığını almaq, məchulul-malik olduğuna görə şəriət hakiminin icazəsi ilə olmalıdırmı? İcazəyə bağlı olan surətdə, lazım olan əşyalarını o şöbələrdən alan kəsə icazə verirsinizmi?

Cavab: Şirkət mallarının içində haram malın olmasına “icmali elmin”[5258] olması, onların hamısı mükəlləfin ehtiyac duyduğu şeylərdən olmayınca ehtiyacı olan bütün malların o şirkətdən almasının düzgünlüyünə mane olmaz. Deməli, müştərinin şirkətin mallarının hamısına ehtiyacı olmayınca və şirkətdən aldığı malların içində haram malın olmasını bilməyincə lazım olan, ehtiyac duyulan malları, həmçinin pulların qalığını bu şirkətdən almağın bütün camaat üçün heç bir eybi yoxdur. Şirkətdən aldığı malları və qalıq pulları işlətmək üçün şəriət hakiminin icazəsinə ehtiyac yoxdur.

---

Sual: **1111**: Qeyri-müsəlmanların ölülərini yandırmaq işində işləmək və buna görə pul almaq caizdirmi?

Cavab: Qeyri-müsəlman ölülərini yandırmaq haram deyil. Buna görə də, o işdə işləməyin və əvəzində pul almağın eybi yoxdur.

---

Sual: **1112**: İşləməyə qüdrəti (iş qabiliyyəti) olan şəxs üçün camaatdan kömək istəyib onların verdikləri köməklərlə yaşamaq caizdirmi?

Cavab: Bu işi görmək yaxşı və münasib deyildir.

---

Sual: **1113**: Qadın üçün zərgərlər bazarında və başqa yerlərdə cəvahirat satmaq caizdirmi?

Cavab: Şəriət qayda-qanunlarına və hüdudlarına riayət etməklə bunun eybi yoxdur.

---

Sual: **1114**: Mənzilləri bəzəmək (dekor) haram işlərdə istifadə olunsa, xüsusilə əgər otaqların bəzisi bütə ibadət etmək üçün istifadə olunsa, bu işin hökmü nədir? Rəqs və başqa haram şeylərdə istifadə olunacağı ehtimal verilən salonları tikmək caizdir ya yox?

Cavab: Mənzilləri bəzəmək, əgər şərən haram olan əməllərdə istifadə etmək məqsədilə olmasa, öz-özlüyündə eybi yoxdur. Amma otağı bütə ibadət etmək üçün bəzəyib içində olan şeyləri səliqə ilə yığıb-yığışdırmaq, bütü qoymaq üçün orada bir yer müəyyən etmək və s. ilə bəzəmək şərən caiz deyil. Salonları haram işlərdə istifadə olunmaq üçün tikmək caiz deyil, lakin bu işə sadəcə ehtimal verilməsinin maneəsi yoxdur.

---

Sual: **1115**: Daxilində həbsxana və polis mərkəzi olan bələdiyyə binasını tikmək və zalım dövlətə təhvil vermək caizdirmi? Bu binanın tikinti işlərində işləmək caizdirmi?

Cavab: Qeyd edilmiş xüsusiyyətlərlə bələdiyyə binasını tikməyin eybi yoxdur, bu şərtlə ki, orada zülm əsasında məhkəmə təşkil etmək və günahsız adamları tutub saxlamaq üçün bir yer hazırlamaq məqsədi ilə tikilməsin, həmçinin onu tikənin nəzərində də adətən bu kimi istifadələr üçün olmasın. Bu halda o binanı tikmək üçün pul almağın eybi yoxdur.

---

Sual: **1116**: Mənim işim tamaşaçıların qarşısında öküz döyüşdürməkdir. Bunun müqabilində tamaşaçılar mənə hədiyyə olaraq bir miqdar pul verirlər. Bu işin özü şərən caizdirmi?

Cavab: Bu iş şərən məzəmmət olunur. Amma tamaşaçıların öz ixtiyarları və razılıqları ilə verdikləri surətdə onlardan hədiyyə almağın eybi yoxdur.

---

Sual: **1117**: Bəzi adamlar orduya məxsus olan hərbi paltarlar satırlar. Bu paltarları almaq və onlardan istifadə etmək caizdirmi?

Cavab: Əgər o paltarları şəri (qanuni) yolla ələ gətirdikləri, yaxud bunları satmaq üçün onlara icazə verildiyinə ehtimal verilsə, bu halda həmin paltarları onlardan almağın və qayda-qanunlara zidd olmayan hallarda istifadə etməyin eybi yoxdur.

---

Sual: **1118**: İstər narahatçılıq və əziyyət verən olsun, istərsə də olmasın, taraqqa və partlayıcı maddələri hazırlamaq, satmaq, almaq və onlardan istifadə etməyin hökmü nədir?

Cavab: Başqalarına əziyyət verib narahat etsə, yaxud malı israf etmək sayılsa, yaxud da İslam dövlət qayda-qanunlarına zidd olsa, caiz deyil.

---

Sual: **1119**: Bəzi qadınlar özlərinin ailə xərclərini və güzəranını təmin etmək üçün gözəllik salonlardında işləyirlər. Bu iş pozğunçuluğun (iffətsizliyin) yayılmasına səbəb olurmu, yaxud islami cəmiyyətin iffətini təhdid edirmi?

Cavab: Qadınları bəzəməyin və həmçinin buna görə pul almağın öz-özlüyündə eybi yoxdur, bu şərtlə ki, özünü yad kişilərə göstərmək qəsdi ilə olmasın.

---

Sual: **1120**: Şirkətlərin bir tərəfi sahibkar, digər tərəfi isə bənna və işçilər olan tərəflər arasında vasitəçilik edərək onların müqavilə bağlamasına səbəb olmaq və bunun müqabilində pul almaq caizdirmi?

Cavab: Mübah işin müqabilində pul almağın eybi yoxdur.

Sual: **1121**: Dəllalın aldığı pul halaldırmı?

Cavab: Əgər (dəllalın gördüyü iş) mübah iş olsa və bir kəsin istəyi ilə görsə, eybi yoxdur.

## Vacib əməllərə görə pul almaq

Sual: **1122**: İlahiyyat institutunda fiqh və üsul tədris edən müəllimlərin maaşının hökmü nədir?

Cavab: Öyrədilməsi vacibi-kifayi olan elmlərin təlim və tədrisinin vacibliyi, institutda fiqh və üsul tədris etməyə görə maaş almağın caizliyinin qarşısını almır, xüsusilə instituta gəlmək və qrupu idarə etmək müqabilində maaş alan halda.

Sual: **1123**: Şəri məsələləri öyrətməyin hökmü nədir? Camaata şəri məsələləri öyrədən ruhanilərin bu işə görə pul alması caizdirmi?

Cavab: Halal-haram məsələlərini icmalən öyrətməyin öz-özlüyündə vacib olmasına və ona görə pul almağın caiz olmamasına baxmayaraq əhkam təliminin əslinin ona bağlı olmadığı və şərən də insana vacib olmayan müqəddimati işlərə görə – misal üçün, xüsusi bir yerdə hazır olmaq kimi işlərə görə – pul almağın eybi yoxdur.

Sual: **1124**: Dövlət idarə və müəssisələrində camaat namazını qılmağa, (möminlərə) dini hidayət və düz yol göstərməyə görə aylıq maaş almaq caizdirmi?

Cavab: Yerinə yetirilməsi mükəlləfə vacib olmayan xidmətlər, yaxud gedib-gəlmək müqabilində pul almağın eybi yoxdur.

Sual: **1125**: Meyyitə qüsl verməyə görə pul almaq caizdirmi?

Cavab: Müsəlman meyyitə qüsl vermək ibadət və vacibi-kifaidir, buna görə də bu işin özü müqabilində pul almaq caiz deyildir.

Sual: **1126**: İzdivac əqdini oxumağa görə pul almaq caizdirmi?

Cavab: Eybi yoxdur.

## Şahmat və qumar alətləri

Sual: **1127**: Məktəblərin çoxunda şahmat oyununun geniş yayıldığını nəzərə almaqla, şahmat oynamaq, yaxud onu öyrətmək üçün məşğələlər təşkil etmək caizdirmi?

Cavab: Əgər mükəlləfin nəzərincə şahmat hal-hazırda qumar alətlərindən sayılmasa, heç bir şərt edilmədən şahmat oynamağın eybi yoxdur.

Sual: **1128**: Baş qatan vasitələrlə, o cümlədən pulsuz kart oynamağın hökmü nədir? Baş qatmaq üçün və şərt edilmədən bu alətlərlə oynamaq caizdirmi?

Cavab: Camaat arasında qumar alətlərindən sayılan şeylərlə oynamaq, baş qatmaq üçün və pulsuz oynasalar belə mütləq şəkildə haramdır.

---

Sual: **1129**: Aşağıdakı hallarda şahmatın hökmü nədir:

1. Şahmatı düzəltmək, satmaq və almaq,

2. Şərt kəsməklə, yaxud şərtsiz şahmat oynamaq,

3. Şahmat öyrətmək, onunla oynamaq və camaatı onu oynamağa həvəsləndirmək üçün ümumi və qeyri-ümumi mərkəzlər açmaq.

Cavab: Mükəlləf öz nəzərində şahmatın hal-hazırda qumar alətlərindən sayılmadığını müəyyən edərsə, onu düzəltmək, alıb-satmaq və şərtsiz oynamağın eybi yoxdur, həmçinin qeyd olunan şərtlərlə onu öyrətməyin də eybi yoxdur.

---

Sual: **1130**: Riyaziyyat təlimi müdiriyyətinin şahmat oyunları yarışlarını keçirməyə icazə verməsi, onun qumar alətlərindən olmadığını göstərirmi? Mükəlləfin buna etimad etməsi caizdirmi?

Cavab: Şəriət hökmlərinin mövzularını müəyyən etməkdə meyar, mükəlləfin özünün ayırd etməsi, yaxud onun özü üçün bu barədə şəri dəlilin olmasıdır.

---

Sual: **1131**: Xarici ölkələrdə kafirlərlə şahmat və bilyard kimi alətlərlə oynamağın hökmü nədir? Şərt edilmədən bu alətlərdən istifadə etməyə görə pul xərcləməyin hökmü nədir?

Cavab: Keçən məsələlərdə şahmat və qumar alətləri ilə oynamağın hökmü deyildi. Bu hökmdə o alətlərlə islami ölkələrdə oynamaqla qeyri-islami ölkələrdə oynamağın, həmçinin müsəlmanla oynamaqla kafirlə oynamağın arasında fərq yoxdur. Qumar alətlərini satmaq, almaq, həmçinin bu kimi yerlərdə mal (pul) xərcləmək caiz deyil.

# Qumar alətləri

---

Sual: **1132**: Əgər bəziləri şərt kəsmədən, həmçinin qumar oynamaq, udub-uduzmaq və qazanc əldə etmək məqsədi olmadan, sadəcə boş vaxtlarını keçirmək üçün vərəqlə (kartla) oynasalar, onlar haram iş görmüş olurmu və əyləncə üçün vərəqlə oynanılan yerdə iştirak etməyin hökmü nədir?

Cavab: Camaat arasında qumar alətlərindən sayılan vərəqlə (kartla) oynamaq mütləq şəkildə (bütün hallarda) haramdır. İnsanın öz ixtiyarı ilə qumar məclisində iştirak etməsi, yaxud qumar alətləri ilə oynaması caiz deyil.

---

Sual: **1133**: Şərt olmadan və elmi-dini məzmunlara malik olan sırf əqli oyunlarda kart vərəqlərindən istifadə etmək caizdirmi? Müəyyən şəkildə düzüldükdə bəzi şəkillərin, məsələn motosiklet, maşın və bu kimi şəkillərin yarandığı, eyni zamanda onlardan şərtli (oyunlarda) və müsabiqələrdə istifadə edilməsi mümkün olan vərəqlərlə (kartlarla) oynamağın hökmü nədir?

Cavab: Camaat arasında qumar aləti sayılan vərəqlərlə oynamaq mütləq şəkildə (heç bir halda) caiz deyil. Amma qumar aləti hesab olunmayan vərəqlərdən şərt edilməməklə oynamağın eybi yoxdur. Ümumiyyətlə, mükəlləfin nəzərində qumar

alətlərindən sayılan, yaxud (qumar alətlərindən sayılmasa da) şərt edilən şeylərlə oynamaq heç bir vəchlə caiz deyil. Amma qumar alətlərindən hesab edilməyən hər bir şeylə, şərt edilmədən oynamağın eybi yoxdur.

---

Sual: **1134**: Qoz, yumurta və şəri cəhətdən mal sayılan bu kimi şeylərlə oynamağın hökmü nədir? Bu kimi oyunlar uşaqlar üçün caizdirmi?

Cavab: Əgər oyun, qumar və şərtli (udub-uduzmaq) olsa, şəri cəhətdən haramdır və udan şəxs uduzandan udaraq aldığı şeyə malik olmur. Amma, oynayanlar həddi-büluğa çatmayan şəxslər olsalar, udduqları şeylərə malik olmamalarına baxmayaraq, şərən mükəlləf deyillər və onlara heç bir təklif (şəriət hökmü) yoxdur.

---

Sual: **1135**: Qumar alətlərindən başqa şeylərlə olan oyunlarda pul və ya başqa şeyləri şərt etmək caizdirmi?

Cavab: Şərt etməklə oynamaq, qumar alətlərindən başqa alətlərlə olsa belə, caiz deyil.

---

Sual: **1136**: Kompüterdə, kart və sair kimi qumar alətləri ilə oynamağın hökmü nədir?

Cavab: Qumar alətləri ilə oynamaq hökmündədir.

---

Sual: **1137**: "Ənv" və "kirm" ilə oynamağın hökmü nədir?

Cavab: Camaat arasında qumar alətlərindən sayılsalar, şərtsiz olsa belə, onlarla oynamaq caiz deyildir.

---

Sual: **1138**: Bəzi oyun vasitələri bir məntəqədə qumar alətlərindən sayılsa, başqa yerdə isə qumar alətlərindən sayılmasa, onlarla (həmin yerdə) oynamaq caizdirmi?

Cavab: Hər iki yerdə camaatın nəzəri mülahizə edilməlidir: əgər o şey (hal-hazırda) iki yerdən birində qumar alətlərindən sayılırsa, keçmişdə də hər iki yerdə qumar alətlərindən sayılırmışsa, hal-hazırda da onunla oynamaq haramdır.

## Musiqi və ğina

---

Sual: **1139**: Halal musiqini haram musiqidən ayırmağın meyarı nədir? Klassik musiqi halaldırmı? Yaxşı olardı ki, bunun üçün ümumi bir meyarı bəyan edəsiniz.

Cavab: Camaatın nəzərində ləhv (puç, faydasız, oynadıcı, batil), eyş-işrət və kef məclisləri ilə münasib olan hər bir musiqi haramdır, istər klassik olsun, istərsə də qeyrisi. Mövzunun ayırd edilməsi mükəlləfin ürfi nəzərinə həvalə edilir. Əgər musiqi belə olmazsa öz-özlüyündə haram deyil.

---

Sual: **1140**: İslami təbliğat təşkilatı, yaxud bu barədə icazəli olan başqa islami təşkilatın icazə verdiyi lent yazılarına qulaq asmağın hökmü nədir? Kamança, viyalon (skripka), zurna, tütək kimi musiqi alətlərindən istifadə etməyin hökmü nədir?

Cavab: Lent yazılarına qulaq asmağın caizliyi mükəlləfin özünün ayırd etməsi ilə şərtlənir. Əgər onların içində ğina, eyş-işrət, əyyaşlıq, əyləncə və kef məclislərində çalınan musiqi və batil məzmunlu sözlərin olmadığını görsə, onlara qulaq

asmağın eybi yoxdur. Amma sadəcə olaraq islami təbliğat təşkilatı, yaxud hər hansı başqa bir təşkilatın icazə verməsi onlara qulaq asmağın mübah (caiz) olmağına şəri dəlil və əsas ola bilməz. Musiqi alətlərini ləhvye-mütrib, (faydasız, oynadıcı), günah və ləhv (batil) məclislərində çalınan musiqilərdə istifadə etmək caiz deyil. Lakin onlardan əqli hədəflər üçün halal istifadələr edilməsinin eybi yoxdur. Halal olan halların ayırd edilməsi mükəlləfin öz nəzərinə həvalə edilir.

---

Sual: **1141**: Mütrib və ləhv musiqi dedikdə məqsəd nədir? Mütrib və ləhv musiqini qeyrisindən ayırd etməyin yolu nədir?

Cavab: Mütrib və ləhv musiqi o musiqilərə deyilir ki, günah məclisləri ilə münasib olan xüsusiyyətlərə malik olduğuna görə adətən insanı Allahdan, əxlaqi fəzilətlərdən və insani keyfiyyətlərdən uzaqlaşdırır, onu açıq-saçıqlığa, günaha doğru sövq edir. Mövzunun ayrıd edilməsində meyar, camaatın nəzəridir.

---

Sual: **1142**: Musiqinin hökmündə çalan şəxsin özünün, çalğı yerinin və çalğıdan olan hədəfin ayırd edilməsinin bir rolu varmı?

Cavab: Haram musiqi – mütrib, ləhv və günah məclislərinə münasib olan musiqidir. Bəzən çalan şəxsin özünün, avazla oxunan sözlərin, çalğı yerinin və başqa xüsusiyyətlərin, bu musiqinin haram olan mütrib, ləhv musiqidənmi, yoxsa başqa haramdan sayılmasında rol oynayır, məsələn, bu xüsusiyyətlərə görə fəsada səbəb olan halda.

---

Sual: **1143**: Musiqinin haram olmasında meyar, təkcə onun mütrib və ləhv olmasıdır, yoxsa onun şəhvət hissini hansı miqdarda təhrik etməsi də nəzərə təsirlidir? Əgər musiqi ona qulaq asanı qəmgin etsə, yaxud ağlatsa, onun hökmü nədir? Segah (se zərb) şəklində və musiqi ilə yanaşı oxunan qəzəlləri dinləməyin hökmü nədir?

Cavab: Bunun meyarı, musiqinin bütün xüsusiyyətləri ilə birlikdə çalınma keyfiyyətini mülahizə etmək, həmçinin bu musiqinin mütrib, ləhv, günah məclisləri ilə münasib olan musiqi növündən olub-olmamasını nəzərə almaq lazımdır. Öz təbiətinin tələbi ilə ləhv musiqi növündən olan hər bir musiqi haramdır, istər şəhvət hisslərini təhrik etsin, istərsə də təhrik etməsin, istər qulaq asanda qəmginlik və sair halətlər yaratsın, istərsə də yaratmasın. Əgər musiqi ilə yanaşı oxunan qəzəllər ğina və günah məclislərində çalınan ləhv çalğılar şəklində olsa, onu oxumaq və dinləmək haramdır.

---

Sual: **1144**: Ğina nədir? Ğina təkcə insanın səsinə şamil olur, yoxsa musiqi alətlərindən hasil olan səslərlə də şamil olur?

Cavab: Ğina insanın ləhv və günah məclislərinə məxsus olan tərb və tərci ilə yanaşı olan səsidir. Bu şəkildə oxumaq və həmçinin ona qulaq asmaq haramdır.

---

Sual: **1145**: Toy məclislərində qadınların vasitəsilə qablara və musiqi alətlərindən olmayan başqa vəsaitlərə döyüb çalmaq caizdirmi? Əgər səs məclisdən kənara çıxsa və kişilər onu eşitsə, bu halda hökm nədir?

Cavab: Bu işin caiz olması necə çalınmaqdan asılıdır. Əgər qədim adət-ənənə şəklində olan toylar kimi olsa, ləhv sayılmasa və heç bir fəsada səbəb olmasa, eybi yoxdur.

---

Sual: **1146**: Toy məclislərində qadınların dəf çalmasının hökmü nədir?

Cavab: Musiqi alətlərindən mütrib və ləhv musiqi çalmaq üçün istifadə etmək caiz deyil. Lakin toy məclislərində avaz oxumağın qadınlar üçün caiz olması uzaq nəzər deyil.

---

Sual: **1147**: Evdə ğinaya qulaq asmaq caizdirmi? Şəxsə təsir etmədiyi halda bunun hökmü nədir?

Cavab: Ğinaya qulaq asmaq bütün hallarda haramdır: istər evdə təklikdə qulaq assın, istərsə də başqalarının yanında, həmçinin istər şəxsdə təsir qoysun, istərsə də təsir etməsin.

---

Sual: **1148**: Təzə həddi-büluğa çatan bəzi cavanlar musiqinin bütün hallarda – hətta islami dövlət radio-televiziyasından efirə buraxılan olsa belə, haram olmasına fətva verən müctəhidlərə təqlid edirlər. Bu məsələnin hökmü nədir? Əgər vəliyyi-fəqih caiz olan musiqilərə qulaq asmağa icazə versə, onun hökümət əhkamına görə buna icazə verməsi bu işin caiz olmasında kifayətdir, yoxsa onlar öz mərcəyi-təqlidlərinin fətvasına əməl etməlidirlər?

Cavab: Musiqiyə qulaq asmağın caiz olması, yaxud caiz olmamasına dair fətva vermək, hökümət əhkamından deyildir, şəri-fiqhi bir hökmdür. Hər bir mükəlləfin öz şəri əməllərində öz mərcəyi-təqlidinin fətvasına müraciət etməsi vacibdir. Lakin əgər musiqi, ləhv və günah məclislərinə münasib və heç bir fəsada səbəb olmasa, onun haram olmasına heç bir dəlil yoxdur.

---

Sual: **1149**: “Musiqi” və “ğina” dedikdə məqsəd nədir?

Cavab: Ğina – səsi ağızda ləhv məclislərinə xas olan şəkildə titrətməkdir (zəngulə vurmaqdır) ki, bu da günah olan şeylərdən olub həm müğənni üçün, həm də qulaq asan üçün haramdır. Amma musiqi, onun alətləri ilə çalmaqdır ki, əgər günah və ləhv məclislərinə məxsus olan şəkildə olsa, həm çalana, həm də qulaq asana haramdır. Amma əgər bu şəkildə olmasa, öz-özlüyündə caizdir və eybi yoxdur.

---

Sual: **1150**: Mən işlədiyim yerin sahibkarı həmişə ğina lent yazılarına qulaq asır. Mən də onu eşitməyə məcbur oluram. Bu iş mənim üçün caizdirmi?

Cavab: Əgər lent yazılarında ğina, yaxud günah və batil məclislərə məxsus ləhv musiqi olsa, ona qulaq asmaq caiz deyil. Lakin əgər o iş yerinə getməyə məcbursunuzsa, bu halda ora getməyinizin və orada işləməyinizin eybi yoxdur. Amma sənə vacibdir ki, ğinalar qulağa çatsa da və ixtiyarsız olaraq onları eşitsən belə, onlara qulaq asmayasan.

---

Sual: **1151**: İslam respublikasının radio və televiziyasından efirə buraxılan musiqinin hökmü nədir? Bəzilərinin “Mərhum imam Xomeyni musiqini mütləq şəkildə (bütün hallarda) halal edib” - sözü düzdürmü?

Cavab: Musiqini mütləq şəkildə halal etməyi mərhum imam Xomeyniyə nisbət vermək yalan və iftiradır. Çünki mərhum İmam da günah və ləhv məclislərinə uyğun olan mütrib, ləhv musiqini haram bilirdi, bizim nəzərimiz də elədir. Lakin nəzərlərdəki müxtəliflik mövzunun ayırd edilməsindən irəli gəlir, çünki mövzunun ayırd edilməsi mükəlləfin öz nəzərinə həvalə edilir. Bəzi vaxtlar musiqini çalanın nəzəri ilə qulaq asanın nəzəri fərqli olur. Bu halda mükəlləfin ayırd etməsinə görə musiqi günah və ləhv məclislərinə uyğun olan ləhv musiqi növündən olsa, ona qulaq asmaq mükəlləf üçün haram olacaqdır. Amma şəkk olunan (haram musiqi növündənmi, yoxsa halal növdən olması dəqiq şəkildə məlum olmayan-red.) səslərə gəldikdə isə onların halal olmasına hökm olunur. Musiqinin radio və televiziyidan efirə verilməsi təklikdə onun halal olmasına şəri dəlil ola bilməz.

---

Sual: **1152**: Bəzi vaxtlar radio və televiziyadan, mənim nəzərimcə günah və ləhv məclislərinə uyğun olan bəzi musiqilər verilir. Onlara qulaq asmaqdan çəkinmək və başqalarını da ondan çəkindirmək mənə vacibdirmi?

Cavab: Əgər onları ləhv məclislərinə uyğun olan mütrib və ləhv musiqi növündən hesab edirsinizsə, ona qulaq asmağınız caiz deyil. Lakin nəhy əz münkər cəhətindən başqalarını da ondan çəkindirməyiniz bununla şərtlənir ki, onların da səninlə eyni nəzərdə olduğunu, yəni, bu musiqinin onların da nəzərində haram musiqi olmasını dəqiq biləsiniz.

---

Sual: **1153**: Qərb ölkələrində hazırlanan ləhv musiqi və ğinalara qulaq asmaq və onları yaymağın hökmü nədir?

Cavab: Batil, ləhv məclislərinə uyğun olan mütrib, ləhv musiqiyə və ğinaya qulaq asmağın, onlardan istifadə etməyin caiz olmamasında onun hansı dildə olması və onun hansı ölkədə hazırlanması arasında heç bir fərq yoxdur. Buna görə də bu kimi lent yazılarında haram olan ləhv musiqi, yaxud ğina olsa, onları satmaq, almaq, paylamaq və həmçinin onlara qulaq asmaq caiz deyil.

---

Sual: **1154**: Kişi və qadının hər birinin ğina oxumasının hökmü nədir? – İstər lent yazısında oxusun, istərsə də radioda, istər musiqi aləti ilə yanaşı oxusun, istərsə də onsuz.

Cavab: Ğina haramdır, (bir şeyi) ğina surətində oxumaq və ona qulaq asmaq caiz deyil, istər kişi oxusun, istərsə də qadın, istər birbaşa oxusun, istərsə də lent yazısında, istər ləhv alətlərilə yanaşı olsun, istərsə də onlarla yanaşı olmasın.

---

Sual: **1155**: Məscid kimi müqəddəs yerlərdə üqəlai (əql sahibləri tərəfindən qəbul edilən) və halal hədəflər üçün musiqi çalmağın hömkü nədir?

Cavab: Günah, ləhv məclislərə uyğun olan mütrib və ləhv musiqini çalmaq heç bir halda, hətta məsciddən başqa yerdə və halal üqəlai hədəf üçün olmuş olsa belə caiz deyil. Lakin inqilabi və bu kimi sürudları musiqi nəğmələri ilə birlikdə müqəddəs yerdə və oxunması məsləhət görülən münasibətlərdə oxumağın eybi yoxdur, bu şərtlə ki, o yerin ehtiramı ilə zidd olmasın və məscid kimi yerlərdə namaz qılanlara maneçilik törətməsin.

---

Sual: **1156**: Musiqini, xüsusən də sintezator öyrənmək caizdirmi? Başqalarını bu işə sövq etməyin hökmü nədir?

Cavab: Musiqi alətlərindən qeyri-ləhv musiqiləri çalmaq üçün istifadə etməyin eybi yoxdur, əgər inqilabi, dini nəğmələri icra etmək üçün, yaxud faydalı mədəni tədbirlər və bu kimi ağlabatan, halal məqsəd güdən verilişləri icra etmək üçün olsa, bu şərtlə ki, başqa fəsada səbəb olmasın. Həmçinin yuxarıda deyilən məqsədlər üçün çalmağı öyrənmək və öyrətməyin öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1157**: Şer və sair şeyləri ahəng və tərci ilə oxuyan qadının səsinə qulaq asmağın hökmü nədir – istər qulaq asan gənc olsun, istərsə də gənc olmasın, istər kişi olsun, istərsə də qadın? Qadın insana məhrəm olsa, bunun hökmü nədir?

Cavab: Əgər qadının səsi ğina şəklində olmasa, ona qulaq asmaq da ləzzət almaq və riybə qəsdi daşımasa və günaha düşmək qorxusu olmasa və heç bir fəsada səbəb olmasa, ona qulaq asmağın heç bir eybi yoxdur və bu məsələdə yuxarıda sadalanan hallar arasında fərq yoxdur.

---

Sual: **1158**: İranın milli mirası olan olan kilassik musiqi haramdırmı?

Cavab: Camaat arasında günah, ləhv məclislərinə uyğun və ləhv musiqi növündən sayılan hər bir musiqi mütləq şəkildə haramdır, bu hökmdə İran musiqisi ilə başqası, irsi musiqi ilə qeyrisi arasında heç bir fərq yoxdur.

---

Sual: **1159**: Bəzən ərəb radiolarında bəzi musiqilər verilir. Ərəb dilinə qulaq asmağa maraqlı olduğum üçün ona qulaq asmaq caizdirmi?

Cavab: Günah və ləvh məclislərinə uyğun olan ləhv musiqiyə qulaq asmaq mütləq şəkildə haramdır. Ərəb dilinə qulaq asmağa maraqlı olmaq bunun üçün şəri əsas ola bilməz.

---

Sual: **1160**: Avaz surətində və musiqisiz oxunan şerləri təkrar etmək caizdirmi?

Cavab: Ğina, musiqi alətlərində çalmaqla yanaşı olmasa belə, haramdır. Ğina dedikdə məqsəd insanın səsini günah, ləhv məclislərinə uyğun olan şəkildə titrətməsidir. Amma şerin özünü təkrar etməyin heç bir eybi yoxdur.

---

Sual: **1161**: Musiqi alətlərini satmaq və almağın hökmü nədir? Onlardan istifadə etməyin həddi nədir?

Cavab: Ləhv olmayan musiqini çalmaq məqsədilə müştərək alətləri satmaq və almağın eybi yoxdur.

---

Sual: **1162**: Dua, Quran, azan kimi şeylərdə ğina caizdirmi?

Cavab: Ğina tərci və tərb ilə yanaşı olan, həmçinin günah, ləhv məclislərinə uyğun olan mütrib avazdır və şəri cəhətdən mütləq şəkildə (bütün hallarda), hətta dua, Quran, azan, mərsiyə və bu kimi şeylərdə də haramdır.

---

Sual: **1163**: Müasir dövrdə musiqidən ruhi yorğunluq, qəmginlik, narahatlıq və qadınlarda olan soyuq təbiətlilik kimi ruhi xəstəliklərin müalicəsində istifadə olunur. Bunun hökmü nədir?

Cavab: Əgər mütəxəssis və əmanətdar həkimin nəzərinə görə xəstəliyin müalicəsinin yalnız musiqiyə bağlı olması, yalnız onunla müalicə olunması məlum olsa, bu halda ondan, xəstənin müalicəsi üçün lazım olan zəruri miqdarda istifadə etməyin eybi yoxdur.

---

Sual: **1164**: Əgər ğinaya qulaq asmaq kişinin öz arvadına olan məhəbbətini (təmayülün) çoxaltsa, bunun hökmü nədir?

Cavab: Arvada olan məhəbbətin (təmayülünü) çoxalması ğinaya qulaq asmaq üçün şəri əsas ola bimləz.

---

Sual: **1165**: Çalğıçıların qadınlardan ibarət olduğu məlum olan halda qadın vasitəsilə və qadın tamaşaçıları üçün konsert icra olunmasının hökmü nədir?

Cavab: Əgər onu oxuması tərci mütrib avaz (ğina) şəklində olmasa və çalınan musiqi də haram olan ləhv musiqi növündən olmasa, bunun öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1166**: Əgər musiqinin haram olmasında meyar onun ləhv, günah və ləhv məclisləri ilə münasib olmasıdırsa, bu halda camaatın bəzisinin, hətta qeyri-müməyyiz (yaxşı ilə pisi ayırd etməyən) uşağın oynama halına səbəb olan nəğmə və avazların hökmü nədir? Qadınların ğina halında oxuduğu, amma tərb gətirməyən mübtəzəl kasetlərə qulaq asmaq caizdirmi? Bu kimi lent yazılarını oxudan sürücülərin sürdüyü ümumi avtobuslara minən sərnişinlərin vəzifəsi nədir?

Cavab: Tərci və tərblə yanaşı olan musiqi, yaxud avaz, əgər keyfiyyət, yaxud məzmun cəhətindən, yaxud çalanın özünün çalan vaxtdakı və ya xanəndənin özünün oxuyan vaxtı məxsus haləti cəhətindən ğina, yaxud günah və ləhv məclisləri ilə münasib olan musiqi növündən olsa, oynama halına səbəb olmadığı və təhrik etmədiyi adam üçün belə, ona qulaq asmaq haramdır. Avtobus və digər maşınlarda ğina, yaxud ləhv musiqi qoyulsa, sərnişinlər ona qulaq asmaqdan çəkinməli və nəhy əz münkər etməlidirlər.

---

Sual: **1167**: Kişinin öz halal arvadından ləzzət almaqdan ötrü naməhrəm qadının ğinasına qulaq asması caizdirmi? Arvadın öz əri üçün və yaxud əksinə, ğina oxuması caizdirmi? Bəziləri deyirlər ki, müqəddəs şəriət sahibi ğinanı ondan ötrü haram edib ki, o, həmişə ləhv, ləəb, faydasız məclislərlə yanaşı olurdu, ğinanın haram olması da o məclislərin haram olmasından irəli gəlib. Necə ki, heykəllərin düzəldilməsi və ticarəti də ona görə haram olmuşdur ki, onlara ibadət etməkdən başqa heç bir fayda təsəvvür olunmurmuş. Bu söz düzdürmü? Əgər düzdürsə, haramlığın səbəbi aradan getdiyi indiki zamanda onun haramlığı da aradan gedirmi?

Cavab: Ğinaya, yəni günah, ləhv məclisləri ilə münasib olan, mütrib şəkildə avazlı səsə qulaq asmaq mütləq şəkildə (bütün hallarda) haramdır, hətta arvadın öz əri üçün və əksinə olan halda belə. Öz arvadından ləzzət almaq məqsədi, ğinaya qulaq asmağı mübah edə bilməz. Ğina, heykəl düzəltmək və buna oxşar şeylərin haramlığı, şəriətə təəbbüdlə sübuta yetmişdir və şiə fiqhində sabit hökmlərdəndir və onun əsası (insan tərəfindən) fərz olunan səbəblər, ruhi və ictimai təsirlər deyil. Əksinə "haram ünvanı" onlara aid ediləcəyi vaxta qədər onların hökmü haram və onlardan çəkinmək mütləq şəkildə vacibdir.

---

Sual: **1168**: Universitet və institutların bəzi fakültələrində tələbələr ixtisas üzrə dərsin gedişatında inqilabi avaz və nəğmələr dərsində iştirak etməlidirlər. Çünki orada musiqinin hissələri (notlar) öyrənilir və onlarla müxtəsər şəkildə tanış olurlar. Bu dərsi öyrənməkdə əsas alət piano və orqandır. İcbari dərs proqramlarından sayılan bu dərsi öyrənməyin hökmü nədir? Qeyd olunan vəsaiti almaq və ondan istifadə etməyimizin hökmü nədir? Xüsusilə, məşqləri kişilərin qabağında icra edən qız tələbələrin vəzifəsi nədir?

Cavab: İnqilabi nəğmələr, dini proqramlar, faydalı tərbiyəvi-mədəni fəaliyyətləri icra etmək üçün musiqi alətlərindən istifadə etməyin öz-özlüyündə eybi yoxdur. Qeyd olunan məqsədlərdə istifadə etmək üçün çalğı alətlərini almaq, satmaq və onları öyrətmək və öyrənməyin eybi yoxdur. Həmçinin vacib hicaba və şəriət qaydalarına riayət etmək şərti ilə qız tələbələrinin bu dərsdə iştirak etmələrinin eybi yoxdur.

---

Sual: **1169**: Bəzi nəğmələr (təranələr) zahirdə inqilabidir, camaat arasında da inqilabi hesab olunur, lakin oxuyanın inqilabi bir nəğmənimi, yoxsa ləhv və tərb musiqisini (təranələrə) oxumağı qəsd etməsini bilmirik. Oxuyanın müsəlman olmadığını, amma onun oxuduğu nəğmələrin milli olduğunu və içində işğalçılıq əleyhinə olan cümlələr olduğunu, həmçinin, əhalinin müqavimətə təhrik olunmasını nəzərə alaraq bu cür musiqilərə (təranələrə) qulaq asmağın hökmü nədir?

Cavab: Əgər dinləyicinin nəzərində onların keyfiyyəti camaat arasında ləhv və tərb gətirən olmazsa, onlara qulaq asmağın eybi yoxdur, oxuyanın niyyət və məqsədinin, eləcə də oxuduğu şeyin məzmununun bu barədə təsiri yoxdur.

---

Sual: **1170**: Gənc bir şəxs bəzi idman növlərində beynəlxalq hakim və məşqçi adı ilə işləyir. Onun işi ğina və haram musiqi verilən bəzi idman salonlarına daxil olmasını tələb edir. Bu işin onun məişət xərclərinin bir miqdarını təmin etməsinə, onun iş yerində də sair işin az olmasını nəzərə alaraq onun bu işdə işləməsi caizdirmi?

Cavab: Ğina və ləhv musiqiyə qulaq asmağın haram olmasına baxmayaraq, amma bu işin onun üçün eybi yoxdur. Çıxılmaz hallarda onun ğina və haram musiqi məclislərinə daxil olması caizdir. Lakin bu hallarda onlara qulaq asmaqdan çəkinməlidir, ixtiyarsız olaraq qulağına dəyənlərin isə eybi yoxdur.

---

Sual: **1171**: Musiqiyə təkcə qulaq asmaq haramdır, yoxsa onu eşitmək də haramdır?

Cavab: Ğina, yaxud ləhv, tərb gətirən musiqini eşitmək ona qulaq asmağın hökmündə deyil. Yalnız camaat arasında eşitmək qulaq asmaq hesab olunan müəyyən hallar istisna olunur.

---

Sual: **1172**: Quran qiraət edərkən ləhv və haram məclislərə məxsus olan musiqi alətlərindən başqa alətlərlə musiqi çalmaq caizdirmi?

Cavab: Qurani-Kərimi gözəl və onun şəninə yaraşan səslə oxumağın eybi yoxdur, üstəlik çox bəyənilən bir işdir də, bu şərtlə ki, haram ğina həddinə çatmasın. Lakin onunla musiqi çalmağın şəri əsası (vəchi) yoxdur.

Sual: **1173**: Milad və sair kimi bayram şənliklərində təbil çalmağın hökmü nədir?

Cavab: Musiqi və çalğı alətlərindən ləhv, mütrib və ləhv günah məclislərinə münasib olan şəkildə istifadə etmək mütləq şəkildə haramdır.

---

Sual: **1174**: Məktəblərdə musiqi dərnəklərinin üzvü olan şagirdlərin istifadə etdiyi musiqi alətlərinin hökmü nədir?

Cavab: Camaat arasında halal işlərdə istifadəyə qabiliyyəti olan müştərək alətlərdən istifadə etməkdə halal məqsədlər üçün və ləhv olmayan şəkildə işlədilməsi caizdir, lakin camaat arasında ləhvə məxsus alətlər hesab olunanlara gəldikdə isə, onlardan istifadə edilməsi caiz deyil.

---

Sual: **1175**: Musiqi alətlərindən hesab olunan səntur düzəltmək və onunla, iş ünvanı ilə qazanc əldə etmək caizdirmi? Səntur düzəltmə sənayesinin inkişafı və təkmilləşdirilməsi, camaatı onunla çalmağa sövqləndirmək məqsədi ilə ümumi əmlakdan istifadə etmək və onlara kömək etmək caizdirmi? Klassik musiqini dirçəltmək və yaymaq məqsədi ilə (İranın) klassik şərq musiqisini öyrətmək caizdirmi?

Cavab: Milli, inqilabi, yaxud hər hansı bir halal və faydalı işi icra etmək məqsədi ilə musiqi çalğı alətlərindən istifadə etməyin, tərb və günah, ləhv məclislərinə münasib olan ləhv həddinə çatmayınca işkalı yoxdur. Həmçinin, qeyd olunan məqsədlər üçün musiqi, onu öyrətmək, öyrənmək və musiqi alətləri düzəltməyin öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1176**: Hansı alətlər ləhv hesab olunur və onlardan istifadə etmək heç bir vəchlə caiz deyil?

Cavab: Adətən, ləhv vələəbdə istifadə olunan və halal mənfəətə malik olmayan alətlər (ləhv hesab olunur).

---

Sual: **1177**: Haram işləri ehtiva edən lent yazılarını çoxaltmaq müqabilində əmək haqqı almaq caizdirmi?

Cavab: Qulaq asılması haram olan hər bir səsin lent yazısının çoxaldılması və onun müqabilində əmək haqqı almaq caiz deyil.

## Rəqs etmək

---

Sual: **1178**: Toy mərasimlərində yerli rəqslər caizdirmi? Bu məclislərdə iştirak etməyin hökmü nədir?

Cavab: Əgər rəqs şəhvətin təhrik olunmasına səbəb olsa, yaxud öz ardınca haram bir iş kətirsə, yaxud fəsada səbəb olsa, caiz deyil. Rəqs məclislərində iştirak etmək də əgər başqalarının haram işini təsdiqləmək hesab edilsə, yaxud haram bir işlə nəticələnsə, caiz deyil. Bundan qeyri hallarda eybi yoxdur.

---

Sual: **1179**: Qadınlara məxsus olan məclislərdə musiqi ahəngi olmadan rəqs etmək halaldır, yoxsa haram? Haram olduğu təqdirdə iştirakçıların həmin məclisi tərk etməsi vacibdirmi?

Cavab: Rəqs ümumi halda şəhvəti təhrik edən, yaxud haram bir işə səbəb olan və ya öz ardınca fəsad gətirən tərzdə olsa, haramdır və o məclisi haram işə etiraz ünvanı ilə tərk etmək əgər nəhy əz münkər nümunəsi olarsa, vacibdir.

Sual: **1180**: Kişinin kişi və qadının qadın üçün, eləcə də kişinin qadınlar arasında və qadının kişilər arasında yerli (məhəlli) rəqs etməsinin hökmü nədir?

Cavab: Əgər şəhvəti təhrik edərsə, yaxud haram bir işə səbəb olarsa, yaxud fəsada gətirib çıxararsa (tərəttüb), yaxud da qadın naməhrəm kişilərin arasında rəqs edərsə, haramdır.

---

Sual: **1181**: Kişilərin cəm şəkildə rəqs etməsinin hökmü nədir? Televiziyada və ondan başqa yerlərdə kiçik yaşlı qızların rəqs etməsini müşahidə etməyin hökmü nədir?

Cavab: Əgər rəqs şəhvətin təhrik olunmasına səbəb olarsa, yaxud başqa bir haram işə gətirib çıxararsa, haramdır. Amma əgər ona baxmaq günahkar şəxsin təsdiqlənməsinə, onun günaha daha da cürətlənməsinə səbəb olmazsa və ya öz ardınca fəsad gətirməzsə, eybi yoxdur.

---

Sual: **1182**: Kişinin kişi üçün və qadının qadın üçün rəqs etməsinin hökmü nədir? Əgər toy mərasiminə getmək ictimai adətlərə ehtiram qoymaq xatirinə olarsa, onda rəqsin varlığına ehtimal verildiyinə görə şərən işkallı olurmu?

Cavab: Ümumi halda əgər rəqs şəhvətin təhrik olunmasına səbəb olarsa, yaxud haram bir işə, fəsada gətirib çıxararsa, haramdır. Lakin rəqs edilməsi ehtimalı verilən toy mərasimlərində iştirak etməyin özü, haram işə mürtəkib olan şəxsin təsdiqlənməsi ünvanı ilə olmazsa və harama düşməyə də səbəb olmazsa, eybi yoxdur.

---

Sual: **1183**: Qadının öz əri üçün, yaxud kişinin öz arvadı üçün rəqs etməsi haramdırmı?

Cavab: Əgər qadının öz əri üçün, yaxud əksinə rəqs etməsi haram bir işə mürtəkib olmaqla yanaşı olmazsa, eybi yoxdur.

---

Sual: **1184**: Övladların toy mərasimlərində rəqs etmək, hərçənd ataların və ya anaların vasitəsilə, öz övladlarının toy mərasimlərində olsa belə, caizdirmi?

Cavab: Əgər haram rəqs növündən olarsa, haramdır, hətta ata və anaların vasitəsilə, öz övladlarının toy məclislərində olsa belə.

---

Sual: **1185**: Ərli bir qadın toy mərasimlərində ərinin xəbəri olmadan naməhrəmlərin qarşısında rəqs edir. O, bu əməli bir neçə dəfə təkrar etmişdir, ərinin ona etdiyi əmr be məruf və nəhy əz münkərin də təsiri yoxdur. Onun vəzifəsi nədir?

Cavab: Qadının naməhrəm kişi qarşısında rəqs etməsi mütləq şəkildə haramdır. Ərinin icazəsi olmadan evdən çıxması da öz-özlüyündə haramdır və bu iş onun naşizəliyinə[5259] və nəfəqə haqqından məhrum olmasına səbəb olur.

---

Sual: **1186**: Kəndlərdə musiqi alətlərindən istifadə olunmaqla təşkil olunan toy mərasimlərində qadınların kişilərin qarşısında rəqs etmələrinin hökmü nədir? Onun qarşısında bizim vəzifəmiz nədir?

Cavab: Qadınların naməhrəm qarşısında rəqs etməsi, həmçinin, fəsada səbəb olan, şəhvətin təhrik olunmasına gətirib çıxaran hər bir rəqs haramdır. Musiqi alətlərindən istifadə olunması və onlara qulaq asılması da əgər ləhv və mütrib şəklində olarsa, haramdır. Bu kimi hallarda mükəlləflərin vəzifəsi nəhy əz münkər etməkdir.

---

Sual: **1187**: Müməyyiz uşağın – istər oğlan olsun, istərsə də qız – qadınların və ya kişilərin məclislərində rəqs etməsinin hökmü nədir?

Cavab: Həddi-büluğa çatmayan uşağın – istər oğlan olsun, istərsə də qız – heç bir təklifi yoxdur, lakin həddi-büluğa çatanların onu rəqs etməyə sövq etmələri layiq (yaxşı iş) deyil.

---

Sual: **1188**: Rəqs öyrətmə mərkəzlərinin yaradılmasının hökmü nədir?

Cavab: Rəqs öyrətmə mərkəzlərinin yaradılması və yayılması islami dövlətin hədəfləri ilə ziddir.

---

Sual: **1189**: Kişilərin onlara məhrəm olan qadınlar qarşısında, qadınların da onlara məhrəm olan kişilər qarşısında rəqs etməsinin hökmü nədir – istər bu məhrəmlik səbəbi olsun, istərsə də nəsəbi?

Cavab: Haram olan rəqsdə kişi ilə qadın arasında, eləcə də məhrəmin və ya naməhrəmin qarşısında olmasının fərqi yoxdur.

---

Sual: **1190**: Toy mərasimlərində əsa (çəlik) ilə döyüş nümayiş etdirmək caizdirmi? Əgər onlar musiqi alətləri ilə təşkil edilərsə, hökmü nədir?

Cavab: Əgər əyləncəli idman oyunları surətində olsa və insanın canına təhlükə qorxusu olmazsa, öz-özlüyündə bunun işkalı yoxdur. Lakin musiqi alətlərindən ləhv və tərb gətirən surətdə istifadə etmək heç bir vəchlə caiz deyil.

---

Sual: **1191**: Yallı və bu kimi ümumi şəkildə icra olunan digər milli rəqslərin hökmü nədir?

Cavab: Yallı rəqsi də digər rəqslərin hökmündədir. Deməli, əgər şəhvəti təhrik edəcək şəkildə olsa, yaxud ləhv alətlərindən istifadə etməklə və ləhv surətində olsa, yaxud öz ardınca fəsad gətirsə, haramdır, bundan qeyri hallarda isə işkalı yoxdur.

## Əl çalmaq

---

Sual: **1192**: Qadınlar üçün onlara məxsus olan şadlıq mərasimlərində, məsələn, ad günləri və toy mərasimlərində əl çalmaq çaizdirmi? Caiz olduğunu fərz etdikdə əgər onun səsi məclisdən kənara çıxsa və naməhrəm kişilər onu eşitsə, hökmü nədir?

Cavab: Normal (adi) qaydada əl çalmaq heç bir fəsada səbəb olmazsa, hətta naməhrəmlər onun səsini eşitsə belə işkalı yoxdur.

---

Sual: **1193**: Məsum imamların (ə) mövludları, vəhdət bayramları və məbəs bayramında təşkil olunan şadlıq mərasimlərində oxumaq, Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) salavat göndərmək və zikrlə yanaşı olan əl çalmağın hökmü nədir? Əgər bu bayramlar məscid, dövlət idarə və müəssisələrinin, yaxud hüseyniyyələrin namazxanaları kimi ibadət yerlərində təşkil olunsa, hökmü nədir?

Cavab: Ümumiyyətlə, bayram şənliklərində, yaxud adamları həvəsləndirmək və s. kimi hallarda adi və normal qaydada əl çalmağın öz-özlüyündə eybi yoxdur. Lakin yaxşı olar ki, dini məclislərin fəzası, xüsusilə məscid, hüseyniyyə və namazxanalarda keçirilən mərasimlər salavat və təkbir zikr etməklə nuranilәşsin ki, insan onlardan savab əldə edə bilsin.

# Naməhrəm şəxsin şəklini və onu videoya çəkmək

---

Sual: **1194**: Naməhrəm və hicabsız olan qadının şəklinə baxmağın hökmü nədir? Televiziyada qadının üzünə baxmağın hökmü nədir? Müsəlman qadınla qeyri-müsəlman qadın arasında, eləcə də onun canlı yayımla, yaxud sonradan efirə buraxılması arasında fərq varmı?

Cavab: Naməhrəm qadının şəklinə baxmaq naməhrəm qadının özünə baxmaq hökmündə deyil. Deməli, əgər ona baxmaq ləzzət üzündən olmazsa və günaha düşmək qorxusu da olmazsa, şəkil də tamaşaçının tanıdığı şəxslərdən olmayan müsəlman bir qadına aid olarsa, eybi yoxdur. Vacib ehtiyata görə təsviri televiziyadan birbaşa (canlı şəkildə) efirə buraxılan naməhrəm qadının şəklinə baxmaq olmaz. Lakin, televiziyadan canlı olmayan şəkildə efirə buraxılsa, əgər reybə və günaha düşmək qorxusu olmazsa, ona baxmağın eybi yoxdur.

---

Sual: **1195**: Peyk antenalarından alınan televiziya verilişlərinə baxmağın hökmü nədir?

Cavab: Qərb ölkələrinin peyk antenalarının vasitəsilə efirə buraxılan, eləcə də qonşu dövlətlərdən çoxunun televiziyasından verilən verilişlər azdırıcı fikirlərə malik olub həqiqətləri təhrif etdiyindən, ləhv və fəsada səbəb olduğundan, həmçinin əksər hallarda onların müşahidə edilməsi insanın yoldan azmasına, fəsada və haram işlərə düşməsinə səbəb olduğundan onlara baxmaq caiz deyil.

---

Sual: **1196**: Radio və televizorda satirik verilişlərə baxmağın və dinləməyin eybi varmı?

Cavab: Hər hansı bir möminin təhqir olunmasına səbəb olmayınca, satirik və digər əyləncəli verilişlərə baxmağın eybi yoxdur.

---

Sual: **1197**: Toy şadlığında mənim bir neçə dəfə şəklimi çəkmişdilər ki, onlarda kamil hicabım yox idi. Bu şəkillər hal-hazırda dostlarımın və qohum-əqrəbamın yanındadır. Onları bir yerə toplamaq mənə vacibdirmi?

Cavab: Əgər şəkillərin başqalarının yanında olması heç bir fəsada səbəb olmazsa və ya fəsadı olduğu halda da şəkilləri başqalarına verməkdə sizin heç bir rolunuz olmamışsa, yaxud onların başqalarından alınıb bir yerə toplanması sizin üçün çətindirsə, bu barədə heç bir vəzifəniz yoxdur.

---

Sual: **1198**: Mərhum İmam Xomeyninin və şəhidlərin şəkillərini öpmək, biz qadınlara naməhrəm olduğuna görə işkallıdırmı?

Cavab: Ümumiyyətlə bir şəxsin şəkli onun özü hökmündə deyil. Buna görə də reybə məqsədi ilə olmasa və insanın günaha düşməsi qorxusu olmasa, şəkilə ehtiram göstərmək, təbərrük etmək və məhəbbət göstərmək məqsədilə onu öpməyin eybi yoxdur.

---

Sual: **1199**: Kinolarda və başqa yerlərdə çılpaq və yarımçılpaq qadın şəkillərini görmək onları tanımadığımız halda caizdirmi?

Cavab: Kinolara və şəkillərə baxmaq yad (naməhrəm) qadına baxmağın hökmündə deyil. Əgər şəhvət və reybə üzündən olmazsa və öz ardınca fəsad gətirməzsə, şərən işkalsızdır. Lakin şəhvəti təhrik edən çılpaq şəkillərə baxış əksər hallarda şəhvət üzündən olduğundan və buna görə də insanın günaha düşməsinə bir müqəddimə olduğundan onlara baxmaq haramdır.

---

Sual: **1200**: Toy mərasimlərində qadının ərindən icazəsiz olaraq şəkil çəkdirməsi caizdirmi? Caiz olduğunu fərz etdikdə, kamil hicaba riayət etməsi vacibdirmi?

Cavab: Şəkil çəkdirməyin özü ərin icazəsinə bağlı deyil. Lakin əgər naməhrəm şəxsin onun şəklini görəcəyinə və kamil hicaba riayət etməməsinin də müəyyən bir fəsad törədəcəyinə səbəb olacağını ehtimal versə, ona riayət etmək vacibdir.

---

Sual: **1201**: Qadınların kişilərin güləşməsinə baxması caizdirmi?

Cavab: Əgər onu müşahidə etmək güləş meydanında hazır olub birbaşa görməklə olsa, yaxud onu televiziyadan canlı yayımla efirə verilərkən müşahidə etsə, yaxud ləzzət və reybə qəsdi ilə olsa, yaxud da günaha və fəsada düşmək qorxusu olsa, caiz deyil. Bundan başqa hallarda işkalı yoxdur.

---

Sual: **1202**: Əgər gəlin toy gecəsində açıq və nazik bir örpəyi başına salsa, naməhrəm kişinin onun şəklini çəkməsi caizdirmi?

Cavab: Əgər naməhrəm qadına haram baxışa səbəb olarsa, caiz deyil. Əks halda eybi yoxdur.

---

Sual: **1203**: Hicabsız qadının öz məhrəmləri arasında şəklini çəkməyin hökmü nədir? Əgər o şəkilləri çıxaran zaman naməhrəm kişinin onları görməsi ehtimalı verilsə, hökmü nədir?

Cavab: Əgər ona baxıb şəkil çəkən şəxs onun məhrəmlərindən olsa, onun şəklini çəkməyin eybi yoxdur və onun şəklini də onu tanımayan bir şəkil çəkənin yanında çıxartdırmağın eybi yoxdur.

---

Sual: **1204**: Gənclərdən biziləri açıq-saçıq şəkillərə baxır və öz işlərinə gülünc bəhanələr gətirirlər, onun hökmü nədir? Əgər bu şəkilləri görmək insanın şəhvətini müəyyən qədər sakitləşdirsə və harama düşməsinin qarşısını almaqda təsirli olsa, hökmü nədir?

Cavab: Əgər o şəkillərə baxmaq reybə məqsədi ilə olsa, yaxud insan şəhvətinin təhrik olunacağını bilsə, yaxud günah və fəsada mürtəkib olması qorxusu varsa, bu kimi hallarda onlara baxmaq haramdır. Onun xatirinə insanın başqa bir harama düşməməsinə gəldikdə isə bu, şərən haram olan bir işə mürtəkib olmasına əsas ola bilməz.

---

Sual: **1205:** Videoya çəkmək məqsədilə musiqi çalınan və bəzilərinin oynadığı şadlıq mərasimlərində iştirak etməyin hökmü nədir? Kişinin kişi məclislərində, qadının qadın məclislərində video çəkməsinin hökmü nədir? Toy mərasimlərində çəkilən şəkillərin kişi vasitəsilə çıxarılması, göstərilməsinin hökmü nədir, istər o ailəni tanısın, istərsə də tanımasın? Həmçinin onun qadın vasitəsilə zahir edilməsinin hökmü nədir? O filmlərdə musiqidən istifadə edilməsi caizdirmi?

Cavab: Şadlıq mərasimlərində iştirak etmək, kişilərin kişi məclislərində, qadınların qadın məclislərində video çəkməsi ğinaya, yaxud haram musiqiyə qulaq asmağa səbəb olmasa, yaxud hər hansı bir başqa haram əmələ mürtəkib olmaqla nəticələnməzsə, eybi yoxdur. Lakin kişinin qadın məclisində, qadının da kişi məclisində video çəkməsi fəsad və reybəyə səbəb olarsa, caiz deyil. Həmçinin, günah və ləhv məclisləri ilə münasib olan ləhv mütrib musiqilərdən filmlərdə də istifadə etmək haramdır.

---

Sual: **1206**: Filmlərin (xarici və ya daxili), eləcə də İran İslam Respublikasının televiziyasından verilən musiqilərin keyfiyyətinə diqqət yetirməklə onları görməyin və onlara qulaq asmağın hökmü nədir?

Cavab: Əgər görən və baxan şəxs radio-televiziyadan efirə buraxılan musiqinin mütrib, ləhv və günah məclislərinə münasib olan bir musiqi olmasını ayırd etsə, yaxud televiziyadan efirə buraxılan filmi görmək fəsada səbəb olsa, onları eşidib qulaq asmaq onlar üçün caiz deyil. Sadəcə olaraq radio-televiziyadan efirə verilməsi onun caiz olmasına şəri əsas hesab olunmur.

---

Sual: **1207**: Peyğəmbəri Əkrəm (s), Əmirəl-möminin Əli (ə) və İmam Hüseyn (ə)-a mənsub edilən şəkilləri dövlət mərkəzlərinə vurmaq üçün alıb-satmağın hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə şəri cəhətdən heç bir işkalı yoxdur. Bu şərtlə ki, camaat arasında ehtiramsızlığa və təhqirə səbəb olan işlərdən olmasın və o həzrətlərin şən və məqamı ilə ziddiyyət təşkil etməsin.

---

Sual: **1208**: Şəhvətin təhrik olunmasına səbəb olan qeyri-əxlaqi şer və kitabları oxumağın hökmü nədir?

Cavab: Onlardan çəkinmək lazımdır.

---

Sual: **1209:** Televiziyalar, yaxud peyk antenalardan birbaşa yayınlanan kanallar qərb cəmiyyətinin ictimai məsələlərini bəyan edən və azğın fikirlərin yayılmasına səbəb olan bir sıra ictimai proqramları və verilişləri efirə buraxır, o cümlədən qadınla kişinin açıq-saçıq bir-birinə qarışması, qanunsuz əlaqələrin yayılması da bu qəbildəndir. Belə ki, bu verilişlər möminlərin bəzilərinə təsir qoyur. Onlardan təsirlənəcəyi ehtimal verilən bir şəxs üçün onlara baxmağın hökmü nədir? Bu hökmdə həmin verilişləri araşdırıb tənqid etmək, mənfi və nöqsanlı cəhətlərini bəyan etmək və camaata, onlara baxmasınlar deyə, nəsihət etmək məqsədilə baxanlar arasında fərq vardırmı?

Cavab: Bu kimi verilişlərə baxmaq əgər ləzzət üzündən olarsa, yaxud ondan təsirlənib fəsada düşmək qorxusu olarsa, caiz deyil. Lakin onları tənqid etmək, onun törədəcəyi təhlükə və mənfi cəhətlərini camaata çatdırmaq üçün səlahiyyəti olan, o proqramlardan təsirlənməyəcəyinə və fəsada düşməyəcəyinə xatircəm olan şəxslər üçün bu işin işkalı yoxdur. Əlbəttə əgər bu barədə müəyyən qayda-qanunlar olarsa, riayət edilməlidir.

---

Sual: **1210**: Televizorda diktorun bəzənmiş və başı-sinəsi açıq olan halda tüklərinə baxmaq caizdirmi?

Cavab: Ona sadəcə baxmaq əgər ləzzət üzündən olmazsa və harama, fəsada düşmək qorxusu olmazsa, eləcə də birbaşa (canlı) şəkildə efirə buraxılmazsa, eybi yoxdur.

---

Sual: **1211**: Ailə qurmuş şəxslər üçün şəhvət yaradan kinolara baxmaq caizdirmi?

Cavab: Əgər onlara baxmaq şəhvəti təhrik etmək məqsədilə olarsa, yaxud onun təhrik olunmasına səbəb olarsa, caiz deyil.

---

Sual: **1212**: Evli kişilər üçün hamilə qadınlarla düzgün yaxınlıq yolunu göstərən filmlərə baxmaq onların harama düşmələrinə səbəb olmadığını nəzərə almaqla caizdirmi?

Cavab: Həmişə şəhvətli baxışlarla yanaşı olan bu kimi filmlərə baxmaq caiz deyil.

---

Sual: **1213**: İslam orientasiyası nazirliyinin işçilərinin müxtəlif filmlərə, jurnallara, bülletenlərə və lent yazılarına, onların icazə verilən hallarını ayırd etmək məqsədi ilə baxmasının hökmü nədir? Bunu da nəzərə alaq ki, bu kimi nəzarət onların əyani olaraq müşahidə edib qulaq asılmalarını tələb edir.

Cavab: Nəzarət məmurlarının qanuni vəzifəni yerinə yetirmək məqamında onlara zərurət miqdarında qulaq asmağının və görməyinin işkalı yoxdur. Lakin ləzzət və reybə qəsdindən uzaq olmalıdırlar, nəzarət və təhqiqat üçün təyin olunan şəxslərin də fikri və ruhi cəhətdən məsul şəxslərin nəzarəti altında və onların yol göstərmələri əsasında olmaları vacibdir.

---

Sual: **1214**: Bəzən əxlaqsız şəkilləri olan video filmlərinə başqalarına göstərmək üçün baxmaq, onlara nəzarət edib əxlaqsız yerlərini ixtisara salmağın hökmü nədir?

Cavab: Bu filmlərə, onları islah etmək və fəsada səbəb olan yerlərini ixtisara salmaq məqsədi ilə baxmağın eybi yoxdur, bu şərtlə ki, bu işləri görən şəxs harama düşməyəcindən əmin olsun.

---

Sual: **1215**: Ər və arvadın evdə cinsi məsələlərlə əlaqədar video filmlərə baxması caizdirmi? Onurğa beyni zədələnmiş şəxslərin, şəhvətin təhrik olunması və həyat yoldaşı ilə yaxınlıq etməyə qüdrət tapmaq məqsədi ilə bu kimi filmlərə baxması caizdirmi?

Cavab: Cinsi məsələlərlə əlaqədar video filmlər vasitəsilə şəhvətin təhrik edilməsi caiz deyil.

---

Sual: **1216**: İslam dövlət qanunları əsasında qadağan olunan film və şəkillər heç bir fəsada səbəb olmazsa, onlara gizli şəkildə baxmağın hökmü nədir? Onun cavan ər-arvadla əlaqədar hökmü nədir?

Cavab: Qadağan olunması fərz olunduqda işkallıdır.

---

Sual: **1217**: Bəzi hallarda İslam respublikasının müqəddəslərinə və rəhbərlik məqamına təhqir və hörmətsizlik sayılan filmlərə baxmağın hökmü nədir?

Cavab: Onlardan çəkinmk vacibdir.

---

Sual: **1218**: İslam inqilabından sonra çəkilən və yarı hicablı qadınların iştirak etdiyi İran filmlərinə baxmağın hökmü nədir? Halbuki, bu filmlər bəzən qadınların təlim-tərbiyəsinə mənfi təsir qoyur.

Cavab: Bu filmlərin özünə baxmaq əgər ləzzət və reybə məqsədi ilə olmazsa, insanın fəsada düşməsinə səbəb olmazsa, öz-özlüyündə işkalı yoxdur, lakin kino çəkənlər islamın dəyərli təlimləri ilə zidd olan kinoların hazırlanmasından çəkinməlidirlər.

---

Sual: **1219**: İslam Orientasiyası Nazirliyi tərəfindən təsdiqlənən filmlərin göstərilməsinin və yayılmasının hökmü nədir? Həmçinin bu nazirlik tərəfindən təsdiq olunan musiqi lentlərini institutlarda yayılmasının hökmü nədir?

Cavab: Əgər filmlər, yaxud lent yazıları mükəlləfin nəzərində ürfən ğinaya, yaxud mütrib musiqiyə, günah və ləhv məclislərinə münasib olan ləhv musiqiyə şamil olarsa, onları yaymaq, həmçinin onlara baxıb və qulaq asmaq həmin (mükəlləf) şəxs üçün caiz deyil. Sadəcə olaraq əlaqədar təşkilatlardan bəzilərinin təsdiqləməsi mükəlləfin mövzunu ayırd etməkdəki nəzərinin onu təsdiqləyənlərin nəzəri ilə müxalif olan vaxta qədər onun caiz olmasına şəri bir dəlil hesab olunmaz.

---

Sual: **1220**: Üzərində yad qadınların şəkli olan və paltar seçməsi üçün işlədilən qadın paltarlarını göstərən jurnalları alıb-satmaq və saxlamağın hökmü nədir?

Cavab: Bu jurnallarda sadəcə olaraq yad qadın şəklinin varlığı onun al-verinin və paltar seçmək üçün bəhrələnməsinə mane deyil. Amma əgər şəkillər insanın fəsada düşməsinə səbəb olarsa, bu hal istisnadır.

---

Sual: **1221**: Video kameraların alınıb-satılması caizdirmi?

Cavab: Haram işlərdə istifadə etmək məqsədi olmayınca video kameraların alınıb-satılmasının işkalı yoxdur.

---

Sual: **1222**: Əxlaqsız video kasetlərin və kinoların, eləcə də videokameraların alınıb-satılmasının və icarəyə verilməsinin hökmü nədir?

Cavab: Əgər filmlərdə şəhvəti təhrik edən, insanın yolunu azmasına səbəb olan və fəsada salan biabırçı şəkillər olsa, yaxud onda ğina, mütrib, ləhv və günah məclislərilə uyğun olan musiqilər olsa, belə filmlərin hazırlanması, alınıb-satılması, icarəyə verilməsi, eləcə də videoların bu işlərdə istifadə olunması üçün icarəyə verilməsi caiz deyil.

---

Sual: **1223**: Xarici radioların xəbərlərinə, elmi və incəsənət verilişlərinə qulaq asmaq caizdirmi?

Cavab: İnsanın azğınlığa və fəsada düşməsinə səbəb olmazsa, caizdir.

## Peyk antenaları

---

Sual:125: Peyk vasitəsilə televiziya verilişlərini alan dəzgahları alıb saxlamaq və onlardan istifadə etmək caizdirmi? Əgər bu dəzgah insanın əlinə pulsuz çatsa hökmü nədir?

Cavab: Peyk antena sırf şəkildə həm halal, həm də haram verilişləri olan televiziya proqramlarını əldə etmək məqsədi ilə ixtira edildiyindən müştərək alətlər hökmündədir. Buna görə də onun alınıb-satılması və saxlanması haram işlərdə istifadə etmək üçün olarsa haram, halal istifadələr üçün olduqda isə halaldır. Amma bu vəsait, onu öz ixtiyarında saxlayan şəxsin haram verilişlərə düşməsinə tam şərait hazırladığından və bəzən də onun saxlanması digər fəsadlara səbəb olduğundan onun alınıb saxlanması caiz deyil. Yalnız o kəslər üçün caizdir ki, onlardan haram yolda istifadə etməyəcəyinə və onu evdə saxlamasının ardınca bir fəsad gəlməyəcəyinə xatircəm olsunlar. Əgər bu məsələ ilə əlaqədar müəyyən qanunlar olsa, ona riayət edilməlidir.

---

Sual: **1224**: İran İslam Respublikasından xaricdə yaşayan bir şəxs üçün İslam Respublikasının verilişlərini peyk kanallarından götürmək üçün bu dəzgahın alıb-satması caizdirmi?

Cavab: Qeyd olunan dəzgahın halal istifadələr üçün qabiliyyətli olan müştərək vəsaitlərdən olmasına baxmayaraq, əksər hallarda ondan haram yolda istifadə edilir, bundan əlavə ondan evdə istifadə edilməsi başqa fəsadlara da səbəb olur, buna görə də onun alınması və evdə istifadə edilməsi caiz deyil. Yalnız o kəs üçün caizdir ki, ondan haram istifadə etməyəcəyinə əmin olsun və onun evdə saxlanması da başqa bir harama, fəsada səbəb olmasın.

---

Sual: **1225**: Əgər peyk antenaları İran İslam Respublikasının verilişlərini götürməkdən əlavə, Fars körfəzi ölkələrindən və Ərəb ölkələrindən bəzi faydalı proqramları və xəbərləri, eləcə də bütün Qərb ölkələrinin və fasid kanallarını götürsə hökmü nədir?

Cavab: Bu dəzgahdan televiziya kanallarının verilişlərini almaq üçün istifadə etməyin caizliyində meyar yuxarıda deyilənlərdən ibarətdir. Bunda Qərb ilə sair ölkələrin kanalları arasında heç bir fərq yoxdur.

---

Sual: **1226**: Qərb dövlətləri, yaxud Fars körfəzi sahillərində yerləşən ölkələr və ya başqa ölkələrin peyk vasitəsilə efirə buraxılan elmi, dini və s. kimi proqramları əldə etmək üçün peyk antenalarından istifadə etməyin hökmü nədir?

Cavab: Bu dəzgahlardan elmi, Qurani və s. kimi proqramları görmək və dinləmək üçün istifadə etməyin öz-özlüyündə maneəsiz olmasına baxmayaraq, Qərb dövlətləri və qonşu dövlətlərin əksəriyyətinin vasitəsilə efirə buraxılan peyk proqramlarının çoxu əksər hallarda azdırıcı fikirlərə malik olduğundan, həqiqətləri təhrif etdiyindən, həmçinin içərsində ləhv və fəsad proqramları olduğundan, hətta onların vasitəsilə elmi, yaxud Qurani proqramları müşahidə etmək belə insanın fəsada düşməsinə, harama mürtəkib olmasına səbəb olduğundan qeyd olunan antenalardan istifadə edərək o proqramları görmək şərən haramdır. Amma əgər sırf faydalı elmi, yaxud Qurani verilişlər olsa və onlara baxılması heç bir fəsada səbəb olmazsa, yaxud haram əmələ mürtəkib olmağa gətirib çıxarmazsa, bu hal istisna olunur. Amma əgər bu barədə qanun olmuş olsa, ona riayət edilməsi yaxşıdır.

---

Sual: **1227**: Bizim işimiz radio-televiziya proqramlarının qəbuledicilərini təmir etməkdir. Son zamanlar çoxları müraciət edərək peyk antenalarının hissələrinin təmir edilməsi və onun evdə quraşdırılmasını istəyir. Bu barədə bizim vəzifəmiz nədir? Onların hissələrini alıb-satmağın hökmü nədir?

Cavab: Əgər bu dəzgahdan əksər hallarda olduğu kimi, haram yollarda istifadə etmək nəzərdə tutulsa, yaxud siz peyk antenasını alan şəxsin ondan haram işlərdə istifadə edəcəyini bilirsinizsə, onun al-veri, hissələrinin quraşdırılması, işə salınması, təmir edilməsi və satılması caiz deyil.

# Teatr və kino

---

Sual: **1228**: Kino çəkilişində lazım gələrsə din alimlərinin və qazilərin rəsmi paltarlarından istifadə etmək caizdirmi? Keçmiş, yaxud müasir alimlərin həyatı barəsində, onların ehtiramına riayət etməklə, islamın hörmətini saxlamaqla, eləcə də onlara hörmətsizlik və ədəbsizlik edilmədən irfani və dini məzmunlu kino çəkmək (hazırlamaq) caizdirmi? Xüsusilə bunu nəzərə alaq ki, bu işdə əsas məqsəd mübarək İslam dinində bəyan olunmuş dərin və yüksək məzmunları, biz İslam ümmətinin imtiyazlarından hesab olunan köklü mədəniyyəti və irfani məfhumları bəyan etmək, eləcə də düşmənlərin əxlaqsızlıq və açıq-saçıqlılıq mədəniyyəti ilə qarşılaşmaqdır, onların bəyan edilməsi kino dili ilə xüsusilə gənc nəsildə daha artıq təsir qoyur və cazibə yaradır.

Cavab: Kinonun agahlıq və təbliğat üçün bir vasitə olduğuna nəzər yetirməklə həm gənclərin, həm də qeyrilərinin təfəkkür və düşüncə səviyyəsinin yüksəldilməsi və İslam mədəniyyətinin yayılması yolunda istifadə oluna biləcək hər bir şeyi təsvirə çəkmək işkalsızdır. Bu yollardan biri də alimlərin, xüsusilə din alimlərinin və yüksək məqam sahiblərinin şəxsiyyətini təqdim etmək, onların özünəməxsus həyatlarını bəyan etməkdir. Lakin onların malik olduqları ehtiramı, özlərinə məxsus həyatlarının toxunulmazlığını qoruyub saxlamaq vacibdir. Həmçinin bundan İslama zidd olan məfhumların yayılmasında istifadə etmək olmaz.

---

Sual: **1229**: Biz əbədi Kərbəla faciəsini canlandıran bir inqilabi film hazırlamağı qərara almışıq ki, İmam Hüseyn (ə)-ın, yolunda şəhid olduğu böyük hədəfləri bəyan etsin. İmam Hüseyn (ə)-ın şəxsiyyətinin bu filmdə adi və gözlə görünən bir şəxs şəklində təqdim edilmədiyini, kino çəkilişinin bütün mərhələlərində nurani bir şəxsiyyət kimi göstərildiyini nəzərə alaraq bu filmin hazırlanması və İmam Hüseyn (ə)-ın şəxsiyyətinin bu qaydada göstərilməsi caizdirmi?

Cavab: Əgər film mötəbər sənəd əsasında, eləcə də mövzunun müqəddəsliyini hifz etməklə, İmam Hüseyn (ə), o həzrətin səhabələri və əziz əhli-beytinin yüksək məqam və mənzilətinə riayət etməklə hazırlansa eybi yoxdur. Lakin mövzunun müqəddəsliyi ona layiq olacaq tərzdə, həmçinin İmam Hüseyn (ə) və onun səhabələrinin hörmətinin (lazım olan şəkildə) saxlanması çox çətin olduğundan bu barədə ehtiyat etmək lazımdır.

---

Sual: **1230**: Kinolarda və teatrlarda oynamaq üçün kişilərin qadın paltarı və əksinə geyilməsinin hökmü nədir? Qadınların vasitəsilə kişilərin səsinin təqlid edilməsi və əksinə, hökmü nədir?

Cavab: Həqiqi bir şəxsin xüsusiyyətlərini bəyan edib oynayarkən müxalif cinsin paltarını geymək və onun səsini təqlid etməyin, fəsada səbəb olmazsa, caiz olması uzaq nəzər deyil.

---

Sual: **1231**: Qadınların, kişilərin də vasitəsilə görünən teatrlarda və səhnələrdə müxtəlif kremlərdən və bəzək vəsaitindən (qrimdən) istifadə etməsinin hökmü nədir?

Cavab: Əgər bəzədilmə (qrimlənmə) işi onların özü vasitəsilə, yaxud qadınların, yaxud da onlara məhrəm olan bir şəxsin vasitəsilə baş verərsə, öz ardınca da fəsad gətirməzsə işkalı yoxdur. Bundan qeyri hallarda caiz deyil. Əlbəttə, bəzədilmiş sifət naməhrəmlərdən örtülməlidir.

## Rəssamlıq və heykəltəraşlıq

---

Sual: **1232**: Bitkilərin, heyvanların və insan kimi canlı varlıqların gəlinciklərini, heykəllərini düzəltmək və şəkillərini çəkməyin hökmü nədir? Onların sərgilərdə al-ver edilməsi, saxlanması və camaata göstərilməsinin hökmü nədir?

Cavab: Ruhsuz varlıqların heykəlini düzəltmək, şəklini çəkmək və rəsmini işləməyin işkalı yoxdur, eləcə də ruhu olan varlıqların üzünün rəsmini çəkmək əgər çıxıntılı olmazsa, yaxud kamil olmayan heykəllərin düzəldilməsi olsa, işkalı yoxdur, amma insanın, yaxud heyvanın heykəlini kamil surətdə düzəltməyin işkalı vardır. Lakin rəssamlıq və heykəltəraşlıq işlərini al-ver etmək və saxlamaq caizdir, onların sərgilərdə göstərilməsi də işkalsızdır.

---

Sual: **1233**: Yeni təhsil sistemində "özünə etimad" adlı bir dərs vardır ki, onun bir hissəsi də heykəltəraşlığa məxsusdur. Müəllimlərdən biri şagirdlərə parça və yaxud başqa şeylərlə itin, dovşanın və s. kimi heyvanların heykəlini və formasını əl işləri kimi düzəltməyi göstəriş verir. Bu kimi əşyaları düzəltməyin hökmü nədir? Müəllimlərin şagirdlərə onları düzəltmək barəsində göstəriş verməsinin hökmü nədir? Onların hissələrinin kamil olub-olmamasının hökmə təsiri varmı?

Cavab: Əgər camaat arasında "hissələri kamil olan heyvan heykəli" ünvanı aid olunmazsa, yaxud şagirdlər təklif həddinə çatmamış olsalar işkalı yoxdur.

---

Sual: **1234:** Quranda nəql olunan əhvalatların uşaqlar və yeniyetmələr tərəfindən rəsm əsəri şəklində işlənməsinin hökmü nədir? Məsələn, uşaqlardan tələb edirlər ki, misal üçün "Əshabi-fil" hadisəsinin, dəryanın Həzrəti Musa (ə) üçün yarılmasının və s. kimi şeylərin şəklini çəksinlər.

Cavab: Bu işin öz-özlüyündə eybi yoxdur, lakin həqiqətlər və hadisələrlə uyğun olmalıdır. Gerçəkliyə müxalif olan, yaxud hörmətsizliyə səbəb olan işlərin bəyan edilməsindən çəkinməlidirlər.

---

Sual: **1235**: Xüsusi dəzgah vasitəsilə ruhu olan varlıqların, istər insan, istərsə də başqa şeylərin formalarının və ya heykəllərinin düzəldilməsi caizdirmi?

Cavab: Əgər dəzgah vasitəsilə heykəl düzəldilməsi birbaşa insanın işinə istinad edilməzsə, işkalı yoxdur. Əks halda işkallıdır.

---

Sual: **1236:** Bəzək əşyalarını heykəl şəklində düzəltməyin hökmü nədir? Heykəllərin düzəldildiyi maddə haramlığa olan hökmdə təsirlidirmi?

Cavab: Ruhu olan varlıqların heykəli kamil heykəl şəklində olarsa və bir nəfər onu düzəldərsə onu düzəltməyin işkalı vardır. Bu halda heykəlin düzəldildiyi maddənin nədən olmasında heç bir fərq yoxdur. Eləcə də zinət üçünmü, yoxsa başqa şey üçün işlədilməsində də fərq yoxdur.

---

Sual: **1237**: Gəlinciklərin əl, ayaq və baş kimi üzvlərini düzəltmək heykəl düzəltməyin haram olduğu hökmə şamildirmi? Ona heykəltəraşlıq aid edilirmi?

Cavab: Bu üzvlərin sadəcə olaraq düzəldilməsi heykəl düzəltmək hesab olunmur, buna görə də işkalı yoxdur. Amma istər insan, istərsə də başqa bir şey kimi ruhu olan varlığın üzvlərini şəkli kamil olana qədər birləşdirmək heykəltəraşlıq işi hesab olunur.

---

Sual: **1238**: Camaatdan bəziləri öz adətlərinə görə bədənlərinə xal döyür və bədənin üzərində müəyyən şəkillər çəkirlər. O da həmişəlik qalır və aradan getmir, bunun hökmü nədir? Dəstəmaz və qüslün düzgünlüyünə mane olurmu?

Cavab: Xal qoymaq haram deyil, onun dərinin altında qalan izləri suyun dəriyə çatmasına mane olmur, dəstəmaz və qüsl də onunla düzgündür.

---

Sual: **1239**: Ərlə arvad məşhur rəssamdırlar. Onların işi incəsənət tablolarını yenidən təmir etməkdən ibarətdir. O tabloların çoxu məsihi cəmiyyətlərini göstərir. Onların bəzilərində xaç şəkli, Həzrət Məryəmin və İsa (ə)-ın şəkilləri vardır. Bu tabloların çox qədimdən qaldığından, yaxud başqa səbəblərdən müəyyən hissələrinin aradan getdiyindən müəssisələrin, şirkətlərin sahibləri və bəzi şəxslər kilsə tərəfindən onları təmir etmək və düzəltmək üçün həmin şəxslərə müraciət edirlər. Tabloların əksəriyyəti həmin surətdədir, tablonu təmir etmək də onların yeganə işidir və güzəranını onunla təmin edirlər, İslam dininə də vəfalıdırlar. Bunu nəzərə almaqla onların tabloları təmir etmələri və bu iş üçün əldə etdikləri əmək haqqından istifadə etmələri caizdirmi?

Cavab: Sadəcə olaraq incəsənət tablolarının təmir edilib yenidən düzəldilməsinin işkalı yoxdur, hətta əgər məsihi cəmiyyətini vəsf etmiş olsa da, yaxud onun üzərində Həzrət İsa və Həzrət Məryəmin şəkilləri olsa belə. Bu iş müqabilində əmək haqqı almağın, eləcə də bu işi bir peşə kimi seçməyin və onun gəliri ilə yaşamağın da işkalı yoxdur. Amma əgər batilin, azğınçılığın yayılmasına gətirib çıxarsa və ya başqa fəsadlara səbəb olarsa, bu hal istisna olunur.

## Sehr, gözbağlama, ruhların və cinlərin çağırılması

---

Sual: **1240**: Gözbağlayıcılığı öyrətmək, öyrənmək və ona baxmaq, sürətli əl hərəkətləri ilə yanaşı olan oyunları keçirməyin hökmü nədir?

Cavab: Gözbağlayıcılığı öyrətmək və öyrənmək haramdır, lakin sürətli əl hərəkətləri ilə yanaşı olan və gözbağlayıcılıq növündən hesab olunmayan bu oyunların işkalı yoxdur.

---

Sual: **1241**: Cəfr, rəml, tilsim və bu kimi qəribə elmləri, eləcə də qeybdən xəbər verən sair elmləri öyrənmək caizdirmi?

Cavab: Hal-hazırda camaat arasında mövcud olan bu elmlər əksər hallarda qeybi işlərin kəşf olunmasına və onlardan xəbər verilməsinə yəqin və xatircəmliyə səbəb olacaq qədər etimad olunası deyil. Lakin cəfr və rəml kimi elmləri düzgün şəkildə öyrənməyin işkalı yoxdur, bu şərtlə ki, öz ardınca bir fəsad gətirməsin.

---

Sual: **1242**: Sehri öyrənmək və ona əməl etmək caizdirmi? Ruhları, mələkləri və cinləri çağırmaq caizdirmi?

Cavab: Sehr elmi və onu öyrənmək haramdır. Amma əgər əql sahibləri yanında bəyənilən və qanuni bir məqsədlə olsa, bu istisna olunur. Ruhların, mələklərin və cinlərin çağırılmasına gəldikdə isə şəraitin, vəsait və məqsədlərin fərqləndiyinə görə hökmlər müxtəlif ola bilər.

---

Sual: **1243**: Möminlərin, ruhları və cinləri ram etməklə xəstəliyi müalicə edən bəzi şəxslərə müraciət etməsinin hökmü nədir? Bunu da nəzərə alaq ki, onlar yalnız xeyir işlər görürlər.

Cavab: Bu işin öz-özlüyündə eybi yoxdur, bu şərtlə ki, şərən halal olan yollarla görülmüş olsun.

---

Sual: **1244**: Daş parçaları vasitəsilə fala baxmaq və bu yolla qazanc əldə etmək caizdirmi?

Cavab: Yalan xəbər vermək caiz deyil. Hər bir halda bu kimi işlərin şəri əsası yoxdur.

## Hipnotizm

---

Sual: **1245:** Hipnotizm caizdirmi?

Cavab: Əgər əql sahiblərinin bəyəndiyi məqsədlə, eləcə də hipnotizm olunmaq istəyən şəxsin razılığı ilə baş versə və haram bir işlə yanaşı olmasa, işkalı yoxdur.

---

Sual: **1246**: Bəziləri müalicə məqsədi ilə deyil, insanın ruhi qüdrətini göstərmək məqsədi ilə hipnotizm edirlər. Bu iş caizdirmi? Bu barədə təcrübəyə malik olan, lakin mütəxəssis olmayan şəxslər üçün bu işi görmələri caizdirmi?

Cavab: Ümumi halda hipnotizmi öyrənmək və onun halal və nəzərə çarpacaq ağlabatan məqsədlər yolunda istifadə etməyin işkalı yoxdur, bu şərtlə ki, süni yuxuya getmək istəyən şəxsin razılığı ilə olsun və ona etina olunacaq bir zərər dəyməsin.

## Uduşlu kağızlar (lotoreya)

---

Sual: **1247**: Lotoreya biletlərini alıb-satmaq və mükəlləfin udduğu mükafatı götürməsinin hökmü nədir?

Cavab: Lotoreya biletlərini alıb-satmaq düzgün deyil və mükafatı (uduşu) alan bir şəxs onun (şəri) maliki olmur və onu almağa haqqı yoxdur.

---

Sual: **1248**: Camaat arasında "ekoloji hədiyyə", yaxud "rəhmət hüması" adları ilə hazırlanıb yayılan vərəqələri hazırlamaq, onlar üçün pul vermək və bu vərəqələr vasitəsilə püşkdə iştirak etməyin hökmü nədir?

Cavab: Xeyriyyə işlərində sərf olunmaq, xeyriyyəçiləri püşk atmaq yolu ilə bu işə sövq edib rəğbətləndirmək məqsədi ilə xeyriyyə vərəqələrinin hazırlanıb yayılmasının öz-özlüyündə şəri işkalı yoxdur. Eləcə də xeyriyyə işlərində iştirak etmək məqsədi ilə bu vərəqləri hazırlamaq üçün pul verməyin eybi yoxdur.

---

Sual: **1249**: Bir şəxs öz maşınını bəxt yoxlamaq üçün qərar vermişdir (uduşa qoymuşdur). Belə ki, müsabiqədə iştirak edən şəxs müəyyən tarixdə və müəyyən qiymətə püşk atılacaq vərəqəni alır və qeyd olunan müddət sona çatdıqdan və camaatın

bir qrupunun püşk mərasimində iştirak etməsindən sonra püşk kimin adına çıxsa, o şəxs udur və qiymətli maşını təhvil alır. Maşını satmaq üçün püşk atma yolundan istifadə edilən bu üslub şərən caizdirmi?

Cavab: Əgər al-ver püşk atmadan sonra baş verərsə, maşını, püşk atılma mərasimində iştirak edən və adına çıxan şəxsə satmağın işkalı yoxdur. Lakin satıcının, öz mallarını püşkatma mərasimində (uduşda) iştirak etmək üçün ona verən başqa şəxslərin mal-dövlətindən (pulundan) istifadə etməsi "malın batil yerə yeyilməsi"dir və onu sahiblərinə qaytarması vacibdir.

---

Sual: **1250**: Ümumxalq xeyriyyəçilik məqsədilə verdikləri şeyləri toplamaq üçün (uduş) vərəqləri satmaq caizdirmi? Belə ki, sonradan püşk atılır və toplanan sərmayənin bir qismi hədiyyə olaraq adları çıxanlara verilir, qalanları isə ümumi mənfəətə malik olan işlərə sərf edilir.

Cavab: Bu əmələ bey adı verilməsi düzgün deyil. Amma xeyriyyə işləri üçün bu vərəqələrin nəşr edilməsi və yardımların yığılmasının eybi yoxdur, camaatı da adına çıxacaq püşk sahiblərinə mükafat vermək vədəsi ilə yardım etməyə sövq etmək caizdir. Bu şərtlə ki, camaat bu vərəqələri xeyriyyə işlərində iştirak etmək üçün alsınlar.

---

Sual: **1251**: Lotoreya biletlərini almaq caizdirmi? Qeyd olunmalıdır ki, bu, xüsusi bir şirkətin mülkiyyətindədir və qazancın iyirmi faizi qadınların xeyriyyə müəssisələrinə verilir.

Cavab: Lotoreya biletlərinin maliyyəti yoxdur və bu vərəqlər qumar aləti hökmündədir. Deməli, onların al-veri caiz deyil və bunlardan əldə etdikləri məbləğ halal olmur.

## Rüşvət

---

Sual: **1252**: Bəzi bank müştəriləri işlərinin sürətlə yerinə yetirilməsi və daha yaxşı xidmət olunması üçün bank işçilərinə müəyyən qədər mal verirlər. Bunu da nəzərə alaq ki, əgər bank işçiləri həmin şəxslər üçün o işləri yerinə yetirməsə, onlara heç bir şey verilməz. Bu halda həmin malın alınması caizdirmi?

Cavab: Bank işçiləri üçün, müştərilərin işini görmək əvəzində – onlar məhz bu iş üçün işə götürüblər və onun müqabilində hər ay müəyyən məbləğdə maaş alırlar – müştərilərdən bir şey almaları caiz deyil, həmçinin bank müştəriləri də bank işçilərini şirnikləndirmək üçün onların (yerinə yetirməyə borclu olduqları) iş müqabilində nağd pul, yaxud başqa bir şey verməməlidirlər. Çünki bu iş fəsada səbəb olur.

---

Sual: **1253**: Bəzi bank müştəriləri mövcud adətlər əsasında bank işçilərinə bayram hədiyyələri verir və inanırlar ki, əgər bu hədiyyələri verməsələr, işləri bəyənilən şəkildə yerinə yetirilməz. Bu işin hökmü nədir?

Cavab: Əgər bu hədiyyələr bankın müştərilərə göstərdiyi xidmətlərdə ayrı-seçkiliyə səbəb olarsa və nəticədə fəsada, başqalarının hüquqlarının aradan getməsinə səbəb olarsa müştərilər o hədiyyələri işçilərə verməməlidirlər, işçilərin onu almağa haqqı yoxdur.

---

Sual: **1254**: Bir şəxs dövlət qulluqçusuna təşəkkür və hörmət əlaməti olaraq müəyyən bir hədiyyə versə, onun hökmü nədir? Hərçənd, o qulluqçu heç bir təmənnası olmadan bir iş görmüşdür.

Cavab: İş yerində və müraciət edənlər tərəfindən hədiyyə verilməsi ən təhlükəli işlərdən biridir, bu işdən nə qədər çox çəkinsəniz, dünya və axirətiniz üçün bir o qədər xeyirli olacaqdır. Yalnız bir halda onu almaq caizdir: o da bundan ibarətdir ki, hədiyyə vermək istəyən həddindən artıq çox israr etsin, məmur da onu qəbul etməkdən imtina etsin, nəhayət müəyyən yollarla onu hədiyyə etsin, bu da əvvəlcədən heç bir təvəqqe olmadan və müzakirə edilmədən, eləcə də iş görülüb qurtardıqdan sonra baş vermiş olarsa.

Sual: **1255**: Müraciət edənlərin vasitəsilə, özlərinin tam razılığı və səmimi qəlbdən dövlət işçilərinə istər nağd pul, istər yeməli, istərsə də başqa şeydən olan hədiyyələr verilirsə, bunun hökmü nədir? Dövlət işçilərinə rüşvət ünvanı ilə verilən şeylərin hökmü nədir – istər onu verən şəxs üçün bir iş görülməsi təvəqqesi ilə olsun, istərsə də başqa məqsədlə? Əgər işçi rüşvətə tamah gözü dikmə nəticəsində qanuna zidd olan bir əmələ mürtəkib olarsa, hökmü nədir?

Cavab: Möhtərəm dövlət işçilərinə vacibdir ki, bütün müraciət edənlərlə idarələrə məxsus olan xüsusi qanun və qaydalar əsasında rəftar etsinlər, müraciət edənlərdən hansınınsa hədiyyəsini qəbul etmək də onlar üçün caiz olan bir yolla olsun. Çünki (bu iş) fəsada, onlar barəsində bədgümanlıq yaranmasına, tamahkar şəxslərin qanuna əməl etməmələrinə və başqalarının hüququnun tapdalanmasına təhrik edir. Amma rüşvətə gəldikdə isə şübhəsiz onu alana və verənə haramdır. Onu alan şəxsə (aldığı şeyi) sahibinə qaytarmaq vacibdir və ondan istifadə etmə haqqı yoxdur.

---

Sual: **1256**: Bəzən müəyyən şəxslər müraciət edənlərdən onların işlərini görmək müqabilində rüşvət istəyirlər. Onlara rüşvət vermək caizdirmi?

Cavab: İdarələrə müraciət edənlərdən heç birinin öz işinin yerinə yetirilməsi üçün pul, yaxud müəyyən bir xidməti qanunsuz şəkildə idarə işçilərinə verməyə haqqı yoxdur, halbuki, onlar müraciət edənlərə xidmət etməyə borcludurlar. Həmçinin, qanuni nəzərdən camaatın işini yerinə yetirməyə borclu olan idarə işçiləri, müraciət edənlərin işini yerinə yetirdiyinə görə heç bir məbləği qanunsuz olaraq istəyə və ya ala bilməzlər. Onların (aldıqları təqdirdə də) bu maldan istifadə etmələri caiz deyil, əksinə, onu sahiblərinə qaytarmalıdırlar.

---

Sual: **1257**: Haqqı almaq üçün rüşvət verməyin hökmü nədir? Bunu nəzərə alaq ki, bəzən başqaları üçün çətinlik yaradılır, məsələn, haqq sahibinin başqalarından qabağa keçirilməsinə səbəb olur.

Cavab: Rüşvət vermək və onu almaq caiz deyil, təkcə haqqı olmadan başqaları üçün maneçilik törətdikdə deyil, hətta başqaları üçün çətinlik və zəhmət yaratmasa belə caiz deyil.

---

Sual: **1258**: Bir şəxs özünün şəri və qanuni işi rahatlıqla yerinə yetirilsin deyə, onun qanuni işini yerinə yetirən idarənin işçilərinə müəyyən məbləğdə rüşvət verməyə məcbur olur. Çünki onun fikrincə əgər bu məbləği verməzsə, idarə işçiləri onun işini yerinə yetirməyəcəklər. Bu məbləğ rüşvətə aid edilirmi? Bu əməl haramdırmı, yoxsa onun idarə işinin yerinə yetirilməsi üçün verilən məbləğ zərurət halında olduğundan rüşvət adını onun üzərindən götürür və nəticədə haram olmur?

Cavab: Müraciət edən şəxs tərəfindən pulun, yaxud başqa bir şeyin əhaliyə idarə xidmətlərini göstərməyə borclu olan idarə işçilərinə vermək – bu iş hökmən idarələrdə qanunsuzluğa (fəsada) səbəb olacaqdır – şəri cəhətdən haram hesab olunan bir əməldir və zərurət və çıxılmaz halının təsəvvür olunması da bu işin yerinə yetirilməsinə əsas ola bilməz.

---

Sual: **1259**: Qaçaqçılar dövlət işçilərindən bəzilərinə, onların qanunu pozmalarını görməməzliyə vurmaları müqabilində müəyyən miqdarda pul verirlər. Dövlət işçisi onların istəyini qəbul etmədikdə isə onu qətl ilə təhdid edirlər. Bu hallarda dövlət işçisinin vəzifəsi nədir?

Cavab: Qaçaqçıların qanuna zidd olan əməllərini görməməzliyə vurmaq və güzəştə getmək müqabilində hər hansı məbləği almaq caiz deyil.

---

Sual: **1260**: Vergi şöbəsinin müdiri mühasibə məmurlarından istəmişdir ki, şirkətlərdən birinin vergisini bir az azaltsınlar. Bu işdən imtina edəcəyi təqdirdə onun üçün çoxlu çətinliklər yarana bilər. Bu kimi hallarda həmin məmurun, müdirin göstərişlərinə əməl etməsi vacibdirmi? Bu göstərişi icra etmək müqabilində pul ala bilərmi?

Cavab: Bu kimi məsələlərdə qanuni normalara uyğun əməl edilməlidir və onu pozmaq caiz deyil, istər pulsuz olsun, istərsə də pul almaq müqabilində.

## Alış-veriş üzrə təyin olunmuş məsul şəxslər

---

Sual: **1261**: Bəzi satıcılar şirkət və idarələrin alış-veriş üzrə təyin olunmuş məsul şəxslərinə, nəzərdə tutulmuş qiymətə bir şey əlavə edilmədən, xoş münasibət və əlaqə yaratmaq məqsədi ilə müəyyən qədər mal verirlər. Bunun satıcı və alış-veriş üzrə təyin olunmuş məsul şəxs ilə əlaqədar hökmü nədir?

Cavab: Bu malın satıcı tərəfindən al-ver məmuruna verilməsi, məmur üçün də onu qəbul etmək caiz deyil. Qəbul edib aldığı şeyi al-ver etməyə məmur olduğu idarəyə, yaxud şirkətə təhvil verməlidir.

---

Sual: **1262**: Vəzifəsi idarənin, yaxud şirkətin satış yerlərinə olan ehtiyaclarını təmin etmək olan dövlət şirkətlərinin, yaxud xüsusi şirkətlərin qulluqçuları və ya işçiləri ehtiyac duyulan əmtəələri satan bir şəxs, alış zamanı hasil olan qazancın müəyyən bir hissəsinin onun olmasını şərt edə bilərmi? Bu miqdarı almaq onun üçün caizdirmi? Əgər yuxarıda olan məsul işçi bu şərtə icazə versə, hökmü nədir?

Cavab: İşçi tərəfindən edilən bu şərt düzgün deyil və o, öz xeyrinə olaraq şərt etdiyi qazancı ala bilməz, yuxarıdakı məsulların da belə şərtə icazə verməyə haqları yoxdur, onun bu barədəki icazəsi təsirsizdir.

---

Sual: **1263**: İdarə və şirkət tərəfindən ehtiyac duyulan şeylərin alınmasına vəkil olunan bir şəxs bazarda müəyyən qiymətə malik olan bir əmtəəni, satıcıdan maddi kömək almaq tamahı ilə daha yüksək qiymətə alarsa, onun bu cür al-veri düzgündürmü? Satıcıdan bu işinə görə kömək alması caizdirmi?

Cavab: Əgər malı bazarda olan ədalətli qiymətdən artıq qiymətə alsa, yaxud o şeyi bazardan ucuz qiymətə almaq və tədarük görmək mümkündürsə, baha qiymət əsasında bağlanan əqd mənasızdır və əlaqədar qanuni məsulların icazəsinə bağlıdır. Hər bir halda satıcıdan, ondan aldığına görə bir şey tələb etməyə haqqı yoxdur.

---

Sual: **1264**: Əgər idarədə (istər xüsusi, istərsə də dövlət idarəsində) vəzifəsi müəyyən şeyləri almaq olan şəxs müxtəlif mərkəzlərin olmasına baxmayaraq, öz tanışlarına müraciət edərək "əgər malları səndən alsam, əldə olunan qazancın müəyyən faizinə şərik olacağam" - deyə şərt etsə:

1-Bu şərtin şərən hökmü nədir?

2-Təşkilatın daha yüksək rəisi və ya məsul işçisi bu xüsusda icazə verərsə, şəri hökmü nədir?

3-Əgər camaat arasında bazarda mövcud olan şeyin qiymətindən artıq olan bir qiymət müqavilə tərəfinin vasitəsilə idarəyə təklif edilsə və müqavilə bağlansa hökmü nədir?

4-Bəzi satıcıların faktorlarda dərc olunan qiymətə baxmayaraq idarələrin al-ver məmurlarına verdikləri payların hökmü nədir? Mal almağa məmur olan şəxs üçün bunun hökmü nədir?

5-Əgər həmin şəxs idarədəki məsuliyyətindən əlavə, bir şirkət üçün bazar tapmaq vəzifəsini də öhdəsinə alsa və idarənin mallarını almaqda tərəfdaş tapmaqla da məşğul olsa, qazanc ünvanı ilə o şirkətdən müəyyən bir faiz ala bilərmi?

6-Əgər bir şəxs yuxarıdakı məsələdə deyilən yolla müəyyən qədər qazanc əldə etsə, bu qazanc barəsindəki şəri vəzifəsi nədir?

Cavab:

1-Şəri surəti yoxdur və batildir.

2-Təşkilatın yuxarı məsullarının, yaxud rəisinin icazəsi, bu barədə şəri və qanuni əsası olmadığına görə etibarsızdır.

3-Əgər malı bazardakı ədalətli qiymətdən artıq və ya ondan az qiymətə tədarük görə bilsə, bu halda bağlanan müqavilənin əsli nüfuzlu deyil.

4-Caiz deyil. Al-verə məmur olan şəxs bu məsələ ilə əlaqədar aldığı şeyləri hansı idarə tərəfindən al-verə məmur olunubsa, həmin idarəyə təhvil verməlidir.

5-Heç bir faiz almağa haqqı yoxdur. Hər nə almışsa, əlaqədar idarəyə təhvil verməlidir. Əgər bu barədə bağlanan müqavilə idarənin məsləhətinin əksinə olarsa, kökündən batildir.

6-Qanunsuz olaraq aldığı şeyləri hansı idarə tərəfindən məmur olunmuşsa, həmin idarəyə təhvil verməlidir.

# Tibbi məsələlər

# Hamiləliyin qarşısını almaq

---

Sual: **1265**:1-Sağlam olan bir qadın üçün nütfənin mayalanmasının qabağını alan vəsait və maddələrdən istifadə etməklə müvəqqəti olaraq hamiləliyin qarşısını almaq caizdirmi?

2-İndiyə qədər hamiləliyin qarşısını necə alması məlum olmayan, amma hamiləliyin qarşısını alan dəzgah kimi tanınan bir dəzgahdan istifadə etməklə hamiləliyin qarşısını almaq olarmı?

3-Hamiləliyin təhlükəsindən qorxan bir qadın üçün hamiləliyin qarşısını daimi olaraq almaq caizdirmi?

4-Şikəst, yaxud irsən fiziki və ruhi xəstəliklərə tutulacaq uşaq doğmasına münasib şərait olan qadınlar üçün hamiləliyin qarşısını daimi olaraq almaq caizdirmi?

Cavab: 1-Əgər ərinin razılığı ilə olsa işkalı yoxdur.

2-Əgər nütfənin, bətndə qərarlaşmasından sonra aradan getməsinə səbəb olarsa, yaxud haram baxışa və toxunmaya səbəb olarsa, caiz deyil.

3-Fərz olunan halda hamiləliyin qarşısını almağın işkalı yoxdur, hətta əgər hamiləlik ananın sağlamlığına təhlükəli olsa, ixtiyari halda hamilə olması caiz deyil.

4-Əgər ağlabatan (əql sahibləri tərəfindən bəyənilən) bir məqsədlə baş verərsə, nəzərə çarpacaq zərər verməzsə və ərinin icazəsi ilə olarsa, eybi yoxdur.

---

Sual: **1266**: Cəmiyyətin artmasının qabağını almaq məqsədi ilə kişinin məni (sperma) kanalını bağlamağın hökmü nədir?

Cavab: Əgər bu iş ağlabatan (əql sahibləri nəzərindən bəyənilən) bir məqsədlə baş versə və nəzərə çarpacaq qədər zərəri olmazsa, öz-özlüyündə işkalı yoxdur.

---

Sual: **1267**: Hamiləliyin zərəri olmadığı sağlam bir qadın üçün məníni çölə tökməklə, yaxud diafraqma dəzgahı vasitəsilə, yaxud dərman qəbul etməklə, yaxud bətnin kanallarını bağlamaqla hamiləliyin qarşısını almaq caizdirmi? Ərinin onu birincidən başqa bu yollardan birindən istifadə etməyə vadar etməsi caizdirmi?

Cavab: Hamiləliyin qarşısını mənini (spermanı) çölə tökmək yolu ilə və ər-arvadın razılığı ilə almağın öz-özlüyündə eybi yoxdur. Həmçinin, digər yollardan da istifadə etmək əgər əql sahibləri yanında bəyənilən bir məqsədlə olarsa, nəzərə çarpacaq zərəri də olmazsa, eləcə də ərinin icazəsi ilə olsa və haram toxunuş və baxışa səbəb olmazsa, işkalı yoxdur, lakin ərin öz həyat yoldaşını bu işə vadar etməyə haqqı yoxdur.

---

Sual: **1268**: Bətninin kanallarını bağlatmaq məqsədində olan hamilə bir qadın üçün sezarin əməliyyatı yolu ilə öz övladını dünyaya gətirməsi caizdirmi ki, bu əməl zamanı bətnin yollarını da bağlatsın?

Cavab: Bətnin kanalının bağlanmasının hökmü yuxarıda qeyd olundu. Lakin sezarin əməliyyatının caizliyi ona ehtiyaca, yaxud hamilə qadının öz istəyinə bağlıdır. Hər bir halda zərurət halı istisna olmaqa, sezarin əməliyyatı aparılan və bətnin kanalını bağlanan zaman naməhrəm kişinin qadına ləms etməsi və baxması haramdır.

---

Sual: **1269**: Qadının öz ərinin icazəsi olmadan hamiləliyin qarşısını alan vasitələrdən istifadə etməsi caizdirmi?

Cavab: Məhəlli-işkaldır.

---

Sual: **1270**: Dörd övladı olan bir kişi öz məni kanalını bağlayır. Qadının razılığı olmadığı halda o kişi günahkar hesab olunurmu?

Cavab: Bu işin caizliyi qadının razılığına bağlı deyil və kişinin öhdəsində heç nə yoxdur.

## Uşaq saldırmaq

---

Sual: **1271**: İqtisadi çətinliklər nəticəsində uşaq saldırmaq caizdirmi?

Cavab: Sadəcə olaraq iqtisadi çətinliklərin varlığı ilə uşaq saldırmaq caiz deyil.

---

Sual: **1272**: Hamiləliyin ilk aylarında həkim qadını müayinə edərək demişdir ki, hamiləliyin davam etməsinin onun canını təhlükəyə salması ehtimalı vardır. Əgər hamiləlik davam edərsə, övladı şikəst doğulacaqdır. Buna görə də həkim uşağı saldırmaq göstərişi verir. Bu iş caizdirmi? Ruh daxil olmamışdan qabaq uşağı saldırmaq caizdirmi?

Cavab: Rüşeymin xilqətinin naqis olması onun saldırılmasına, hətta ruh daxil olmamışdan qabaq belə, şəri əsas hesab olunmur. Lakin əgər hamiləliyin davam etdirilməsi mütəxəssis və (sözündən) xatircəmlik hasil olan bir həkimin nəzəri əsasında ananın həyatı təhlükəyə düşərsə, ruh daxil olmamışdan qabaq onu saldırmağın işkalı yoxdur.

---

Sual: **1273**: Mütəxəssis həkimlər yeni üslublardan və dəzgahlardan istifadə edərək hamiləlik dövründə körpənin çatışmazlıqlarını müəyyənləşdirirlər. Naqis (eybli) şəxslərin təvəllüddən sonra həyatları boyunda qarşılaşdıqları çətinlikləri nəzərə almaqla, mütəxəssis və (sözündən) xatircəmlik hasil olan həkimlərin naqis dünyaya gələcəyini ayırd etdikləri uşağı saldırmaq caizdirmi?

Cavab: Rüşeymin hansı ayında olursa olsun, sadəcə naqis olacağını, yaxud doğuşdan sonra həyatı boyu çətinliklərlə qarşılaşacağını əsas tutaraq uşağı saldırmaq caiz deyil.

---

Sual: **1274**: Ana bətnində qərarlaşan mayalanmış nütfəni, təqribən qırx gün çəkən ələqə mərhələsinə çatmazdan qabaq saldırmaq caizdirmi? Ümumiyyətlə aşağıdakı halların hansında nütfəni saldırmaq caizdir:

1-Ana bətnində qərarlaşmış nütfə.

2-Ələqə.

3-Müzğə.

4-Sümük (ruh verilməzdən qabaq).

Cavab: Nütfənin ana bətnində qərarlaşmasından sonra onu məhv etmək, eləcə də sonrakı mərhələlərin heç birində rüşeymi saldırmaq caiz deyil.

---

Sual: **1275**: Bəzi kişilərdə qan xəstəlikləri vardır, onlar eybli genlərə malikdirlər, nəticədə bu xəstəlik onların övladlarına keçir. Övladın da ağır xəstəliklərə düçar olmasına verilən ehtimal həddindən artıq çoxdur, belə uşaqlar doğuşun əvvəlindən ömürlərinin sonuna qədər daimi olaraq çox ağır vəziyyətdə olacaqlar. Məsələn, "hemofili" xəstəliklərinə tutulanlarda yüngül zərbə ilə güclü qanaxma baş verə bilər, bu da onların ölümünə, yaxud iflic vəziyyətə düşməsinə səbəb olar. Bu xəstəliyin hamiləliyin ilk həftələrində ayırd edilməsinin mümkün olduğunu nəzərə alaraq, belə hallarda uşağı saldırmaq caizdirmi?

Cavab: Əgər uşaqda xəstəliyin ayırd edilməsi qəti olsa və belə övladlara malik olub onları saxlamaq ağır əzab-əziyyətə səbəb olsa, bu halda ruh daxil olmazdan qabaq onu saldırmaq caizdir. Lakin ehtiyata görə onun diyəsi verilməlidir.

---

Sual: **1276**: Uşaq saldırmağın öz-özlüyündə hökmü nədir? Hamiləliyin davam etdirilməsi ana üçün təhlükəli olduğu hallarda onun hökmü nədir?

Cavab: Uşaq saldırmaq şərən haramdır və heç bir halda caiz deyil. Yalnız hamiləliyin ananın həyatı üçün təhlükəli olduğu halda ruh daxil olmazdan qabaq saldırmağın işkalı yoxdur. Lakin ruh daxil olduqdan sonra heç bir vəchlə, hətta əgər hamiləliyin davam etdirilməsi ana həyatı üçün təhlükəli olsa belə, caiz deyil. Amma əgər hamiləliyin davam etdirilməsi həm ananın, həm də uşağın həyatını təhlükəyə salarsa, uşağın həyatını xilas etmək də heç bir vəchlə mümkün olmazsa, lakin təkcə ananın həyatının xilas edilməsi mümkün olarsa, bu halda uşağı saldırmağın eybi yoxdur.

---

Sual: **1277**: Bir qadın zinadan əmələ gəlmiş uşağı onun atasının tələbi ilə yeddi aylığında saldırmışdır. Ona diyə vacibdirmi? Diyənin vacibliyi sübuta yetdiyi halda onu vermək ananın ixtiyarındadır, yoxsa atanın? Hal-hazırda onun miqdarı sizin nəzərinizcə nə qədərdir?

Cavab: Uşağı saldırmaq, hətta zinadan əmələ gəlmiş olsa belə, haramdır. Atanın tələbi də onun caiz olmasına əsas olmur. Əgər ana uşağın saldırılmasında birbaşa səbəbkar olarsa, yaxud onun saldırılmasında kömək edərsə, diyə ananın öhdəsinədir. Amma Sual fərz olunan halda uşağın saldırılmasının diyəsinin miqdarında tərəddüd vardır və əhvət budur ki, razılaşılsın. Bu diyə varisi olmayan şəxsin irsinin hökmündədir.

---

Sual: **1278**: Qəsdən olan halda iki ay yarımlıq uşağı saldırmağın diyəsinin miqdarı nə qədərdir? Onun verilməsi kimin öhdəsinədir?

Cavab: Əgər ələqə formasında olsa, diyəsi qırx dinar, müzğə olarsa altmış dinar və ətsiz sümük olsa səksən dinardır. Diyə, irs təbəqələrinə riayət etməklə uşağın varisinə verilir, lakin uşağın saldırılmasına birbaşa səbəbkar olan şəxsin onda heç bir payı yoxdur.

---

Sual: **1279**: Əgər hamilə qadın dişinin dibindəki ətləri müalicə etməyə məcbur olsa və mütəxəssis həkimin nəzəri ilə cərrahi əməliyyata ehtiyac duyulsa, bu halda onun huşdan aparılması və rentgenə salınması nəticəsində şüa bətnindəki uşağın naqis olmasına səbəb olarsa, onun üçün uşağı saldırmaq caizdirmi?

Cavab: Qeyd olunan dəlil uşağı saldırmağa əsas ola bilməz.

---

Sual: **1280**: Əgər rüşeym bətndə qəti ölüm ərəfəsində olsa və onun bətndə həmin halda diri qalması ananın həyatı üçün təhlükəli olsa, onun saldırılması caizdirmi? Əgər o qadının əri qeyd olunan halda uşağı saldırmağı caiz bilməyən, qadın və onun qohum-əqrəbası isə bunu caiz bilən bir şəxsə təqlid edirsə, bu barədə kişinin vəzifəsi nədir?

Cavab: Sualın fərz olunduğu halda məsələ uşağın təklikdə qəti ölümü ilə uşaq ilə ananın birlikdə qəti ölümü arasında dövr etdiyindən çarə yalnız bundadır ki, heç olmazsa uşağı saldırmaqla ananın həyatı xilas edilsin. Sualın fərz olunduğu halda ərin öz həyat yoldaşının bu işinə mane olmağa haqqı yoxdur. Lakin mümkün qədər uşağın qətlinin bir kəsə istinad verilməyəcəyi şəkildə əməl olunması vacibdir.

---

Sual: **1281**: Nütfəsi qeyri-müsəlman şəxs tərəfindən qeyri-iradi və ya naməlum cinsi əlaqə vasitəsi ilə və yaxud da qeyri-qanuni cinsi əlaqə vasitəsilə mayalanan uşağı saldırmaq caizdirmi?

Cavab: Caiz deyil.

## Süni mayalandırma

---

Sual: **1282:** a) Qadının yumurta hüceyrəsi və kişinin spermaları şəri ər-arvaddan olduğu halda onu laboratoriyada mayalandırmaq caizdirmi?

b) Caiz olduğunu fərz etdikdə bu işin naməhrəm həkimlərin vasitəsilə yerinə yetirilməsi caizdirmi? Bu yolla dünyaya gələn uşaqlar yumurta hüceyrə və spermanın sahibi olan ər-arvada aid edilirmi?

v) Qeyd olunan əməlin öz-özlüyündə caiz olmaması fərz edildikdə ailə həyatına nicat verilməsi həmin işə bağlı olarsa, bu, caiz olmamaq hökmündən istisna olunurmu?

Cavab: a) Bu əməlin öz-özlüyündə işkalı yoxdur, lakin naməhrəm şəxsin ləms etməsi və baxması kimi haram işlərdən ibarət olan müqəddimələrdən çəkinmək vacibdir.

b) Bu yolla dünyaya gələn uşaqlar spermanın və yumurta hüceyrənin sahibi olan ər-arvada məxsusdur.

v) Bu əməlin öz-özlüyündə caiz olması qeyd olundu.

---

Sual: **1283**: Bəzi kişilər (arvadında) mayalanma əməliyyatının zəruri olduğu qadın yumurta hüceyrəsinin olmadığına görə ailə münasibətlərini pozur, yaxud həmin xəstəliyin müalicə olunmamasına və uşaq sahibi olmadıqlarına görə müxtəlif ailə çətinlikləri və psixi (ruhi) çətinliklərlə qarşılaşırlar. Bu kimi hallarda o kişinin spermasını elmi yollarla başqa bir qadının yumurta hüceyrəsi ilə bətndən xaricdə mayalandırıb, sonra mayalanmış nütfəni həmin kişinin öz arvadının bətninə köçürmək caizdirmi?

Cavab: Qeyd olunan əməlin öz-özlüyündə işkalsız olduğuna baxmayaraq, bu yolla dünyaya gələn uşaq nütfənin və yumurta hüceyrəsinin sahibinə aid olur, onun bətn sahibi olan qadına aid edilməsi müşküldür. Buna görə də nəsəb ilə əlaqədar şəri hökmlərdə ehtiyat olunmalıdır.

---

Sual: **1284**: Əgər kişinin sperması götürülsə və onun vəfatından sonra onun həyat yoldaşının yumurta hüceyrəsi ilə mayalandırılıb onun bətninə qoyulsa: Əvvəla bu iş şərən caizdirmi? İkincisi, doğulan uşaq o kişinin övldı hesab olunurmu və şəri cəhətdən ona aid edilirmi? Üçüncüsü, dünyaya gələn övlad nütfə sahibindən irs aparırmı?

Cavab: Qeyd olunan əməlin öz-özlüyündə işkalı yoxdur və uşaq da yumurta hüceyrəsinin və bətnin sahibinə aid olur, onun nütfə (sperma) sahibinə də aid edilməsi uzaq fikir deyil, lakin ondan irs aparmır.

---

Sual: **1285**: Bir kişinin nütfəsini, arvadı uşaq sahibi olmayan başqa bir kişinin arvadının yumurta hüceyrəsi ilə (bətndən xaricdə) mayalandırıb o kişinin öz arvadının bətnində qərar vermək caizdirmi?

Cavab: Qadını, yad kişinin nütfəsi vasitəsilə mayalandırmağın öz-özlüyündə işkalı yoxdur, lakin haram müqəddimələrdən, o cümlədən haram baxış, haram toxunuş və s.-dən çəkinilməlidir. Bu yolla dünyaya gələn uşaq o qadının ərinə aid edilmir, əksinə nütfə sahibi ilə yumurta hüceyrəyə, eləcə də bətn sahibi olan qadına aid edilir.

---

Sual: **1286**: 1-Əgər əri olan bir qadın yaisəlik və s. kimi səbəblərdən yumurta hüceyrəyə malik olmazsa, ərinin ikinci arvadının yumurta hüceyrəsini, ərinin nütfəsi ilə mayalandırdıqdan sonra onun bətninə köçürülməsi caizdirmi? Bu kimi hallarda onun, yaxud ikinci həyat yoldaşının daimi, yoxsa müvəqqəti olması arasında fərq varmı?

2-İki qadından hansı biri uşağın anası hesab olunur? Yumurta hüceyrəsinin sahibi, yoxsa bətn sahibi?

3-Bu əməl, digər arvadın yumurta hüceyrəsinə olan ehtiyacın bətn sahibi olan qadının yumurta hüceyrəsinin zəif olduğuna görə olsa və ərinin nütfəsinin onunla mayalandırılacağı surətdə uşağın dünyaya şikəst gəlməsi qorxusu olacağı həddə zəif olsa, bu halda da caizdirmi?

Cavab: 1-Qeyd olunan əməlin özü şərən işkalsızdır və bu hökmdə onların nikahlarının daimi, yoxsa müvəqqəti olması, eləcə də birinin daimi, digərinin müvəqqəti olması arasında fərq yoxdur.

2-Uşaq sperma və yumurta hüceyrəsinin sahiblərinə məxsusdur, onun bətn sahibi olan qadına da aid edilməsi müşküldür. Deməli, nəsəb təsirlərinin ona aid edilməsində (ona aid olunmasında) ehtiyata riayət olunmalıdır.

3-Bu iş öz-özlüyündə caizdir.

---

Sual: **1287**: Aşağıdakı hallarda qadının dünyadan getmiş ərinin nütfəsi ilə mayalandırılması caizdirmi?

a) Ərinin vəfatından sonra, lakin iddə müddəti qurtarmamışdan qabaq,

b) Onun vəfatından və iddənin sona çatmasından sonra,

v) Əgər o qadın ərinin vəfatından sonra başqa bir kişi ilə izdivac edərsə, özünü birinci ərinin nütfəsi ilə mayalandırması caizdirmi? İkinci ərinin vəfat etdiyi surətdə özünü birinci ərinin nütfəsi ilə mayalandırması caizdirmi?

Cavab: Bu əməlin öz-özlüyündə işkalı yoxdur və bu barədə iddənin qurtarmasından qabaq, yoxsa sonra olması, eləcə də izdivac edib-etməməsi arasında fərq yoxdur. İzdivac etdiyi surətdə də qadının birinci ərinin nütfəsi ilə, ikinci ərinin vəfatından sonra və ya onun həyatda olduğu vaxt mayalandırılması arasında fərq yoxdur. Amma əgər ikinci əri sağ olsa, bu iş onun icazəsi ilə görülməlidir.

---

Sual: **1288**: Müasir dövrdə bətndən xaricdə mayalandırılan yumurta hüceyrələr xüsusi yerlərdə diri saxlanılır və ehtiyac olan surətdə yumurta hüceyrəsinin sahibinin bətnində qoyulur. Bu iş caizdirmi?

Cavab: Bu işin öz-özlüyündə işkalı yoxdur.

## Cinsiyyətin dəyişdirilməsi

---

Sual: **1289**: Bəzi adamların zahirdə kişi olmalarına baxmayaraq, ruhi və psixoloji baxımdan qadın xüsusiyyətlərinə malikdirlər, onlarda cinsi məsələlərə olan meyllər tamamilə qadınlara uyğun şəkildədir. Əgər öz cinsiyyətlərini dəyişdirməsələr fəsada düşmə ehtimalı var. Onların cərrahiyyə əməliyyatı ilə müalicə edilməsi caizdirmi?

Cavab: Onların cinsi həqiqətlərini aşkar etmək məqsədi ilə yuxarıda qeyd olunan cərrahiyyə əməliyyatının aparılmasının işkalı yoxdur, bu şərtlə ki, bu, haram işə səbəb olmasın və öz ardınca fəsad gətirməsin.

---

Sual: **1290**: Xonsa (həm kişi, həm də qadın aləti olan) şəxsin qadına və ya kişiyə aid edilməsi üçün cərrahiyyə əməliyyatı aparılmasının hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə eybi yoxdur, lakin haram müqəddimələrdən çəkinmələri vacibdir.

## Meyyitin yarılması və üzvün köçürülməsi

---

Sual: **1291**: Qarşıya çıxan yeni-yeni məsələlər barədə təhqiqat aparmaq məqsədilə ürək-damar xəstəliklərini araşdırmaq, onlarla əlaqədar bir sıra yeni bəhsləri irəli çəkmək üçün dünyadan gedən şəxslərin ürək-damarlarını götürmək lazım gəlir ki, müayinə edilsin və laboratoriyada analiz edilib yoxlanılsın. Onların laboratoriyada analiz edilib yoxlanmasından bir, yaxud bir neçə gündən sonra dəfn olunduğunu nəzərə alaraq aşağıdakı Suallara cavab verin:

1-Bu araşdırmaların müsəlman şəxsin cəsədi üzərində aparılması caizdirmi?

2-Meyyitin cəsədindən götürülən ürək-damarın o cəsəddən ayrılıqda dəfn edilməsi caizdirmi?

3-Qəlbin və damarların ayrılıqda dəfn edilməsinin çətin olmasına diqqət yetirməklə, onların başqalarının cəsədi ilə birlikdə dəfn edilməsi caizdirmi?

Cavab: Əgər möhtərəm insanın[5260] xilas edilməsi, yaxud cəmiyyətdə ehtiyac duyulan yeni tibbi məsələlərin kəşf olunması, eləcə də insanların həyatını təhdid edən xəstəliklərlə əlaqədar müəyyən məlumatların əldə edilməsi həmin işlə şərtlənirsə meyyitin cəsədinin yarılmasının eybi yoxdur. Lakin mümkün qədər gərək müsəlman meyyitdən istifadə olunmasın. Müsəlman şəxsdən ayrılan üzvlərin cəsədlə dəfn olunması çətin, yaxud qeyri-mümkün olmasa, gərək cəsədlə birlikdə dəfn olunsun, əks halda onları ayrılıqda, yaxud başqa meyyitlə birlikdə dəfn etmək caizdir.

---

Sual: **1292**: Bir şəxsin hansı səbəblərə görə öldüyündə şəkk olunan zaman ölümün səbəbini, məsələn, meyyitin zəhər içməsi, yaxud boğulması və yaxud sair səbəblərlə ölməsini ayırd etmək üçün onu yarmaq caizdirmi?

Cavab: Əgər həqiqətin aşkar edilməsi ona bağlı olarsa, eybi yoxudr.

---

Sual: **1293**: Toxumşünaslıq sahəsində müəyyən məlumat əldə etmək üçün ana bətnindən salınmış uşağın həyatının bütün mərhələlərində bədənini yarmağın hökmü nədir? Bunu da nəzərə alaq ki, tibb institutlarında bədənyarma dərsi zəruridir.

Cavab: Əgər möhtərəm şəxsin xilas olunması, yaxud cəmiyyətin ehtiyac duyduğu yeni tibbi məsələlərin aşkar edilməsi, yaxud insanların həyatını təhdid edən xəstəliklərlə əlaqədar məlumat almaq siqt olunmuş körpənin bədəninin yarılmasına bağlıdırsa, bu iş caizdir, amma yaxşı olar ki, müsəlmanlara, yaxud islam hökmündə olan şəxslərə aid olan ölü körpələrdən mümkün qədər istifadə edilməsin.

---

Sual: **1294**: Müsəlman meyitin cəsədini, dəfn olunmamışdan qabaq yarmaq və bu yolla oradan qiymətinin bahalı və nadir tapılan olduğu üçün platin hissəsini çıxarmaq caizdirmi?

Cavab: Sualın fərz olunduğu halda platini, meyyitə ehtiramsızlıq sayılmamaq şərtilə çıxarmaq caizdir.

---

Sual: **1295**: Müsəlman qəbristanlığında və ya başqa yerdə dəfn olunmasından asılı olmayaraq tibb institutlarının laboratoriyalarında istifadə etmək məqsədi ilə ölülərin qəbrini açmaq və sümüklərini çıxarmaq caizdirmi?

Cavab: Bu iş üçün müsəlmanların qəbrini açmaq caiz deyil. Amma əgər onları əldə etmək üçün təcili tibbi ehtiyac varsa, qeyri-müsəlman meyyitin sümüyü də tapılmazsa, bu hal istisnadır.

---

Sual: **1296**: Başının tükləri yanan və camaatın nəzərində bu baxımdan əziyyətdə olan şəxsin başına tük əkdirməsi caizdirmi?

Cavab: Bu işin öz-özlüyündə işkalı yoxdur, bu şərtlə ki, əti halal olan heyvanın, yaxud insan tükündən istifadə edilsin.

---

Sual: **1297**: Əgər bir nəfər müəyyən bir xəstəliyə tutulsa və həkimlər də onun müalicə olunmasından ümidsiz olub tezliklə dünyadan gedəcəyini xəbər versələr, bu halda onun bədəninin həyati üzvlərini, məsələn, ürəyini, böyrəyini və s. kimi şeylərini ölümündən qabaq götürüb digər bir insana köçürmək caizdirmi?

Cavab: Əgər onun bədən üzvlərinin götürülməsi ölümünə səbəb olarsa, bu iş onu qətlə yetirmək hökmündədir. Bundan başqa hallarda əgər özünün icazəsi ilə olsa, işkalı yoxdur.

---

Sual: **1298**: Vəfat etmiş şəxsin cəsədinin damarlarını xəstə bir şəxsin bədəninə peyvənd vurmaq üçün istifadə etmək caizdirmi?

Cavab: Əgər meyyitin sağlığında onun öz icazəsi, yaxud onun vəfatından sonra qəyyumlarının icazəsi ilə olsa və ya möhtərəm şəxsin həyatının xilas olunması bu işə bağlı olsa, eybi yoxdur.

---

Sual: **1299**: Ölü şəxsin bədənindən götürülən və diri insanın bədəninə köçürülən bədən üzvlərinin, bu işin əksər hallarda meyyitin qəyyumlarının icazəsi olmadan baş verdiyini nəzərə almaqla, diyəsi vacibdirmi? Vacib olduğu təqdirdə, gözün və digər bədən üzvlərinin hər birinin diyəsinin miqdarı nə qədərdir?

Cavab: Müsəlman meyyitin bədənindən göz pərdəsini götürmək haramdır və diyəyə səbəb olur, onun da miqdarı əlli dinardır. Amma əgər meyyitin ölümündən qabaq öz razılığı və icazəsi ilə olsa, onun işkalı yoxdur və diyəyə səbəb olmaz.

---

Sual: **1300**: Müharibədə bir şəxsin yumurtaları yaralanmış, onların kəsilməsi ilə nəticələnmişdir. Onun cinsi qüdrətini və kişilik zahirini qoruyub saxlamaq üçün hormonlu dərmanlardan istifadə etməsi caizdirmi? Əgər qeyd olunan məqsədə nail və uşaq sahibi olmaq qüdrətinə malik olmağın yeganə yolu başqasının yumurtalarının ona köçürülməsinə bağlı olarsa, hökmü nədir?

Cavab: Əgər yumurtanın onun bədəninə köçürülməsi mümkün olsa, belə ki, köçürüldükdən və sağaldıqdan sonra onun bədəninin bir hissəsi sayılsa, taharət və nəcasət baxımından onun heç bir eybi yoxdur, həmçinin uşaq sahibi olmaq qüdrəti, övladın ona aid edilməsi baxımından da eybi yoxdur. Cinsi qüdrətin və kişilik zahirinin qorunub saxlanması üçün də hormonlu dərmanları qəbul etməyin eybi yoxdur.

Sual: **1301**: Xəstələrin həyatının qorunması üçün böyrək peyvəndinin əhəmiyyətinə diqqət yetirməklə, həkimlər belə bir fikrə gəlmişlər ki, bir "böyrək bankı" icad etsinlər, çünki çoxları öz ixtiyarı ilə böyrəklərini hədiyyə edir, yaxud ora satırlar. Böyrəyin, yaxud bədənin hər hansı başqa üzvünün satılması, yaxud hədiyyə edilməsi ixtiyari halda caizdirmi? Zərurət halında bu işin hökmü nədir?

Cavab: Mükəlləfin öz sağlığında böyrəyini, yaxud hər hansı başqa bir üzvünü – başqa xəstələrin ondan istifadə etmək məqsədi ilə satması və ya hədiyyə etməsi ona etina olunacaq qədər zərər verməzsə, eybi yoxdur, hətta möhtərəm insanın həyatının qorunması ona bağlı olarsa, o şəxsin özünə heç bir çətinliyi və zərəri olmadıqda bu iş vacibdir.

---

Sual: **1302**: Bəzi şəxslərə müalicəsi mümkün olmayan beyin zərbələri dəyir, nəticədə onlarda beyinlə əlaqədar bütün fəaliyyətlər aradan gedir və kamil huşsuzluq vəziyyətinə düşürlər, tənəffüsə, fiziki və neyron hərəkətlərə belə cavab verməkdən məhrum olurlar. Bu kimi hallarda qeyd olunan fəaliyyətlərin bir daha təbii halına qayıtması ehtimalı tamamilə aradan gedir və xəstənin yalnız müvəqqəti olaraq ürəyi işləyir, süni tənəffüs yolu ilə ona hava verilir. Bu vəziyyət bir neçə saat və uzağı bir neçə gün davam edir (koma vəziyyətində olur). Bu, tibdə hər növ şüurun, hissin və iradi hərəkətlərin aradan getməsinə səbəb olan "koma" adlandırılır. Digər tərəfdən, elə xəstələr də vardır ki, onların həyatının xilas edilməsi komaya düçar olan şəxslərin üzvlərindən istifadə etməyə bağlı olur. Başqa xəstələrin həyatını xilas etmək üçün qeyd olunan xəstəliyə düçar olan şəxslərin bədən üzvlərindən istifadə etmək caizdirmi?

Cavab: Sualda qeyd olunan xəstələrin bədən üzvlərindən başqalarının müalicəsi üçün istifadə etmək onun ölümünün tezləşməsinə səbəb olarsa, caiz deyil. Əks halda əgər qeyd olunan əməl onun əvvəldən olan icazəsi ilə baş verərsə, yaxud möhtərəm bir şəxsin xilas edilməsi ehtiyac olan üzvə bağlı olarsa, eybi yoxdur.

---

Sual: **1303**: Mən (bəzi) bədən üzvlərimi hədiyyə etmək istəyirəm ki, vəfatımdan sonra ondan istifadə etsinlər. Öz istəyimi də məsulların nəzərinə çatdırmışam. Onlar da mənə deyiblər ki, bunu vəsiyyətnaməmdə qeyd edim, öz varislərimə məlumat verim. Mənim bu işə haqqım çatırmı?

Cavab: Meyyitin bədən üzvlərindən, başqa şəxsin həyatını xilas etmək, yaxud onun xəstəliyini müalicə etmək məqsədi ilə götürüb onun bədəninə köçürməyin işkalı yoxdur və bu mətləblərin vəsiyyət edilməsinin də eybi yoxdur. Yalnız o bədən üzvlərində işkalı vardır ki, onların meyyitin bədənindən götürülməsi müslə hesab edilsin, yaxud camaat arasında meyyitin hörmətsizliyinə səbəb olsun.

---

Sual: **1304**: Gözəllik üçün cərrahiyyə əməliyyatı aparmağın hökmü nədir?

Cavab: Öz-özlüyündə heç bir eybi yoxdur.

---

Sual: **1305**: Ehtiyacı olan şəxslərə bədən üzvünü satmaq caizdirmi?

Cavab: Əgər insana etina olunacaq zərər yetirməzsə, xüsusilə, əgər möhtərəm şəxsin xilas olunması ona bağlı olarsa, eybi yoxdur.

---

Sual: **1306**: Hərbi müəssisə vasitəsilə şəxslərin övrətini müayinə etmək caizdirmi?

Cavab: Başqalarının övrətini açmaq, ona baxmaq və övrət sahibini başqalarının yanında öz övrətini açmağa vadar etmək caiz deyil. Amma əgər qanuna riayət edilməsi, yaxud müalicə kimi zərurət bunu tələb edərsə, bu hal istisnadır.

---

Sual: **1307**: Həkimin vasitəsilə qadına əl vurulması, yaxud ona baxması zamanı "zərurət" kəlməsi çox təkrar olunur. Zərurətin mənası və onun həddi-hüdudu nədir?

Cavab: Sualın fərz olunduğu halda zərurət dedikdə məqsəd budur ki, xəstəliyin ayırd və müalicə edilməsi həkimin əl vurmasına və baxmasına bağlı olsun. Zərurətin həddi-hüdudu da ehtiyac olan miqdara bağlıdır.

---

Sual: **1308**: Qadın həkiminin müayinə və xəstəliyi ayırd etmək məqsədi ilə qadının övrətinə baxması və əl vurması caizdirmi?

Cavab: Zərurət halı istisna olunmaqla caiz deyil.

---

Sual: **1309**: Kişi həkiminin müayinə məqsədi ilə qadının bədəninə əl vurması və ona baxması caizdirmi?

Cavab: Əgər müalicə qadının kişi həkimi müqabilində soyunmasına və kişi həkiminin ona əl vurub baxmasına bağlı olarsa və qadın həkiminə müraciət etməklə müalicə edilməsi mümkün olmazsa, işkalı yoxdur.

---

Sual: **1310**: Güzgü vasitəsilə övrətin müayinə edilməsi mümkün olan halda qadın həkiminin başqa qadının övrətinə baxması və ləms etməsininn hökmü nədir?

Cavab: Güzgü ilə baxmaq mümkün olarsa, eləcə də birbaşa baxmaq və əl vurmaq zəruri olmazsa, caiz deyil.

---

Sual: **1311**: Xəstə ilə eyni cinsdən olmayan tibb işçisi üçün nəbzi tutmaq və xəstənin bədəninə toxunmağı tələb edən sair işlər üçün əlcək geymək mümkün olsa, bu iş həkimlərin xəstələri müalicə edən zaman geydikləri əlcəkdən istifadə etmədən caizdirmi?

Cavab: (Müayinə zamanı) paltarın üstündən əl vurmaq, yaxud müalicə zamanı əlcək geymək mümkün olduğu halda eyni cinsdən olmayan xəstənin bədəninə əl vurmağa zərurət yoxdur və buna görə də caiz deyil.

---

Sual: **1312**: Kişi həkimi tərəfindən qadınlarda gözəllik məqsədilə aparılan cərrahiyyə əməliyyatı (plastik cərrahiyyə) onlara baxılmasına və əl vurulmasına səbəb olarsa, caizdirmi?

Cavab: Gözəllik üçün aparılan cərrahiyyə əməliyyatı xəstələrin müalicə olunması hesab olunmur və bu işə görə də haram olan baxış və toxunuş caiz deyil. Yalnız o zaman caizdir ki, yanıq və s. kimi şeyləri müalicə etmək üçün olsun və həkim də ona baxmağa, əl vurmağa məcbur olsun.

---

Sual: **1313**: Ərdən başqa şəxslərin, hətta həkimin qadının övrətinə baxması mütləq şəkildə haramdırmı?

Cavab: Ərdən başqalarının, hətta qadın həkiminin də qadının övrətinə baxması haramdır. Zərurət və xəstəliyin müalicə edilməsi halı istisnadır.

---

Sual: **1314**: Qadınların, qadın xəstəlikləri üzrə mütəxəssis olan kişi həkiminə müraciət etməsi – əgər o, ixtisasında başqa qadın həkimlərindən mahir olarsa, yaxud qadın həkiminə müraciət edilməsi çətin olarsa- caizdirmi?

Cavab: Əgər müayinə və müalicə haram baxışa və ləmsə (toxunmaya) bağlıdırsa, kişi həkiminə müraciət etmək caiz deyil. Amma əgər mütəxəssis qadın həkiminə müraciət etmək mümkün olmazsa, yaxud çox çətin olarsa, bu hal istisnadır.

---

Sual: **1315**: Məninin müayinə edilməsi və (laboratoriyada) analiz edilməsi üçün həkimin göstərişi əsasında istimna etmək caizdirmi?

Cavab: Müalicə prosesində onun müalicə edilməsi həmin işə bağlıdırsa və istimna həyat yoldaşı vasitəsilə mümkün olmazsa, eybi yoxdur.

## Xütnə (sünnət etmək)

---

Sual: **1316**: Xütnə etmək vacibdirmi?

Cavab: Oğlan uşaqlarını xütnə etmək vacibdir, həcc və ümrə əməllərində təvafın düzgün olması bununla şərtlənir. Əgər bu iş həddi-büluğa çatdıqdan sonraya qədər təxirə düşərsə, xütnə etdirmək onların özlərinə vacibdir.

---

Sual: **1317**: Bir nəfər xütnə etməyib, amma onun alətinin başı dəridən tamamilə çöldədir. Xütnə etmək ona vacibdirmi?

Cavab: Əgər alətin üstündə, kəsilməsi vacib olan dəridən heç bir miqdar olmazsa, vacib xütnəyə yer qalmır.

---

Sual: **1318**: Qızları xütnə etmək vacibdirmi?

Cavab: Vacib deyil.

## Tibbi təlimlər

---

Sual: **1319**: Tibb institutunun tələbələrinin (istər qız, istərsə də oğlan) praktika keçmək üçün naməhrəm şəxslərə toxunmaq, yaxud baxmaqla müayinə etməkdən başqa çıxış yolları yoxdur. Bu müayinə onların dərs proqramlarının bir hissəsidir və onların gələcəkdə xəstələri müalicə etməkdə mütəxəssis olmalarına kömək edir, onu yerinə yetirmədikdə xəstənin xəstəliyini ayırd edə bilmirlər, bu iş də xəstələrin xəstəlik müddətini uzadır və bəzən də onların ölümünə gətirib çıxarır. Bunları nəzərə almaqla bu cür müayinələr caizdirmi?

Cavab: Əgər təcrübə əldə etmək, xəstələri müalicə etmək və onların həyatını qorumaq üçün lazım olan zəruri hallardan olarsa, eybi yoxdur.

---

Sual: **1320**: Zərurət halında məhrəm olmayan xəstələrin tibb tələbələri tərəfindən müayinə edilməsi caiz olarsa, bu zərurətin ayırd edilməsində əsas nədir?

Cavab: Zərurətin ayırd edilməsi şəraiti mülahizə etməklə tələbələrin öz nəzərinə həvalə edilir.

---

Sual: **1321**: Bəzən praktikada məhrəm olmayan şəxslərin müayinəsi məsələsi ilə qarşılaşır və bu işin gələcəkdə zəruri olub-olmamasını bilmirik. Hər bir halda bu, institutda dərs proqramlarının bir hissəsi, tibb sahəsində təhsil alan tələbələrin

vəzifəsi və ya hətta müəllimlər tərəfindən verilən bir tapşırıqdır. Bunlara diqqət yetirməklə qeyd olunan müayinəni aparmaq bizim üçün caizdirmi?

Cavab: Tibbi müayinənin sadəcə olaraq dərs proqramlarının bir hissəsi, yaxud müəllimin verdiyi tapşırıq olması şəriətə zidd olan bir işə mürtəkib olmağa şəri əsas vermir. Bu barədə meyar yalnız insan həyatını xilas etmək üçün təlim görmək və ya zərurətin tələbidir.

---

Sual: **1322**: Tibb elmlərini öyrənməyin zərurəti, eləcə də təcrübə əldə etməyə və məharət qazanmağa zərurət səbəbi ilə naməhrəmin müayinə olunmasında cinsiyyət üzvlərinin müayinə edilməsi ilə bədənin sair üzvlərinin müayinə edilməsi arasında fərq varmı? Təhsil müddəti qurtardıqdan sonra xəstələri müalicə etmək üçün kəndlərə və ucqar yerlərə gedən tələbələrdən bəziləri qadın doğuzdurmaq, yaxud onların qanaxma kimi təsirlərini müalicə etməyə məcbur olurlar. Bu işin hökmü nədir? Aydındır ki, əgər bu qanaxmalar və digər xəstəliklər sürətlə müalicə olunmazsa təzəcə doğmuş qadının həyatı təhlükəyə düşəcək. Halbuki, bu xəstəliklərin müalicə yollarını öyrənmək tibb sahəsində təhsil alan zaman praktikanı tələb edir.

Cavab: Zərurət halında cinsiyyət üzvləri ilə onlardan başqalarını müayinə etmək arasında fərq yoxdur. Ümumi meyar insanların həyatını xilas etmək üçün tibb elmini öyrənməyə və məşq etməyə olan ehtiyacdır. Bu kimi hallarda zərurət miqdarı ilə kifayətlənilməlidir.

---

Sual: **1323**: İstər eyni cinsdən, istərsə də müxalif cinslərdən olduğu halda cinsiyyət üzvünün müayinə edilməsində şəriət hökmlərinə, o cümlədən həkimin, yaxud tələbənin güzgü vasitəsilə baxması məsələsinə riayət olunmur. Biz də xəstəliklərin ayırd edilmə yollarını öyrəndiyimiz zaman onlara tabe oluruq, bizim vəzifəmiz nədir?

Cavab: Tibb elmlərinin öz-özlüyündə haram olan müayinələr yolu ilə öyrənilməsinin, bu elmin öyrənilməsi və xəstəliklərin müalicə edilməsi yolları ona bağlı olarsa işkalı yoxdur, bu şərtlə ki, tələbə gələcəkdə insanların həyatını xilas etməyə qadir olmasının bu yolla əldə etdiyi məlumatlara bağlı olduğunu bilsin, həmçinin gələcəkdə xəstələrin ona müraciət edəcəyinə və onların həyatının xilas edilməsinin də onun öhdəsinə düşəcəyinə əmin olsun.

---

Sual: **1324**: Bizim ixtisas dərslərimizdə qeyri-müsəlman kişi və qadınların yarıçılpaq vəziyyətində olan şəkillərinə baxmağımız caizdirmi?

Cavab: Əgər reybə məqsədi olmazsa və öz ardınca da fəsad gətirməzsə işkalı yoxdur.

---

Sual: **1325**: Tibb ixtisası üzrə təhsil alan tələbələr təhsil müddətində əyani elm öyrənmək məqsədilə cinsiyyət üzvlərinin müxtəlif yerlərindən şəkil çəkirlər. Onların bu işi caizdirmi? Eyni cinsdən olmayan şəxslərin bir-birinin övrətini görməsinin hökmü nədir?

Cavab: Şəkillərə və filmlərə baxmağın öz-özlüyündə işkalı yoxdur, bu şərtlə ki, ləzzət qəsdi və harama düşmək qorxusu olmasın. Haram olan şey – eyni cinsdən olmayan şəxslərin bir-birinin bədəninə baxması və əl sürtməsidir. Başqalarının övrətinin şəklinə, yaxud filminə baxması da işkalsız deyil.

---

Sual: **1326**: Qadının doğuş zamanında vəzifəsi nədir? Başqa qadınların doğuşu zamanı onlara kömək edən tibb bacılarının doğan qadının övrətini açıb ona baxmalarının qarşısında vəzifələri nədir?

Cavab: Tibb bacılarının qəsdən və zərurət halı olmadan qadınların doğduğu zaman övrətlərinə baxmaları caiz deyil. Həmçinin, həkim də xəstə olan qadının bədəninə baxmaqdan və əl sürtməkdən zərurət olmayan zamana qədər çəkinməlidir. Qadınlara vacibdir ki, diqqət yetirdikləri və qadir olduqları halda öz bədənlərini örtsünlər, yaxud bu işi görməyi başqa şəxsdən istəsinlər.

Sual: **1327**: İnstitutda təhsil aldığımız dövrlərdə plastik maddələrdən hazırlanmış süni cinsiyyət üzvləri şəklində olan dəzgahlardan istifadə olunur. Ona baxmaq və əl vurmağın hökmü nədir?

Cavab: Süni alət həqiqi alət hökmündə deyil və ona baxıb əl sürtməyin işkalı yoxdur. Amma əgər reybə məqsədilə olsa, yaxud şəhvətin təhrik olunmasına gətirib çıxarsa bu, istisnadır.

---

Sual: **1328**: Mənim təhqiqat mövzum qərb ölkələrinin elmi yığıncaqlarında ağrının musiqi yolu ilə kəsilməsi, əl sürtməklə, rəqs etməklə, dava-dərmanla, eləcə də elektrikdən istifadə etməklə xəstəlikləri müalicə etməkdir. Onların bu barədəki araşdırmaları da nəticə vermişdir. Bu təhqiqatları aparmaq şərən caizdirmi?

Cavab: Qeyd olunan işlər və onların xəstələrdə təsir qoyma dərəcəsini ölçmək üçün təhqiqat aparmağın şərən işkalı yoxdur, bu şərtlə ki, şərən haram işlərin görülməsinə səbəb olmasın.

---

Sual: **1329**: Təhsilin (praktikanın) tələb etdiyi surətdə tibb bacılarının başqa qadınların övrətinə baxması caizdirmi?

Cavab: Əgər xəstəliklərin müalicə olunması, yaxud möhtərəm şəxsin həyatının xilas edilməsi başqalarının övrətinə baxmağı gərəkli edən dərslərin öyrənilməsinə bağlıdırsa, eybi yoxdur.

## Təlim-tərbiyə və onun qaydaları

---

Sual: **1330**: İnsan özünün gündəlik qarşıya çıxdığı məsələlərini öyrənməyi tərk etməklə günahkar sayılırmı?

Cavab: O məsələlərin öyrənilməməsi vacibin tərk olunmasına, yaxud harama düşməyə səbəb olarsa günahkardır.

---

Sual: **1331**: Bir nəfər dini elmlərin ibtidai mərhələsini başa vurduqdan sonra özünü ictihad mərhələsinə çatmaq üçün təhsilini davam etdirib təkmilləşdirməyə qadir görür, bu halda təhsilini təkmilləşdirmək o şəxsə vacibi-eynidirmi?

Cavab: Şübhəsiz, din elmlərini öyrənmək və ictihad dərəcəsinə çatana qədər onu davam etdirmək öz-özlüyündə böyük bir fəzilət hesab olunur, lakin sadəcə ictihad dərəcəsinə çatmağa qüdrət onun vacibi-eyni olmasına səbəb olmur.

---

Sual: **1332**: Üsuliddinə yəqin əldə etməyin yolları hansıdır?

Cavab: Yəqin əksər hallarda əqli dəlil və sübutlarla əldə olunur. Mükəlləflərin dərketmə səviyyəsinin fərqli olması iləəlaqədar sübut və dəlillər də bir-birindən fərqlənir. Hər bir halda əgər şəxs üçün yəqin başqa bir yolla hasil olarsa, elə o da kifayətdir.

---

Sual: **1333**: Elm əldə etməkdə süstlük və tənbəllik etməyin, vaxtı hədər keçirməyin hökmü nədir? Bu iş haramdırmı?

Cavab: Bekarçılıq və süstlüklə vaxt keçirməyin işkalı vardır və tələbə, tələbəçiliyə məxsus olan imtiyazlardan istifadə edincəyə qədər tələbəçiliyə məxsus olan dərs proqramlarına tabe olmalıdır. Əks halda aylıq təqaüd, xərclik və s. kimi məziyyətlərdən istifadə etmək onun üçün caiz olmaz.

Sual: **1334**: İqtisad institutunun bəzi dərslərinin gedişatında müəllim faizli borc ilə əlaqədar məsələləri, eləcə də ticarət, sənaye və s. kimi şeylərdə sələm əldə etmək yollarını müqayisəli şəkildə bəyan edir. Bu dərsi tədris etmək və onun müqabilində əmək haqqı almağın hökmü nədir?

Cavab: Faizli borc məsələlərini sadəcə olaraq tədris etmək və araşdırmaq haram deyil.

---

Sual: **1335**: Dindar mütəxəssislərin İslam respublikasında başqalarına öyrətmək üçün seçməli olduqları ən düzgün yol hansıdır? İdarələrdə həssas texnologiyanı, elmləri və məlumatları əldə etmək üçün kimin daha artıq səlahiyyəti var?

Cavab: Hər şəxs üçün hər hansı bir elmi öyrənmək əgər qanuni və ağlabatan məqsədlə olarsa, onda fəsada düşmək, başqalarını fəsada salmaq qorxusu olmazsa, maneəsizdir. Amma islam dövləti tərəfindən təlim və tədrisi üçün müəyyən qayda-qanunlar qərar verdiyi elmlər və məlumatlar istisna olunur.

---

Sual: **1336**: Dini elmiyyə hövzələrində fəlsəfəni tədris etmək və öyrənmək caizdirmi?

Cavab: Dini etiqadlarında sarsıntı (süstlük) əmələ gəlməyəcəyinə yəqini olan hər bir şəxsin fəlsəfəni öyrənib-öyrətməsinin işkalı yoxdur, hətta bəzi hallarda bu iş vacib də olur.

---

Sual: **1337**: “Şeytan ayələri” kimi insanın etiqadını korlayan kitabların al-verinin hökmü nədir?

Cavab: Azdırıcı kitabların alınması, satılması və saxlanması caiz deyil. Yalnız ona cavab verilməsi və mətləblərinə nəqd yazılması məqsədilə elmi səviyyəyə malik olan şəxslər üçün caizdir.

---

Sual: **1338**: Heyvanların və insanların həyatı ilə əlaqədar xəyali hadisələr və hekayələri öyrənib nəql etməyin faydası olarsa, hökmü nədir?

Cavab: Əgər mövcud şahidlərdən hadisənin xəyali olması məlum olarsa, işkalı yoxdur.

---

Sual: **1339**: Təhsil mərkəzlərinə hicabsız şəkildə daxil olan qadınlarla qaynayıb-qarışmağa səbəb olan institut və universitetlərə daxil olmağın hökmü nədir?

Cavab: Elm öyrənmək üçün təlim mərkəzlərinə daxil olmağın işkalı yoxdur. Lakin qadınlar və qızların hicabı qoruması, kişilərin də haram baxışlardan çəkinməsi vacibdir. Həmçinin fitnə və fəsad törənilməsinə səbəb olan qarışıqlıqdan çəkinmələri vacibdir.

---

Sual: **1340**: Qadının özünün şəri iffətini və hicabını qoruyub saxladığı təqdirdə naməhrəm bir kişinin köməyi ilə sürücülüyə məxsus olan yerlərdə sürücülük öyrənməsi caizdirmi?

Cavab: Hicabın və iffətin qorunub saxlanmasına, fəsada düşmək qorxusu olmamasına dair xatircəm olduğu halda qadının yad kişinin köməyi və yol göstərməsi ilə sürücülüyü öyrənməsinin işkalı yoxdur, lakin eyni halda yaxşı olar ki, onun məhrəmlərindən biri onunla yanaşı olsun, hətta daha yaxşı olar ki, sürücülük qadın mütəxəssisi, yaxud qadının məhrəmlərindən birinin vasitəsilə öyrədilsin.

---

Sual: **1341**: Orta və ali məktəblərdə təhsil alan cavan oğlanlar qızlarla görüşürlər və eyni sinifdə oxuduqarına görə onlarla dərs və s. şeylər barəsində söhbət edirlər, bəzən onların söhbətləri gülüş və zarafatla yanaşı olur. Əlbəttə reybə və ləzzət qəsdilə deyil. Bu iş caizdirmi?

Cavab: Əgər hicaba riayət edilməsi ilə yanaşı olsa, reybə qəsdi olmasa və fəsada düşmək qorxusundan əmin olsalar, eybi yoxdur, əks halda caiz deyil.

---

Sual: **1342**: Hazırkı dövrdə islam və müsəlmanlar üçün hansı elmi ixtisaslar daha faydalıdır?

Cavab: Yaxşı olar ki, ali məktəblərin alim, müəllim və tələbələri müsəlmanların ehtiyac duyduğu bütün faydalı ixtisasları öyrənməyə diqqət yetirsinlər ki, əcnəbilərdən, xüsusilə islam və müsəlmanların düşmənlərindən ehtiyacsız olsunlar. Onların ən faydalısını aydınlaşdırmağa gəldikdə isə əlaqədar orqanlar mövcud şəraiti nəzərə almaqla ayırd etməlidirlər.

---

Sual: **1343**: Azdırıcı kitablardan və sair dinlərin kitablarından, bu dinlər və onların əqidələri ilə tanış olmaq, bu barədə məlumatı artırmaq məqsədilə agah olmağın hökmü nədir?

Cavab: Bu kitabları oxumağın caizliyinə hökm yalnız məlumatın və görüşün artırılması xatirinə olduqda müşküldür, əlbəttə, batil mətləbləri tanıyıb ayırd edə biləcək şəxslərin, rədd etmək və batil olduğunu bildirmək məqsədilə onları oxuması caizdir, bu şərtlə ki, özünün haqdan azmayacağına əmin olsun.

---

Sual: **1344**: Övladları bəzi azğın əqidələrin tədris olunduğu məktəblərə göndərməyin hökmü nədir? Onların həmin fikirlərdən təsirlənməməsi fərz olunur.

Cavab: Əgər onların dini əqidələrinə qorxu olmazsa, batilin yayılması da olmazsa, onlar da batil, azdırıcı və fasid mətləbləri öyrənməkdən uzaq ola bilsələr eybi yoxdur.

---

Sual: **1345**: Bir nəfər dörd il müddətində tibb institutunda dərs oxuyur, dini elmləri də öyrənməyə çox maraqlıdır. Onun tibb sahəsində təhsilini davam etdirməsi vacibdirmi, yoxsa onu buraxaraq dini elmləri də öyrənə bilər?

Cavab: Tələbə özünün təhsil sahəsində ixtisasını seçməkdə azaddır, lakin burada bir məsələ vardır ki, diqqət yetirilməlidir. O da bundan ibarətdir ki, dini elmləri öyrənmək islami cəmiyyətə xidmət etmək qüdrətinə malik olduğuna görə əhəmiyyətlidir, tibb sahəsində təhsil almaq da islam ümmətinə tibbi xidmətlər göstərməyə hazırlıqlı olmaq, xəstələri müalicə etmək və onların canını xilas etmək məqsədi ilə çox əhəmiyyətə malikdir.

---

Sual: **1346**: Müəllim bir şagirdi dərs otağında başqa şagirdlərin qarşısında şiddətlə tənbeh etmişdir. O şagirdin müəllimdən əvəz çıxmağa haqqı vardırmı?

Cavab: Tələbənin müəllimə, ona yaraşmayan şəkildə cavab verməyə və onunla qarşılaşmağa haqqı yoxdur. Müəllimin ehtiramını qoruyub saxlamaq və sinifin qayda-qanununa riayət etmək ona vacibdir. O, bu işi qanuni yollarla görə bilər. Müəllimin də sair sinif yoldaşlarının müqabilində şagirdin ehtiramını qoruyub saxlaması və islam təlim qaydalarına riayət etməsi vacibdir.

## Çap hüququ, müəlliflik və incəsənət işləri

---

Sual: **1347**: Naşirlərinin icazəsi olmadan xaricdən gələn kitab və məqalələrin, yaxud islam ölkəsinin daxilində çap olan kitab və məqalələrin yenidən çap olunmasının hökmü nədir?

Cavab: İslam respublikasından xaricdə nəşr olunan kitabların yenidən çap edilməsi, yaxud onlardan ofset üsulu ilə təsvir götürülməsi onlar barəsində İran İslam Respublikası ilə o dövlətlər arasında bağlanan müqaviləyə tabedir. Amma daxildə çap olunan kitablara gəldikdə isə, əhvət budur ki, kitabın təkrar çap olması ilə əlaqədar naşirin haqqına riayət olunsun.

---

Sual: **1348**: Müəlliflər, mütərcimlər və incəsənət əsər sahiblərinin çəkdikləri zəhmət müqabilində müəyyən məbləğ almaları və yaxud o işə sərf etdikləri vaxt və sərmayə müqabilində müəlliflik haqqı olaraq müəyyən məbləğ tələb istəmələri caizdirmi?

Cavab: Onların öz elmi və ya incəsənət əsərinin birinci nüsxəsini, yaxud əslisini naşirə vermək müqabilində istədikləri məbləği onlardan almağa haqları vardır.

---

Sual: **1349**: Əgər müəllif, mütərcim, yaxud incəsənət ustası öz əsərinin birinci çapının müqabilində müəyyən məbləğ alsa və eyni halda sonrakı çaplarda özü üçün müəyyən haqq olmasını şərt etsə, sonrakı çaplarda öz haqqını naşirdən tələb edə bilərmi? Bu məbləği almağın hökmü nədir?

Cavab: Birinci nüsxənin təhvil verilməsi üçün bağlanmış müqavilə əsnasında müəyyən məbləğin sonrakı çaplarda da alınacağı şərt edilmiş olsa, yaxud qanun bunu tələb edərsə, həmin məbləğin alınmasının işkalı yoxdur və naşirin şərtə əməl etməsi vacibdir.

---

Sual: **1350**: Əgər kitab sahibi, yaxud müəllif birinci çapın icazəsində sonrakı çaplar barəsində heç bir söz deməmiş olsa, naşirin bir daha icazə almadan və ona müəyyən məbləğ vermədən kitabı yenidən çap etməsi caizdirmi?

Cavab: Əgər onların arasında çapın icazəsi ilə əlaqədar bağlanan müqavilə yalnız birinci çapa aiddirsə, əhvət budur ki, müəllifin haqqına riayət edilsin və sonrakı çaplar üçün də ondan icazə alınsın.

---

Sual: **1351:** Kitab sahibi səfər, vəfat etmə və s. kimi səbəblərdən qaib olsa, kitabın yenidən çap olunması üçün kimdən icazə alınmalıdır və pulu kim almalıdır?

Cavab: Bu barədə kitab sahibinin vəkili, yaxud onun şəri qəyyumu və ya onun vəfat etdiyi təqdirdə varislərinə müraciət olunmalıdır.

---

Sual: **1352**: Kitab sahibinin icazəsi olmadan və kitabda "çap hüququ müəllifə məxsusdur" ifadəsi olduqda onu çap etmək caizdirmi?

Cavab: Əhvət budur ki, yeni çaplarda icazə almaqla müəllifin və naşirin hüququna riayət olunsun.

---

Sual: **1353**: Bəzi Quran və təvaşih (dini musiqilər) lentlərinin üzərində "çoxaltma haqqı qorunur" yazılır. Bu kimi hallarda onları çoxaldıb başqalarının ixtiyarına vermək olarmı?

Cavab: Əhvət budur ki, o lent yazılarının çoxaldılmasında və onların üzərindən köçürülməsində əsl naşirdən icazə alınsın.

---

Sual: **1354**: Kompüter disketlərinin nüsxəsini köçürmək caizdirmi? Haram olduğu təqdirdə bu hökm yalnız İranda hazırlanan disklərə, yoxsa yad ölkələrdən gələn disketlərə də aiddir? Halbuki, bəzi kompüter disketləri içindəkilərin əhəmiyyətinə görə çox bahalıdır.

Cavab: Əhvət budur ki, ölkə daxilində istehsal olunan kompüter disketlərinin nüsxəsini köçürmək və çoxaltmaqda sahiblərindən icazə almaqla onların hüququna riayət olunsun, ölkə xaricindəki hallarda isə müqaviləyə əsasən əməl olunsun.

---

Sual: **1355**: Mağazaların, şirkətlərin ticarət adları və ünvanları onların malikinə məxsusdurmu, belə ki, başqaları öz mağaza və şirkətlərinə həmin adı qoya bilməzlər? Misal üçün, bir nəfər öz mağazasını öz ailəsinin adına adlandırır. Həmin ailədən başqa bir şəxs və ya başqa ailələrdən olan bir şəxs də öz mağazasını həmin adla adlandıra bilərmi?

Cavab: Əgər mağazaların və ticarət şirkətlərinin adları ölkə daxilindəki qanunlar əsasında dövlət tərəfindən, bu barədə öz rəsmi istəyini başqalarından tez dövlətə vermiş olan bir şəxsə verilsə və dövlət sənədlərində onun adına yazılmış olsa, bu halda başqaları tərəfindən, qeyd olunan adın, öz adına, yaxud şirkətlər və mağazalarının adına yazılan şəxsin icazəsi olmadan o addan istifadə etmək caiz deyil və bu hökmdə bir ailə üzvlərinin o ada sahib olub-olmamaları arasında fərq yoxdur. Əgər yuxarıda qeyd olunan surətdə olmazsa, başqalarının bu ad və ünvanlardan istifadə etməsinin eybi yoxdur.

---

Sual: **1356**: Bəzi adamlar kitablardan və vərəqlərin üzərindən nüsxə çıxaran mağazalara (surətçıxarmaya) müraciət edərək onların üzündən surət çıxarmasını istəyir və mağazanın mömin olan sahibi həmin kitab, vərəq, yaxud jurnalın bütün möminlər üçün faydalı olmasını başa düşür. Kitab sahibinin icazəsi olmadan ondan surət çıxartması caizdirmi? Yaxud kitab sahibinin bu işə razı olmadığını bildikdə hökmdə fərq əmələ gəlirmi?

Cavab: Əhvət budur ki, şəxs o vərəqlərin və kitabların sahibinin icazəsi olmadan onlardan nüsxə götürməsin.

---

Sual: **1357**: Möminlərdən bəziləri videoklubdan müəyyən lent yazıları və video lentlərini icarəyə götürürlər. Onların tamamilə bəyəndiyi iş olduqda, alimlərin çoxunun nəzərində çap haqqının qorunmadığını nəzərə almaqla, mağaza sahibinin icazəsi olmadan onu yazıb köçürürlər. Bu iş caizdirmi? Caiz olmadığı fərz olunduqda, əgər bir şəxs onun üzündən köçürüb çoxaltsa, indi mağaza sahibinə deməlidirmi, yoxsa lent yazısının içərisini pozmaq kifayətdir?

Cavab: Əhvət sahibinin icazəsi olmadan onlardan nüsxə götürməməkdir. Lakin əgər icazə almadan bu işi görmüş olarsa, onu silməsi kifayətdir.

## Qeyri-müsəlmanla ticarət etmək

---

Sual: **1358**: İsrail əmtəələrini (ölkəyə) gətirib yaymaq caizdirmi? Bu işlər məcburiyyət üzündən də baş vermiş olsa, onların satılması caizdirmi?

Cavab: İslamın və müsəlmanların düşməni olan qəsbkar İsrail dövlətinin xeyrinə olan müamilələrdən uzaq olmaq lazımdır, onların hazırlanıb satılmasından qazanc götürdükləri əmtəələrin ölkəyə gətirilib yayılması heç kimə caiz deyil. Eləcə də müsəlmanlar üçün o əmtəələri almaq, islam və müsəlmanlara yetirdiyi zərərlər və fəsadlara görə caiz deyil.

---

Sual: **1359**: Tacirlərin vasitəsilə İsrail əmtəələrini gətirib İsrailin iqtisadi blokadasını ləğv edən ölkələrdə yaymaq caizdirmi?

Cavab: Bütün şəxslərin alçaq İsrail dövlətinin hazırlayıb satmaqla mənfəət götürdüyü əmtəələrin ölkəyə gətirilib yayılmasından çəkinmələri vacibdir.

---

Sual: **1360**: İslam ölkələrində satılan İsrail əmtəələrini almaq müsəlmanlar üçün caizdirmi?

Cavab: Bütün müsəlmanlara vacibdir ki, istehsal və satışından əldə olunan qazancının islam və müsəlmanlarla müharibə halında olan sionistlərə qayıdan əmtəələri alıb istifadə etməkdən çəkinsinlər.

---

Sual: **1361**: İslam ölkələrində İsrailə səfər ofislərinin açılması caizdirmi? Müsəlmanlar üçün bu ofislərdən bilet almaq caizdirmi?

Cavab: Bu iş, müsəlmanlar və islam üçün zərərli olduğuna görə, caiz deyil. Həmçinin, müsəlmanların, islam və müsəlmanlarla düşmənçilik edən və müharibə halında olan İsrail əleyhinə apardıqları blokadanın pozulmasına səbəb olacaq hər hansı bir işi görmək heç kəsə caiz deyil.

---

Sual: **1362**: İsrail dövlətinin gücləndirilməsinə çalışmaları ehtimal verilən yəhudi, yaxud Amerika və ya Kanada şirkətlərinin istehsal etdiyi şeyləri almaq caizdirmi?

Cavab: Əgər bu məhsulların alınması və satılması alçaq və qəsbkar İsrail dövlətinin güclənməsinə səbəb olsa, yaxud islam və müsəlmanlarla düşmənçilikdə istifadə edilsə, onların al-veri heç kəs üçün caiz deyil. Əks halda eybi yoxdur.

---

Sual: **1363**: Əgər İsrail əmtəələri islam ölkələrinə gətirilsə, tacirlərin onların bir miqdarını alıb camaata satmaları, yaxud onları yaymaları caizdirmi?

Cavab: Bu iş malik olduğu fəsada görə, onlar üçün caiz deyil.

---

Sual: **1364**: Əgər başqa ölkələrdən, ehtiyac duyulan qeyri-İsrail əmtəələrinin gətirilməsi mümkün olduqda İsrail əmtəələri islami bir ölkənin ümumi mağazalarında satılsa, onların müsəlmanlar tərəfindən alınması caizdirmi?

Cavab: Bütün müsəlmanlara vacibdir ki, istehsal və satış mənfəəti islam və müsəlmanlarla müharibə şəraitində olan sionistlərə qayıdan əmtəələri alıb istifadə etməkdən çəkinsinlər.

---

Sual: **1365**: Bəzi İsrail əmtəələri, onların istehsal olunduğu yerin adı dəyişilərək digər ölkələrdən, məsələn, Türkiyə, Kipr və s. kimi yerlərdən yenidən ixrac olunur ki, müsəlmanlar qeyri-İsrail malı olduğunu güman etsinlər. Çünki, müsəlmanlar onların İsraildə hazırlandığını bilsələr, onu almaqdan imtina edəcəklər. Bu surətdə müsəlmanların vəzifəsi nədir?

Cavab: Müsəlmanlar gərək belə əmtəələri alıb-yaymaqdan və istifadə etməkdən çəkinsinlər.

---

Sual: **1366**: Amerika əmtəələrini alıb-satmağın hökmü nədir? Bu hökm Fransa və İngiltərə kimi bütün qərb ölkələrinə də aiddirmi? Bu hökm təkcə İrana məxsusdur, yoxsa bütün ölkələrdə cərəyandadır?

Cavab: Əgər qeyri-islami ölkələrdən gətirilən əmtəələri almaq və onlardan istifadə etmək kafir olan, islam və müsəlmanlarla düşmənçilik edən istismarçı dövlətlərin güclənməsinə səbəb olsa, yaxud onların islam ölkələrinə və ya dünyanın hər yerində olan müsəlmanlara hücum etmələri üçün iqtisadi qüdrətlərinin gücləndirilməsinə səbəb olarsa, müsəlmanlara vacibdir ki, onları alıb istifadə etməkdən çəkinsinlər. Bu məsələdə bu və digər əmtəə arasında, islam və müsəlmanlarla düşmən olan bir kafir dövlətlə başqa dövlət arasında heç bir fərq yoxdur. Bu hökm də təkcə İrandakı müsəlmanlara aid deyil.

---

Sual: **1367**: Bəziləri qazancı kafir dövlətlərinə çatan, onların güclənməsinə və möhkəmlənməsinə səbəb olan müəssisə, zavod və fabriklərdə işləyirlər. Bu barədə vəzifə nədir?

Cavab: Qanuni işlərlə qazanc əldə etməyin öz-özlüyündə işkalı yoxdur, hətta əgər onların qazancı qeyri-islami dövlətlərə çatsa belə. Amma o dövlət islam və müsəlmanlarla müharibədə olarsa və müsəlmanların işinin səmərəsindən bu müharibədə istifadə etsələr, bu hal istisnadır.

## Zalim dövlətlərdə işləmək

---

Sual: **1368**: Qeyri-islami hökumətdə vəzifəni yerinə yetirmək caizdirmi?

Cavab: Onun caizliyi həmin vəzifənin öz-özlüyündə caiz olması ilə şərtlənir.

---

Sual: **1369**: Bir nəfər ərəb ölkələrindən birində yol polisi idarəsində işləyir. Onun vəzifəsi yol-hərəkət qaydalarını pozan şəxslərin cinayətlərini təsdiq edib imzalamaqdır, onlardan hər birinin sənədini imzalasa, qanunu pozan şəxs həbsxanaya salınır. Onun bu işi caizdirmi? Bu dövlət işinin müqabilində aldığı maaşın hökmü nədir?

Cavab: Cəmiyyətin nizam-intizamı üçün nəzərdə tutulmuş qayda-qanunlara riayət edilməsi hər bir halda vacibdir, hərçənd o qanunlar qeyri-islami dövlətlər vasitəsilə yaradılmış olsa belə. Halal iş müqabilində də əmək haqqı almağın işkalı yoxdur.

---

Sual: **1370**: Müsəlman bir şəxsin Amerika, yaxud Kanada vətəndaşlığını alandan sonra orduya, yaxud polisə daxil olub işləməsi caizdirmi? Dövlətə tabe olan idarələrdə, məsələn, bələdiyyələrdə, başqa müəssisə və idarələrdə işləməsi caizdirmi?

Cavab: Heç bir fəsada, haram işi görməyə və vacib işi tərk etməyə səbəb olmasa, eybi yoxdur.

---

Sual: **1371**: Zalım hakim tərəfindən təyin olunan məhkəmə hakiminin hökmü itaəti vacib olan şəri hökmdür?

Cavab: Camaat arasında yaranan çəkişmələri, münaqişəli məsələləri həll etmək və onlara son qoymaq üçün məhkəmə işini öhdəyə götürmək cameüş-şərait müctəhiddən başqası üçün – əgər qazi qoymağa səlahiyyəti olan müctehid tərəfindən təyin olunmazsa – caiz deyil. Camaatın da zərurət halından başqa hallarda ona müraciət etmələri caiz deyil. Onun hökmü də keçərli hökm sayılmır.

## Paltarlar, şöhrət paltarları və geyimin hökmləri

---

Sual: **1372**: Şöhrət paltarında meyar nədir?

Cavab: Şöhrət paltarı o paltardır ki, şəxsin onun rənginə, yaxud tikiliş keyfiyyətinə görə, yaxud köhnə və nimdaş olmasına görə və ya başqa səbəbə görə geyməsi münasib deyil, belə ki, əgər onu camaat arasında geysə, onların nəzərlərini özünə cəlb edəcək və onu barmaqla göstərəcəklər.

---

Sual: **1373**: Qadınların yol gedəndə ayaqqabının yerə dəyməsindən yaranan səsin hökmü nədir?

Cavab: Başqalarının nəzərini cəlb edən şəkildə olmasa, öz ardınca fəsad gətirməsə, öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1374**: Gənc qızlar tünd göyə yaxın rəngli paltar geyə bilərmi?

Cavab: Başqalarının nəzərini cəlb etməyə səbəb olmasa, öz ardınca fəsad gətirməzsə, öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1375**: Qadınların toylarda və başqa yerlərdə bədən çıxıntılarını göstərən dar, yaxud bədəni göstərən açıq-saçıq paltarlar geyməsi caizdirmi?

Cavab: Əgər naməhrəm kişilərin baxmasından və fəsada səbəb olacaq şeylərdən amanda olsalar, eybi yoxdur. Bundan qeyri hallarda isə caiz deyil.

---

Sual: **1376**: Möminə qadın üçün parıldayan qara ayaqqabı geymək caizdirmi?

Cavab: Ayaqqabının rənginin, yaxud formasının (modeli) başqalarının nəzərini cəlb etdiyi, onu geyənin barmaqla göstərildiyi hallardan başqa hallarda onu geyməyin eybi yoxdur.

---

Sual: **1377**: Qadınların məqnə, şalvar, köynək kimi paltarlarda təkcə qara rəngi seçməsi vacibdirmi?

Cavab: Qadının paltarının rəng, forma və tikiliş keyfiyyəti cəhətdən hökmü əvvəlki Sualın cavabında deyilən ayaqqabının hökmü kimidir.

---

Sual: **1378**: Qadının hicab və paltarının başqalarının nəzərini cəlb edən, yaxud şəhvəti təhrik edən tərzdə olması, məsələn, çadranı başqalarının nəzərini cəlb edəcək şəkildə örtmələri, yaxud corabda şəhvəti təhrik edən parça növünü və rəngini seçmələri caizdirmi?

Cavab: Rəngi, forması və yaxud geyim keyfiyyəti cəhətindən yad adamın nəzərini cəlb edən, fitnə-fəsada səbəb olan şeyi geymək qadın üçün caiz deyil.

---

Sual: **1379**: Özünü müxalif cinsə oxşatmaq qəsdi olmadan kişinin qadınlara məxsus olan, qadının da kişilərə məxsus olan paltarı evin içində geyməsi caizdirmi?

Cavab: Əgər özləri üçün paltar qərar verməsələr (həmişə geyməsələr), eybi yoxdur.

---

Sual: **1380**: Kişilərin qadınlara məxsus olan alt paltarları satmasının hökmü nədir?

Cavab: Əxlaqi və ictimai fəsadlara səbəb olmasa, işkalı yoxdur.

---

Sual: **1381**: Nazik corabı toxumaq, almaq və satmaq şəri cəhətdən caizdirmi?

Cavab: Qadınların onu yad kişi qabağında geyməsi məqsədi ilə olmasa, onu toxumağın, satmağın və almağın eybi yoxdur.

Sual: **1382**: Şəriət qanunlarına və əxlaq normalarına riayət etməklə subay oğlanların qadın paltarları və bəzək vəsaitləri satılan ticarət yerlərində işləmələri caizdirmi?

Cavab: Halal işin, kəsbin caizliyi şəri cəhətdən insanların hansısa bir sinfinə məxsus deyil, həm də İslam qayda-qanunlarına, meyarlarına riayət edən hər bir adam üçün caizdir. Lakin əgər məsul idarələr və ya orqanlar tərəfindən ticarət sənədi (lisenziya), yaxud işə icazə vermək üçün ümumi məsləhəti nəzərə almaqla bəzi işlər haqqında məxsus şərtlər qoyulubsa, onlara riayət edilməlidir.

---

Sual: **1383**: Kişilərin boyunbağı asmalarının hökmü nədir?

Cavab: Qızıldan olsa, yaxud istifadə edilməsi qadınlara məxsus olan şeylərdən olsa, kişilərin onu asması caiz deyil.

## Qərb mədəniyyətinə təqlid etmək (özünü kafirlərə oxşatmaq, onlarin mədəniyyətini yaymaq)

---

Sual: **1384**: Üzərində xarici hərflər, şəkillər çəkilmiş paltarı geymək caizdirmi? Bu paltarlar qərb mədəniyyətini yaymaq sayılır?

Cavab: İctimai fəsada səbəb olmasa, onu geyməyin öz-özlüyündə eybi yoxdur. Amma onun islam mədəniyyətinə zidd olan qərb mədəniyyətinin yayılması olub-olmamasına gəldikdə isə bu, camaatın nəzərinə həvalə edilir.

---

Sual: **1385**: Son zamanlarda xarici paltarların gətirilməsi, satılması, alınması və ölkə daxilində işlədilməsi geniş yayılıb. Qərb mədəniyyətinin İslam İnqilabına hücumunun güclənməsini nəzərə almaqla bunun hökmü nədir?

Cavab: Paltarların sadəcə olaraq qeyri-islami ölkələrdən gətirilməsi ilə onları gətirməyin, satmağın, almağın və işlətməyin eybi yoxdur. Lakin geyilməsi islami əxlaq və iffətlə zidd olan, yaxud İslama düşmən olan qərb mədəniyyətini yaymaq hesab olunanları gətirmək, satmaq, almaq və geymək caiz deyil. Bu haqda əlaqədar orqanlara müraciət edilməlidir ki, bunların qarşısı alınsın.

---

Sual: **1386**: Saç qısaltmaqda qərbə təqlid etməyin hökmü nədir?

Cavab: Bu qəbildən olan şeylərin haram olmasında meyar özünü islam düşmənlərinə oxşatmaq, onların mədəniyyətini yaymaqdır. Bu da ölkələri, zamanları və adamların müxtəlifliyini nəzərə almaqla müxtəlif olur. Bu məsələ də təkcə qərbə aid deyil.

---

Sual: **1387**: Müəllimlərin məktəbdə saçını islami adətlərə, ədəblərə müxalif olan qərb formasında düzəldib özlərini kafirlərə oxşatmış şagirdlərin saçını qırxması caizdirmi? Bunu da qeyd edək ki, onlara edilən nəsihətin faydası yoxdur, amma onlar məktəbdə islamın zahiri işlərinə riayət edirlər, lakin məktəbdən çıxan kimi formalarını dəyişdirirlər. Bizim vəzifəmiz nədir?

Cavab: Müəllimlərin, şagirdlərin saçını qırxması yaxşı iş deyil. Əgər məktəbin məsulları şagirdlərin bəzi işlərinin islami mədəniyyətlə, ədəblərlə uyğun olmadığını ayırd etsələr, yaxşı olar ki, bir ata kimi ona nəsihət edib başa salsınlar və lazım olan halda bu işdə kömək olmaq üçün bu barədə onların ata-analarına xəbər versinlər. Təhsil ilə əlaqədar qanunlara riayət edilməsi də lazımdır.

---

Sual: **1388**: Amerika paltarını geyməyin hökmü nədir?

Cavab: İstismarçı dövlətlərdə istehsal edilmiş paltarları geyməyin özünün “islam düşmənləri tərəfindən istehsal edilməsi” baxımından eybi yoxdur. Lakin əgər bu iş islama düşmən olan mədəniyyətin yayılmasına, yaxud onların islami ölkələri istismar etmək və müstəmləkə vəziyyətinə salmaq üçün iqtisadiyyatının güclənməsinə və yaxud islam dövlətinin iqtisadiyyatına zərər dəyməsinə səbəb olsa, bu halda onda işkal var. Hətta bu iş bəzi hallarda caiz deyil.

---

Sual: **1389**: Qadınların nazirliklər, dövlət idarələri və başqa orqanların xaricdən gələn hökumət heyətlərinə gül-çiçək verib “xoş gəldin” demək üçün təşkil olunan qarşılama mərasimlərində iştrak etmələri caizdirmi? Onların bu kimi mərasimlərdə iştirak etmələrini “biz qeyri-islami ölkələrə islam cəmiyyətində qadın azadlığını, ehtiramını göstərmək istəyirik” - deyə izah etmələri düzgündürmü?

Cavab: Qadınları, xarici heyətləri qarşılama mərasimində iştirak etmək üçün dəvət etməyə heç bir əsas yoxdur. Əgər bu iş fəsada, qeyri-islami mədəniyyətin yayılmasına səbəb olsa, caiz deyil.

---

Sual: **1390**: Qalstuk taxmağın hökmü nədir?

Cavab: Ümumiyyətlə, qalstuk taxmaq, eləcə də qeyri-müsəlmanların geyimi sayılan şeyləri geymək, üzdəniraq qərb mədəniyyətinin yayılmasına səbəb olsa, caiz deyil.

---

Sual: **1391**: İçində əxlaqsız, açıq-saçıq şeylər olmayan, lakin gənclər arasında üstüörtülü şəkildə əxlaqsız və qeyri-islami bir mühit yaratmağa çalışan bütün şəkil, kitab və jurnalları satmağın hökmü nədir?

Cavab: Gənclərin düz yoldan çıxmasına, fəsada düşməsinə və əxlaqsız mühitlərin yaranmasına səbəb olan bu kimi şeyləri almaq, satmaq və yaymaq caiz deyil. Onlardan çəkinmək vacibdir.

---

Sual: **1392**: Müasir dövrdə İslam cəmiyyətinə qarşı yönəldilən mədəni hücumun qarşısını almaqda qadına vacib olan şey nədir?

Cavab: Onlara vacib olan ən əsas şey – islami hicaba riayət etmək, onu yaymaq və geyilməsi islam mədəniyyətinin düşməni olan mədəniyyətə təqlid etmək hesab olunan paltarlardan çəkinməkdir.

---

Sual: **1393**: Bəzi müsəlmanlar məsihilərin (xristianların) bayramlarını keçirirlər. Bunun işkalı varmı?

Cavab: Həzrət İsa Məsihin (əla nəbiyyina və alihi və əleyhis-salam) təvəllüd günü münasibəti ilə bayram keçirməyin eybi yoxdur.

---

Sual: **1394**: Üzərində şərabın təbliğ edilməsi və (camaatın ona) rəğbətləndirilməsi əlaməti olan paltarı geymək caizdirmi?

Cavab: Caiz deyil.

## Mühacirət etmək və siyasi sığınacaq

---

Sual: **1395**: Xarici ölkələrə siyasi sığınacağın hökmü nədir? Siyasi sığınacaq almaq üçün həqiqəti olmayan bir hadisəni uydurmaq caizdirmi?

Cavab: Heç bir fəsada səbəb olmadıqda, qeyri-müsəlman bir dövlətə pənah aparmağın öz-özlüyündə eybi yoxdur. Lakin ona yetişmək üçün yalandan, həqiqəti olmayan bir şey uydurmaqdan istifadə etmək caiz deyil.

---

Sual: **1396**: Müsəlman bir şəxsin qeyri-müsəlman bir ölkəyə mühacirət etməsi caizdirmi?

Cavab: Dindən azıb azğınlığa düşmək qorxusu olmasa, bu işin eybi yoxdur. Orada öz dinini və məzhəbini qoruyub onun barəsində ehtiyata riayət edəndən sonra qüdrəti çatan miqdarda İslamı, müsəlmanları müdafiə etməsi vacibdir.

---

Sual: **1397**: Kafir ölkəsində müsəlman olmuş qadınların, orada ailə və cəmiyyətdən yaranan qorxu nəticəsində öz dinlərini aşkar edə bilmədiklərindən islam ölkəsinə mühacirət etməsi vacibdirmi?

Cavab: İslam ölkəsinə hicrət etmək əziyyətə, çətinliyə səbəb olan halda onlar üçün vacib deyil. Lakin namazı, orucu və vacib olan başqa şəriət hökmlərinə mümkün qədər əməl etmək onlara vacibdir.

---

Sual: **1398**. Çılpaqlıq, əxlaqsız lent yazılarına qulaq asmaq və s. kimi günah səbəbləri mövcud olan ölkələrdə yaşamağın hökmü nədir? Orada təzə həddi-büluğa çatan bir şəxsin hökmü nədir?

Cavab: Onların oranın qeydiyyatında olub orada yaşamasının öz-özlüyündə eybi yoxdur, lakin şəri nəzərdən ona haram olan işlərdən çəkinməsi vacibdir, bu mümkün olmasa, islami ölkələrə səfər etməlidirlər.

## Başqasinin eybini axtarmaq, xəbərçilik etmək, başqasinin sirrini faş etmək

---

Sual: **1399**: Bir dövlət məmurunun dövlət əmlakını mənimsəməsi barədə bir neçə yazılı xəbər (məlumat) verilib. Onun ittihamı barəsində təhqiqat işləri apardıqdan sonra haqqında deyilmiş bəzi ittihamların düzgünlüyü məlum oldu. Lakin o, bu məsələ barədə təhqiq aparanda, ona aid edilən bütün ittihamları inkar edirdi. Bu məlumatları məhkəməyə göndərmək caizdirmi, halbuki bu iş onun abır-heysiyyətinin aradan getməsinə səbəb olacaq? Caiz olmadığı təqdirdə, bu məsələdən xəbəri olan şəxslərin vəzifəsi nədir?

Cavab: Beytül-malın (ümumxalq əmlakının), dövlət mallarının qorunmasına məsul olan şəxs dövlət işçisi, yaxud başqa şəxs tərəfindən o malların mənimsənilməsindən xəbərdar olsa, bu halda haqqın dirçəldilməsi məqsədi ilə dövlət malını mənimsəmiş adamın bu barədə işini əlaqədar orqanlara xəbər vermək onun şəri və qanuni vəzifəsidir. Müttəhimin abır-həyasının getməsi qorxusu, beytül-malın qorunmasında haqqı almaqdan çəkinmək üçün şəri dəlil ola bilməz. Başqa şəxslər də öz məlumatlarını sənədli şəkildə əlaqədar məsullara verməlidirlər ki, onlar bu məsələ barəsində axtarış və təhqiqat aparıb müddəanı sübut etdikdən sonra tədbir görsünlər.

---

Sual: **1400**: Qəzetlərdə müşahidə edirik ki, oğruların, fırıldaqçı adamların, idarələrdə rüşvətxor bandaların, iffətlə zidd olan işlər görənlərin, həmçinin fəsad, əxlaqsız, gecə barlarında yığışan bandaların tutulması barədə xəbərlər çap edirlər. Belə xəbərləri çap, nəşr etmək fəhşanı (pis şeyləri) yaymağın bir növü deyilmi?

Cavab: Sadəcə olaraq baş vermiş hadisələri qəzetlərdə çap etmək fəhşanı yaymaq sayılmır.

---

Sual: **1401**: Təlim mərkəzlərinin birinin tələbələrinə, qarşısının alınması üçün müşahidə etdikləri yaramaz işlər haqqında xəbərləri əlaqədar təşkilatın məsullarına göndərməsi caizdirmi?

Cavab: O xəbərlər açıq-aşkar şəkildə görülən işlər haqqında olsa və ona başqasının eybini axtarmaq, yaxud qeybət məfhumu aid edilməzsə, onun eybi yoxdur. Hətta əgər nəhy əz münkərin müqəddimələrindən olarsa, o iş vacib olur.

---

Sual: **1402**: Bəzi idarə məsullarının etdiyi zülm, yaxud xəyanətini camaat arasında demək caizdirmi?

Cavab: Təhqiqat aparıb xatircəm olandan sonra o məsələni yoxlanmaq üçün məsul orqanların, mərkəzlərin yanında deməyin eybi yoxdur. Hətta əgər nəhy əz münkərin müqəddimələrindən sayılsa, onu demək vacibdir. Lakin onu camaatın arasında deməyə bir əsas yoxdur. Üstəlik fitnə-fəsada, İslam dövlətini zəiflətməyə səbəb olan halda, onu camaat arasında demək haramdır.

---

Sual: **1403**: Möminlərin mal-dövləti barəsində təcəssüs (eyblərini axtarmaq) edib onların xəbərlərini məxsusən onların əziyyətə, zərərə düşmələrinə səbəb olacağı halda zülmkar hakimin hökumətinə çatdırmağın hökmü nədir?

Cavab: Bu kimi işlər şəri cəhətdən haramdır və əgər zülmkar hakimin yanında möminlərdən xəbərçilik etmək səbəbi ilə, möminlərə ziyan dəysə zəmanətə səbəb olur.

---

Sual: **1404**: Möminlərdən münkərin (pis işin) görüldüyü, yaxud mərufun (yaxşı işin) tərk olunduğu müşahidə olunan halda "əmr be məruf və nəhy əz münkər"i əsas tutaraq onların öz şəxsi və qeyri-şəxsi işlərində təcəssüs etmək (eyblərini axtarmaq) caizdirmi? Vəzifəsi təcəssüs etmək olmayan, amma camaatın pis işlərini və qanun pozuntularını tapmaq üçün təcəssüs edən adamların hökmü nədir?

Cavab: Vəzifəsi yoxlamaq və təftiş aparmaq olan rəsmi şəxslərin idarə işçilərinin əməllərindən idarə işi, yaxud başqa iş barəsində qanun çərçivəsində təhqiq, axtarış aparmalarının eybi yoxdur. Lakin sirlərini bilmək üçün başqalarının işlərini qanun çərçivəsindən kənarda araşdırmaq, yaxud idarə işçilərinin əməllərini, rəftarlarını təftiş etmək hətta vəzifəsi bu iş olanlara belə caiz deyil.

---

Sual: **1405**: Camaat arasında şəxsi sirlərdən, gizli və xüsusi şeylərdən danışmaq caizdirmi?

Cavab: Başqasına da müəyyən qədər aid olsa, yaxud fəsada səbəb olsa, özünə məxsus olan şəxsi şeyləri başqalarının yanında açıb demək caiz deyil.

---

Sual: **1406**: Çox vaxt psixoloq xəstəliyin səbəblərini aydınlaşdırıb onun müalicəsi yolunu tapmaq üçün xəstənin şəxsi və ailəyə aid olan şeyləri barəsində soruşur. Buna cavab vermək xəstə üçün caizdirmi?

Cavab: Heç bir fəsada səbəb olmasa, digər bir şəxs üçün qeybət, yaxud təhqir sayılmasa, onun eybi yoxdur.

## Siqaret çəkmək, narkotik maddələr qəbul etmək

---

Sual: **1407**: Dövlət idarələrində və ümumi yerlərdə siqaret çəkməyin hökmü nədir?

Cavab: İdarələrin, ümumi yerlərin daxili nizamnaməsinin əksinə olsa, yaxud başqalarına əziyyət versə, onları narahat etsə və yaxud onlara zərər yetirsə, caiz deyil.

---

Sual: **1408**: Mənim qardaşım narkotik maddələrə adət edib və qaçaq yolla narkotik maddələrin al-veri ilə məşğul olur. Onun bu işinin qarşısını almaq üçün əlaqədar rəsmi orqanlara xəbər vermək mənim üçün vacibdirmi?

Cavab: Nəhy əz münkər etmək sənə vacibdir. Ona bu adəti tərk etməkdə kömək etməli və onu narkotik maddələri qaçaq yolla gətirmək, satmaq və paylamaqdan çəkindirməlisən. Əgər onun vəziyyəti barədə əlaqədar orqanlara xəbər vermək bu işdə sənə kömək edərsə, yaxud nəhy əz münkərdən hesab olunarsa onlara xəbər verməyin vacibdir.

---

Sual: **1409**: Burunotudan istifadə etmək caizdirmi? Ona adət etməyin (qurşanmağın) hökmü nədir?

Cavab: Onu istifadə edənə nəzərə çarpacaq bir zərəri olsa, istifadə etlətməsi caiz deyil.

---

Sual: **1410**: Tütünü (tənbəkini) satmaq, almaq və çəkmək caizdirmi?

Cavab: Tütünü satmaq, almaq və işlətməyin öz-özlüyündə eybi yoxdur. Lakin onun şəxsə nəzərə çarpacaq bir zərəri olsa, bu halda ondan istifadə etmək, almaq və satmaq caiz deyil.

---

Sual: **1411**: Həşiş pakdırmı? Ondan istifadə etmək haramdırmı?

Cavab: Həşiş pakdır, lakin onu işlətmək haramdır.

---

Sual: **1412**: Həşiş, tiryək, heroin, morfin və bu kimi digər narkotik maddələri yemək, içmək, çəkmək, iynə vurmaq və yaxud müalicə məqsədilə arxadan bədənə daxil etməyin hökmü nədir? Onları yükləmək, daşımaq, saxlamaq, qaçaq şəkildə başqa yerdən gətirmək kimi alqı-satqı və başqa kəsblər etməyin hökmü nədir?

Cavab: Narkotik maddələri işlətmək, istifadə etmək hər hansı bir şəkildə nəzərə çarpacaq şəxsi və ictimai zərərlərə səbəb olduğuna görə onları işlətmək, bütün hallarda haramdır. Buna görə də onları yükləmək, daşımaq, saxlamaq, satmaq, almaq və başqa vasitələrlə kəsb etmək də haramdır.

---

Sual: **1413**: Narkotik maddələr işlətməklə xəstəliyi müalicə etmək caizdirmi? Caiz olan surətdə bütün hallarda caizdir, yoxsa müalicənin yalnız onların işlədilməsinə bağlı olan hala məxsusdur?

Cavab: Xəstəliyin müalicəsi müəyyən yolla onları işlətməyə bağlı olsa və bu da etimad olunan həkimin icazəsi ilə olsa, onun eybi yoxdur.

---

Sual: **1414**: Tiryək, heroin, morfin, həşiş və kokainin alındığı xaşxaş, hindi şahdənə, koyha və başqa bitkiləri əkib becərməyin hökmü nədir?

Cavab: İslam hökumətinin qanunlarına zidd olan bu növ bitkilərin əkilib becərilməsi caiz deyil.

---

Sual: **1415**: İstər morfin, heroin, həşiş və bu kimi digər təbii maddələr olsun, istərsə də İ.S.D və başqası kimi süni narkotik maddələri hazırlamağın, düzəltməyin hökmü nədir?

Cavab: Caiz deyil.

Sual: **1416**: Üstünə bəzi şərab növləri səpilmiş tənbəkini çəkmək caizdirmi? Onun tüstüsünü iyləmək caizdirmi?

Cavab: Tənbəkini çəkmək camatın nəzərində şərab içməyin bir növü sayılmasa, eləcə də məstliyə və nəzərə çarpacaq bir zərərə səbəb olmasa, eybi yoxdur, hərçənd ki, əhvət onu tərk etməkdədir.

---

Sual: **1417**: Siqaret çəkməyə başlamaq haramdırmı? Əgər siqaret çəkməyə adət edən şəxs siqareti bir həftə, yaxud daha çox müddətdə tərgitsə, sonradan siqaret çəkməyə başlaması haramdırmı?

Cavab: Hökm, siqaret çəkilməsinin səbəb olduğu zərərin dərəcələri baxımından fərqlidir. Ümumiyyətlə, əgər siqaret çəkmək bədən üçün nəzərə çarpacaq dərəcədə zərər dəyməsinə səbəb olan miqdarda olarsa, caiz deyil. Əgər bir şəxs siqaret çəkməyə başladığı təqdirdə bu mərhələyə catacağını bilsə, caiz deyil.

---

Sual: **1418**: Narkotik maddələrin ticarəti ilə qazanılan mallar kimi, əslinin (eyninin) haram olması məlum olan malların hökmü nədir? Onların sahibini tanımadığımız halda onlar məchulul-malik (maliki məlum olmayan mal) hökmündədirmi? Belə olan halda şəriət hakiminin, yaxud onun ümumi vəkilinin icazəsi ilə onlarda təsərrüf etmək (onları işlətmək) caizdirmi?

Cavab: Əgər insan əldə olan malın haram olmasını bilsə və o malın şəri malikini, hərçənd sayı məhdud olan bir neçə nəfər arasında tanıyırsa, bu halda onu şəri malikinə qaytarması vacibdir. Əks halda, gərək onu şəri malikinin tərəfindən fəqirlərə sədəqə versin. Əgər haram mal onun halal malına qarışmış olsa və onun (haram malın) miqdarını, həmçinin şəri malikini tanımasa, onun xümsünü hesablayıb xüms işlərinə təyin olunan şəxsə verməsi vacibdir.

## Saqqalı qirxmaq

---

Sual: **1419**: Tüklərini saxlamağın vacib olduğu "aşağı çənə" dedikdə məqsəd nədir? Yanaqlara da şamil olurmu?

Cavab: Bu məsələdə meyar camaat nəzərindən ona "saqqal saxlamaq" aid edilə bilməsidir.

---

Sual: **1420**: Saqqal uzunluq və qısalıq baxımından hansı miqdarda olmalıdır?

Cavab: Onun hər hansı bir müəyyən həddi yoxdur, meyar budur ki, camaat arasında ona saqqal desinlər. Onun əlin tutumu qədərdən artıq olması məkruhdur.

---

Sual: **1421**: Bığları uzatmağın və saqqalı qısaltmağın hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə heç bir işkalı yoxdur.

---

Sual: **1422**: Bəzi kişilər çənələrinin saqqalını saxlayıb qalan hissələrini qırxırlar, bu işin hökmü nədir?

Cavab: Saqqalın bir miqdarını qırxmaq hamısının qırxılmasının hökmündədir.

---

Sual: **1423**: Saqqalı qırxmaq fisq (günah) hesab olunurmu?

Cavab: Saqqalı qırxmaq ehtiyata görə haramdır və əhvət nəzər budur ki, belə şəxsə fisqin hökmləri və əsərləri də şamil olur.

---

Sual: **1424**: Bığı qırxmağın hökmü nədir? Onu çox uzun saxlamaq olarmı?

Cavab: Bığı qırxmaq, saxlamaq və uzatmaq öz-özlüyündə işkalı yoxdur, amma onu yemək-içmək zamanı yeməyə və ya suya toxunacaq miqdarda uzun saxlamaq məkruhdur.

---

Sual: **1425**. Öz işinin tələbinə uyğun olaraq saqqalını ülgüclə, yaxud saqqalqırxan maşınla qırxan incəsənət xadiminin hökmü nədir?

Cavab: Əgər ona "saqqalın qırxılması" aid edilərsə, ehtiyata görə haramdır, lakin əgər onun incəsənət işi islam cəmiyyətinin zəruri ehtiyaclarından olarsa, həmin zərurət miqdarında saqqalı qırxmağın eybi yoxdur.

---

Sual: **1426**: Saqqal qoyulması şəxsin təhqir olunmasına səbəb olarsa, onu qırxmağın hökmü nədir?

Cavab: Dininə əhəmiyyət verən müsəlman bir şəxs üçün saqqal qoymaq onun başı aşağı olmasına səbəb olmaz və ehtiyata əsasən onu qırxmaq caiz deyil. Yalnız saqqal qoyulması şəxsin zərərə, yaxud əzab-əziyyətə düşməsinə səbəb olan halı istisna olunur.

---

Sual: **1427** Əsas etibarilə saqqalın qırxılması üçün nəzərdə tutulan, amma bəzi hallarda saqqaldan başqa şeylərin qırxılmasında da işlədilən kremin alınması, satılması və istehsal olunması caizdirmi?

Cavab: Əgər qeyd olunan kremin saqqalı qırxmaqdakı istifadədən başqa digər halal mənfəətləri də olsa, bu məqsədlə onu istehsal edib satmağın eybi yoxdur.

---

Sual: **1428**: Saqqalı qırxmağın haram olması dedikdə məqsəd üzün tüklərinin hamısının kamil şəkildə göyərmiş olmasından sonra qırxılmasıdırmı, yoxsa üzün tüklərinin bir miqdarı çıxdığı hallara da şamil olur?

Cavab: Ümumiyyətlə, üzün tüklərinindən "üzün qırxılması" aid edilə biləcək miqdarda qırxılması ehtiyata görə haramdır, lakin qeyd olunan ünvana aid olmayan miqdarı qırxmağın eybi yoxdur.

---

Sual: **1429**. Bərbərlərin saqqalı qırxmaq müqabilində aldıqları əmək haqqı haramdırmı? Haram olduğu fərz edildikdə halal mal ilə qarışarsa, xümsünü verən zaman onun xümsünü yenidən vermək vacibdirmi?

Cavab: Ehtiyata görə saqqalı qırxmaq müqabilində əmək haqqı almaq haramdır. Amma harama qarışmış mal barəsində isə, əgər haram miqdar və onun sahibini tanıyarsa, ona qaytarması, yaxud razılığını alması vacibdir. Əgər onun malikini, hətta müəyyən olunmuş şəxslər arasında belə tanımasa, onu fəqirlərə sədəqə verməsi vacibdir. Əgər halal malın miqdarını bilməsə, lakin onun sahibini tanısa, müəyyən yollarla onun razılığını əldə etməlidir. Əgər onun miqdarını bilməzsə, sahibini də tanımazsa, malı haramdan pak olsun deyə, onun xümsünü verməsi vacibdir. Xümsünü verdikdən sonra yerdə qalan miqdar illik xərclərindən artıq gələrsə, onun xümsünü "kəsb mənfəətinin xümsünü vermək" ünvanı ilə vacib olur.

---

Sual: **1430**: Bəzən müştərilər üzqırxan maşınlarını təmir etmək üçün mənə müraciət edirlər. Saqqalın qırxılmasının şəri baxımdan haram olduğunu nəzərə alaraq bu işi görmək mənim üçün caizdirmi?

Cavab: Qeyd olunan vəsaitin saqqalı qırxmaqdan başqa digər istifadələri də olduğundan onu təmir edib əvəzində əmək haqqı almaq, saqqal qırxmaqda istifadə etmək məqsədilə olmazsa, eybi yoxdur.

---

Sual: **1431**: Yanaqda olan tükləri istər sapla, istərsə də maşınla qırxmaq haramdırmı?

Cavab: Yanaqda olan tükləri qırxmaq maşınla olsa belə, haram deyil.

## Günah məclislərində iştirak etmək

---

Sual: **1432**: Bəzi hallarda yad ölkələrin institutları, yaxud müəllimləri tərəfindən kollektiv şəkildə bayram şənlikləri təşkil olunur. Əvvəlcədən də o məclisdə spirtli içkilər verilməsi məlumdur. O şənlikdə iştirak etmək məqsədində olan tələbələrin şəri vəzifəsi nədir?

Cavab: Şərab içilən məclislərdə iştirak etmək heç kəs üçün caiz deyil. Siz bu məclislərdə iştirak etməyin ki, sizin müsəlman olduğunuza görə şərab məclisində iştirak etmədiyinizi və şərab içmədiyinizi başa düşsünlər.

---

Sual: **1433**: Toy məclislərində iştirak etməyin hökmü nədir? Rəqsin də olduğu bu kimi toy məclislərində iştirak etməyə "bir tayfanın əməlinə daxil olan şəxs onlardandır" - ünvanı aid edilirmi və buna görə də o məclisi tərk etmək vacibdirmi, yoxsa rəqs və sair işlərə qarışmadan o məclisdə iştirak etməyin eybi yoxdur?

Cavab: Əgər məclis "ləhv, haram və günah məclisidir" ünvanı aid edilə biləcək surətdə olmasa və orada iştirak etməyin heç bir fəsadı olmasa, bu halda orada hazır olub iştirak etmək camaat arasında caiz olmayan bir əməli təsdiqləmək sayılmazsa, eybi yoxdur.

---

Sual: **1434**: 1-Qadınların və kişilərin bir-birindən ayrı şəkildə rəqs edib mahnı oxuduqları bayram şənliklərində iştirak etməyin hökmü nədir?

2-Rəqs edilən, musiqi çalınan toy mərasimlərində iştirak etmək caizdirmi?

3-Rəqs edilən məclislərdə nəhy əz münkərin və əmr be mərufun iştirakçılara təsirli olmadığı halda, nəhy əz münkər etmək vacibdirmi?

4-Qadınla kişinin qarışıq halda rəqs etməsinin hökmü nədir?

Cavab: Ümumiyyətlə əgər rəqs şəhvəti təhrik etsə, yaxud haram işlə yanaşı olsa, yaxud öz ardınca haram bir iş gətirsə, yaxud yad və naməhrəm kişilərlə qadınlar qarışıq şəkildə olsa, caiz deyil. Bu hökmdə toy mərasimləri ilə başqa mərasimlər olmasının heç bir fərqi yoxdur. Günah məclislərində iştirak etmək də, əgər mütrib, ləhv və günah məclisləri ilə münasib olan haram musiqilərə qulaq asmaq kimi günah işə mürtəkib olmağa səbəb olara, yaxud orada iştirak etmək günah işi təsdiqləmək sayılarsa, caiz deyil. Amma təsir qoyaması ehtimal verilməyəcəyi halda əmr be məruf və nəhy əz münkərin vacibliyi mükəlləfdən götürülür.

---

Sual: **1435**: Əgər naməhrəm bir kişi toy məclisinə daxil olsa və orada hicabsız qadın olsa, kişi də nəhy əz münkərin ona təsir qoymayacağını bilsə, o məclisi tərk etməsi vacibdirmi?

Cavab: Əgər günah məclisindən etiraz əlaməti olaraq çıxmaq nəhy əz münkərin nümunəsidirsə, bu iş vacibdir.

Sual: **1436**: Mübtəzəl (əxlaqsız, haram) ğina lent yazıları oxudulan məclislərdə iştirak etmək caizdirmi? Bir kəs onun ğina olmasında şəkk edərsə, kasetin oxudulmasının qarşısını almağın mümkün olmadığını nəzərə almaqla hökm nədir?

Cavab: Ğina, mütrib musiqi və günah məclislərinə münasib olan ləhv musiqi məclislərində iştirak etmək ona qulaq asılmasına, yaxud təsdiqlənməsinə gətirib çıxararsa, caiz deyil, lakin mövzuda şəkk olunan halda o məclisdə iştirak etməyin və ona qulaq asmağın öz-özlüyündə işkalı yoxdur.

---

Sual: **1437**: İnsanın bəzi hallarda qeyri-münasib sözləri, o cümlədən dini məqamlara, yaxud islam ölkəsinin məsul şəxslərinə, yaxud digər möminlərə iftira yaxılmasına səbəb olan bir sözü eşitdiyi məclislərdə iştirak etməsinin hökmü nədir?

Cavab: Bu məclislərdə sadəcə iştirak etmək haram işə düşməyə, o cümlədən qeybətə qulaq asmağa, eləcə də münkər işlərin təsdiqlənib yayılmasına səbəb olmayıncaya qədər öz-özlüyündə eybi yoxdur, lakin imkan olduğu halda nəhy əz münkər etmək vacibdir.

---

Sual: **1438**: Bəzi qeyri-islami ölkələrdə təşkil olunan yığıncaqlarda adət üzrə iştirakçılara spirtli içkilər təklif edirlər. Bu cür yığıncaqlarda iştirak etmək caizdirmi?

Cavab: Şərab içilən məclislərdə iştirak etmək caiz deyil. Zərurət halında isə zəruri miqdarla (iştirak etməklə) kifayətlənmələri vacibdir.

# Dua yazmaq və istixarə etmək

---

Sual: **1439**: Dua yazmaq üçün pul vermək və almaq caizdirmi?

Cavab: Hədislərdə gəlmiş duaları yazmaq üçün əmək haqqı olaraq müəyyən bir məbləği verməyin və ya almağın işkalı yoxdur.

---

Sual: **1440**: Bəzi dua yazanların "qədim dua kitablarında nəql olunmuşdur" deyə iddia etdikləri duaların hökmü nədir? Bu dualar şəri cəhətdən mötəbər sayılırmı? Onlara müraciət etməyin hökmü nədir?

Cavab: Əgər dualar məsum imamlardan (ə) nəql və rəvayət olunmuşsa, yaxud onların məzmunları haqq (düzgün) olarsa, onlara təbərrük etməyin eybi yoxdur. Eləcə də şəkk olunan dualara, məsumdan nəql olunma ümidi ilə təbərrük etməyin işkalı yoxdur.

---

Sual: **1441**: İstixarəyə əməl etmək vacibdirmi?

Cavab: İstixarəyə əməl etməkdə şəri iltizam yoxdur, lakin yaxşı olar ki, onun əksinə əməl edilməsin.

---

Sual: **1442**: Bəziləri deyirlər ki, xeyir işlərdə istixarəyə ehtiyac yoxdur. Buna əsasən, onların yerinə yetirilmə keyfiyyəti, yaxud onların yerinə yetirilməsi əsnasında yaranacaq və əvvəlcədən gözlənilməyən çətinliklər barəsində istixarə etmək caizdirmi? İstixarə qeyb işlərindən agah olmaq üçün bir yol hesab olunurmu, yoxsa yalnız Allah ondan agahdır?

Cavab: Mübah işlərin görülməsində heyrət və tərəddüdü aradan qaldırmaq üçün istixarə edilir, istər tərəddüd əməlin özündə olsun, istərsə də onun necə yerinə yetirilməsində. Deməli, heyrət və nigarançılıq olmayan xeyir işlərdə istixarə etmək lazım deyil, həmçinin şəxsin, yaxud bir işin gələcəyindən agah olmaq üçün istixarə edilmir.

---

Sual: **1443**: Təlaq vermək, yaxud verməmək istəyi kimi hallarda Quranla istixarə etmək düzgündürmü? Bir şəxs bu barədə istixarə edib ona uyğun əməl etməzsə, onun hökmü nədir?

Cavab: Quranla, yaxud təsbehlə istixarə etməyin caiz olması hansısa bir halla məhdudlanmır, əksinə, şəxsin tərəddüddə və heyrətdə olduğu hər hansı bir mübah iş barəsində qəti qərara gəlməyə qadir olmadığı hallarda istixarə edə bilər və şəri cəhətdən də istixarəyə əməl etmək vacib deyil, hərçənd insanın onunla müxalifət etməməsi daha yaxşıdır.

---

Sual: **1444**: Evlənmək və sair kimi müqəddəratı həll edən (həyati) məsələlərdə təsbeh, yaxud Quranla istixarə etmək caizdirmi?

Cavab: Yaxşı olar ki, insan qərara gəlmək istədiyi işlərdə əvvəlcə dərindən fikirləşib diqqət etsin, yaxud təcrübəli və etimadlı şəxslərlə məsləhətləşsin. Bu işlərlə onun heyrət və narahatçılığı aradan qalxmazsa, istixarə edə bilər.

---

Sual: **1445**: Bir iş üçün bir neçə dəfə istixarə etmək düzgündür?

Cavab: İstixarə heyrəti aradan qaldırmaq üçün olduğundan, heyrətin birinci istixarə ilə aradan qalxmasından sonra artıq onu təkrar etməyin mənası yoxdur. Yalnız mövzunu dəyişən hallar istisna olunur.

---

Sual: **1446**: Müşahidə olunur ki, imam Rza (ə)-ın möcüzələrini (kəramətlərini) göstərən yazıları ziyarətgahlarda və məscidlərdə mövcud olan ziyarət kitablarının arasında qoyur və camaat arasında paylayırlar. Onları nəql edən həmin yazının altında qeyd edir ki, hər kəs bu möcüzəni oxusa onu müəyyən qədər yazıb camaat arasında paylamalıdır ki, hacətinə çatsın. Bu mətləb düzdürmü? Onu oxuyan şəxslərə naşirin istəyinə əməl etmələri vacibdirmi?

Cavab: Şəri cəhətdən bu işlərin etibarlı olmasına heç bir dəlil yoxdur. Onu oxuyan şəxslər də naşirin onu yaymaq barəsində istəyinə əməl etməyə iltizamlı deyildir.

## Dini mərasimlərin dirçəldilməsi

## Əzadarlıq mərasimləri

---

Sual: **1447**: Çox məntəqələrin hüseyniyyələrində və məscidlərində, xüsusilə kəndlərdə qədim adət və mərasimlərdən olan şəbeh mərasimləri keçirilir ki, bəzən insanlara müsbət təsir qoyur. Bu mərasimlərin hökmü nədir?

Cavab: Şəbeh oxuma mərasimi yalan və batil işlərə şamil olmasa, öz ardınca fəsad gətirməzsə, zamanın tələbi ilə haqq məzhəbin süstləşdirilməsinə səbəb olmazsa, eybi yoxdur. Amma eyni halda yaxşı olar ki, onların yerinə moizə məclisləri, imam Hüseyn (ə)-ın müsibətlərinin zikr olunduğu və mərsiyə mərasimi təşkil edilsin.

---

Sual: **1448**: Əzadarlıq dəstələrində və məclislərdə təbil və şeypurdan və eləcə də üstündə kəsici metal olan zəncirlərdən istifadə etməyin hökmü nədir?

Cavab: Əgər qeyd olunan zəncirlərdən istifadə edilməsi camaat qarşısında məzhəbin süstləşməsinə və ya insanın bədəninə nəzərə çarpacaq dərəcədə zərər yetirməsinə səbəb olarsa, caiz deyil, lakin şeypur və təbildən adi qaydada istifadə etməyin eybi yoxdur.

---

Sual: **1449**: Bəzi məscidlərdə əzadarlıq mövsümündə üzərində çoxlu bəzək və qiymətli bəzək əşyaları olan ələmlərdən istifadə olunur ki, bəzən dindarlar tərəfindən onların fəlsəfəsi barədə Sual verilir və təbliğ proqramlarında xələl yaradırlar, hətta məscidin müqəddəs hədəfləri ilə ziddiyyət təşkil edir. Bu barədə şəriət hökmü nədir?

Cavab: Əgər onların məscidə qoyulması məscidin camaat arasında mövcud olan hörməti ilə ziddiyyəti olsa və ya namaz qılanlar üçün maneçilik törətsə, işkalı vardır.

---

Sual: **1450**: Əgər bir şəxs imam Hüseyn (ə)-ın əzadarlığı üçün bir ələm nəzir etmiş olsa, Hüseyniyyənin məsul işçiləri onu qəbul etməkdən imtina edə bilərmi?

Cavab: Bu nəzir Hüseyniyyənin nəzarətçisini və onun idarə heyətini ələmi qəbul etməyə iltizamlı etmir.

---

Sual: **1451**: İmam Hüseyn (ə)-ın əzadarlıq mərasimində ələmdən istifadə etmək, onu əza məclisində qoymaq, yaxud əzadarlıq dəstələrində aparmağın hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə eybi yoxdur, lakin gərək bu işlər dinin bir hissəsi hesab edilməsin.

---

Sual: **1452**: Əgər vacibatlardan bəziləri mükəlləfin əzadarlıq məclisində iştirak etməsinə görə fövtə getsə, məsələn sübh namazı qəza olsa, bundan sonra onun həmin məclislərdə iştirak etməməsi yaxşıdır, yoxsa onun bu məclislərdə iştirak etməməsi Əhli-beytdən uzaqlaşmasına səbəb olur?

Cavab: Aydındır ki, vacib namaz Əhli-beyt əleyhimussəlamın əzadarlıq məclislərində iştirak etməyin fəzilətindən irəlidir. İmam Hüseyn (ə)-ın əzadarlıq mərasimində iştirak etmək bəhanəsilə namazı tərk etmək və onu qəzaya vermək caiz deyil, lakin əzadarlıq mərasimində maneçilik törətməyəcək dərəcədə iştirak etmək mümkün və hətta təkidli müstəhəblərdən biridir.

---

Sual: **1453**: Bəzi dini heyətlərdə tarixə istinad edilməyən və heç bir alimdən, yaxud mərcəyi-təqliddən də eşidilməyən müsibətlər oxunur. Onu oxuyan şəxsdən müsibətin sənəd və mənbəyi haqqında Sual olunanda cavab verir ki, Əhli-beyt (ə) bizə belə başa salmışlar və yaxud bizə belə yol göstərmişlər, Kərbəla hadisəsi təkcə kitablarda olanlardan ibarət deyil, onun mənbələri də təkcə alimlərin dediyi ilə xülasələnmir, əksinə bəzi hallarda müəyyən işlər məddah, yaxud xətib üçün ilham və mükaşifə yolu ilə aşkar olur. Sualımız budur ki, hadisələrin bu yolla nəql olunması düzgündürmü? Düzgün olmadığı halda dinləyicilərin vəzifəsi nədir?

Cavab: Mətləblərin qeyd olunan halda, yəni rəvayət baxımından heç bir sənəd olmadan, yaxud tarixdə qeyd olunmadan nəql edilməsinin şəri əsası yoxdur. Amma əgər onun nəql olunması danışan adamın şəxsi çıxarışı əsasında olsa və onun xilaf olmasına elm olmazsa, bu istisna olunur. Dinləyicilərin vəzifəsi də nəhy əz münkər etməkdir, bu şərtlə ki, onun şərtləri və mövzusu onların yanında sübuta yetmiş olsun.

---

Sual: **1454**: Hüseyniyyənin mikrofonundan Quran qiraəti və imam Hüseyn məclisinin səsi elə hündürdən buraxılır ki, onun səsi hətta şəhərdən kənarda da eşidilir. Bu məsələ qonşuların asayişinin aradan getməsinə səbəb olur. Hüseyniyyənin məsul işçiləri və çıxış edənlər də bu vəziyyətin davam etdirilməsinə israr edirlər. Bu işin hökmü nədir?

Cavab: Dini mərasimlərin və şüarların Hüseyniyyədə münasib zamanlarda bərqərar edilməsinin ən yaxşı işlərdən və təkidli müstəhəblərdən olmasına baxmayaraq mərasimi təşkil edənlər və əzadarlar, hətta mikrofonun səsini azaltmaqla, yaxud onun

istiqamətini Hüseyniyyənin daxilinə döndərməklə olsa belə başqalarına əzab-əziyyət və maneçilik törətməkdən mümkün qədər çəkinməlidirlər.

---

Sual: **1455**: Sizin məhərrəm gecələrində gecə yarısına qədər təbildən və neydən (tütəkdən) istifadə edən əzadarlıq dəstələrinin hərəkətini davam etdirməsi barəsindəki nəzəriniz nədir?

Cavab: İmam Hüseyn (ə) və onun səhabələri üçün əzadarlıq dəstələrinin təşkil olunmasının, bu kimi mərasimlərdə iştirak etməyin çox bəyənilən iş olub insanı Allah dərgahına yaxınlaşdıran ən böyük əməllərdən olmasına baxmayaraq, başqalarının əzab-əziyyətə düşməsinə səbəb olan, yaxud şəri baxımdan öz-özlüyündə haram olan hər bir işdən çəkinmək lazımdır.

---

Sual: **1456**: Əzadarlıq mərasimində orqan və piano kimi musiqi alətlərindən istifadə etməyin hökmü nədir?

Cavab: Musiqi alətlərindən istifadə olunması imam Hüseyn (ə)-ın əzadarlığı ilə münasib deyil, yaxşı olar ki, əzadarlıq mərasimi qədimdən mövcud olan şəkildə təşkil edilsin.

---

Sual: **1457**: Bəzi məntəqələrin adət-ənənələrinə görə imam Hüseyn (ə) üçün əzadarlıq edərkən bədənin ətini deşib qıfıl və çəki daşları asırlar. Bu iş caizdirmi?

Cavab: Məzhəbin süstləşməsinə səbəb olan bu kimi əməllər caiz deyil.

---

Sual: **1458**: Əgər insan imamların ziyarətgahlarında özünü yerə çırpsa və üzünü və sinəsini qan axıncaya qədər yerə sürtüb həmin halda hərəmə daxil olan bəzi şəxslər kimi əməl etsə, bunun hökmü nədir?

Cavab: Əhli-beyt (ə)-a məhəbbət göstərmək, qəm-qüssəli olduğunu bildirmək və adi əzadarlıq hesab olunmayan bu əməllər şəri nəzərdən etibarsızdır, üstəlik əgər insanın bədəninə nəzərə çarpacaq zərər yetirməsinə, yaxud din və məzhəbin süstləşdirilməsinə səbəb olsa, caiz deyil.

---

Sual: **1459**: Bəzi məntəqələrdə qadınlar bir növ mərasim təşkil edir, Həzrəti Fatimə (s.ə)-nın toy mərasiminin şadlığını icra etmək üçün “Həzrət Əbülfəzl (ə)-ın süfrəsi” adlı məclis keçirir, orada toya məxsus olan şerlər oxuyur, əl çalır və sonra rəqs edirlər. Bu kimi işlərin hökmü nədir?

Cavab: Bu kimi bayram və şadlıq mərasimlərinin keçirilməsi əgər yalan və batil mətləblərlə yanaşı olmazsa və məzhəbin süstləşməsinə gətirib çıxarmazsa, öz-özlüyündə eybi yoxdur. Amma rəqs etməyə gəldikdə isə, əgər şəhvəti təhrik edən şəkildə olsa, yaxud haram bir işə səbəb olsa, caiz deyil.

---

Sual: **1460**: “İmam Hüseyn (ə)-ın Aşura mərasiminin xərcləri” ünvanı ilə toplanan maldan artıq qalanlar haralarda xərclənməlidir?

Cavab: Artıq qalan mal-dövləti hədiyyə edənlərin icazəsi ilə ya xeyriyyə işlərdə istifadə etmək, yaxud da gələcək əzadarlıq mərasimlərində sərf etmək üçün saxlamaq olar.

---

Sual: **1461**: Məhərrəm günlərində xeyriyyəçi şəxslərdən müəyyən qədər mal toplayıb onları müxtəlif hissələrə ayırmaq və onun bir qismini Quran qarilərinə, mərsiyəxanlara, çıxış edənlərə vermək, yerdə qalanını isə məclis keçirilməsinə sərf etmək olarmı?

Cavab: Əgər mal-dövlət sahiblərinin razılığı ilə olsa, eybi yoxdur.

---

Sual: **1462**: Qadınların hicaba riayət etməklə və bədənlərini örtən xüsusi paltar geyməklə sinə və zəncir vuran dəstələrdə iştirak etmələri caizdirmi?

Cavab: Qadınların sinə, ya zəncir vuran dəstələrdə iştirak etməsi layiq (yaxşı) deyil.

---

Sual: **1463**: Əgər imamların (ə) əzadarlıq mərasimində baş yarmaq şəxsin ölümünə səbəb olarsa, bu əməl intihar (özünü öldürmək) sayılırmı?

Cavab: Əgər bu əməl adətən ölümə səbəb olmurdusa, intihar hökmündə deyil. Lakin əgər əvvəldən onun canı üçün təhlükəli idisə və bununla eyni zamanda bu işi görmüşsə və ölümü ilə nəticələnibsə, intihar (özünü öldümək) hökmündədir.

---

Sual: **1464**: Özlərini öldürməklə dünyadan gedən müsəlmanlar üçün təşkil olunan fatihə məclislərində iştirak etmək caizdirmi? Onlar üçün qəbirlərinin üzərində fatihə oxumağın hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə heç bir eybi yoxdur.

---

Sual: **1465**: İmamların təvəllüd bayramlarında və Məbəs bayramında dinləyiciləri ağladan mərsiyə və mədhiyyələri oxumağın hökmü nədir? İştirak edənlərin başına pul atmağın hökmü nədir?

Cavab: Dini bayram mərasimlərində mərsiyə və mədhiyyə oxumağın eybi yoxdur, iştirakçıların başına pul səpməyin də eybi yoxdur, üstəlik əgər şadlıq möminlərin qəlbini sevindirmək və qəlblərinə şadlıq salmaq məqsədilə olsa, savabı da vardır.

---

Sual: **1466**: Qadının, naməhrəm kişilərin onun səsini eşidəcəyini bildiyi halda əzadarlıq məclisində oxuması caizdirmi?

Cavab: Əgər fəsad qorxusu olsa, ondan çəkinməlidir.

---

Sual: **1467:** Aşura günündə baş yarmaq, yaxud ayaqyalın yandırılmış odun, kömürün içinə girmək kimi mərasimlər keçirilir. Bu mərasimlər 12 imamçı şiə məzhəbinin adının alimlərin, sair islam məzhəbləri ardıcıllarının və dünya xalqları arasında bədnam olmasından əlavə şəxslərə fiziki və ruhi zərərlər də yetirir, həmçinin məzhəbin təhqir olunmasına səbəb olur. Bu barədə sizin nəzəriniz nədir?

Cavab: İnsan üçün zərəri olan, yaxud məzhəbin və dinin süstləşməsinə səbəb olan hər bir iş haramdır və möminlər ondan çəkinməlidirlər. Aydındır ki, bu kimi işlərin çoxu Əhli-beyt (ə)-ın məzhəbinin bədnam olmasına və süstləşməsinə səbəb olur və bu da ən böyük zərər və xəsarətdir.

---

Sual: **1468**: Gizli şəkildə baş yarmaq halaldırmı, yoxsa sizin fətvanız daha ümumidir?

Cavab: Baş yarmağın camaat arasında qəm-qüssə təzahürlərindən sayılmamasından əlavə, imamların (ə) dövründə və onlardan sonrakı dövrlərdə də belə bir şey görünməmiş, məsumlardan (ə) ümumi, yaxud xüsusi şəkildə də bir göstəriş gəlib çatmamışdır, hazırkı dövrdə də məzhəbin bədnam olmasına, süstləşməsinə səbəb olduğundan heç bir şəraitdə caiz deyil.

Sual: **1469**: İstər fiziki, istərsə də ruhi zərərdə şəri meyar nədir?

Cavab: Meyar – camaat arasında nəzərə çarpacaq və etina olunacaq zərərlərdir.

Sual: **1470**: Bəzi müsəlmanların etdiyi kimi bədənə zəncir vurmağın hökmü nədir?

Cavab: Əgər camaat arasında əzadarlıqda qəm-qüssənin təzahürlərindən sayılacaq dərəcədə adi qaydada olsa, eybi yoxdur.

## Təvəllüdlər və bayramlar

Sual: **1471**: Qədir-Xum bayramındakı qardaşlıq əqdini bu bayramdan başqa vaxtlarda oxumaq caizdirmi?

Cavab: Onun mübarək Qədir-Xum bayramı gününə həsr olunmasının daha yaxşı və əhvət olmasına baxmayaraq, təkcə bu günə həsr olunması məlum deyil.

Sual: **1472**: Qardaşlıq əqdinin məşhur olan həmin əqdlə oxunması vacibdirmi, yoxsa hər hansı dildə olsa da düzgündür?

Cavab: İmamlardan (ə) nəql olunan xüsusi əqdə riayət olunmasının üstün olmasına baxmayaraq yalnız onunla həsr olunması məlum deyil.

Sual: **1473**: Novruz bayramı ilə əlaqədar nəzəriniz nədir? O, müsəlmanların ciddi şəkildə yerinə yetirdiyi Fitr və Qurban bayramları kimi şəri cəhətdən sübuta yetmişdirmi, yoxsa cümə günü və sair münasibətlər kimi yalnız mübarək bir gün hesab olunur?

Cavab: Novruz bayramının dini bayramlardan, yaxud şəri cəhətdən mübarək olan günlərdən olmasına dair mötəbər bir rəvayətin olmamasına baxmayaraq o günü bayram keçirməyin, qohum-əqrəbanın görüşünə getməyin eybi yoxdur, hətta sileyi-rəhm hesabından bəyənilən bir işdir.

Sual: **1474**: Novruz bayramı və onun əməllərinin fəziləti barəsində nəql olunan sözlər düzgündürmü? Bu əməllərin (namaz, dua və s.) rəvayətlərdə gəlməsi qəsdi ilə yerinə yetirilməsi caizdirmi?

Cavab: Bu əməlləri rəvayətlərdə gəlməsi qəsdi ilə yerinə yetirmək məhəlli-işkaldır, amma onları rəca və bəyənilən iş olması ümidilə yerinə yetirməyin işkalı yoxdur.

## Möhtəkirlik və israf

Sual: **1475**: Şəri cəhətdən hansı şeyləri ehtikar etmək haramdır? Sizin nəzərinizcə möhtəkirlərin maddi cəhətdən cəzalandırılması (cərimə edilməsi) caizdirmi?

Cavab: Rəvayətlərdə qeyd olunan və alimlərin arasında məşhur olan nəzərə görə ehtikarın haramlığı yalnız dördlük təşkil edən taxılda, heyvan yağlarında və bitki yağlarındadır ki, cəmiyyətin müxtəlif təbəqələri ona ehtiyaclıdır, lakin ümumxalq

məsləhəti tələb etdiyi zaman islam hökuməti camaatın sair ehtiyacları barədə də ehtikarın qarşısını ala bilər, şəriət hakiminin məsləhət gördüyü təqdirdə möhtəkirləri maddi cəhətdən cərimə etmək işkalsızdır.

---

Sual: **1476**: Bəziləri deyir ki, elektrik enerjisindən ehtiyacdan artıq miqdarda istifadə etmək israf sayılmır. Bu söz düzdürmü?

Cavab: Şübhəsiz, hər bir şeydən, hətta elektrik enerjisi və lampaların yandırılmasından ehtiyacdan artıq istifadə etmək israf hesab olunur. Ən düzgün söz Peyğəmbər (s)-dən nəql olunan kəlamdır ki, buyurur: "La sərfə fi xeyr" – xeyir işlərdə israf yoxdur."

# Al-verin hökmləri

## Əqdin şərtləri

---

Sual: **1477:** Al-verdə və sair müamilələrdə müatat müamiləsinin əqdi müamilə kimi lazımlığına hökm olunurmu?

Cavab: Əqdi müamilə ilə müatat müamiləsi arasında "lazım olma" baxımından heç bir fərq yoxdur.

---

Sual: **1478**: Əgər torpaq sahəsi və ev al-ver, yaxud razılaşma yolu ilə dövlət orqanlarında qeydə alınmadan, eləcə də din alimlərinin birinin vasitəsilə siğə inşa edilmədən adi əlyazma sənədi ilə ailə üzvləri arasında müamilə olunarsa, bu müamilə şəri və qanuni cəhətdən düzgündürmü?

Cavab: Müamilə şəri cəhətdən düzgün olan əsasda baş verərsə, onun düzgünlüyünə və lazımlığına hökm olunur, onun dövlət idarələrində rəsmi şəkildə qeydə alınmaması, əqdin oxunmaması onun düzgünlüyünə zərər yetirmir.

---

Sual: **1479**: Rəsmi sənədi olan bir mülkün adi sənədlə, dövlət orqanlarında müştərinin adına saldırmadan alqı-satqısı şərən caizdirmi?

Cavab: Al-ver əslinin gerçəkləşməsində rəsmi sənədin tənzim olunması və dövlət tərəfindən qeyd olunması şərt deyil, əksinə əsas meyar onun barəsində ümumiyyətlə sənəd tənzim olunmasa belə, malik, yaxud onun vəkili və ya onun vəlisi (qəyyumu) tərəfindən şərən düzgün olan şəkildə nəql və intiqalın baş verməsidir.

---

Sual: **1480**: Alıcı ilə satıcı arasında sadəcə olaraq adi sənədin tənzim olunması al-verin gerçəkləşməsi üçün kifayətdirmi və onun sənədi hesab olunurmu? Tərəflərin al-ver əqdini yerinə yetirməyə dair qərarları onun gerçəkləşməsinə və satıcının rəsmi sənəd tənzim edib satdığı şeyi təhvil verməsinə iltizamlı olmasına kifayətdirmi?

Cavab: Sadəcə al-ver qəsdi, yaxud onun barəsində adi sənədin tənzim edilməsi al-verin gerçəkləşməsinə və satılan şeyin müştərinin mülkiyyətinə keçməsinə kifayət deyil. Müamilə düzgün şəri şəkildə baş verməyincə müştərinin adına rəsmi sənədin tənzim edilməsi və malik tərəfindən malın təhvil verilməsi barədə istəyin lüzumu yoxdur.

---

Sual: **1481**: İki nəfər müamilə ilə əlaqədar danışıq aparıb razılığa gəlsələr, müştəri də müəyyən bir məbləği beh kimi satıcıya versə və onun barəsində yazılı bir sənəd də tənzim etsələr, həmçinin onda, onlardan biri müamiləni axıra çatdırmaqdan imtina edəcəyi təqdirdə müəyyən məbləğ pulu digərinə ödəyəcəyini şərt etsələr, bu sənəd təklikdə al-verin sənədi ünvanı hesab olunurmu? Yəni sadəcə olaraq iki tərəfin al-verin baş verməsinə dair iradə və razılıqları onun gerçəkləşməsinə

kifayətdirmi ki, əgər onlardan biri müamiləni axıra çatdırmaqdan imtina edərsə, digəri onu şərtə əməl etməyə məcbur etmə haqqına malik olsun?

Cavab: Sadəcə al-ver qəsdi, yaxud onun barəsində razılığa çatmaq, yaxud onun yerinə yetirilməsinə vədə vermək, hərçənd onun barəsində yazılı sənədlə olsa belə, al-ver hesab olunmur və onun gerçəkləşməsinə də kifayət deyil, şərt də əqd və müamilə ilə yanaşı olmazsa və ya əqd onun əsasında bağlanmazsa, heç bir təsiri yoxdur. Deməli, al-ver və malın bir şəxsdən digər şəxsə nəql olunması şəri cəhətdən düzgün şəkildə yerinə yetirilməyincə tərəflərdən heç birinin digərinə razılaşma və müamilənin yerinə yetirilməsinə vədə baxımından heç bir haqqı yoxdur.

## Alıcının və satıcının şərtləri

---

Sual: **1482**: Bir şəxs dövlət tərəfindən, yaxud hakimin hökmü ilə öz həyat sahəsini və evini satmağa məcbur edilsə, onun bu işə məcbur edildiyini bilən şəxs üçün onları alması caizdirmi?

Cavab: Əgər onu torpaq sahəsini və öz ləvazimatlarını satmağa vadar edilməsi haqq olsa və şərən belə bir haqqa malik olan şəxsin vasitəsilə baş verərsə, onların başqaları tərəfindən alınmasının eybi yoxdur. Bundan qeyri hallarda bununla şərtlənir ki, müamilədən sonra onun icazəsini versinlər.

---

Sual: **1483**: Bir şəxs öz mülkünü digər şəxsə satıb onun pulunu alır, alıcı da həmin mülkü üçüncü şəxsə satıb pulunu alır və pulu onun xərclərində istifadə edir, bundan sonra mülkü satmış ilk şəxsin malının müsadirə edilməsinə dair hökm çıxarılır. Bu hökm, hələ hökmçıxmazdan qabaq birinci şəxsin satdığı mülkə də aid olunurmu və onun satılmasının batil olmasını aşkar edirmi?

Cavab: Əgər satıcının, hakimin onun müamilə vaxtından mal-dövlətinin dondurulmasına dair verdiyi hökm əsasında bunları satmağa haqqı olmadığı, yaxud ixtiyar sahibi olmasına baxmayaraq satılan şeyin maliki olmaması, əksinə onun hakimin müsadirə etməyə haqlı olduğu şeylərdən olması sübuta yetərsə, al-verdən sonra gələn müsadirə hökmü satılan şeyə də şamil olur, hökm verilməzdən qabaq baş verən al-verin batil olmasına hökm olunur. Bundan qeyri hallarda hökm verilməzdən qabaq baş verən al-ver mal-dövlətin müsadirə olunmasına şamil olmur və onun düzgünlüyünə hökm olunur.

---

Sual: **1484**: Camaatın ictimai əlaqələrindəki mürəkkəbliklər, iqtisadi və ictimai çətinlikləri bəzən onları məcburi müamilələri yerinə yetirməyə vadar edir ki, bunlar da çox ziyanlı və ədalətsiz olur, yaxud ən azı camaatın nəzərində bəyənilməz hesab olunur. Məcburiyyət halı şəri cəhətdən müamilənin batil olmasına səbəb olurmu?

Cavab: Şəri nəzərdən məcburiyyət halı şəxsin razılığı ilə yanaşı olduğu halda satmaq, almaq və bu kimi şeylərdə müamilənin düzgün və qüvvədə olmasına zərər yetirmir. Lakin insani və əxlaqi yöndən qarşı tərəfə vacibdir ki, məcburiyyət və çıxılmaz hala düşən şəxs üçün irəli gələn şəraitdən sui-istifadə etməsin.

## Füzuli [5262] al-ver

---

Sual: **1485**: Mən əkin sahələrindən bir qismini qardaşımdan beyi-şərt kimi almışam. Lakin qardaşım onu yenədən başqa bir şəxsə satmışdır. İkinci müamilə düzgündürmü?

Cavab: Əgər birinci müamilə şəri cəhətdən düzgün olan tərzdə gerçəkləşmiş olsa, satıcının onu (birinci al-veri) pozmadan öncə digər şəxsə satmağa haqqı yoxdur. Əgər bu işi görərsə, ikinci al-ver füzuli sayılır və birinci müştərinin icazəsinə bağlıdır.

---

Sual: **1486**: Bir kooperativ şirkətin üzvləri məskunlaşmaq üçün bir qədər torpaq sahəsini almış və pulunu özləri ödəmişlər, lakin onun rəsmi sənədi şirkətin adına yazılmışdır. Son zamanlar torpaq sahəsinin alınması və pulunun ödənməsində heç bir

rolu olmayan şirkətin idarə heyəti şirkətin üzvlüyünə daxil olmuş və əvvəlki üzvlərin razılığı olmadan torpaq sahəsinin onun həqiqi dəyərindən aşağı qiymətə satmışdır. Bu al-ver caizdirmi?

Cavab: Əgər müəyyən şəxslər öz pulları ilə torpaq sahəsini özləri üçün almışlarsa, torpaq onların mülkiyyətidir və başqa şəxsin onda haqqı yoxdur. Şirkətin idarə heyətinin vasitəsilə onun, sahiblərinin icazəsi olmadan başqalarına satılması füzulidir, lakin əgər onu şirkətin hüquqi bir şəxsiyyət olan sərmayəsi ilə şirkətin özü üçün almış olsalar, kooperativ şirkətin sərmayəsindən hesab olunur və bu halda idarə heyətinin şirkətin qayda-qanunlarına uyğun olaraq onda təsərrüf etməsi caizdir.

---

Sual: **1487**: Bir nəfər səfərə gedərkən qardaşını özünün rəsmi vəkili seçmişdir ki, onun evini istədiyi hər kəsə, hətta özünə belə satsın. Lakin səfərdən qayıtdıqdan sonra evin satılması barəsində qərarlarından dönüb və qərarından dönməsini də şifahi şəkildə qardaşına çatdırır. Amma qardaşı qeyd olunan rəsmi vəkalətə istinad edərək pulunu müvəkkilə vermədən, evi də ondan təhvil almadan evi öz adına keçirmiş və onu öz adına sənədləşdirmişdir. Bu al-ver düzgündürmü?

Cavab: Əgər vəkilin öz işindən götürülməsindən hətta şifahi şəkildə belə xəbərdar olandan sonra evini özünə satmışsa, al-ver füzulidir və müvəkkilin icazəsinə bağlıdır.

---

Sual: **1488**: Əgər bir malik öz əmtəələrini bir şəxsə satsa, sonra birinci al-veri vəsf etmək haqqına malik olmadan yenidən onu digər bir şəxsə satsa, onun bu al-veri düzgündürmü? Əgər satılmış əmtəələr onun yanında mövcuddursa, ikinci müştəri ikinci al-verə istinad edərək onu tələb edə bilərmi?

Cavab: Əmtəələrin birinci al-veri tamam olduqdan sonra onu, birinci müştərinin icazəsi olmadan yenidən digər bir şəxsə satmaq füzulidir və onun icazəsinə bağlıdır. Əgər o, ikinci al-verə icazə verməsə, əmtəəni hər yerdə tapmış olsa, mənimsəməyə haqqı vardır, ikinci müştərinin də onu satıcıdan tələb etməyə haqqı yoxdur.

---

Sual: **1489**: Bir nəfər bir qədər torpaq sahəsini başqasının malı (pulu) ilə almışdır. Bu torpaq sahəsi onun mülkü hesab olunurmu, yoxsa sərmayə sahibinindir?

Cavab: Əgər torpaq sahəsini digər şəxsin malının eynilə almış olsa, malın sahibi müamiləyə icazə verdiyi təqdirdə al-ver onun tərəfindən gerçəkləşir, alıcının da onda heç bir haqqı yoxdur. Əgər icazə verməsə, al-ver batildir. Amma əgər torpaq sahəsini özü üçün və zimməsində alsa və sonra onun pulunu başqa şəxsin malından versə, bu halda torpaq onun öz şəxsi mülkü olacaqdır, lakin onun pulunu satıcıya borclu olur. Həmçinin bir kəs ki, onun pulunu satıcıya veribdir, onun malına zamindir, satıcıya da vacibdir ki, əvvəldə torpaq sahəsinin qiyməti ünvanı ilə aldıqlarını onun öz sahibinə qaytarsın.

---

Sual: **1490**: Əgər bir nəfər başqasının malını füzuli şəkildə satsa və onun pulunu alıb öz ehtiyaclarını təmin etmək üçün xərcləsə, sonra uzun müddət keçdikdən sonra onun əvəzini malın sahibinə vermək istəsə, malın satılmasından əldə etdiyi məbləği ona verməlidir, yoxsa o dövrdəki qiymətini və ya əvəzini ona verdiyi zamandakı qiymətini?

Cavab: Əgər malik al-verin özünə icazə verdikdən sonra pulun təhvil alınmasına da icazə versə, müştəridən qiymət adı ilə alınan məbləği malikə verməlidir. Əgər al-verin özünü rədd etsə, mümkün olan surətdə malikin malını özünə qaytarmalıdır. Mümkün olmayan halda isə onun əvəzini – istər misli olsun, istərsə də qiyməti – ona verməlidir. Əhvət budur ki, müamilə zamanı ilə onun qaytarıldığı zamandakı qiymətlər fərqində maliklə razılığa gəlsinlər.

## Təsərrüf (əmlakdan istifadə etmə) qəyyumları

---

Sual: **1491**: Əgər ata öz kiçik övladları üçün müəyyən əmlak alsa və al-verin şəri əqdini də oxusa, bu halda al-ver atanın onlar üzərində malik olduğu vilayət (böyüklük) hüququ əsasında təhvil alınma və təhvil verilmə ilə gerçəkləşirmi?

Cavab: Atanın tərəfindən onun kiçik övladları üçün edilən müamilənin düzgün tərzdə gerçəkləşməsindən sonra əmlakın atanın kiçik övladları üzərində olan vilayət adı ilə ələ alınması al-verin gerçəkləşməsi və onun əsərlərinin gəlməsində kifayətdir.

---

Sual: **1492**: Mənim qəyyumum uşaqlıq dövrümdə torpaq sahəmi satmış və beh adı ilə müəyyən bir məbləği müştəridən almışdır. Müamilənin onların arasında tamam olub-olmadığını bilmirəm, lakin torpaq sahəsi daimi olaraq müştərinin ixiyarındadır və ondan istifadə edir. Bu al-ver düzgün və mənim üçün nüfuzludurmu? Yoxsa özüm torpaq sahəsinin əsl sahibi kimi torpağı ondan geri ala bilərəm?

Cavab: Əgər sizin şəri qəyyumunuzun üzərinizdə olan vilayətə görə torpaq sahənizi satmış olduğu sübuta yetsə, şərən al-verin düzgünlüyünə hökm olunur və sizin hal-hazırda onun pozulması sübuta yetməyincə torpağı tələb etməyə haqqınız yoxdur.

---

Sual: **1493**: Əgər meyyitin mal-dövlətindən bir qədər nağd pul qalsa, qəyyum da onu öz ixtiyarında saxlayıb dövriyyəyə buraxmasa, malın, bankların verdiyi miqdar qazanc (məsələn 13 faiz), yoxsa camaat arasında və bazarda mövcud olan miqdar onun öhdəsinədir? Qeyd olunan mal ilə ticarət edib miqdarı müəyyən olunmayan qazanc əldə etsə hökm nədir?

Cavab: Qəyyum kiçik uşaqların malları üçün fərz olunan qazanclara zamin deyil. Lakin kiçiyin malı ilə ticarət etsə, əldə olunan bütün qazanclar uşağa aid olacaqdır. Qəyyumun şəri cəhətdən uşağın malı ilə ticarət etməyə icazəsi olduğu təqdirdə təkcə özünün gördüyü iş müqabilində (zəhmət haqqı olaraq) ücrətül-misal almağa haqqı var.

---

Sual: **1494**: Öz mallarında təsərrüf etməkdən məhrum edilməyən diri adamın kürəkəni, yaxud övladlarının onun mal və əmlakını vəkil olmadan, yaxud ondan icazə almadan satması caizdirmi?

Cavab: Başqasının mülkünü, sahibinin icazəsi olmadan satmaq, hərçənd onu satan mal sahibinin kürəkəni, yaxud övladı olsa belə füzulidir və onun icazə verməsindən asılıdır. Deməli, əgər mal sahibi icazə verməsə, al-verin nəticəsi olmaz, (yəni, al-ver batildir).

---

Sual: **1495**: Bir şəxs beynindən infarkt keçirib və hissiyyat orqanları öz funksiyasını itirmişdir. Bu halda övladları, onun mallarında necə təsərrüf edəcəkdir? Övladlardan birinin şəriət hakiminin və sair övladların icazəsi olmadan onda təsərrüf etməsinin hökmü nədir?

Cavab: Əgər hisslərinin qarışması, camaatın nəzərində dəli sayılacaq dərəcədə olsa, bu halda onun özünə və mallarına vilayət etmək şəriət hakiminin öhdəsindədir və şəriət hakiminin icazəsi olmadan onun mallarında təsərrüf etmək heç kəs, hətta öz övladları üçün belə, caiz deyil. Əgər şəriət hakiminin icazəsi olmadan biri təsərrüf etsə, qəsb və mala zamin olmağa səbəb olur. Bu halda onda edilən müamilə növlü təsərrüflər fuzuli və hakimin icazə verməsindən asılı olacaqdır.

---

Sual: **1496**: Şəhid olmuş bir adamın arvadı ilə evlənib onun yetim uşaqlarının tərbiyəsini öhdəsinə götürmüş şəxs üçün şəhid ailələri təşkilatının şəhid övladlarına verdiyi mallardan (pullardan) alınmış şeylərdən onun özü, şəhidin uşaqları və arvadı (şəhid uşaqlarının anası) üçün istifadə etməsi caizdirmi? Şəhid müəssisəsinin şəhid uşaqlarına verdiyi aylıq pul və yardım olaraq verdiyi mallar necə xərclənməlidir? Onları ayrılqda, dəqiq şəkildə və yalnız şəhid uşaqları üçün xərcələmək lazımdırmı?

Cavab: Şəhidin kiçik uşaqlarına məxsus olan mallarda təsərrüf etmək – istər onların özləri üçün xərclənsin, istərsə də başqaları üçün – hərçənd şəhidin uşaqlarının məsləhətinə olsa belə gərək uşaqların şəri qəyyumunun icazəsi ilə olsun.

---

Sual: **1497**: Şəhid dostlarının onun ailəsinə baş çəkməyə gələndə hədiyyə kimi gətirdikləri şeylərin hökmü nədir? Bu şeylər şəhidin kiçik uşaqlarının mallarının bir hissəsi sayılırmı?

Cavab: Əgər hədiyyələr şəhidin uşaqları üçün olsa, onda onların şəri qəyyumunun qəbul etməsi ilə onların mallarının bir hissəsi olur. Bu halda başqalarının onlarda təsərrüf etməsi onların şəri qəyyumunun icazəsindən asılıdır.

---

Sual: **1498**: Atamın bir ticarət yeri var idi, vəfatından sonra əmilərim onu idarə edir və hər ay icarə haqqı kimi müəyyən miqdarda pulu bizə verirdilər. Bir müddətdən sonra bizə qəyyum olan, başçılıq edən anam əmilərimin birindən bir qədər pul borc aldı. Buna görə də əmilərim onlardan aldığımız borcu, bizə verdikləri aylıq icarə pulundan çıxaraq icarəni kəsdilər. Sonra onlar kiçik uşaqların mallarını həddi-büluğa çatana qədər qoruyub saxlamaqla əlaqədar mövcud qanunun əksinə olaraq ticarət yerini anamdan satın aldılar. Bu müamilə inqilabdan qabaqkı hakimiyyət dövründə o hakimiyyətə tabe olan bəzi adamların vasitəsilə rəsmi şəkildə tamamlanıb başa çatdırıldı. İndi bizim vəzifəmiz nədir? O təsərrüflərin və al-verin düzgün olmasına hökm olunur, yoxsa bizim şəri cəhətdən müamiləni pozmağa haqqımız vardır? Kiçik uşağın haqqı zamanın keçməsi ilə aradan gedirmi?

Cavab: Yeri icarə verməyin, borcu almaq üçün icarə pulunu kəsməyin və həmçinin ticarət yerinin satılmasının düzgün olmasına hökm olunur. Amma əgər şəri və qanuni yolla kiçik uşaqların hissələrinin o vaxt satılmasının onların məsləhətinə olmadığı, yaxud uşaqların qəyyumunun onu satmağa icazəli olmadığı və uşaqların da həddi-büluğa çatandan sonra o müamiləyə icazə vermədikləri sübuta yetərsə (batil olmasına hökm olunur). Müamilənin batil olması isbat olunan təqdirdə zamanın keçməsi kiçik uşaqların haqqını aradan aparmır.

---

Sual: **1499**: Ərim yol qəzası nəticəsində həlak olmuşdur. Maşının sürücüsü onun dostlarından biri idi. Mən də iki azyaşlı uşağımın şəri və qanuni qəyyumu olmuşam. Bu barədə bir neçə Sualım var:

Birincisi: Sürücüdən diyəni verməyi, yaxud sığorta haqqını düzəltməsini tələb etməliyəmmi?

İkincisi: Uşaqlara məxsus olan maldan onların atası üçün yas mərasimi təşkil etmək üçün işlətməyim caizdirmi?

Üçüncüsü: Azyaşlı uşaqların diyə barəsində olan haqlarından güzəştə getmək mənim üçün caizdirmi?

Dördüncüsü: Əgər uşaqların haqqından güzəştə getsəm, onlar həddi-büluğa çatandan sonra buna razı olmadıqları halda mən diyəyə zaminəmmi?

Cavab: 1. Əgər sürücü, yaxud ondan başqası şəri cəhətdən diyə verməyə zamin olsa, bu halda azyaşlı uşaqların haqqını, onlara olan vilayət səbəbilə kimin boynundadırsa, ondan tələb etməklə onların şəri haqlarını hifz edib saxlamaq sənə vacibdir. Həmçinin əgər uşaqların qanuna görə sığorta haqqı olsa, yenə də həmin vəzifəniz vardır.

2. Azyaşlı uşaqların mallarını, hərçənd atalarından onlara çatmış irs olsa belə, atalarının yas məclislərinin xərclərində işlətmək caiz deyil.

3 - 4. Sənin uşaqların diyəyə olan haqlarından keçməyə – bu, onların məsləhətinə ziddir – haqqın yoxdur. Buna görə də həddi-büluğa çatandan sonra diyəni tələb edə bilərlər.

---

Sual: **1500**: Ərim vəfat edib və bir neçə uşağımız qalıb. Məhkəmənin hökmünə əsasən onların ata tərəfindən olan babası onların hamısına qəyyum olubdur. Əgər uşaqlardan biri həddi-büluğa çatsa, özünün digər qardaşlarına qəyyum ola bilərmi? Əgər onun belə haqqı olmasa, bu halda mənim uşaqlara qəyyum olmağa haqqım varmı? Uşaqların babası da məhkəmə hökmünə istinad edərək meyyitin mallarının altıda birini özünə götürmək istəyir. Bu məsələnin hökmü nədir?

Cavab: Yetim uşaqlar həddi-büluğa, kamala çatana qədər onlara qəyyumluq və vəli olmaq babalarının öhdəsindədir, məhkəmənin də bunu təyin etməsinə ehtiyac yoxdur. Lakin onun kiçik uşaqların mallarında etdiyi təsərrüflər gərək onların məsləhətinə, mənafeyinə uyğun ola. Əgər o, kiçik uşaqların məsləhətinin əksinə olan bir iş görsə, onların bu işi yoxlamaq və araşdırmaq üçün məhkəməyə müraciət etməyə haqqları vardır. Uşaqlardan hər biri həddi-büluğa və kamal həddinə çatsa, bu halda babasının vilayətindən, qəyyumluğundan çıxıb öz işlərində ixtiyar sahibi olur. Lakin nə onun, nə də anasının digər

uşaqlara vəli və qəyyum olmağa haqları yoxdur. Baba özünün vəfat etmiş övladının (uşaqların atasının) malının altıda birini irs apardığına görə, onun meyyitin mallarının altıda birini özünə götürməsinin eybi yoxdur.

---

Sual: **1501**: Atası, anası, əri və üç kiçik uşağı olan bir qadın öldürülüb. Məhkəmə bu işdə onun qaynını müttəhim bilərək diyəsini qan sahiblərinə verməyi tələb edir. Lakin kiçik uşaqların şəri qəyyumu olan ata öz qardaşını arvadının qatili hesab etmir. Buna görə də qardaşından uşaqları və özü üçün diyə almaqdan imtina edib. Bu iş onun üçün caizdirmi? Həmçinin kiçik uşaqların ataları və ata (tərəfdən) babaları ola-ola, başqa bir adamın hər hansı bir ünvanla bu məsələyə dəxalət etməyə, öldürülmüş qadının uşaqları üçün əmilərindən diyə almağa israr etməyə haqqı varmı?

Cavab: 1. Əgər kiçik uşaqların atasının, onun arvadını öldürməkdə müttəhim edilən qardaşının həqiqətdə onu öldürmədiyinə və diyəni verməyə borclu olmadığına yəqini olsa, bu halda ondan diyə alması və uşaqların haqqını almaq adı ilə onu qardaşından tələb etməsi caiz deyil.

2. Kiçik uşaqlara vilayət və qəyyumluq haqqı olan ata və ata (tərəfdən) babası olan halda başqa adamın uşaqların işlərinə dəxalət etməyə haqqı yoxdur.

---

Sual: **1502**: Əgər öldürülmüş adamın təkcə kiçik uşaqları olsa və onlara qəyyum kimi təyin edilən şəxs qan sahiblərindən olmasa, bu halda onun öldürəni bağışlaması, yaxud qisası diyəyə çevirməsi caizdirmi?

Cavab: Əgər şəri vəlinin ixtiyarları kiçik uşaqlar üçün təyin olunan qəyyuma həvalə edilmiş olsa, onların məsləhət və mənafeyinə riayət etməklə qatili bağışlamaq, yaxud qisası diyəyə çevirmək kimi işləri görə bilər.

---

Sual: **1503**: Bir kiçik uşağın bankda müəyyən məbləğdə pulu var. Uşağın qəyyumu onun məişət və yaşayış xərclərini təmin etmək üçün o puldan götürüb onunla uşaq üçün ticarət etmək istəyir. Bu iş caizdirmi?

Cavab: Kiçik uşağın vəli və qəyyumuna caizidir ki, uşağın məsləhət və mənafeyinə riayət etməklə onun pulu ilə və onun üçün müzaribə adı ilə işləsin, yaxud başqa adamın o pulla uşaq üçün müzaribə etməsi üçün pulu ona versin, bu şərtlə ki, iş görən adam (amil) etimadlı, əmanətdar adam olsun. Əks halda uşağın malına zamindirlər.

---

Sual: **1504**: Əgər qan sahiblərinin hamısı, yaxud bəzisi kiçik olsalar və haqlarını tələb etməkdə onlara qəyyumluq haqqı hakimlə olsa, hakim cinayətkarın imkansız (yoxsul) olmasını aşkar etdiyi halda qisası diyəyə çevirməklə qatili əfv edə bilərmi?

Cavab: Şəriət hakimi uşaqların məsləhət və mənafeyini qisası diyəyə çevirməkdə görsə, qisas haqqını diyəyə çevirməsi caizdir.

---

Sual: **1505**: Hakimin, uşağın qeyri-ixtiyari qəyyumunun uşağın mallarına zərər yetirməsi məlum olandan sonra onu bu işdən kənarlaşdırması caizdirmi?

Cavab: Əgər hakim üçün, hərçənd mövcud əlamət və şahidlər yolu ilə belə, uşağın qeyri-ixtiyari qəyyumunun vilayətinin və onun uşağın mallarında etdiyi təsərrüflərin davam etməsi uşağın zərərinə olması məlum olsa, bu halda onu kənara qoymaq hakim üçün vacibdir.

---

Sual: **1506**: Qəyyumun kiçik uşağın xeyrinə olan əvəzsiz hibəni (əvəz istəmədən başqasına verilən mal), sülhü (razılaşma yolu ilə verilən şeyi) və başqa şeyləri qəbul etməkdən imtina etməsi uşağa zərər vurmaq, yaxud onun məsləhətinə riayət etməmək sayılırmı?

Cavab: Sadəcə olaraq uşaq üçün əvəzsiz hibəni, yaxud sülhü qəbul etməkdən imtina etmək ona zərər vurmaq və ya onun məsləhətinə riayət etməmək hesab olunmur. Buna görə də onun öz-özlüyündə eybi yoxdur, çünki uşaq üçün mal əldə etmək qəyyuma vacib deyil. Hətta qəyyumun nəzərində bəzi hallarda qəbul etməkdən imtina etməsinin uşağın məsləhətinə olması mümkündür.

---

Sual: **1507**: Əgər dövlət torpaq sahəsi, yaxud müəyyən mallarını şəhidlərin uşaqlarına ayırsa və bunları onların adlarına yazdırmaq barədə qərar çıxarsa, lakin uşaqların qəyyumu onların sənədləri imzalamasa, bu halda hakim uşaqlara olan vilayəti üzündən bu işi görə bilərmi?

Cavab: Əgər uşaqlar üçün mal əldə etmək qəyyumun imzasından asılı olsa, bu işi görmək onun üçün vacib deyil. Kiçik uşaqların şəri qəyyumu olan halda hakimin onlara vilayəti yoxdur. Amma uşaqlara məxsus olan malların qorunması qəyyumun imzasından asılı olsa, bu halda qəyyumun ondan imtina etməyə haqqı yoxdur. Əgər imtina edərsə, hakim onu imzalamağa məcbur etməli, yaxud uşaqlara olan vilayət üzündən özü bu işi görməlidir.

---

Sual: **1508**: Uşağa qəyyum olmaqda ədalət (adil olmaq) şərtdirmi? Əgər uşağın qəyyumu fasiq (günahkar) olsa və uşağın özünün fəsada (əxlaqsızlığa) düşməsi, yaxud mallarının aradan getməsi qorxusu olsa, bu halda hakimin vəzifəsi nədir?

Cavab: Atanın və ata (tərəfdən olan) babanın uşağa olan vilayətində ədalət şərt deyil. Lakin hərçənd mövcud şahid və vəziyyətlərlə belə, atanın və ata (tərəfdən olan) babanın uşağa zərər vuracağı hakim üçün sübuta yetsə, gərək onları bu işdən kənarlaşdırsın və onları uşağın mallarında təsərrüf etməkdən çəkindirsin.

---

Sual: **1509**: Əgər qəsdən olan qətldə öldürülənin vəlilərinin hamısı kiçik, yaxud dəli olarsa, qeyri-ixtiyari vəlinin (atası, yaxud ata tərəfdən olan babası), yaxud məhkəmə tərəfindən təyin olunan qəyyumun qisas almağa, yaxud diyəni tələb etməyə haqqı varmı?

Cavab: Kiçik və dəlilərin vəlilərinin qəyyumluğuna dəlalət edən dəlillərdən belə məlum olur ki, müqəddəs şəriət sahibi tərəfindən onlar üçün vilayət haqqının qərar verilməsinin səbəbi vəli təyin olunanların məsləhətinə riayət edilməsidir. Deməli, qeyd olunan məsələdə onların şəri vəliləri hər hansı bir işi onların mənafe və məsləhətinə riayət etməklə görməlidir. Onun qisas, yaxud əvəzli və ya əvəzsiz əfvi seçməsi nüfuzludur. Aydındır ki, dəlinin və uşağın məsləhətinin ayırd edilməsinin bütün yönləri, o cümlədən onların həddi-büluğa çatma vaxtlarının yaxın və ya uzaq olmasını mülahizə edib nəzərə almaqla olmalıdır.

---

Sual: **1510**: Kamil (baliğ, aqil) bir şəxsə qarşı cinayət olunsa, atanın, yaxud (ata tərəfindən olan) babanın, ona qarşı cinayət olunmuş şəxsin icazəsi olmadan onun üçün diyəni tələb etməyə və almağa haqları varmı? Yəni ata, yaxud baba diyəni tələb edən vaxt, cinayət etmiş adamın onun haqqında cinayət olunmuş şəxsə verməsi vacibdirmi?

Cavab: Onların, haqqında cinayət olunmuş baliğ və aqil şəxsə heç bir vilayətləri yoxdur. Buna görə də onun icazəsi olmadan haqqını tələb etməyə haqları yoxdur.

---

Sual: **1511**: Kiçik uşaqların qəyyumlarına, onlara olan vilayət səbəbilə irs qoyub getmiş adamın malın üçdə birindən artıq miqdarda etdiyi vəsiyyətə icazə vermək caizdirmi?

Cavab: Şəri vəli uşaqların məsləhət və mənafeyinə riayət etməklə icazə verə bilər.

---

Sual: **1512**: Atanın uşaq üzərindəki haqqı ananın haqqından çoxdurmu və o, bu barədə bəzi üstünlüklərə daha artıq malikdirmi? Əgər ata, yaxud ata (tərəfdən olan) babasının üstünlüyü yoxdursa, əksinə, ata və ananın hər biri bərabər şəkildə haqqa malikdirsə, bu halda ixtilaf yaranan zaman atanın sözü üstündür, yoxsa ananın?

Cavab: Hüquqların müxətlif olmasına görə bunun cavabı da müxtəlif olacaqdır. Kiçik uşağa olan vilayət haqqı ata, yaxud ata (tərəfdən olan) babanın əlindədir. Oğlan uşağını iki ilə qədər, qız uşağını isə yeddi ilə qədər böyüdüb tərbiyə etmək haqqı ana, bu vaxtdan sonra isə atanın ixtiyarındadır. Övlad tərəfindən valideynə itaət etmək, onlara əzab-əziyyət verməmək haqqı həm ana, həm də ata üçün bərabərdir. Övlad ananın vəziyyətini daha çox nəzərə almalıdır. Çünki hədislərdə deyilir: “Cənnət anaların ayaqları altındadır.”

---

Sual: **1513**: Ərim şəhid olub və ondan iki uşağım var. Ərimin qardaşı və anası bu iki uşağı onların həyat və məişəti üçün lazım olan başqa şeyləri, onların malik olduğu bütün vəsaitlərlə birlikdə götürmüşlər və onları mənə vermirlər. Bunu da nəzərə alaq ki, mən uşaqlara görə yenidən ərə getməmişəm və heç vaxt getməyəcəyəm də. Uşaqlara və onların mallarına nəzarət etmək kimin haqqıdır?

Cavab: Şəri təklif (həddi-büluğ) yaşına çatana qədər yetim uşaqları böyüdüb saxlamaq və tərbiyə etmək onların anasının haqqıdır. Lakin onların mallarına olan vilayət şəri qəyyumun, qəyyum olmadıqda isə şəriət hakiminin öhdəsinədir. Uşaqların əmisinin və nənəsinin (şərən) nə onları böyüdüb tərbiyə etməyə, nə də onların özlərinə və mallarına vilayət haqqı yoxdur.

---

Sual: **1514**: Kiçik uşaqların qəyyumlarının bəzisi ölən adamın arvadı ərə getdikdən sonra arvadı və onun böyüdüb tərbiyə etdiyi uşaqları atalarından qalmış mallardan onlara düşən ev və onlara lazım olan başqa şeylərdən istifadə etməyə qoymurlar. Uşaqların payına düşən hissəni onları böyüdüb tərbiyə edən analarına verməyə məcbur etmək üçün şəri bir əsas varmı?

Cavab: Kiçik uşaqların şəri qəyyumunun gördüyü tədbirlər onların mənafe və məsləhətini nəzərə almaqla baş verməlidir. Məsləhətin ayırd edilməsi də onun haqqıdır. Əgər məsləhətin əksinə əməl edərsə və ixtilaf yaranmasına səbəb olarsa, şəriət haikiminə müraciət edilməlidir.

---

Sual: **1515**: Kiçik uşaqların qəyyumunun, uşaqların mənafeyinin qorunması şərtilə onların malları ilə ticarət etməsi düzgündürmü?

Cavab: Kiçiklərin məsləhət və mənafeyinə riayət etməklə eybi yoxdur.

---

Sual: **1516**: Kiçik uşaqların babası, əmisi, dayısı və anası sağ olsalar, onlara olan vilayət və qəyyumluq haqqı kimindir?

Cavab: Yetim və uşağın özünə və mallarına olan şəri vilayət ata tərəfdən olan babasının haqqıdır. Onu böyüdüb tərbiyə etmək də təkcə anasının haqqıdır. Əmisinin və dayısının vilayət və böyüdüb tərbiyə etməklə əlaqədar heç bir haqqı yoxdur.

---

Sual: **1517**: Ali məhkəmənin icazəsi ilə yetimlərin mallarını, onları böyüdüb tərbiyə etməyi qəbul etməsinin müqabilində analarının ixtiyarında qoymaq caizdirmi? Belə ki, onların ata tərəfdən olan babasının işi təkcə nəzarət etmək olsun və uşaqların işinə birbaşa dəxalət etməyə haqqı olmasın.

Cavab: Uşaqların şəri qəyyumu olan ata babasının razılığı olmasa, bu iş caiz deyil. Amma əgər yetim uşaqların mallarının onların babalarının ixtiyarında qalması onlara zərər dəyməsinə səbəb olsa, bu halda hakim onun qarşısını almalı, onların mallarına olan vilayəti bu işə səlahiyyətli bildiyi adama – istər uşaqların anası olsun, istərsə də başqası – həvalə etməlidir.

---

Sual: **1518**: Uşağın qəyyumunun uşağın haqqı olan diyəni öhdəsində diyə vermək olan adamdan alması vacibdirmi? Uşağın məsləhətinə olan halda onun üçün, diyədən uşağın payına düşən hissədən qazanc əldə etmək – əmanət bankına qoymaqla olsa belə, vacibdirmi?

Cavab: Cinayətin diyəyə səbəb olduğu halda, uşağın qəyyumunun onu cinayət edəndən tələb edib alması və uşaq həddi-büluğa, kamala çatana qədər diyəni onun üçün hifz edib saxlaması vacibdir. Lakin onunla uşaq üçün ticarət etməyə, qazanc götürməyə məcbur deyil. Əgər uşağın məsləhətinə olsa, onda bu işi görməyin eybi yoxdur.

---

Sual: **1519**: Əgər şirkətin üzvlərindən kiçik uşaqları olan bir nəfər ölsə və onun vərəsəsi özlərinin şirkətin mallarından olan payları ilə başqa üzvlərlə şərik olsalar, bu halda şirkətin sair üzvlərinin şirkətin mallarında təsərrüf etməklə əlaqədar vəzifəsi nədir?

Cavab: Uşaqların payları ilə əlaqədar onların şəri qəyyumlarına, yaxud şəriət hakiminə müraciət etmələri vacibdir.

---

Sual: **1520**: Yetim uşaqların ata tərəfdən olan babasının onların özlərinə və mallarına olan vilayətinin tələbinə əsasən meyyitin əmlakından (mirasından) onlara irs vasitəsilələ çatmış malların qorunub saxlanmaq üçün ata tərəfdən olan babasına verilməsi vacibdirmi? Vacib olan surətdə, uşaqlar anaları ilə birlikdə harada qalmalıdırlar? Hansı yerdən çörək (ruzi) yesinlər? Bunu da nəzərə alaq ki, onlar ya təhsil alırlar, yaxud hələ kiçikdirlər, anaları da evdar qadındır. Onların ruziləri hansı yerdən təmin olunmalıdır?

Cavab: Kiçik uşaqlara olan vilayətin mənası onların mallarının alınıb qəyyuma verilməsi və həddi-büluğa çatana qədər onlardan istifadə etməkdən məhrum olmaları demək deyil. Əksinə, onun mənası qəyyumun onlara və mallarına nəzarət etməsinin vacibliyi, uşaqların mallarını qorumaqla əlaqədar məsul olması və onların mallarında edilən təsərrüflərin də onun icazəsi ilə olmasıdır. Vəliyə də onların öz mallarından və ehtiyacları olan miqdarda xərclik verməK vacibdir. Əgər o mallardan istifadə etmək üçün onları ananın və uşaqların ixtiyarına verməyi məsləhət bilsə, bu işi görə bilər.

---

Sual: **1521**: Atanın öz baliğ, aqil və ondan ayrı yaşayan (müstəqil olan) övladının mallarından hansı həddə qədər təsərrüf etməsi caizdir və əgər onlarda haqqı olmayan şəkildə təsərrüf etsə, buna zamindirmi?

Cavab: Atanın öz baliğ, aqil övladının malında təsərrüf etməsi, övladın icazəsi, razılığı olan hallar istisna olmaqla heç bir halda caiz deyil. Əgər onun razılığı olmadan təsərrüf etsə, haram iş görübdür və ona zamindir. Əlbəttə istisna olunan hallardan başqa.

---

Sual: **1522**: Yetim qardaşlarını öz öhdəsinə götürmüş və yanında onların pulu olan möminlərdən biri bu pulla onlar üçün sənədsiz olaraq torpaq sahəsi alıbdır, bu məqsədlə (sənədsiz alıb) ki, gələcəkdə onun sənədini alacaq, yaxud sonralar torpaq sahəsini onlar üçün aldığı qiymətdən baha qiymətə satacaq. Lakin hal-hazırda kiminsə o torpaq sahəsinin öz mülkü olmasını iddia edəcəyindən, yaxud onu təsərrüf edəcəyindən qorxur. Amma əgər onu indi satsa, hətta aldığı qiyməti belə əlinə gəlməyəcəkdir. Əgər onu, aldığı qiymətdən aşağı qiymətə satsa, yaxud biri onu qəsb etsə, yetimlərin pullarına zamindirmi?

Cavab: Əgər yetim uşaqların şəri qəyyumu olsa və onların məsləhətini, xeyrini nəzərə almaqla torpaq sahəsini alsa, bu halda öhdəsində heç nə yoxdur. Əks halda müamilə füzulidir və onların şəri qəyyumlarının və ya həddi-büluğa çatandan sonra onların özlərinin icazəsinə bağlıdır, o da yetimlərin malına zamindir.

---

Sual: **1523**: Atanın uşağın malından özü üçün, yaxud başqası üçün borc götürməsi caizdirmi?

Cavab: Əgər onun mənafe və məsləhətinə riayət etməklə olsa, eybi yoxdur.

---

Sual: **1524**: Əgər uşağa paltar, yaxud oyuncaq kimi başqa şeylər hədiyyə verilsə və sonralar böyüdüyünə görə, yaxud başqa səbəbdən istifadəyə yararlı olmasa, bu halda onun qəyyumunun onları sədəqə verməsi caizdirmi?

Cavab: Uşağın qəyyumu üçün onun məsləhət və mənafeyinə riayət etməklə məsləhət bildiyi kimi onlarda təsərrüf etməsi caizdir.

---

Sual: **1525**: İnsanın bədən üzvlərindən bəzilərini (məsələn böyrəyini) ona ehtiyacı olan adama satması caizdirmi?

Cavab: Əgər o üzv bədəndən götürüldükdə onun sahibinin həyatı üçün təhlükəli və etina olunacaq zərərə səbəb olmasa, eybi yoxdur.

---

Sual: **1526**: Camaatın çoxunun nəzərində faydası və əhəmiyyəti olmayan, lakin xüsusi bir qrup üçün dəyər və əhəmiyyəti olan şeylərin, məsələn həşəratların, arıların və laboratoriyalarda, universitetlərdə təhqiqat əhəmiyyətli olan başqa şeylərin maliyyəti varmı? Onlarda maliyyəti olan şeylərin hökmləri, o cümlədən mülkiyyət, alıb-satmağın caiz olması, tələf etdikdə zamin olmaq kimi başqa hökmlər icra olunurmu?

Cavab: Hər bir şey, aqillərin, hətta onların müəyyən bir dəstəsinin belə, onun halal mənfəətlərinə görə ona rəğbət göstərmələrinə səbəb olsa maliyyəti vardır və şəri nəzərdən əsərinin olmamasına dəlil olan hökm və əsərlərdən başqa maliyyəti olan şeylərin hökm və əsərlərinin hamısı, məsələn mülkiyyət, satıb-almağın caiz olması, ələ keçirməklə, yaxud tələf etməklə və ya başqa səbəblərlə zamin olmaq və başqa hökmlər o şey üçün də olacaqdır. Hərçənd əhvət budur ki, arı və həşərat kimi şeylərin mübadiləsində pul ixtisas haqqının və bu şeylərdən əl götürməyin müqabilində verilsin.

---

Sual: **1527**: Fəqihlərdən bir çoxunun da inandığı kimi, satılan malın zahirdə mövcud olan bir şey olması şərt olunduğu halda, texnoloji elmləri müasir dövrdə mübadilə ilə əlaqədar dövlətlər arasında bağlanan adi müqavilələrdə olduğu kimi satmaq düzgündürmü?

Cavab: Onları razılaşma yolu ilə mübadilə etməyin eybi yoxdur.

---

Sual: **1528**: Bir torpaq sahəsini, yaxud başqa bir şeyi oğurluqda məşhur olan və aldığı mal müqabilində satıcıya verəcəyi malın (pulun) oğurluq maldan olması ehtimal verilən bir adama satmağın hökmü nədir?

Cavab: Haram yolla mal kəsb etməkdə məşhur olan admala, qeyd olunan ehtimalı verməklə müamilə etməyin şəri cəhətdən eybi yoxdur. Lakin əgər onun verdiyi malın (pulun) haram maldan olmasına yəqin olsa bu halda onu almaq caiz deyil.

---

Sual: **1529**: Mənim üçün mehriyyə təyin olunmuş bir əkin sahəm var idi. Son vaxtlar onu satmışam, lakin bir kişi iddia edir ki, bu yer 200 ildən çoxdur ki, vəqfdir. Onu satmaqla əlaqədar mənim vəzifəm nədir? Bu yeri mehriyyə adı ilə mənə verən ərimin vəzifəsi nədir? Onu məndən alan müştərinin vəzifəsi nədir?

Cavab: Bu torpaq sahəsi üzərində olunmuş müamilələrin hamısının düzgün olmasına hökm olunur. Amma əgər o yerin vəqf olunmasını iddia edən şəxs şəri məhkəmədə öz iddiasını isbat etsə, həmçinin bu vəqfin satılması düzgün olmayan vəqflərdən olması sübut olunsa və bu iki müddəanın isbat olunduğu fərz olunan surətdə, o yer üzərində baş verən müamilələrin hamısının batil olmasına hökm olunur. Bu halda siz pulu müştəriyə qaytarmalısınız, o yer də vəqfliyə qaytarılmalıdır, əriniz də mehriyyəyə zamindir.

---

Sual: **1530**: Fars körfəzindəki dövlətlərlə qonşu olan İran adalarından bu ölkələrə qoyun və mal-qara ixracatı çoxalmışdır. Tacirlərin nəzərində məlum məsələdir ki, onları İslam Respublikasından başqa yerlərə ixrac etmək qadağandır və onlar qeyri-qanuni şəkildə qaçaq olunur. Bu halda onları bu dövlətlərin bazarlarından almaq caizdirmi?

Cavab: Qoyun və başqa mal-qaranı qeyri-qanuni yollarla və İslam dövlətinin qayda-qanunlarının əksinə olaraq ölkədən xaricə çıxarıb aparmaq şəri cəhətdən qadağandır.

Sual: **1531**: Atam özünün suvarma haqqından bir saatını və ona tabe olan əkin yerlərini, onu torpaq sahəsini satmağa iltizamlı edən əkinçilik islahatı qanununa uyğun olaraq satmışdır, lakin bunun müqabilində müştərinin də etiraf etdiyi kimi, heç bir şey (pul) almamışdır. Atamdan da onun pulunu (müştəriyə) bağışlamasına dəlalət edən bir söz eşidilməyib. Bizim müştəridən pulu tələb etməyimiz caizdirmi?

Cavab: Ümumiyyətlə, suvarma haqqı və ona tabe olan əkin yerləri şəri cəhətdən satanın mülkiyyəti olsa, onun özünün, həmçinin o vəfat edəndən sonra vərəsəsinin müştəridən satılmış şeyin pulunu tələb etməyə haqları vardır. Lakin "torpaq islahatları" ərazilərinin işini İslami Şura Məclisinin və dövlətin mənafeyini ayırd edən təşkilatın qanunlarına tabedir.

---

Sual: **1532**: Bir ticarət yerindən mal gətirmək, yaxud satmaq icazəsi almış adam üçün heç bir iş görmədən onu azad bazarda başqa bir adama satması caizdirmi?

Cavab: İslam dövlətinin qanunlarına müxalif olmadıqda bu işin öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1533**: Vətəndaşların dövlətdən aldıqları ticarət lisenziyasını satmaq, yaxud icarə vermək caizdirmi?

Cavab: İş görmə lisenziyasından istifadə etmək haqqını başqasına pulsuz, yaxud müəyyən bir şey əvəzində (pulla) vermək İslam Respublikası qanunlarına tabedir.

---

Sual: **1534**: Qanunun tələbinə əsasən açıq şəkildə hərraca qoyulmaqla satılmalı olan mal əgər satılmaq üçün hərraca qoyulsa, bu halda onu mütəxəssis bir adamın təyin etdiyi qiymətdən aşağı qiymətə satmaq – əgər malı, onun təyin etdiyi qiymətə almaq istəyən tapılmasa – caizdirmi?

Cavab: Mütəxəssisin tərəfindən təyin edilən qiymət hərracda olan satışda əsas götürülür. Buna görə də əgər mal, qanuni və şəri cəhətdən düzgün olan şəkildə hərraca qoyularaq satılsa, bu halda onu müştərinin hərraca qoyduğu ən yuxarı qiymətə satmağın səhih olmasına hökm olunur.

---

Sual: **1535**: Sahibi məlum olmayan bir yerdə yaşayış mənzili tikmişik. Müştərinin razı olmasını, yer yiyəsinin naməlum olmasını, satanın da təkcə binaya malik olduğunu bilməklə binanı onun yeri ilə birlikdə satmaq bizim üçün caizdirmi?

Cavab: Əgər maliki məchul olan yerdə bina tikmək şəriət hakiminin icazəsi ilə olsa, bu halda binanın maliki təkcə binanı sata bilər, amma yerini satmağa haqqı yoxdur.

---

Sual: **1536**: Evimi bir kişiyə satdım. O da pulun bir hissəsinin əvəzi olaraq mənə müəyyən bir məbləğdə qəbz verdi. Lakin onun bankdakı hesabında qəbzi nağd pula çevirmək üçün pul olmadığına görə onu pula çevirməkdən imtina edir. Zamanın keçməsi ilə evin qiymətinin bahalaşdığını, infilyasiya faizinin artmasını, eləcə də qəbzdəki məbləği almaq üçün müştərinin məhkəməyə verilməsi ilə əlaqədar qanuni mərhələləri keçməyin və onun məhkum edilməsinin çox vaxt tutacağını nəzərə almaqla mənim təkcə bu qəbzin məbləğini almağa haqqım var, yoxsa məbləği alan vaxt pulun dəyərində yaranan fərqi müştəridən tələb etməyim də caizdir?

Cavab: Satıcının malın al-verdə təyin olunmuş qiymətindən artıq pul tələb etməyə haqqı yoxdur. Lakin müştərinin pulu ona təhvil verməkdə yol verdiyi təqsir və səhlənkarlıq üzündən müştərinin alıcılıq qüdrəti və pulun dəyərinin aşağı düşməsi nəticəsində zərər görərsə, bu halda fərqlənən miqdarda müştəri ilə razılığa gəlmək əhvətdir.

---

Sual: **1537**: Mən yaşayış binasını bir nəfərdən bu şərtlə aldım ki, təyin olunmuş bir müddətdən sonra onu mənə təhvil versin. Əqd oxuyan vaxt qiymətin 15 faiz yuxarı qalxmasının mümkünlüyü haqqında razılığa gəldik. Lakin satıcı indi birtərəfli olaraq qiyməti 31 faizə qədər qaldırıb və bildirib ki, evi təhvil verilməsi 31 faizi təhvil verməklə şərtlənmişdir. Onun bu işi caizdirmi?

Cavab: Əgər əqdi icra edən (oxuyan) vaxt qəti və yekun qiymət müəyyən olunmasa, yaxud qiymətin təyin olunması təhvil verilən vaxtdakı qiymətini mülahizə etməyə həvalə edilsə, bu halda al-ver batildir və satıcı al-verdən imtina edib təkcə öz istədiyi qiyməti təyin edə bilər. Satıcı və müştərinin sonradan satılan malı, təhvil verilən vaxtdakı qiymətini mülahizə etməklə qəti qiyməti təyin etmək barədə razılığa gəlmələri təklikdə al-verin düzgün olması üçün kifayət deyil.

---

Sual: **1538**: Mən plastik hazırlayan zavodunun müşa şəkildə olan beşdə bir hissəsini müəyyən bir qiymətə aldım. Qiymətin dörddə birini nağd, dörddə üçünü isə hər biri qiymətin dörddə biri məbləğində olan üç qəbz şəklində satıcıya verdim. Lakin zavod, nağd pul və qəbzlərin hamısı satanın əlindədir. Bu al-ver şəri cəhətdən gerçəkləşirmi və mənim satılan malın qazanclarından öz payımı satıcıdan tələb etməyə haqqım varmı?

Cavab: Alqı-satqının düzgün olmasında malı təhvil almaq və onun qiymətinin hamısını pul şəklində satıcıya vermək şərt deyil. Buna görə də əgər zavodun beşdə biri onun şəri malikindən, yaxud vəkilindən və yaxud qəyyumundan düzgün şəkildə alınması gerçəkləşsə, qeyd olunan müamilə nəticəsində həmin miqdar müştərinin mülkiyyəti olur və al-verin əsərləri (nəticələri) ona aid olur. Buna görə də onun zavodun qazanclarından öz payını tələb etməyə haqqı olacaqdır.

# Əqd zamanı qoyulan şərtlər

---

Sual: **1539**: Bir şəxs öz bağını bu şərtlə satıb ki, bağın məhsulu onun sağlığında özünün olsun. Bu al-ver, deyilən şərtlə düzgündürmü?

Cavab: Mənfəətindən müəyyən bir müddətə məhrum edilmiş şəkildə malı satmağın eybi yoxdur, bu şərtlə ki, onun şərən və camaatın nəzərindən maliyyəti olsun, həm də mənfəətin istisna olunduğu müddət qurtarandan sonra belə istifadəyə (məhsul götürməyə) qabiliyyəti olsun. Lakin malın mənfəətlərini qeyri-müəyyən müddətə istisna edilməsi pul və satılan şeyin naməlum olmasına səbəb olsa, bu halda al-ver ğərərə (malın və pulun məlum olmamasına) görə batildir.

---

Sual: **1540**: Əgər əqddə satıcıya “malı təhvil verməyi təyin olunmuş vaxtdan kecikdirərsə müştəriyə müəyyən miqdarda pul verməlidir” - deyə şərt olunsa, bu halda şərən bu şərtə əməl edilməlidirmi?

Cavab: Qeyd olunan şərtin eybi yoxdur və satıcı malın təhvil verilməsini gecikdirsə, öz şərtinə əməl etməsi vacibdir və müştərinin də şərtə əməl etməyi ondan tələb etməsi caizdir.

---

Sual: **1541**: Bir şəxs öz ticarət mağazasını onun damı satıcının mülkiyyətində qalması və onun üstündə bina tikməyə haqqı olması şərti ilə satıb. Belə bir şərtin varlığını, eləcə də bu şərtin olmadığı təqdirdə satıcının onu ümumiyyətlə satmayacağını nəzərə almaqla müştərinin mağazanın üstündə haqqı varmı?

Cavab: Al-verdə o yerin müamilədə istisna olunmasından sonra müştərinin onda heç bir haqqı yoxdur.

---

Sual: **1542**: Bir nəfər inşası hələ başa çatmayan bir evi bu şərtlə alıb ki, onu müştərinin adına yazdırmağın müqabilində satıcının hər hansı bir məbləği tələb etməyə haqqı olmasın. Lakin o, indi sənədi müştərinin adına yazdırmaq müqabilində ondan müəyyən məbləğ tələb edir. Onun belə bir haqqı varmı və müştərinin pulu ona verməsi vacibdirmi?

Cavab: Al-ver zamanı edilən şərtə əməl etmək, malı müştəriyə təhvil vermək və sənədi onun adına saldırmaq satıcıya vacibdir. Əqd hansı əsasda bağlanmışşa, ondan əlavə başqa bir şey tələb etməyə onun haqqı yoxdur. Lakin əgər müştərinin

istəyi ilə camaat arasında qiyməti olan və əqddə tərəflər arasında razılığa gəldikləri işlərdən artıq olan bir iş görmüş olsa, (bu halda onu tələb etməyə haqqı olacaqdır.)

---

Sual: **1543**: Bir qədər torpaq sahəsi müəyyən qiymətə satılıb və pulun hamısı satıcıya verilib. Əqd oxunan vaxt qərara gəliblər ki, rəsmi sənədi müştərinin adına yazdırmaq müqabilində müştəri satıcıya müəyyən miqdarda pul versin. Bunların hamısı adi sənəddə yazılıb. Lakin hal-hazırda satıcı rəsmi sənədi müştəriyə vermək müqabilində ondan adi sənəddə yazılmış məbləğdən artıq pul istəyir. Onun buna haqqı varmı?

Cavab: Satıcının al-verin şəri cəhətdən düzgün şəkildə tamam olmasından sonra öz al-verinə və al-ver zamanı müştərinin xeyrinə iltizamlı olduğu şeylərin hamısına əməl etməsi vacibdir. Onun müştəridən iltizamlı olduğu şeylərdən əlavə bir şey tələb etməyə haqqı yoxdur.

---

Sual: **1544**: Əgər satıcı və alıcı al-ver sənədini tənzim edən vaxt onlardan heç birinin müamilə fikrindən dönməyə haqqı olmayacağını, müştərinin al-ver sənədini imza edəndən sonra müamiləni yerinə yetirmək fikrindən dönəcəyi təqdirdə onun satıcıya verdiyi behi tələb etməyə haqqı olmamasını, həmçinin satıcı əqdi imza edəndən sonra al-ver fikrindən dönəcəyi təqdirdə qeyd olunan behi qaytarmaqdan əlavə, zərər və xəsarət ünvanı ilə müəyyən miqdarda pulu müştəriyə verəcəyinə dair iltizam versələr, onların bu şəkildə "ixtiyar", yaxud "iqalə" şərti etmələri düzgündürmü? Onların hər biri üçün bu yolla ələ gələn mal (pul) halaldırmı?

Cavab: Deyilən şərt xiyari-fəsx (al-veri pozma ixtiyarı), yaxud iqalə şərti deyil, müamiləni başa çatdırmaq fikrindən dönən halda müəyyən bir məbləğ verməyi şərt etməkdir. Bu kimi şərtlər əqdin özündə qeyd olunmayınca, sadəcə olaraq al-ver sənədini tənzim edib onu imzalayan vaxt deyilməsinin və yazılmasının faydası yoxdur. Amma şərt əqdin özündə qeyd olunsa, yaxud əqd onun əsasında bağlansa, bu halda o şərt düzgündür və ona əməl etmək vacibdir. Bu yolla əldə edilən malı (pulu) da almağın eybi yoxdur.

---

Sual: **1545**: Bəzən al-ver sənədlərində belə bir şərt yazılır: "Əgər tərəflərdən biri müamiləni pozsa, xəsarət, zərər vurduğuna görə filan məbləği qarşı tərəfə verməlidir." Bu barədə bir neçə Sualım var: Birincisi, bu ifadə "ixtiyar" şərti sayılırmı? İkincisi, belə şərtlər düzgündürmü? Üçüncüsü, əgər şərt batildirsə, əqd də batil olurmu?

Cavab: Bu şərt ixtiyar şərti hesab olunmur, əksinə, müamiləni sona çatdırmaq fikrindən dönən halda müəyyən bir məbləği verməyi şərt etməkdir. Əgər bu şərt lazım əqdlə yanaşı olsa, yaxud əqd onun əsasında bağlansa işkalı yoxdur. Lakin qiymətdə təsirli olan belə bir şərt üçün müəyyən bir müddət göstərilməlidir. Əks halda şərt batildir və qiymətin məchul olmasına səbəb olsa, əqdin də batil olmasına səbəb olacaqdır.

## Al-verlə bağlı müxtəlif məsələlər

---

Sual: **1546**: Bəziləri bir sıra əmlakını bu şərtlə satır ki, onu həmin müştəridən, ona satdığı qiymətdən baha qiymətə alsın. Bu al-ver düzgündürmü?

Cavab: Belə al-ver zahiri və faizli borc almaq üçün bir vasitə olduğuna görə haram və batildir. Əlbəttə, əgər əmlakını ciddi şəkildə və şəri cəhətdən düzgün olan şəkildə satsa, daha sonra onu həmin müştəridən nağd, yaxud nisyə şəkildə həmin qiymətə, yaxud ondan baha qiymətə alsa, bu halda işkalı yoxdur.

---

Sual: **1547**: Tacirlərin bəzisi başqa tacirlər tərəfindən etibari bank sənədləri yolu ilə xaricdən mal gətirir, malların sənədləri çatandan sonra onların pulunu mal sahibləri tərəfindan banka ödəyir, daha sonra mal sahibindən, qabaqcadan razılığa gəldikləri müəyyən faizi alır. Bu müamilə düzgündürmü?

Cavab: Əgər tacir malı özü üçün gətirsə, sonra onu istədiyi adama, malın qiymətinin müəyyən faizi ilə təyin etdiyi qazancla satsa, eybi yoxdur. Həmçinin əgər malı, ondan istəyən adam üçün cüalə adı ilə, həm də malın qiymətinin müəyyən faizi ilə nisbətdə təyin etdiyi zəhmət haqqının müqabilində gətirsə, bunun da eybi yoxdur.

---

Sual: **1548**: Arvadım vəfat edəndən sonra bəzi ev əşyalarını satdım, pulunun üstünə bir az da əlavə edib ona başqa ev əşyaları aldım. Bu ev əşyalarından ikinci arvadımın evində istifadə etməyim caizdirmi?

Cavab: Satdığınız ev əşyaları özünün mülkiyyətində idisə, onun pulu ilə aldığınız əşyalar da sizin mülkiyyətiniz hesab olunacaqdır. Əks halda onların satılması sair vərəsələrin icazəsinə bağlıdır.

---

Sual: **1549**: Bir nəfər ticarət yerini (mağazanı) bələdiyyə idarəsindən tikilişinə icazə almadan tikdiyi malikindən icarəyə götürübdür. Bələdiyyə idarəsi də tikinti qanunlarını pozduğuna görə bu mağaza üçün cərimə tələb edir. Bu cəriməni icarəyə götürən verməlidir, yoxsa icazə almadan mağazanı tikmiş malik?

Cavab: Bu cərimə mağazanı tikəndə tikinti haqqında qanunları pozmuş malikin öhdəsinədir.

---

Sual: **1550**: Bir qədər torpaq sahəsini onda təsərrüf edib əkinçilik işləri aparan adamdan almışam. Bu torpaq sahəsi inqilabdan qabaqkı dövlət quruluşunda "torpaq islahatı" qanununa əsasən onun əlinə düşmüşdür. Lakin satıcının o yerin şəri maliki olub-olmadığını bilmirəm. Onun vəfatından çox vaxt keçir, indi onun varisləri o yerin pulunu məndən tələb edirlər. Bu məsələnin hökmü nədir?

Cavab: "Torpaq islahatları" yerlərinin işi İslami Şura Məclisi və Dövlət Məsləhətini Ayırdetmə Təşkilatının qanunlarına tabedir.

---

Sual: **1551**: Bir şəxsdən bir mülk alıb sonra başqa bir adama satdım. Lakin satıcı al-ver sənədini məndən alandan sonra onu ikinci dəfə başqa adama satıb. Onun al-ver sənədini məndən almasını sübut etməyə qüdrətim olmadığı halda, mənim icra etdiyim müamilə düzgün olacaqdır, yoxsa onun icra etdiyi müamilə?

Cavab: Al-verin malikdən şəri cəhətdən düzgün şəkildə gerçəkləşməsi fərz edildikdə, malın ixtiyarı müştərinin əlində olacaqdır və onun da istədiyi adama satması düzgündür. Birinci satıcının onda təsərrüf etməyə haqqı yoxdur. Onu yenidən başqa adama satması füzulidir və birinci müştərinin icazəsinə bağlıdır.

---

Sual: **1552**: Qardaşım oğluna söz vermişəm ki, pulunun hamısını mənə verdiyi vaxt torpaq sahələrinin bir hissəsini ona satım. Lakin bəzi idarə çətinliklərinə görə yerin sənədini al-verdən qabaq onun adına yazdırdım və onun özü də yerin maliki olmadığına iqrar etdi. Lakin bir müddətdən sonra sənədin onun adına yazılmasını əsas tutaraq, o yeri məndən tələb edir. Mən onun istəyini qəbul etməliyəmmi?

Cavab: Torpağı almasını iddia edən şəxs onun şəri cəhətdən düzgün şəkildə baş verməsini sübut etməyincə, o yerdə heç bir haqqı olmayacaq. Sənədin onun adına yazıldığı vaxt onun həmin yerə malik olmamasını aşkar şəkildə iqrar etməsi fərzi ilə o mülkün sənədinə istinad edə bilməz.

---

Sual: **1553**: Bir şəxsin bir qədər torpaq sahəsi var idi. Bizim idarənin kooperativ şirkəti o yeri ələ keçirib onu idarə işçilərinə payladı, şirkət işçilərindən bir miqdar pul alıb iddia etdi ki, o pulu yerin sahibinə verib və onun razılığını alıbdır. Lakin onların bəzisi iddia edib deyir ki, yerin malikindən razı olmadığını dediyini birbaşa eşitmişəm. Digər tərəfdən o yerdə məscid və yaşayış evləri tikilibdir. Bu deyilənləri nəzərə almaqla aşağıdakı Suallara cavab verməyinizi xahiş edirik:

1. Məscidin yeri və onun binasının tikilişini davam etdirmək barədə yer sahibindən icazə almağa ehtiyac varmı?

2. Öz yaşayış evlərini bu torpaq sahəsi üzərində tikən idarə işçilərinin vəzifələri nədir?

Cavab: Əgər kooperativ şirkətin nümayəndələrinin (yer sahəsini onun malikindən almağa vəzifələri olanların) düzgün şəkildə müamilə edib yerin malikinin razılığını ələ gətirdikləri sübuta yetsə, bu halda onların yeri malikindən almalarının düzgün olmasına hökm olunur. Həmçinin, əgər onlar yeri idarə işçilərinə paylayanda onu öz malikindən şəri yolla aldıqlarını iddia etsələr, bu halda onların yalan danışmaları sübuta yetməyincə, onların sözləri və yeri paylamaları düzgün hesab olunur və onun əsərini də qəbul etmək düzgündür, o yeri adı çəkilən şirkətdən almış adamların onda təsərrüf etmələrinin eybi yoxdur. Həmçinin o yerin bir hissəsində onda şərik olan müştərilərdən icazə almaqla məscid tikməyin işkalı yoxdur.

---

Sual: **1554**: Bir şəxs şəhid arvadından, maşın almaqda şəhid övladlarına verilən imtiyazı almaq üçün ərizə yazmasını istəyib ki, maşın alıb ondan özü üçün istifadə etsin. Şəhidin arvadı da şəhidin övladlarına qəyyum olduğuna görə bu işə razı olubdur. Lakin maşın alınandan sonra şəhidin övladları iddia ediblər ki, maşın onlara verilən imtiyazlarla alındığına görə onlarındır. Onların bu iddiası qəbul olunurmu?

Cavab: Əgər maşını satan, hətta alma imtiyazını göstərən vəsiqəni mülahizə etməklə olsa belə, onu müştərinin özünə satsa, müştəri də onu öz pulu ilə özü üçün alsa, bu halda maşın onun mülkü hesab olunur, hərçənd o əziz şəhidin ailəsinə verilən imtiyazın qiymətinə zamindir.

---

Sual: **1555**: Bir qədər torpaq sahəsini onun maliki tərəfindən vəkil olmaqla adi sənədlə bir şəxsə satıb pulun bir miqdarını almışam və razılaşmışıq ki, müştəri pulun qalanını ödəyəndən sonra mən yeri rəsmi şəkildə onun adına köçürüm. Lakin müştəri pulun qalanını ödəməyibdir. Buna görə də yerin rəsmi sənədi müvəkkilin (məni vəkil tutanın) adına qalıbdır və indiyə qədər rəsmi sənədlər qeydə alınan idarədə müştərinin adına yazılmayıbdır. Bu müddət ərzində müştəri qanuni icazə olmadan bu yerdə kəsb-ticarət etmək üçün bir neçə mağaza tikibdir, buna görə də bu yerə gözlənilməz vergilər, o cümlədən icarə haqqı və kooperativ vergiləri gəlibdir. Halbuki, 12 il bundan qabaq adi sənədlə satdığım bu yer, həmin vaxt boş sahə idi. Bundan əlavə al-verin sənədində açıq şəkildə yazılıb ki, rəsmi sənəd müştərinin adına yazılan vaxt bütün xərclər onun öhdəsinədir. Şəri cəhətdən adı çəkilən vergilər satanın öhdəsinədir, yoxsa müştərinin?

Cavab: Yerin özünə, yaxud onun satılmasına görə düşən vergilər və xərclər satıcının öhdəsinədir. O yerdəki binaya, yaxud yerdə bina tikildiyinə görə yerə düşən vergilər o yerdə ticarət mağazaları tikən müştərinin öhdəsinədir. Əgər əqddə xərclərin bir tərəfin (satıcı və ya alıcının) öhdəsinə olması şərt edilsə və bu əsasda razılaşılsa, həmin əsasda da əməl edilməlidir.

---

Sual: **1556**: Bir şəxs yaşayış mənzilini bir nəfərdən onun qiymətinə, al-ver və kredit şərtlərində razılığa gələndən sonra nağd və kredit şəklində alıbdır. Sonra onu həmin şərtlərlə başqa adama satıb, bu şərtlə ki, pulun qalan hissələrini ödəmək ikinci müştərinin öhdəsinə olsun. Bu halda birinci satıcının əvvəlki müamilənin şərtlərindən və qabaqkı razılaşma fikrindən dönməsi caizdirmi?

Cavab: Al-ver gerçəkləşəndən sonra satıcının ondan və onun şərtlərindən dönməyə haqqı yoxdur. Həmçinin pulu hissə-hissə ödəyib qurtarmamışdan qabaq müştərinin malı başqa adama satmasının eybi yoxdur. Lakin satıcı qəbul etməyincə, ikinci müştərinin vasitəsilə hissə-hissə ödəməyi şərt etməsi düzgün deyil.

---

Sual: **1557**: Mağazalardan biri televizoru adına püşk düşən adam üçün satışa qoymuşdu. Bu püşk atmada mənimlə birlikdə 130 nəfər də iştirak etdi. Püşk mənim adıma düşdü və televizoru aldım. Bu al-ver düzgün və ondan istifadə etmək mənim üçün caizdirmi?

Cavab: Əgər al-ver əqdi püşk sənin adına düşəndən sonra oxunsa, bu halda bu almağın və həmçinin ondan istifadə etməyin eybi yoxdur.

---

Sual: **1558**: Bir kişi öz torpaq sahələrindən birini başqa bir şəxsə satıb. Müştəri də onu üçücü bir adama satıb. Ölkə daxilində mövcud olan qanuna görə torpaq ilə əlaqədar olan hər bir müamiləyə dövlət vergisi düşməsini nəzərə almaqla, əvvəlcə birinci satıcının malı birinci müştərinin adına yazdırması, sonra isə onun (birinci müştərinin) onu ikinci müştərinin adına

yazdırması vacibdirmi, yoxsa birinci müştərinin al-ver barədə dövlət rüsumunu verməməsi üçün malı birbaşa ikinci müştərinin adına yazdırmaq onun (birinci satan) üçün caizdir? Əgər onu birinci müştərinin adına yazdırsa, bu halda ondan alınan vergi səbəbilə birinci müştəriyə dəyən zərərə zamindirmi? Birinci müştərinin, malı birbaşa ikinci müştərinin adına yazdırmaq barədə istəyini yerinə yetirmək ona (birinci satıcıya) vacibdirmi?

Cavab: Qanunun əksinə olmasa, satıcının satılan yeri birinci müştərinin, yaxud ikincinin adına yazdırmağa ixtiyarı vardır və torpaq sahələrinin satışında mövcud olan qanuna uyğun əməl etməyi müştəridən tələb edə bilər. O yeri birinci müştərinin adına yazdırmaq üçün ondan alınmış vergiyə zamin deyil. Eləcə də yeri birbaşa ikinci müştərinin adına yazdırmaq tələbini yerinə yetirmək ona (birinci satıcıya) vacib deyil.

# İxtiyarın [5263] hökmləri

## 1. Məclis ixtiyarı

---

Sual: **1559**: Bir şəxs bir mənzil alıb və beh adı ilə satıcıya bir miqdar pul veribdir. Satıcı üç saatdan sonra al-veri pozub və binanı müştəriyə təhvil verməkdən imtina edibdir. Onun bu işinin hökmü nədir?

Cavab: Əgər al-veri pozması al-ver məclisindən ayrılandan sonra və al-veri pozmaq ixtiyarına səbəb olan şəri səbəblərdən biri baş vermədən olsa, bu halda onun al-veri pozması batildir və heç bir əsəri yoxdur. Əks halda onun düzgünlüyünə və nüfuzlu olmasına hökm olunur.

## 2. Eyb ixtiyarı

---

Sual: **1560**: Əgər rəsmi idarələr mülkü müştərinin adına yazdırmaqdan imtina etsələr, bu, müştərinin al-veri pozmaq haqqına malik olmasına səbəb olurmu?

Cavab: Əgər müamilədən sonra satılan malın rəsmi şəkildə başqasının mülkünə keçməsinin qadağan olması məlum olsa və bu, camaat arasında eyb sayılsa, bu halda müştəri üçün xiyar haqqının yaranmasına səbəb olacaqdır.

---

Sual: **1561**: Əgər rəsmi sənədi müştərinin adına yazdırmaq müamiləni icra edən vaxt qadağan olsa və müştəri də bunu bilsə, bu, müamilənin batil olmasına səbəb olurmu?

Cavab: Bu məsələ al-verin batil olmasına səbəb olmur və fərz olunan halda onun üçün al-veri pozma haqqının yaranmasına səbəb olmur.

## 3. Təxir ixtiyarı

---

Sual: **1562**: Bir şəxs bir evi müəyyən qiymətə pul verməyi boynuna götürməklə başqasından alıb. Lakin onun üçün pulu gecikdirmək şərti olmadan, müamilədən iki il keçənə qədər pulu verməyib. Satıcı da evi müştəriyə təhvil verməyib. Buna görə al-ver batil hesab olunurmu?

Cavab: Müştərinin pulu satıcıya verib malı ondan almağı təxirə salması onun tərəfindən satıcıya şərt edilməmiş olsa belə, təkcə buna görə al-ver batil olmur. Lakin bu al-verdən üç gün keçdikdən sonra satıcının pozmaq ixtiyarı vardır.

## 4. Şərt ixtiyarı

---

Sual: **1563**: Yaşayış binasını bir nəfərə lazım al-ver əsasında bu şərtlə satmışam ki, evin sənədini onun adına yazdırmaq və pulun qalanını ondan almaq üçün təyin olunmuş vaxtda rəsmi sənədləri qeydə alan idarədə olmazsa, bu halda mənim müamiləni pozub evi başqa adama gündəlik qiymətinə satmağa haqqım olsun. Müştəri təyin olunmuş vaxtda rəsmi sənədlər qeydə alınan idarəyə getmədiyinə görə al-veri pozub binanı başqa adama satdım. Şəri cəhətdən ikinci al-ver düzgündürmü?

Cavab: İki tərəfin lazımlı əqddə iltizamlı olduqları şərtlərə uyğun olaraq al-veri pozmağın və onu ikinci dəfə başqa adama satmağın eybi yoxdur.

## 5. Görmə ixtiyarı

---

Sual: **1564**: Əgər torpaq sahəsini satan adam müştəriyə "onun sahəsi filan kv.m-dir" - deyə xəbər versə, al-verin sənədi də bu əsasda hazırlansa və sonra müştəri yerin sahəsinin satıcının dediyindən az olduğunu bilsə, bu halda al-ver şəri cəhətdən düzgündürmü? Müştərinin al-veri pozma haqqı varmı?

Cavab: Əgər müştəri torpaq sahəsini görsə və satıcının onun sahəsi barəsində dediyi sözə etimad edərək alsa, müamilə düzgündür, lakin yerin əlamətləri (deyilənlərlə) düz gəlmədiyi üçün müştərinin müamiləni pozma haqqı vardır. Amma əgər yerin hər kv. Metrini müəyyən bir qiymətə alsa və onun sahəsinin filan qədər olduğunu güman etsə, sonradan sahəsinin az olması məlum olsa, al-ver mövcud sahə nisbətində düzgündür və müştərinin çatışmayan sahənin qiymətini satıcıdan tələb etməyə, yaxud al-veri pozub pulun hamısını geri almağa haqqı vardır.

## 6. Ğəbn [5264] ixtiyarı

---

Sual: **1565**: Əgər müştəri vaxtı təyin olunmuş malın pulunu verməyi öz vaxtından malın qiyməti onun al-ver günündəki qiymətindən qalxan vaxta qədər gecikdirsə, buna görə satıcı üçün ğəbn ixtiyarı yaranırmı, yoxsa pulu öz vaxtından gecikdirdiyinə görə onun üçün təxir ixtiyarı sabit olur?

Cavab: Ğəbn ixtiyarının sübuta yetməsində əsas, al-ver günündə olan ədalətli qiymətlə müqayisə edəndə ziyan-zərərin yaranmasıdır. Məsələn, malı satış günündəki qiymətindən adətən güzəştə gedilməyən, bağışlanmayan miqdar ucuz satarsa. Amma əqd icra olunandan sonra qiymətin qalxması ixtiyar haqqına səbəb olan ğəbn üçün meyar ola bilməz. Eləcə də təkcə vaxt təyin olunmuş pulu öz vaxtından gecikdirmək satıcı üçün ixtiyar haqqının yaranmasına səbəb olmur.

---

Sual: **1566**: Bir qədər torpaq sahəsini bir qiymətə satdım. Sonra bir nəfər mənə dedi ki, sən aldanmısan, ziyana düşmüsən. Bu sözə görə mənim üçün ğəbn ixtiyarı yaranırmı?

Cavab: Sənin xəbərsiz olaraq o yeri satış günündəki qiymətindən güzəştə gedilməyəcək miqdar ucuz satmağın sübuta yetməyincə, sənin üçün ğəbn ixtiyarı yoxdur.

---

Sual: **1567**: Bir şəxs müəyyən sahəsi olan yeri satır və sonra məlum olur ki, satılmış yerin həqiqi sahəsi, satıb pulunu aldığı sahədən çoxdur. Bu halda yerin artıq miqdarını tələb etməyə haqqı varmı?

Cavab: Əgər o yerin hamısını onun sahəsinin müəyyən qədər olmasını təsəvvür edərək müəyyən bir qiymətə satsa, sonra onun sahəsinin artıq olması və buna görə də onun (həqiqi) qiymətinin satdığı qiymətdən baha olması məlum olsa, bu halda onun ğəbn ixtiyarına əsasən al-veri pozmağa haqqı vardır. Amma əgər yerin hər kvadrat metrini müəyyən bir qiymətə satsa, onda müştəridən, satıb pulunu aldığı sahədən artıq olanları tələb etməyə haqqı vardır.

---

Sual: **1568**: Əgər iki nəfərin arasındakı müamilə müştərinin bu müamilədə məğbun (aldanmış, ziyan görmüş) olub-olmamasını bilmək üçün müştərinin malın pulunu bir müddət ödəməməsi əsasında gerçəkləşsə, bu müamilə şəri cəhətdən düzgündürmü? Düzgün olan surətdə, müştərinin müamiləni pozmağa haqqı varmı?

Cavab: Zərər görüb-görməməsini bilmək məqsədi ilə olsa belə, pulu müəyyən vaxta qədər təxirə salmaq əsasında olan al-verin eybi yoxdur. Lakin onun zərər görməsi məlum olmayınca müamiləni pozmağa haqqı yoxdur.

---

Sual: **1569**: Məğbun (aldanmış, zərər görmüş) olan tərəf qeyri-müsəlman olan halda ğəbnli (aldadıcı, zərərli) müamilənin hökmü nədir?

Cavab: Zərər görmüş adam üçün ğəbn ixtiyarının olmasında müsəlmanla qeyri-müsəlman arasında fərq yoxdur.

---

Sual: **1570**: Bir adama ev satdım. Müştəri pulu verib evi alandan sonra zərərə düşməyini bildirdi. Buna görə də al-veri pozdu. Lakin müxtəlif dəlillərə görə o vaxtdan bəri evi boşaltmayıb, mənə verdiyi pulu da geri almayıbdır. İki ildən sonra iddia edir ki, al-veri evin yarısı barədə pozubdur. Hal-hazırda da pulun yarısını məndən tələb edir. Onun üçün, zərər görməsini iddia etdiyi və zərər gördüyünə görə al-veri pozduğunu dediyini nəzərə almaqla şəri cəhətdən evin yarısına malik olmasını iddia etməsi caizdirmi?

Cavab: Zərər görmüş adamın zərər gördüyü sübuta yetən halda yalnız al-veri malın hamısında pozub satıcıya verdiyi pulu geri almağa haqqı vardır. Onun al-veri malın bir hissəsində pozmağa, yaxud (satıcıya) verdiyi puldan artıq miqdarda məbləği tələb etməyə haqqı yoxdur.

---

Sual: **1571**: İki nəfər arasında müamilə icra olunub, bu barədə adi sənəd də tənzim edilib. Əqddə şərt ediblər ki, hər kəs müamilədən peşman olsa, gərək qarşı tərəfə müəyyən miqdarda pul versin. Müamilə edənlərdən biri müamilədə zərər gördüyünə görə peşman olsa, onun müamiləni pozmağa haqqı vardırmı? Əgər zərər gördüyünə görə müamiləni pozsa, onda etdiyi şərtə əməl etməlidirmi?

Cavab: Müamiləni başa çatdırmaq fikrindən dönən müamilə tərəfləri vasitəsi ilə pul vermək əsasında edilən şərt əqddə olubsa, yaxud əqd onun əsasında bağlansa, öz-özlüyündə düzgün olmasına və ona əməl etməyin vacib olmasına baxmayaraq müamiləni ğəbn (zərər) ixtiyarına görə pozmağın mümkün olan yerlərinə şamil olmur.

---

Sual: **1572**: Evi alandan bir həftə sonra müamilədə uduzmağım, zərərə düşməyim məlum oldu. Buna görə də müamiləni pozmaq üçün satıcıya müraciət etdim. Lakin o, müamiləni pozub pulu qayatarmağa razı olmadı. Buna görə də ev mənim əlimdə və təsərrüfümdə qaldı. Bir müddət keçəndən sonra evin qiyməti qalxdı, bu vaxt satıcı məndən müamiləni pozub evi boşaltmağı tələb etdi. Mən də onun tələbini yerinə yetirməkdən imtina etdim və ona verdiyim puldan artıq miqdarda mənə pul verməsini tələb etdim. Lakin o, artıq məbləği vermək istəmədi. Bu halda zərərə düşməyim məlum olandan sonra müamiləni pozmaq üçün sadəcə olaraq mənim satıcıya müraciət etməyim, yaxud verdiyim puldan artıq məbləği ondan almağın müqabilində mənim müamiləni pozmağı və evi ona qaytarmağı qəbul etməyim müamiləni pozmaq sayılırmı?

Cavab: Təkcə ixtiyar sahibinin müamiləni pozmaq barəsində razılaşma üçün müamilə edən digər tərəfə müraciət etməsi, yaxud ondan artıq məbləğ almaq müqabilində malı ona qaytarmağa razı olması müamiləni pozmaq sayılmır. Lakin ixtiyar sahibi tərəfindən müamiləni pozmaq qarşı tərəfin razılığına, həmçinin malın ona qaytarmağa borclu olmadığına görə, əgər zərərə düşməyini bilən vaxt həqiqətən müamiləni pozmusansa, onda bu, şəri cəhətdən düzgündür və sən ondan sonra o evin sahibi deyilsən, ondan əl çəkib satana vermək sənə vacibdir.

## 7. İxtiyari al-ver (beyi-şərt)

---

Sual: **1573**: Bir şəxs malı bir nəfərə ixtiyari-al-ver yolu ilə satsa, malı müştəriyə təhvil verməmişdən qabaq onun özü, yaxud müştəri üçün malı başqa adama satmaq caizdirmi?

Cavab: İxtiyari-al-ver baş verəndən sonra pozulmayınca mal müştərinin mülkü olur. Satıcı birinci alveri pozmayınca onu ikinci dəfə başqa adama satmağa haqqı yoxdur. Müştəri ixtiyar müddəti qurtarandan sonra, hrçənd təhvil almamış olsa belə, onu başqa bir adama sata bilər, bu şərtlə ki, satıcı ixtiyar müddətində müamiləni pozmamış olsun.

## 8. Şərtə əməl etməmək ixtiyarı

---

Sual: **1574**: Bir şəxs başqasından bir mal alıb. Şərt ediblər ki, iki ay ərzində onun pulunun hamısını ödəsin və o vaxta qədər müştərinin müamiləni pozmaq haqqı olsun. Lakin müştəri malı al-ver tarixindən yeddi ay sonra satıcıya qaytarıb. Satıcı da onu bu şərtlə qəbul edib ki, müamiləni pozmağı öz vaxtından kecikdirdiyinə görə ona təxmini xəsarət dəydiyi üçün puldan müəyyən bir faiz azaltsın. Çünki əgər müamilə özünün təyin olunan vaxtında ləğv edilsəydi, satıcı malı həmin vaxtda satıb pulunu digər ticarətlərdə istifadə edəcəkdi. İxtiyarın müddəti qurtarandan sonra müştərinin al-veri pozmağa haqqı varmı? Onu qəbul etmək satıcıya vacibdirmi? Al-verin pozulmasını qəbul etməyi puldan müəyyən faiz çıxmaqla şərtləndirməyə satıcının haqqı varmı?

Cavab: İxtiyar müddəti qurtarandan sonra ixtiyar sahibinin müamiləni pozub malı geri almağa haqqı yoxdur, həmçinin satıcını da onu qəbul etməyə məcbur edə bilməz. Əlbəttə, onların müamiləni pozmaq üçün razılığa gəlmələri caizdir. Lakin satıcının müamiləni pozmağı qəbul etməyi puldan çıxmaqla şərtləndirməyə haqqı yoxdur və əgər müştərinin pulundan çıxmaqla müamiləni pozsa, batildir.

---

Sual: **1575**: Müamilə edənlərdən hər birinin al-verdə nəzərdə tutduqları məqsədə çatmamaq iddiası ilə müamiləni pozmaları caizdirmi?

Cavab: Əqddə şərt şəklində qeyd olunmayınca və ya əqd onun əsasında bağlanmayınca, məqsədin həyata keçməməsi şəri cəhətdən onu pozma ixtiyarına səbəb olmur.

---

Sual: **1576**: Mən ticarət yerini adi al-ver sənədi ilə və bir neçə şərt əsasında satmışam. O şərtlərdən biri də budur ki, vergiləri müştəri versin, lakin indiyə qədər onları verməkdən imtina edib. Belə bir halda mənim al-veri pozmağa haqqım varmı?

Cavab: Əgər əqddə müştərinin vergiləri vermədiyi təqdirdə satıcının müamiləni pozmaq haqqına malik olması açıq şəkildə şərt olunsa, yaxud əqd bu əsasda gerçəkləşsə, onun üçün ixtiyar haqqı qüvvədədir.

---

Sual: **1577**: Bir nəfər torpaq sahəsini bu şərtlə alıb ki, əgər dövlət rəsmi sənədin onun adına yazmaqdan imtina etsə, yaxud yerin bələdiyyənin planında olması məlum olsa, onun üçün müamiləni pozmaq haqqı olsun. Müştəri bu yerdə bina tikmə icazəsi ala bilmədiyinə görə indi satıcıdan müamiləni pozub pulu qaytarmağı tələb edir, bu şərtlə ki, əgər bələdiyyə idarəsi indidən iki il keçənə qədər bu yerdə bina tikməyə icazə versə, satıcı o yeri yenidən əvvəlki qiymətə ona satsın. Onun belə bir şərt qoyması düzgündürmü?

Cavab: Müştərinin müamilədə iki tərəfin müamiləni pozmaq haqqı əsasında razılaşdıqları şərtlərə uyğun olaraq müamiləni pozub pulu satandan tələb etməsinin caiz olmasına baxmayaraq onun, müamiləni pozanda satıcının əleyhinə hər hansı bir şeyi şərt etməyə haqqı yoxdur.

---

Sual: **1578**: Satıcı ilə müştəri arasında, müştərinin satıcının xeyrinə olaraq qəbul etdiyi müəyyən şərtlər əsasında al-ver əqdi bağlanıb. Müştəri müamilə pulunun bir hissəsini beh kimi satıcıya verib, lakin al-verin qalan şərtlərinə əməl etməkdən imtina edir. Bu halda şəri cəhətdən onun satıcını müamiləni başa çatdırmağa məcbur etməyə haqqı vardırmı?

Cavab: Satıcı, şərt əməl olunmadığına görə əqdi pozmayınca gərək ona əməl etsin. Lakin müamiləni ləğv etmə haqqına malik olarsa, müştərinin şərtlərin bəzisinə əməl etməməsinə görə olsa belə, onda al-veri pozmaq onun üçün caizdir. Müamiləni pozan halda müştərinin onu, aldığı pulu geri qaytarmaqdan başqa şeyə məcbur etməyə haqqı yoxdur.

# İxtiyar hökmlərilə bağlı müxtəlif məsələlər

---

Sual: **1579**: Haqqı tələb etməmək, yaxud onu tələb etməyi məsələn iki ilə qədər təxirə salmaq şəri cəhətdən haqqın aradan getməsinə səbəb olurmu?

Cavab: Haqqı sadəcə olaraq tələb etməmək, yaxud onu tələb etməyi müəyyən bir müddətə qədər təxirə salmaq haqqın aradan getməsinə səbəb olmur. Yalnız haqqın öz-özlüyündə müəyyən müddətlə məhdudlandığı hal istisna olunur.

---

Sual: **1580**: Bir nəfər bir mülkü, bir miqdarı nisyə olan qiymətə satıb. Pulun nəqd hissəsini alıb mülkü müştəriyə verəndən sonra başqa bir adam həmin mülkü baha qiymətə almaq istəyib. Mülkü baha qiymətə ikinci müştəriyə satmaq üçün birinci al-veri pozmaq onun (satıcı) üçün cazidirmi?

Cavab: Al-ver düzgün şəkildə gerçəkləşəndən sonra əqdə sadiq olmaq və ona əməl etmək satıcıya vacibdir. Onun üçün müamiləni pozma haqlarından biri olmayan vaxta qədər onun müamiləni pozub başqa adama satması düzgün deyil.

---

Sual: **1581**: Bir qədər torpaq sahəsini bir nəfərə bu şərtlə satdım ki, onun pulunu dörd il ərzində ödəsin. Lakin elə həmin müamilə vaxtından bu al-verdən peşman olmuşam. Bir il keçəndən sonra yeri özümə qaytarmağı müştəridən tələb etdim, o isə bundan imtina etdi. Bu müamiləni pozmaq üçün bir çıxış yolu varmı?

Cavab: Al-verdən sonra sadəcə peşman olmağın şəri cəhətdən heç bir faydası yoxdur. Deməli, al-ver düzgün şəkildə baş verəndən sonra şəri cəhətdən malın müştərinin mülkünə keçməsində nüfuzludur (gərək ona əməl oluna). Satıcının onu müştəridən geri almağa haqqı yoxdur. Yalnız ixtiyar haqlarından birinin meydana gəlməsi ilə (satıcı) ixtiyar haqqına malik olsa, bu hal istisna olunur ki, belə olan halda müamiləni poza bilər.

---

Sual: **1582**: Bir şəxs özünün rəsmi sənədi olan yerini adi al-ver sənədi əsasında, bütün ixtiyar haqlarını ləğv etməklə satıb. Lakin o, rəsmi sənədin onun öz adına olmasından sui-istifadə edib onu ikinci dəfə başqa adama satıb. Onun ikici al-veri düzgündürmü?

Cavab: Yerin bütün ixtiyar haqlarını ləğv etməklə al-veri düzgün şəkildə baş verəndən sonra satıcının yeri ikinci dəfə başqa adama satmağa haqqı yoxdur. Onun ikinci al-veri füzulidir və birinci müştərinin icazə verməsindən asılı olacaqdır.

---

Sual: **1583**: Bir nəfər zavoddan müəyyən qədər sementi bu şərtlə alıb ki, onu tədricən bir neçə dəfəyə təhvil alsın. Pulun hamısını da zavoda verib. Müştəri sementin bir miqdarını zavoddan götürdükdən sonra onun qiyməti bazarda birdən-birə artdı. Bu halda zavodun müamiləni pozub malın qalan hissəsini təhvil verməkdən imtina etməyə haqqı varmı?

Cavab: Al-verin şəri cəhətdən düzgün şəkildə başa çatmasından sonra – istər nağd şəkildə olsun, istər nisyə və yaxud sələf şəklində – satıcı üçün şəri ixtiyarlardan heç biri olmayana qədər onun müamiləni birtərəfli olaraq pozmağa haqqı yoxdur.

---

Sual: **1584**: Mən bir evi adi al-ver sənədi ilə bu şərtlə aldım ki, pulun bir hissəsisini nağd yolla satıcıya verim, qalan hissəsini də müəyyən olunmuş vaxta qədər ödəyim, onun sənədi də üç ay ərzində rəsmi şəkildə mənim adıma yazılsın. Lakin mən pulun qalanını müəyyən olunmuş vaxtda satıcıya verə bilmədim, o da buna etiraz etmədi. Dörd aydan sonra pulu ona verib malı təhvil almaq üçün ona müraciət etdim. Lakin o, bundan imtina edib, təyin olunmuş vaxt qurtarandan sonra müamiləni pozduğunu iddia etdi. Bunu nəzərə alaq ki, müamiləni pozandan sonra məndən aldığı pulu mənə qaytarmayıb və evi də bu müddət ərzində icarəyə verib icarə pulunu almışdır. Sadəcə olaraq pulun qalanını təyin olunmuş vaxtda ona vermədiyimə görə onun müamiləni pozmağa haqqı varmı?

Cavab: Evin pulunun bir hissəsini təyin olunmuş vaxtda satıcıya verməmək təklikdə onun üçün müamiləni pozmaq haqqına səbəb olmur. Buna görə də əgər ev şəri cəhətdən düzgün şəkildə alınsa, lakin satıcının təsərrüfündə (ixtiyarında) qalsa və ləğv etmə haqqına malik olmadan icarəyə versə, bu halda onun icarə əqdi füzulidir və müştərinin icazə verməsindən asılıdır. (İcazə verərsə) satıcının malı (evi) müştəriyə təhvil verməkdən əlavə, icarəçidən aldığı icarə pulunu da ona verməsi vacibdir. Amma əgər müştəri icarə əqdinə icazə verməsə, onda bu müddət ərzində mənzildən istifadə etməsinin müqabilində ondan ücrətül-misli (icarə haqqının dəyərini) tələb etməyə haqqı vardır.

Sual: **1585**: Satıcının, onun üçün ixtiyar haqqı olmadan müamiləni pozmağa, yaxud al-ver qurtarandan sonra qiyməti qaldırmağa haqqı varmı?

Cavab: Onun bu işləri görməyə haqqı yoxdur.

Sual: **1586**: Bir nəfər başqasından bir ev alıb. Satıcı da o evi mənzil idarəsindən alıbdır. Al-ver başa çatdıqdan və satıcı pulu müştəridən alandan sonra o idarə bildirib ki, gərək satıcının o idarəyə verdiyi puldan əlavə məbləğ ev üçün verilsin. Müştəri də satıcıya xəbər göndərib ki, gərək həmin əlavə məbləği versin, əks təqdirdə al-veri pozub pulu geri alacaqdır. Lakin satıcı əlavə məbləği verməkdən imtina edib. Buna görə də adı çəkilən idarə bu evi başqa adama vermək qərarına gəlibdir. Bu halda müştəri verdiyi pulu almaqdan ötrü kimə müraciət etməlidir? O idarəyəmi, yoxsa axırda ev verilən adama və ya satıcıya?

Cavab: Əgər şərt etdiyinə, yaxud başqa bir səbəbə görə al-ver pozulsa, onda müştəri pulu satıcıdan tələb etməlidir.

Sual: **1587**: Bir şəxs bir heyvan alıb, sonra onu bu məqsədlə bazara aparıb ki, əgər onun üçün müştəri tapsa, satsın və əgər müştəri tapmasa müamiləni pozacaqdır. Onun bu məqsədi onun üçün müamiləni pozma haqqı gətirirmi?

Cavab: Sualın fərz olunduğu halda satılan şey heyvan olduğuna görə, al-verdən üç gün keçənə qədər onun müamiləni pozmağa haqqı vardır.

Sual: **1588**: Bir neçə adam bir nəfərdən bir mülk alıblar, pulun bir hissəsini də bir neçə dəfəyə ona veriblər. Pulun qalanını verməyi rəsmi sənədi onların adlarına yazdırmaqla şərtləndiriblər. Lakin satıcı səhlənkarlıq edərək sənədi onların adlarına yazdırmaqdan imtina edib və al-veri pozmasını iddia edir. Bu halda o, al-verə əməl etməyə iltizamlıdırmı, yoxsa onun öz tərəfindən müamiləni pozması düzgündür?

Cavab: Satıcı üçün ixtiyar haqqına səbəb olan şeylərdən biri, məsələn, şərt, yaxud ğəbn (zərər), yaxud başqa səbəb olmayana qədər onun müamiləni pozması düzgün deyil. Əksinə, o, al-verə əməl etməlidir. O, mülkü rəsmi şəkildə müştərilərin adlarına yazdırmağa şəri cəhətdən borculudur.

Sual: **1589**: Bir şəxs bir nəfərdən bir mal alıb. Pulun bir hissəsini verəndən sonra həmin malı qazancla (aldığı qiymətdən baha qiymətə) başqa adama satıb. Lakin ikinci müştəri o malda təsərrüf edəndən sonra satıcının qazancından xəbərdar olub və malı almaqdan peşman olduğunu bildirib. Buna görə müamiləni pozmaq onun üçün caizdirmi?

Cavab: Əgər ikinci müştəri üçün ixtiyara səbəb olan bir şey olsa, onda müamiləni pozmaq onun üçün caizdir. Əks halda isə caiz deyil.

## Satılan mala aid olan məsələlər

Sual: **1590**: Bir şəxs evini satıb və al-verdən sonra elektrik lampalarını, su qızdırıcı cihazı (kalonkanı) və başqa şeyləri evdən götürübdür. Bunun hökmü nədir?

Cavab: Əgər adı çəkilən şeylər və onlara oxşar başqa şeylər camaat arasında evə tabe olan şeylərdən sayılmasa, onda onları evdə həmin halda saxlamaq satıcıya şərt olunmayınca, satıcının o şeyləri özü üçün götürməsinin eybi yoxdur.

Sual: **1591**: Mən bir evi maşın qarajı və lazım olan başqa şeylərlə birlikdə bir nəfərdən almışam. Lakin o, təkcə evi mənə təhvil verib və maşın qarajının al-verə daxil olmasını göstərən cümləni sənəddən pozubdur. Halbuki, pulu qarajın və al-ver sənədində adı çəkilmiş başqa şeylərin müqabilində alıbdır. Bu halda hökm nədir?

Cavab: Malı, üzərində müamilə icra olunmuş şeylərin hamısı ilə birlikdə təhvil vermək satıcıya vacibdir – istər onların müqabilində pul verilmiş olsun, istərsə də onun mala qoşulması şərt olunsun. Müştərinin də satıcını buna məcbur etməsi caizdir.

---

Sual: **1592**: Binada aldığım birinci mərtəbənin kondisoneri bu mərtəbəni alan vaxt balkonda idi və indiyə kimi də həmin yerdədir. Kondisonerə su, aşağı mərtəbədə yerləşən əsli borudan ayrılaraq gəlir. Bu boru divarın yanından kondisonerə qədər uzanır. İndi aşağı mərtəbənin maliki, bu mərtəbədən istifadə etməyin ona məxsus olduğuna görə o suyu kəsibdir. Bu halda hökm nədir?

Cavab: Əgər sizin aşağı mərtəbədə yerləşən su lüləsindən istifadə etməyə haqqıniz olması əqddə qeyd olunmasa, onda onun malikini buna məcbur etməyə haqqıniz yoxdur.

# Malı təhvil verib pulu təhvil almaq

---

Sual: **1593**: Mənim yaxın adamlarımdan biri böyrəklərindən birini itirmişdir. Bir nəfər ondan müəyyən miqdar pul almaq şərti ilə böyrəklərindən birini ona verməyə hazır olduğunu bildirib. Lakin tibbi analiz aparandan sonra bu şəxsin böyrəyinin peyvənd vurulmağa yararlı olmadığı məlum oldu. Bu halda böyrəyini vermək istəyən şəxsin bir neçə gün işsiz olmasına görə deyilən məbləği tələb etməyə haqqı varmı?

Cavab: Əgər razılaşılan məbləğ böyrəyin əvəzinə olsa, əgər böyrəyi onun bədənindən çıxardıb ondan təhvil alandan sonra peyvənd üçün yararsız olması məlum olsa, bu halda onun böyrəyindən istifadə edilməsə də, onun razılığa gəlinmiş pulunun hamısını tələb etməyə haqqı vardır. Amma əgər böyrəyin peyvənd vurmağa yararlı olmaması böyrəyi onun bədənindən kəsib çıxarandan qabaq məlum olsa və xəstə özü bunu bildirsə, onda xəstədən bir şey tələb etməyə haqqı yoxdur.

---

Sual: **1594**: Mön öz yaşayış mənzilimi adi al-ver sənədi ilə satmışam. Pulun bir miqdarını almışam, qərara gəlmişik ki, pulun qalanını sənədi rəsmi şəkildə müştərinin adına yazdıranda alım. Lakin indi evimi satmağa peşmanam, müştəri də evi (ona təhvil vermək üçün) boşaltmağa israr edir. Bu məsələnin hökmü nədir?

Cavab: Əgər al-ver şəri cəhətdən düzgün şəkildə baş versə, onda satıcı üçün pozma haqqı olmayana qədər sadəcə olaraq al-verdən peşman olmağa və ona ehtiyacı olmasına görə onun malı müştəriyə təhvil verməkdən imtina etməyə haqqı yoxdur.

---

Sual: **1595**: Mədən daşları satışı mərkəzindən mədən daşları götürmək üçün bir qəbz aldım. Malı təhvil alandan sonra onların daşların konkret qiymətini yazmadıqları məlum oldu. Qiyməti təyin etmək üçün onlara müraciət etdikdə cavab verdilər ki, konkret qiymət əlaqədar idarə tərəfindən sonradan bir az fərqlə şəkildə elan olunacaqdır. Lakin o idarə qiyməti əvvəlki qiymətdən bir neçə dəfə artıq elan etdi. Buna görə də mən o qiyməti qəbul etmədim. Elə o vaxt daşları kəsib satdığımı nəzərə alaraq bunun hökmü nədir?

Cavab: Al-verin düzgün olması şərtlərindən biri də budur ki, mal və onun pulu naməlum olmağın və anlaşılmazlığın aradan gedəcəyi bir həddə müəyyən olunmalıdır. Deməli, əgər o daşların təhvil alındığı gündə al-ver şəri cəhətdən düzgün şəkildə icra olunmasa, müştəri daşları kəsib satdığı gündəki qiyməti onlara zamindir.

---

Sual: **1596**: Bir şəxs öz qızından onun (qızın) olub hazırda ərinin ixtiyarında olan mülkü alıb pulunu da qızına verib. Lakin qızın əri ona qəsdən əziyyət verməyə başlayıb və mülkün al-verini inkar etməyəcəyi halda onu talaq verməklə təhdid etmişdir. Buna görə də qız mülkü təhvil verə bilmir. Bu halda malı təhvil vermək, yaxud malın pulunu müştəriyə qaytarmaq satıcı qızın boynunadır, yoxsa onun ərinin boynuna?

Cavab: Malı təhvil vermək, yaxud pulu müştəriyə qaytarmaq satıcının özünə vacibdir.

---

Sual: **1597**: Mən bir evi adi al-ver sənədi ilə aldım və satıcıya şərt etmişəm ki, evi mənim adıma kamil şəkildə yazdırmaq üçün rəsmi sənədlər qeydə alınan idarəyə gəlsin. Lakin satıcı bu şərtə əməl etməyib evi mənə təhvil verməkdən, onun sənədini mənim adıma yazdırmaqdan imtina etdi. Bu halda mənim bu işləri görməsini ondan tələb etməyə haqqım varmı?

Cavab: Əgər sizin aranızda baş verən və haqqında adi sənəd tənzim etdiyiniz şey evin şəri cəhətdən düzgün tərzdə al-veri olsa, satıcının müamilədən qayıdıb ona əməl etməkdən imtina etməyə haqqı yoxdur. Əksinə, şəri cəhətdən evi sənə təhvil verməyə, sənədi sənin adına keçirmək üçün lazım olan işləri görməyə iltizamlıdır. Sənin də bunu ondan tələb etməyə haqqın vardır.

---

Sual: **1598**: Satıcı ilə müştəri arasında baş verən ticarət müamiləsinə uyğun olaraq müştəri alıb təhvil götürdüyü malın pulundan bir məbləği həftə-həftə satıcıya verir, satıcıya verdiyi hər məbləği öz dəftərində yazırdı. Satıcı da hər məbləği müştəridən alanda onun dəftərinə imza etməkdən əlavə, aldığı hər bir məbləği də öz dəftərində yazırdı. Təqribən dörd ay keçəndən sonra müştərinin bir neçə dəfə verdiyi pulu hesabladı, bu zaman müştərinin borcunun miqdarında mübahisə yarandı. Müştəri onu verdiyini iddia edir, satıcı isə onu inkar edir. İxtilaflı məbləğin nə müştərinin, nə də satıcının dəftərində qeyd olunmadığını nəzərə almaqla, məsələnin hökmü nədir?

Cavab: Əgər müştərinin satıcıya verdiyini iddia etdiyi pulu verməsi sübuta yetsə, bu halda ona, bir şey vermək vacib deyil. Əks halda o məbləği təhvil almağı inkar edən satıcının sözü keçərlidir.

## Nisyə və nağd al-ver

---

Sual: **1599**: Malı nağd qiymətindən baha qiymətə bir il müddətinə nisyə almağın hökmü nədir? Qəbzi müəyyən müddətə öz məbləğindən yuxarı, yaxud aşağı qiymətə satmağın hökmü nədir?

Cavab: Malları nağd qiymətindən baha qiymətə nisyə şəklində satıb-almağın eybi yoxdur. Lakin qəbzi (verən və ya alandan başqa) üçüncü bir şəxsə onun öz dəyərindən aşağı qiymətə satmaq caiz deyil, lakin qəbzin məbləği boynunda olan şəxsə satmağın eybi yoxdur.

---

Sual: **1600**: Əgər maşını satan müştəriyə "onun nağd qiyməti bu qədər, on ay müddətində kredit qiyməti isə bu qədərdir" (nağd qiymətindən baha) -desə, müştəri də kreditlə satışdakı artıq pulun maşının pulunun on ay ərzində olan mənfəəti olduğunu güman etsə və bu əsasda müamilə başa çatsa, bu halda müştərinin fikrindən keçən "nağd qiymətindən artıq miqdarı pulun mənfəəti kimi verəcəkdir və müamilə faizli müamilədir" fikrini nəzərə almaqla müamilə əvvəldən faizli və batil hesab olunurmu?

Cavab: Bu müamilə nisyə şəklində olsa və pul hissə-hissə ödənilsə, onun eybi yoxdur. Belə müamilə faizli müamilə hesab olunmur.

---

Sual: **1601**: Al-ver əqdində pul və satılan mal üçün aşağıdakı şəkildə müddət qoyulmuşdur: Pul müəyyən hissələr şəklində bir il ərzində ödənilməlidir. Satılan mal da müştəri tərəfindən pulun birinci hissəsi veriləndən bir il sonra təhvil verilməlidir. Pulun birinci hissəsinin ödənilməsi onun üçün təyin olunmuş vaxtdan çox təxirə düşdüyü halda satıcı üçün təxir ixtiyarı varmı?

Cavab: Sualda fərz olunduğu nisyə (beyi-sələm) şəklində olan müamilədə pul əqd icra olanda nağd verilməlidir. Əks halda al-ver kökündən batil olacaqdır.

---

Sual: **1602**: Əgər pulun birinci hissəsini ödəmək adi vaxtdan təxirə düşsə, onun üçün müəyyən bir vaxt təyin olunmamışsa və pulu gecikdirən halda satıcı üçün ixtiyar şərt olunmayıbsa, bu halda sadəcə qeyd olunan təxirə görə onun üçün ixtiyar haqqı olurmu?

Cavab: Nisyə al-verdə pulun ödənmə vaxtı müəyyən olunmalıdır. Buna görə də əgər pulun hissələrinin vaxtı müəyyən olunmadan nisyə al-ver icra olunsa, bu halda al-ver əvvəldən batildir. Amma əgər onların vaxtları müəyyən olunsa və müştəri pulu ödəməyi öz vaxtından təxirə salsa, sadəcə bu təxir satıcı üçün ixtiyar yaranmasına səbəb olmur.

---

Sual: **1603**: Bir yerdə incəsənət texnikomu bu şərtlə tikilib ki, təhsil nazirliyi oranın pulunu o yerin sahiblərinə versin. Lakin Təhsil nazirliyi bina tikilib qurtarandan sonra yerin pulunu sahiblərinə verməkdən imtina edir. Bunun ardınca yerin sahibləri buna razı olmadıqlarını bildiriblər, binanı qəsbi və orada namaz qılmağı da batil hesab edirlər. Bu halda hökm nədir?

Cavab: Yer sahiblərinin texnikom tikilişi üçün oranı təhvil verməyə razı olmalarından, onu təhsil nazirliyinə yerin pulunu nazirlikdən almaları şərtilə verəndən sonra onların yerdə heç bir haqqı yoxdur və yer qəsbi deyil. Əlbəttə, yerin pulunu Təhsil nazirliyindən tələb etməyə haqları vardır. Belə olan təqdirdə orada dərs oxumağın, namaz qılmağın şəri cəhətdən eybi yoxdur və bu işlər yerin qabaqkı sahiblərinin razılığı ilə şərtlənmir.

## Sələf al-veri

---

Sual: **1604**: Şirkətdən sələf al-veri ilə bir yaşayış binası aldım. Pulun bir miqdarını kreditlə verib bu barədə qəbz də aldım. Pulun qalanını hələ də borcluyam. Sonra şirkət mənim mənzilimi mənzil bankına satdı və qərara gəldi ki, başqa bir evi qabaqkı qiymətdən dörd qat artıq olan bu günkü qiymətlə ondan təhvil alım. Bunun hökmü nədir?

Cavab: Bu evi sələf şəklində almaq kökündən batildir, çünki sələf al-verinin düzgün olması şərtlərindən biri, pulun hamısını elə al-ver məclisində satıcıya nağd şəkildə verməkdir. Buna əsasən, əgər qeyd olunan ev sələf al-ver kimi alınsa və pulun hamısı al-ver məclisində nağd verilsə, bu halda satıcı malın (qabaqcadan deyilmiş) xüsusiyyətləri ilə birlikdə uyğun gəldiyi malı müştəriyə verməlidir. Onun malın misdaqını (uyğun gəldiyi fərdi) müştəriyə təhvil verəndə ondan artıq şey (pul) tələb etməyə haqqı yoxdur. Eləcə də onun malın misdaqı olmayan malı təhvil verməyə haqqı yoxdur, müştəri də onu qəbul etməyə, nəinki artıq qiymətin müqabilində, hətta həmin pulun müqabilində olsa belə, iltizamlı deyil.

---

Sual: **1605**: Tikilişi hələ başa çatmayan yaşayış binasını, pulunu kredit şəklində ödəmək şərti ilə aldım. Sonra tikilib qurtarmamışdan və satıcıdan təhvil almamışdan qabaq onu başqa adama satdım. Bu al-ver düzgündürmü?

Cavab: Əgər alınmış bina, (ümumi şəkildə deyil) şəxsi və cüzi (fərdi) bir mənzil olsa və sən də onu pulunu hissə-hissə ödəməklə nisyə şəklində, satıcının onu tikib təkmil etməsi şərtilə almısansa, bu halda onu almağın və tikilib qurtarmamışdan, satıcıdan təhvil almamışdan qabaq onu satmağın eybi yoxdur.

---

Sual: **1606**: Tehranın beynəlxalq kitab sərgisindən sələf vasitəsilə bir qədər kitab almışam. Pulun yarısını məndən alıblar, digər yarısını da kitabları təhvil verəndən sonra alacaqlar, ödəniş vaxtı da müəyyən olunmayıb. Bu al-ver düzgündürmü?

Cavab: Əgər qabaqca ödənmiş məbləğ beh kimi olsa və alver kitabları təhvil verib pulun qalanını alan vaxt icra olunsa, bu halda onun eybi yoxdur. Amma al-ver pulun bir hissəsini verən vaxt və nisyə şəklində olsa, həmçinin onun ödəniş vaxtı müəyyən edilməsə, yaxud sələf al-veri şəklində olsa, amma al-ver məclisində pulun hamısı nağd verilməsə, bu halda al-ver şəri cəhətdən batildir. Əlbəttə, sələf al-verində al-ver pulun verildiyi miqdarda düzgündür, eyni zamanda satıcı həmin miqdarda da müamiləni poza bilər.

---

Sual: **1607**: Bir şəxs başqasından bir malı bu şərtlə alıb ki, malı müəyyən bir müddətdən sonra ondan təhvil alsın. Təyin olunmuş vaxt gəlib çatandan sonra mal satış dəyərini itirmişdir. Bu halda müştəri malın özünü götürməyə haqlıdır, yoxsa malın pulunu almalıdır?

Cavab: Əgər müamilə şəri cəhətdən düzgün şəkildə icra olunsa, müştəri o malın özünü almağa haqlıdır. Amma əgər onun maliyyətdən tamamilə düşməsi (dəyərini itirməsi) camaat arasında onun tələf olması sayılsa, onda bu səbəbə görə al-ver öz-özünə pozulur və satıcı pulu müştəriyə qaytarmalıdır.

## Qızıl, gümüş və pul al-veri

---

Sual: **1608**: Əgər qızıl külçəsi nağd olaraq müəyyən bir məbləğə və gündəlik qiymətə satılsa, onda onu iki tərəfin razılığı ilə bir ay müddətinə nisyə şəklində gündəlik qiymətdən artıq məbləğə satmaq caizdirmi? Bu qızıl külçəsinin satışından əldə olunan qazanc halaldırmı?

Cavab: Al-ver əqdində qiyməti təyin etmək – istər nağd şəklində olsun, istərsə də nisyə – iki tərəfin razılığına bağlıdır. Buna əsasən qeyd olunan müamilənin, həmçinin ondan ələ gələn qazancın eybi yoxdur. Əlbəttə, qızılın qızıla olan müamiləsində, onlardan birinin çəkisinin digərindən çox olması, həmçinin onlardan birinin nisyə olması halında caiz deyil.

---

Sual: **1609**: Qızıl məmulatları düzəltməyin (zərgərlik etməyin) hökmü nədir? Onun müamiləsində hansı şeylər şərtdir?

Cavab: Qızılı (məmulatları) düzəldib satmağın eybi yoxdur. Lakin qızılın qızılla müamilə olunmasında onların nağd olması, hər ikisinin miqdarının bərabər olması və onların müamilə məclisində təhvil alınması şərtdir.

---

Sual: **1610**: Kağız pulları (əskinasları) nisyə olaraq öz məbləğindən baha qiymətə satıb-almaq caizdirmi?

Cavab: Əgər bu müamilə ciddi qəsd ilə və normal bir iş üçün olsa, məsələn əskinaslar köhnə və təzə olmaq baxımından fərqli olsa, yaxud məxsus əlamətlərə malik olsa, yaxud onların məzəndəsi fərqli olsa, eybi yoxdur. Amma müamilə zahi və faizdən qurtarmaq məqsədilə və həqiqətdə pulun qazancını əldə etmək üçün olsa şəri cəhətdən haram və batildir.

---

Sual: **1611**: Bəziləri ümumi telefon danışıqlarında işlədilən jetonları öz qiymətindən baha qiymətə satırlar. Bu al-ver şəri baxımdan düzdürmü?

Cavab: Jetonları onlardan telefon danışıqlarında və başqa işlərdə istifadə etmək üçün öz məbləğindən baha qiymətə satıb-almağın eybi yoxdur.

---

Sual: **1612**: Əgər bir nəfər qədim pul vahidini hazırda işlənən təzə pul vahidinin qiymətinə, onun qiymətinin təzə pul vahidinin qiymətinin yarısı qədər olmasını bilmədən satsa, yaxud alsa, sonra onu alan adam da onu təzə pul vahidinin qiymətinə başqa adama satsa, bu halda zərərə salmış adamın zərərə düşmüş adamın zərərə düşməsini bildirməsi vacibdirmi? Bu zərərli satışlar düzdürmü? Onlardan əldə edilən mallarda təsərrüf etmək caizdirmi, yoxsa onlar maliki məchul olan mal, yaxud haram mala qarışmış halal mal hökmündədir?

Cavab: Qədim pul vahidinin qiyməti indi işlənən təzə pul vahidinin qiymətindən çox az olsa belə, onu, müamilə edən iki tərəfin razılığa gəldikləri qiymətə almağın eybi yoxdur. Satılan şeyin də maliyyəti olsa və bazarda mövcud pul vahidinin qiymətindən az olsa belə qiymət və dəyərə malik olsa, düzgündür, hərçənd (müştəri üçün) zərərli olsa belə. Zərərə düşmüş adama zərərə düşməyini demək də zərərə salmış adama vacib deyil. Zərərli müamilədən hasil olan mal zərərə salan üçün başqa mallar hökmündədir. Buna görə də zərərə düşmüş adam müamiləni pozmayınca, o malda təsərrüf etmək onun (zərərə salan) üçün caizdir.

---

Sual: **1613**: Kağız pulları onların mal olmasına, yaxud etibar və maliyyəti göstərməsinə görə deyil, əksinə onların məxsus kağız pulları olmasına görə satıb-almağın hökmü nədir? Məsələn üstündə imam Xomeyninin (r.ə.) şəkli olan min tümənlik yaşıl kağız pulu min tüməndən artıq qiymətə satsa, yaxud alsa.

Cavab: Bu kağız pulları ciddi şəkildə və ağlabatan bir məqsədə görə satıb-almağın eybi yoxdur. Amma zahiri al-ver və faizli borc qaçmaq üçün olsa, haram və batildir.

---

Sual: **1614**: Pul vahidlərini dəyişən adamın işinin (sərraflığın), həmçinin az tapılan pulları satıb-almağın hökmü nədir?

Cavab: Öz-özlüyündə eybi yoxdur.

---

Sual: **1615**: Hökumətin borcvermə (istiqraz) vərəqlərini almağın hökmü nədir? Şəri cəhətdən bu vərəqləri satıb-almaq caizdirmi?

Cavab: Əgər məqsəd milli istiqraz vərəqlərini çap edib satmaq yolu ilə dövlətin xalqdan borc alması olsa, bu halda camaatın həmin vərəqləri almaqla dövlətə borc verməkdə iştirak etmələrinin eybi yoxdur. Əgər bu vərəqləri almış müştəri öz malını (pulunu) ələ gətirmək üçün onları satmaq istəsə, əgər onları başqa adamdan, yaxud dövlətdən aldığı qiymətə, yaxud ondan ucuz qiymətə satsa, onun eybi yoxdur.

## Ticarətlə əlaqədar müxtəlif məsələlər

---

Sual: **1616**: Bəzi istehsal mərkəzlərində digər fabrik və zavodlarda hazırlanmış müxtəlif hissələri toplayaraq onlardan qabaqcıl xarici dövlətlərdən birinin adı ilə avadanlıq istehsal edib satışa buraxırlar. Görəsən bu iş (ğəşş və tədlis) bir növ fırıldaq hesab olunurmu? Fırıldaq hesab olunduğu təqdirdə, müştərinin bu işdən xəbərdar olub-olmamasının, üzərində alqı-satqı aparılan əşyanın al-veri düzgündür, yoxsa batil?

Cavab: Əgər qeyd olunan hissələrin və ya istehsalı başa çatmış müştəri üçün malın daxili və ya xarici olmasını müəyyənləşdirmək mümkün olmasa, həmin şeyin yığılması və istehsalına fırıldaq demək olmaz. Amma malı həqiqətə uyğun olmayan adlarla təqdim etmək haramdır və əgər al-ver həmin əşyanın üzərində həqiqətə uyğun olmayan nişanələrlə (etiketlərlə) aparılıbsa, müamilə düzgündür. Lakin müştəri sonradan həqiqəti başa düşərsə, al-veri pozmağa ixtiyarı vardır.

---

Sual: **1617**: İstehsalçıların və satıcıların öz fabrik və mağazalarının üzərində əcnəbi reklamlar vurması caizdirmi? Və yaxud müştəri və alıcıların diqqətini cəlb etmək üçün uşaq paltarlarının üzərində xarici şəkil və hərflər yazmaq olarmı?

Cavab: Əgər müştərini aldatmaq məqsədi daşımasa, eləcə də əcnəbi mədəniyyətinin təbliği hesab olunmasa, eybi yoxdur. Amma islam ölkəsinin qanunlarına riayət etmək lazımdır.

---

Sual: **1618**: Qeyri-müsəlmanlarla ticarət edən zaman elmi və maddi cəhətdən daha çox fayda qazanmaq üçün (onlar özü başa düşmədiyi təqdirdə) yalan və fırıldaq işlətməyin hökmü nədir?

Cavab: Alqı-satqılarda və ticarətdə yalan və fırıldağa icazə verilmir, hətta qarşı tərəf qeyri-müsəlman olsa da.

---

Sual: **1619**: Ticarətdə satılan maldan nə qədər qazanc əldə etməyə icazə verilir?

Cavab: Qazanc əldə etməyin müəyyən bir həddi yoxdur. Buna görə də zülm və insafsızlıq həddinə çatmayınca və dövlət qayda-qanunlarının ziddinə olmayınca işkalı yoxdur. Amma yaxşı olar ki, hətta müstəhəbdir ki, satıcı öz dolanışıq xərclərini çıxarmaq miqdarında qazanc əldə etməklə kifayətlənsin.

---

Sual: **1620**: Bir nəfər öz mülkiyyətində olan sudan ayrı-ayrı şəxslərə müxtəlif qiymətlərlə satır. Bu suların hamısının bir quyu və arxdan olmasını nəzərə almaqla, qiymətlərin müxtəlif olmasına öz etirazımızı bildirməyə haqqımız varmı?

Cavab: Əgər satıcı həmin suyun həqiqi sahibidirsə və ya şəri nöqteyi-nəzərdən onu satmaq səlahiyyəti vardırsa, digərlərinin qiymətin müxtəlif olmasına etiraz etməsinə haqqı yoxdur.

---

Sual: **1621**: Əgər bir malı şirkətdən azad bazarda olan qiymətdən aşağı olaraq dövlətdə təyin olunmuş qiymətə alsam, onu azad bazarda aldığımdan baha qiymətə, hətta üçqat bahasına sata bilərəmmi?

Cavab: Əgər onun satışı dövlət tərəfindən qadağan olunmayıbsa, qiymətin artırılması da müştəriyə qarşı zülm və insafsızlıq hesab olunmazsa, işkalı yoxdur.

---

Sual: **1622**: Mən elektron cihaz və avadanlıqları istehsalçılarındanam. Həmin cihazları mövcud bazar və istehlakçılar qəbul etdiyi təqdirdə, istədiyim qiymətə sata bilərəmmi?

Cavab: Dövlət tərəfindən qiyməti müəyyən olunmamış malların satışı alıcı ilə satıcı arasında anlaşma hasil olduqda və alıcıya qarşı zülm və insafsızlıq olmadıqda işkalı yoxdur.

---

Sual: **1623**: İslam nöqteyi-nəzərindən varlanmağın hökmü nədir və onun həddi-hüdudu necədir? Mümkündürmü ki, bir şəxs kasıbların, fəqirlərin haqqını verdikdən sonra dövlətli olsun? Görəsən İslamın varlanma ilə mübarizəsi təkcə o şəxslərə aid olur ki, onlar xüms və zəkat vermirlər, yoxsa bu vergiləri verən şəxslərə da aid olur və ümumiyyətlə mümkündürmü ki, insan bütün şəri vergilərini verdikdən sonra həddən artıq varlana bilsin?

Cavab: Varlıların mallarına aid olan şəri vergilər təkcə xüms və zəkatla bitmir və İslam dini də var-dövlətin artması ilə müxalif deyil, bu şərtlə ki, onun toplanması qanuni yollarla həyata keçirilsin, həmin şəxs də öz malına aid olan bütün vergiləri ödəsin və onu şəriətdə müəyyən olunmuş, İslam dini və müsəlmanların xeyrinə olan yerlərdə işlətsin. Belə olan surətdə insanların varlanmasının işkalı yoxdur.

---

Sual: **1624**: Bizim aramızda adətdir ki, digər bir şəxs üçün maşın almaq işini öz öhdəsinə götürən şəxs həmin maşını məsələn, 1 milyon tümənə aldığı təqdirdə maşın aldığı şəxsə onu 1 milyon yüz min tümənə aldığını deyir və artıq qalanını öz zəhmət və təlaşının haqqı hesab edərək özünə götürür. Bu al-ver düzgündürmü?

Cavab: Əgər o şəxs başqa şəxs tərəfindən maşın almaqda vəkildirsə, bu surətdə maşını müəyyən bir qiymətə danışıb almaq vəkil tutan şəxsin haqqı hesab olur və vəkilin haqqı yoxdur ki, ondan əlavə bir şey tələb etsin. Bəli, o, öz vəkaləti üçün müəyyən haqq tələb edə bilər. Amma əgər maşını özü üçün alıb ondan maşın almağı istəyən şəxsə satsa, onu qarşılıqlı razılaşma əsasında sata bilər və bu surətdə də yalandan maşını bir qiymətə almasını deyə bilməz, söz yox ki, yalan danışmaq al-veri batil etmir.

---

Sual: **1625**: Bəzi qardaşlar avtomobil təmir sexlərində işləyirlər; bəzən maşın satanlar onlara müraciət edir, az bir xərclə öz maşınlarını yüngülvari təmir etdirmək istəyirlər. Onlar güman edirlər ki, maşının zahiri görkəmi onu müştəriyə satmaq üçün kifayət edər. Görəsən təmirçilər tərəfindən bu işləri görmək düzgündürmü?

Cavab: Əgər bu iş fırıldağa səbəb olarsa və ustalar maşın sahibinin bu eybləri müştəridən gizlədəcəyini bilərlərsə, düzgün deyil.

## Sələmin hökmləri

---

Sual: **1626**: Bir sürücü yük maşını almaq istəyir, bu iş üçün lazım olan pulu başqa adamdan alıb ki, onun vəkili olaraq maşını onun üçün alsın, sonra pul sahibi pulunu hissə-hissə ödəməklə maşını sürücüyə satsın. Bu müamilənin hökmü nədir?

Cavab: Əgər sürücü bu müamiləni mal (pul) sahibi tərəfindən vəkil olmaqla icra etsə və bundan sonra mal sahibi maşını vəkilin özünə, pulu hissə-hissə ödəməklə satsa, onda bu yolla sələmdən qaçmaq üçün hiylə işlətməyi qəsd etməsələr və hər iki müamilədə satıb-almağı ciddi şəkildə icra etmək istəsələr, onun eybi yoxdur.

---

Sual: **1627**: Sələmlə borc vermək nədir? Banka pul qoymuş adamların bankdan gəlir adı ilə aldıqları faiz sələm sayılırmı?

Cavab: Borc vermədə olan sələm odur ki, borc almış adam borc aldığı malın müqabilində mal sahibinə aldığından artıq bir şey verə. Amma banka əmanət kimi qoyulmuş malı (pulu) mal sahibi tərəfindən vəkil olaraq düzgün olan şəri əqdlərin birində işlətməklə qazanc etməkdən hasil olan mənfəət sələm deyil və onun eybi yoxdur.

---

Sual: **1628**: Sələmli müamilənin meyarı nədir? "Sələm başqasında yox, təkcə borc verməd olur" - fikri düzdürmü?

Cavab: Sələmin borc verməd olması mümkün olduğu kimi, al-verdə də olması mümkündür. Al-verdə olan sələm – çəki və ölçü ilə ölçülən bir malı onunla həmcins olan başqa şeyin artığını almaqla satmaqdır.

---

Sual: **1629**: Məcburiyyət (çarəsizlik) vaxtı meytəni (ölü heyvan ətini) yemək aclığın şiddətindən ölüm ərəfəsində olan və meytədən başqa aclığını aparacaq bir şey tapmayan adam üçün şəri cəhətdən caiz olduğu kimi, iş görməyə qüdrəti olmayan, lakin bir qədər malı (sərmayəsi) olan və malın mənfəəti vasitəsilə dolanmaq üçün ondan sələmlə müamilədə istifadə etməyə məcbur olan adam üçün sələmi məcburiyyət vaxtı yemək də caizdirmi?

Cavab: Sələm haramdır və onu, məcburiyyət vaxtı murdar əti yeməyə oxşatmaq düzgün deyil, çünki murdardan başqa bir şey tapmayan çarəsiz şəxsin hal-hazırda aclığını dəf etmək və canını xilas etmək üçün ondan başqa bir şey yoxdur. Amma iş görməyə qüdrəti olmayan adam öz sərmayəsini müzaribə kimi islami əqdlərdən birinin vasitəsilə dövriyyəyə buraxa bilər.

---

Sual: **1630**: Bəzən poçt markaları ticarət müamilələrində özlərinin təyin olunmuş qiymətlərindən baha qiymətə satılır. Bu al-ver düzgündürmü?

Cavab: Onun eybi yoxdur və belə artıqlıq sələm sayılmır. Çünki sələmli müamilə odur ki, çəki, yaxud ölçü (qab) ilə satılan iki mal bir-biri ilə müamilə olunsun və biri digərindən artıq olsun. Bu növ müamilə batildir.

---

Sual: **1631**: Sələm fiziki və hüquqi şəxslərin hamısı üçün eyni səviyyədə haramdır, yoxsa bəzi yerlərdə istisna olunubdur?

Cavab: Sələm ümumi şəkildə haramdır. Lakin ata ilə övlad, ərlə arvad arasında olan sələmli borc vermə və müsəlmanın qeyri-müsəlmandan aldığı sələm istisna olunubdur.

---

Sual: **1632**: Əgər bir müamilədə satıb-alma müəyyən bir məbləğə tamam olsa, lakin iki tərəf müştərinin müamilə pulunu müddətli qəbz surətində verəcəyi halda pulun üstünə bir miqdar əlavə edilməsi əsasında razılığa gəlsələr, bu iş onlar üçün caizdirmi?

Cavab: Əgər müamilə müəyyən, konkret bir qiymətə tamam olsa və artıq miqdar, əsli məbləği verməyi təxirə salmaq üçün olsa, bu halda artıq miqdar şəri cəhətdən haram olan sələmdir və sadəcə olaraq iki tərəfin artıq miqdara razılığa gəlməsinə görə bu pul halal olmur.

---

Sual: **1633**: Əgər bir şəxsin müəyyən qədər pula ehtiyacı olsa və onu qərzül-həsənə (faizsiz borc) şəklində verəcək bir adam tapılmasa, bu halda həmin məbləği aşağıdakı yolla ələ gətirməsi caizdirmi. Bir malı nisyə şəkildə öz həqiqi qiymətindən baha qiymətə alıb, sonra onu elə həmin məclisdə nağd şəkildə ucuz qiymətə bir adama satır. Məsələn, bir kiloqram zəfəranı müəyyən bir qiymətə bir il müddətinə nisyə şəkildə alır, sonra onu həmin məclisdə satıcının özünə aldığı qiymətin üçdə ikisinə nağd şəkildə satır.

Cavab: Əslində sələmli borc vermədən qaçmaq üçün bəhanə olan belə müamilə şəri cəhətdən haram və batildir.

---

Sual: **1634**: Mən malımdan (pulumdan) qazanc əldə etmək və sələmdən qaçmaq üçün aşağıdakı kimi müamilə etdim: Bir evi beş yüz min tümənə aldım, halbuki, həqiqi qiyməti bundan artıq idi. Əqddə şərt etdik ki, satıcı beş aya qədər al-veri pozmaq haqqına malik olsun, bu şərtlə ki, müamiləni pozarsa, aldığı pulu (evin pulunu) geri qaytarsın. Müamilə tamam olandan sonra həmin evi satıcının özünə ayda on beş min tümənə icarəyə verdim. Müamilədən dörd ay keçəndən sonra mərhum imam Xomeyninin sələmdən qaçmağı caiz bilməməsi ilə əlaqədar fətvasından xəbərdar olmuşam. Sizin nəzərinizcə bunun hökmü nədir?

Cavab: Əgər onların bu işlərdə ciddi qəsdləri olmasa, əksinə, formal xarakter daşısa və satıcının borc almaq, müştərinin də qazanc alması məqsədi olsa, sələmli borcvermədən qaçmaq üçün bəhanə olan belə bir müamilə şəri cəhətdən haram və batildir. Belə bir müamilədə müştərinin təkcə satıcıya verdiyi malın özünü geri almağa haqqı vardır.

---

Sual: **1635**: Sələmdən qaçmaq məqsədilə mala bir şey qoşmağın hökmü nədir?

Cavab: Sələmli borc vermənin caiz olmasında bu işin heç bir təsiri yoxdur və ona bir şey əlavə etməklə halal olmur.

---

Sual: **1636**: İşçinin işlədiyi müddətdə öz aylıq maaşının bir hissəsini qocalıq günləri üçün təqaüd sandığına qoyur və sonradan (təqaüdə çıxandan sonra) onu təhvil alır. Lakin dövlət təqaüdçüyə pul verəndə onun işlədiyi müddətdə təqaüd sandığına qoyduğu puldan artıq miqdarda təqaüd pulu verir. Bu təqaüd maaşını almağın eybi varmı?

Cavab: Təqaüd pullarını almağın eybi yoxdur. Dövlətin təqaüdçüyə, onun aylıq maaşından çıxılmış məbləğdən artıq miqdarda verdiyi pul o maaşın mənfəəti deyil və sələm sayılmır.

---

Sual: **1637**: Bankların bəzisi rəsmi sənədi olan evləri təmir etmək üçün ssuda adı ilə borc verir, bu şərtlə ki, borc götürmüş adam borcunu hər ay verəcəyi hissədən artıq olan müəyyən bir faizlə birlikdə məlum müddətə qədər ödəməlidir. Şəri cəhətdən bu şəkildə borc götürmək caizdirmi? Onda ssuda necə təsəvvür olunur?

Cavab: Əgər bu məbləğ evini təmir etmək üçün onun sahibinə borc kimi verilsə, bu halda onun cüalə olmasının mənası yoxdur, borcvermədə artıq məbləği şərt etmək də caiz deyil. Borcvermənin özünün hər bir halda düzgün olmasına baxmayaraq borcvermədə artıq məbləği şərt etmək caiz deyil. Amma ev sahibinin evi təmir etməyin müqabilində bank üçün əvəz (pul) qərar verməsinin eybi yoxdur. Bu halda bankın alacağı pul (zəhmət haqqı) təkcə təmirdə çəkdiyi xərc deyil, ev sahibinin götürdüyü borcun müqabilində hər ay hissə-hissə verdiyi pul ilə bankın evin təmirində çəkdiyi xərcin cəmi olacaqdır.

---

Sual: **1638**: Malı nisyə alarkən nağd şəkildəki qiymətindən artıq qiymətə almaq caizdirmi? Bu iş sələm sayılırmı?

Cavab: Malı nağd qiymətindən artıq qiymətə satıb-almağın eybi yoxdur. Nağd və nisyə qiymət arasında olan fərq sələm sayılmır.

---

Sual: **1639**: Bir nəfər öz evini ixtiyarlı bey şəklində satıbdır. Lakin təyin olunmuş vaxta qədər pulu müştəriyə qaytarmağa imkanı olmayıb. Bu vaxt üçüncü bir şəxs, evin pulunu müştəriyə veribdir ki, müamiləni poza bilsin. Bu şərtlə ki, öz pulunu almaqdan əlavə, özünün zəhmət haqqı adı ilə bir məbləğ də alsın. Şəri cəhətdən bu məsələnin hökmü nədir?

Cavab: Əgər o şəxs satıcı tərəfindən müamilə pulunu qaytarmaqda və onu pozmaqda vəkil olsa, belə ki, əvvəlcə pulun miqdarını satıcıya borc verir, sonra satıcı tərəfindən vəkil olmaqla onu müştəriyə qaytarıb müamiləni pozur, bu halda onun bu işinin və vəkalət üçün zəhmət haqqı (pul) almasının eybi yoxdur. Amma müştəriyə verdiyi pulu satıcıya borc kimi versə, bu halda onun təkcə satıcıdan onun tərəfindən müamilə adı ilə verdiyi pulu tələb etməyə haqqı yoxudur.

# Şüfə haqqı

---

Sual: **1640**: Əgər bir şey iki adama vəqf olunsa və onlardan biri öz payını (vəqf olunmuş şeyi) satmağın caiz olduğu yerdə üçüncü bir adama satsa, belə bir vəqfdə şüfə haqqı vardırmı? Əgər iki adam bir mülkü, yaxud vəqfi şərikli şəkildə icarəyə götürsələr və sonra onlardan biri öz haqqını razılaşma, yaxud icarə və ya başqa bir yolla üçüncü adama həvalə etsə, icarə olunmuş belə bir şeydə şüfə haqqı varmı?

Cavab: Şüfə haqqı təkcə o yerdədir ki, bir şeyin (malın) eyninin mükliyyətində şəriklik olsun və iki şərikdən biri öz hissəsini üçüncü adama satsın. Deməli, bir şey iki adama vəqf olunsa və vəqf olunmuş şeyi satmağın caiz olması fərzi ilə onlardan biri öz hissəsini başqasına satsa, belə bir vəqfdə şüfə haqqı yoxdur. Həmçinin icarə olunmuş malın eynində də əgər onlardan biri öz haqqını başqasına həvalə etsə, bu halda da şüfə haqqı yoxdur.

---

Sual: **1641**: Hal-hazırda mövcud olan fiqhi mətnlərin və "mədəni qanun" maddələrinin şüfə haqqı bölməsində olan ifadələrindən məlum olur ki, əgər iki şərikdən biri öz hissəsini üçüncü adama satsa, o biri şərikin şüfə haqqı vardır. Buna əsasən, əgər şəriklərdən biri müştərini, o biri şərikin hissəsini almağa sövq etsə, yaxud müştəriyə açıq şəkildə "şərikimin hissəsini alsan, şüfə haqqından istifadə etməyəcəyəm" - desə, bu əməl şüfə haqqının aradan getməsi sayılırmı?

Cavab: Bir şərikin sadəcə olaraq üçüncü bir adamı o biri şərikin hissəsini almağa sövq etməsinin onun üçün şüfə haqqının olması ilə ziddiyyəti yoxdur. Hətta əgər ona müştəri ilə digər şərik arasında müamilənin baş verəcəyi surətdə şüfə haqqından istifadə etməyəcəyinə dair söz verməsi, bu da müamilənin baş verməsindən sonra onun şüfə vasitəsilə götürmək haqqının aradan getməsinə səbəb olmur. Amma əgər əvvəldən, lazımi əqdlə yanaşı müştəri ilə şərikinin arasında müamilənin gerçəkləşəcəyi surətdə şüfədən istifadə etməyəcəyinə dair iltizam vermiş olsa, bu hal istisna olunur.

---

Sual: **1642**: Şərikin öz hissəsini üçüncü adama satmamışdan qabaq şüfə haqqını ləğv etməsi – haqqın ləğv edilməsinin hələ gerçəkləşməyən bir iş olduğuna əsasən – düzgündürmü?

Cavab: Şüfə haqqı yaranmayınca və bir şərikin öz hissəsini üçüncü adama satması ilə hələ (hal-hazırda) mövcud olmayınca, ondan keçmək düzgün deyil. Lakin şərikin lazım bir əqd daxilində o biri şərikin öz hissəsini başqa adama satacağı təqdirdə şüfə haqqından keçmək şərtinə iltizamlı olmasının eybi yoxdur.

---

Sual: **1643**: Bir nəfər iki mərtəbəli evin bir mərtəbəsini icarəyə götürüb. Ev ona bir məbləğ pul borcu olan iki qardaşındır. Dəfələrlə öz borcunu qaytarmağı israr etməsinə baxmayaraq, o iki qardaş iki ildir ki, borcu qaytarmaqdan imtina edir. Buna

görə də şəri cəhətdən onun üçün təqas haqqı yaranıbdır. Evin qiyməti onun alacağı miqdardan artıqdır. Bu şəxs öz alacağı miqdarını təqas yolu ilə evdən götürüb o iki qardaşla evə şərik olsa, evin qalan hissəsində onun üçün şüfə haqqı olurmu?

Cavab: Sualın fərz olunduğu məsələdə şüfə haqqından söhbət gedə bilməz, çünki şüfə haqqı təkcə o şəxs üçün olur ki, şəriki öz hissəsini üçüncü adama satıb, şəriklik də satışdan qabaq olub. İki şərikdən birinin hissəsini almaqla, yaxud təqas yolu ilə o hissəyə malik olmaqla o biri şəriklə şərik olan şəxs üçün şüfə haqqı olmur. Bundan əlavə şüfə haqqı təkcə o yerdə olar ki, mülk artıq deyil, yalnız iki adam arasında şərikli olsun və onlardan biri öz hissəsini satsın.

---

Sual: **1644**: Bir mülk iki nəfər arasında yarı şəkildə müştərək idi. Mülkiyyət sənədi də onların hər ikisinin adına idi. Sonra onların hər ikisinin dəsti-xətti ilə yazılmış adi bölgü sənədinə uyğun olaraq mülk bölündü və hər birinin hədləri müəyyən olan iki hissəyə ayrıldı. Əgər mülk bölünüb ayrılandan sonra onlardan biri öz hissəsini üçüncü bir adama satsa, bu halda sadəcə mülkün sənədinin onların arasında müştərək olmasına əsaslanaraq o biri şərik üçün şüfə haqqı sabit olurmu?

Cavab: Əgər satılan hissə müamilə zamanı öz məxsus hədləri ilə o biri şərikin hissəsindən ayrılsa, müəyyən olan halda mülkün sənədində şərik olmaqla şüfə haqqının sabit olmasına səbəb olmur.

---

Sual: **1645**: Əgər insanın gördüyü iş, fiziki və zehni baxımdan çox fəaliyyət tələb etməyən işlərdən olsa və maddi xərclərə də ehtiyacı olmasa, əlaqədar təşkilatlar tərəfindən müəyyən qiymət təyin edilməsə və o işin yerinə yetirilməsinə sərf olunan orta vaxt da onlara qiymət qoyulması üçün ümumi meyar olmasa, bu kimi işlərdə müştəriyə zülm edilməsinə səbəb olmayacaq dərəcədə əmək haqqının təyin olunmasında meyar nədir?

Cavab: Bu qəbildən olan işlərin əmək haqqının təyin olunması camaatın nəzərinə həvalə edilir və müamilə tərəflərinin razılaşdığı müəyyən məbləğ əsasında olmasının eybi yoxdur.

---

Sual: **1646**: Mən bir evi icarəyə götürdükdən sonra məlum olub ki, onun alındığı pulun bir miqdarı faizli maldan imiş. Mənim vəzifəm nədir?

Cavab: Evi icarəyə verən şəxsin faizli malın eyni ilə bu evi almasını (dəqiq şəkildə) bilmədiyiniz vaxta qədər ondan istifadə etməyinizin eybi yoxdur.

---

Sual: **1647**: İşlədiyim dövlət müəssisəsində məni iki aylıq ezamiyyətə - xaricə göndərdilər və bu işin üçün əmək haqqı olaraq bir qədər xarici pul da verdilər. Onu mərkəzi bankdan çox ucuz qiymətə əldə edə bildim. Lakin məlum səbəblər üzündən mənim ezamiyyətim bir aydan artıq çəkmədi. Qayıtdıqdan sonra xarici pulun qalan yarısını aldığım qiymətdən çox artıq qiymətə satdım. İndi öhdəmdə olanları dövlətin hesabına keçirməklə məsuliyyəti üzərimdən götürmək istəyirəm. Xarici pulları almağa sərf etdiyim məbləği verməliyəm, yoxsa onları satmaqla əldə etdiyim məbləği?

Cavab: Əgər o əmək haqqı sizə, ezamiyyət günləri üçün verilmişdirsə, qalan günlər bərabərində artıq qalan məbləğə zaminsiniz, onun eynini, yaxud əvəzini gündəlik qiymətlə dövlətə qaytarmalısınız.

---

Sual: **1648**: Bir nəfər fəhlələrlə sahibkar arasında vasitədir. Belə ki, sahibkar müəyyən məbləği onların əmək haqqısı adı ilə o şəxsə verir, o şəxs isə həmin məbləğdən az miqdarda fəhlələrə verir. Bu işin hökmü nədir?

Cavab: Əgər vasitə olan şəxs sahibkar tərəfindən vəkil seçilmiş olsa, fəhlələrə verdiyi miqdardan artıq qalanını sahibkara qaytarması vacibdir və sahibinin razı olmasını bilməyincə, ondan istifadə etməsi caiz deyil.

---

Sual: **1649**: Bir nəfər bir qədər vəqf olunmuş torpaq sahəsini onun şəri və qanuni sahibindən on il müddətinə icarəyə almışdır, bu barədə rəsmi icarə müqaviləsi də yazılmışdır. Lakin icarəyə verən şəxsin vəfatından sonra onun canişini iddia edir ki, torpağın sahibi səfeh imiş və onun icarəsi batildir. Bu məsələnin hökmü nədir?

Cavab: İcarəyə verən şəxsin vəqf olunmuş torpaq sahəsindəki təsərrüflərinin batil olması sübut olunmayınca onun vasitəsilə torpağın icarəyə verilməsinin düzgün olmasına hökm olunur.

---

Sual: **1650**: Bir nəfər came məscidinin vəqf mağazalarının birini məlum müddətə icarəyə götürmüşdü. Amma icarə müddəti qurtardıqdan sonra bir neçə illik icarə haqqını verməməkdən əlavə, onu boşaltmaqdan da imtina edir və onu boşaltmaq üçün bir neçə milyon tümən tələb edir. Bu məbləğin məscidin vəqf olunmuş əmlakından ona verilməsi caizdirmi?

Cavab: İcarə müddəti qurtardıqdan sonra icarəyə götürən şəxs icarəyə verilən şeyin eynində heç bir haqqa malik deyil. Mağazanı boşaldıb onun nəzarətçisinə verməsi vacibdir. Amma əgər qanuni nəzərdən onun üçün bir haqq nəzərdə tutulmuş olsa, onu tələb edə bilər və bu halda o məbləğin məscidin vəqf olunmuş əmlakından verilməsinin eybi yoxdur.

---

Sual: **1651**: Bir nəfər bir evi müəyyən müddətə və müəyyən məbləğə icarəyə götürüb. Sonra da təyin olunmuş müddətin qurtaracağı vaxtdan sonra digər bir müddət üçün əvvəlki icarə haqqından çox məbləğdə pulu icarə haqqı olaraq əvvəlcədən ev sahibinə bu şərtlə verir ki, evin sahibi müəyyən müddətə qədər evi boşaltmağı ondan tələb etməsin, əks halda evi boşaldan zaman ikinci icarəni də birinci icarə haqqı qədərində hesablayacaq və artıq miqdarı ondan tələb edəcək. Amma ev sahibi qeyd olunan müddət qurtarmazdan əvvəl evi boşaltmasını tələb etdi və artıq verməli olduğu miqdarı da qaytarmaqdan imtina etdi. Bu məsələnin hökmü nədir? Ev sahibinin, evi rəngləməklə əlaqədar çəkilən xərcləri icarəçidən alması caizdirmi? Halbuki, bu barədə onunla icarəçi arasında heç bir müqavilə və razılaşma olmamışdır.

Cavab: İcarə əqdi (müqaviləsi) bağlanan zaman icarəyə verən şəxsin təyin olunmuş vaxt qurtarmazdan əvvəl evi boşaltmasını tələb edəcəyi təqdirdə icarəyə götürən şəxsin icarə müddəti qurtarandan sonra ikinci icarə müddətində elə birincidə olan qədər icarə haqqı verməsi şərt olunmuş olsa, icarəyə verən şəxsin bu şərtin əksinə olaraq əlavə miqdar almağa haqqı yoxdur. Əgər əlavə miqdar almış olsa, icarə götürənə qaytarmalıdır. Evin rənglənməsi üçün çəkilən xərclər də icarəçinin öhdəsinə deyil.

---

Sual: **1652**: Bir nəfər iki otağı hər ay müəyyən məbləğ verməklə icarəyə götürmüşdür. Ev sahibi də evin açarlarını ona təhvil vermişdir. İcarəçi ev əşyalarını və mənzil avadanlıqlarını oraya daşıdıqdan sonra öz ailəsini gətirmək üçün getmiş, amma bir daha qayıtmamışdır. Ev sahibinin də onun barəsində və gəlməməsinin səbəbi barədə heç bir məlumatı yoxdur. Ev sahibinin otaqlardan istifadə etməyə haqqı varmı? İcarəçinin ev əşyaları və mənzil avadanlıqları barəsində vəzifəsi nədir?

Cavab: Əgər icarə şəri cəhətdən düzgün şəkildə gerçəkləşməmiş olsa, məsələn, icarə müddətini təyin etməmişlərsə, icarənin gerçəkləşməsində icarəçinin heç bir haqqı yoxdur, əksinə onun ixtiyarı ev sahibinin əlindədir, ondan istədiyi kimi istifadə edə bilər. Amma icarəçinin vəsaitləri onun yanında əmanətdir və onları qoruyub saxlamalıdır. İcarəçi qayıdıb gəldikdən sonra ondan qapını bağladığı və vəsaitlərini oraya qoyduğu müddətdə təsərrüf etməsi müqabilində otağın ücrətül-mislini tələb edə bilər. Amma icarə şəri baxımdan düzgün şəkildə gerçəkləşmiş olsa, ev sahibi icarə müddətinin qurtarmasına qədər gözləməlidir və o müddətin hamısında icarəyə götürən şəxsdən icarə haqqını almağa haqqı vardır. İcarə müddəti qurtardıqdan sonra artıq o icarəçininn evdə heç bir haqqı yoxdur və icarənin ilk əvvəldən batil olduğu hal kimidir.

---

Sual: **1653**: Biz bir şirkətin işçiləriyik və şirkətin, sahibindən icarəyə götürdüyü bir binada yaşayırıq. Hal-hazırda ev sahibinin vəkili iddia edir ki, şirkətlə ev sahibinin arasında, icarə məbləği ilə əlaqədar mübahisə yaranıb və o (ev sahibi), məhkəmə tərəfindən hökm çıxarılana qədər orada namaz qılmaq və sair istifadələr etməyə razı deyil. Bizim əvvəlki namazlarımızı yenidən qılmaq vacibdirmi, yoxsa bu məsələdən agah olmamağımız təklifi götürür?

Cavab: İcarənin düzgün şəkildə gerçəkləşməsindən sonra, müddəti sona çatmayınca, şirkət işçilərinin o binadan istifadə etmələrində sahibinin yenidən icazə və razılığına ehtiyac yoxdur, orada namaz qılmaq da düzgündür. Əgər icarə müddətinin qurtarması və ya əvvəldən batil olmasını fərz etdikdə belə, şirkət işçiləri bu barədə məlumatı olmadığı halda orada namaz qılmış olsalar, namazları düzdür və yenidən qılmaları vacib deyil.

Sual: **1654**: Bir nəfər öz iş yerindəki evini icarəyə vermişdir, özü isə işlədiyi müəssisənin (tikdiyi) yaşayış binasında yaşayır. Halbuki, onun bu işi qanuna ziddir, belə ki, qanuna görə, bir şəxsin öz şəxsi evi olsa, müəssisənin nəzdində olan evlərdə yaşamağa haqqı yoxdur. Onun evini icarəyə alan şəxs, ev sahibinin qanuna zidd əməl etməsini bildiyi halda, vəzifəsi nədir?

Cavab: Müəssisənin qoyduğu şərtlərə malik olmayan bir şəxsin, o müəssisənin nəzdində olan təşkilati evlərdə yaşaması caiz deyil. Amma idarə işçilərinin öz şəxsi mülkünü başqasına icarəyə verməsinin, yaxud başqasının onun mülkünü icarəyə almasının və eləcə də icarəçinin o mülkdə təsərrüf etməsinin işkalı yoxdur.

---

Sual: **1655**: Mülk sahibi icarəçi ilə şərtləşir ki, icarə müddəti qurtardıqdan sonra icarəçi evi boşaltmazsa, hər gün üçün o vaxtın ücrətül-mislindən artıq məbləğ verməlidir. İcarə əqdi bağlanan zaman bu məbləği ödəyəcəyinə iltizam verən icarəçi, onu ödəməlidirmi?

Cavab: Lazım əqd (müqavilə) bağlanan zaman qeyd olunan şərtlərə əməl etmək vacibdir.

---

Sual: **1656**: Bir nəfər bir yeri iki nəfərə müştərək şəkildə icarəyə vermişdir. Bu şərtlə ki, o iki icarəçi, sahibinin icazəsi olmadan oranı başqasına icarəyə verməsinlər. Amma onlardan biri, sahibinin icazəsi olmadan öz payını öz şərikinə həvalə etmişdir. Bu kimi hallar "başqasına həvalə etmək" sayılırmı?

Cavab: Şərtin nəql olunma halından (çıxıb) digər şərikə nəql olunmasını göstərən bir şahid mövcud olmayınca bu "başqasına həvalə etmək" sayılır.

---

Sual: **1657:** Dörd il müddətində bir qədər torpaq və suyu icarə etmişəm. Bu şərtlə ki, icarəyə verən şəxs ikinci ilin əvvəlində icarəni pozmaq haqqına malik olsun. Lakin o, (icarəyə verən şəxs) ikinci ilin axırına qədər icarə müqaviləsini pozmamış, üstəlik üçüncü ilin də icarə haqqını almış və aldığına görə qəbz vermişdir. Bu halda icarəyə verən şəxsin, yaxud o mülkü almasını iddia edən kəsin icarə müddəti qurtarmamış icarəyə verilən malda təsərrüf etməyə haqqı vardırmı?

Cavab: Əgər icarəyə verən şəxs, icarə müqaviləsini pozmağa haqlı olduğu dövrdə icarə müqaviləsini pozmazsa, ondan sonra pozması caiz deyil. Əgər ixtiyar müddəti qurtardıqdan sonra mülkü başqa bir şəxsə satarsa, (bu iş) icarə müqaviləsinin batil olub qüvvədən düşməsinə səbəb olmur. Əksinə, mülkün təzə sahibi icarə müddətinin qurtarmasına qədər gözləməlidir.

---

Sual: **1658**: Bir şəxs iki dükanı icarəyə götürmüşdür. Dükan sahibi ilə şərtləşmişlər ki, onlardan yeyinti məhsullarının satışı üçün istifadə etsin. Bu şərt icarə müqaviləsində də qeyd olunmuşdur. Lakin icarəyə alan şəxs bu şərtə əməl etməmişdir. Bu halda onun dükanlardakı bu işi halaldırmı? İcarəyə verən şəxsin şərtin pozulmasına görə icarə müqaviləsini pozmağa haqqı varmı?

Cavab: İcarəyə alan şəxsə malikin müqavilədə şərt etdiyi əsasda əməl etməsi vacibdir və əgər o, bu şərti pozarsa, malikin şərtin pozulması nəticəsində müqaviləni pozmaq haqqı vardır.

---

Sual: **1659**: Mən müəssisələrdən birində işləyirəm. Müəssisənin məsul işçisi söz vermişdir ki, aylıq maaşdan əlavə, müasir dövrdə olan qaydalara əsasən məni mənzil, normal istirahət, ictimai sığorta ilə təmin etsin. Lakin bir neçə il keçməsinə baxmayaraq o, öz sözünə əməl etməmişdir. Bu barədə yazılı bir müqavilə olmadığı üçün öz haqqımı tələb etməyə qadir deyiləm. Buyurun görək, qanuni yolla öz haqqımı tələb etməyə şərən icazə verilirmi?

Cavab: Qanuni orqanlara müraciət etməklə haqqın alınmasının heç bir eybi yoxdur.

---

Sual: **1660**: Bir nəfər yağış suyu ilə suvarılan, vəqf olunmuş əkin sahəsini müəyyən məbləğə icarəyə götürmüşdür. Amma yağış suyunun vasitəsilə əldə olunan məhsul çox az olduğuna görə onu sulu sahəyə çevirmiş və bu iş üçün böyük məbləğdə pul xərcləmişdir. Bunu nəzərə alaraq, o, sulu torpaq sahəsinin icarəsini verməlidir, yoxsa yağış suyu ilə suvarılan dəmyə torpağın icarəsini? Əgər bu iş dövlət orqanlarının köməyi ilə olmuşsa, onun hökmü necədir? Əgər vəqf edən şəxs (mülkün) icarəyə verilməsində icarə haqqının harada xərclənəcəyini müəyyən etmiş olsa, belə ki, icarə haqqını hər il on gün müddətinə Həzrət İmam Hüseyn əleyhissəlamın əzadarlıq məclisinin bərqərar olmasına sərf edilməsini qeyd etsə, bu halda icarə haqqı vəqf edən şəxsin təyin etdiyi istiqamətdə sərf olunmalıdırmı? Əgər vəqf olunan yerin nəzarətçisi icarə haqqını o yeri icarəyə götürən şəxsdən almasa, onda həmin haqqı vəqflər idarəsinə verməsi caizdirmi?

Cavab: Yağış suyundan istifadə etmək əvəzinə əkin sahəsini suvarmaq üçün quyu qazmaq, kəhriz çəkmək və sair kimi işlər icarənin şərən düzgün tərzdə gerçəkləşməsindən sonra olsa, bu halda əvvəlcədən təyin olunmuş icarə haqqının artıb azalmasına səbəb olmaz, istər bu kimi işlər vəqfin nəzarətçisinin hesabına görülmüş olsun, istərsə dövlət hesabına, istərsə də icarəyə götürən şəxsin xərcləri ilə. Amma icarə əqdindən əvvəl, yaxud əvvəlki icarə müddətinin qurtarmasından sonra və onun yeniləşdirilməsindən (uzadılmasından) əvvəl baş vermiş olsa, bu halda vəqf olunan torpaq sahəsinin nəzarətçisinə vacibdir ki, torpaq sahəsinə lazım olan bütün imkanları nəzərə alaraq onun icarə qiymətini gündəlik ədalətli qiymət əsasında təyin etsin. İcarə haqqı da vəqf edən şəxsin təyin etdiyi istiqamətdə xərclənməlidir. Vəqfin icarə haqqının miqdarı onun şəri nəzarətçisinin nəzərindən asılıdır ki, icarə verildiyi zaman onun xeyir və məsləhətini nəzərə almaqla gerçəkləşməlidir. Vəqfdə təsərrüf edilməsi də vəqfin şəri nəzarətçisindən icarəyə almadan və onun icazəsi və razılığı olmadan caiz deyil. Əks halda qəsb hesab olunur. İcarə məbləğinin sadəcə olaraq vəqflər idarəsinə verilməsi və yaxud hər hansı bir fonda köçürülməsi vəqfdə təsərrüf etməyin caiz olmasına kifayət etmir, amma vəqfin nəzarətçisi icarə müddəti ərzində icarə haqqını almaqdan imtina etsə, icarəyə alan şəxsin ondan istifadə etməsinə davam etməsinin eybi yoxdur. Bu halda icarə haqqı vəqflər idarəsinin razılaşması ilə vəqf olunmuş istiqamətdə sərf olunmalıdır.

---

Sual: **1661**: Malı icarəyə götürən şəxs onu icarəyə verən şəxsdən, malın üzərində müəyyən dəyişikliklər və ya təmir etməsini istəsə, onun xərci kimin öhdəsinə düşür?

Cavab: Əgər icarəyə verilən şey icarə əqdi bağlanan zaman olduğu vəziyyətində qalmış olsa, bu halda icarəçinin onda müəyyən dəyişikliklər edilməsi və ya təmirlər aparılması ilə əlaqədar istəyinin qəbul edilməsi icarəyə verən şəxsə vacib deyil. Amma onun istəyini qəbul etsə, bu halda təmirə, sair işlərə və dəyişiklik edilməsinə lazım olan xərclər onun öz öhdəsinədir. İcarəyə götürən şəxsin sadəcə olaraq malın sahibindən etdiyi bu istəyi onun həmin xərclərə zamin olmasına səbəb olmaz.

---

Sual: **1662**: Bir kəs başqasından istəyib ki, əzadarlıq məclisində müəyyən qədər Quran qiraət etsin. Ona zəhmət haqqı kimi müəyyən məbləğ pul da verib. Lakin həmin şəxs unudaraq Quran oxuyan zaman pul verən şəxsi niyyət etməmişdir. Buna görə də tilavəti sona çatdırdıqdan sonra (Quran tilavətini) vəsiyyət edən şəxsi niyyət etmək istəyir. Onun bu işi düzgündürmü? Bu halda ona verilən pulu almağa haqqı var, ya yox?

Cavab: Əgər qiraət əsnasında o şəxsi niyyətdə tutmamış olsa, bu halda (qiraətdən sonra) Quran oxunmasını vəsiyyət etmiş şəxsi niyyət etməsi düzgün deyil və bu zaman həmin əmək haqqını almağa haqqı yoxdur.

---

Sual: **1663**: Ev alqı-satqısı ilə məşğul olan bir şəxslə bir mənzilə baxmağa getdik. Mənzili gördükdən sonra onu almaq fikrindən döndüm. Sonra başqa bir adamla həmin mənzili görməyə getdik və dəllal vasitə olmadan həmin evi bəyənib aldım. Bu barədə dəllalın hər hansı bir haqqı varmı?

Cavab: Dəllal satışa qoyulan evi müştəriyə göstərmək üçün onunla birlikdə getdiyindən (bu iş müqabilində) əmək haqqı tələb edə bilər. Lakin müamilənin gerçəkləşməsində iştirakı olmadığı və bu işdə heç bir rol ifa etmədiyi halda satıcı ilə alıcı arasında müamilə barədə heç bir haqq tələb edə bilməz. Əgər bu barədə müəyyən qayda-qanunlar mövcuddursa, buna riayət edilməlidir.

---

Sual: **1664**: Bir nəfər öz evini satmaq üçün mülkü evlərin alqı-satqısı idarəsinə müraciət edir, bu idarənin köməyi ilə müştəri tapıb evə qiymət qoyur. Lakin müştəri dəllallıq haqqını ödəməkdən boyun qaçırmaqdan ötrü müamiləni heç bir vasitə olmadan birbaşa satıcı ilə yerinə yetirir. Bu halda müştəri və ya alıcı dəllala haqq verməlidirmi?

Cavab: Sadəcə olaraq dəllala müraciət edilməsi onun müamilə ilə əlaqədar zəhmət haqqı almasına səbəb olmaz. Amma əgər müamilə edən tərəflərin ikisi üçün müəyyən bir iş yerinə yetirmiş olsa, o işin haqqını hər kim üçün işləyibsə, ondan almağa haqlıdır.

---

Sual: **1665**: Bir nəfər dükanını müəyyən müddətə və müəyyən məbləğə icarəyə götürüb. Lakin müəyyən müddət keçdikdən sonra o, müqaviləni pozmuşdur. Onun tərəfindən icarə müqaviləsini pozmaq düzdürmü? Əgər düz olduğunu fərz etsək, bu halda icarəyə verən şəxsin, müqavilənin pozulmasından qabaqkı günlərin icarə haqqını almağa ixtiyarı varmı?

Cavab: İcarəyə götürən şəxsin şərən icarəni pozmağa haqqı olmayınca onun tərəfindən icarənin pozulması düzgün deyil. Onun üçün xiyar (müamiləni pozmaq) haqqı olduğunu fərz etdikdə isə əgər müamiləni pozsa, müamiləni pozduğu günlərdən qabaqkı günlərin icarəsini verməlidir.

---

Sual: **1666**: Bir nəfər əkinçilik üçün müəyyən qədər torpaq sahəsini icarəyə almış və şərt qoymuşdur ki, həmin torpaq sahəsinin suvarılması üçün quyu qazılması, su çıxarılması və sair lazım olan bütün işlərin xərcləri onun öhdəsinə olsun. Nəticədə torpağı icarəyə götürən şəxs quyunun qazılması üçün qanuni mərhələləri keçdikdən sonra quyunu öz adına saldırmış və ondan istifadə etməyə başlamışdır. Lakin icarə müddətinin üstündən bir il keçdikdən sonra torpaq sahəsinin sahibi birtərəfli olaraq icarəni ləğv etmişdir. Quyunun, onun avadanlıqlarının və ona çəkilən xərclərin hökmü necə olacaq? İcarəyə alan şəxsin mülkiyyətindədirmi, yoxsa (quyu) mülkiyyətdə torpağa tabedir?

Cavab: İcarə müddəti sona çatmayınca iki tərəfdən heç birinin icarəni pozma haqqı yoxdur. Hər bir halda quyu da torpağa tabedir və onun sahibinə məxsusdur. Amma bunun əksinə şərt etsələr, onda onun hökmü fərq edir. Amma quyunun üzərinə qoyulmuş avadanlıqlar, həmçinin icarəyə alan şəxsin öz malı ilə aldığı şeylər onun öz malıdır. İcarə müqaviləsində quyudan istifadə etmək haqqına malik olmasını qeyd etsələr, onun haqqı toxunulmazdır.

---

Sual: **1667**: Əgər xüsusi müəssisə və şirkətlərin sahibləri İslami Şura Məclisi tərəfindən qoyulan və Şura Məclisinə Nəzarət İdarəsi tərəfindən təsdiq olunan iş qanunu əsasında fəhlələrə verilən üstünlüklərdən boyun qaçırsalar, vəzifə nədir?

Cavab: Sahibkarların qanun əsasında fəhlə və qulluqçulara verilən hüquqlarla əlaqədar öz vəzifələrinə əməl etmələri vacibdir. Fəhlələrin də öz qanuni hüquqlarını tələb etməyə haqları vardır.

---

Sual: **1668**: İki dövlət idarəsi bir-biri ilə bu əsasda müqavilə bağlayırlar ki, onlardan birinə aid olan binanın bir hissəsi müəyyən müddətə qədər digər idarənin ixtiyarına qoyulsun, bu şərtlə ki, həmin idarə öz büdcəsinin bir miqdarını icarə müddəti qurtarandan sonra o binanın boşaldığı vaxta qədər birinci idarənin büdcəsinə köçürsün. Bu iş caizdirmi?

Cavab: Əgər bu iş düşgün icarə müqaviləsi əsasında və o binanın qanuni məsulunun razılaşması ilə olsa, heç bir eybi yoxdur. İcarə əqdi bağlanan zamanda edilən şərt şəriət qanunlarının əksinə bir şey müşahidə olunmazsa, o müqavilə qüvvədədir.

---

Sual: **1669**: Hal-hazırda camaat arasında belə bir qayda var ki, evi icarəyə verən zaman müəyyən məbləğ pul da alırlar. Şəri cəhətdən bunun hökmü nədir?

Cavab: Əgər malik öz evini müəyyən vaxta və müəyyən məbləğə icarəyə versə və icarəyə götürən şəxsin müəyyən məbləği borc qismində ona verməsini şərt etsə, onda heç bir eybi yoxdur. Hətta həmin məbləği nəzərə alaraq ev icarəsini öz dəyərindən az alsa belə. Amma icarəyə götürən şəxsdən borc alıb öz evini pulsuz olaraq onun ixtiyarına verməsini, yaxud öz evini adi icarə miqdarında, yaxud ondan az və ya çox məbləğə icarəyə versə, belə ki, ilk əvvəldən onların arasında baş verən iş “borc alıb borc vermək” adı ilə olsa və evin icarəyə verilməsi, yaxud onun ixtiyarında qoyulması borcda şərt kimi göstərilsə, bu halların hamısı haram və batildir.

---

Sual: **1670**: Müəyyən məbləğdə pul alan yük daşıma müəssisələri müştərilərin mallarını alıb bir yerə çatdırmaq istədikdə, bu zaman yol əsasında oğurlansa, yaxud yanğın nəticəsində tələf olsa və yaxud ona xəsarət dəysə, onda həmin müəssisə mala zamindirmi?

Cavab: Əgər müştərilərin mallarını müəyyən ünvana çatdırmaq üçün yük daşıyan müəssisələr o malların qorunub saxlanmasını yükdaşıma müəssisələrində olan adi qaydada yerinə yetirsə və bu kimi hallarda heç bir səhlənkarlığa yol verməsə, zaminlik şərt edilməyincə zamin deyil, əks halda isə zamindir.

---

Sual: **1671**: Çoban qoyun sürüsünü ağula yığıb ağzını bağladıqdan sonra üç fərsəx (24 km) aralıda yerləşən evinə gedir. Canavar gecə ikən oraya daxil olub qoyunları məhv etsə, çoban onlara zamindirmi? Müqavilə əsasında çobana əmək haqqı olaraq 7 qoyun verilməlidir, belə olan halda qoyunları otarmaq üçün çobanı işlədən şəxs onun əmək haqqını verməlidirmi?

Cavab: Əgər çoban qoyunların gecə ağulda qorunmasına məsul deyildisə və qoyunların qorunması ilə əlaqədar öz vəzifəsində heç bir səhlənkarlığa yol verməyibsə, onda zamin deyil və qoyunları otarmaq üçün bütün əmək haqqını almağa haqqı vardır.

---

Sual: **1672**: Bir nəfərin bir evi var. Qonşusu heç bir icarə, yaxud al-ver və ya girov qoymadan pulsuz olaraq uzun müddət onun evində qalmışdır. Sahibi vəfat etdikdən sonra vərəsələr o evi həmin şəxsdən almaq istəyir, lakin o şəxs evi verməkdən imtina edir və iddia edir ki, ev onun öz malıdır. Digər tərəfdən də onun öz iddiasını sübut etməyə heç bir dəlili yoxdur. Bu məsələnin hökmü nədir?

Cavab: Əgər vərəsələrin evin onların atasından irs çatdığını isbat etməyə şəri dəlilləri olsa, yaxud hal-hazırda evdə yaşayan şəxs bunu etiraf etsə, lakin o evin malikdən müəyyən səbəblərə görə ona keçdiyini desə, bu halda öz iddiasını şəri yolla isbat etməyincə evi vərəsələrə qaytarmalıdır.

---

Sual: **1673**: Bir nəfər öz saatını təmir etməkdən ötrü saatsaza vermiş və müəyyən müddətdən sonra saat dükandan oğurlanmışdır. Saat dükanının sahibi o saata zamindirmi?

Cavab: Əgər dükan sahibi saatın qorunub saxlanmasında səhlənkarlığa yol verməyibsə, zamin deyil.

---

Sual: **1674**: Bizim məntəqədə xarici şirkətlərin rəsmi nümayəndəliyi var. Bu nümayəndəlik həmin şirkətlərin mallarını sataraq əvəzində əmtəələrin pulundan müəyyən faiz özünə götürür. Bu faizin alınması şərən caizdirmi? Əgər dövlət məmurlarından biri bu şirkətlə həmkarlıq etsə, ondan müəyyən faizi alması caizdirmi?

Cavab: Əgər bu məbləğ (faiz) xarici və yaxud daxili, dövlət və ya qeyri-dövlət şirkətlərinin əmtəələrinin satılmasına vəkil olduğu üçün əmək haqqı kimi verilirsə, bu işin həmin vəkil olan şəxs üçün öz-özlüyündə heç bir eybi yoxdur. Amma dövlət məmurlarının başqa əmək haqqı almağa, yaxud əvəzində maaş aldığı dövlət xidmətləri müqabilində muzd almağa haqları yoxdur.

# Sərqüflinin hökmləri

---

Sual: **1675**: Bir nəfər bir dükanı ticarət və ya başqa məqsədlə müəyyən müddətə icarəyə götürmüşdür. İcarə müqaviləsinin müddəti qurtardıqdan sonra sahibi onun vaxtını artırmasa, icarəçinin dükanı boşaltmaqdan imtina etməsi və sərqüfli haqqını tələb etməsi caizdirmi? İcarəyə verilən malın özünü başqa bir şəxsə vermək haqqı olmadığını nəzərə alsaq, onda onunla əlaqədar məşğuliyyət və peşə haqqı iddia etməsi caizdirmi?

Cavab: İcarəyə götürən şəxsin icarənin müddəti başa çatdıqdan sonra icarəyə verilən şeyi öz ixtiyarında saxlamağa və onu sahibinə qaytarmaqdan imtina etməyə haqqı yoxdur. Amma onun üzərində sərqüfli haqqı olsa və bu da sahibindən ona nəql

olunsa, yaxud dükan qanun baxımından icarəyə götürən şəxs üçün onun üzərində haqq yaranacaq yerlərdən olsa, bu halda öz haqqının əvəzini malikdən tələb edə bilər.

---

Sual: **1676**: Mən bir ticarət yerini icarə etmişəm və sərqüfli haqqını əldə etmək üçün sahibinə müəyyən məbləğdə pul vermişəm. Eləcə də oraya işıq çəkmək, daş döşəmək və sair işlər üçün çoxlu məbləğdə pul xərcləmişəm. Həmçinin işim üçün icazə almağa da müəyyən qədər pul vermişəm. On il keçdikdən sonra sahibin vərəsələri o yeri almaq istəyirlər. Mənə onların istəyini nəzərə alaraq dükanı boşaltmaq vacibdirmi? Əgər boşaldılması vacibdirsə, oraya çəkdiyim xəcləri onlardan almağım caizdirmi? Eləcə də sərqüflinin əvəzini gündəlik qiymətlərə uyğun tələb etməyə haqqım varmı?

Cavab: İcarənin vaxtının uzadılmasının malikə vacib olması, yaxud icarə olunmuş yerdəki şeylərin boşaldılmasını tələb etməyin caiz olması və bu tələbin yerinə yetirilməsinin vacibliyi, eləcə də icarə yeri üçün çəkilən xərclərə zamin olmaq ölkədə olan cari qanunlara, yaxud icarə müqaviləsində icarəyə verən və icarəyə götürən şəxs arasında qeyd olunmuş şərtlərə bağlıdır. Amma o yerin sərqüfli haqqı sahibindən şəri surətdə icarəyə götürən şəxsə nəql olunmuşsa və yaxud qanun əsasında onun üçün sübuta yetmişsə, onu mövcud qiymətlə istəməyə haqqı vardır.

---

Sual: **1677**: Şirkətlərdən birinin sahibi bir binanı icarəyə vermişdir. Amma icarəyə götürən şəxsdən sərqüfli müqabilində heç nə almamışdır. Bu halda icarəyə götürən şəxsə binanı boşaldarkən sərqüfli olaraq müəyyən məbləğ vermək lazımdırmı? Əgər icarəyə verən şəxs onu icarə götürən şəxsə satsa, onda həmin məbləği sərqüfli olaraq onun qiymətindən çıxmalıdırmı?

Cavab: Şəri əsasda olan, almaq, razılaşmaq, yaxud lazım əqddə şərt etmək, yaxud aşkar şəkildə göstərilən qanunla və sair kimi yollarla sərqüfli haqqı icarəyə götürən şəxsin malı deyilsə, onun müqabilində sahibdən bir şey tələb etməyə haqqı yoxdur. Həmçinin əgər o binanı sahibindən alsa, müəyyən məbləği sərqüfli haqqının əvəzi olaraq onun qiymətindən azalda bilməz.

---

Sual: **1678**: Atam bir neçə ticarət mağazasını öz övladlarından üçünə almış və onu elə həmin vaxtda onların adlarına sənədləşdirmişdir. Nəticədə o mağazalar hal-hazırda həm şərən, həm də qanun əsasında onların malı sayılır. Bu mağazalar atamın vəfatından qabaq onun sərəncamında olmuş və orada ticarətlə məşğul olmuşdur. Bu mağazaların sərqüfli haqqı yalnız onların sahibləri üçündürmü, yoxsa onların sərqüfli haqqı mülkdən ayrıdır və bütün vərəsələrə çatır?

Cavab: Mağazaların sərqüfli haqqı onun mülkiyyətinə tabedir. Şəri yollarla başqa bir şəxsə nəql olunmayınca, onun malikinə məxsusdur.

---

Sual: **1679**: Əgər icarəyə götürən şəxs bir mağazanı müəyyən edən zaman müəyyən məbləği sərqüfli olaraq sahibinə versə, bu halda icarəyə götürən şəxs hər hansı səbəbə görə oranı boşaltmaq istəsə, malik yalnız həmin miqdarı icarəçiyə verməlidir, yoxsa sərqüfli qiymətini boşaltdığı günün qiyməti ilə verməsi vacibdir?

Cavab: Əgər mağazanın sərqüfli haqqı şərən icarəyə götürənin olsa, onun hazırkı qiymətini gündəlik məzənnəyə uyğun olaraq tələb edə bilər və mağaza sahibinə də vacibdir ki, hazırkı qiymətini ona versin. Amma müəyyən məbləği sahibin yanında əmanət qoymuşsa və oranı boşaldan zaman onu qaytarmasını demişsə, bu halda yalnız o məkanı icarəyə aldığı zaman sahibinə verdiyi məbləğin müqabilini tələb etməyə haqqı vardır. Pulların dəyər fərqinə gəldikdə isə ehtiyat razılaşmadan ibarətdir.

---

Sual: **1680**: Mən bir mağazanı onun sahibindən icarəyə almışam və onun sərqüfli haqqı müqabilində heç bir məbləğ verməmişəm. Çünki o vaxt bizim şəhərmizdə sərqüfli vermək adət deyildi. Hal-hazırda mağaza sahibi vəfat etmiş və onun övladlarından birinin mülkü olmuşdur, o da mağazanı boşaltmağı tələb edir. Mən də icarə müddəti əsnasında orada müəyyən işlər görmüşəm. O cümlədən işıq və telefon çəkmiş, qapını dəyişdirmişəm. Camaatın da burada işlədiyim müddətdə mənə çoxlu borcları vardır. Mənə vacibdirmi ki, malikin istəyini qəbul edim və hər hansı bir şeyə malik olmağa haqlı olmadan oranı boşaldıb ona təhvil verim? Əgər müəyyən bir haqqım olsa, onun miqdarı nə qədərdir?

Cavab: Sizin əvvəlki icarə müddətiniz qurtardıqdan sonra hazırkı sahibi ilə yenidən müqavilə bağlamadan onda təsərrüf etməyə və onu sahibinə təhvil verməməyə haqqınız yoxdur. Lakin hazırkı sahibin yenidən icarə müqaviləsi bağlamağa müsbət cavab verməsinin vacib olması, yaxud onun tərəfindən o yerin boşaldılmasını tələb etməyin caiz və tələbi yerinə yetirməyin lazım olması mövcud qanunlara, yaxud müqavilə əsnasında qeyd olunan şərtlərə bağlıdır. Oranı boşaldan zaman sərqüfli müqabilində bir şey tələb etməyinizə gəldikdə isə əvvəlki icarə bağlandığı zaman həmin məntəqədə icarəçi üçün sərqüfli haqqının adi qanun olmadığını və o yerin sərqüfli haqqının malikindən sizə nəql olunmadığını fərz etdikdə, buna əsasən o yerin boşalması və hazırkı sahibinə təhvil verilməsi müqabilində qanun bu icazəni sizə verməyincə, onun sərqüfli haqqı ilə əlaqədar sahibindən bir şey tələb etməyə haqqınız yoxdur. Amma işıq, telefon çəkməyə və öz pulunuzla yerinə yetirdiyiniz digər işlərə gəldikdə isə onların hamısı sizin mülkünüzdür. Amma ürf, yaxud cari qanunlara əsasən pulsuz olaraq yerinə yetirilən, yaxud xərcləri sahibin verdiyi şeylər müqabilində hesab edilənlər istisnadır.

---

Sual: **1681**: 1-Bir yer iyirmi il müddətində ardıcıl olaraq iş yeri kimi icarəyə verilmişdir. İcarəyə alan şəxsin icarə müddəti əsnasında, yaxud onun vaxtı qurtardıqdan sonra həmin məkanın sərqüfli haqqının vergisini verməklə və bütün qanuni mərhələlərə riayət etməklə başqa bir icarəçiyə həvalə etməyə haqqı varmı?

2-Əgər o məkanın sərqüfli haqqını rəsmi şəkildə və bütün qanunlara riayət etməklə başqa bir icarəçiyə versə, sahibin ikinci icarəçi tərəfindən qəbul edilməməsi səbəbi ilə həmin məkanı boşaltmağa haqqı varmı?

Cavab: Əgər o məkanın sərqüfli haqqı sahibin tərəfindən və ya qanun əsasında ona nəql olunmamışsa, onu satmaq və başqasına həvalə etmək haqqına malik deyil. Əgər belə bir işi (icazəsiz) görərsə “füzuli” sayılır və (düzgün olması) sahibin icazəsinə bağlıdır.

---

Sual: **1682**: Mənimlə birlikdə irs aparanların hamısı hotel və orada olan avadanlıqlardan paylarını – istər mal, istərsə də hüquq cəhətindən, mənimlə müsalihə etmişlər (razılaşmışlar). Bu razılaşma o hotelin sərqüfli haqqına da aid olurmu?

Cavab: Əgər hotelin sərqüfli haqqı ona aid olsa və razılaşma da onun hoteldə malik olduğu bütün şeylərə – istər avadanlıq olsun, istərsə də hüquq heç bir istisna olmadan baş vermiş olarsa, onun sərqüfli haqqı da bu razılaşmaya daxildir.

---

Sual: **1683**: Bir nəfər bir yeri icarəyə götürür, bu şərtlə ki, sahibinin tələb etdiyi zaman onu boşaltsın. İcarə müddəti qurtardıqdan, sahibi də oranın boşaldılmasını tələb etdikdən sonra icarəyə götürən şəxs o yerin sərqüfli haqqını tələb edir. O haqqın sahibi tərəfindən ona verilməsi vacibdirmi?

Cavab: Məsələdə fərz olunan surətdə, yəni, yerin sahibi tələb etdiyi zaman icarəçinin o yeri boşaltması şərt olunduğu halda və zahirən sərqüfli haqqı da sahibdən icarəçiyə nəql olunmadığı halda heç bir şeyi tələb etmə haqqına malik deyil. Amma islam dövlətinin qanunlarına uyğun olsa, onda məsələ fərq edər.

---

Sual: **1684**: İcarəyə verdiyim yerin sərqüfli haqqını müəyyən bir məbləğə onu icarəyə götürən şəxsə satmışam. O da onun müqabilində mənə bir qəbz yazıb vermişdir. Amma onun bankdakı hesabında pul olmadığına görə qəbzi pula çevirə bilməmişəm. Həmin məkan hal-hazırda da onun ixtiyarındadır. İndiyə qədər mən sərqüfli haqqını ondan ala bilmədiyim halda, ona malik olduğunu iddia edir. Bu halda o məkanın sərqüfli haqqı ona aiddirmi, yoxsa sərqüfli müamiləsi mənim pulu ala bilmədiyimə görə batil sayılır?

Cavab: Sərqüfli müamiləsinin düzgün şəkildə gerçəkləşməsindən sonra sərqüfli əvəzində verilən qəbzin sahibinin bankdakı hesabında pul olmaması müamilənin batil olmasına səbəb olmaz, əksinə, sərqüfli haqqı müştəriyə aiddir və satıcının (yəni icarəyə verən şəxsin) qəbzin məbləğini ondan tələb etməyə haqqı var.

---

Sual: **1685**: Əgər icarəyə götürən şəxsin mağazanı boşaldan zaman sərqüfli haqqının əvəzini tələb etməyə haqqı olsa, lakin mağaza sahibi adətdə və qanunda olanların əksinə olaraq onu verməkdən imtina etsə, malikinin razılığı olmadan icarəçinin sərqüfli haqqını aldığı vaxta qədər o yerdə qalmasının hökmü nədir? Əgər icarəçinin o yerdə qalmasının caiz olmadığını və qalmasının qəsb olduğunu fərz etsək, bu zaman əldə edilən qazanc şərən halal sayılırmı?

Cavab: Dükanın boşaldılmasının sərqüfli haqqının əvəzinin icarəyə götürən şəxsə verilməsi ilə şərtlənmədiyi vaxta qədər sadəcə dükanın boşaldılması zamanı sərqüfli haqqının tələb edilməsi haqqı icarə müddətinin sona çatmasından sonra orada təsərrüfün davam etməsinin caizliyinə kifayət deyil. Hər bir halda o dükanda kəsb və ticarətlə əldə edilən qazanclar şərən halaldır.

---

Sual: **1686**: Bir nəfər bir dükanı müəyyən məbləğə icarə etmiş və bir qədər pulu da sərqüfli olaraq vermişdir. Sonra onun sahibi icarə pulunu artırmağa başlamış və nəhayət icarə haqqı əvvəlkindən iki qat artığına çatmışdır. Hal-hazırda icarəyə götürən şəxs qərara almışdır ki, mağazanı daha artıq sərqüfli haqqı ilə başqa bir icarəçinin ixtiyarına versin. Lakin malik sərqüflinin 15 faizini tələb edir və icarə haqqını on qata qədər artırmaq fikrindədir. Halbuki, qonşu dükanların icarəsi ondan azdır. Bu halda malikin şərən və qanunən qeyd olunan faizi almağa və icarə haqqını qeyd olunan məbləğə qədər artırmağa haqqı varmı?

Cavab: Əgər mağazanın sərqüfli haqqı icarəyə götürən şəxsə aiddirsə və onu istənilən şəxsə verməyə haqlıdırsa, bu halda mağaza sahibinin icarəyə götürən şəxsdən sərqüfli olaraq aldığı şeyləri ondan tələb etməyə haqqı yoxdur. İcarə haqqına gəldikdə isə onun miqdarının təyin edilməsi mağaza sahibi ilə icarəyə götürənin icarə müqaviləsinin yenidən bağladığı vaxtda razılaşmasından asılıdır.

---

Sual: **1687**: Bir nəfər dükanı icarə edir, aylıq olaraq icarədən əlavə müəyyən məbləğ pulu da sərqüfli kimi verir. Həm də şərt edir ki, icarəyə verən şəxs o yerin boşalacağı zaman sərqüfli məbləğini hazırkı qiymətlə ona qaytarsın, əks halda icarəçinin bu məkanın sərqüfli haqqını başqa bir şəxsə satmağa və onu həmin şəxs üçün boşaltmağa haqqı olacaqdır. Bu şərt düzgündürmü? İcarəyə verən şəxsin onun hazırkı qiymətini icarəyə götürən şəxsə verməklə və yaxud o məkanın başqa bir şəxsə verilməsinə razılıq verməklə o şərtə əməl etməsi vacibdirmi?

Cavab: İcarə müqaviləsi bağlanan vaxt belə bir şərtin qoyulmasının eybi yoxdur və icarə verən şəxsə buna əməl etməsi vacibdir. Əgər sərqüfli haqqının icarəyə götürən şəxsdən almağa razı olmasa, onda onun başqa bir şəxsə satılmasına və həmin məkanın başqa şəxsə həvalə edilməsinə etiraz etmək haqqı yoxdur.

---

Sual: **1688**: Biz bir ev almışıq, onda olan ticarət mağazasını başqa bir şəxs icarəyə götürmüşdür. Sahibi onun sərqüfli haqqını da icarəçiyə satmış, icarəyə götürən şəxs də öz haqqını başqa bir şəxsə satmışdır. İcarə müddəti qurtardıqdan sonra sonradan icarəyə götürən şəxsdən oranı boşaltmasını istədikdə sərqüflinin əvəzini biz ona verməliyik, yoxsa evin əvvəlki sahibi və yaxud sərqüfli pulunu alan əvvəlki icarəçi?

Cavab: Sonradan icarəyə götürən şəxs şəri əsasda mağazanın sərqüflisinə malik olduqdan sonra hal-hazırda onu həmin şəxsdən almaq istəyən şəxs sərqüflinin qiyətini ona ödəməlidir.

# Zəmanət

---

Sual: **1689**: Bankdakı hesabında nəqd pulu olmayan bir şəxs başqasına zamin olmaq üçün vəsiqə kimi qəbz verə bilərmi?

Cavab: Bu kimi işlərdə əsas meyar İslam Respublikasının qanunlarıdır.

---

Sual: **1690**: Bir şəxsə müəyyən qədər pul borc vermişdim. O isə borcunu verməkdə səhlənkarlıq edirdi. Axırda onun qohumlarından biri onun borcunun məbləği miqdarında mənə uzun müddətli qəbz verib şərt etdi ki, ona borcunu qaytarmaq üçün möhlət verim. Beləliklə, zamin oldu ki, əgər borclu şəxs öz borcunu qəbzdə qeyd edilən vaxta qədər qaytarmasa, o şəxs onu qaytarsın. Sonra borclu şəxs qaçıb gizləndi. Hal-hazırda onu tapa bilmirəm. Şərən borcun hamısını zamin olan şəxsdən almağım caizdirmi?

Cavab: Əgər o, şəri cəhətdən düzgün tərzdə borclunun öz borcunu təyin olunmuş müddət ərzində qaytarmadığı təqdirdə borcun sənə qaytarılmasına zamin olmuşdursa, bu halda vaxt çatandan sonra öz borcunuzu tələb edib hamısını ondan almağınız caizdir.

# Girov

---

Sual: **1691**: Bir nəfər bankdan borc alaraq əvəzində öz evini girov qoymuş, borcunu qaytarmazdan əvvəl vəfat etmişdir. Onun azyaşlı vərəsələri borcun hamısını qaytara bilməmiş, nəticədə bank həmin evi müsadirə etmişdir. Halbuki, evin pulu həmin şəxsin borcundan bir neçə qat artıq idi. Artıq qalan miqdarın hökmü nədir? Azyaşlı vərəsələr və onların haqları barədə hökm nədir?

Cavab: Girov götürən şəxsin, girov qoyulan şeyi öz borcunu götürmək üçün satmasının caiz olduğu hallarda vacibdir ki, onu mümkün olan ən yuxarı qiymətə satsın. Əgər o, girov götürən şəxsin alacağı miqdardan artıq qiymətə satsa, öz haqqını götürdükdən sonra yerdə qalanları onun şəri sahibinə qaytarmalıdır. Buna əsasən fərz olunan halda qalan miqdar meyyitin vərəsələrinə çatır.

---

Sual: **1692**: Mükəlləf şəxsin müəyyən məbləği bir müddətə borc alması və öz mülkünü borc aldığı üçün onun yanında girov qoyması və sonra həmin evi girov götürən şəxsdən müəyyən məbləğdə və müəyyən müddətdə icarəyə alması caizdirmi?

Cavab: Mülkün öz sahibi tərəfindən icarəyə alınmasının işkallı olmasından əlavə, bu cür müamilələr sələmli borcu (ribanı) əldə etmək üçün bir növ bəhanə (saxtakarlıq) sayılır ki, bu da şərən haram və batildir.

---

Sual: **1693**: Bir nəfər özünün torpaq sahəsini başqasının yanında ona verəcəyi borc müqabilində girov qoymuş, üstündən qırx ildən artıq keçmişdir. Nəhayət, girov qoyanla girov götürənin hər ikisi vəfat etmişdir. Girov qoyan şəxsin vərəsələri atasının vəfatından sonra bir neçə dəfə girov götürən şəxsin vərəsələrindən torpaq sahələrini tələb etmişlər. Lakin onlar bunu rədd edərək iddia etmişlər ki, torpaq sahəsi atalarından onlara irs çatmışdır. Bu halda girov qoyan şəxsin vərəsələrinə, həmin torpaq sahəsini almaq caizdirmi?

Cavab: Əgər həmin torpaq sahəsini girov götürən şəxsin öz borcunu almaq üçün o torpaq sahəsinə malik olmaqda haqlı olması sübuta yetsə və onun pulu da öz borcu qədər, yaxud ondan az miqdarda olsa, torpaq sahəsi də vəfat edən zamana qədər onun ixtiyarında olmuşsa, zahirən onun mülküdür və onun vəfatı ilə mirasının bir hissəsi sayılır və onun vərəsələrinə çatır. Amma qeyd olunanlar sübuta yetməzsə, torpaq sahəsi girov qoyan şəxsin vərəsələrinin malı sayılır və onu girov götürənin vərəsələrindən tələb edə bilərlər. Vərəsələr də öz borclarını mirasdan götürüb girov götürən şəxsin vərəsələrinə verməlidirlər.

---

Sual: **1694**: Bir şəxsin bir evi icarə edib onu öz borcu müqabilində başqasına girov qoyması caizdirmi? Yoxsa girovun düzgün olmasında girov qoyulan malın girov qoyan şəxsin mülkü olması şərtdir?

Cavab: Ev sahibinin icazəsi ilə olsa, eybi yoxdur.

---

Sual: **1695**: Bir nəfərə müəyyən məbləğ pul borclu idim. Borcun müqabilində bir evi bir il müddətində girov qoydum. Bu barədə bir müqavilə də yazdıq, lakin müqavilə sənədindən əlavə ona söz verdim ki, evim üç il müddətində onun ixtiyarında olsun. Girovun müddəti xüsusunda müqavilədə yazılanlar etibarlı sayılır, yoxsa camaat arasında adi qaydada olan təkliflər? Girovun batil olması fərz edildikdə girov qoyan və girov götürənin vəzifəsi nədir?

Cavab: Girovun müddəti xüsusunda onun yazılması, yaxud söz verilməsi və ya başqa şeylər meyar deyil, əksinə, əsas meyar borc əqdidir (müqaviləsidir). Deməli, əgər müəyyən müddətlə şərtlənərsə, həmin vaxt başa çatan kimi giröv öz-özünə pozulur. Əks halda isə girov halında qalmaqdadır. Bu da borcun ödənməsi, yaxud borc sahibinin güzəştə getməsi ilə girov olmaqdan azad olur. Əgər həmin ev girovluqdan azad olunsa, yaxud rəhn müqaviləsinin əvvəldən batil olması məlum olarsa,

girov qoyan şəxs öz malını girov götürən şəxsdən tələb edə bilər. Onun qaytarmaqdan imtina etməyə və qanuni girovun əsərlərini onun üzərinə tətbiq etməyə haqqı yoxdur.

---

Sual: **1696**: Atam iki il (və ya bir az da çox) bundan əvvəl bir qədər sikkəli qızılı öz borcu müqabilində bir nəfərin yanında girov qoymuşdu. Atam öz vəfatından bir neçə gün qabaq girov götürən şəxsə icazə verdi ki, onları satsın, lakin onu bu mətləbdən agah etmədi. Atamın vəfatından sonra mən həmin məbləği bir nəfərdən borc alıb qızılları girov götürən şəxsə verdim. Mənim məqsədim atamın borclarını qaytarmaq və onun üzərində olan vəzifəsini götürmək deyildi, sadəcə olaraq girov qoyulmuş malları ondan almaq və başqa şəxsin yanında girov qoymaq istəyirdim. Amma qızılları girov götürən şəxs onların təhvil verilməsini bütün vərəsələrin razılığına şərtləndirdi, lakin onların bəziləri bu işə razılıq vermədilər. Onları götürmək üçün girov götürən şəxsə müraciət etdim, lakin o, bunları öz borcu müqabilində götürməsini iddia edərək qızılları təhvil vermədi. Bu məsələnin şəri cəhətdən hökmü nədir? Girov götürən şəxsin öz borcunu aldıqdan sonra girov qoyulan malın təhvil verilməsindən imtina etməsi caizdirmi? Bunu da nəzərə alaq ki, mən atamın borcunun qaytarılmasına cavabdeh deyildim və ona verdiyim pullar da atamın borclarını qaytarmaq məqsədi ilə deyildi. Buna əsasən həmin şəxs mənim verdiyim məbləği öz borcu müqabilində götürüb qaytarmaya bilərmi? Eləcə də onun girov qoyulan malları sair vərəsələrin razılığı ilə şərtləndirməyə haqqı varmı?

Cavab: Əgər həmin məbləğ meyyitin qızılları girov götürən şəxsə borcunu ödəmək və onun üzərində olan vəzifəni götürmək məqsədilə verilmişsə, bu halda girov azad olur, girov qoyulan mal da girov götürən şəxsin yanında əmanətə çevrilir. Amma bütün vərəsələrə aid olduğundan, sair vərəsələrin icazəsi və razılığı olmadan onu vərəsələrin bəzisinə verə bilməz. Qeyd olunan məbləğin də meyyitin borclarını ödəmək məqsədilə olması məlum olmasa, xüsusilə girov götürən şəxsin bu işə etiraf etməsi ilə həmin məbləği borcu müqabilində özünə götürə bilməz. Əksinə onu verən şəxsə qaytarması vacibdir, xüsusilə, əgər onu tələb edərsə, sikkəli qızıllar da vərəsələrin meyyitin borcunu qaytarıb girovu azad edincəyə, yaxud da girov götürən şəxsə onu satıb öz pullarını götürməyə icazə verincəyə qədər girov kimi onun yanında qalacaq.

---

Sual: **1697**: Malını girov qoyan şəxs girov qoyduğu malı girovdan azad olmamışdan qabaq öz borcları müqabilində yenidən başqa biir şəxsin yanında girov qoya bilərmi?

Cavab: Əvvəlki girov azad olmayınca girov qoyan şəxs tərəfindən ikinci girov birinci girov götürənin icazəsi olmadan füzuli hökmündədir və (bunun düzgünlüyü) onun icazəsinə bağlıdır.

---

Sual: **1698**: Bir nəfər başqasından müəyyən məbləğdə pul borc almaq üçün öz torpaq sahəsini onun yanında girov qoyur. Lakin girov götürən şəxs üzrxahlıq edib deyir ki, həmin məbləğdə pulu yoxdur, onun yerinə on baş qoyunu torpaq sahibinə verir. Hal-hazırda hər iki tərəf girovu azad etmək və hər biri öz malını almaq istəyir. Lakin torpağı girov götürən şəxs israr edir ki, həmin on baş qoyunu ona qaytarsınlar. Onun şərən belə haqqı varmı?

Cavab: Girov sonradan gerçəkləşəcək borc müqabilində deyil, baş vermiş borc müqabilində olmalıdır. Sualda fərz olunan halda torpaq sahəsi və qoyunlar onların öz sahiblərinə qaytarılmalıdır.

# Şəriklik

---

Sual: **1699**: Mən bir şirkətin sahibi ilə onun sərmayəsində şərik oldum. Belə qərara gəldik ki, o, mənim tərəfimdən sərmayənin işlədilməsində vəkil olsun və hər ay əldə olunan qazancdan 5 min tümən mənə versin. Bir il keçdikdən sonra sərmayə və onun qazancı müqabilində bir qədər torpaq sahəsini ondan aldım. Bu torpaq sahəsinin hökmü nədir?

Cavab: Sualda fərz olunduğu kimi, sərmayə qoymaqda şərikli olmaq və onun şirkət sahibinin tərəfindən işlədildiyi halda əgər qazanc şəri yolla halal sayılan tərzdə əldə olunsa, onu götürməyin eybi yoxdur.

---

Sual: **1700**: Bir neçə nəfər şərikli olaraq bir şey almış və şərt etmişlər ki, onların arasında püşk atılsın, hər kəsin adına çıxsa, həmin şey onun olsun. Bu işin hökmü nədir?

Cavab: Əgər püşk atmada məqsədləri onların hamısının müştərək maldan olan paylarını öz razılıqları ilə püşkün düşdüyü adama hədiyyə etmələri olsa, eybi yoxdur. Amma onların məqsədləri müştərək olan malın püşk adına düşənin mülkü olmasıdırsa, bu halda şəri cəhətdən düzgün deyil. Eləcə də əgər onların əsl məqsədləri udub-uduzmaq olsa, hökm eynidir (yenə də düzgün deyil).

---

Sual: **1701**: İki nəfər bir qədər torpaq sahəsi almışlar və iyirmi il müddətində şərik olaraq orada əkinçilik edirlər. İndi isə onlardan biri öz payına düşən torpaq sahəsini başqalarına satmışdır. Onun belə bir haqqı varmı? Yoxsa yalnız onun şəriki onun payını almağa haqlıdır? Əgər öz torpaq sahəsini şərikinə satmaqdan imtina edərsə, onun şərikinin etiraz etməyə haqqı varmı?

Cavab: Bir şərikin öz şərikinin payını ona satmağa vadar etməyə, başqasına satdıqda da etiraz etməyə haqqı yoxdur. Amma al- ver müamiləsi yerinə yetirildikdən sonra şüfə haqqının bütün şərtləri onun barəsində mövcud olarsa, şüfə yolu ilə əldə edə bilər.

---

Sual: **1702**: Sənaye və ticarət şirkətlərinin və ya bankların satışa qoyduğu səhmlərin al-verinin hökmü nədir? Belə ki, bir nəfər o səhmlərdən birini alır və sonradan o, qara bazarda müamilə olunur. Nəticədə onun qiyməti aldığı qiymətdən yuxarı və ya aşağı olur. Biz isə sərmayənin deyil, səhmin özünün al-ver edildiyini bilirik. Əgər qeyd olunan şirkətlərdə sələmli fəaliyyətlər olsa, yaxud biz bu barədə şəkk etsək, məsələnin hökmü nədir?

Cavab: Əgər zavodların, fabriklərin, şirkətlərin və yaxud bankların səhmlərinin mali dəyəri səhmin özünə görə və onun tərəfindən düzgün olan bir şəxs tərəfindən etibar verilməsi nəticəsində olsa, bu halda onun al-verinin eybi yoxdur. Həmçinin əgər zavod, fabrik, şirkət, bankın qiymət etibarı və ya onların sərmayələrinə əsasən olsa, hər bir səhmin onun bir hissəsi olmasını nəzərə almaqla səhmlərin al-verinin işkalı olmaz, bu şərtlə ki, şirkətin səhmlərinin məcmusuna, yaxud camaat arasında zərərin qarşısını almaq üçün lazım olan elm hasil olan işlərdən olsun və şirkətin, yaxud zavodun və ya bankın fəaliyyətləri də şərən halal olsun.

---

Sual: **1703**: Biz üç nəfər toyuq kəsilən zavodda və onun tabeçiliyində olan mülkdə şərikik. Aramızda lazımi razılaşmanın olmadığından qərara almışıq ki, şərikliyi ləğv edək və bir-birimizdən ayrılaq. Nəticədə toyuq kəsilən zavod və onun mülkünü şəriklərin arasında hərraca qoymuşuq. Şəriklərdən biri hərracda qalib gəldi, lakin o zamandan indiyə qədər bizə heç bir pul verməmişdir. Bu müamilə etibardan düşürmü?

Cavab: Sadəcə olaraq hərraca qoyma şəriklərdən birinin və yaxud başqa şəxs tərəfindən daha artıq qiymət qoyulması təklifinin irəli sürülməsi al-verin gerçəkləşməsi və mülkiyyətin mənimsənilməsində kifayət deyil və səhmlərin al-veri şəri baxımdan düzgün tərzdə gerçəkləşməyincə şəriklik öz halında qalır. Lakin al-ver düzgün şəkildə baş vermiş olsa, alıcının pulu verməyi təxirə salması müamilənin batil olmasına təsir göstərməz.

---

Sual: **1704**: Bir şirkəti dövlət tərəfindən rəsmi şəkildə qeydiyyatdan keçirdikdən sonra mən digər şəriklərin razılığı ilə öz səhmlərimi başqa bir şəxsə satmışam. O da pulu uzun müddətli qəbz surətində vermişdir. Amma həmin şəxsin hesabında ödəniş üçün pulu olmadığından qəbzləri məndən aldı və mənim şirkətdən olan payımı özümə qaytardı. Lakin sənədlər rəsmi olaraq onun adına qaldı. Sonra məlum oldu ki, qeyd olunan səhmi başqa bir şəxsə satmışdır. Onun bu müamiləsi düzdürmü, yoxsa mənim öz səhmimi tələb etməyə haqım var?

Cavab: Əgər sizinlə müamilənin pozulmasından sonra onu başqa şəxsə satmışsa, bu, birtərəfli al-verdir və sizin icazənizə bağlıdır. Amma əgər müamilə pozulmazdan əvvəl o, səhmi üçüncü bir şəxsə satmış olsa, onun düzgünlüyünə hökm olunur və birinci müamilənin pozulmasından sonra satılan malı gündəlik qiymət əsasında sizə qaytarmalıdır.

---

Sual: **1705**: İki qardaşa atasından irs olaraq bir ev qalmışdır. Onlardan biri evi bölmək, yaxud satmaq yolu ilə o biri qardaşından ayrılmaq istəyir. Amma o biri qardaşı mövcud olan bütün yolları rədd edir, belə ki, o, nə evin bölünməsinə razı olur, nə qardaşının payına düşəni pulla almağa, nə də öz payına düşəni ona satmağa razılaşmır. Nəticədə birinci qardaş bu münaqişəni həll etmək üçün məhkəməyə müraciət edir. Məhkəmə də bu işi həll etməyi ev barəsində məhkəmə

mütəxəssisinin araşdırma aparması ilə şərtləndirmişdir. Mütəxəssis də bildirmişdir ki, ev heç cür bölünə bilməz və bu şərikliyə son qoymaq üçün ya onlardan biri öz payını digərinə satmalı, ya da üçüncü bir şəxsə satıb pulu onların şərikli malı olmalıdır. Məhkəmə də mütəxəssisin bu nəzərini qəbul etmiş və evi açıq hərraca qoymuşdur. Ev satıldıqdan sonra pulu həmin qardaşlara verilir. Bu al-ver düzgündürmü və qardaşlardan hər biri evin pulundan öz payını götürə bilərmi?

Cavab: Bunun eybi yoxdur.

---

Sual: **1706**: Şəriklərdən biri şirkətin pulu ilə bir mülk almış və onu həyat yoldaşının adına keçirmişdir. Bu al-ver bütün şəriklərə aiddirmi və onun yeri də onların hamısının malı sayılırmı? O şəxsin həyat yoldaşı şərən qeyd olunan mülkü hətta həyat yodaşı bu işə icazə verməsə belə, bütün şəriklərin adına keçirməyə borcludurmu?

Cavab: Əgər o şəxs qeyd olunan mülkü özü və yaxud həyat yoldaşı üçün öz payına düşən külli qiymət əsasında almış olsa və sonradan pulunu şirkətin malından qaytarmağa başlasa, bu mülk onun özünün və ya həyat yoldaşınındır, yalnız digər şəriklərin payına düşən miqdarda onlara borclu sayılır. Amma onu şirkətin pulu ilə almış olsa, şəriklərin payına düşən miqdarda füzuli olur və onların icazəsinə bağlıdır.

---

Sual: **1707**: Vərəsələrdən bəzilərinin, yaxud onların vəkillərinin sair vərəsələrin razılığı olmadan onların hamısının arasında eyni səviyyədə (müşa) sayılan mülkdə müamilə, yaxud xarici bir təsərrüf etmək caizdirmi?

Cavab: Sair şəriklərin icazə və razılığı olmadan şəriklərdən heç birinin müştərək mülkdə xarici təsərrüf etmələri caiz deyil. Həmçinin onların hər birinin müştərək mülkdə etdikləri müamilə təsərrüfü yalnız sair şəriklərin razılığı ilə düzgün olar.

---

Sual: **1708**: Əgər şəriklərdən bəziləri müşa şəklində olan mülkü satsalar, yaxud şəriklərdən bəziləri onu satsa bəziləri də bu işə icazə versə, bu halda sair şəriklərin razılığı olmadan onların hamısının tərəfindən görülən bu müamilə qanunidirmi, yoxsa onun qanuni olması onların hamısının razılığına bağlıdır? Əgər bütün şəriklərin razılığı şərtdirsə, bu halda mülkdə şərik olmağın ticarət şirkəti əsasında olmaqla, mədəni bir şirkət daxilində olması arasında bir fərq varmı? Belə ki, şəriklərin hamısının razılığı ikincidə şərt olsun, lakin birincidə şərt olmasın?

Cavab: Müamilə yalnız öz hissəsini satan şəxslərin payına düşən miqdarda düzgün və qüvvədədir, sair şəriklərin payına düşən pay isə onun özünün icazəsinə bağlıdır. Bu halda şirkətin hasil olma səbəbləri arasında heç bir fərq yoxdur.

---

Sual: **1709**: Bir nəfər bankdan bir qədər pul borc alır və belə razılaşırlar ki, onun evinin tikilişində şərik olsun. Ev tikiləndən sonra da onu təbii hadisələrlə əlaqədar bankda sığorta edir. Hal-hazırda evin bir hissəsi yağış suyunun damması və yaxud quyu suyunu özünə çəkmə nəticəsində xarab olmuş və onun təmir olunmasına müəyyən qədər pul lazımdır. Amma bank bu məsələ ilə bağlı heç bir məsuliyyəti qəbul etmir, sığorta şirkəti də xəsarətin ödənməsini müqavilə çərçivəsindən kənar hesab edir. Belə olan halda bu işə kim cavabdeh və zamindir?

Cavab: Sığorta şirkəti sığorta müqaviləsində qeyd olunan qayda-qanunlardan xaricdə heç nəyə zamin deyil və həmin evin təmir edilməsi xərcləri, eləcə də heç bir şəxsin zamin olmadığı başqa xəsarətlərin ödənməsi onun sahibinin öhdəsinədir. Əgər bank da həmin binada mədəni şərikliyə malik olsa, xəsarət xüsusi bir şəxsə istinad verilməyincə öz payı miqdarında onun xərclərini ödəməlidir.

---

Sual: **1710**: Üç nəfər şərikli olaraq bir neçə ticarət yeri almışlar ki, birlikdə orada ticarətlə məşğul olsunlar. Lakin şəriklərdən biri başqaları ilə razılaşmır və o mağazalardan istifadə edilməsinə, hətta icarə verilməsinə, yaxud satılmasına belə mane olur. Bizim Sualımız budur:

1-Şəriklərdən biri digər iki şərikin icazəsi olmadan öz payını sata, yaxud icarəyə verə bilərmi?

2-Digər iki şərikin icazəsi olmadan o məkanda işləmək caizdirmi?

3-O məkanlardan birini özü üçün götürüb qalanlarını isə digər şəriklərə verməsi caizdirmi?

Cavab: 1-Şəriklərdən hər biri özünün müşa şəklində olan payını başqalarının icazəsinə bağlı olmadan sata bilər.

2-Şəriklərdən heç birinin yerdə qalanların razılığı olmadan müştərək malda təsərrüf etmələri caiz deyil.

3-Şəriklərdən heç biri birtərəfli olaraq və başqalarının razılığı olmadan öz payını müştərək maldan ayıra bilməz.

---

Sual: **1711**: Bir məntəqənin əhalisindən bir qrupu bir bağda hüseyniyyə tikmək istəyir, lakin həmin yerdə payı olan bəziləri bu işə razı deyillər. Həmin yerdə Hüseyniyyə tikməyin hökmü nədir? Əgər həmin yerin ənfalın bir hissəsi, yaxud şəhərin ümumi məkanlarından olması ehtimalı verilsə, onda hökmü necədir?

Cavab: Əgər həmin torpaq sahəsi oranın əhalisinin müşa şəkildə mülkü olsa, onda təsərrüf edilməsi şəriklərin hamısının razılığına bağlıdır. Amma ənfaldan olsa, onun ixtiyarı İslam dövlətinin əlindədir və onda təsərrüf etmək dövlətin icazəsi olmadan caiz deyil. Həmçinin şəhərin sair ümumi məkanları da belədir.

---

Sual: **1712**: Əgər vərəsələrdən biri özünün müştərək bağdan olan payının satılmasına razı olmasa, sair şəriklərin, yaxud dövlət müəssisələrindən birinin onu bu işə vadar etməsi caizdirmi?

Cavab: Əgər irs payının ayrılması və ya bölüşdürülməsi mümkün olsa, şəriklərdən heç biri və heç bir başqa şəxsin onu öz payını satmağa məcbur etməyə haqqı yoxdur. Belə hallarda şəriklərdən hər biri yalnız başqa şəriklərdən istəyə bilər ki, öz paylarını ayırsınlar. Amma İslam hökuməti tərəfindən ağaclara malik olan bağın ayrılması ilə əlaqədar xüsusi qanun-qaydalar mövcud olsa, bu halda həmin qanunlara riayət etmək vacibdir. Amma müşa şəklində olan mülk ayrılıb bölüşdürülməyə yararlı olmazsa, şəriklərdən hər biri başqa şərikləri öz payını satmağa, yaxud onun payını almağa vadar etmək üçün şəriət hakiminə müraciət edə bilər.

---

Sual: **1713**: Dörd qardaş malik olduqları müştərək sərmayədən istifadə edərək yaşayırlar. Bir neçə ildən sonra onlardan ikisi evlənib söz verdilər ki, hər biri kiçik qardaşlarından birini himayəsinə götürsün, onların izdivacı üçün lazım olan işləri tədarük görsün. Amma onlar öz verdiyi sözlərinə əməl etmədilər, nəticədə iki kiçik qardaş onlardan ayrılmaq qərarına gəldilər və öz müştərək paylarının ayrılmasını tələb etdilər. Şəri cəhətdən müştərək mal onların arasında necə bölünməlidir?

Cavab: Əgər bir kəs müştərək maldan şəxsi istifadə etsə, həmin miqdarda sair şəriklərə, öz payı müqabilində müştərək maldan həmin miqdarda işlətməyənlərə borclu sayılır. Nəticədə ondan istəyə bilərlər ki, onun əvəzini öz malından versin və müştərək malın qalanını aralarında bərabər şəkildə bölsünlər. Yaxud əvvəlcədən müştərək maldan istifadə etməyənlərə və ya başqalarına nisbətən az istifadə edənlərə, müştərək maldan bərabər səviyyədə istifadə edəcəkləri qədər versin, yerdə qalanları da bərabər şəkildə bölsünlər.

---

Sual: **1714**: Çay becərmə idarəsi şəhərlərdə çay satanları məcbur edir ki, o idarəyə şərik olsunlar. Qeyd olunan idarənin çay satıcılarını onunla şərik olmağa məcbur etməsi caizdirmi? İcbari olan bu şəriklik düzgündürmü?

Cavab: Əgər çay idarəsi şəhərlərdə çay satanların ixtiyarına müəyyən imkanlar qoyursa və onu bölüşdürmək üçün onlara verib bu və ya digər xidməti işlər görürsə və onlarla çay idarəsində şərik olub yalnız onlarla müamilə etməyi şərt edirsə, bu şərtin eybi yoxdur və qeyd olunan şərikliyin də işkalı yoxdur.

---

Sual: **1715**: Şirkətin müdir və məsulları hasil olan gəlir və qazancı səhm sahiblərinin icazəsi olmadan digər işlərə sərf edə bilərlərmi?

Cavab: Şəriklərdən hər birinin müştərək malın qazancından olan paylarını, eləcə də onun hansı yolda istifadə olunması ixtiyarı onun öz əlindədir. Deməli, əgər başqa bir şəxs vəkil olmadan, yaxud onun tərəfindən icazəsi olmadan sərf etsə, hətta onu xeyriyyə işlərində işlətsə belə zamindir.

---

Sual: **1716**: Üç nəfər bir ticarət mərkəzində şərikdir. Birinci şərik sərmayənin yarısını, qalan iki şərik isə dörddə birini qoymuş və qərara almışlar ki, ticarətdən əldə olunan gəlir onların aralarında bərabər şəkildə bölünsün. Lakin ikinci və üçüncü şərik ticarət mərkəzində çox işgüzar fəaliyyətlərlə məşğul olur, halbuki birinci şərik orada çox az işləyir. Bu cür şəriklik qeyd olunan şərtlərlə düzgündürmü?

Cavab: Şəriklik əqdində şəriklərin hər birinin sərmayə adı ilə verdikləri şeydə bərabər olmaları şərt deyil, hətta qoyulan sərmayələrin miqdarı fərqli olsa belə əldə olunan qazancın da bərabər şəkildə şəriklər arasında bölüşdürülməsinin şərt olunmasının bir işkalı yoxdur. Həmin yerdə işləməyə gəldikdə isə, əgər şəriklik əqdində bununla əlaqədar bir şey qeyd olunmamışdırsa, onlardan hər biri gördüyü iş müqabilində öz əmək haqqını almağa haqlıdır.

---

Sual: **1717**: Bir şirkət ümumi və xüsusi olaraq iki hissədən təşkil olunmuşdur. Səhmdarların nümayəndələri oranın işlərinin idarə olunmasına nəzarət edir. Oranın müdir və işçilərinin öz şəxsi işləri üçün camaat arasında adi qaydada olan həddə şirkətin nəqliyyat vasitələrindən istifadə etmələri caizdirmi?

Cavab: Şirkətin nəqliyyat vasitələrindən, eləcə də sair şeylərindən şirkətə aid olmayan işlərdə istifadə olunması səhmdarların, yaxud onların nümayəndələrinin bu barədə icazəsindən asılıdır.

---

Sual: **1718**: Şirkətin qanun və məramnaməsinə əsasən ixtilaflı və münaqişəli məsələlərin həll edilməsi və son qərara gəlmək üçün komissiya təşkil olunmalıdır. Amma qeyd olunan komissiya, üzvlərin tərəfindən təşkil olunmayınca öz vəzifəsini yerinə yetirməyə səlahiyyəti yoxdur. Hal-hazırda da səhmdarların və şəriklərin 51 faizi öz hüquqlarından güzəştə getdiyinə görə onu təşkil etmirlər. Öz hüquqlarından keçən şəxslərə, (öz hüquqlarından keçməyən) sair səhmdarların hüququnun qorunması üçün bu komissiyanın təşkil olunmasında iştirak etmələri vacibdirmi?

Cavab: Əgər şirkətin üzvləri şirkət daxilində mövcud olan qayda-qanunlar əsasında lazım olan hallarda münsiflər heyətini təşkil etməyə dair iltizam vermiş olsalar, onda öz sözlərinə əməl etmələri vacibdir. Üzvlərdən bəzilərinin öz haqlarından keçməsi münsiflər heyəti təşkil edilməsi ilə əlaqədar verdiyi sözə əməl etməkdən imtina etmələrinə əsas ola bilməz.

---

Sual: **1719**: İki nəfər ticarətdə müştərək sərmayə əsasında sərqüflisi də müştərək olan bir yerdə şərikdir. İlin axırında qazancı və ziyanı təyin edərək öz aralarında bölüşdürürlər. Son zamanlar o iki nəfərdən biri öz gündəlik işini tərk etmiş və sərmayəsini götürmüşdür. İkinci şərik isə həmin yerdə ticarət işlərini davam etdirir. Hal-hazırda o şərik iddia edir ki, onun şərikinin özü üçün yerinə yetirdiyi xüsusi müamilələrdə o da şərikdir. Bu məsələnin hökmü nədir?

Cavab: Bir mülkdə, yaxud ticarət obyektinin sərqüflisində sadəcə olaraq şərik olmaq ticarətdə və ondan əldə olunan qazancda da şərik olmağa kafi deyil, əksinə, əsas meyar ticarətin sərmayəsində şərik olmaqdır. Deməli, əgər şəriklərdən hər biri özünün müştərək sərmayədən payını düzgün şəkildə bölüşdürsə və onlardan biri sərmayəsini götürsə, digər şərik həmin məkanda öz ticarət işlərini davam etdirsə, sərmayədən öz payını götürən şəxsin digər şərikinin ticarətində heç bir haqqı yoxdur, yalnız həmin obyektdən olan öz payına uyğun icarə və ya onun dəyərini tələb edə bilər. Amma onun həmin yerdəki ticarətinin davam etdirilməsi müştərək sərmayənin bölüşdürülməsindən qabaq olsa, ikinci şərikin, sərmayədə şərik olmasına mütənasib olaraq birinci şərikin ticarətində haqqı vardır.

---

Sual: **1720**: Mümkündür ki, mənim bacım şəriklikdə olan sərmayəsini islama və haqq məzhəbə uyğun gəlməyən işlərin yayılmasına xərcləsin. Mənə bacımın şəriklikdə olan payının götürməsinin qarşısını almağım və eləcə də bacımın şəriklikdən olan sərmayəsinin alınıb ona verilməsinə mane olmağım vacibdirmi?

Cavab: Şəriklərdən heç birinin başqa şəriklərin şəriklikdən ayrılmasına mane olmağa, habelə şəriklərin öz var-dövlət və sərmayəsini aldıqdan sonra onu şər və günah yollarda istifadə etməsini əsas tutaraq onun öz var-dövlətini əldə etməyə mane

olmağa haqqı yoxdur. Əksinə, onlara vacibdir ki, onun bu barədəki istəyinə müsbət cavab versinlər. Amma o adamın özünə, özünün var-dövlətini haram işlərdə xərcləməsi haramdır. Başqalarına da vacibdir ki, öz var-dövlətini şəriətə zidd olan işlərdə işlətdiyi təqdirdə onu bu işdən çəkindirib nəhy əz-münkər etsinlər.

---

Sual: **1721**: Bizim kəndimizdə sahəsi 10 hektara çatan təbii su anbarı vardır. Onun mülkü əkinçilərə ata-babalarından irs çatmışdır. Hər il qış aylarında ora su toplanır, əkin sahələrinin və bağların suvarılması üçün istifadə edilir. Hal-hazırda dövlət onun ortasından enli bir yol salmışdır. Yalnız onun 5 hektarı qalır. Yerdə qalan miqdar bələdiyyə idarəsinin sahəsi hesab olunur, yoxsa əkinçilərin mülkü?

Cavab: Əgər həmin sahə əkinçilərin ata-babalarından qalmış olsa və irs vasitəsilə onlara çatmışsa, onun yerdə qalanı onların öz malı hesab olunur və bələdiyyə idarəsinin onda heç bir haqqı yoxdur. Amma hökumətin bu barədə xüsusi qanunları olmuşsa, onda ona riayət edilməlidir.

# Hədiyyə (hibə)

---

Sual: **1722**: Həddi-büluğa çatmamış yetim uşağın hədiyyə etdiyi şeydə təsərrüf etmək şərən caizdirmi?

Cavab: Bu iş onun şəri qəyyumunun icazəsinə bağlıdır.

---

Sual: **1723**: İki qardaş torpaq sahəsində şərikdirlər. Onlardan biri öz payını böyük qardaşının oğluna əvəzli hədiyyə kimi bağışlamış və onu təhvil vermişdir. Hədiyyə edən şəxsin övladları atalarının vəfatından sonra həmin miqdar torpaq sahəsində irs iddiası edə bilərlərmi?

Cavab: Əgər vəfat edən qardaşın o torpaqdan olan payını öz sağlığında qardaşı oğluna bağışlayıb təhvil verməsi və onun ixtiyarına keçirməsi sübuta yetsə, vəfatından sonra onun vərəsələrinin onda heç bir haqqı yoxdur.

---

Sual: **1724**: Bir nəfər öz atası üçün onun torpaq sahəsində ev tikmiş və onun icazəsi ilə sağlığında bir mərtəbəsini də özü üçün tikmişdir. O şəxsin atasından bir neçə il sonra vəfat etdiyini, eləcə də onun hədiyyə etdiyini, yaxud ondan necə istifadə etməsini göstərən heç bir sənədin, yaxud vəsiyyətin olmadığını nəzərə alsaq, onda ikinci mərtəbə onun mülküdürmü və onun vəfatından sonra onun vərəsələrinə qalırmı?

Cavab: Əgər övlad, onun ixtiyarında olan ikinci mərtəbənin tikinti xərclərini vermiş olsa və atasının sağ olduğu müddətdə heç bir münaqişə olmadan onun ixtiyarında olmuşsa, şərən onun mülkiyyəti olduğuna hökm olunur, vəfatından sonra da onun mirası hesab olunaraq vərəsələrə qalır.

---

Sual: **1725**: 11 yaşım olarkən atam evlərindən birini rəsmi olaraq mənim adıma keçirmiş, bir qədər torpaq sahəsini və bir evinin yarısını qardaşımın adına, digər yarısını da anamın adına keçirmişdir. Atamın vəfatından sonra sair vərəsələr iddia etdilər ki, atamın mənim adıma keçirdiyi ev şərən mənim mülküm deyil. Onlar deyirlər ki, atam evin müsadirə olunmasının qarşısını almaq üçün onu mənim adıma keçirmişdir, eyni zamanda bunu da etiraf edirlər ki, anamın və qardaşımın adına olan əmlak onların mülküdür. Atamın heç bir vəsiyyət etmədiyini və bu məsələ ilə əlaqədar heç bir şahidin olmadığını nəzərə alsaq, bunun hökmü nədir?

Cavab: Atanın öz sağlığında bəzi vərəsələrinə hədiyyə edib onlara təhvil verdiyi və bu məsələnin sübutu üçün rəsmi sənəddə yazdığı əmlak şərən onun mülkü hesab olunur və sair vərəsələrin ona maneçilik törətməyə haqqı yoxdur. Amma əgər mötəbər yolla atanın o mülkü ona bağışlamadığı, rəsmi sənədlərin də sadəcə zahiri və formal olduğu sübuta yetsə, onda məsələ fərq edir.

---

Sual: **1726**: Ərim ev tikən zaman mən də ona kömək edirdim və bu da evin xərclərinin azalmasına və binanın başa gəlməsinə səbəb oldu. Özü də bir neçə dəfə demişdi ki, mən onunla evdə şərikəm, iş qurtardıqdan sonra onun üçdə birini mənim adıma keçirəcək. Amma bu işi görməzdən əvvəl vəfat etdi. İndi də mənim müddəamı isbat edəcək heç bir sənəd və vəsiyyətnamə mövcud deyil. Bu məsələnin hökmü nədir?

Cavab: Evin tikilməsində kömək göstərmək, yaxud sizin evdə şərikliyinizə görə sadəcə söz vermək o mülkdə şərik olmağınıza səbəb olmaz. Deməli, mötəbər yolla sizin həyat yoldaşınızın evin bir hissəsini öz sağlığında sizə bağışlaması sübuta yetməyincə irsdən başqa heç bir şeydə haqqınız yoxdur.

---

Sual: **1727**: Ərim əqli sağlamlığa malik olduğu bir zaman bankın məsul bir işçisini çağırdı və bankın hesabında olduğu pulları mənə hədiyyə etdi. O pulları mənim tərəfimdən götürülmə haqqını göstərən bir sənəd də imzaladı, belə ki, xəstəxananın rəisi və bankın məsul işçisi də ona şahid idi. Buna görə bank mənə bir dəstə qəbz verdi və ay ərzində ondan müəyyən məbləğ götürdüm. Bir ay yarım keçdikdən sonra oğlu onu banka apardı və orada şüur və idrakını əldən verdiyi bir halda ondan "bu mal sənin həyat yoldaşınındırmı?"- deyə soruşdular. O, başı ilə müsbət cavab verdi. Yenidən ondan soruşdular ki, bu mal sənin övladlarınındırmı? Yenidən müsbət cavab verdi. Bu mal mənə məxsusdur, yoxsa ərimin övladlarının mülkü sayılır?

Cavab: Hədiyyənin təhvil alınması mülkiyyətin hasil olması şərti olduğundan, eləcə də bankda ehtiyat saxlanan pulların alınması üçün sənədin imza olunması və qəbz verilməsi kifayət olmadığından, imza qoyulması və çekin alınması o hədiyyənin düzgün olmasına səbəb olmaz. Buna görə də ərinizin əqli cəhətdən sağlam olduğu bir vaxtda onun icazəsi ilə bankdan aldığınız sizin malınızdır, ərinizin bankda qalan mal-dövləti isə vəfatından sonra onun mirası hesab olunur və onun vərəsələrinə çatır. İdrakının əldən verdiyi dövrdə etdiyi iqrarın da heç bir etibarı yoxdur. Əgər bu barədə müəyyən bir qanun mövcud olsa, ona tabe olmaq lazımdır.

---

Sual: **1728**: Övladların ananın sağlığında onun üçün aldıqları şeylər onun şəxsi mal-dövləti hesab olunurmu və nəticədə öləndən sonra onun mirası sayılırmı?

Cavab: Əgər övladlar qeyd olunan əşyaları analarına bağışlasalar və onun ixtiyarına versələr, ananın şəxsi mülkü hesab olunur və vəfatından sonra onun mirasından sayılır.

---

Sual: **1729**: Ərin öz arvadı üçün aldığı zinət əşyaları ərin malın və vəfatından sonra onun mirası hesab olunurmu? Belə ki, vərəsələrin arasında bölünməli və həyat yoldaşı da ondan öz payını götürməlidir, yoxsa qadının öz mülküdür?

Cavab: Əgər cəvahirat və bəzək əşyaları kişinin həyat yoldaşının ixtiyarında olsa və onlarda malikiyyəti göstərən tərzdə təsərrüf etsə, əksi sübut edilməyincə o cəvahiratın malikiyyət haqqı o qadın üçündür.

---

Sual: **1730**: Ərlə arvadın ailə münasibətlərinin davam etdiyi müddətdə onlara hədiyyə olunan şeylər ərin mülküdür ya qadının və yaxud hər ikisinin?

Cavab: Hədiyyələrin qadınlara, yoxsa kişilərə məxsus olması və ya hər ikisinin, yaxud birinin tərəfindən istifadəyə qabil olması ilə əlaqədar fərqlərin yaranması məsələsində işin zahirinə əsasən, ər-arvaddan birinə məxsus olan tərzdə hədiyyə olunmuşsa, onun mülkü sayılır. Onlara müştərək şəkildə hədiyyə olunanlar isə onların hər ikisinin müştərək mülkü sayılır.

---

Sual: **1731**: Bir kişi öz arvadına təlaq versə, o qadının, ərə getdiyi vaxt ailəsi tərəfindən ona verilən şeyləri (palaz, xalça, taxt, paltar və sair) ərindən tələb etməsi caizdirmi?

Cavab: Əgər qeyd olunanlar qadının öz ailəsindən aldığı şeylərdən, yaxud özü üçün aldığı şəxsi əşyalardan olsa, yaxud şəxsən onun özünə hədiyyə edilmiş olsa, öz mülkü sayılır. Əgər qalmış olsalar, onları ərindən tələb etməyə haqqı vardır. Amma ərinə qohumları tərəfindən hədiyyə olunan şeylərdən olsa, onu ərindən tələb edə bilməz, bu kimi əşyaların ixtiyarı

onları ərinə hədiyyə edən şəxslərin əlindədir. Belə ki, əgər onların özü qalmış olsa, ər də onların qan qohumlarından olmasa, hədiyyə edən şəxs onu pozaraq malı geri ala bilər

---

Sual: **1732**: Həyat yoldaşıma təlaq verdikdən sonra öz pullarımla izdivac vaxtında aldığım qızıl və bəzək əşyalarını ona verdiyim sair şeyləri geri aldım. Hal-hazırda onlardan istifadə etmək mənim üçün caizdirmi?

Cavab: Əgər onları istifadə etmək üçün əmanət şəklində həyat yoldaşınıza vermiş olsanız, yaxud onu hədiyyə etmisinizsə və onların özü həyat yoldaşınızın yanında olduğu kimi qalmış olsa, o qadın da sizin qan qohumlarınızdan olmasa, hədiyyəni ləğv edib hədiyyə edilmiş malları geri ala bilərsiniz. Bu zaman sizin aldığınız mallarda təsərrüf etməyiniz caizdir, əks halda isə caiz deyil.

---

Sual: **1733**: Atam bir qədər torpaq sahəsini mənə bağışlamış və onun sənədini rəsmi şəkildə mənim adıma keçirmişdir. Amma bir il keçəndən sonra öz işindən peşman olmuşdur. Mənim o torpaq sahəsindən istifadə etməyim caizdirmi?

Cavab: Əgər siz torpaq sahəsini təhvil aldıqdan və onu öz ixtiyarınıza keçirdikdən sonra atanız öz bəxşişindən peşman olub fikrindən dönsə, bu, düzgün deyil və şərən torpaq sahəsi sizin mülkünüzdür. Amma əgər bu peşmançılığı və qayıtması sizin tərəfinizdən torpaq sahəsini almazdan əvvəl olsa bu halda öz fikrindən dönməyə haqqı var və bu halda sizin o torpaq sahəsində heç bir haqqınız yoxdur. Oranı sadəcə olaraq sizin adınıza sənədləşdirilməsi bəxşişdə mötəbər sayılan “qəbzin” (təhvil alınmanın) gerçəkləşməsi üçün kifayət deyil.

---

Sual: **1734**: Mən bir qədər torpaq sahəsini bir nəfərə bağışlamışam, o da onun bir hissəsində yaşayış evi tikmişdir. Ona bağışladığım şeyin özünü, yaxud qiymətini ondan tələb etməyim caizdirmi? Torpaq sahəsinin bina tikmədiyi yerlərini ondan geri ala bilərəmmi?

Cavab: O şəxs sizin icazənizlə torpaq sahəsini öz ixtiyarına keçirib orada mənzil tikməklə təsərrüf etmişsə, hədiyyəni ləğv edib yeri, yaxud onun qiymətini geri almağa haqqınız yoxdur. Əgər torpaq sahəsi o yerin əhalisinin nəzərində bir hissəsində ev tikilməklə torpaq sahəsinin hər bir yerində təsərrüf etmək sayılacaq qədər böyük olsa, bu halda o torpaq sahəsinin heç bir hissəsini geri almağa haqqınız yoxdur.

---

Sual: **1735**: Bir şəxsin öz mal-dövlətinin hamısını övladlarından birinə hədiyyə edərək qalanlarını ondan məhrum etməsi caizdirmi?

Cavab: Əgər bu iş övladlar arasında fitnə-fəsada, münaqişəyə və ixtilafa səbəb olacaqsa, caiz deyil.

---

Sual: **1736**: Bir şəxs öz evini müəvvəzə hibə şəklində rəsmi olaraq beş nəfərə hibə etmişdir ki, onun yerində Hüseyniyyə tiksinlər. Bu şərtlə ki, tikdikdən sonra ora 10 il müddətinə toxunulmaz qalsın, yalnız ondan sonra istəsələr, vəqf edə bilərlər. Onlar camaatın köməkliyi ilə Hüseyniyyə tikmiş və vəqfin əqdinin şərtləri ilə əlaqədar olan işlərə və onun toxunulmazlığına nəzarət işinə başçılıq etmə ixtiyarı qeyd olunan vaxt keçdikdən sonra vəqfə nəzarəti öz öhdələrinə aldılar və bu barədə bir sənəd də tənzim etdilər. Toxunulmazlığına söz verilmiş hüseyniyyəni vəqf etmək məqsədləri olsa, bu halda vəqfə nəzarətçi seçmək barədə onların nəzərinə tabe olmaq vacibdirmi? Bu şərtlərə riayət etməməyə iltizam verməyin şərən işkal və iradı varmı? Əgər o beş nəfərdən biri hüseyniyyənin vəqf olunması ilə müxalifət edərsə, məsələnin hökmü nədir?

Cavab: Onlara hədiyyə edən şəxsin müəvvəzə (əvəzli hədiyyə) əqdi daxilində onlara etdiyi şərtə uyğun olaraq əməl etmələri vacibdir. Əgər onun azad buraxmaq və ya vəqf edilməsi keyfiyyəti ilə əlaqədar şərtlərini pozsalar, hədiyyə edənin, yaxud onun vərəsələrinin müəvvəzə hədiyyəni ləğv etmə haqqı vardır. Amma o beş nəfərin həmin yeri azad buraxmağa, yaxud onun işlərinə nəzarət etmək, habelə vəqf və ona nəzarətçi təyin etmək kimi işlərdə qeyd etdikləri şərtlər hədiyyə edən şəxsin hədiyyə əqdindəki şərtinə uyğun olarsa, belə ki, o işlərin hamısının ixtiyarını onlara həvalə etmişsə, ona iltizamlı olmaq və əməl etmək vacibdir. Əgər onlardan bəziləri hüseyniyyəni vəqf etməkdən imtina etsələr, bu halda hədiyyə edənin nəzəri onların vəqf etmək barəsində birlikdə qərara gəlmələri olmuşsa, sair şəxslərin onu vəqf etməyə haqqı yoxdur.

---

Sual: **1737**: Bir nəfər öz şəxsi evinin üçdə birini həyat yoldaşına bağışlamış və bir ildən sonra onun hamısını 15 il müddətinə icarəyə vermiş, sonra vəfat etmişdir. Onun övladı da yoxdur. Evi bağışladıqdan sonra icarəyə verdiyi halda onu hədiyyə etmək düzgündürmü? Əgər borclu olarsa, onu bütün evin hesabından ödəmək lazımdır, yoxsa yerdə qalan üçdə ikisindən? Və yerdə qalanlar da irs qanunlarına uyğun olaraq vərəsələr arasında bölünməlidir? Borc sahibinin icarə müddətinin sona çatmasına qədər gözləməsi vacibdirmi?

Cavab: Əgər hədiyyə edən şəxs həyat yoldaşına bağışladığı həmin miqdarı, onun hamısını hətta evi bütünlüklə təhvil verərkən icarə verməkdən əvvəl ona təhvil vermişsə və həyat yoldaşı da onun qan qohumlarından olmuşsa və ya hədiyyə nəyinsə əvəzində olubsa, həmin miqdarda edilən hədiyyə düzgün və qüvvədədir. İcarə də yalnız onun qalan hissələrində düzgündür. Əks halda, hədiyyə, evin hamısının ondan sonra icarə verildiyinə görə batildir. Əlbəttə, əgər icarə vermək hədiyyə etmək fikrindən dönmək məqsədi ilə olsa və yalnız hədiyyə verildikdən sonra evi icarəyə vermək məqsədi ilə olsa, düzgündür. Meyyitin borcları da öldüyü vaxta qədər malik olduğu şeylərdən verilməlidir. Sağlığında müəyyən müddətə qədər icarəyə verdiyi yerin mənfəəti icarə müddətində icarəyə götürən şəxsindir, onun eyni isə mirasından hesab olunur, meyyitin borcları ondan çıxılmalı, yerdə qalanlar isə irs şəklində vərəsələrə çatmalıdır. İcarə müddəti sona çatmayana qədər ondan istifadə edə bilməzlər.

---

Sual: **1738**: Bir nəfər öz vəsiyyətnaməsində yazmışdır ki, özünün daşınmaz əmlakının hamısı övladlarından birinə məxsus olsun, bu şərtlə ki, sağ olduğu müddətdə hər il o mal-dövlətin müqabilində bir qədər düyünü ona və ailəsinə versin. Bir il keçdikdən sonra o malın hamısını ona bağışladı. Bu vəsiyyət əvvəlcədən edildiyinə görə etibarlıdırmı və nəticədə onun üçdə birində düzgündür və yerdə qalan mal-dövlət də onun vəfatından sonra bütün vərəsələrə irs çatırmı? Yoxsa vəsiyyət ondan sonra hədiyyənin gerçəkləşməsi ilə batil olur? (Qeyd etmək lazımdır ki, həmin var-dövlət hədiyyə olunan şəxsin ixtiyar və təsərrüfündədir.)

Cavab: Əgər vəsiyyətdən sonra baş verən bəxşiş hədiyyə olunan malın əldə olunub istifadə edilməsi ilə hədiyyə edən şəxsin sağlığında və onun icazəsi ilə qəti şəkildə gerçəkləşibsə, hədiyyədən əvvəl baş verən vəsiyyət batil olur. Çünki hədiyyə vermək vəsiyyətdən dönmək hesab olunur, nəticədə hədiyyə olunan mal övladın mülkü sayılır və sair vərəsələrin onda heç bir haqqı yoxdur. Bundan qeyri surətdə vəsiyyət edən şəxsin öz vəsiyyətindən dönməsi sübut olunmayınca, vəsiyyət öz qüvvəsində qalır və etibarlıdır.

---

Sual: **1739**: Atasının irsindən olan öz payını iki qardaşına bağışlayan bir varisin bir neçə ildən sonra onu qardaşlarından tələb etməsi caizdirmi? Əgər o iki qardaş onun payını qaytarmaqdan imtina etsələr, bunun hökmü nədir?

Cavab: Əgər hədiyyə təhvil verilib-alınmaqla gerçəkləşdikdən sonra öz hədiyyəsindən dönmək istəsə, belə bir haqqa malik deyil. Amma hədiyyənin təhvil verilib-alınması gerçəkləşməzdən qabaq fikrindən dönsə, düzgün və işkalsızdır.

---

Sual: **1740**: Qardaşlarımdan biri öz razılığı ilə irsdən olan payını mənə bağışladı. Amma bundan sonra irs vərəsələr arasında bölüşdürülməzdən əvvəl qardaşım öz fikrindən döndü . Bu məsələnin hökmü nədir?

Cavab: Əgər irsdən olan payını sizə təhvil verməzdən qabaq öz fikrindən dönsə, buna haqqı çatır. Bu halda sizə hədiyyə etdiyi şeydə heç bir haqqınız yoxdur. Amma hədiyyəni təhvil aldıqdan sonra öz fikrindən dönsə, heç bir təsiri yoxdur və onun sizə bağışladığı şeydə bir haqqı yoxdur.

---

Sual: **1741**: Bir qadın öz əkin sahəsini bir nəfərə bağışlamışdı ki, onun vəfatından sonra onun əvəzinə həcc ziyarətini yerinə yetirsin. Çünki o, həccin vacib olmasını güman edirdi. Lakin onun qohum-əqrəbası onunla razı deyildilər. Sonra ikinci dəfə olaraq həmin torpaq sahəsini nəvələrindən birinə hədiyyə etdi və ikinci hədiyyə etməsindən bir həftə sonra vəfat etdi. Bu halda birinci hədiyyə düzdür, yoxsa ikinci? Birinci hədiyyə verilən şəxs həcc əməlini yerinə yetirməyə borcludurmu?

Cavab: Əgər birinci şəxs hədiyyə edən şəxsin qan qohumlarından olsa və hədiyyə olunan malın özünü onun icazəsi ilə təhvil almış olsa, birinci hədiyyə düzgün və keçərlidir və bu qadının əvəzindən həcc fərizəsini yerinə yetirməsi vacibdir. Bu halda ikinci hədiyyə füzuli olub birinci hədiyyə olunan şəxsin icazəsinə bağlıdır. Amma o şəxs qadının qan qohumlarından olmasa,

yaxud hədiyyə olunan şeyi təhvil almamış olsa, bu halda ikinci hədiyyə düzdür və bunun özü də birinci hədiyyədən dönmək sayılır. Bunun nəticəsində birinci hədiyyə batil olur. Nəticədə birinci şəxsin torpaq sahəsində heç bir haqqı yoxdur və hədiyyə edən şəxsin tərəfindən həcc əməlini yerinə yetirməsi də vacib deyil.

---

Sual: **1742:** Bir haqq sübut olunmamışdan qabaq hədiyyə oluna bilərmi? Əgər qadın özünün gələcəkdə istifadə edəcəyi mali hüquqlarını əqd zamanı ərinə bağışlasa, düzgündürmü?

Cavab: Bu cür bəxşişlərin düzgün olmasında nəinki işkal, üstəlik qadağa da mövcuddur. Nəticədə əgər o qadının əri üzərində olan gələcək hüquqları razılaşması, yaxud sübut edildikdən sonra ləğv edilməsi şərti ilə qaytarsa, eybi yoxdur. Əks halda heç bir fayda və təsiri yoxdur.

---

Sual: **1743**: Kafirlərdən hədiyyə almaq və yaxud onlara hədiyyə verməyin hökmü nədir?

Cavab: Öz-özlüyündə heç bir maneəsi yoxdur.

---

Sual: **1744**: Bir nəfər öz sağlığında bütün var-dövlətini nəvəsinə bağışlamışdır. Bu, onun bütün mal-dövlətində, hətta ölümündən sonra kəfən, dəfn və sair kimi işlərə xərclənəcək hissədə belə qüvvədədirmi?

Cavab: Əgər hədiyyə olunmuş mal-dövlət hədiyyə olunandan sonra və hədiyyə edən şəxsin sağlığında onun öz icazəsi ilə təhvil alınmış olsa, hədiyyə, təhvil alınmış şeylərin hamısında qüvvədədir.

---

Sual: **1745**: Müharibə əlillərinə və yaralılarına verilən mal-dövlət hədiyyə hesab olunurmu?

Cavab: Bəli. Amma əgər gördükləri iş müqabilində onlardan bəzilərinə verilsə, bu, onların əmək haqqı sayılır.

---

Sual: **1746**: Bir şəhid ailəsinə hədiyyə verilsə, o, vərəsənin malıdır, yoxsa ailə başçısının, yaxud onların qəyyumunun?

Cavab: Bu, hədiyyə edən şəxsin niyyətinə bağlıdır.

---

Sual: **1747**: Bəzi daxili və xarici şirkətlər, yaxud fiziki və hüquqi şəxslər əmtəələri al-ver edən zaman, yaxud texniki müqavilələr bağlanan zaman bəzi vəkil və vasitələrə müəyyən hədiyyələr verirlər. Hədiyyəni alan şəxs hədiyyə verənin xeyrinə bəzi işlər görməsi, yaxud onun xeyrinə bəzi qərarlar qəbul etməsi ehtimalı verildiyi halda, onların verilən bu hədiyyəni qəbul etməsi caizdirmi?

Cavab: Müqavilələrdə, al-ver məsələlərində vasitə və ya vəkil olan şəxs qarşı tərəflə etdiyi müamilə müqabilində gərək hədiyyə almasın.

---

Sual: **1748**: Şirkətlərin, yaxud şəxslərin vasitəsi ilə verilən hədiyyələr onlara beytül-maldan verilən hədiyyə müqabilində olsa, hökmü nədir?

Cavab: Əgər beytül-maldan verilən hədiyyənin əvəzi olsa onda beytül-mala qaytarılmalıdır.

---

Sual: **1749**: Əgər hədiyyə, onu alan şəxsdə təsir qoysa və təhlükəsizlik məsələlərində şəkk yaradan və ya münasib olmayan əlaqələrin bərqərar olunmasına səbəb olsa, bu hədiyyələrin alınıb təsərrüf olunması caizdirmi?

Cavab: Bu hədiyyələrin alınması caiz deyil, üstəlik onları almaqdan imtina etmək vacibdir.

---

Sual: **1750**: Hədiyyədə, onu alan şəxsin hədiyyə verənin xeyrinə olaraq müəyyən təbliğatlar aparmağa rəğbətləndirmək məqsədi ehtimalı verilirsə, onu almaq caizdirmi?

Cavab: Əgər nəzərdə tutulan təbliğat qanuni və şəri cəhətdən caiz olsa, onun işkalı yoxdur və bunun müqabilində hədiyyə almağın eybi yoxdur. Əlbəttə, idarə mühitlərində bu məsələ əlaqədar qanun və göstərişlərə bağlıdır.

---

Sual: **1751**: Məsul şəxsin bəzi işlər görməklə əlaqədar razılığını cəlb etmək üçün, yaxud onun müxalifət etməməsi və özünü görməməzliyə, qəflətə vurması üçün ona hədiyyə verilərsə bu hədiyyənin qəbul olunmasının hökmü nədir?

Cavab: Bu kimi hədiyyələrin qəbul edilməsi işkallıdır və üstəlik qadağandır. Ümumiyyətlə hədiyyənin verilməsi qanuna və şəriətə zidd olan məqsədlərə çatmaq, yaxud qanuni məsul işçinin razılıq verməyə haqqı olmadığı şeylərə razılığa rəğbətləndirmək üçün olsa, bu hədiyyəni almaq caiz deyil, üstəlik imtina etmək vacibdir. Məsul şəxslərə vacibdir ki, bu işin qarşısını alsınlar.

---

Sual: **1752**: Ata tərəfdən olan babanın öz mal-dövlətinin hamısını, yaxud bir qismini öz sağlığında dünyadan getmiş övladının həyat yoldaşına və onun övladlarına bağışlaması caizdirmi? Onun qızlarının bu işə etiraz etməyə haqqı varmı?

Cavab: Onun sağlığında öz nəvələrinə və gəlininə istədiyi hər şeyi hədiyyə etməyə haqqı vardır. Qızlarının da bu işə etiraz etməyə heç bir haqqı yoxdur.

---

Sual: **1753**: Bir şəxsin övladı, atası, anası, bacısı və qardaşı yoxdur və öz mal- dövlətini həyat yoldaşına və ya onun qohumlarına hədiyyə etmək istəyir. Onun bu işi şərən caizdirmi? Bu hədiyyənin müəyyən bir həddi varmı, yoxsa mal-dövlətinin hamısını hədiyyə edə bilər?

Cavab: Malikin öz sağlığında mal-dövlətinin hamısını və ya müəyyən bir qədərini istər varis, istərsə də qeyri şəxslərdən istədiyi adama verməsinin eybi yoxdur.

---

Sual: **1754**: Şəhidlərlə əlaqədar olan təşkilat bir qədər pul və yeyinti məhsullarını şəhid övladımın ildönümünün keçirilməsində təşkil olunan əzadarlıq məclisi üçün mənə verib. Bu işin axirətdə mənim üçün bir ziyanı varmı? Şəhidin əcir və savabının azalmasına səbəb olmazmı?

Cavab: Əziz şəhid ailələrinin bu yardımı qəbul etməsinin heç bir işkalı yoxdur. Şəhidin və ailə üzvlərinin də əcir və savabını azaltmır.

---

Sual: **1755**: Hotelin keşikçiləri və qulluqçuları vasitəsilə bir fond yaradılmışdır ki, ənam adı ilə onlara verilən müəyyən şeylər orada toplanır və onların arasında bərabər şəkildə bölüşdürülür. Amma onların içində rəis və müavini olan şəxslər artıq miqdar tələb edirlər. Bu məsələ də həmişə fond işçiləri arasında təfriqə və ixtilafa səbəb olur. Bunun hökmü nədir?

Cavab: Bu məsələ malını ənam adı ilə verən şəxsin niyyətinə bağlıdır. Müəyyən və xüsusi şəxsə verdiyi mal onun özününkü sayılır. Amma hamını nəzərdə tutub verdiyi şeylər onların arasında bərabər şəkildə bölüşdürülməlidir.

---

Sual: **1756**: Kiçik uşağa bayram payı adı ilə verilən hədiyyə onun öz mülkündən hesab olunur, yoxsa ata-anasının?

Cavab: Əgər ata kiçik uşağın qəyyumu adı ilə o malları alsa, uşağın malı hesab olunur.

---

Sual: **1757**: Bir ananın iki qızı var. Öz mal-dövlətini, yəni, əkin sahəsindən ibarət olan bir qədər torpaq sahəsini öz nəvəsinə (qızlarından birinin oğluna) hədiyyə etmək istəyir, nəticədə o bir qızı irsdən məhrum qalır. Onun bu hədiyyəsi düzdürmü? Yoxsa ikinci qızı anasının vəfatından sonra o torpaq sahəsindən olan irs payını tələb edə bilər?

Cavab: Əgər ana öz sağlığında mülkünü nəvəsinə bağışlasa və ona təhvil versə, bu halda mülk onun malı hesab olnur və heç kəsin buna etiraz etməyə haqqı yoxdur. Amma əgər vəfatından sonra o mülkün nəvəsinə verilməsini vəsiyyət etsə, onun vəsiyyəti mal-dövlətin üçdə biri qədərində qüvvədə qalır, yerdə qalan hissəsində isə vərəsələrin icazəsinə bağlıdır.

---

Sual: **1758**: Bir nəfər özünün əkin sahəsinin bir qədərini qardaşı oğluna hədiyyə edir, bu şərtlə ki, o özünün iki ögey qızını əqd vasitəsilə hədiyyə edənin iki oğluna versin, lakin qardaşının övladı o qızlardan birini oğlunun əqdinə keçirdi, amma ikinci qızını o biri oğluna almaqdan imtina etdi. Qeyd olunan şərtə əsasən hədiyyə dyzgyn vəkeçərlidirmi?

Cavab: Bu hədiyyə düzgün və keçərlidir, lakin şərt batildir. Çünki, ögey atanın öz evində olan qıza qəyyumluq haqqı yoxdur, onların izdivacı atası, yaxud ata tərəfindən olan babası olmadıqda onların özlərinin razılığı ilə şərtlənir. Amma qeyd olunan şərtdə qardaşı oğlunun müzakirəsi ilə həmin qızları öz oğlanlarının əqdinə keçirmək üçün razılığını cəlb etməsi nəzərdə tutulsa, onların şərti düzgün və buna əməl etmək vacibdir. Əgər şərtə əməl etməsə, hədiyyə edən şəxs hədiyyəni ləğv edə bilər.

---

Sual: **1759**: Mənim bir yaşayış binam vardır ki, onu kiçik qızımın adına keçirmişəm. Onun anasına (arvadıma) təlaq verdikdən sonra öz hədiyyə vermək fikrimdən döndüm və 17 yaşına çatmazdan əvvəl ikinci arvadımdan olan oğlumun adına keçirtdim. Bu məsələnin hökmü nədir?

Cavab: Əgər mülkü həqiqətən kiçik qızınıza hədiyyə etmisinizsə və onu qızınızın tərəfindən qəyyum olaraq ixtiyarınıza keçirmişsinizsə, hədiyyə keçərli, onu ləğv etmək qeyri-mümkündür. Lakin əgər həqiqi hədiyyə gerçəkləşməmiş olsa və sadəcə olaraq onun sənədini qızınızın adına keçirmiş olsanız, bu, hədiyyənin gerçəkləşməsi və malikiyyətin hasil olması üçün kifayət deyil, əksinə, həmin bina sizin mülkünüzdür və ixtiyarı da sizin əlinizdədir.

---

Sual: **1760**: Mən çox ağır bir xəstəliyə düçar olduqdan sonra bütün əmlakımı övladlarım arasında bölüşdürüb hər birinin adına sənəd tənzim etdim. Sağaldıqdan sonra onlara müraciət edib malımın bir miqdarını mənə qaytarmalarını istədim. Amma onlar bu işdən boyun qaçırdılar. Bu məsələnin hökmü nədir?

Cavab: Sadəcə mülkün sənədini övladların adına yazılması mülkiyyətin gerçəkləşməsinə kifayət deyil. Belə ki, əgər öz mal-dövlətinizi və əmlakınızı onlara hədiyyə edib təhvil vermiş və onların təsərrüfünə keçirmiş olsanız, artıq ondan dönmək haqqınız yoxdur. Amma əgər ümumiyyətlə heç bir hədiyyə baş verməmiş olsa, yaxud hədiyyə etdikdən sonra təhvil alınıb-verilmə gerçəkləşməmişsə, bu var-dövlət sizin mülkünüzdə qalır və onun ixtiyarı sizin əlinizdədir.

---

Sual: **1761**: Bir şəxs öz vəsiyyətnaməsində mənzildə olan əmlakını arvadına bağışlamışdır. Evdə də vəsiyyət edən şəxsin əlyazması ilə olan bir kitab mövcuddur. Onun həyat yoldaşı bu kitaba malik olmaqdan əlavə, bundan irəli gələn hüquqlara, o cümlədən çap və nəşr işlərinə də malik olurmu, yoxsa sair vərəsələr bunda şərikdirlər?

Cavab: Yazılmış kitabın çap və nəşr olunması haqqı onun mülkiyyətinə tabedir. Buna əsasən bir şəxs öz həyatında bir kitabın müəllifi olduğu halda onu bir şəxsə hədiyyə edib təhvil versə, yaxud ona aid olmasını vəsiyyət etsə, müəllifin vəfatından sonra kitab həmin şəxsə məxsus olur və bütün hüquqlar da onundur.

---

Sual: **1762**: Bəzi idarə və müəssisələr müxtəlif əlamətdar hadisələrlə əlaqədar olaraq öz işçilərinə bəzi hədiyyələr verir, halbuki, nə üçün verildiyi məlum deyil. İdarə işçilərinə bunları alıb təsərrüf etmək caizdirmi?

Cavab: Hədiyyə edən şəxsin dövlət qanunlarına əsasən buna ixtiyar və səlahiyyəti çatsa, dövlət əmlakından hədiyyə verməsinin eybi yoxdur. Amma hədiyyəni alan şəxs nəzərə çatacaq qədər hədiyyə verən şəxsin bu ixtiyar və səlahiyyətlərə malik olmasına ehtimal versə onu qəbul etməyinin işkalı yoxdur.

---

Sual: **1763**: Hədiyyə edən şəxsdən hədiyyəni təhvil almaqda hədiyyəni almaq kifayətdirmi, yoxsa bundan əlavə xüsusi maşın, ev, torpaq sahəsi və sair hallarda şəxsin adına yazılmalıdırmı?

Cavab: Hədiyyəni qəbul etməyin şərt olunması dedikdə məqsəd müqavilə yazılıb imzalanması deyil. Məqsəd budur ki, o mal onun ixtiyar və təsərrüfündən çıxsın, bu da hədiyyənin gerçəkləşməsi və malikiyyətin hasil olması üçün kifayətdir. Hədiyyə olunan mallar arasında da heç bir fərq yoxdur.

---

Sual: **1764**: Bir şəxs müəyyən qədər malı izdivac, mövlud və yaxud başqa işlərlə əlaqədar başqasına hədiyyə verir və üç-dörd il keçdikdən sonra onu geri almaq istəyir. Həmin şeyləri alan şəxsə, sahibi istədikdə qaytarması vacibdirmi? Əgər bir şəxs müəyyən qədər malı imamların əzadarlıq, yaxud mövlud mərasimlərini keçirmək üçün versə, sonradan həmin şeyləri geri ala bilərmi?

Cavab: Hədiyyə olunan şeyin özünün həmin şəxsin yanında qaldığı vaxta qədər hədiyyə edən şəxsin onu geri götürməsi caizdir. Bu şərtlə ki, o, hədiyyə edənin qan qohumlarından, hədiyyə də əvəzli olmasın. Amma hədiyyənin tələf olması hədiyyə verildiyi zaman olduğu haldan başqa şəklə salındığı hallarda hədiyyəni və yaxud onun əvəzini tələb etməyə haqqı yoxdur. Həmçinin insanın qürbət qəsdi və Allahın razılığını qazanmaq niyyəti ilə hədiyyə etdiyi şeyi geri almağa haqqı yoxdur.

# Borc

---

Sual: **1765:** Bir zavod müdiri xammal almaq üçün müəyyən miqdarda pulu məndən borc aldı. Bir müddətdən sonra pulu artıqlaması ilə mənə qaytardı. Bu əlavə miqdarı özünün tam razılığı ilə, əvvəlcədən heç bir şərt qoyulmadan, mən də verdiyi artıq miqdarı gözləmədiyim halda qaytardı. Artıq verdiyi miqdarı almaq caizdirmi?

Cavab: Sualda fərz olunduğu kimi, borcu qaytaran zaman artıq məbləğin verilməsi şərt olunmamış və o məbləği borc alan şəxs özünün tam razılığı ilə vermişdir. Sizin ondan istifadə etməyinizin eybi yoxdur.

---

Sual: **1766**: Əgər borclu olan şəxs öz borcunu verməkdən imtina etsə və borc verən şəxs qəbzdəki məbləği almaq üçün onun əleyhinə məhkəməyə şikayət etsə və nəticədə o, borcdan əlavə, hökmün icra olunmasına çəkilən xərcləri də dövlətə verməyə məcbur olsa, borc verən şəxs şərən buna məsuldurmu?

Cavab: Əgər öz borcunu qaytarmaqda səhlənkarlığa yol verən borclu şəxs hökmün icra olunmasına çəkilən vergini dövlətə verməyə məcbur edilsə, borc verən şəxsin üzərinə heç bir öhdəlik gəlmir.

---

Sual: **1767**: Qardaşımın mənə bir qədər borcu var idi. Mən ev alanda bir xalça gətirdi, mən də elə bildim ki, hədiyyə edib. Lakin borcumu ondan istəyəndə iddia edib dedi ki, o xalçanı borcun əvəzində mənə vermişdir. Bu barədə mənə heç nə demədiyini nəzərə alsaq, xalçanı borcu əvəzinə verməsini hesab etməsi düzgündürmü? Əgər mən xalçanı borc əvəzi olmasına razı olmasam, onu özünə qaytarmalıyammı? Pulun dəyərinin aşağı düşdüyü üçün bordan artıq miqdar tələb etməyim caizdirmi? Çünki borc verdiyim zaman pulun dəyəri hazırkı dəyərindən çox-çox artıq idi.

Cavab: Borc verən şəxsin razılığı olmadan borc verilən şeyin cinsindən olmayan xalça və yaxud başqa bir şeyin borc adı ilə verilməsi kifayət deyil. Siz o xalçanı borcun əvəzinə verilməsinə razı olmayınca onu qardaşınıza qaytarmalısınız, çünki bu halda xalça hələ də onun mülkiyyətindədir və ehtiyat budur ki, pulun dəyərinin fərqlənməsi ilə əlaqədar bir-birinizi razı salasınız.

---

Sual: **1768**: Borcu qaytaran zaman haram maldan verməyin hökmü nədir?

Cavab: Başqa maldan qaytarılmaqla borcu qaytarmaq gerçəkləşmir və borclu olan şəxsin öhdəsindən (boynundan) götürülmür.

---

Sual: **1769**: Bir qadın almaq istədiyi evin qiymətinin üçdə biri qədər borc almışdır. Borc verən şəxslə razılaşmışlar ki, maddi vəziyyəti yaxşılaşandan sonra onu qaytarsın, elə həmin dövrdə onun oğlu borcun məbləğində olan bir qəbzi zəmanət üçün ona verir. Hər iki tərəfin vəfatından dörd il keçdikdən sonra hal-hazırda vərəsələr məsələni həll etmək istəyirlər. O qadının vərəsələri borcla alınmış evin üçdə birini həmin şəxsin vələsələrinə verməlidirlər, yoxsa həmin qəbzin məbləğini onlara qaytarması kifayətdir?

Cavab: Borc verənin vərəsələri evdən heç nəyi tələb edə bilməzlər, əksinə, o qadının evi almaq üçün kimdən (irs qoyandan) borc edibsə, ondan ala bilərlər. Bu şərtlə ki, öz borcunun qaytarılmasına kifayət edən qədər malı irs qoymuş olsun. Ehtiyat budur ki, pulun dəyərinin fərqlənməsi ilə əlaqədar bir-biri ilə razılaşsınlar.

---

Sual: **1770**: Bir nəfərdən pul borc etdik, bir müddətdən sonra o şəxs itdi, indiyə qədər onu tapa bilməmişik, onun borcunu qaytarmaqla əlaqədar vəzifəmiz nədir?

Cavab: Sizə vacibdir ki, gözləyəsiniz və öz borcunuzu qaytarmaq üçün axtarış aparasınız ki, bu məbləği onun özünə, yaxud vərəsələrinə qaytarasınız. Onu tapmaqdan ümidsiz olsanız, bu barədə həm şəriət hakiminə müraciət edə bilər, həm də sahibinin tərəfindən sədəqə verə bilərsiz.

---

Sual: **1771**: Borc verən şəxsin, borc verdiyini isbat etmək və pulunu almaq üçün çəkdiyi məhkəmə xərcləri və xəsarətləri də borc verdiyi şəxsdən tələb etməsi caizdirmi?

Cavab: Borc alan şəxs, şərən borc verən şəxsin məhkəmə işləri üçün çəkdiyi xərclərə zamin deyil. Bu kimi hallarda İslam Respublikasının qanunlarının icra olunması vacibdir.

---

Sual: **1772**: Əgər borclu şəxs öz borcunu verməsə və borcunu qaytarmaqda səhlənkarlıq etsə, bu halda borc verən şəxs onun malından təqass edə bilərmi, məsələn, öz haqqını gizli yollarla, yaxud başqa vasitələrlə ala bilərmi?

Cavab: Əgər borclu şəxs öz borcunu inkar etsə, yaxud heç bir üzürlü səbəb olmadan onun qaytarılmasında səhlənkarlıq etsə, borc verən şəxs onun malından təqass edə bilər. Əlbəttə bu barədə müəyyən qanun mövcud olsa, ona riayət etmək lazımdır.

---

Sual: **1773**: Meyyitin borcu həqqun-nasdan (camaatın haqqından) hesab olunurmu və onu mirasdan vermək varislərinə vacibdirmı?

Cavab: Borc istər fiziki, istərsə də hüquqi şəxslərə olsun, həqqun-nasdan sayılır və borc sahibinin vərəsələrinə onu meyyitin tərəkəsindən götürüb borc sahibinə, yaxud onun vərəsələrinə qaytarmaları vacibdir. Onu qaytarmayınca meyyitin tərəkəsində təsərrüf edə bilməzlər.

Sual: **1774**: Bir nəfərin müəyyən qədər torpaq sahəsi vardır ki, orada tikilmiş bina başqa bir şəxsindir. Torpağın sahibi də iki nəfərə borcludur. Borc sahiblərinin torpaq sahəsini və onda tikilmiş binanı öz haqlarını almaq üçün fəaliyyətdən saxlamaları caizdirmi, yoxsa təkcə torpaq sahəsi barəsində belə haqqa malikdirlər?

Cavab: Onların borclu şəxsin mülkiyyətində olmayan bir şeyin fəaliyyətinin dayandırılmasını tələb etməyə haqları yoxdur.

---

Sual: **1775**: Borclu şəxsin özünün və ailəsinin yaşamaq üçün ehtiyaclı olduğu yaşayış məskəni mal-dövlətinin fəaliyyətinin dayandırılmasından istisna olunurmu?

Cavab: Borclu şəxsin özünün məişət və həyatını davam etdirmək üçün ehtiyac duyduğu şeylər, o cümlədən mənzil, ev avadanlığı, maşın, telefon və öz şəninə uyğun olaraq gündəlik ehtiyaclarından sayılan şeylər məcburən satılmaq hökmündən istisna olunur.

---

Sual: **1776**: Borclarının çoxluğundan müflisləşən bir tacirin evindən başqa heç nəyi olmasa və onu da satışa qoysa, amma onun pulu borcların yalnız yarısına çatsa və borclarının qalanını verə bilməsə,bu halda borc verən şəxslərə, onu həmin binanı satmağa vadar etmələri caizdirmi, yoxsa ona möhlət verməlidirlər ki, öz borcunu tədrici olaraq ödəsin?

Cavab: Əgər bu bina həmin tacirin özünün və ailəsinin yaşayış məskəni olmasa, hətta borclarının hamısının ödənməsinə çatmasa belə, onu həmin binanı sataraq borcunu verməyə məcbur etməyin eybi yoxdur. Borc sahiblərinin bu miqdar üçün möhlət vermələri vacib deyil, sadəcə onun yerdə qalan borcları qarşısında onu verməyə imkanı olan vaxta qədər gözləməlidirlər.

---

Sual: **1777**: Bir dövlət müəssiəsinin başqa bir dövlət müəssiəsindən borc aldığı pulu qaytarmaq vacibdirmi?

Cavab: Borcun qaytarılmasının vacib olmasında sair borclarla eyni hökmdədir.

---

Sual: **1778**: Əgər bir şəxs borclu şəxsin xəbəri olmadan onun borcunu qaytarsa, bu halda borcun o miqdarını həmin şəxsə qaytarması vacibdirmi?

Cavab: Borclu şəxsin istəyi olmadan onun borcunu qaytaran şəxsin onun əvəzini tələb etməyə haqqı yoxdur. Borclu şəxsə də həmin şəxsin onun tərəfindən verdiyi şeylərin əvəzini qaytarması vacib deyil.

---

Sual: **1779**: Əgər borc alan şəxs, borcunu qaytarmağı təyin olunan vaxtdan təxirə salsa, borc verən şəxs verdiyindən artıq miqdar tələb edə bilərmi?

Cavab: Şəri baxımdan borc verən şəxsin verdiyi miqdardan artıq almağa haqqı yoxdur.

---

Sual: **1780**: Atam saxta müamilədə bir şəxsə bir qədər pul verdi, həqiqətdə isə bu, borc adı daşıyırdı. O şəxs də hər ay qazanc adı ilə müəyyən məbləği atama verirdi. Borc verən (atam) vəfat etdikdən sonra borc alan şəxs həmin miqdarı olduğu kimi ödəyirdi, sonra o da vəfat etdi. Qazanc adı ilə verilən pullar sələm sayılırmı və borc verən şəxsin vərəsələrinə, onları borc alan şəxsin vərəsələrinə qaytarmaq vacibdirmi?

Cavab: Borc alan şəxsə əslində borc kimi verilmişşə, malın qazancı adıyla verilən hər məbləğ pul sələm sayılır və şərən haramdır. O pulların özü, yaxud əvəzi borc verən şəxsin tərəkəsindən götürülüb borc alan şəxsə və yaxud onun vərəsələrinə verilməlidir.

---

Sual: **1781**: Müəyyən şəxslərin öz mal-dövlətlərini və sərmayəsini başqasının yanında əmanət qoyub hər ay müəyyən məbləğdə qazanc almaları caizdirmi?

Cavab: Əgər sərmayənin başqasına verilməsi düzgün müqavilələrlə ondan bəhrələnmək olarsa, eybi yoxdur, ondan əldə olunan qazancın da eybi yoxdur. Amma borc adı ilə olsa, borcun özünün düz olmasına baxmayaraq, onda qazancın şərt edilməsi şərən batildir, alınan qazanclar sələm və haram sayılır.

---

Sual: **1782**: Bir nəfər ticarət etmək üçün bir qədər pul borc aldı. Əgər o işin qazancı olarsa, qazancın müəyyən məbləğini borc verən şəxsə qaytarması caizdirmi? Borc verən şəxsin onu tələb etməsi caizdirmi?

Cavab: Borc verən şəxsin, borc alan şəxsin borc mal ilə ticarət edib əldə etdiyi qazancda heç bir haqqı yoxdur. Bu qazancın heç bir miqdarını da tələb edə bilməz. Amma borc alan şəxsin özü, əvvəlcədən heç bir şərt olmadan, artıq məbləğin bir hissəsini ehsan adı ilə borc verən şəxsə qaytarsa, nəinki eybi yoxdur, üstəlik bu iş müstəhəbdir.

---

Sual: **1783**: Bir nəfər müəyyən bir malı üç ay müddətində nisyə alıb. Pulun verilmə vaxtı çatanda satıcıya deyir ki, müddəti üç ay da uzatsın, bu şərtlə ki, o da malın qiymətindən artıq məbləği ona qaytarsın. O iki nəfərin bu işi yerinə yetirməsi caizdirmi?

Cavab: Bu artıq alınan miqdar sələm və haramdır.

---

Sual: **1784**: Əgər bir şəxs digər şəxsdən sələmli borc alsa və üçüncü bir şəxs borc və onun şərtlərinin müqaviləsini onlar üçün yazsa, hesabdar adlanan dördüncü bir şəxs də olsa və onun işi müqavilə sənədlərini mühasibat dəftərxanasında qeyd etmək olsa, bu halda hesabdar da onlarla sələmli borcda şərikdirmi və onun gördüyü işi və bunun müqabilində aldığı əmək haqqı da haramdırmı? Əgər bu barədə təhqiqat aparan beşinci şəxs də olsa və onun işi də mühasibat dəftərxanasını yoxlamaq olsa, heç bir şeyi yazmadan, yaxud dəftərxanaya bir şey köçürmədən yalnız onu yoxlayır ki, sələmli müamilə mühasibələrində səhvə yol verilib-verilməməsini bilsin, sonra nəticəni hesabdara xəbər verir. Onun bu işi də haramdırmı?

Cavab: Müəyyən yollarla sələmli borc müqaviləsində, yaxud onun yerinə yetirilib təkmilləşdirilməsində, yaxud borc alan şəxsdən sələm əldə edilməsində əlaqəsi olan hər hansı bir iş şərən haramdır və o işləri görən şəxs əmək haqqı almağa haqlı deyil.

---

Sual: **1785**: Müsəlmanların çoxu sərmayələri olmadığına görə kafirlərdən sərmayə almağa, nəticədə də sələm verməyə məcbur olurlar. Kafirlərdən, yaxud qeyri-islami dəvlətə tabe olan banklardan sələmli borc almağın hökmü nədir?

Cavab: Sələmli borc təklifi baxımdan mütləq şəkildə, hətta qeyri-müsəlmandan olsa belə haramdır. Amma bir şəxs belə borc alsa, bu borcun əsli düzgündür.

---

Sual: **1786**: Bir şəxs müəyyən məbləği müəyyən müddət ərzində borc alır, bu şərtlə ki, borc verən şəxsin səfər xərclərini, misal üçün, həcc səfərinin xərclərini ödəsin. Onların bu işi caizdirmi?

Cavab: Borc verən şəxsin səfər xərclərini və sair şeylərin ödənməsini borc verən zaman şərt etməsi elə borc verdiyindən artıq qazanc almasının şərt olunması deməkdir ki, bu da şərən haram və batildir, amma borcun özü (əsli) düzdür.

Sual: **1787**: Qərzül-həsənə müəssisələri borc verən zaman şərt edirlər ki, əgər borc götürən şəxs iki və ya daha artıq hissə ödəməyi təyin olunan müddətdən təxirə saldıqda fondun borcun hamısını bir yerdə almağa haqqı olacaqdır. Bu şərtlə borc verməyin eybi varmı?

Cavab: Eybi yoxdur.

---

Sual: **1788**: Bir kooperativ şirkətinin üzvləri müəyyən məbləğdə pulu onun sərmayəsi adı ilə oraya verirlər. Şirkət də öz üzvlərinə borc verir və onlardan heç bir qazanc və ya muzd almır. Onun məqsədi də (üzvlərinə) kömək göstərməkdir. Həmin müəssisənin üzvlərinin sileyi-rəhim (yaxınlara əl tutmaq) və ya başqalarına kömək ünvanı ilə gördükləri bu işin hökmü nədir?

Cavab: Möminlərə borc verilməsinin təmin olunmasında iştirak etmək və kooperativ yaratmağın, hətta Sualda deyilən surətdə olsa belə, üstün və caiz bir iş olduğunda şübhə yoxdur. Amma şirkətə verilən pul borcu verən şəxsə gələcəkdə yenidən borc verilməsi şərti ilə olan borc adı ilə verilsə, borc verməyin özünün adi hökm nəzərindən düzgün olmasına baxmayaraq bu iş şərən caiz deyil.

---

Sual: **1789**: Bəzi qərzül-həsənə müəssisələri camaatın onlara əmanət adı ilə verdikləri pullardan müəyyən əmlak və ya başqa şeylər alırlar. Bu müamilənin hökmü nədir? Bunu da nəzərə almaq lazımdır ki, oraya pul qoyanların bəziləri bu kimi işlərlə müvafiq deyillər. Müəssisə rəhbərinin alınan mal-dövlətdə, məsələn, al-ver kimi təsərrüflər etməyə haqqı varmı? Bu iş şərən caizdirmi?

Cavab: Əgər camaatın onlara verdikləri pul qərzül-həsənə müəssisəsində müəssisənin istədiyi hər şəxsə borc versin deyə, bir əmanət kimi olsa, bu halda onun mülk və ya başqa bir şey alınmasına sərf olunması füzulidir və pul sahiblərinin icazəsinə bağlıdır. Amma əgər camaatın oraya verdikləri pul müəssisəyə borc adı ilə verilmiş olsa, bu halda əgər onun rəhbərləri onlara verilən ixtiyarlar əsasında müəyyən mülk və yaxud başqa şeylər alsalar, eybi yoxdur.

---

Sual: **1790**: Bəzi şəxslər başqalarından müəyyən məbləğdə pul alıb müqabilində onlara hər ay bir qədər qazanc verirlər. Bu iş heç bir əqdlə baş vermir, yalnız iki tərəfin razılaşması ilə olur. Bu işin hökmü nədir?

Cavab: Bu qəbildən olan müamilələr sələmli borc hesab olunur. Onda qazanc və fayda şərti batildir və artıq alınan miqdar sələm və şərən haramdır, onu almaq caiz deyil.

---

Sual: **1791**: Bir nəfər qərzül-həsənədən borc alır, borcu qaytaran zaman qabaqcadan onunla heç nə şərt edilmədən özü borcundan artıq miqdarı ödəyir. Ondan bu artıq miqdarın alınması və abadlıq işlərində sərf edilməsi caizdirmi?

Cavab: Əgər borc alan şəxs o məbləği öz razılığı əsasında və borc qaytaran zaman müstəhəb olan bir əməl adı ilə versə, onu almağın eybi yoxdur. Amma müəssisə rəhbərlərinin onda təsərrüf etmələri, abadlıq və sair işlərdə xərcləmək yolu ilə etdiyi təsərrüfləri onların bu barədəki ixtiyarlarının hansı dərəcədən olmasından asılıdır.

---

Sual: **1792**: Bir qərzül-həsənə müəssisəsinin idarə kadrları bir şəxsdən aldığı pul ilə bir binanı almış və bir aydan sonra o şəxsin pulunu camaatın razılığı olmadan onların əmanət verdikləri pullardan vermişdir. Bu müamilə şəridirmi? O binanın sahibi kim olmalıdır?

Cavab: Müəssisə üçün oraya borc verilən pulla bir bina alınması idarə kadrlarının ixtiyar və səlahiyyətlərinə uyğun olaraq baş vermiş olsa, eybi yoxdur və alınan bina da müəssisənin mülkü və onun maliyyə sahiblərinin malıdır. Bundan başqa hallarda müamilə füzuli olub (düzgünlüyü) pul sahiblərinin icazəsindən asılıdır.

---

Sual: **1793**: Bankdan pul alarkən bankın işçilərinə zəhmət haqqı (muzd) verməyin hökmü nədir?

Cavab: Əgər qeyd olunan bu pul borc vermək işlərinə, o cümlədən dəftərdə yazmaq, sənədləşdirmək, eləcə də fondun başqa xərclərinə – su, işıq və sair işlərə əmək haqqı adı ilə alınsa və borcun qazancına qayıtmasa, onu almağın, verməyin, həmçinin borc almağın eybi yoxdur.

---

Sual: **1794**: Borcları öz üzvlərinin ixtiyarında qoyan bir fond, borc verərkən şərt edir ki, borc istəyən şəxs müəyyən məbləğdə pulu 3, yaxud 6 ay müddətində fonda qoysun, bu müddət keçdikdən sonra təhvil verdiyi pulun ikiqat artığını ona borc versinlər. Bütün borcunu qaytardıqdan sonra əvvəldə fonda verdiyi pul ona qaytarılır. Bunun hökmü nədir?

Cavab: Əgər fonda pul verilməsi, o pulun müəyyən müddət ərzində fondun yanında borc kimi qalması adı ilə olsa və fondun da həmin müddət keçəndən sonra müəyyən qədər borcu ona verməsi şərt edilsə, yaxud fondun borc verməsi, onun əvvəlcə müəyyən məbləği fonda qoymuş olması ilə şərtlənsə, bu şərt sələm hökmündədir, şərən haram və batildir, amma borcun özü hər iki tərəflə əlaqədar düzgündür.

---

Sual: **1795**: Qərzül-həsənə fondları borc vermək üçün müəyyən şərtlər qoyurlar, o cümlədən fonda üzv olmaq və onda müəyyən məbləği ehtiyat saxlamaq, həmçinin borc istəyən şəxsin fondun yerləşdiyi məhəllədə yaşaması, eləcə də başqa şərtlər qoyulur. Bu şərtlər sələm hökmündədirmi?

Cavab: Fonda üzv olmaq, yaxud fondun yerləşdiyi məhəllədə sakin olmaq və şəxslərə borc verilməsində məhdudiyyət yaranmasına səbəb olan sair şərtlərin eybi yoxdur. Fondda hesab açmaq şərti də əgər borc verilməsinin o şəxslərə aid olmasına qayıtsa, eybi yoxdur. Amma fonddan gələcəkdə borc götürülməsi, borc istəyən şəxsin əvvəlcə müəyyən qədər banka pul qoymuş olması ilə şərtlənməsinə qayıtsa, bu şərt borcda mənfəət hökmüdür və batildir.

---

Sual: **1796**: Bank müamilələrində sələmdən qaçmaq üçün çıxış yolu nədir?

Cavab: Bunun çıxış yolu şəri əqdlərdən istifadə edərək və onun bütün şərtlərinə tam riayət etməkdir.

---

Sual: **1797**: Bankın xüsusi işlərdə istifadə olunması üçün şəxslərə verdiyi borcun başqa işlərdə istifadə edilməsi caizdirmi?

Cavab: Əgər bankın şəxslərə verdiyi şeylər həqiqətdə borc olsa və hökmən xüsusi işlərdə istifadə edilməsini şərt etsə, bu şərti pozmaq caiz deyil. Həmçinin bankdan alınan məbləğ müzaribəni, şərikliyi və s. sərmayə adı ilə olsa, onu bankdan hansı məqsədlə alıbsa, həmin məqsəddən başqa yolda istifadə etməyə haqqı yoxdur.

---

Sual: **1798**: Müharibə dövründə yaralananlardan biri borc almaq üçün banka müraciət edir və özünün əlil olması ilə əlaqədar olaraq əlillər təşkilatının verdiyi vəsiqəni göstərir ki, müharibə əlilləri üçün nəzərdə tutulmuş güzəştlərdən istifadə edib borc alsın, Bu vəsiqələr də onların nə qədər iş qüvvəsini itirmələri ilə əlaqədar verilmişdir. Onun özü də bilir ki, onun əlillik dərəcəsi həmin vəsiqədə qeyd olunanlardan aşağıdır və güman edir ki, həkimlər və mütəxəssislər onun əlillik dərəcəsini ayrıd etməkdə səhvə yol vermişlər. Onların şəhadət verməsi ilə həmin şəxs xüsusi güzəştlərdən istifadə edə bilərmi?

Cavab: Əgər əlillik dərəcəsi tibbi müayinələri öz nəzərləri əsasında verən mütəxəssis həkimlərin vasitəsi ilə verilmiş olsa və qanuna görə də bankda güzəşt verilməsində həmin nəzər əsas olsa, hətta onun öz nəzərinə görə əlillik dərəcəsi qeyd olunanlardan aşağı olsa belə, həkimlərin təsdiqlədiyi əlillik dərəcəsinə uyğun olaraq güzəştlərdən istifadə etməyin eybi yoxdur.

# Sülh (razilaşma)

---

Sual: **1799**: Bir şəxs özünün mənzil, maşın, xalça-palaz və s. avadanlıqları kimi bütün var-dövlətini həyat yoldaşı ilə razılaşıb, eləcə də onu özünün vəsisi və kiçik övladlarının qəyyumu qərar verir. Onun atası və anası vəfatından sonra onun tərəkəsindən bir şey tələb etməyə haqlıdırmı?

Cavab: Əgər meyyitin öz sağlığında bütün əmlakını həyat yoldaşına, yaxud hər hansı başqa bir şəxsə həvalə etdiyi sübuta yetsə, belə ki, vəfat etdiyi vaxta qədər onlardan özü üçün heç nə saxlamamış olsa, ata-anasının, yaxud sair vərəsələrin ondan irs aparmasına heç bir əsas qalmır. Nəticədə onun öz sağlığında həyat yoldaşının mülkiyyətinə keçirdiyi şeylərdən heç birini onun həyat yoldaşından tələb etməyə haqları yoxdur.

---

Sual: **1800**: Bir nəfər öz mal-dövlətinin bir qismini öz övladına həvalə etmişdir, lakin bir neçə il keçdikdən sonra həmin var-dövləti elə həmin övladına satmışdır. Hal-hazırda onun vərəsələri həkimin verdiyi şəhadətə əsasən iddia edirlər ki, ataları evini satmazdan bir müddət əvvəldən bu işi görənə qədər əqli cəhətdən sağlam olmamışdır. Həvalə edilən mal-dövlətin həvalə edildiyi həmin şəxsə satılması həvalədən dönmək sayılırmı və bu müamilənin düzgünlüyünə hökm olunurmu? Həvalənin düzgünlüyündə qalması fərz olunduqda, həvalə edilən malın üçdə birində düzgündür, yoxsa onun hamısında?

Cavab: Əvvəlki həvalənin düzgünlüyünə və qüvvədə olmasına hökm olunur. Onda həvalə edən şəxslər üçün həvalənin pozulmasına dair haqq sübuta yetməyincə, onun həm də lazım həvalə olmasına hökm olunur. Nəticədə həvalə olunan malın sonradan onun vasitəsi ilə satılması, hətta onu satdığı dövrdə ağlı sağlam olsa belə, düzgün deyil. Gerçəkləşən, düzgünlüyünə və lazım olmasına hökm olunan razılaşma həvalə edilən bütün mal-dövlətin barəsində qüvvədədir.

---

Sual: **1801**: Bir nəfər özünün bütün var-dövlətini, hətta özünün alacaqlarını və səhiyyə xidmətindəki müəssisəsindəki hüquqlarını belə, həyat yoldaşına həvalə etmişdir. Lakin həmin müəssisə bildirmişdir ki, onun qanun cəhətindən özünün o müəssisədə olan hüququnu həvalə etmək haqqı yoxdur. Nəticədə bu işlə müvafiq olmamış və həvalə edən şəxs də bu işi etiraf etmiş və demişdir ki, başqalarına olan borcdan qaçmaq üçün bu işi görmüşəm. Bu həvalənin hökmü nədir?

Cavab: Başqasının malını, yaxud başqasının haqqına aid olan malı həvalə etmək füzulidir və (düzgünlüyü) sahibinin, yaxud haqq sahibinin icazəsinə bağlıdır. Əgər azad olan mülkə həvalə etmiş olsa, lakin həvalə etməkdə əsas məqsəd özünün başqalarına olan borcundan qaçmaq olsa, xüsusilə əgər başqa mal-dövlət əldə etməyə və öz borclarını ondan ödəməyə ümidi olmasa, bu kimi həvalənin düzgün olub qüvvəyə minməsi işkallıdır.

---

Sual: **1802**: Bir həvalə müqaviləsində qeyd olunur ki, ata öz mal-dövlətinin bir qismini övladına həvalə etmiş və ona təhvil vermişdir. Bu sənəd qanuni və şəri cəhətdən mötəbər sayılırmı?

Cavab: Məzmununun düzgün olmasına əmin olmayıncaya qədər, sadəcə həvalə müqaviləsi, həvalə əqdinin icra olmasına, eləcə də onun keyfiyyətinə şəri höccət və dəlil ola bilməz, amma sahibin tərəfindən həvalənin gerçəkləşməsi aşkar olduqdan sonra onun düzgün şəri surətdə olub-olmamasında şəkk edilsə, şərən bu həvalə əqdinin düzgünlüyünə hökm olunur və o mal kimə həvalə olunubsa, onun mülkü sayılır.

---

Sual: **1803**: Həyat yoldaşımın atası (qaynatam) evləndiyimiz zaman bir qədər torpaq sahəsini müəyyən miqdar pul müqabilində mənimlə razılaşdı və onu mənim ixtiyarıma keçirtdi, bununla əlaqədar olaraq bir neçə nəfər şahidin hüzurunda müqavilə də tənzim etdi. Amma indi iddia edir ki, o müamilə formal xarakter daşıyırdı. Bu məsələnin hökmü nədir?

Cavab: Qeyd olunan razılaşmanın şərən düzgün olmasına hökm olunur. Onun formal xarakter daşıması, onu iddia edən şəxs tərəfindən sübut edilməyincə, təsirsizdir.

---

Sual: **1804**: Atam öz sağlığında bütün daşınar və daşınmaz əmlakını mənə həvalə etdi, bu şərtlə ki, vəfatından sonra bacılarımdan hər birinə müəyyən məbləğdə pul verim. Onlar da bu işlə razılaşıb vəsiyyət sənədini imzaladılar. Atam vəfat

etdikdən sonra onların haqqını verib malın qalanını götürdüm. Bu malda təsərrüf etmək mənim üçün caizdirmi? Əgər onlar bu işə razı olmasalar, məsələnin hökmü nədir?

Cavab: Bu razılığın işkalı yoxdur və fərz olunan halda razılaşdığınız mal sizindir, sair vərəsələrin razı olmamasının heç bir təsiri yoxdur.

---

Sual: **1805**: Əgər bir nəfər övladlarından bəzilərinin hazır olmadığı halda və hazır olan övladlarının razılığı olmadan mal-dövlətini oğlanlarından birinə həvalə edir. Onun bu həvaləsi düzgündürmü?

Cavab: Malikin öz sağlığında mal-dövlətini vərəsələrindən birinə həvalə etməsi sair vərəsələrin qəbul etməsilə şərtlənmir və onların etiraz etməyə haqları yoxdur.

---

Sual: **1806**: Bir şəxs müəyyən qədər malı başqasına həvalə edir, bu şərtlə ki, yalnız həvalə etdiyi şəxs bundan istifadə etsin. Bu halda onun həvalə edən şəxsin razılığı olmadan həmin faydanı almaq üçün üçüncü bir şəxsə verə bilərmi və ya onun razılığı olmadan başqa bir şəxsi ondan istifadə etməkdə özünə şərik edə bilərmi? Düzgün olduğunu fərz etsək, həvalə edən şəxsin öz fikrindən dönməsi caizdirmi?

Cavab: Həvalə əqdi bağlanan zaman qoyulmuş şərtləri pozmaq həvalə olunan şəxsə caiz deyil. Əgər bu şərtləri pozsa, həvalə edən şəxs həvalə əqdini poza bilər.

---

Sual: **1807**: Həvalə edən şəxs həvalə əqdi bağlandıqdan sonra ondan dönə bilərmi və həvalə etdiyi birinci şəxsə bildirmədən öz malını başqa bir şəxsə həvalə edə bilərmi?

Cavab: Əgər həvalə düzgün tərzdə gerçəkləşmiş olsa, həvalə edən şəxs barəsində lazımdır və özü üçün ləğv etmə haqqı qoymayınca, həvalədən dönmə haqqı yoxdur. Buna əsasən, əgər həmin malı başqa bir şəxsə həvalə etsə, füzulidir və (düzgünlüyü) həvalə etdiyi birinci şəxsin icazəsinə bağlıdır.

---

Sual: **1808**: Ana tərəfdən yetişən mal-dövlətin oğlanlar və qızlar arasında bölüşdürülməsindən, qanuni mərhələni keçdikdən, varislərin yalnız həmin adamlardan ibarət olduğuna dair şəhadətnamə aldıqdan, varislərdən hər birinin öz payını aldıqdan və üstündən uzun müddət keçdikdən sonra qızlardan biri iddia edir ki, anası sağlığında var-dövlətinin hamısını ona vermişdir. Bu barədə də adi bir sənəd tənzim olunmuşdur ki, yalnız onun özü və həyat yoldaşı tərəfindən imzalanmışdır. Onun üzərində anasına mənsub edilən şəhadət barmağının izləri də vardır. O qız hal-hazırda anasının bütün mirasını tələb edir. Burada vəzifə nədir?

Cavab: Ananın öz sağlığında bütün mal-dövlətini qızına verməsi sübuta yetməyincə o qızın iddia etdiyi şeylərdə heç bir haqqı yoxdur və o həvalə müqaviləsinin də real gerçəkliklə müvafiq olması sübuta yetməyincə, etibarı yoxdur.

---

Sual: **1809:** Ata özünün bütün var-dövlətini övladlarına həvalə edir, bu şərtlə ki, sağ olduğu müddətdə onlardan istifadə etmək haqqına malik olsun. Buna diqqət yetirməklə aşağıdakı halların hökmü nədir:

1- Bu həvalə həmin şərtlərlə düzgün və etibarlıdırmı?

2- Düzgün və etibarlı olduğunu fərz etdikdə, həvalə edən şəxsin öz fikrindən dönməsi caizdirmi? Caiz olduğunu fərz etdikdə, həvalədən sonra həvalə etdiyi mal-dövlətinin müəyyən bir qismini satsa, onun bu işi həvalədən dönmək hesab olunurmu? Həvalədən dönmək hesab olunduqda həvalənin hamısından dönmək sayılır, yoxsa satdığı mallar miqdarında?

3- Həvalə müqaviləsində qeyd olunan "həyatı dövründə istifadə etmək haqqında malik olmaq" ifadəsi ləğv haqqına malik olmaq mənasınadır, yoxsa o mal-dövlətin başqasına keçməsi mənasınadır və yaxud o mal-dövlətdən həyatı müddətində istifadə olunsun deyə xarici təsərrüf etmək mənasınadır?

Cavab: 1-Qeyd olunan şərtlərlə edilən həvalə düzgün və etibarlıdır.

2-Həvalə əqdi lazım əqdlərdəndir. Belə ki, həvalə edən şəxs onu ləğv etmək haqqına malik olmayınca, onun tərəfindən edilən ləğv etmə düzgün deyil. Buna əsasən qeyd olunan mal-dövləti həvalə etdikdən sonra həvaləni ləğv etmə haqqına malik olmadığı halda onun müəyyən bir hissəsini həvalə olunan şəxslərdən birinə satsa, müamilə müştərinin payına düşən miqdarda batildir və sair şəxslərin payına gəldikdə füzulidir və onların icazəsinə bağlıdır.

3-"Sağ olduğu dövrdə təsərrüf etmə haqqına malik olma" ifadəsinin formal, ləğv haqqı, yaxud o əmlakın başqasına nəql keçməsi mənasına deyil, xarici təsərrüf etmək haqqıdır.

# Vəkalət (vəkillik)

---

Sual: **1810**: Mən şirkətlərdən birinin vəkiliyəm, təbliğat və satışdan sonra xidmət, eləcə də beynəlxalq sərgilər və sair kimi işlərlə əlaqədar yerinə yetirdiyim işlər müqabilində şirkətdən əmək haqqı kimi müəyyən məbləğdə pul alıram. Bu pulların hökmü nədir?

Cavab: Vəkillik ilə əlaqədar olan işlər mübah olduqda o işlərin görülməsi müqabilində vəkalət muzdu almağın heç bir işkalı yoxdur.

---

Sual: **1811**: Bir nəfər bir qədər torpaq sahəsini malikin vəkilindən pulunu hissə-hissə ödəməklə almışdır. Pulun hamısı ödənildikdən sonra vəkil tutan şəxs iddia edir ki, müamiləni fəsx ləğv etmiş və o yeri öz mülkiyyətinə qaytarmışdır. Onun tərəfindən yürüdülən bu iddia düzgündürmü, yoxsa müştəri aldığı şeyi ondan tələb etməyə haqlıdır?

Cavab: Vəkilin malik tərəfindən vəkalət adı ilə torpaq sahəsini satmasının düzgünlüyünə hökm olunur və bu müamilə lazım, satılan şey müştərinin mülküdür və vəkil tutmuş şəxs onu müştəriyə təhvil verməlidir. Əqdi pozmaq ixtiyarına (buna ləğv ixtiyarı deyilir) malik olması sübuta yetməyincə, əqdi pozmaq haqqı və torpaq sahəsini öz mülkiyyətinə qaytarmağa haqqı yoxdur.

---

Sual: **1812**: Bir nəfər bir neçə torpaq sahəsini malikinin tərəfindən vəkil olaraq adi sənədlərlə satmış və malik vəkil olan şəxslə qərar bağlamışdır ki, alıcıların heç birinə rəsmi sənəd verilməsin. Sahibi vəfat etdikdən sonra onun vərəsələri, alıcıların həmin torpaq sahələri ilə əlaqədar mülkiyyəti iqrar etmələri ilə yanaşı, iddia edirlər ki, onlara rəsmi sənəd verilməsinin məsuliyyəti vəkilin öhdəsinədir və hal-hazırda o torpaqların pulunu həmin vaxtda alıb sahibinə təhvil verdiyinə baxmayaraq, onun rəsmi sənədi və hazırkı qiymətini ondan tələb edirlər. Qeyd olunanlara diqqət yetirməklə, rəsmi sənədlərin alıcıların adına keçirilməsi vərəsələrin öhdəsinədir, yoxsa vəkilin? Vərəsələrin o dövrdəki qiymətlə indiki dövrdəki qiymətin fərqini tələb etməyə haqları varmı?

Cavab: Rəsmi sənədlərin alıcıların adına sənədləşdirilməsi zamanı çəkilən xərclər və bu barədə məsuliyyətlərin heç biri vəkilin öhdəsinə deyil. Torpaqların puluna gəldikdə isə, onları alıcılardan alması və müvəkkilə, yəni, sahibin özünə təhvil verilməsi sübuta yetmişsə, vərəsələrin bunları ondan tələb etməyə haqları yoxdur, alıcılar da ondan bir şey tələb edə bilməzlər. Həmçinin vərəsələr torpaqların o vaxtkı qiyməti ilə indiki qiyməti arasındakı fərqi də tələb edə bilməzlər.

---

Sual: **1813**: Bir müctehid tərəfindən onun öz sağlığında şəri vergiləri yığmağa vəkil olan şəxs üçün həmin vergiləri başqa müctehidə verməsi caizdirmi?

Cavab: Vəkilə vacibdir ki, vəkil adı ilə aldığı şeyləri, ona şəri vergiləri almaqda vəkillik hüququ verən şəxsə təhvil versin. Amma onu başqasına verməkdə icazəli olsa, onda eybi yoxdur.

---

Sual: **1814**: Qardaşımı vəkil etmişəm ki, mənə bir telefon alsın. Pulların birinci hissəsini ödəmək üçün də ona bir qədər pul vermişəm ki, onu əlaqədar təşkilatların hesabına köçürsün, qalan hissələri də özüm verim. Sonra qardaşım vəfat etdi, hal-hazırda telefon əlaqədar təşkilatda onun adınadır. Onun vərəsələri telefonu almaq haqqına malikdirlərmi?

Cavab: Əgər qardaşınız, ona verdiyiniz birinci hissə pulu ödəməklə onu sizin tərəfinizdən vəkil olaraq sizin üçün almışsa, telefon sizə məxsusdur və vərəsələrin onda heç bir haqqı yoxdur.

---

Sual: **1815**: Müəyyən məbləğdə pulu vəkillik haqqı olaraq vəkilə vermiş və ondan pulun almasına dair qəbz almaq istədim. O cavab verdi ki, vəkillik müqabilində heç kəsə qəbz vermir. Bir müddətdən sonra həmin vəkil öz vəkalət işini yerinə yetirməzdən qabaq vəfat etdi. Həmin məbləğ pulu onun vərəsələrindən almağa haqqım varmı?

Cavab: Sualın fərz olunduğu halda vəkildən alacağınız miqdarı onun vərəsələrindən almağınız caizdir. Vərəsələrin də ölən şəxsin əmlakından onu vermələri vacibdir.

---

Sual: **1816**: Vəkalət əqdi vəkilin, yaxud vəkil tutan şəxsin vəfatı ilə batil olurmu?

Cavab: Vəkalət iki tərəfdən birinin ölməsi ilə batil olur.

---

Sual: **1817**: Bir nəfər Asiya ölkələrinin birinə səfər edərkən yol qəzasına uğrayaraq vəfat edir, onun varisləri (anası və həyat yoldaşı) hadisənin baş verdiyi yerə səfər etməyin lazım olduğu üçün hadisəni araşdırmaq üçün məni vəkil tutdular. Hadisəni araşdırmaq məqsədi ilə həmin ölkəyə səfər etmək üçün lazım olan xərcləri mirasın əslindən götürməyim caizdirmi? Yoxsa həmin məbləği dövlətin vəfat edən şəxsin vərəsələrinə verdiyi miqdardan almalıyam?

Cavab: Sizi bu hadisəni araşdırmaq üçün vəkil edən şəxslərə vacibdir ki, əvvəlcədən başqa əsasda razılaşmayıncaya qədər sizin vəkillik haqqınızı və bununla əlaqədar sair xərcləri öz mal-dövlətindən versinlər.

---

Sual: **1818**: Bir vəkalət müqavilələsində hal-hazırda mövcud olan qanunlara əsasən, vəkalətin heç vaxt dəyişdirilməməsi qeyd olunmuşdur. Əlbəttə tərəflər arasında müqavilə bağlanarkən şərt edilən surətdə deyil, müstəqil və ilkin olan bir vəkalətdir. Müqavilədə bu cümlənin sadəcə olaraq yazılışı ilə caiz əqd lazım əqdə çevrilirmi və vəkalətdən çıxartmaq haqqı aradan gedirmi?

Cavab: Lazım vəkalət o vəkalətdir ki, lazım əqd ilə yanaşı, şərt surətində nəticə şərt olsun və “vəkalət heç vaxt dəyişilmir” - ifadəsinin yazılmasının onun lazım əqdə çevrilməsində heç bir təsiri yoxdur və çıxarılma (dəyişdirilmə) haqqı aradan getmir.

---

Sual: **1819**: Bir nəfərin məhkəmədə vəkil olmaq üçün qanuni icazəsi olmayan şəxsi, hər hansı bir hüquqi məsələni, yaxud cinayət məsələsini araşdırmaq üçün məhkəmədə vəkil tutması caizdirmi? Bunu da nəzərə alaq ki, məhkəmə orqanları tərəfindən vəkalət sənədinə malik olan şəxslər müəyyən xüsusi qayda-qanunlara və şərtlərə malik olmalıdırlar ki, vəkalət üçün əmək haqqı ala bilsinlər. Bu kimi icazəyə malik olmayanlar vəkil tutan şəxslərin məhkəmədə iddialarını araşdırmaq müqabilində pul almağa haqqı varmı?

Cavab: Vəkalət öz-özlüyündə vəkil tutmağa səlahiyyəti olan işlərdə şəri cəhətdən dyzgündür, məhkəmələrdəki iddiaları araşdırmaq da o cümlədəndir. Əmək haqqının təyin olunması da iki tərəfin razılığına bağlıdır. Amma rəsmi idarələrə və məhkəmə orqanlarına müraciət etməyi lazım bilən cinayət işləri və yaxud hüquqla əlaqədar sənədləri araşdırmaq üçün vəkil olmağın qanun nəzərindən rəsmi icazəyə ehtiyacı olsa, bu icazəyə malik olmayan şəxslərə vəkilliyini qəbul etmək, yaxud onları vəkil etmək caiz deyil. Amma hər halda rəsmi icazəyə malik olmayan şəxslər başqasının istəyi ilə muzdu olan bir işi görsələr, işinin müqabilində əmək haqqı o şəxsin öhdəsinədir.

---

Sual: **1820**: Bəzən müəyyən bir işin ya iddianın araşdırılması, yaxud müəyyən bir işin görülməsi üçün çoxlu vaxt sərf olunmasına, çoxlu iş görülməsinə, gediş-gəliş xərcləri verilməsinə baxmayaraq vəkil tutan şəxsin xeyrinə heç bir iş hasil olmur. Həmin məsələ ilə əlaqədar olaraq vəkalətə verilən əmək haqqının hökmü nədir?

Cavab: Vəkalətin düzlüyü və vəkil üçün vəkil tutan şəxsin istəyi əsasında vəkalət işinə verilən ücrətül-müsəmma, yaxud ücrətül-misl vəkilin haqlı olması müəyyən hallarda əvvəlcədən belə razılaşmayıncaya qədər istənilən və gözlənilən nəticənin vəkil tutan şəxs üçün hasil olmasına bağlı deyil.

---

Sual: **1821**: Rəsmi məhkəmə şöbələrinin çoxunda belə bir qayda vardır ki, vəkalətin həddi-hüdudunu təyin edirlər. Misal üçün, yazırlar ki, "filan məkanda yerləşən filan evin satılması üçün vəkil olmuşdur". Həmçinin başqa işləri də təyin edirlər, lakin bəzi əlyazma vəkalətnamələrdə aşağıdakı ifadə qeyd olunur: "Filan şəxs vəkil olmuşdur ki, vəkalət işi ilə əlaqədar olan işlərin hamısını öhdəsinə alsın". Nəticədə adətən vəkil ilə vəkil tutan şəxs arasında "filan iş, yaxud təsərrüf vəkalət çərçivəsindədir, yoxsa ondan xaricdə" - deyə ixtilaf yaranır. Sualımız budur ki, əgər vəkil üçün vəkil tutulan şeylərdə müəyyən işlər və tədbirlər təyin olunmasa, bu halda vəkil, vəkalətlə əlaqədar olan işlərdə hər tədbir və təsərrüfü yerinə yetirə bilərmi?

Cavab: Vacibdir ki, vəkil hansı işlər üçün vəkil tutulubsa, həmin işləri görməkdə vəkalət əqdində aşkar şəkildə, yaxud zahirdə nəzərdə tutulduğu, hətta mövcud, yaxud deyilən əlamətlərin köməyi ilə məlum olsa belə, həmin hallara şamil olanları yerinə yetirməklə kifayətlənsin – hətta əgər bu əlamətlər, müəyyən şeydə vəkil olmaqla bəzi işlərin arasında adət üzrə qarşılıqlı əlaqənin mövcud olduğunu göstərsə belə. Qısacı olaraq, vəkalət bir neçə cür təsəvvür olunur:

1-Vəkalət əməl və onunla əlaqədar işin hər iki cəhətində xüsusi olsun.

2-Hər iki cəhətdən ümumi olsun.

3-Yalnız bir tərəfdən ümumi olsun.

4-Yalnız əməl və təsərrüf cəhətindən mütləq olsun məsələn "sən mənim evim barəsində mənim vəkilimsən" - desin.

5-Yalnız iş cəhətindən mütləq olsun, məsələn, "sən mənim mülkümü satmaqda vəkilsən" desin.

6-Hər iki cəhətdən mütləq olsun, məsələn, "sən mənim malımda təsərrüf etməkdə vəkilsən" desin.

Vəkil bu halların hər birində vəkalət əqdinin ümumi, xüsusi, yaxud mütləq şəkildə şamil olduğu şeylərlə kifayətlənməli və ondan başqa işləri görməməlidir.

---

Sual: **1822**: Bir nəfər öz arvadına vəkalət haqqı verir ki, bir qədər torpaq sahəsini və onun mənzillərindən bəzisini satsın, onun pulu ilə öz kiçik övladı üçün mənzil alıb onun adına keçirsin. Lakin o qadın öz vəkalətindən sui-istifadə edərək o mənzili öz adına keçirmişdir. Onun gördüyü işlər şərən düzgündürmü? Bunu da nəzərə alaq ki, o mənzil vəkil tutan şəxsin mal-dövlətinin satılmasından əldə olunan pulla alınmışdır. Onun vəfatından sonra həmin mənzil təkcə kiçik övladın mülkü olur, yoxsa bütün vərəsələrin mülkü?

Cavab: O qadının əri tərəfindən vəkil olaraq yerinə yetirdiyi işlər, o cümlədən torpaq sahəsinin və bəzi evlərin satılması düzgün və etibarlıdır, bu mənzilin barəsində isə, sadəcə olaraq onu öz adına saldırmasının şərən heç bir təsiri yoxdur. Buna əsasən əgər onu vəkalətə uyğun olaraq vəkil edən şəxsin sağlığında və onun pulu ilə kiçik övladı üçün almış olsa, müamilə düzgün və qüvvədədir, həmin ev yalnız onun kiçik övladına məxsusdur. Əgər həmin evi vəkil tutan şəxsin sağlığında özü üçün almış olsa, yaxud vəkil tutan şəxs vəfat etdikdən sonra onu kiçik uşaq üçün alsa, onun müamiləsi füzuli sayılır və vərsələrin icazə verməsinə bağlıdır. Əgər vərəsələr ona icazə versə, müamilə onların hər birinin mirasdan olan payı miqdarında gerçəkləşir.

---

Sual: **1823**: Bir nəfər bəzi şəxslərin tərəfindən qəza oruc və namazlarını yerinə yetirmək üçün əcir tutmağa vəkil olunur, yəni, müəyyən qədər pul alır ki, onu əcir tutulan şəxslərə versin. Amma o, əmanətə xəyanət edir və həmin iş üçün heç bir kəsi əcir tutmur. Hal-hazırda öz əməlindən peşmandır və üzərində olan vəzifənin götürülməsini istəyir. O, müəyyən şəxsləri o iş üçün əcir tutmalıdırmı, yoxsa həmin işin əmək haqqını hazırkı qiymətlə sahiblərinə qaytarmalıdır? Və ya aldığı pullar

miqdarında borclu sayılır? Əgər onun özü oruc-namazları yerinə yetirməyə əcir olsa və onları yerinə yetirməzdən qabaq ölsə, vəzifə nədir?

Cavab: Əgər oruc-namazın yerinə yetirilməsinə əcir tutmağa vəkil olan şəxs namaz və orucların qəzasını yerinə yetirmək üçün bir şəxsi əcir etməzdən qabaq vəkalət müddəti sona çatsa, yalnız aldığı mala zamindir. Bundan qeyri hallarda aldığı pul ilə bir şəxsi oruc-namazları yerinə yetirməyə əcir tutmaqla vəkaləti ləğv edib pulu sahiblərinə qaytarmaq arasında ixtiyar sahibidir. Pulun dəyərinin fərqləndiyi halda ehtiyata görə bir-biri ilə razılaşmalıdırlar. Amma namaz və orucun qəzasını yerinə yetirməyə əcir tutulan şəxs o işləri özü yerinə yetirməyə əcir tutulubsa, bu halda onun vəfatı ilə icarə qüvvədən düşür, aldığı pul onun mirasından sahibinə qaytarılmalıdır. Amma həmin işlərin yerinə yetirilməsində onun şəxsən olması şərt olmayıbsa, o işlərin yerinə yetirilməsində borclu sayılır və vərəsələri onun mirasından bir şəxsi o işləri yerinə yetirməyə əcir etməlidirlər. Əlbəttə, əgər mirası varsa. Əks halda onların öhdəsinə heç bir məsuliyyət düşmür.

---

Sual: **1824**: Şirkətlərdən bəzilərinin müəyyən vəkilləri vardır ki, onların vəzifələri şirkət tərəfindən məhkəmələrəgedib onlardan edilən şikayət məsələlərini araşdırmaqdır. Əgər şirkət onların nəzərinə görə düzgün əsası olmayan müəyyən bir iddia etsə bu məsələ ilə əlaqədar şirkəti müdafiə etmələri caizdirmi? Vəkilin nəzərində batil olan iddialarda vəkil şirkəti müdafiə etsə, bu müdafiə ilə əlaqədar, hətta əgər məhkəmədə haqqında iddia edilənin lehinə hökm çıxarsa, vəkil məsuliyyət daşıyırmı? Vəkilin öz nəzərinə görə batil olan şeyi müdafiə etmək müqabilində aldığı əmək haqqı söht və haram sayılırmı?

Cavab: Batili müdafiə etmək və onun haqq olmasını isbat etmək üçün çalışmaq caiz deyil, məhkəmə tərəfindən haqqında iddia edilənin lehinə verilən qərarın çıxarılması ilə o haram əməlin həqiqəti dəyişilmir. Batil işləri müdafiə etmək müqabilində alınan əmək haqqı söht və haramdır.

---

Sual: **1825**: Bir şəxs başqasının vəkili olur, bu şərtlə ki, işi görməyə başlamazdan əvvəl öz əmək haqqını ondan alsın. Əgər vəkil heç bir iş görməzsə, şərən həmin mal onun üçün halal olurmu?

Cavab: Vəkil, vəkalət müqaviləsi gerçəkləşməklə eyni zamanda ücrətül-müsəmmanın (nəzərdə tutulan qazancın) maliki olur və hətta hansı iş üçün vəkil tutulubsa, o işi yerinə yetirməzdən əvvəl belə həmin haqqı almağa ixtiyarı vardır. Lakin hansı iş üçün vəkil tutulubsa o işi yerinə yetirməzsə və nəticədə onun vaxtı keçərsə, yaxud vəkalət müddəti sona çatarsa, onun əsasında vəkalət ləğv olunur (qüvvədən düşür) və vəkilin aldığı məbləği vəkil tutan şəxsə qaytarması vacibdir.

# Həvalə

---

Sual: **1826**: Bir nəfər bir qədər torpaq sahəsini müəyyən məbləğə almışdır, üçüncü bir şəxsdən alınan şeyin dəyərində alacağı vardır. Buna görə satıcını borclu şəxsə həvalə edir ki, torpaq sahəsinin pulunu ondan alsın, lakin borclu və həvalə olunan üçüncü şəxs, alıcının xəbəri olmadan torpaq sahəsinin pulunu satıcıya verməklə onu özü üçün alır. Satıcının, pulunu üçüncü şəxsdən almağa həvalə etməsi ilə müvafiq olduğu bu müamilə düzgündür, yoxsa ikinci müamilə düzdür?

Cavab: İkinci müamilə füzulidir və bu, birinci alıcının icazəsinə bağlıdır. Amma ikinci müamilə birinci müamilənin qanuni ləğvindən sonra baş versə, onda düzdür.

# Sədəqə

---

Sual: **1827**: Mərhum İmam Xomeyni adına imdad komitəsi mənzillərdə, küçələrdə, şəhərin ümumi məkanlarında, eləcə də kəndlərdə sədəqələrin, ehsanların toplanması, onların imkansızlara və ehtiyacı olanlara çatdırılması üçün müəyyən qutular qoymuşdur. Bu komitənin işçilərinin oradan aldığı aylıq maaşdan və güzəştlərdən əlavə, həmin qutulardakı pulların müəyyən faizinin mükafat kimi onlara verilməsi caizdirmi? O pulların müəyyən miqdarının onları toplamaqda müəyyən rolu və köməyi olan, lakin İmdad komitəsinin rəsmi işçilərindən olmayan şəxslərə verilməsi caizdirmi?

Cavab: Sədəqə qutularından toplanan pulların müəyyən miqdarının mükafat adı ilə İmdad komitəsinin işçilərinə, komitədən aldıqları aylıq maaşdan əlavə olaraq mükafat verilməsinin işkalı vardır, üstəlik bu işə mal sahiblərinin razılığı aşkar olmazsa,

caiz deyil. Lakin onun müəyyən miqdarını, qutularda mövcud olan pulların toplanmasında iştirak edən şəxslərə ücrətül misl (əmək haqqı) adı ilə verilməsinin eybi yoxdur, bu şərtlə ki, sədəqələrin toplanıb ehtiyaclı şəxslərə çatdırılmasında onların köməyinə ehtiyac duyulsun, xüsusilə əgər zahiri əlamətlərdən pul sahiblərinin bu işin görülməsinə razı olduğu aydın olarsa.

---

Sual: **1828**: Evlərin qapılarını döyən, yaxud küçə və xiyabanlarda oturan dilənçilərə sədəqə vermək caizdirmi, yoxsa yaxşı olar ki, yetimlərə və miskinlərə verilsin və o pullar, sədəqə qutularına salınmaqla İmdad komitəsinin ixtiyarına verilsin?

Cavab: Müstəhəbb sədəqə yaxşı olar ki, abırlı və dindar fəqirlərə verilsin, həmçinin onun İmdad komitəsinin ixtiyarına verilməsi, hətta sədəqə qutularına salmaqla olsa belə, eybi yoxdur. Lakin vacib sədəqələrin, şəxsin özünün vasitəsi ilə, yaxud onun vəkili tərəfindən müstəhəqq fəqirlərə verilməsi vacibdir. Əgər insan İmdad komitəsinin məsullarının qutularda olan pulları bir yerə toplayıb müstəhəqq fəqirlərə verməsini bilsə, onu sədəqə qutularına salmağın eybi yoxdur.

---

Sual: **1829**: Başqalarının qarşısında əl açan, öz məişətini dilənçiliklə idarə edən, islam cəmiyyətinin adına ləkə gətirən, xüsusilə dövlət tərəfindən onların yığışdırılması ilə əlaqədar tədbir keçirilməsindən sonra insanın onların qarşısında vəzifəsi nədir? Onlara kömək etmək caizdirmi?

Cavab: Çalışın sədəqələri dindar və abırlı fəqirlərə verin.

---

Sual: **1830**: Mən məscidin xidmətçisiyəm, işim mübarək Ramazan ayında daha çox olur. Buna görə də xeyriyyəçilərdən bəziləri müəyyən məbləğdə pulu kömək adı ilə mənə verirlər. Onu almaq mənim üçün caizdirmi?

Cavab: Onların sizə verdiyi şeylər sizə etdikləri ehsandır, nəticədə o, sizin üçün halal, onun qəbul edilməsi isə işkalsızdır.

# Əmanət

---

Sual: **1831**: Bir zavod daxilində olan bütün şeylərlə birlikdə, yəni xammal, istehsal alətləri, əmtəələr, bəzi şəxslər tərəfindən onlara əmanət qoyulan mallar od tutub yanmışdır. Zavodun sahibi onlara zamindirmi, yoxsa onların idarə olunmasına məsuliyyət daşıyan şəxs bu işlərə öhdədardır?

Cavab: Əgər yanğın müəyyən bir şəxsin işi ilə əlaqədar deyilsə və müəyyən bir şəxs də zavoda tapşırılan əmtəələrin saxlanmasında təqsirə və səhlənkarlığa yol verməyibsə, heç kəs onlara zamin deyil.

---

Sual: **1832**: Bir nəfər öz vəsiyyətnaməsini yazıb başqasına verdi ki, vəfatından sonra onu böyük oğluna təhvil versin. Lakin o, vəsiyyətnaməni onun oğluna verməkdən imtina edir. Onun bu işi əmanətə xəyanət sayılırmı?

Cavab: Əmanətin, əmanət qoyan şəxs tərəfindən təyin olunan şəxsə qaytarmaqdan imtina etmək bir növ xəyanət sayılır.

---

Sual: **1833**: Əsgərlik xidməti dövründə ordudan şəxsi istifadə üçün müəyyən şeyləri təhvil aldım, lakin xidmət dövrü qurtardıqdan sonra onları təhvil vermədim. Hal-hazırda onlarla əlaqədar mənim vəzifəm nədir? Onların pulunu mərkəzi bankın ümumi büdcəsinə keçirmək kifayət edirmi?

Cavab: Əgər ordudan aldığınız əşyaları əmanət adı ilə almısınızsa, onların özü qaldığı surətdə ordunun xidmət mərkəzinə təhvil verməyiniz vacibdir. Əgər sizin onların qorunmasında səhlənkarlığınız nəticəsində, hətta təhvil verilməsini təxirə saldığınıza görə aradan getmiş olsalar, onun mislini, yaxud pulunu orduya verməlisiniz, əks halda sizin öhdənizə heç bir məsuliyyət düşmür.

---

Sual: **1834**: Bir əmanətdar şəxsə müəyyən məbləğdə pul verilir ki, başqa bir şəhərə aparsın. Lakin yol əsnasında oğurlanır. O şəxs həmin pullara zamindirmi?

Cavab: Əmanətdar şəxsin onların qorunub saxlanmasında səhlənkarlığa yol verməsi sübut olunmayınca o, zamin deyil.

---

Sual: **1835**: Məscidin təmir olunması və tikinti işlərinə lazım olan dəmir və s. kimi materialların alınması üçün yaşadığımız yerin əhalisinin verdiyi pullardan müəyyən məbləği məscidin münsiflər heyətindən təhvil almışam, lakin yolda öz şəxsi vəsaitlərimlə birlikdə itmişdir. Mənim vəzifəm nədir?

Cavab: Əgər onun saxlanmasında səhlənkarlığa yol verməmisinizsə, zamin deyilsiniz.

# Vəsiyyət

---

Sual: **1836**: Şəhidlərdən bəziləri vəsiyyət etmişlər ki, onun mirasının üçdə biri cəbhələrə sərf olunsun. Hal-hazırda myharibə olmadığı halda vəsiyyətlərin hökmü nədir?

Cavab: Əgər vəsiyyətə əməl olunması mövzusu aradan getmiş olsa, onun vərəsələrinin irsi sayılır və əhvət odur ki, vərəsələrin icazəsi ilə xeyir işlərdə xərclənsin.

---

Sual: **1837**: Qardaşım vəsiyyət etmişdir ki, malının üçdə biri xüsusi bir şəhərin qaçqınlarına sərf olunsun. Lakin hal-hazırda həmin şəhərdə yoxdur. Vəzifəmiz nədir?

Cavab: Əgər vəsiyyət edən şəxsin «qaçqınlar» dedikdə məqsədinin hal-hazırda o şəhərdə yaşayan insanların olması aşkar olsa, bu halda hal-hazırda qaçqın olmadığına görə mal vərəsələrə çatır. Bundan başqa surətlərdə pul, hətta hal-hazırda köçüb getsələr belə həmin şəhərdə yaşamış olan qaçqınlara verilməlidir.

---

Sual: **1838**: Bir nəfərin özünün mal-dövlətinin yarısını vəfatından sonra xətm və matəm mərasiminə sərf olunmasını vəsiyyət etməsi caizdirmi? Yoxsa İslam bu kimi hallarda xüsusi bir hədd təyin etdiyi üçün bu miqdarın təyin olunması caiz deyil?

Cavab: Bir şəxsin mal-dövlətinin, özünün əzadarlıq və matəm mərasimində sərf olunmasını vəsiyyət etməsinin şərən heç bir xüsusi həddi yoxdur, lakin meyyitin vəsiyyəti yalnız mirasının üçdə birində nüfuzludur və üçdə birindən artıq miqdarda vərəsələrin icazəsindən asılıdır.

---

Sual: **1839**: Vəsiyyət etmək vacibdirmi, belə ki, insan onu tərk etdikdə günaha düçar olurmu?

Cavab: Əgər insanın yanında başqalarının əmanətləri olsa, eləcə də öhdəsində camaatın, yaxud Allahın haqqı olsa və sağlığında onları yerinə yetirə bilməsə, onların barəsində vəsiyyət etməsi vacibdir. Bundan qeyri hallarda isə vacib deyil.

---

Sual: **1840**: Bir nəfər öz malının üçdə birindən az miqdarını həyat yoldaşına vəsiyyət edir və böyük oğlunu vəsi qərar verir. Lakin sair vərəsələr bu vəsiyyətə etiraz edirlər. Vəsinin bu barədə vəzifəsi nədir?

Cavab: Əgər vəsiyyət mirasın üçdə biri, yaxud ondan az miqdarda edilsə, vərəsələrin ona etiraz etməsinin heç bir əsası yoxdur, əksinə vəsiyyətə əsasən əməl etmələri vacibdir.

---

Sual: **1841**: Əgər varislər vəsiyyəti mütləq şəkildə inkar etsələr, vəzifə nədir?

Cavab: Vəsiyyəti iddia edən şəxs onu şəri yollarla isbat etməlidir. İsbat etdiyi təqdirdə mirasın üçdə biri, yaxud ondan az miqdara vəsiyyət edilmiş olsa, vəsiyyətə əsasən ona əməl etmək vacibdir, vərəsələrin inkar və ya etiraz etməsinin də heç bir təsiri yoxdur.

---

Sual: **1842**: Bir nəfər etimadlı şəxslərin, o cümlədən oğlanlarının yanında vəsiyyət etmişdir ki, öhdəsinə olan şəri vergiləri, o cümlədən xüms, zəkat, kəffarə, eləcə də onun öhdəsinə olan namaz, oruc, həcc və s. kimi "bədəni" vacibatı yerinə yetirilməsi üçün onun əmlakının bəzisi vəsiyyət edilən şeylərə xərclənmək üçün mirasından istisna olunsun. Lakin vərəsələrdən bəziləri onu rədd edir və bütün əmlakın heç bir istisna olunmadan vərəsələr arasında bölüşdürülməsini tələb edir. Bu halda vəzifə nədir?

Cavab: Şəri dəlil əsasında, yaxud vərəsələrin iqrar etməsi nəticəsində vəsiyyətin sübuta yetməsi fərz olunduqdan sonra vəsiyyət olunan şeylər mirasın üçdə birindən artıq olmasa onların irsi bölməyi tələb etməyə haqları yoxdur, əksinə vacibdir ki, meyyitin vəsiyyət etdiyi mali hüquqlar və bədəni vacibatlar onun vəsiyyətinə uyğun əməl edilsin, hətta əgər şəri yolla, yaxud vərəsələrin iqrar etməsi ilə meyyitin camaata borclu olması, yaxud Allahla əlaqədar olan xüms, zəkat, kəffarə və s. kimi hüquqları borclu olsa, yaxud həcc kimi bədəni, yaxud mali bir vəzifənin öhdəsində qalmış olması sübut olunsa, yenə də onlara vacibdir ki, hətta bu kimi işlərdə vəsiyyət etməsə belə onun borclarının hamısını mirasın əslindən versinlər, yerdə qalan malı öz aralarında bölüşdürsünlər.

---

Sual: **1843**: Bir nəfər müəyyən qədər əkin sahəsinə malikdir. O, vəsiyyət etmişdir ki, onu məscidin təmiri üçün sərf etsinlər. Lakin onun vərəsələri həmin yeri satmışlar. Bu halda vəfat edən şəxsin vəsiyyəti qüvvədədirmi? Vərəsələrin o yeri satmağa haqqı vardırmı?

Cavab: Əgər vəsiyyətin məzmunu o əkin sahəsinin özünün satılıb məscidin təmirinə sərf edilməsi olsa, torpaq sahəsinin qiyməti də mirasın üçdə birindən artıq olmasa, bu halda vəsiyyət qüvvədədir və torpağın satılmasının işkalı yoxdur. Əgər vəsiyyət edən şəxsin məqsədi torpaq sahəsinin mənfəətinin məscidin təmirinə xərclənməsi olsa, bu halda vərəsələrin onu satmağa haqqı yoxdur.

---

Sual: **1844**: Bir nəfər vəsiyyət etmişdir ki, torpaq sahələrindən biri onun tərəfindən qəza namaz-orucunun yerinə yetirilməsinə və xeyir işlərə sərf edilsin. Bu torpaq sahəsinin satılması caizdirmi, yoxsa vəqf hesab olunur?

Cavab: Mövcud əlamət və nişanələrdən onun məqsədinin torpağın öz vəziyyətində qalması və onun gəlirindən istifadə olunması aşkar olmasa, əksinə, yalnız torpağın onun özü üçün sərf edilməsini vəsiyyət etsə, bu vəsiyyət torpağın vəqf olunması hökmündə deyil, deməli, əgər onun pulu mirasın üçdə birindən çox olmasa, satılıb pulunun onun özü üçün sərf edilməsinin işkalı yoxdur.

---

Sual: **1845**: Vəfatından sonra onun özünə xərclənsin deyə, müəyyən məbləğdə malın mirasın üçdə biri kimi kənara qoyulması, yaxud bir şəxsin yanına əmanət qoyulması caizdirmi?

Cavab: Bu işin işkalı yoxdur, bu şərtlə ki, onun vəfatından sonra həmin malın iki qat artığı vərəsələr üçün qalmış olsun.

---

Sual: **1846**: Bir nəfər öz atasına vəsiyyət edir ki, bir neçə aylıq oruc-namazının qəzasını yerinə yetirmək üçün əcir tutsun. Hal-hazırda o şəxs itmişdir. Atasına onun qəzaya getmiş oruc-namazlarını yerinə yetirmək üçün əcir tutmaq vacibdirmi?

Cavab: Vəsiyyət edən şəxsin ölməsi şəri dəlillərlə, yaxud vəsi tutulan şəxsin yəqinə çatması ilə sübut edilməyincə, onun tərəfindən oruc-namazlarının qəzasını yerinə yetirmək üçün əcir tutmaq düzgün deyil.

---

Sual: **1847**: Atam öz torpaq sahəsinin üçdə birini məscid tikilməsi üçün vəsiyyət etmişdir, lakin bu torpaq sahəsinin qonşuluğunda yerləşən iki məscidin də olduğunu, mədrəsə tikilməsinə də kəskin ehtiyac duyulduğunu nəzərə alaraq, məscid əvəzinə o yerdə mədrəsə tikmək caizdirmi?

Cavab: Məscid əvəzinə mədrəsə tikməklə vəsiyyətin dəyişdirilməsi caiz deyildir. Amma əgər məscidin həmin yerdə tikilməsi nəzərdə tutulmamış olsa, onun satılıb pulu ilə ehtiyac duyulan başqa bir yerdə məscid tikdirməyin eybi yoxdur.

---

Sual: **1848**: Bir şəxsin öldükdən sonra öz bədənini yarıb bədən quruluşunu öyrənməkdə ondan istifadə etsinlər deyə, tibb tələbələrinin ixtiyarına verilməsini vəsiyyət etməsi caizdirmi? Yoxsa bu əməl müsəlman meyyitinin müslə olunmasına (parçalanmasına,burun-qulağının kəsilməsinə) səbəb olduğuna görə haramdır?

Cavab: Belə nəzərə çarpır ki, müslənin və s.-in haram olması kimi hökmlər başqa bir məqsədlə, başqa bir işə yönəlir və Sualda qeyd olunduğu kimi, meyyitin cərrahlıq işindəki mühüm məsləhətə aid olmur. Əgər bu kimi məsələlər danılmaz bir əsl kimi qərar verilməli olan müsəlman meyyitinin cəsədinə ehtiram qoyulması şərti hasil olsa, zahirən onu yarmağın işkalı olmayacaq.

---

Sual: **1849**: Əgər bir nəfər, öldükdən sonra bədən üzvlərindən hər hansı birini xəstəxanaya, yaxud başqa bir şəxsə hədiyyə etməsini vəsiyyət etsə, onun vəsiyyəti düzgündürmü və onun icra olunması vacibdirmi?

Cavab: Meyyitin bədənindən, ona qarşı hörmətsizlik sayılmayacaq dərəcədə bədən üzvünün ayrılmasına etdiyi bu kimi vəsiyyətin düzgün və qüvvədə olması uzaq fikir deyil və bu kimi hallarda vəsiyyətə əməl edilməsinin maneəsi yoxdur.

---

Sual: **1850**: Əgər vərəsələr, vəsiyyət edən şəxsin sağlığında onun mal-dövlətinin üçdə birindən artığına etdiyi vəsiyyətə icazə versələr, (bu icazə) onun qüvvəyə minməsi üçün kifayətdirmi? Əgər kifayət olduğunu fərz etsək, vəsiyyət edən şəxsin ölümündən sonra bu şəxslər öz icazələrini geri götürə bilərmi?

Cavab: Vəsiyyət edən şəxsin sağlığında, vərəsələri üçdə birdən artığa icazə vermələri vəsiyyətin düzgün və qüvvədə olmasına kifayətdir və vəsiyyət edən şəxsin vəfatından sonra bu icazədən dönmə haqları yoxdur və əgər icazədən dönsələr, heç bir təsiri yoxdur.

---

Sual: **1851**: Əziz şəhidlərdən biri özünün oruc-namaz qəzaları barəsində vəsiyyət etmişdir, lakin onun mirası yoxdur, yaxud mirası yalnız satılacağı təqdirdə kiçik övladlarının çox çətinliyə düşəcəyi ev və mənzil avadanlıqlarından ibarətdir. Bu vəsiyyətlə əlaqədar onun vərəsələrinin vəzifəsi nədir?

Cavab: Əgər o əziz şəhidin yoxdursa, onun vəsiyyətinə əməl etmək vacib deyil, lakin onun böyük oğluna, həddi-büluğa çatdıqdan sonra atasının qəzaya gedən oruc-namazlarını yerinə yetirməsi vacibdir. Amma mirası olsa, onun üçdə birinin vəsiyyət olunan işlərə xərclənməsi vacibdir. Vərəsələrin ehtiyaclı və kiçik olması vəsiyyətə əməl edilməməsi üçün şəri bir əsas hesab olunmur.

---

Sual: **1852**: Malın vəsiyyət edilməsinin düzgün və nüfuzlu olmasında, vəsiyyət olunan şəxsin vəsiyyət edilən zamanda mövcud olması şərtdirmi?

Cavab: Təmliki vəsiyyətdə vəsiyyət olunan zaman hansı şəxsə vəsiyyət edilirsə onun varlığı şərtdir, hətta ana bətnində rüşeym halında, yaxud hələlik ruh daxil olmamış bir rüşeym olsa belə, bu şərtlə ki, dünyaya diri gəlmiş olsun.

Sual: **1853**: Vəsiyyət edən şəxs yazılı şəkildə qoyduğu vəsiyyətində, öz vəsiyyətlərini yerinə yetirmək üçün bir vəsi təyin etməkdən əlavə, onun işlərinə nəzarət etmək üçün bir nəfəri də təyin etmiş, lakin onun səlahiyyətlərini aşkar şəkildə bəyan etməmişdir, belə ki, vəsinin işlərinə nəzarət dedikdə məqsədin onun işləri barədə məlumat almaq və vəsiyyət edən şəxsin nəzərdə tutduğunun əksinə əməl etməməsimi, yoxsa vəsiyyət olunan şəxsin əməlləri barəsində rəy və nəzərə malik olması və onun işlərinin nəzarətçi şəxsin məsləhəti əsasında və ona uyğun olması məlum deyil. Bu halda nəzarətçinin səlahiyyətləri hansı həddədir?

Cavab: Vəsiyyətin mütləq şəkildə olmasını fərz etdikdə, vəsiyə, öz işlərində nəzarətçi ilə məsləhətləşməsi vacib deyil, amma əhvət nəzər onun yerinə yetirilməsidir. Nəzarətçinin vəzifəsi də vəsinin işləri barədə məlumat əldə etmək üçün nəzarət etməkdir.

---

Sual: **1854**: Bir nəfər böyük oğlunu vəsi, məni isə ona nəzarətçi təyin edib dünyadan getmişdir. Sonra onun oğlu da vəfat etmişdir. Mən onun vəsiyyətini icra etməyə yeganə cavabdeh şəxs olmuşam. Lakin hal-hazırda qarşıya çıxan xüsusi vəziyyətimə görə vəsiyyət olunan işlərin icra olunması mənim üçün çətindir. Vəsiyyət olunan şeyləri, onun üçdə birindən əldə olunan mənfəətləri xeyriyyə işlərdə və səhiyyə_idarəsinin himayəsində olub köməyə və yardıma ehtiyacı olan şəxslərə xərclənsin deyə, bu idarəyə verməklə vəsiyyət olunan şeyin dəyişdirilməsi caizdirmi?

Cavab: Nəzarət edən şəxs təklikdə meyyitin vəsiyyətini, hətta vəsiyyət olunan şəxsin vəfatından sonra belə, icra edə bilməz. Amma vəsiyyət olunan şəxs vəsinin vəfatından sonra onu özünə vəsi qərar vermiş olsa, onda bu hal istisna olunur. Əks halda, vəsinin vəfatından sonra şəriət hakiminə müraciət edilməlidir ki, onun yerinə başqa bir şəxsi təyin etsin. Hər bir halda meyyitin vəsiyyətindən kənara çıxmaq və onu dəyişdirmək caiz deyil.

---

Sual: **1855**: Bir nəfər vəsiyyət edir ki, onun əmlakının bir miqdarı Nəcəfi-Əşrəfdə Quran tilavətinə sərf olunsun, yaxud bu iş üçün müəyyən bir malı vəqf edir. Vəsi, yaxud vəqfə nəzarət edən şəxsə Quran tilavəti üçün bir şəxsin əcir tutulması məqsədi ilə həmin malın Nəcəfi Əşrəfə göndərilməsi mümkün olmazsa, onun bu barədəki vəzifəsi nədir?

Cavab: Əgər o malın, Nəcəfi-Əşrəfdə Qurani-kərim tilavəti üçün sərf edilməsi hətta gələcəkdə mümkün olsa, vəsiyyətə əməl olunması vacibdir.

---

Sual: **1856**: Anam vəfatından əvvəl vəsiyyət etmişdir ki, onun qızıllarını cümə axşamlarında xeyir işlərə sərf edəm. Mən də indiyə qədər bu işi onun üçün görürdüm, lakin çox ehtimala görə əhalisi müsəlman olmayan xarici ölkələrə səfər etdiyim zaman mənim vəzifəm nədir?

Cavab: Onun, müsəlman və qeyri-müsəlman olmasından asılı olmayaraq ümumi camaata ehsan edilməsini nəzərdə tutması aşkar olmayınca, hətta o malın, müsəlmanlara sərf olunsun deyə, islam ölkələrində əmanətdar bir şəxsin yanında qoyulması ilə olsa belə, bu malın yalnız müsəlmanlarla əlaqədar xeyriyyə işlərinə sərf olunması vacibdir.

---

Sual: **1857**: Bir nəfər vəsiyyət etmişdir ki, onun torpaqlarından bir miqdarı, pulu əzadarlıq və xeyriyyə işlərində xərclənsin deyə, satılsın, lakin o yerin vərəsələrdən başqalarına satılması onlar üçün çoxlu çətinliklərə səbəb olur. Vərəsələrin, bu torpaq sahəsini hisə-hissə olaraq özləri üçün almaları, belə ki, hər il onun müəyyən bir miqdarını, vəsinin və nəzarətçinin nəzarəti altında vəsiyyət olunan işlərə sərf olunmaq məqsədilə satmaları caizdirmi?

Cavab: Torpaq sahəsinin vərəsələr tərəfindən alınmasının heç bir işkalı yoxdur və vəsiyyət edən şəxsin onun hissə-hissə və ədalətli qiymətlə alınmasında məqsədi torpaq sahəsinin nağd olaraq satılıb pulunun da elə birinci ildə vəsiyyət etdiyi işlərə xərclənməsi olması aşkar olmayınca, eybi yoxdur, bu şərtlə ki, vəsi və nəzarətçi bu işi məsləhət görsünlər və hissə-hissə ödənişlər də vəsiyyətin icra olunmamasına gətirib çıxarmasın.

---

Sual: **1858**: Bir nəfər ölümü ilə nəticələnən xəstəliyində iki şəxsə, vəsi və onun naibi ünvanı ilə vəsiyyət etmiş, daha sonra fikrini dəyişmiş və vəsiyyəti batil etmişdir, sonra vəsini və naibi bu işdən xəbərdar etmiş və digər bir vəsiyyətnamə də yazaraq onda itmiş qohumlarından birini özünə vəsi qərar vermişdir. Birinci vəsiyyət fikrindən dönüb dəyişdikdən sonra o öz halında qalaraq etibarlı sayılırmı? Əgər ikinci vəsiyyət düzgün və itən şəxs vəsi olsa, vəsiyyət işindən çıxarılan birinci vəsi və onun naibi vəsiyyət edən şəxsin batil etdiyi vəsiyyətə istinad edərək onu icra edə bilərlərmi? Onların bu işləri "üdvani" sayılırmı və meyyitin malından xərclədikləri şeyi ikinci vəsiyə qaytarmaları vacibdirmi?

Cavab: Meyyit öz həyatında birinci vəsiyyətdən dönüb birinci vəsini vəsilikdən çıxartdıqdan sonra işdən çıxarılan vəsinin, bu işdən agah olduqdan sonra o vəsiyyətə istinad edərək ona əməl etməyə haqqı yoxdur, vəsiyyət olunan mal barəsində onun təsərrüfləri füzulidir və vəsinin icazəsinə bağlıdır. Deməli, əgər vəsi ona icazə verməsə, işdən çıxarılan birinci vəsi sərf etdiyi mala zamindir.

---

Sual: **1859**: Bir nəfər vəsiyyət etmişdir ki, əmlakından bir qədəri övladlarından birinə aid olsun. O, iki ildən sonra öz vəsiyyətini tamamilə dəyişdirmişdir. Onun əvvəlki vəsiyyətindən sonrakı vəsiyyətinə keçməsi şərən sayılırmı? Əgər bu şəxs xəstə və nəzarətə, xidmətə ehtiyacı olsa bu vəzifə yalnız onun təyin etdiyi vəsinin, yəni, onun böyük oğlunun öhdəsinədirmi, yoxsa bütün övladlar bu məsuliyyəti bərabər şəkildə daşıyırlar?

Cavab: Vəsiyyət edən şəxsin öz sağlıqında və sağlam əqlə malik olduğu bir dövrdə öz vəsiyyətindən dönməsinin şərən heç bir işkalı yoxdur. Şəri baxımdan mötəbər və düzgün sayılan vəsiyyət – sonrakı vəsiyyətdir, öz malından xidmətçi tutmağa qadir olmadığı halda xəstə şəxsə baş çəkmək və ona nərarət etmək məsuliyyəti bərabər şəkildə ona nəzarət etmək və baxmaq qüdrətinə malik olan bütün övladlarının üzərinə düşür. Vəsi təklikdə bu işlərə məsul deyil.

---

Sual: **1860**: Atam öz malının üçdə birini özü üçün vəsiyyət etmiş, məni də özünə vəsi təyin etmişdir. Mirasın bölüşdürülməsindən sonra onun üçdə biri ayrıldı. Onun vəsiyyətlərini icra etmək üçün malının üçdə birindən müəyyən qədərini satmağım caizdirmi?

Cavab: Əgər öz malının üçdə birini onun vəsiyyətlərinin icra olunmasına vəsiyyət etmiş olsa, mirasdan ayrıldıqdan sonra onun satılıb vəsiyyətdə qeyd olunan hallarda sərf edilməsinin eybi yoxdur. Amma əgər üçdə birinin gəlirini, vəsiyyətin icrasına sərf olunmasına vəsiyyət etmiş olsa, bu halda üçdə biri satmaq, hətta vəsiyyət hallarına sərf olunsa belə, caiz deyil.

---

Sual: **1861**: Əgər vəsiyyət edən şəxs həm vəsi, həm də nəzarətçi təyin etsə, amma onların vəzifə və səlahiyyətlərini qeyd etməsə, eləcə də öz malının üçdə birini və onun harada sərf olunmasını qeyd etməsə, bu halda vəsinin vəzifəsi nədir? Vəsiyyət edən şəxsin malının üçdə birinin mirasdan ayırıb xeyir işlərdə sərf olunması caizdirmi? Sadəcə olaraq vəsiyyət və vəsinin təyin olunması onun tərəkənin üçdə birinə müstəhəq olmasına kifayətdirmi və nəticədə vəsiyə üçdə biri mirasdan ayırıb onu vəsiyyət olunan işlərdə xərcləmək vacibdirmi?

Cavab: Əgər mövcud əlamət və şahidlərdən, yaxud yerli adət-ənənədən vəsiyyət edən şəxsin məqsədi başa düşülsə, vəsinin bu yollarla başa düşülən məqsədə və vəsiyyət halının ayırd edilməsi ilə əlaqədar öz düşüncəsinə əməl etməsi vacibdir. Bundan başqa hallarda, vəsiyyət anlaşılmaz olduğuna və onun nəyə edilməsi müəyyən olmadığına görə batil olub qüvvədən düşür.

---

Sual: **1862**: Bir nəfər belə vəsiyyət etmişdir: "Bütün tikilən və tikilməyən parçalar və sair şeylər mənim həyat yoldaşıma aiddir". "Və sairlər" kəlməsindən məqsəd onun daşına bilən əmlakıdırmı, yoxsa paltarlardan və parçalardan az dəyərə malik olan ayaqqabı və sair kimi şeylərdir?

Cavab: Vəsiyyətnamədə qeyd olunan "və sairlər" kəlməsindən məqsədin nə olduğu aydın olmayınca xaricdən də vəsiyyət edən şəxsin bu işdə məqsədi başa düşülməzsə, vəsiyyətnamənin bu cümləsi icra və əməl olunmağa qabil olmayan icmal və anlaşılmazlığa, eləcə də onun Sualda qeyd olunan ehtimallardan birinə uyğun gəlməsinə görə vərəsələrin razılığına bağlıdır.

---

Sual: **1863**:. Bir qadın vəsiyyət etmişdir ki, onun mirasının üçdə biri səkkiz illik namazının qəzasına sərf edilsin və yerdə qalanı boynundakı borc və xumsun qaytarılmasına, eləcə də xeyir işlərə sərf edilsin. Bu vəsiyyətə əməl edilməsi vaxtı müharibə dövrünə təsadüf edirdi, cəbhələrə kömək edilməsi daha artıq zəruri idi. Vəsi də o qadının öhdəsində hətta bir dənə olsun belə, qəza namazı olmamasını bilirdi. Bununla eyni zamanda bir şəxsi iki il ona namaz qılması üçün əcir etmiş, üçdə birin bir miqdarını cəbhəyə kömək etmiş və yerdə qalanı isə onun xumsunu və boynundakı borclarını qaytarmağa sərf etmişdir. Vəsiyyətə əməl edilməsi ilə əlaqədar vəsinin öhdəsində bir şey qalırmı?

Cavab: Vəsiyyətə, meyyitin vəsiyyət etdiyi şəkildə əməl edilməsi vacibdir və vəsinin, hətta bəzi hallarda belə ona əməl etməyi tərk etməsi caiz deyil. Buna əsasən, hətta o malın müəyyən miqdarını vəsiyyət edilən hallardan başqa yerdə istifadə etsə, həmin miqdara zamindir.

---

Sual: **1864**: Bir nəfər iki nəfərə vəsiyyət edir ki, onun vəfatından sonra vəsiyyətnamədə qeyd olunanlara əsasən əməl etsinlər. O vəsiyyətnamənin üçüncü bəndində qeyd olunur ki, vəsiyyət edən şəxsin bütün mirası – istər daşınar olsun, istərsə daşınmaz, istər nağd olsun, istərsə də camaatdan alacaqları – bir yerə toplansın, onun borcları mirasın özündən qaytarıldıqdan sonra onun hamısından üçdə biri ayrılsın və vəsiyyətnamədə qeyd olunan 4, 5 və 6-cı bəndlərə əsasən sərf edilsin. On yeddi il keçdikdən sonra üçdə birin qalan hissəsi fəqir vərəsələrə xərclənsin. Lakin bu iki vəsi vəsiyyət edən şəxsin vəfatından bu müddətin qurtardığı vaxta qədər üçdə biri ayırmağa və qeyd olunan hallara əməl etməyə nail olmamışlar. Vərəsələr də iddia edirlər ki, həmin müddət qurtaqdıqdan sonra vəsiyyətnamə batildir, o iki vəsi də vəsiyyət edən şəxsin əmlakına dəxalət etməyə haqlı deyillər. Bu məsələnin hökmü nədir? Bu iki vəsinin vəzifəsi nədir?

Cavab: Vəsiyyət və vəsi tutmaq məsələsi icranın təxirə düşməsi ilə batil olmur, əksinə, vəsiyyətə əməl etmək, hətta onun müddəti uzun olsa belə, bu iki vəsiyə vacibdir. Onların vəsi olmalarının sona çatan müəyyən bir möhlətlə şərtlənmədiyi zamana qədər vərəsələrin vəsiyyətin icra edilməsində o iki nəfərə mane olmaq haqqı yoxdur.

---

Sual: **1865**: Meyyitin tərəkəsinin vərəsələr arasında bölünməsindən, onların adlarına rəsmi sənəd çıxarılmasından və bu işdən altı il keçməsindən sonra vərəsələrdən biri iddia edir ki, vəfat edən şəxs şifahi şəkildə ona vəsiyyət etmişdir ki, evin bir hissəsi onun oğlanlarından birinə verilsin. Qadınlardan bəziləri də bu işə şahidlik edirlər. Qeyd olunan müddətin keçməsindən sonra onun iddiası qəbul olunurmu?

Cavab: Zamanın keçməsi və irsin bölüşdürülməsinin qanuni mərhələlərinin tamamlanması şəri dəlilə əsaslandığı halda vəsiyyətin qəbul olunmasına mane ola bilməz, deməli, əgər vəsiyyət iddiası edən şəxs öz iddiasını şəri yolla isbat edərsə, ona uyğun olaraq əməl edilməsi vacibdir və bundan qeyri hallarda isə onun iddiasının düzgünlüyünə iqrar edən hər kəsə, onun məzmununa iltizamlı olması və irsdən olan payı qədərində ona uyğun əməl etməsi vacibdir.

---

Sual: **1866**: Bir nəfər iki nəfərə vəsiyyət etmişdir ki, onun torpaq sahələrindən birini satsınlar və onun tərəfindən naib olaraq həccə getsinlər. Öz vəsiyyətnaməsində o iki nəfərdən birini vəsi, digərini isə ona nəzarətçi təyin etmişdir. Bu zaman üçüncü bir şəxs tapılaraq iddia edir ki, vəsidən və nəzarətçidən icazə almadan həcc əməllərini o şəxsin tərəfindən yerinə yetirmişdir, hal-hazırda da vəsi dünyadan getmişdir, yalnız nəzarətçi sağdır. Nəzarətçi o torpağın pulu ilə meyyitin tərəfindən yenidən həcc əməlini yerinə yetirməlidirmi? Yoxsa torpağın pulunu əmək haqqı olaraq meyyitin tərəfindən həcc əməllərini yerinə yetirdiyini iddia edən şəxsə verməlidir? Yoxsa bu barədə ona bir şey vacib deyil?

Cavab: Əgər meyyitin öhdəsində həcc qalmış olsa və onu naibin vasitəsi ilə həccin yerinə yetirilməsini vəsiyyət etməklə bəriüz-zimmə olmasını istəyirsə, üçüncü bir şəxs meyyitin tərəfindən naib olaraq həcci yerinə yetirsə, onun üçün kifayətdir, lakin o şəxsin heç kimdən əmək haqqı tələb etməyə haqqı yoxdur. Əks halda nəzarətçi və vəsi meyyitin vəsiyyətinə əməl etməli, o torpağın pulu ilə həcc əməllərini yerinə yetirməlidirlər. Əgər vəsi vəsiyyətə əməl etməmişdən qabaq ölərsə, nəzarətçinin vəsiyyətə əməl etmək üçün şəriət hakiminə müraciət etməsi vacibdir

---

Sual: **1867**: Vərəsələr, vəsini meyyitin tərəfindən qəza oruc-namazlarını yerinə yetirmək üçün müəyyən məbləğ verməyə vadar edə bilərmi? Vəsinin bu barədəki vəzifəsi nədir?

Cavab: Meyyitin vəsiyyətlərinə əməl etmək vəsinin məsuliyyətlərinin bir hissəsi olub onun öhdəsindədir və onun ayırd etdiyi məsləhət əsasında ona əməl etməlidir və vərəsələrin bu işə qarışmağa haqqı yoxdur.

Sual: **1868**: Vəsiyyət edən şəxs neft anbarlarının bombardman edilməsi zamanı şəhid olmuşdur, vəsiyyət sənədi də onun yanında imiş və o hadisədə yanmış, yaxud itmişdir, heç kim də onun məzmunundan agah deyil. Hal-hazırda vəsi təkcə onunmu, yoxsa başqalarının da vəsi olduğunu bilmir. Onun vəzifəsi nədir?

Cavab: Vəsiyyətin əsli sübuta yetdikdən sonra vəsi özünün vəsilikdən çıxarılmasına yəqin etməyincə, dəyişiklik hasil olmasına yəqin etmədiyi hallarda vəsiyyətə əməl etməsi vacibdir.

---

Sual: **1869**: Vəsiyyət edən şəxsin, öz vərəsələrindən başqalarını özünə vəsi seçməsi caizdirmi? Bir kəsin onun bu işinə etiraz etməyə haqqı varmı?

Cavab: Vəsinin, vəsiyyət edən şəxsin bu işə layiq gördüyü şəxslər arasından seçilib təyin olunması onun öz nəzərinə bağlıdır və öz vərəsələrindən başqasını özünə vəsi seçməsinin eybi yoxdur, vərəsələrin də bu işə etiraz etməyə haqqı yoxdur.

---

Sual: **1870**: Vərəsələrdən bəzilərinin başqaları ilə məsləhətləşmədən, yaxud vəsinin razılığını almadan meyyitin malından onun üçün ziyafət adı ilə xərcləməsi caizdirmi?

Cavab: Əgər onların bu işdən məqsədi vəsiyyətə əməl etmək olsa, bu iş meyyitin vəsisinin öhdəsinədir və onların vəsinin razılığını almadan təkbaşına bu işi görməyə haqları yoxdur. Əgər meyyitin mirasından vərəsələrin irsi hesabına xərcləmək məqsədləri olsa, bu, sair vərəsələrin razılığına bağlıdır. Əgər onlar razı olmasalar, başqalarının irsdən olan payı nisbətində bu işin hökmü qəsbdir.

---

Sual: **1871**: Bir nəfər öz vəsiyyətnaməsində qeyd edib ki, filankəs onun birinci, digər bir şəxs ikinci, başqa birisi də üçüncü vəsisidir. Bu üç nəfərin hər üçü birlikdə vəsidirlər, yoxsa təkcə birincisi vəsidir?

Cavab: Bu məsələ, vəsiyyət edən şəxsin öz nəzərinə bağlıdır. Mövcud şahid və əlamətlərdən məqsədin qeyd olunan üç nəfərin birlikdə (cəm halında), yoxsa bir-birinin ardınca (növbə ilə) olması məlum olmayınca, gərək vəsiyyətə birlikdə əməl etmək barədə razılığa gəlsinlər.

---

Sual: **1872**: Vəsiyyət edən şəxs üç nəfəri birlikdə özü üçün vəsi (canişin) təyin etsə, amma onlar vəsiyyətə necə əməl etməkdə razılığa gəlməsələr, onların arasında olan münaqişə necə həll edilməlidir?

Cavab: Vəsilərin çoxluğu fərz olunan halda, vəsiyyətə necə əməl edilməsi ilə əlaqədar fikir ayrılığı və ixtilaf yaransa, onların şəriət hakiminə müraciət etmələri vacibdir.

---

Sual: **1873**: Mən atamın böyük oğluyam. Onun qəzaya getmiş namaz və oruclarını yerinə yetirmək şərən mənə vacibdir. Atamın bir neçə il namaz-oruc qəzası olduğu halda onun yalnız bir illik oruc-namazının qəzasını yerinə yetirməyi vəsiyyət etmişsə, mənim vəzifəm nədir?

Cavab: Dünyadan gedən şəxs qəzaya getmiş oruc-namazını öz mirasının üçdə birindən yerinə yetirməyi vəsiyyət etmişsə, onda onun üçdə birindən bu işləri yerinə yetirmək üçün bir şəxsi əcir tutun. Əgər onun qəzaya gedən oruc-namazı vəsiyyət etdiyindən artıq olarsa, sizə, hətta öz şəxsi malınızdan olsa belə, bir nəfəri əcir tutaraq atanın oruc-namazlarının qəzasını yerinə yetirməyiniz vacibdir.

---

Sual: **1874**: Bir nəfər özünün böyük oğluna vəsiyyət edir ki, əz torpaq sahələrində birini satıb pulu iləonun tərində həcəgedilsin. Oğlu da atası üçün bu işi görəcəyinə söz verir. Lakin həcc və ziyarət müəsisəsi tərəfindən vaxtında səfər icazəsi ala bilmədiyindən, həmçinin, son zamanlar həccin səfər xərcləri bahalandığından və həmin torpaq sahəsinin pulu həcc səfərinə kifayət etmədiyindən, onun özü tərəfindən vəsiyyətə əməl edilməsi qeyri-mümkün olmuşdur. Ona görə də başqa bir şəxsi, atasının tərəfindən həccə göndərmək məcburiyyətində qalıb, lakin torpaq sahəsinin pulu niyabət həccinin qiymətini ödəmir. Bu halda vəsiyyətə əməl olunsun deyə, sair vərəsələrin böyük oğula kömək etməsi vacibdirmi, yoxsa bu işin görülməsi yalnız ona vacibdir? Çünki hər bir halda atası tərəfindən həccə o getməlidir.

Cavab: Sualın fərz olunduğu halda, həcc xərclərindən heç birini vermək sair vərəsələrə vacib deyil. Lakin həcc, vəsiyyət edən şəxsə vacib olmuşdursa və onun tərəfindən həccə gedilməsi üçün təyin olunan torpaq sahəsinin pulu hətta miyqatdan olsa belə, niyabət həccinin xərclərinə çatmırsa, bu halda meyyitin mirasının əslindən miyqati həccin xərclərini kamil etmək vacibdir.

---

Sual:**1875**: Ölən şəxsin əvvəllər şəri vergilər (xums-zəkat) hesabından müəyyən məbləğdə pul verməsinə dair bir qəbz tapılsa, yaxud bir neçə nəfər onun öz haqqını verdiyinə şahidlik etsələr, onda meyyitin varislərinə, onun mirasından bu şəri vergiləri vermələri vacibdirmi?

Cavab: Sadəcə olaraq, meyyitin şəri vergilərdən müəyyən məbləğ verməsini göstərən qəbzin tapılması, yaxud şahidlərin onun vergiləri verməsinə dair şəhadət verməsi onun bu barədəki vəzifəsinin götürülməsinə, yaxud da şəri vergilərin onun mal-dövlətinə aid olmasına şəri bir höccət və dəlil sayıla bilməz. Deməli, əgər onun özü, sağlığında şəri vergilərdən müəyyən məbləğdə borclu olmasını etiraf etsə, yaxud öz vəsiyyətnaməsində şəri vergilərdən borclu olmasını, yaxud onun mirasında olmasını etiraf etsə, yaxud da varislər üçün bu barədə yəqin hasil olsa, onda vərəsələrə, meyyitin iqrar etdiyi, yaxud özlərinin yəqin etdikləri məbləği meyyitin mirasının əslindən vermələri vacibir. Əks halda isə, onlara heç bir şey vacib deyil.

---

Sual: **1876**: Bir nəfər mal-dövlətinin üçdə birinin özü üçün xərclənməsini vəsiyyət edir. Vəsiyyətnamənin haşiyəsində də qeyd edir ki, onun bağdakı evi üçdə bir xərclərinin təmin olunması üçündür, vəsi də onun vəfatından iyirmi il sonra o evi satıb pulunu ona xərcləməlidir. Bu halda meyyitin malının üçdə biri bütün mirasından, istər ev və sair mal-dövlətindən olmaqla hesablamaq lazımdırmı ki, evin qiyməti üçdə birdən az olduqda (meyyitin malının) üçdə biri onun sair mal-dövlətindən təkmil olunsun, yoxsa malın üçdə biri elə həmin evdən ibarətdir və meyyitin vərəsəsindən, malın üçdə biri kimi başqa heç bir şey götürülməməlidir?

Cavab: Əgər ölən şəxs, öz vəsiyyəti və vəsiyyətnaməsinin haşiyəsində yazdığı ilə yalnız evi üçdə bir kimi özü üçün təyin etmək istəmişsə və o evin dəyəri meyyitin borclarını ödədikdən sonra onun mirasının məcmusunun üçdə birindən artıq olmasa, bu halda elə o, meyyitə məxsus olan üçdə birdir və meyyitə məxsusdur. Həmçinin, tərəkənin üçdə birini özü üçün vəsiyyət etməsindən sonra, həmin evi üçdə birə sərf edilməsi üçün təyin etmiş olsa və evin dəyəri meyyitin borclarını ödədikdən sonra mirasın məcmusunun üçdə biri qədər olsa, hökm eynidir. Əks halda isə, tərəkədən evə müəyyən bir şey əlavə edilməlidir ki, o ikisinin məcmusu mirasın üçdə biri qədər olsun.

---

Sual: **1877**: İrsin (varislər arasında) bölüşdürülməsindən 20 il və meyyitin qızının öz payını satmasından 4 il sonra onun anası öz ərindən bir vəsiyyətnamə qaldığını bildirir. Bu vəsiyyətnaməyə əsasən, ərinin bütün mal-dövləti ona çatmalıdır. Eləcə də etiraf edir ki, əri vəfat edən vaxtdan etibarən bu vəsiyyətnamə onun əlində imiş, lakin hazırkı vaxta qədər heç kimə bu haqda bir söz deməmişdir. O vəsiyyətnaməyə əsasən, irsin bölüşdürülməsi, eləcə də meyyitin qızının irsdən öz payına düşən evi satmasının qanunsuz olmasına hökm oluna bilərmi? Qanunsuz olduğu fərz edilən təqdirdə, üçüncü bir şəxsin meyyitin qızından aldığı mülkün rəsmi sənədinin, qız ilə anası arasında yaranan mübahisə səbəbi ilə qüvvədən düşməsi düzgündürmü?

Cavab: Qeyd olunan vəsiyyətin düzgün olması və mötəbər dəlil əsasında sübut olunmasını fərz etdikdə, ana, ərinin vafat etdiyi vaxtdan etibarən irsin bölüşdürüldüyü vaxta qədər bu işdən xəbərdar olmasına və qızının payının ona verildiyi vaxtdan öz payını başqasına satdığı vaxta qədər vəsiyyətnamə onun əlində olmasına baxmayaraq, bununla belə vəsiyyətnamənin varlığı barədə sükut edib bir söz deməyibsə, habelə heç bir maneə olmadığı halda qızının payının ona verilməsinə və qızın da o evi satmasına etiraz etməyibsə, bütün bunlar ananın qızın mirasdan öz malını alıb başqasına satmasına razı olduğunu göstərir. Bundan sonra ananın nə qızına verdiyi şeyi, nə də müştəridən bir şeyi tələb etməyə haqqı yoxdur. Bu halda qızın bu al-veri qanunauyğundur, ev də müştərinindir.

---

Sual: **1878**: Şəhidlərdən biri öz atasına etdiyi vəsiyyətində yazıb ki, atası onun yaşadığı mənzili satmadığı halda borclarını ödəyə bilməsə, onu satıb borclarını ödəsin. Həmçinin vəsiyyət etmişdir ki, (evi satdıqdan sonra) onun müəyyən bir məbləğini xeyir işlərə xərcləsin, evin yerinin pulunu isə dayısına versin, anasını həccə göndərsin, habelə (bu pulla) bir neçə illik oruc-namazının qəzasını yerinə yetirsin. Sonra onun (şəhidin) qardaşı, onun dul qalmış arvadı ilə evlənib elə onun evində məskunlaşdı. Həm də bilir ki, şəhidin arvadı o evin bir hissəsini özünə almışdır. Qardaşı da həmin evin təmir olunmasına müəyyən məbləğ pul xərcləyib, eləcə də o, şəhidin oğluna məxsus olan bir qızıl sikkəni alıb evin təmir xərclərinə istifadə edib. Bu halda onun şəhid olmuş qardaşının evindən, eləcə də onun oğlunun mal-dövlətindən istifadə etməsinin hökmü nədir? Onun, qardaşı oğlunun təlim-tərbiyəsini öhdəsinə aldığını və onun məişət xərclərini də təmin etdiyini nəzərə alsaq, onun şəhidin oğluna məxsus olan aylıq maaşından istifadə etməsinin hökmü nədir?

Cavab: Bu halda vacibdir ki, əziz şəhidin bütün mal-dövləti hesablanılsın, onun bütün malı, borcları ödəndikdən sonra yerdə qalan miqdarın üçdə biri onun vəsiyyət etdiyi şeylərin yerinə yetirilməsinə sərf edilməlidir. Yəni, onun oruc-namazlarının qəzasını (bir kəsə pul verib) qıldırmalı, anasının həcc səfərinin xərclərini verməli və s. Sonra mirasın üçdə ikisi və əvvəlki üçdə birindən artıq qalan hissəsi şəhidin varisləri – atası, anası, oğlu və arvadı arasında Quran və Peyğəmbər sünnəsi əsasında bölünməlidir. Şəhidin evi və onun mülkiyyətində olan bütün şeylərdən istifadə varislərin və kiçik uşağın şəri qəyyumunun icazəsi ilə olmalıdır. Şəhidin qardaşının kiçik uşağının şəri qəyyumunun icazəsi olmadan evin təmir işlərinə xərclədiyi şeyləri də uşağın malından götürməyə haqqı yoxdur. Eləcə də uşağın şəri qəyyumunun icazəsi olmadan qızıl sikkəni, uşağın aylıq təqaüdünü evin təmirinə və öz xərcliyinə, hətta uşağın öz xərcləri üçün belə, istifadə etməsi caiz deyil. ilə xərcləyə bilər. Əks halda, o mala zamindir və onu sağirə qaytarmalıdır. Həmçinin evi də varislərin və səğirin şəri qəyyumunun izn və icazəsi ilə olmalıdır.

---

Sual: **1879**: Bir nəfər öz vəsiyyətnaməsində qeyd edib ki, onun üç hektarlıq meyvə bağı belə bölüşdürülməlidir ki, onun iki hektarı öz vəfatından sonra övladlarına çatmalı, yerdə qalan bir hektarı isə özünə məxsusdur və vəfatından sonra vəsiyyətnamədə qeyd olunan yerlərdə sərf olunmalıdır. Lakin o şəxs vəfat etdikdən sonra məlum olub ki, meyvə bağı iki hektardan da azdır. Buna əsasən, onun vəsiyyətnamədə mal-dövləti barədə yazdığı kimi, onun vəsiyyəti, əmlakıhaqda bölgü sayılırmı, yoxsa vəfatından sonra öz mal-dövlətinə vəsiyyət sayılır?

İkincisi, meyvə bağının iki hektardan az olması məlum olduqdan sonra onun hamısı övladlara məxsus olur və özü üçün vəsiyyət etdiyi bir hektar məsələsi qüvvədən düşür, yoxsa vəsiyyətə başqa cür əməl etmək lazımdır?

Cavab: Razılaşmanın (bölgünün) vəsiyyət edən şəxsin sağlığında şərən düzgün şəkildə gerçəkləşməsi və bu, razılaşan tərəfin onun sağlığında qəbul edib razılaşması aşkar olmayınca, onun qeyd etdikləri vəsiyyət hesab olunmalıdır. Buna əsasən, onun meyvə bağında həm övladları, həm də özü üçün nəzərdə tutduğu şeylər barəsində etdiyi vəsiyyət mirasın məcmusunun üçdə biri haqda qüvvədədir. Üçdə birdən artıq miqdarda isə varislərin icazəsinə bağlıdır. İcazə verməsələr, üçdə birdən artıq hissə onların irsi olacaq.

---

Sual: **1880**: Bir şəxs özünün bütün var-dövlətini öz oğlunun adına sənədləşdirir və şərt edir ki, onun vəfatından sonra, o, bacılarının irsdən olan payının əvəzində müəyyən məbləğdə nağd pul versin. Ata vəfat edən zaman qızlardan biri orada hazır olmadığından, öz haqqını ala bilməyib. O, şəhərə qayıtdıqdan sonra qardaşından öz haqqını almaq istədikdə, qardaşı heç nə vermədi. Amma indi bir neçə il keçdikdən sonra və ona vəsiyyət olunan məbləğ həddindən artıq dəyərdən düşdükdən sonra bacısı bildirmişdir ki, o məbləğin həmin vaxtdakı dəyərini qaytarmaq istəyir, qardaşı isə bu işə razılıq vermir və bacısını, ondan sələm almaqda ittiham edir. Bu məsələnin hökmü nədir?

Cavab: Əgər meyyitin mirasının oğlan övladına təhvil verilməsi, eləcə də həmin maldan müəyyən məbləğin qız varislərinə verilməsi barədəki vəsiyyət şəri cəhətdən tam düzgün olmuşsa, qızlardan hər birinin yalnız vəsiyyət olunan miqdarı almaq haqları vardır. Amma əhvət nəzər budur ki, həmin məbləğin verildiyi vaxtdakı qiyməti, vəsiyyət edənin vəfat etdiyi vaxta nisbətən aşağı düşmüş olsa, tərəflər bu iki qiymətin fərqi barəsində razılığa gəlməlidirlər və bu, sələm sayılmır.

---

Sual: **1881**: Ata-anamın sağlığında bacılarımın şahidliyi əkin sahəsinin bir hissəsini onların mirasının üçdə biri adı ilə ayırmışlar ki, vəfatlarından sonra onlar üçün kəfən və dəfn işlərinə, qəzaya getmiş oruc-namazlarına və s. işlərə sərf edilsin. Mən onların yeganə oğlu olduğum halda bu işləri mənə vəsiyyət etdilər. Onların vəfatından sonra nağd pul əldə olmadığından, vəsiyyət olunan işlərin hamısını öz xərcimlə yerinə yetirmişəm. Xərclədiyim bu məbləği qeyd olunan üçdə birdən götürə bilərəmmi?

Cavab: Sən meyyitin həmin işlərdə vəsiyyət hesabından və üçdə birdən götürməyi nəzərdə tutub xərcləmisənsə, onda həmin məbləğin meyyitin malının üçdə birindən götürməyin caizdir, əks halda isə caiz deyil.

---

Sual: **1882**: Bir nəfər öz arvadının yaşadığı evin üçdə birini onun vəfatından sonra başqa ərə getməməsi şərti ilə ona (öz arvadına) vəsiyyət edir. Onun vəfat iddəsi tamam olduqdan sonra ərə getmədiyini və mövcud əlamətlərdən də sonradan ərə getməyəcəyi məlumdursa, onda bu vəsiyyətin qüvvəyə minməsi ilə əlaqədar olaraq vəsiyyət olunan şəxsin və sair varislərin vəzifəsi nədir?

Cavab: Hal-hazırda onlara vacibdir ki, vəsiyyət olunan mülkü vəfat edənin arvadına versinlər. Amma mülkün onun ixtiyarına keçməsi ərə getməməsi ilə şərtlənir. Belə ki, sonradan ərə getsə, vərəsələrin bu danışığı pozub mülkü geri almağa haqları vardır.

---

Sual: **1883**: Atamızdan bizə irs çatan mal-dövləti bölüşdürmək istəyirik. Bu da atama babamızdan irs çatdığına görə bizimlə əmim və nənəm arasında müştərək idi. Onlar da o əmlakı babamdan irs aparmışdılar. Bu irsi bölüşdürmək istədikdə, əmim və nənəm babamın 30 il bundan əvvəl yazdığı vəsiyyətnaməsini gətirdilər. Babam onda əmim və nənəmin hər birinə, onun mirasından olan irs paylarından əlavə, müəyyən məbləğ nağd pul da verilməsini vəsiyyət etmişdi. Amma əmim və nənəm bu məbləği hazırkı dəyərdə olan pula çevirmiş və aramızda müştərk olan maldan, vəsiyyət olunan məbləğdən qat-qat artıq olan malı özlərinə aid edirlər. Şəri baxımdan onların bu işi düzdürmü?

Cavab: Ehtiyat nəzər budur ki, öz aralarında, pulun dəyərinin fərqlənməsi ilə əlaqədar öz aralarında razılaşsınlar. Əgər bu barədə bir qanun varsa, ona riayət olunmalıdır.

---

Sual: **1884**: Əziz şəhidlərdən biri, evi üçn aldığı xalçanı müqəddəs Kərbəla şəhərində imam Hüseyn (ə)-ın məqbərəsinə verilməsini vəsiyyət edib. Hal-hazırda biz onu vəsiyyətə əməl olunması mümkün olan vaxta qədər evdə saxlasaq, tələf olması ehtimalı var. Ona zərər və ya xəsarət dəyməsin deyə, onu məhəllə məscidi, yaxud hüseyniyyəsinə sala bilərikmi?

Cavab: Vəsiyyətə əməl olunması mümkün olan vaxta qədər xalçanın qorunub saxlanması onun müvəqqəti olaraq məscidə, yaxud hüseyniyyəyə salınmasına bağlıdırsa, bu işin heç bir eybi yoxdur.

---

Sual: **1885**: Bir nəfər özünün bəzi mülkünün qazancının bir miqdarının məscidə, hüseyniyyəyə, dini məclislərə, xeyriyyə işlərinə və s. kimi yerlərə xərclənməsini vəsiyyət edib. Amma onun vəsiyyət etdiyi mülk sair mülkləri ilə birlikdə qəsb edilib. Onun qəsbkardan geri alınması da çoxlu xərc tələb edir. Həmin xərcləri, onun vəsiyyət etdiyi miqdardan götürmək olarmı? Həmçinin, bu mülkün qəsbkardan alınmasının sadəcə mümkünlüyü vəsiyyətin düzlüyü üçün kifayətdirmi?

Cavab: Bu əmlakı qəsb edənin əlindən almaq üçün lazım olan xərclərin vəsiyyət olunan mülkün qazancından həmin miqdarda götürülməsinin heç bir eybi yoxdur. Mülkün vəsiyyət edilməsinin düz olmasında onun vəsiyyət olunan yerlərdə, hətta onu qəsb edənin əlindən almaq üçün pul xərcləmək və səy etdikdən sonra istifadə olunmağa yararlı olması kifayətdir.

---

Sual: **1886**: Bir nəfər özünün daşınar və daşınmaz əmlakının hamısını öz oğluna vəsiyyət edir, nəticədə altı qızını irsdən məhrum edir. Bu vəsiyyət qanunidirmi? Əgər qüvvədən düşürsə, onda bu irs altı qızla bir oğlan arasında necə bölünməlidir?

Cavab: Qeyd olunan bu vəsiyyətin ümumi halda düz olmasının heç bir eybi yoxdur, amma bu, mirasın məcmusunun üçdə birində keçərlidir. Bundan artıq miqdarda isə bütün varislərin icazəsinə bağlıdır. Əgər qızlar bu işə razı olmasalar, onların irsdən payı mirasın üçdə ikisindən verilməlidir. Buna əsasən, atanın mal-dövləti 24 yerə bölünür. Oğlana vəsiyyət edilən payı $^{8}\div 24$, tərəkənin üçdə ikisindən olan payı isə $^{4}\div 24$ , qızın payı isə $^{2}\div 24$olur. Başqa sözlə, mirasın məcmusunun yarısı oğlana məxsus olur, yarısı isə altı qızın arasında bölünür.

# Qəsb

---

Sual: **1887**: Bir nəfər bir qədər torpaq sahəsini özünün kiçik oğlunun adına alır və adi sənəddə oğlunun adına belə yazdırır: “Satan filankəs, müştəri isə öz oğlu filankəsdir”. Kiçik oğlan həddi-büluğa çatandan sonra bu torpaq sahəsini başqasına satır, amma atanın sair varisləri bu torpağın alındığı zaman yazılan adi sənəddə atanın adı olmadığı halda atadan onlara çatan irs olduğunu iddia edib öz ixtiyarına keçirib. Bu halda, onlar torpağı almaq istəyən müştərinin işinə maneçilik törədə bilərlərmi?

Cavab: Kiçik oğlun adının sadəcə müştəri kimi alış-veriş sənədində olması onun o torpağa malik olmasına əsas ola bilməz. Belə ki, atanın öz malından aldığı bu torpağı öz oğlu üçün hədiyyəə etməsi və ya (razılaşma yolu ilə) ona verməsi sübuta yetsə, bu halda torpaq sahəsi onun olacaqdır. O da həddi-büluğa çatdıqdan sonra şəri nöqteyi-nəzərdən düzgün olan tərzdə ikinci bir müştəriyə satsa, heç kəsin mane olub torpaq sahəsini ondan almağa haqqı yoxdur.

---

Sual: **1888**: Mən bir qədər torpaq sahəsi almışam. Ora məndən qabaq bir neçə müştərinin əlindən gəlib keçmişdir. Mən onu aldıqdan sonra orada bir ev tikmişəm. İndi bir nəfər iddia edir ki, bu torpaq sahəsi onun mülküdür və onu İslam inqilabından qabaq rəsmi dövlət sənədi ilə öz adına sənədləşdiribdir. İndi mənim və bir neçə qonşumun əleyhinə məhkəməyə şikayət edib. O şəxsin iddiasını nəzərə alaraq mənim bu torpaq sahəsində etdiyim təsərrüflər qəsb sayılırmı?

Cavab: Torpağın əvvəlki şəxsdən alınması şəriət qanunlarının zahirinə əsasən düzgün sayılır və torpaq sahəsi müştərinin mülküdür. Torpağa əvvəlki malikiyyətini iddia edən şəxs məhkəmədə şəri cəhətdən öz mülkü olmasını isbat etməyincə, hazırda torpaq ixtiyarında olan şəxsə və hazırkı sahibinə heç bir vəchlə mane ola bilməz.

---

Sual: **1889**: Adi vəsiyyət sənədində atanın adına olan bir torpaq sahəsi vardır. Bir müddətdən sonra oranı kiçik oğlunun adına rəsmi sənədləşdirir. Lakin hələ bu torpaq sahəsi atanın ixtiyarındadır. Oğlu həddi-büluğa çatandan sonra iddia edir ki, torpaq sahəsi onun mülküdür, çünki rəsmi dövlət sənədində onun adına yazılmışdır. Ata isə deyir ki, oranı öz pulu ilə və özü üçün almışdır, vergi rüsumu nisbətən az olsun deyə, oğlunun adına saldırıb. Əgər oğlu o torpaq sahəsini atanın icazəsi olmadan öz ixtiyarına keçirib ondan istifadə etsə, qasib (qəsb edən) sayılırmı?

Cavab: Torpaq sahəsini özü üçün alan ata, oğlun həddi-büluğa çatdığı vaxtdan sonraya qədər onda özü təsərrüf edirdisə, bu halda oğul atanın həmin sahənin ona hədiyyə etdiyini və mülkiyyəti onun ixtiyarına keçirməsini isbat etməyincə, sadəcə rəsmi dövlət sənədində onun adına olmasını əsas tutaraq atasına, onun öz mülkündə mane olub ondan istifadə etməsinin qarşısını almağa haqqı yoxdur.

---

Sual: **1890**: Bir nəfər əlli il bundan qabaq bir qədər torpaq sahəsi almışdır. Onun mülkiyyət sənədində uca dağ həmin sahənin sərhəddi kimi qeyd olunduğunu əsas tutaraq (onun sahibi) hal-hazırda iddia edir ki, ümumi torpaq sahəsindən milyonlarla kv. metr, eləcə də onun aldığı yer ilə uca dağ arasında yerləşən məntəqədə tikilən onlarla qədim ev onun mülküdür. Həm də iddia edir ki, bu ərazi və evlərin əhalisinin qıldığı namazlar qəsbi yerdə qılındığı üçün batildir. Qeyd olunmalıdır ki, bu ərazilərdə yerləşən qədim yaşayış evlərindən heç bir şəkildə istifadə (təsərrüf) etmirdi. Eləcə də yüz illərdən bəri o ərazilərin vəziyyətini təyin edəcək dəlillər də yoxdur. Bu məsələnin hökmü nədir?

Cavab: Alınan yer ilə sənəddə sərhəd kimi qeyd olunan dağın arasında yerləşən ərazilər, konkret bir şəxsin mülkü olmayan yerlərdən olmuşsa, yaxud əvvəllər bir kimsənin ixtiyarında olduqdan sonra onlardan hal-hazırda istifadə edənlərin ixtiyarına (mülkiyyətinə) keçibsə, bu halda hər kəs hal-hazırda öz ixtiyarında olan o torpaqlardan və ya evlərdən hər hansı miqdarda olursa olsun, bir malik kimi istifadə edirsə, onlarda mülkiyyət iddiasında olan şəxs, səlahiyyətli məhkəmədə və şəriət qanunlarına əsasən, öz iddiasını isbat etməyincə, onların əlində olanların bu mülklərdə etdiyi təsərrüflərin halal və mübah olmasına hökm olunur.

---

Sual: **1891**: Hakimin müsadirə olunmasına hökm çıxardığı bir torpaq sahəsində əvvəlki sahibinin razılığı olmadan məscid tikmək caizdirmi? Bu kimi məscidlərdə namaz və sair dini ayinləri yerinə yetirmək caizdirmi?

Cavab: Əgər o torpaq sahəsi, şəriət hakiminin hökmü, yaxud İslam dövlətinin qüvvədə olan qanunu əsasında müsadirə olunubsa, yaxud da onu iddia edənlərin əvvəllər o torpağa şərən malik olmaları sübuta yetməyibsə, o yerdə təsərrüf etmək onda mülkiyyət iddiası edən şəxsin, yaxud əvvəlki sahibinin icazəsinə bağlı deyil. Buna görə də orada məscid tikilməsinin və (tikildikdən sonra) orada namaz və sair kimi ibadətlərin yerinə yetirilməsinin heç bir eybi yoxdur.

---

Sual: **1892**: Bir qədər torpaq sahəsi bir şəxsin nəsilbənəsil vərəsələrinə irs keçmiş, sonra bir nəfər onlardan qəsb edib özü ona sahib olmuşdur. İslam inqilabının qələbəsindən və hökumət qurulduqdan sonra isə həmin torpaq sahəsini qəsb edən şəxsdən almışdır. Bu halda həmin mülk şərən vərəsələrə qayıdırmı, yoxsa onu dövlətdən (pulla) almaqda vərəsələr başqalarına nisbətən myəyyən gyzəşt haqqına malikdirlər?

Cavab: Sadəcə əvvəllər irs yolu ilə orada təsərrüf etmək nə mülkiyyətə, nə də onu (pulla) almaqda myəyyən gyzəşt haqqına səbəb olmaz. Lakin bunun əksi sübuta yetməyincə, bu məsələ mülkiyyətə dair şəri bir dəlil (əmarə) sayılır. Deməli, əgər vərəsələrin oraya sahib olmaması sübut olunsa, yaxud başqalarının mülkiyyətində olması sübuta yetsə, bu halda vərəsələrin onun özünü, yaxud əvəzini tələb etməyə haqları yoxdur. Əks halda isə "zul-yəd" (ixtiyarında olan) qanununun tələbinə görə onun özünün, yaxud əvəzinin qaytarılmasını tələb edə bilərlər.

# Həcr (mal-dövlətdən istifadə etməkdən məhrum olunma) və həddi-büluğun əlamətləri

---

Sual: **1893**: Bir kişinin həddi-büluğa çatmış ruhi xəstə bir oğlu və bir qızı vardır. Oğlan ruhi xəstədir. Onlara atası qəyyumluq edir. Atanın vəfatından sonra bacısının səfeh qardaşın mal-dövlətində ona qəyyum kimi təsərrüf etməsi caizdirmi?

Cavab: Bacı və qardaşın səfeh qardaş üzərində qəyyumuq haqqı yoxdur. Səfeh oğulun ata tərəfdən babası olmasa və atası da bir kimsənin ona qəyyum olmasını vəsiyyət etməmişsə, bu halda onun özünün və mal-dövlətinin qəyyumluğu şəriət hakiminin öhdəsinə düşür.

---

Sual: **1894**: Qızların və oğlanların həddi-büluğa çatmasında şəmsi il əsas götürülür, yoxsa qəməri ili?

Cavab: Bu məsələdə əsas qəməri ilidir.

---

Sual: **1895**: Uşağın həddi-büluğa çatıb-çatmamasını bilmək üçün qəməri tarixinə uyğun olaraq onun doğulduğu il, ay və günü necə təyin etmək olar?

Cavab: Uşağın təvəllüd tarixi şəmsi tarixilə məlum olduqda, siz bunu qəməri tarixilə şəmsi tarixinin arasında olan il fərqini hesablamaqla əldə edə bilərsiniz.

---

Sual: **1896**: Oğlan uşağı on beş yaşına çatmadığı halda möhtəlim olursa, onun həddi-büluğa çatmasına hökm etmək olarmı?

Cavab: Möhtəlim olmaqla onun həddi-büluğa çatmasına hökm olunur. Çünki möhtəlim olmaq şəri cəhətdən həddi-büluğa çatmağın əlamətlərindən biridir.

---

Sual: **1897**: (Həddi-büluğ yaşına çatmaqdan başqa) digər iki əlamətin daha tez zahir olmasına onda bir faiz ehtimal verilsə, bunun hökmü nədir?

Cavab: Bu iki əlamətin tez zahir olmasına sadəcə ehtimal vermək həddi-büluğa çatmağa hökm edilməsinə kifayət deyil.

---

Sual: **1898**: Bizim müəssisənin qız və oğlanlarından bir neçəsi təvəllüd tarixlərinə görə həddi-büluğa çatmışlar. Lakin onların huşlarında yaranan anormallıq və əqli zəifliklər müşahidə olunduğuna görə, onların huş və hafizəsi qüvvəsini yoxlamaq məqsədi ilə onların üzərində tibbi müayinə aparılıb. Nəticədə bir və ya bir neçə il bundan əvvəl əqli cəhətdən gerilik (çatışmamazlıq) olduğu müəyyən edilib. Lakin onların bəzilərini dəli hesab etmək olmaz, çünki onlar dini və ictimai məsələləri müəyyən həddə qədər dərk edirlər. Bu mərkəzin tibbi diaqnostika kimi verdiyi bu analiz (nəzər) o şagirdlər üçün əsas ola bilərmi?

Cavab: İnsana şəri vəzifələrin vacib olmasında əsas ölçü şəri baxımdan həddi-büluğa çatması və camaat arasında ağıllı hesab olunmasıdır. Amma idrak və zəkanın (huşun) hansı dərəcədə olmasına gəldikdə isə, o, bu məsələdə mötəbər sayılmır və heç bir təsiri də yoxdur.

---

Sual: **1899**: Bəzi hökmlərdə müməyyiz uşağın xüsusunda "yaxşını pisdən seçə bilən uşaq" - deyə qeyd olunur. Yaxşı və pis dedikdə məqsəd nədir? Mümәyyiz olmaq yaşı neçə yaşdır?

Cavab: Yaxşı və pis dedikdə məqsəd, camaat arasında pis və ya yaxşı sayılan şeylərdir. Bu barədə uşağın yaşadığı şərait, adətlər, ədəb qaydaları, yerli ənənələr və s kimi şeylər nəzərə alınmalıdır. Mümәyyizlik yaşı isə şəxslərin istedad, qabiliyyət, idrak və zəkasına (huşuna) əsasən müxtəlif ola bilər.

---

Sual: **1900**: Qız uşağı doqquz yaşına çatmazdan əvvəl özündə heyzin əlamətlərinə malik qan görsə, bu onun həddi-büluğa çatmasını göstərirmi?

Cavab: Bu, şəri cəhətdən qızın həddi-büluğa çatması əlaməti deyil, o qanda hətta heyzin əlamətləri olsa belə, heyzin hökmləri ona şamil olmur.

---

Sual: **1901**: Məhkəmə orqanları tərəfindən müəyyən səbəblərə görə öz mal-dövlətindən istifadə etməkdən qadağan olunan şəxs, öz vəfatından qabaq malından müəyyən məbləği, əvvəllər ona etdiyi xidmətlər müqabilində ona hörmət etmək üçün qardaşı oğluna versə və qardaşı oğlu da bu məbləği əmisinin vəfatından sonra onun qüsl-kəfən işlərinə və onun xüsusi ehtiyaclarının təmin olunmasına sərf etsə, məhkəmə orqanlarının bu məbləği onun qardaşı oğlundan alması caizdirmi?

Cavab: O şəxsin öz qardaşı oğluna verdiyi şeylər həcr hökmünün şamil olduğu şeylərdən olsa, şərən onu qardaşı oğluna verməyə haqqı yoxdur, qardaşı oğlunun da bu mal-dövlətdə təsərrüf etmək haqqı yoxdur, məhkəmə orqanlarının bu malı tələb edib ondan alması caizdir. Əks halda isə heç kimin, malı verilən şəxsdən almağa haqqı yoxdur.

# Müzaribə (verilən borc müqabilində əldə edilən qazanca şərik olmaq)

---

Sual: **1902**: Qızıl və gümüşdən başqa şeylərlə müzaribə caizdirmi?

Cavab: Hal-hazırda istifadə olunan kağız pullarla müzaribə etməyin heç bir eybi yoxdur. Amma əmtəə ilə müzaribə düzgün deyil.

---

Sual: **1903**: Müzaribə əqdindən istehsal, xidmət, paylama və ticarət işlərində istifadə etmək düzgündürmü? Hal-hazırda ticarətdən qeyri yerlərdə olan müzaribə əqdləri və müzaribə adı ilə aparılın müamilələr şərən düzdür, ya yox?

Cavab: Müzaribə əqdi yalnız sərmayənin alış-veriş yolu ilə olan ticarətdə istifadə olunan hallarına məxsusdur. Amma onun müzaribə adı ilə istehsal, xidmət, paylama və bu kimi yerlərdə istifadə olunmasında düzgün deyil. Lakin bu kimi işləri cüalə, razılaşma kimi şəri əqdlərin vasitəsilə və sair adlarla yerinə yetirməyin heç bir eybi yoxdur.

Sual: **1904**: Dostlarımdan birindən müəyyən məbləğ pulu müzaribə adı ilə almışam və onunla şərtləşmişəm ki, bir müddətdən sonra aldığımdan bir qədər artığını ona qaytaram. Başqa bir dostum ehtiyaclı olduğuna görə bu məbləğin bir hissəsini ona verdim və qərara alındı ki, o pulun qazancının üçdə birini o ödəsin. Bu iş düzgün sayılırmı?

Cavab: Bir kəsdən müəyyən qədər pul alıb bir müddətdən sonra həmin məbləğin, əlavə qazancla birlikdə qaytarılması əsasında olan razılaşma müzaribə sayılmır, əksinə o, haram olan sələmli (faizli) borcdur. Amma onun, müzaribə adı ilə alınması ondan borc almaq sayılmır, pul da işləyənin mülkiyyətinə keçmir və sahibinin mülkiyyətində qalır. İşləyənin yalnız onunla ticarət etmə haqqı var. Hər ikisi də razılaşdıqları əsasda qazancda şərik olurlar. Amil, pul sahibinin icazəsi olmadan ondan, başqasına borc verə bilməz, yaxud müzaribə adı ilə onun ixtiyarına verə bilməz.

---

Sual: **1905**: Bəzi şəxslərdən müzaribə adı ilə pul borc alınmasının hökmü nədir? Halbuki həmin şəxslər müzaribə adı ilə pul verir və şərt qoyurlar ki, malı verdikləri şəxsdən hər yüz min tüməndən müqavilə əsasında ayda 4-5 min tümən qazanc alsınlar.

Cavab: Qeyd olunan şəkildə borc verilməsi müzaribə sayılmır, əksinə, o, təklifi nəzərdən haram olan sələmdir (faizli borcdur), ünvanın zahiri formasının dəyişdirilməsi ilə o, halal olmur. Amma borc verilməsinin özü (əsli) düzgündür və borc alan şəxs də aldığı şeylərin sahibi olur.

---

Sual: **1906**: Bir şəxs başqasına müəyyən qədər pul verir ki, onunla ticarət etsin, hər ay, qazanc adı ilə müəyyən məbləği ona versin, ona dəyən xəsarətlərin hamısı da onun öhdəsinə olsun. Bu müamilə düzgün sayılırmı?

Cavab: Əgər şəri baxımdan səhih olan tərzdə malın müzaribəyə qoyulması barədə müqavilə bağlasalar və malı alan şəxsə, qazancdan onun payına düşəcək hissədən müəyyən qədərini aylıq olaraq avans verməsini, xəsarət dəyəcəyi təqdirdə isə işləyənin özünün onu qəbul edəcəyini şərt etsələr, bu müamilə düzdür. Əks halda isə bu müamiləni heç bir şəri yolla əsaslandırmaq olmaz.

---

Sual: **1907**: Bir şəxsə öz malımdan müəyyən məbləğ pul vermişəm ki, xaricdən nəqliyyat vasitəsi alıb gətirsin və ölkə daxilində satsın. Bu şərtlə ki, bu al-verdən əldə olunan qazancı aramızda bərabər şəkildə bölək. Bir müddətdən sonra o, mənə bir məbləğ pul verib dedi ki, bu sənin qazancdan olan payındır. Bu məbləği ondan almağım caizdirmi?

Cavab: Əgər sən sərmayəni ona müzaribə adı ilə vermisənsə, o da nəqliyyat vasitələri alıb satdıqdan sonra qazancdan olan hissəni sənə veribsə, bu sənə halaldır.

---

Sual: **1908**: Bir şəxs öz malından müəyyən məbləği başqasına verir ki, onunla ticarət etsin və hər ay ondan avans olaraq müəyyən məbləğdə pul alır. İlin axırında mədaxil və məxarici hesablayırlar. Pul sahibi və (al-ver edən) şəxs öz razılıqları əsasında mədaxil və məxarici qarşılıqlı olaraq bir-birinə bağışlasalar, onların bu işi düzdürmü?

Cavab: Ona verilən pul şəri baxımdan düzgün olan müzaribə kimi verilərsə, sərmayə sahibinin onu işlədən şəxsdən hər ay qazancdan avans olaraq bir məbləğ pul almasının, həmçinin hər birinin şərən digərindən alacağı miqdarla razılaşmasının heç bir eybi yoxdur. Amma malı verən şəxs onları borc kimi versə, borc alan şəxs də hər ay qazancın müəyyən məbləğini pul sahibinə verməsini şərt etsə və ilin axırında da hər birinin öz payına düşənləri bir-biri ilə razılaşsalar, onda bu, təklifi baxımdan haram olan sələmli (faizli) borcdur. Borc vermənin əslinin düzgün olmasına baxmayaraq, borc alınan zaman belə şərt batil sayılır, bundan sonra sadəcə olaraq qazanc və zərəri bir-birinə bağışlamaq əsasında olan razılaşmaları bu işin halal olmasına səbəb olmaz. Bu halda borc verən şəxsin qazancdan bir şey almağa haqqı yoxdur, eləcə də dəyən xəsarəti ödəmək onun öhdəsinə deyil.

---

Sual: **1909**: Bir şəxs başqasından müzaribə adı ilə bir qədər mal alır və belə şərtləşirlər ki, qazancın üçdə iki hissəsi al-ver edənin, üçdə bir hissəsi isə mal sahibinin olsun. Həmin şəxs o sərmayə ilə mal alıb öz şəhərinə göndərir, amma yolda onu oğurlayırlar. Xəsarəti kim ödəməlidir?

Cavab: Sərmayə, yaxud ticarət malının hamısının, və ya bir qisminin tələf olması işləyənin, yaxud başqasının səhlənkarlığı nəticəsində olmayınca mal (sərmayə) sahibinin öhdəsinədir və bu xəsarət qazancla ödənməlidir. Amma işləyən (al-verdə) mal sahibinə dəyən xəsarəti özü ödəyəcəyini şərt etmiş olsa, (onda işləyən ödəməlidir).

---

Sual: **1910**: Ticarət məqsədi ilə bir şəxsdən mal alıb, yaxud ona mal vermək və öz razılıqları əsasında sələm olmadan əldə olunan qazancı bölüşdürmələrini şərt etmələri caizdirmi?

Cavab: Ticarət üçün alınan və ya verilən mal borc adı ilə olsa, ondan əldə olunan qazancın hamısı borc alanın malıdır, eləcə də tələf olsa, yaxud xəsarət dəysə, onun özü ödəməlidir. Malın sahibi də ondan yalnız malın əvəzini ala bilər, qazancdan bir şey almağa haqqı yoxdur. Amma müzaribə adı ilə verilmiş olsa, onun nəticələrinin hasil olması üçün müzaribə əqdi onların arasında düzgün tərzdə gerçəkləşməlidir, onun şəri cəhətdən şərtlərinə də riayət olunmalıdır. O şərtlərdən biri də budur ki, onların hər birinin payına düşən qazancın miqdarı kəsri-müşa (qazancın ikidə biri, üçdə biri, dörddə biri və s.) kimi təyin edilsin. Əks halda (yəni, şəri şərtlər olmasa) mal və onun qazancı bütövlükdə sərmayənin sahibinə məxsus olur, işləyən isə işinin muzdunu ala bilər.

---

Sual: **1911**: Bank əməliyyatları həqiqətdə müzaribə sayılmır, çünki (sərmayəyə dəyəcək) heç bir xəsarəti ödəməyi öhdəsinə almır. Əmanət sahiblərinin malın qazancı olaraq (bankdan) aldıqları məbləğ halal sayılırmı?

Cavab: Bankın sadəcə olaraq xəsarəti ödəməyi öhdəsinə almaması müzaribənin batil olmasına səbəb olmaz. Eləcə də müzaribə əqdinin formal olmasına dəlil (əsas) yoxdur. Çünki şəri cəhətdən sərmayə sahibinin, yaxud onun vəkilinin müzaribə əqdi bağlanan zaman bankın mal sahibinə dəyəcək zərəri ödəməyi öhdəsinə almağı şərt etməyin heç bir eybi yoxdur. Deməli, bankın iddia etdiyi müzaribənin (bank – əmanət sahibləri tərəfindən vəkil sayılır) zahiri və formal olması və müəyyən səbəblərə görə batil olması aşkar olmayınca, o müzaribənin düzgün olmasına hökm edilir. Ondan əldə olunan qazanclar da (bunu bank mal sahiblərinə verir) onlar üçün halaldır.

---

Sual: **1912**: Mən bir zərgərə müəyyən məbləğ pul vermişəm ki, onunla al-ver etsin. Zərgərin heç vaxt zərərə düşmədən qazanc əldə etdiyini nəzərə alaraq, mən hər ay onun qazancından xüsusi məbləğdə pul ala bilərəmmi? Əgər bu işin işkalı varsa, onda bu pulun əvəzinə cəvahirat almağım caizdirmi? Bizim aramızda vasitə olan başqa bir şəxsin vasitəsilə həmin məbləğ mənə verilsə, bu işkal aradan qalxarmı? Həmçinin, həmin borcun əvəzində bir qədər pulu mənə həddiyyə kimi versə, işkal yerində qalırmı?

Cavab: Müzaribənin şərtlərindən biri budur ki, sərmayə qoyan şəxs və işləyənin hər birinə qazancdan nə qədər çatacağı (üçdə bir, dörddə bir, yarısı və s.) təyin edilsin. Deməli, sərmayə sahibi üçün hər ay müəyyən məbləğin aylıq qazancı kimi təyin edilməsi əsasında olan müzaribə düzgün deyil. İstər təyin olunan aylıq qazanc nağd pul olsun, istər cəvahirat, qızıl məmulatları və əmtəə, istərsə də sərmayə sahibi birbaşa onu alsın, yaxud başqa bir şəxsin vasitəsilə, habelə istər onun qazancdan olan payı adı ilə olsun, yaxud amilin onun sərmayəsi ilə ticarət etdiyi üçün hədiyyə ünvanında olsun, bunların arasında heç bir fərq yoxdur. Amma sərmayə sahibinin qazanc əldə olduqdan sonra ondan avans kimi hər ay müəyyən məbləğ alıb müzaribə müddəti qurtardıqdan sonra hesablaşma əsasında şərt etmələrinin heç bir eybi yoxdur.

---

Sual: **1913**: Bir şəxs müzaribə adı ilə ticarət etmək üçün bir neçə nəfərdən müəyyən məbləğdə pul alır və şərt edirlər ki, hasil olan qazanc onunla həmin şəxslərin arasında sərmayələrin nisbətində bölüşdürülsün. Bu məsələnin hökmü nədir?

Cavab: Sərmayələrin üst-üstə qoyularaq sahiblərinin icazəsi ilə onun məcmusundan ticarət üçün istifadə olunmasının heç bir eybi yoxdur.

---

Sual: **1914**: Lazım əqd bağlanarkən işləyənin hər ay qazancdan sərmayə sahibinin payına düşən miqdar müqabilində müəyyən məbləğ ona verməsinin və müzaribə əqdində müəyyən olunan məbləğə nisbətən artıq və ya əskik olan miqdarda razılaşmaları şərt olunan əqd düzgündürmü? Başqa sözlə, lazım əqddə, müzaribə hökmlərinə müxalif olan şərt qoyula bilərmi?

Cavab: Əgər qoyulan şərt razılaşma olsa, yəni, qazanc hasil olandan sonra sərmayə sahibinin özünün müşa şəklində olan hissəsi işləyənin aylıq olaraq ona verdiyi məbləğ ilə razılaşmsalar, onun heç bir eybi yoxdur. Amma qoyulan şərt işləyənin sərmayə sahibinə aylıq olaraq vermək istədiyi məbləğdəki qazancdan düşən payını təyin etmək olarsa, bu, müzaribə qanunlarının əksinədir və batil sayılır.

---

Sual: **1915**: Bir tacir başqa bir şəxsdən müzaribə sərmayəsi adı ilə müəyyən məbləğ pul alır və şərt edirlər ki, bu sərmayə ilə edilən ticarət qazancının müəyyən faizini ona versin, nəticədə öz sərmayəsi və qazancının məcmusu ilə ticarət etsin. Hər ikisi də əvvəlcədən bilirdilər ki, bu məbləğin aylıq qazancının miqdarını təyin etmək çox çətindir. Buna görə də bu işdə təxmini razılığa gəlirlər. Bu halda müzaribə əqdi şərən düzgündürmü?

Cavab: Sərmayə sahibinin qoyduğu malın xüsusunda aylıq qazancın miqdarının ayırd edilməsinin mümkün olmaması, sair cəhətlərdə düz olan müzaribə əqdinin düzgün olmasına zərər yetirməz. Deməli, əgər o iki şəxs, şəri şərtlərə riayət edərək müzaribə bağlasalar, sonra isə hasil olan qazancın bölüşdürülməsi üçün təxmini razılığa gəlsələr, yəni, qazanc əldə olduqdan sonra sərmayə sahibi qazancdan öz payına düşən miqdarın müəyyən məbləğ əsasında razılaşmalarının heç bir eybi yoxdur.

---

Sual: **1916**: Bir şəxs müəyyən məbləğ pulu müzaribə adı ilə başqasına verir və şərt qoyur ki, üçüncü bir şəxs onun malına zamin olsun. Sərmayəni alıb işlədən şəxs qaçarsa, müzaribəyə pul qoyan şəxsin malını almaq üçün taminə müraciət etmək haqqı varmı?

Cavab: Fərz olunan halda müzaribəyə qoyulan mala zamin tutulmasının şərt qoyulmasının heç bir eybi yoxdur. Deməli, əgər işləyən müzaribə üçün aldığı sərmayə ilə birlikdə qaçsa, yaxud onu səhlənkarlıq nəticəsində tələf etsə, sərmayə sahibinin onun əvəzini almaq üçün taminə müraciət etməyə haqqı var.

---

Sual: **1917**: Ticarət etmək məqsədi ilə bir neçə nəfərdən müzaribə adı ilə bir qədər mal alan şəxs, o malın məcmusundan bir qədərini, yaxud ayrıca olaraq o şəxslərin birinin malını sahibinin icazəsi olmadan başqasına borc versə, bu halda o, başqalarının müzaribə üçün qoyduğu malına qarşı xəyanətkar sayılırmı?

Cavab: Bu halda sahibinin icazəsi olmadan başqasına borc verdiyi şeylərdə onun əmanətdar əli xəyanətkar əlinə çevrilir və ona zamindir. Yerdə qalan miqdarda səhlənkarlığa yol verməmiş olsa, həmin miqdarda əmanətdar olaraq qalır.

# Bank məsələləri

## Bankların hökmləri

---

Sual: **1918**: Bankdan borc götürdükdə bank (borc alınan miqdardan) artıq alacağını şərt etsə, bu hallarda mükəlləf belə borc almaqda şəriət hakimindən və ya onun vəkilindən icazə almalıdırmı? Zərurət və ehtiyac halı olmadıqda belə borc almaq caizdirmi?

Cavab: Borc almağın özündə (əslində), hətta hökumət banklarından olsa belə, şəriət hakiminin icazəsi şərt deyil, vəzi hökm cəhətindən sələmli olsa belə, düzdür. Amma sələmli olduğu halda təklifi cəhətdən onu almaq haram sayılır, istər müsəlmanlardan alınsın, istərsə də qeyri-müsəlmanlardan, istər islam dövlətindən alınsın, istərsə də qeyri-müsəlman dövlətindən. Amma harama mürtəkib olmağın caiz olduğu bir həddə zərurət və çıxılmaz vəziyyətə düşməsi istisna olunur. Haram borc şəriət hakiminin icazəsi ilə alınsa belə, halala çevrilmir. Ümumiyyətlə bu məsələdə onun icazəsinin heç bir rolu yoxdur. Lakin o şəxs bankın ondan artıq alacağına tam əmin olduğu halda belə, artıq alınacaq hissəni verməyəcəyini niyyət etməklə haramdan qaça bilər. Sələmli olmadığı halda borc almağın caiz olması zərurət və ehtiyac halları ilə şərtlənmir.

Sual: **1919**: İran İslam Respublikasında məskən bankı camaata ev almaq, tikmək və təmir etmək üçün borc verir. Ev alındıqdan, tikildikdən və ya təmir edildikdən sonra bu borcları hissə-hissə almağa başlayır. Lakin hissə-hissə alınan borcların məcmusu verilən borcun miqdarından artıq çıxır. Artıq alınan bu məbləğin şəri bir əsası varmı?

Cavab: Məskən bankının ev tikmək, yaxud almaq üçün verdiyi pul borc sayılmır. Əksinə, onu şirkət, yaxud cüalə, yaxud da icarə və s. kimi düzgün olan şəri əqdlərdən birinə uyğun olaraq verir. Əgər bu qəbildən olan müamilələrdə şəri şərtlərə riayət edilsə, onun düzgün olmasına hökm olunur.

---

Sual: **1920**: Banklar camaatın oraya əmanət kimi qoyduğu pullara 3-20 faiz qazanc verir. İnfliasiya səviyyəsini nəzərə alaraq bu məbləği bankdan götürəndə artan bu miqdarın sələm sayılmaması üçün o pulun əmanət qoyulduğu günə nisbətən alıcılıq dəyərinin aşağı düşməsindən yaranan zərərin əvəzi hesab etmək olarmı?

Cavab: Əgər bankın verdiyi əlavə qazanclar və əlavə gəlir pul qoyanların tərəfindən vəkalət əsasında o pulların işlədilməsindən hasil olsa və düzgün şəri əqdlərdən birinin vasitəsilə həyata keçsə, sələm deyil, şəri müamilənin qazancıdır və bunun heç bir eybi yoxdur.

---

Sual: **1921**: Öz məişət xərclərini təmin etmək üçün heç bir işi olmadığı şəraitdə ehtiyac üzündən sələmli bankda işləməyə məcbur olan şəxsin hökmü nədir?

Cavab: Əgər bankda işləmək sələmli müamilələrlə əlaqəli olarsa və onun gerçəkləşməsində müəyyən qədər rolu olsa, bu şəxsin orada işləməsi caiz deyil. O şəxsin, sadəcə olaraq öz məişətini təmin etmək üçün halal olan başqa bir iş tapmaması haram ilə məşğul olmasına əsas ola bilməz.

---

Sual: **1922**: Məskən bankı bizim üçün bir ev alıb və şərt edib ki, borcu aybaay qaytaraq. Bu müamilə şərən düzgündürmü və biz o evin sahibi oluruqmu?

Cavab: Əgər bank o evi əvvəlcə özü üçün alıb sonra pulunu aybaay qaytarmaq şərti ilə sizə satsa, bunun heç bir eybi yoxdur.

---

Sual: **1923**: Bank mənzil almaq üçün şəriklik adı ilə, yaxud sair müamilə əqdləri adı ilə pul borc verir, alanda isə 5-8 faiz artıq alır. Bu fayda və borcun hökmü nədir?

Cavab: Bankdan müəyyən məbləğin şəriklik, yaxud sair şəri və düzgün müamilələrdən biri kimi alınması borc almaq, yaxud borc vermək deyil və bu kimi şəri müamilələrdən bank üçün hasil olan qazanc da sələm sayılmır. Deməli, banklardan mənzil almaq və ya tikmək məqsədi ilə qeyd olunan adlarda pul almağın və onda təsərrüf etməyin heç bir maneəsi yoxdur. Amma artıq alınması şərt edilən halda borc olmasını fərz etdikdə, bu halda sələmli borc təklif baxımından haram olmasına baxmayaraq, borcun özü (əsli) vəzi hökm baxımından borc alan şəxs üçün düzgündür və onda etdiyi təsərrüflərin eybi yoxdur.

---

Sual: **1924:** Qeyri-islami ölkələrin dövlət banklarına əmanət qoyulan pullar üçün əlavə gəlir alması caizdirmi? Aldığı təqdirdə istər bank sahibi əhli-kitab və ya müşrik olsun, istərsə də pulu əmanət qoyduğu zaman əlavə gəlir almasını şərt etsin, istərsə şərt etməsin, onda təsərrüf etmək caizdirmi?

Cavab: Müsəlmanın qeyri-müsəlmandan əlavə gəlir alması caizdir, hətta əlavə gəlir alacağını şərt etsə belə.

---

Sual: **1925**: Bankın öz səhmdarlarından bəziləri müsəlman olduqda, bu bankdan əlavə gəlir almaq caizdirmi?

Cavab: Müsəlman olmayanların səhmlərinin nisbətində bankdan qazanc almağın eybi yoxdur. Amma müsəlmanın payına nisbətdə banka əmanət qoyulanlar fayda, sələm şərti ilə və ya onu almaq məqsədi şərt edildiyi hallarda əlavə qazanc almaq caiz deyil.

---

Sual: **1926**: İslam ölkəsi banklarında əmanət qoyulan pullardan əlavə qazanc almağın hökmü nədir?

Cavab: Əmanət qoyulan şey borc adı və əlavə qazanc götürmək şərti ilə qoyulsa, yaxud məqsədi qazanc götürmək olsa, onu almaq caiz deyil.

---

Sual: **1927**: Əgər bank verdiyi borcdan sələm alırsa, onda bankdan borc almaq istəyən mükəlləf şəxs sələmdən qaçmaq istədiyi vaxt caizdirmi ki, nağd olaraq min tümənlik əskinas vərəqəsini nisyə surətində min iki yüz tümənə alsın və belə şərt etsin ki, hər ay onun yüz tümənini qaytarsın və beləliklə də ona bankın on iki ədəd əmanət üçün nəzərdə tutulan xüsusi vərəqələrindən yüz tümənlik versin? Yaxud bankdan məcmusu 1200 tümən olan on iki ədəd müddətli səftəni nağd olaraq min tümənə alsın və şərt etsin ki, on iki ay ərzində o səftələrin məbləğini ödəsin?

Cavab: Borc sələmindən xilas olmaq üçün edilən bu kimi zahiri (saxta) müamilələr şərən haram və batildir.

---

Sual: **1928**: İran İslam Respublikasının bank əməliyyatlarının düzgün olmasına hökm olunurmu? Banklardan alınan pulla mənzil və ya başqa şey almağın hökmü nədir? Bu pullarla alınan evlərdəki edilən qüsl və qılınan namazların hökmü necədir? Camaatın banklara əmanət qoyduğu pullardan əldə olunan əlavə qazancı almaq halaldırmı?

Cavab: Ümumiyyətlə İslami Şura Məclisi tərəfindən qəbul edilən və İcra Aparatı tərəfindən təsdiq edilən qanunlara əsasən bankların yerənə yetirdikləri bank müamilələrinin heç bir eybi yoxdur və onun düzgün olmasına hökm edilir. Düzgün islami əqdlərdən hər hansı birinin əsasında sərmayənin işlədilməsindən hasil olan qazanc da şərən halaldır. Deməli, banklardan mənzil və s. almaq üçün pul götürmək şəri əqdlərdən birinin adı ilə olsa, heç bir eybi yoxdur. Amma sələmli borc surətində olsa, onda təklifi baxımdan onu almağın haram olmasına baxmayaraq, borc vermənin əsli vəzi baxımdan düzgündür, o şeylər borc alanın mülkiyyətinə keçir, onda və onunla aldığı hər şeydə təsərrüf etməsi caizdir.

---

Sual: **1929**: İran İslam Respublikasında bankların camaata ev tikmək, mal-qara saxlamaq, əkinçilik və sair kimi işlər üçün verdiyi pullar müqabilində aldığı qazanc halaldırmı?

Cavab: Əgər bankın ev tikmək, ev almaq və sair kimi işlər üçün camaata verdiyi sərmayənin borc olması düzdürsə, şübhəsiz onlardan əlavə qazanc alması şərən haramdır, bankın da artıq miqdarı almağa haqqı yoxdur. Amma çox güman ki, banklar bu sərmayəni borc adı ilə vermir, əksinə, halal müamilə əqdlərindən biri, məsələn, müzaribə, şəriklik, cüalə, icarə və s. ünvanlı kooperasiya qəbilindədir. Misal üçün, bank mənzil tikintisində şərik olaraq onun tikinti xərclərinin bir qismini ödəyir, sonra öz payını şərikinə, misal üçün, iyirmi aya hissə-hissə verməklə satır, yaxud müəyyən müddətdə və müəyyən məbləğə ona icarəyə verir, belə olan halda bu işin özü və bu kimi müamilədə (bankların) əldə etdiyi qazancın heç bir eybi yoxdur. Bu kimi müamilələrin borc və onun faydası (əlavə gəliri) ilə heç bir əlaqəsi yoxdur.

---

Sual: **1930**: Bank bir layihədə iştirak etmək üçün mənə müəyyən məbləğ pulu borc vermişdir. Aldığım məbləğin yarısını dostuma verib şərt qoydum ki, o, borcun banka ödəniləcək bütün faydasını ödəsin. Bu məsələdə mənim öhdəmə hər hansı bir vəzifə düşürmü?

Cavab: Əgər bank bu məbləği müəyyən etdiyi xüsusi layihədə şərik olmaq üçün vermişsə, pulu alan şəxs nəinki onu başqasına borc verə bilməz, hətta təyin etdikləri həmin işdən başqasına da sərf edə bilməz. Bu pul onun əlində əmanət sayılır və hansı iş üçün təyin olunubsa, elə həmin məqsəd üçün də işlətməli, yaxud onun eynini banka qaytarmalıdır.

---

Sual: **1931**: Bir şəxs saxta sənədlərlə bankdan müzaribə adı ilə müəyyən məbləğdə pul alır və şərtləşir ki, müəyyən müddətdən sonra o, pulu artıqlaması (əlavə gəlirlə) banka qaytarsın. Bankın həmin sənədlərin saxta olduğunu bilmədiyini nəzərə alsaq, bu cür pul almaq borc sayılırmı və o şəxsin banka verdiyi əlavə gəlir (fayda) sələm hökmündədirmi? Əgər bank işçiləri bu sənədlərin saxta olduğunu bilə-bilə ona istədiyi məbləği versə, bunun hökmü nədir?

Cavab: Əgər bank tərəfindən müzaribə əqdi, əqdin bağlandığı sənədlərin düzgün olması əsasında bağlanıbsa, onda bu əqd sənədlərin saxta olduğu fərz edildikdə batil sayılır. Belə olan halda bankdan alınan pul müzaribə olmadığı kimi, borc da sayılmır. Əksinə, zamin olmaq cəhətindən batil əqdlə əldə edilən pulla alınan şey hökmündədir, eləcə də onunla əldə edilən qazancın hamısı banka məxsusdur. Bu, bankın sənədlərin saxta olmasından agah olmadığı haldadır. Amma əgər xəbərdardırsa, ondan alınan pul qəsb hökmündədir.

---

Sual: **1932**: Sərmayəni şərən halal olan müamilələrdən birində işlədib qazanc əldə etmək məqsədi ilə, amma sərmayə sahibinin qazancdan əldə edəcəyi payını dəqiq şəkildə müəyyənləşdirmədən, bankın da hər altı ayda sərmayənin sahibinə, onun qazancından bir hissəsini verməsini şərt etməklə banklara əmanət qoymaq caizdirmi?

Cavab: Əgər sərmayə banka qoyulan zaman bütün ixtiyarları, hətta fəaliyyət növünü seçməyi və sərmayə sahibinin qazancdan payına düşəcək hissənin vəkalət əsasında təyin edilməsi belə, bankın öhdəsinə qoymuş olsa, bu cür əmanət qoymanın və sərmayənin şərən halal olan müamilələr yolu ilə istifadə olunmasından hasil olan qazancın heç bir eybi yoxdur. Bu zaman sərmayə sahibinin qazancdan öz payına düşəcək miqdarın nə qədər olduğunu bilməməsi onun düzgün olmasına heç bir zərər yetirməz.

---

Sual: **1933**: Müsəlmanlarla düşmən olan, yaxud islam düşmənləri ilə müqavilə bağlayan qeyri-islami dövlətlərin banklarının hesablarına uzun müddətli pul qoymaq caizdirmi?

Cavab: Qeyri-islami dövlətlərin İslam və müsəlmanların əleyhinə işlədilən siyasi və iqtisadi qüdrətlərinin artmasına səbəb olmayınca onların banklarına əmanət kimi pul qoymağın öz-özlüyündə heç bir eybi yoxdur. Əks halda isə caiz deyil.

---

Sual: **1934**: İslam ölkələrində mövcud olan bankların bəzisi zalım hökumətlərə, bəzisi kafir hökumətlərə, bəzisi də müsəlman və ya qeyri-müsəlmanlara məxsus olan şirkətlərə tabedir. Bu banklarla edilən müamilə növlərinin hökmü nədir?

Cavab: Bu banklarla şəri cəhətdən halal olan müamilə etməyin heç bir maneəsi yoxdur. Amma sələmli (faizli) müamilələr və borcdan fayda almağa gəldikdə isə, bu işlər islami müəssisə və banklar barəsində caiz deyil. Amma banka qoyulan sərmayə qeyri-müsəlmanın olsa, onun eybi yoxdur.

---

Sual: **1935**: İslam banklarında belə bir qayda var ki, bir şəxsin tərfindən banka qoyulan sərmayəni, bank onları şərən halal sayılan müxtəlif iqtisadi sahələrdə işlədir və qazanc götürür. Bankın bu qanuna müvafiq əməl edərək sərmayəni bank kimi, müxtəlif sahələrdə işlətsin deyə, bazarda işləyən bəzi etibarlı tacirlərə verməsi caizdirmi?

Cavab: Əgər sərmayəni həmin şəxslərə aylıq, yaxud illik olaraq faiz nisbətində müəyyən qazanc almaq şərti ilə borc versələr, bu kimi müamilələr, borc verməyin özünün vəzi cəhətdən düzgün olmasına baxmayaraq təklifi nəzərdən haramdır. Borc müqabilində fayda (əlavə gəlir) götürmək də şərən haram sayılan sələmdir. Amma əgər sərmayəni şərən halal olan işlərdə işlətmək üçün nəzərdə tutduğu adama versə və şəri əqdlərdən birinə uyğun olaraq sərmayənin istifadəsindən əldə olunan qazancın müəyyən miqdarını sərmayə sahibinə verməyi şərt etsələr, onda bu kimi müamilələr düzgün, ondan əldə olunan qazanc isə halaldır. Bu məsələdə bankla həqiqi və hüquqi şəxslər arasında heç bir fərq yoxdur.

---

Sual: **1936**: Əgər bank sistemi sələm əsasında olarsa, onda sərmayə qoymaq yolu ilə banka borc verməyin, yaxud ondan müəyyən məbləği borc almağın hökmü nədir?

Cavab: Sərmayəni banka qərzül-həsənə (faizsiz borc) kimi əmanət qoymağın, eləcə də (faizsiz) borc kimi pul götürməyin heç bir eybi yoxdur. Sələmli borca gəldikdə isə borc verməyin və ya almağın vəzi cəhətdən düzgün olmasına baxmayaraq, o, təklif cəhətindən mütləq şəkildə haramdır.

---

Sual: **1937**: Bankdan müzaribə adı ilə müəyyən məbləğ pul almışam. Müzaribə malından (sərmayəsindən) ev almaq üçün istifadə etmək caizdirmi?

Cavab: Müzaribə üçün qoyulan sərmayə onun sahibinin tərəfindən müzaribədə işlədəcək şəxsin əlində əmanətdir. Ondan yalnız razılaşdıqları yerdə işlətmək haqqı var. Əgər özü təkbaşına başqa işlərə sərf etsə, qəsb hökmündədir.

---

Sual: **1938**: Bir nəfər ticarətdə işlətmək üçün bankdan müəyyən qədər sərmayə götürür və şərt edir ki, qazancda onunla şərik olsun. O şəxs ticarətdə ziyana düşsə, onda bank dəyən zərərdə onunla şərikdirmi?

Cavab: Müzaribə müamiləsində dəyən ziyan sərmayəyə və onun sahibinin öhdəsinə düşür və qazanc yerindən ödəməlidir. Amma dəyəcək ziyanın hamısının, yaxud müəyyən bir hissəsinin sərmayəni müzaribədə işlədən şəxs tərəfindən ödənməsinin şərt etmələrinin eybi yoxdur.

---

Sual: **1939**: Bir nəfər bankların birində özünə hesab açır. Bundan bir müddət keçəndən sonra ona müəyyən qədər qazanc verirlər. Bunu almağın hökmü nədir?

Cavab: Əgər öz sərmayəsini banka borc kimi qoyub qazancı şərt etsə, yaxud məqsədi qazanc olsa, yaxud ona nail olmaq məqsədi ilə pul qoysa, onu (əlavə gəliri) alması caiz deyil, çünki bu gəlir şərən haram olan sələmdir. Əks halda isə heç bir eybi yoxdur.

---

Sual: **1940**: Bankların birində belə bir hesab var ki, əgər bir şəxs banka hər ayda filan məbləğdə olmaqla beş il müddətində pul qoysa və bu beş il ərzində öz hesabından heç nə götürməsə, bank qeyd olunan müddət sona çatandan sonra həmin hesaba aylıq olaraq filan məbləğ əlavə edib və hesab sahibinin həyatda olduğu müddətdə ona verəcək. Bu müamilənin hökmü nədir?

Cavab: Qeyd olunan müamilənin şəri əsası yoxdur və o, sələmdir.

---

Sual: **1941**: Banka uzunmüddətli qoyulan və üstünə müəyyən faiz də qazanc gələn əmanətlərin (pulların) hökmü nədir?

Cavab: Halal müamilələrdən birinə əsasən istifadə edilsin deyə, sərmayənin banka qoyulmasının və eləcə də bu işdən hasil olan qazancın heç bir eybi yoxdur.

---

Sual: **1942**: Əgər bir şəxs bankdan xüsusi yerlərdə işlətmək üçün pul götürsə, hökmü nədir? Onun bu iş üçün götürməsi formal olsa, amma əsl məqsəd isə sair məişət sahələrində istifadə edilməsi olsa, yaxud götürdükdən sonra daha mühüm bir işdə xərcləməyi qərara alsa, bunun hökmü nədir?

Cavab: Pulun verilməsi, yaxud alınması borc adı ilə olsa, o, istənilən halda və o pul borc alanın mülkiyyəti olur, onu istədiyi hər bir yerdə xərcləməsi düzgündür. Amma təklifi nəzərdən xüsusi yerlərdə sərf olunmasını şərt etmiş olsalar, bu şərtə əməl etməsi vacibdir. Amma bankdan alınan və ya oraya qoyulan məbləğ, misal üçün, müzaribə və ya şəriklik adı ilə olsa, bu zaman əqd formal olsa, düzgün deyil. Bu kimi hallarda sərmayə bankın mülkiyyətində qalır və onu alan şəxsin onda təsərrüf etmək haqqı yoxdur. Eləcə də malı (sərmayəni) hansı ünvanla almışsa, həmin ünvanda ciddi məqsədi olsa, o pul onun əlində əmanətdir və bu zaman nəzərdə tutulduğundan başqa işlər üçün istifadə etməsi caiz deyil.

Sual: **1943**: Bir şəxs bankdan müzaribə məqsədi ilə müəyyən məbləğ pul alır. Bir müddətdən sonra həmin məbləği və əldə olunan qazancdan bankın payını hissə-hissə ödəməklə banka qaytarır. Amma onun borcunu hissə-hissə alan bank işçisi qaytarılan malları öz ixtiyarına keçirmiş və saxta yolla sənədləri ləğv etmişdir. Özü də bu işləri məhkəmədə etiraf etmişdir. Bunları nəzərə alsaq, iş görən(pul götürən) müzaribə malı ilə əlaqədar bank qarşısında borclu (məşğuli-zimmə) sayılırmı?

Cavab: Əgər borcun banka qaytarılması bank sistemində mövcud olan qayda-qanunlar əsasında baş vermiş olsa və bank işçisinin də pulları mənimsəməsi borclu tərfindən borcun qaytarılmasında, qayda-qanunların icrasında təqsirə yol verməsindən irəli gəlməyibsə, onda o, heç nəyə zamin deyil. Bu işdə sərmayəni mənimsəyən şəxs zamindir.

---

Sual: **1944**: Bnkın orada hesab açanlara püşk atma yolu ilə almaq istədikləri hədiyyələri onlara xəbər verməsi vacibdirmi?

Cavab: Bu, bank sisteminin qanunlarına tabedir. Əgər bu kimi hədiyyələrin sahiblərinə verilməsi və müraciət edib almaları onları bu işdən xəbərdar edilməsinə bağlıdırsa, onda xəbər verilməsi vacibdir.

---

Sual: **1945**: Bankın məsul işçilərinin, orada qoyulan sərmayənin qazancından fiziki və ya hüquqi şəxslərə hədiyyə verməlari şərən caizdirmi?

Cavab: Əgər bu qazanclar bankın xüsusi mülkiyyətində olsa, onda bu iş bankda təyin edilmiş qanunlardan asılıdır. Amma qazanc əmanət sahiblərinin olsa, bu halda ondan istifadə etmək haqqı onların sahiblərinindir.

---

Sual: **1946**: Bank şəxslərin oraya əmanət qoyduğu sərmayə müqabilində onlara qazanc adı ilə aylıq olaraq müəyyən məbləğ pul verir. Qazancın miqdarının hətta o sərmayədən iqtisadi fəaliyyətdə istifadə edilməmişdən qabaq təyin olunmasını, eləcə də sərmayə sahibinin dəyə biləcək ziyanın ödənməsində şərik olmadığını nəzərə alsaq, bu halda bu kimi qazancları əldə etmək məqsədi ilə sərmayəni banka qoymaq caizdirmi, yoxsa bu qəbildən olan müamilələr sələm olduğu üçün haramdır?

Cavab: Əgər sərmayə borcdan qazanc almaq məqsədi ilə banka qoyularsa, şübhəsiz, bu, təklifi cəhətdən haram olan sələmli borcdur. Bu işdən əldə olunması nəzərdə tutulan qazanc da şərən haram olan sələmdir. Amma borc adı ilə deyil, əksinə, bank tərəfindən sərmayənin şərən halal olan müamilələrdə istifadə olunması üçün qoyularsa, bu halda eybi yoxdur və həmin sərmayədən istifadəyə başlamazdan əvvəl qazancın miqdarının təyin edilməsinin, eləcə də sərmayə sahiblərinin qeyd olunan ehtimal üzrə dəyəcək ziyanlarda şərik olmamasını şərt etmək müqavilənin düzgünlüyünə zərər yetirmir.

---

Sual: **1947**: Mükəlləf şəxs bəzi məsul şəxslər tərəfindən müəyyən hallarda – müzaribə, hissə-hissə ödənc al-veri və s.-də bank qanunlarının düzgün icra olunmadığını bilsə, onun qazanc əldə etmək məqsədi ilə sərmayəni banka qoyması caizdirmi?

Cavab: Əgər mükəlləf şəxs üçün bank işçilərinin onun sərmayəsini batil müamilədə istifadə etdikləri barədə elm hasil olması fərz edilirsə, onda o sərmayənin istifadəsindən əldə olunan qazancı alıb xərcləməsi caiz deyil. Amma şəxslər tərəfindən banka qoyulan sərmayənin həcminin çox böyük olduğunu, bankların icra etdiyi müamilələrin növbənöv və onların böyük bir qisminin də şərən düzgün olduğunu nəzərə alaraq mükəlləf üçün belə bir elmin hasil olması çox zəif ehtimaldır.

---

Sual: **1948**: Dövlət idarəsi və ya şirkəti öz əməkdaşları ilə bağladığı müqaviləyə əsasən onların maaşından hər ay müəyyən məbləğdə pul kəsilir və işlətmək üçün banklardan birinin hesabına köçürülür. Bunlardan əldə edilən qazanc da əməkdaşlar arasında hər birinin sərmayəsinə müvafiq olaraq bölünür. Bu müamilə caiz və düzgündürmü? Bu yolla əldə edilən qazancın hökmü nədir?

Cavab: Əgər sərmayənin banka borc şəklində, qazanc götürmək şərti ilə, yaxud onu nəzərdə tutmaqla və ya onun əldə edilməsi məqsədi ilə qoyularsa, onda banka bu tərzdə pul qoyulması haram, ondan əldə olunan qazanc da şərən haram olan sələm sayılır, onu götürüb təsərrüf etmək caiz deyil. Amma sərmayənin qorunub-saxlanması və ya başqa bir halal məqsədlə

olsa və qazanc şərt edilməməklə, qazanc məqsədi olmadan banka qoyarsa, bank da öz növbəsində sərmayə sahibinə hər hansı bir məbləğ versə, yaxud onun qoyduğu sərmayə halal müamilələrdən birində istifadə olunarsa, onda banka bu cür pul qoymağın, eləcə də əlavə verilən qazancı almağın heç bir eybi yoxdur və şəxsin xüsusi mülkiyyətinə keçir.

---

Sual: **1949**: Banklar tərəfindən camaatın onlarda hesab açaraq pul qoymalarına rəğbətləndirmək üçün, misal üçün, "hər kəs altı ay ərzində öz hesabında olanlardan bir şey götürməsə, bank ona xüsusi güzəştlər verəcək"- deyə vədə versə, bu iş düzgündürmü?

Cavab: Bankın özü tərəfindən bu cür vədənin, rəğbətləndirmək üçün şəxslərə verdiyi üstünlüklərin heç bir eybi yoxdur.

---

Sual: **1950**: Bəzi vaxtlarda şəxslər bank işçilərinə işıq, su və s. pullarını təhvil verərkən cüzi miqdarda artıq verirlər. Məsələn, 80 tümənlik işıq pulunu verəndə 100 tümən pul verir və qalanını da istəmir. Bank işçisi artıq verilən bu miqdarı özünə götürə bilərmi?

Cavab: Artıq verilən bu miqdar onu verənin sahibinə məxsusdur. Onu qəbul edən bank işçilərinə də pul sahibini tanıdığı halda özlərinə qaytarmaları vacibdir. Əgər sahibini tanımırsa, məchulul-malik (sahibi naməlum olan mal) hökmündədir. Onu bank işçiləri özləri üçün götürə bilməzlər. Yalnız o vaxt götürə bilərlər ki, pul verən şəxslərin onlara hədiyyə etdiklərini və ya onu istəmədiklərini yəqin etsinlər.

## Bank hədiyyələri

---

Sual: **1951**: Mən banka müəyyən məbləğ pulu ehtiyat olaraq qoymuşam. Bir müddətdən sonra hədiyyə kimi müəyyən məbləğ pul veriblər. Onu almağın hökmü nədir?

Cavab: Bu kimi hədiyyələri almağın və istifadə etməyin heç bir eybi yoxdur.

---

Sual: **1952**: Qərzül-həsənə (faizsiz borc) əmanət banklarına qoyulan pullara müəyyən hədiyyələr düşür. Bunları almağın hökmü nədir? Onları almağın caiz olduğunu fərz etdikdə, ona xums düşürmü?

Cavab: Qərzül-həsənəyə pul qoymağın və onun verdiyi hədiyyələri qəbul etməyin heç bir eybi yoxdur. Onun verdiyi hədiyyələrə də xüms vacib deyil.

---

Sual: **1953**: Əgər bankda hesab sahibləri bilməməzlik ucbatından və ya digər səbəblərə görə hədiyyələrini almaq üçün banka müraciət etməsələr, bank onlarda təsərrüf edə bilərmi və ya onu öz işçiləri arasında bölə bilərmi?

Cavab: Hədiyyənin veriləcəyi şəxslərin icazəsi olmadan onlara məxsus olan hədiyyələrə, nə bankın özünün, nə də onun işçilərinin malik olma haqqı yoxdur.

## Bankda işləmək

---

Sual: **1954**: Mən bank işçisiyəm və ölkə bankının xaricdəki şöbələrindən birində işləyirəm. Həmin banklarda həm sələmli, həm də sələmsiz müamilə növləri mövcud olduğu halda, bizi həmin dövlətin bank qanunlarına tabe olmağa vadar edirlər. Bu bank sistemində işləmək və bu vəzifəni qəbul etmək caizdirmi? Bu bank şöbələrinin gəlirindən aldığımız maaşın hökmü nədir?

Cavab: Bu işin öz-özlüyündə eybi yoxdur. Lakin sələmli müamilələrlə əlaqədar bank işlərini icra etmək caiz deyil. Şəxsin də o işləri görmək müqabilində aylıq maaş almağa haqqı yoxdur. Amma bu bank şöbələrindən alınan aylıq maaşa gəldikdə isə, aldığı pullar içərisində haram malın olduğunu bilmədiyi təqdirdə onu almağın eybi yoxdur.

---

Sual: **1955**: Bankın əməliyyat, mühasibat və müdiriyyət bölməsində şləyib maaş almaq caizdirmi?

Cavab: Şərən haram olan müamilələrlə heç bir əlaqəsi olmadığı halda bankın bu kimi şöbələrində işləməyin və onun əvəzində maaş almağın heç bir eybi yoxdur.

## Qəbz və xüsusi bank vərəqələrinin hökmləri

---

Sual: **1956**: Hazırkı dövrdə olduğu kimi, bir neçə müddətdən sonra vaxtı çatacaq qəbz və xüsusi bank vərəqələrini öz qiymətindən ucuz, amma nağd satmağın hökmü nədir?

Cavab: Borc verən şəxsin müddətli qəbz və xüsusi bank vərəqələrini borclu şəxsə öz qiymətindən ucuz, amma nağd satmasının eybi yoxdur. Amma (borc verənlə borc alandan başqa) üçüncü şəxsə öz dəyərindən az qiymətə satılması düzgün deyil**.**

---

Sual: **1957**: Qəbz eynilə nağd pul kimidirmi, belə ki, borclu onu borc sahibinə verdikdə onun borcu ödənmiş olsun?

Cavab: Qəbz nağd pul kimi ola bilməz. Borcun, yaxud onun qiymətinin borc aldığı şəxsə, yaxud satıcıya (qəbz şəklində) verməsi ilə borcun qaytarılması o vaxt düzgün olar ki, camaat arasında o qəbzin alınması həmin məbləğin alınması hesab olunsun. Bu da müəyyən hallarda və şəxslərə görə fərqlənir.

# Sığorta

---

Sual: **1958**: İnsanın öz ömrünü sığortalamasının hökmü nədir?

Cavab: Şərən bu işin eybi yoxdur.

---

Sual: **1959**: Bir şəxsin tibbi sığorta dəftərçəsindən, o dəftərçə sahibinin ailəsindən olmayan başqa şəxsin istifadə etməsi caizdirmi? Sahibinin bu kartı başqasının istifadəsinə verməsi caizdirmi?

Cavab: Tibbi sığorta dəftərçəsindən istifadə etmək yalnız o şəxs üçün caizdir ki, sığorta şirkəti həmin şəxsə xidmət etmək barədə onunla müqavilə bağlamış olsun. Digərlərinin ondan istifadə etməsinə gəldikdə isə, bu iş zəmanətə səbəb olur.

---

Sual: **1960**: Sığorta şirkəti ömrünü sığortalayan şəxs ilə müqavilə bağlayır ki, o şəxsin vəfatından sonra onun təyin etdiyi şəxslərə müəyyən məbləğ pul versin. Əgər həmin şəxs borclu olsa və mal-dövləti də o borcları ödəməyə kifayət etməsə, bu halda borc sahibləri öz haqlarını sığorta şirkəti tərəfindən verilən məbləğdən götürə bilərlərmi?

Cavab: Bu iş müqavilənin necə bağlanmasından asılıdır. Əgər müqavilə əsnasında razılaşmış olsalar ki, sığorta şirkəti qərara alınan məbləği sığorta olunan şəxsin vəfatından sonra onun tərəfindən müəyyən şəxsə və ya şəxslərə versin, bu halda şirkətin verdiyi pul o şəxsin mirasından hesab olunmur, əksinə, meyyitin təyin etdiyi şəxslərə verilməlidir.

# Dövlət əmlakı

---

Sual: **1961**: Bir ildir ki, mənim yanımda beytül-mala qaytarılacaq bəzi şeylər var. İndi onları öz öhdəmdən götürmək istəyirəm. Mən nə etməliyəm?

Cavab: Əgər beytül-maldan sənin əlində olan şeylər hər hansı dövlət idarəsinə məxsus olan dövlət əmlakındandırsa, mümkün olan təqdirdə onları həmin idarəyə qaytarmalısan. Əks halda, ümumi dövlət əmlakına (büdcəsinə) keçirməlisən.

---

Sual: **1962**: Mən beytül-maldan şəxsi məqsədlər üçün istifadə etmişəm. İndi öhdəmdə olanları qaytarmaq (bəraəti-zimmə) üçün nə etməliyəm? Vəzifəli şəxslər üçün beytül-malın imkanlarından hansı həddə istifadə etmək caizdir? Bu iş (beytül-maldan istifadə) əlaqədar məsul şəxslərin icazəsi ilə olduqda, hökmü nədir?

Cavab: Vəzifəli şəxslər üçün beytül-malın imkanlarından vəzifədə çalışdıqları rəsmi iş saatında və zərurət və ehtiyac hallarında və normal miqdarda istifadə etməyin eybi yoxdur. Belə ki, mövcud şərait onlara həmin miqdarda istifadə üçün icazə verilməsini göstərsin. Eləcə də bu barədə şərən və qanun üzrə icazəli olan şəxslərin də icazə verdiyi adamların beytül-maldan istifadə etməsinin eybi yoxdur. Əgər sənin beytül-maldan şəxsi istifadə etməyin bu iki qismin birindən olsa, sənin üzərinə heç bir məsuliyyət düşmür. Amma qeyd olunan həmin miqdardan artıq istifadə edilmiş olsa və ya icazə verə bilən şəxslərin icazəsi olmadan o miqdardan artıq istifadə etsən, bu halda onlara zaminsən, qaldığı halda onun özünü (eynini), tələf olub aradan getmiş olduqda isə onun əvəzini beytül-mala qaytarmalısan. Bundan əlavə, ondan istifadə olunduğu təqdirdə müəyyən qazancı da olubsa, onun ücrətül-mislini (dəyərini) də beytül-mala qaytarmalısan.

---

Sual: **1963**: Vəzifəsi müayinə etmək olan tibbi diaqnostika mərkəzi mənə müəyyən dərəcədə iş bacarığımı itirməyimi təyin etdikdən sonra dövlətdən bir qədər yardım almışam, amma indi həkimlərlə tanışlıq və aramızda olan hörmətə görə güzəştə getdikləri və məni nəzərə aldıqları üçün, bu qədər yardımı almağa haqlı olmadığıma ehtimal verirəm. Yaralarımın çox olmasını və həmin qədərdən artığa da layiq olmağımın mümkün olduğu halda mənim vəzifəm nədir?

Cavab: Qanun əsasında həmin məbləği almağa haqlı olmadığına yəqinin olmayana qədər müayinə etməyə vəzifəli olan tibbi diaqnostika mərkəzinin sənin üçün təyin etdiyi iş qüvvəsini itirmək dərəcəsinə uyğun olaraq sənə verilən məbləği almağının eybi yoxdur.

---

Sual: **1964**: Hesabdarın səhvə yol verdiyinə görə, bir ay üçün maaşımın üç mislini almışam. Bu məsələni də müəssisənin məsul işçisinə xəbər vermişəm. Bu işdən dörd il keçməsinə baxmayaraq onun hökumət müəssisəsinə məxsus olan illik dövlət büdcəsindən olduğunu bilirəm. Bu məbləği müəssisənin hesabına necə köçürə bilərəm?

Cavab: Hesabdarın səhvə yol verməsi haqqın olan məbləğdən artıq almağa qanuni bir əsas ola bilməz. Hətta keçən illərin dövlət büdcəsindən olsa belə, həmin məbləği qeyd olunan müəsisəyə qaytarmağın vacibdir.

---

Sual: **1965**: Qanuna əsasən müharibə əlilləri əlillik və iş qüvvəsini itirmək dərəcəsi 25 faizdən artıq olduqda, müəssisədən borc almaq güzəştindən istifadə edə bilərlər. Əlillik və iş qüvvəsini itirmək dərəcəsi qeyd olunan rəqəmdən az olan şəxslər bu güzəştdən istifadə edə bilərlərmi? Əgər istifadə edib müəssisədən müəyyən məbləğdə borc alsa, ondan istifadə etməsi caizdirmi?

Cavab: Beytül-maldan borc almaq üçün qoyulan şərtlərə malik olmayan bir kəsin həmin şərtlər və güzəştləri nəzərə alaraq borc alması, aldığı təqdirdə ondan istifadə etməsi caiz deyil.

---

Sual: **1966**: Dövlət əmlakı dövlət büdcəsi tərəfindən təmin olunmasını nəzərə alaraq, dövlət büdcəsinə malik olan şirkət, zavod və ya idarəyə lazım olan əmtəələrin, ləvazimatın, büdcəsi dövlət tərəfindən təmin olunan digər şirkət, zavod və ya idarədən alması caizdirmi?

Cavab: Əgər müamilə qanuni və şəri qərarlara müvafiq olsa, eybi yoxdur.

---

Sual: **1967**: Dövlətin, hökumətin, ixtiyarında və ya onların nəzdində olan zavod və fabriklərin, karxanaların, şirkət və ya müəssisələrin ixtiyarında olan islami və yaxud qeyri-islami dövlət əmlakının hökmü nədir? Bu əmlak məchulul-malikdirmi, yoxsa dövlət mülkiyyəti hesab olunur?

Cavab: Dövlət əmlakı, hətta qeyri-islami ölkələrdə olsa belə, şərən (qanuna görə) dövlət mülkiyyəti sayılır. Onlarla “sahibi məlum olan əmlak” kimi davranılmalıdır. Onlarda təsərrüf (istifadə) etmək bu əmlakın təsərrüf olunma icazəsi əlində olan şəxsin icazəsinə bağlıdır.

---

Sual: **1968**: Kafir ölkələrdə ümumi əmlakda dövlətin hüququna, eləcə də xüsusi əmlakda maliklərin şəxsi hüququna riayət etmək vacibdirmi? Müəyyən təlim mərkəzlərində mövcud olan imkanları, qayda-qanunların o mərkəzlər üçün icazə verdiyi hallardan başqa yerlərdə işlətmək caizdirmi?

Cavab: Başqasının malının toxunulmazlığına riayət etməyin vacib və sahiblərinin icazəsi olmadan onlardan istifadə etməyin haram olmasında şəxsi əmlakla dövlət əmlakı arasında heç bir fərq yoxdur – istər müsəlman olsun, istərsə də qeyri-müsəlman. Eləcə də kafir və ya müsəlman ölkəsində olmasının, malikinin də kafir və ya müsəlman olması arasında heç bir fərq yoxdur. Ümumiyyətlə, başqasının əmlakında şərən caiz olmayan təsərrüf və istifadə qəsb və haramdır, onlar qarşısında zəmanətə səbəb olur.

---

Sual: **1969**: Ali məktəb tələbələrinə verilən yemək kuponlarından müəyyən olunmuş gündə istifadə etməsə və o kuponların pulunu almasa (vaxtı keçsə və) etibarsız sayılsa, etibardan düşən bu kuponları (yemək almaq üçün) etibarlı kuponların yerinə vermək olarmı? Bu yolla alınan yeməyin hökmü nədir?

Cavab: Yemək almaq üçün etibardan düşmüş kuponlardan istifadə etmək caiz deyil. Bu yolla alınan yeməklər qəsbi, ondan istifadə etmək haramdır və zəmanətə səbəb olur.

---

Sual: **1970**: Ali məktəblərdə və ya ali təhsil müəssisələrində ticarət nazirliyi və ya sair müəssisələr tərəfindən bu mərkəzlərdə təhsil alan tələbələrə verilən yemək, dərs vəsaiti və s. kimi güzəştlərdən həmin təhsil müəssisələrində işləyən şəxslərə və qulluqçulara da verilməsi caizdirmi?

Cavab: Xüsusi şəkildə ali məktəblərdə təhsil alan tələbələr üçün nəzərdə tutulan güzəştlərin orada işləyən sair şəxslərə də verilməsi caiz deyil.

---

Sual: **1971**: Əlaqədar təşkilatlar tərəfindən idarə işlərində istifadə olunsun deyə, hökumət müəssisələrinin müdirlərinə və hərbi qulluqçullara bir neçə maşın verilir. Onların həmin maşınlardan qeyri-idari və ya şəxsi işlərdə istifədə etməsi caizdirmi?

Cavab: Dövlət əmlakından nə müdirlərin, nə məsulların, nə də sair vəzifəli şəxslərin şəxsi olaraq istifdə etməsi caiz deyil. Yalnız əlaqədar təşkilatların qanuni icazəsi ilə bu yerlərdə istifadə edə bilərlər.

---

Sual: **1972**: Əgər bəzi məsul şəxslər rəsmi idarə qonaqlarına yemək və ya meyvə almaq üçün nəzərdə tutulan və onların ixtiyarında olan büdcədən sui-istifadə etsələr və ya onu başqa yerlərdə işlətsələr, bu işin hökmü nədir?

Cavab: Dövlət əmlakının icazə verilmiş yerlərdən başqa məqsədlər üçün xərclənməsi qəsb hökmündədir və zəmanətə səbəb olur. Amma yuxarı vəzifəli şəxslər tərəfindən qanuni icazə ilə olsa, eybi yoxdur.

---

Sual: **1973**: Əgər bir şəxsin dövlətdən müəyyən qədər maaş, yaxud qanun əsasında verilən bəzi güzəşt və üstünlüklərdən alacağı olsa, lakin öz haqqını isbat etmək üçün heç bir qanuni sənədi yoxdursa, yaxud öz haqqını tələb etməyə qadir deyilsə, həmin şəxs öz ixtiyarında olan dövlət əmlakından icbari müsadirə yolu ilə haqqını götürə bilərmi?

Cavab: Bu şəxsin öz əlində əmanət sayılan və onun ixtiyarında olan dövlət əmlakından təqass edərək öz haqqını götürməsi caiz deyil. Əgər onun dövlətdən alacağı malı, yaxud haqqı olsa və onu almaq istəyərsə, onu isbat və ya tələb etdikdə qanuni yolla hərəkət etməlidir.

---

Sual: **1974**: Su idarəsi su anbarında balıq saxlayır. Oraya tökülən çayın özündə də balıq var. Amma su idarəsi su anbarındakı balıqları yalnız öz işçiləri arasında bölüşdürür, başqalarına oradan balıq tutmasına mane olur. Başqalarının bu balıqları özləri üçün tutması caizdirmi?

Cavab: Bəndin arxasında toplanan suda mövcud olan balıqlardan istifadə haqqı, oraya tökülən çayın balıqları olsa belə, ixtiyarı su idarəsinin əlində olan suya tabedir. Deməli, o balıqları ovlamaq və onlardan istifadə etmək bu idarənin icazəsinə bağlıdır.

# Dövlət müəssisələrində işləmək

---

Sual: **1975**: Dölət işçiləri üçün rəsmi iş saatlarında camaat namazı bərqərar etmək caizdirmi? Caiz olmadığını fərz etdikdə, onlar idarənin rəsmi iş saatı qurtardıqdan sonra arada namaza sərf edilən vaxt qədər işləyərək onun əvəzini çıxmağa dair iltizam versələr, rəsmi iş saatında camaat namazı bərqərar etmələri caizdirmi?

Cavab: Gündəlik vacib namazlara xüsusi əhəmiyyət verildiyini, eləcə də namazın əvvəl vaxtda qılınmasına təkidli tövsiyələr edildiyini və camaat namazının fəzilətini nəzərə alaraq daha münasib olar ki, idarə işçiləri işlərini elə tənzim etsinlər ki, idarə işləri arasında vacib namazı camaat namazı şəklində və əvvəl vaxtda, həmçinin ən az vaxtda qıla bilsinlər. Lakin bu işin hazırlıq mərhələsi elə tənzim olunmalıdır ki, əvvəl vaxtda qılınan camaat namazı çox uzanıb müraciət edənlərin işinin təxirə düşməsinə səbəb olmasın.

---

Sual: **1976**: Bəzi təlim-tərbiyə mərkəzlərində müşahidə olunur ki, mərkəzin şöbələrindən birində işləməyə vəzifəli olan bir müəllim və ya müdir özünün idarədəki bilavasitə məsul işçisinin razılığı ilə həmin yerdəki rəsmi iş saatları əsnasında başqa məktəblərdə də dərs deyir və onun üçün təyin olunan maaşdan əlavə, həmin əlavə dərs saatları üçün də maaş alır. O şəxs üçün bu iş və onun əvəzində əmək haqqı alması caizdirmi?

Cavab: O mərkəzin məsul işçisinin başqa bir şəxsə rəsmi iş saatı əsnasında (başqa yerdə) tədrisə razılıq verməsi həmin məsul şəxsin qanuni səlahiyyətlərinin hansı həddə olmasından asılıdır. Amma o şəxsə hökumət tərəfindən rəsmi iş saatına əsasən maaş verildiyi fərz olunarsa, onda həmin rəsmi iş saatı əsnasında başqa məktəbdə tədris etməsi əvəzində əlavə maaş almağa haqqı yoxdur.

---

Sual: **1977**: İdarədə rəsmi iş saatını 2.30-a qədər davam edə biləcəyini nəzərə alsaq, bu vaxt əsnasında bir dəfə yemək yeməyin hökmü nədir?

Cavab: Əgər yemək çox vaxt tutmasa və idarə işinin tətil daynmasına səbəb olmasa, eybi yoxdur.

---

Sual: **1978**: Əgər bir idarə işçisinin iş yerində boş vaxtı çox olsa və bu vaxtını da başqa bölmələrdə sərf etməyə icazəsi olmasa, onda həmin şəxsin bu vaxtda öz şəxsi işlərini görməsi caizdirmi?

Cavab: İdarənin iş yerində şəxsi işlər görmək idarənin qanunlarına və əlaqədar məsulların icazəsinə bağlıdır.

---

Sual: **1979**: Dövlət idarə və müəssisələrində işləyənlər üçün (rəsmi iş saatlarında) matəm mərasimi təşkil etmək və camaat namazı qılmaq caizdirmi?

Cavab: Müraciət edənlərin hüququ pozulmayacaqsa, namaz üçün toplaşdıqda, mübarək Ramazan ayı və sair əlamətdar hadisələri olan günlərin xüsusunda əhkam və maarifi bəyan etmək və sair kimi işlərin eybi yoxdur.

---

Sual: **1980**: Biz hərbi müəssisədə işləyirik. İş yerimiz bir-birindən aralı iki müxtəlif yerdə yerləşir. Dostlardan bəzisi bir iş yerindən digərinə gedən zaman yolda müəyyən şəxsi işlərlə məşğul olurlar ki, onların bəzisi çox vaxt aparır. Bu işlər üçün icazə almaları vacibdirmi?

Cavab: İş üçün təyin olunmuş rəsmi iş saatlarında şəxsi işlə məşğul olmaq bu haqqa malik olan yuxarı (rütbəli) məsul işçilərin icazəsinə bağlıdır.

---

Sual: **1981:** Bizim idarənin yaxınlığında bir məscid var. Camaat namazında iştirak etmək üçün rəsmi iş saatlarında oraya getməyimiz caizdirmi?

Cavab: İdarənin özündə camaat namazı təşkil olunmursa, namazın əvvəl vaxtında camaat namazında iştirak etmək üçün idarədən çıxıb məscidə getməyin eybi yoxdur. Lakin namazın hazırlıq mərhələsini elə tənzim etmək lazımdır ki, vacib namazı camaatla qılmaq üçün iş saatında idarədən çıxdığınız vaxt ən az həddə olsun.

---

Sual: **1982**: İdarə işçisi hər ay təqribən 30-40 saat əlavə olaraq işləyir. İdarənin məsul işçisinin, işçiləri həvəsləndirmək üçün əlavə iş saatlarını ikiqat, məsələn hər ayda 120 saat hesab etməsi caizdirmi? Əgər bu işdə işkal varsa, keçmişdəki əlavə iş saatlarına görə aldığı maaşın hökmü nədir?

Cavab: Gerçək olmayan (saxta və formal) fakt və rəqəmlərin yazılışı (sənədləşdirilməsi) və heç bir iş görülmədiyi halda əlavə iş saatları əvəzində pul almaq caiz deyil. İşçinin haqqı olmadığı halda aldığı artıq miqdarı qaytarması vacibdir. Lakin müəyyən bir qanun olsa və idarə məsulu, orada işləyənlər üçün əlavə iş saatını artırmağa icazə versə, bu iş caizdir. Bu halda məsul şəxsin yazdığı raporta uyğun olaraq idarə işçisinin əlavə iş saatı üçün maaş alması da caizdir.

# Dövlət qanunları

---

Sual: **1983**: Bir nəfər fəhlə, mütəxəssis məsul işçinin iş yerində olmadığı zaman onun işlərini yerinə yetirməyi öhdəsinə alsa və bu yolla ixtisaslaşsa, onun mütəxəssis olduğunu sübut etmək üçün özündən yüksək rütbəli məsullara müraciət edib mütəxəssis güzəştlərindən istifadə etmək üçün yazılı şəhadətnamə alması caizdirmi?

Cavab: İxtisas və iş stajı güzəştlərindən istifadə etmək və məsul şəxslərdən şəhadətnamə almaqla bunu isbat etmək bu xüsusda olan qanunlardan asılıdır. Lakin şəhadət real olmasa, yaxud qanun normalarının əksinə olsa, bu işi görməyə çalışmaq və ondan istifadə etmək haqqı yoxdur.

---

Sual: **1984**: Ticarət nazirliyinin nəzdində olan bir ticarət mərkəzi bir qədər mənzil avadanlığı – soyuducu, xalça-palaz və s. kimi şeyləri satış mərkəzlərinə verir ki, dövlət qiymətinə satsın. Lakin bunlara tələbat çox olduğu üçün o ticarət mərkəzinin məsulu bu malları püşk yolu ilə satmaq üçün püşk vərəqləri çap etmişdir. O vərəqlərdən hər biri də müəyyən qiymətə satılmışdır ki, onun satışından əldə olunan gəlir xeyriyyə işlərinə sərf edilsin. Belə olan təqdirdə şəri baxımdan o malları püşk yolu ilə satmağın işkalı varmı? Yaxud satış üçün olan malların püşk vərəqələrini satmağın işkalı varmı?

Cavab: Satış mərkəzinin məsullarına vacibdir ki, əmtəələri əlaqədar məsullardan hansı şərtlər əsasında almışlarsa, elə o şərtlər əsasında da alıcılara versinlər. Onların al-verin şərtlərini dəyişdirib onun yerinə özlərindən başqa şərtlər qoymağa haqqı yoxdur. Püşk vərəqlərinin satışından əldə olunan qazancın xeyriyyə işlərində sərf olunması məqsədi həmin əmtəələrin satışı üçün başqa şərtlər qoyulmasına əsas ola bilməz.

---

Sual: **1985**: Dövlət tərəfindən çörək bişirənlərə supsidlə ucuz qiymətə verilən unu satmaq caizdirmi?

Cavab: Çörəkçilərə dövlət tərəfindən unu satmağa icazə verilməyincə, onların (unu) satmağı, camaat üçün də onlardan alması caiz deyil.

---

Sual: **1986**: Dükanlarda olan malların qiyməti təbii qaydada, yaxud çox sürətlə və gözlənilmədən artsa, onda onları yeni qiymətə satmaq caizdirmi?

Cavab: Dövlət tərəfindən onlar üçün müəyyən qiymət təyin olunmayınca, o əmtəələrin cari ədalətli qiymətə satılmasının eybi yoxdur.

---

Sual: **1987**: Şəriət hökmü qanunla təzadlı olsa, belə ki, dövlət camaatın abad torpaq sahəsinə, sahiblərinin icazəsi olmadan sahib olsa, bu cür satışın və mülkiyyətə keçirməyin hökmü nədir?

Cavab: Dövlət tərəfindən xüsusi qanunlar əsasında, eləcə də ümumi layihələrin icrası üçün dövlətin və bələdiyyə idarəsinin ehtiyac duyduğu torpaq sahələrinin alınıb (dövlət) mülkiyyətinə keçirilməsinin fərdi malikiyyətlə, yaxud malikinin şəri və qanuni hüquqları ilə heç bir ziddiyyəti yoxdur.

---

Sual: **1988**: Bir nəfər başqasına işgüzarlıq və fəaliyyətinə görə antik bir əşya hədiyyə edib. O şəxsin vəfatından sonra həmin şey irs yolu ilə onun vərəsələrinin mülkiyyətinə keçib. Bu şey şərən onların mülkü sayılırmı? Bunu da nəzərə alaq ki, bu antik əşyanın dövlətin ixtiyarına verilməsi daha yaxşı olardı. Vərəsələrin həmin şeyi dövlətə verdikdən sonra əvəzində bir şey tələb etməyə haqqı varmı?

Cavab: Bir şeyin antik olması onun bir kəsin şəxsi mülkü olması ilə zidd deyil və onu qanuni yolla əldə etiyi hallarda şəri sahibinin mülkiyyətindən çıxmasına səbəb olmaz. Əksinə, həmin şəxsin mülkiyyətində qalır və ona məxsus olan şəri mülkün təsirində olur. Əgər dövlət tərəfindən tarixi əsər və şeylərin qorunmasına dair xüsusi qayda-qanunlar olsa, ona əməl etməkdə şəri malikinin də hüquqlarına riayət etmək vacibdir. Amma əgər şəxs bu ətiqəni qanuni olmayan yolla, tabe olunması vacib olan islami dövlət qanunlarının əksinə olan hər hansı bir yolla əldə etmiş olsa, bu halda onun maliki ola bilməz.

---

Sual: **1989**: Parça, paltar, düyü və s. kimi istehlak mallarını qaçaq yolla İslam respublikasından aparıb Fars körfəzində yerləşən ölkələrin əhalisinə satmaq caizdirmi?

Cavab: İslam respublikasının qanunlarına zidd hərəkət etmək caiz deyil.

---

Sual: **1990**: Bəzi dövlət idarələri islam hökmləri ilə müəyyən dərəcədə müxalif olan qanunlar çıxarsa, o idarə işçilərinə, qoyulan bu qanunlara itaət etməkdən boyun qaçırmaq caizdirmi?

Cavab: İslam respublikasında heç kəsin islam qanunlarına müxalif olan bir qanun çıxarmaq və ya göstəriş vermək haqqı yoxdur. Eləcə də idarə rəisinin göstərişlərinə itaət etmək bəhanəsi ilə danılmaz ilahi hökmlər ilə müxalifət etmək də caiz deyil. Lakin biz bildiyimiz qədər dövlət idarələrində mövcud olan qanunlar içərisində islam şəriətinə müxalif olan bir qanun yoxdur. Əgər bir kəs islam sistemi ilə müxalif olan bir qanun görsə, bu problemin həll edilməsi və islam hökmləri ilə müxalif olan qanunların ləğv edilməsi üçün bu barədə yüksək məqamlara xəbər verməsi vacibdir.

---

Sual: **1991**: Bir işçinin nəzərinə görə qanunla müxalif olan işlər görməyin hökmü nədir? Halbuki, daha yuxarı məsul şəxs bu işin heç bir işkalı olmadığını iddia edir və o işlərin icra edilməsini istəyir.

Cavab: Heç bir kimsənin dövlət idarələrində mövcud olan qayda-qanunlara əməl etməmək və onun əksinə əməl etməyə haqqı yoxdur. Heç bir məsul şəxsin (tabeçiliyində olan) işçidən qanuna müxalif olan göstərişi icra etməyi tələb etmə haqqı yoxdur. Bu kimi hallarda məsul şəxsin nəzərinin heç bir təsiri yoxdur.

---

Sual: **1992**: Dövlət idarələrində işləyən işçilərin müraciət edən bəzi şəxslər üçün bir şəxsin tövsiyəsini qəbul etməsi caizdirmi?

Cavab: İşçilərə, müraciət edənlərin tələblərinə müsbət cavab vermək, qayda-qanun əsasında işlərini qaydaya salmaq vacibdir. Onlardan heç biri üçün qanuna müxalif olduqda, yaxud başqalarının haqqının tapdalanmasına səbəb olduqda, başqa bir şəxsin tövsiyəsini qəbul etmək caiz deyil.

---

Sual: **1993**: Yol hərəkət qanunlarına və sair dövlət qanunlarına etinasız yanaşmağın (pozmağın) hökmü nədir? Etinasız yanaşılan bu kimi hallar əmr be məruf və nəhy əz münkərin icra olunması hallarıdırmı?

Cavab: İslam dövlətində, birbaşa İslami Şura Məclisində qəbul olunan və İcra Aparatı tərəfindən təsdiqlənən, yaxud əlaqədar təşkilatların qanuni icazəsinə istinadən çıxarılan dövlət qanun-qaydalarına və göstərişləri ilə müxalifət etmək heç kəs üçün caiz deyil. Bu xüsusda bir kəsdə müxalifət müşahidə olunarsa, başqalarının ona xəbərdarlıq etmək, yol göstərmək və nəhy əz münkər işini yerinə yetirmək haqqı vardır.

---

Sual: **1994**: Bəzi ölkələrdə xarici tələbələrə öz vətəndaşlığını dəyişib həmin ölkənin vətəndaşlığını qəbul etməyi təklif edir və qəbul etdikləri təqdirdə tələbə, təhsil müddətində həmin ölkənin öz vətəndaşlarından olan tələbələrin malik olduğu bütün güzəşt və üstünlüklərdən bəhrələnirlər. Bu dövlətlərin qanunlarına uyğun olaraq şəxs öz vətəndaşlığını dəyişib yenidən öz əvvəlki vətəndaşlığına qayıda bilər. Bu işin şəri cəhətdən hökmü necədir?

Cavab: İslam dövləti vətəndaşları üçün, itaət olunması vacib olan qanunların əksinə olmayınca və fəsada səbəb olmayınca, eləcə də islam dövlətinin hörməti aradan getməyincəyə qədər vətəndaşlığın dəyişdirilməsinin eybi yoxdur.

---

Sual: **1995**: Xarici şirkətlərdə işləyən, yaxud onlarla müamilə edən bir şəxsin, xüsusilə islama və müsəlmanlara qarşı mənəfi fikir yaranacağı surətdə onların (şirkətlərin) qanunlarına əməl etməmək caizdirmi?

Cavab: Hər bir mükəlləf şəxsə, hətta qeyri-müsəlmanlara aid olan hallarda belə, digərlərinin hüququna riayət etmək vacibdir.

# Dövlət vergisi və rüsum

---

Sual: **1996**: Bəzi şəxslər, xüsusi və ya hökumət şirkət və müəssisələri dövlət tərəfindən (qanun üzrə) alınan vergi və rüsumlardan qaçmaq üçün müxtəlif yollarla bəzi reallıqları gizlədirlər. Onların bu işi caizdirmi?

Cavab: İslam Respublikası tərəfindən qoyulan dövlət qanunlarından boyun qaçırmaq, islam dövlətinin vergi, rüsum və sair qanuni hüquqlarını verməkdən imtina etmək heç kəs üçün caiz deyil.

---

Sual: **1997**: Bir kəs bank ilə bağladığı müzaribə müqaviləsi əsasında kəsb-ticarət edir və müqaviləyə əsasən hasil olan qazancın müəyyən qismini banka verir. Vergi müfəttişliyinin (idarəsinin) o şəxsin öz payına düşən hissənin vergisindən əlavə, bankın payına düşən miqdarın vergisini tələb etmək haqqı varmı?

Cavab: Bu, gəlirə qoyulan vergi qanunlarına tabedir. Belə ki, əgər mükəlləf şəxs qanun əsasında təkcə qazancın öz xüsusi payına düşən miqdarın vergisini verməyə iltizamlı olsa, onda şərikinin payına düşən miqdarın vergisini verməyə zamin deyil.

---

Sual: **1998**: Bir nəfərdən ev almışam. Belə şətrləşmişik ki, bu evin satışından tələb olunan vergini yarıbayarı ödəyək. Satıcı məndən istədi ki, vergi məsuluna (evə) verdiyim qiymətdən az olan miqdarı deyim ki, az vergi alsın. Bu halda evin real qiyməti ilə vergi məsuluna dediyim qiymət arasındakı fərqə görə (əlavə) vergini mən verməliyəmmi?

Cavab: Evin real qiymətindən sənin payına düşən qədərin vergisinin qalanını ödəməyin sənə vacibdir.

---

Sual: **1999**: Bizim məntəqə əhalisi arasında belə bir adət var ki, islami olmayan, müsəlmanlara əzab-əziyyət verən, xüsusilə Əhli-beyt (əleyhimussalam) ardıcılları ilə digərləri arasında ayrıseçkilik salan bir qeyri-islami dövlətə su və işıq pulunu vermək vacib deyil. İşıq və su pullarını bu dövlətə verməkdən imtina etməyimiz caizdirmi?

Cavab: Bu iş caiz deyil, əksinə, dövlətin işıq və suyundan istifadə edən hər bir şəxsə, islami olmasa belə, onların pulunu dövlətə ödəmək vacibdir.

---

Sual: **2000**: Ərim bankdakı hesabında müəyyən məbləğdə pul olduğu halda vəfat edib. Bank da onun vəfat xəbərini eşidəndən sonra onun hesabını bağlayıb. Digər tərəfdən, bələdiyyə idarəsi bildirib ki, ərim ticarət etdiyi yerdə bina tikmək, lisenziya vermək və s. kimi xidmətlər müqabilində vergi verməlidir. Bu verginin dövlət hesabına keçirilmədiyi təqdirdə də həmin mərkəzi bağlayacağını bildirib. Övladlarımın da hamısı kiçikdir. Həmin məbləğdə vergini də ödəməyə qadir deyilik. Bu halda qeyd olunan vergini ödəməyimiz vacibdirmi?

Cavab: Bələdiyyə rüsumları və rəsmi dövlət vergiləri dövlət qanunlarına əsasən ödənməlidir. Belə ki, əgər bu vergilər ölən şəxsin öhdəsinə olmuşsa, onda üçdə biri çıxılmazdan və irsin bölüşdürülməsindən əvvəl onun mirasından verilməlidir. Əgər (vergilər) varislərin öhdəsindədirsə, onda onların malından verilməlidir.

# Vəqf

---

Sual: **2001**: Vəqfin düzgün olmasında vəqf siğəsinin oxunması şərtdirmi? Oxunmasının şərt olması təqdirində, ərəb dilində oxunması şərt sayılırmı?

Cavab: Vəqfdə sözlə inşa edilməsi şərt deyil, çünki onun muatat (heç nə demədən verib-almaq) əsasında da gerçəkləşməsi mümkündür. Eləcə də vəqfin sözlə inşa edilməsində siğənin ərəb dilində olması şərt deyil.

---

Sual: **2002**: Bir şəxs öz bağını bu şərtlə vəqf edir ki, onun gəliri əlli ilə qədər vəqf edən şəxsin qəzaya getmiş oruc-namazının yerinə yetirilməsinə sərf edilsin. Əlli ildən sonra isə onun gəliri Qədr gecələrində (ehsan kimi) sərf edilsin. Vəqf etdiyi yerin məsuliyyətini də dörd oğluna həvalə edib. Hal-hazırda bu bağ dağılmaq üzrədir və heç bir vəchlə istifadə olunmur. Amma

əgər satılsa, onun pulu ilə vəqf edən şəxsin hətta iki yüz illik oruc-namazını da yerinə yetirmək olar. Bu işə dörd oğulun hamısı razıdır. Onların bu bağı satıb pulunu qeyd olunan yerdə xərcləmələri caizdirmi?

Cavab: Vəqf edən şəxsin məqsədi qeyd olunan tərzdəki vəqfdə həm əvvəlcə özünə, həm sonrakı növbədə başqalarına vəqf etmək olsa, öz payına düşən miqdarda batildir. Başqalarının payına düşən vəqfə gəldikdə isə, vəqf birincidə sona çatmış hesab olur ki, onun da düzgün olmasında işkal var. Amma əgər bu vəqfin mənfəətini əlli ilə qədər özü üçün istisna etməyi nəzərdə tutubsa, bunun şəri cəhətdən işkalı yoxdur. Deməli, qeyd olunan vəqfin düzgün olduğunu fərz etdikdə, bağın qazancının vəsiyyət və vəqf istiqamətində sərf olunması üçün onu qoruyub saxlamaq mümkün olsa, hətta onu qorumaq üçün gəlirindən müəyyən qədər xərcləmək və yaxşı gəlir götürmək üçün təmir etmək lazım olsa belə, habelə, onun yeri hətta mənzil tikmək və sair işlər üçün icarəyə verilməyə yararlı olsa və bu işləri görüb onun icarəsinin vəsiyyət və vəqf istiqamətində xərclənməsi mümkün olsa, bu halda satmaq və ya başqa bir şeyə çevirmək caiz deyil. Əks halda isə (əgər bu işlər mümkün olmasa) onu satıb pulu ilə gərlirini vəsiyyət və vəqf yolunda istifadə edilsin deyə, yaxşı qazanclı başqa bir sahə almağın eybi yoxdur.

---

Sual: **2003**: Mən Allahın köməyi və inayəti ilə kənddə məscid niyyəti ilə bir bina tikmişəm. Amma orada iki əlavə məscidin də olduğunu, amma heç bir təlim mərkəzinin olmadığını nəzərə alsaq, hal-hazırda o kəndin məscidə ehtiyacı yoxdur. İndiyə qədər onun məscid siğəsi oxunmayıb və “məsciddə namaz qılmaq” adı ilə iki rəkətli namaz da qılınmayıb. Əgər şəri cəhətdən işkalı olmasa, niyyətimi dəyişib təhsil idarəsinin ixtiyarına verməyə hazıram. Bu məsələnin hökmü nədir?

Cavab: Bir evin vəqf əqdi oxunmadan, eləcə də namaz qılmaları üçün namaz qılanlara təhvil verilmədən, sadəcə “məscid olması” niyyəti ilə tikilməsi vəqfin gerçəkləşməsinə və onun tamamlanmasına kifayət etmir və sahibinin mülkiyyətində qalır, ondan istədiyi kimi istifadə etməyə haqqı var. Bu halda o evi təhsil idarəsinə verməyin heç bir eybi yoxdur.

---

Sual: **2004**: Hüseyniyyələrə lazım olan avadanlıqları almaq üçün hədiyyə olunan malın hökmü vəqf hökmündədir, yoxsa bu sərmayə ilə alınan avadanlıqlar üçün vəqf əqdi oxunmalıdır?

Cavab: Malın (sərmayənin) sadəcə bir yerə yığılması vəqf hesab olunmur. Amma onunla Hüseyniyyəyə lazım olan avadanlıqlar alındıqdan və istifadə edilmək üçün oraya qoyulduqdan sonra müatat tipli vəqf hasil olur və vəqf əqdini oxumağa da ehtiyac yoxdur.

## Vəqf edən şəxsin şərtləri

---

Sual: **2005**: Bir şəxsin məcbur edilərək (bir şeyi) vəqf etməsi düzgündürmü?

Cavab: Vəqf edən şəxs vəqf etməyə məcbur edilsə, bu işin ardınca (tam) razılıq verməyincə, vəqf düzgün deyil. Sonradan verilən icazənin də vəqfin düzgün olmasına kifayət etməsi işkallıdır.

---

Sual: **2006**: Bəzi zərdüştilər xəstəxana təsis edib xeyriyyə işlərində istifadə olunmaq məqsədi ilə 1000 il müddətində vəqf ediblər. İmamiyyə fiqhində vəqfin mövcud olan xüsusi qayda-qanunlarını nəzərə almaqla, hal-hazırda həmin yerin nəzarətçisi vəqfin vəsiqəsində göstərilənlərin əksinə əməl edə bilərmi? Halbuki o vəsiqədə belə yazılıb: “Xəstəxananın gəliri orada çəkilən xərclərdən artıq olsa, bu gəlirlə bəzi avadanlıq (çarpayı) alıb xəstəxanada mövcud olanlara əlavə edilməlidir.”

Cavab: Müsəlman şəxsin vəqf etməsi düzgün olan şeylər əhli-kitabdan və sairlərindən olan qeyri-müsəlman şəxslərdən də düzgündür. Buna əsasən, xeyriyyə məqsədləri üçün istifadə olunsun deyə, 1000 il müddətində vəqf olunan xəstəxananın, müddətinin sona çatdığı vəqf növündən olmasına baxmayaraq, şərən düzgün olmasının heç bir eybi yoxdur. Bu halda xəstəxananın nəzarətçisinə, vəqf edən şəxsin qoyduğu şərtlərə əməl etməsi vacibdir və bu şərtləri qüvvədən salmaq və ya ifrata varmağa haqqı yoxdur.

## Vəqfin nəzarətçisinin şərtləri

---

Sual: **2007**: Vəqf edən şəxsin, yaxud hakimin tərəfindən vəqf olunan şeyin idarə olunmasına təyin olunan bir şəxs üçün vəqf işlərini idarə etmək müqabilində özünə muzd (əmək haqqı) götürməsi, yaxud bu işləri onun tərəfindən yerinə yetirmək üçün bir şəxsə pul verməsi caizdirmi?

Cavab: Vəqf olunan şeyin idarə olunmasına vəqf edən şəxsin və ya hakimin tərəfindən təyin olunan şəxsin, vəqf edən şəxsin vəqf işlərini idarə etmək müqabilində müəyyən qədər muzd təyin etmədiyi halda vəqfin gəlirindən özü üçün ücrətül-misl (zəhmət haqqı) götürə bilər.

---

Sual: **2008**: Şəhərin xüsusi məhkəməsi əmanətdar bir şəxsi vəqf işlərini idarə edənə qoşmuşdur ki, vəqf işlərinin idarə olunmasında ona nəzarət etsin. Bu kimi hallarda vəqfi idarə edən şəxsin özündən sonra nəzarətçi təyin etmək haqqı olduqda məhkəmə tərəfindən təyin olunan şəxslə heç bir məsləhət etmədən və onun razılığı olmadan öz yerinə başqa bir adam təyin edə bilərmi?

Cavab: Şərən vəqfin idarə olunmasını öhdəsinə alan şəxsin işlərinə nəzarət etmək üçün əmanətdar bir şəxsin təyin edilməsi vəqfin idarə olunması ilə əlaqədar bütün işlərə, hətta onun özündən sonra nəzarətçi təyin edilməsinə aid olarsa, onda əmanətdar nəzarətçi ilə məsləhət etmədən özündən sonra nəzarətçi təyin etməkdə təkcə öz rəyinə əməl etməyə haqqı yoxdur.

---

Sual: **2009:** Məscidlərdən biri ilə qonşu olan ev və torpaq sahələrinin sahibləri məscidə qatılıb genişləndirmək üçün öz əmlaklarının bir qismini pulsuz olaraq məscidə hədiyyə etmişlər. İmam cümə də din alimləri ilə məsləhətləşdikdən sonra o yerlərin vəqfi üçün ayrıca bir sənəd tənzim etmişdir. Öz torpaq sahələrini məscidə hədiyyə edən şəxslərin hamısı da bu işə razıdırlar. Amma qədim məscidin banisi bu işə razı deyil. O, əlavə edilən təzə yerlərin əvvəlki vəqfnamədə yazılmasını tələb edir və belə şərt qoyur ki, vəqf olunanların hamısına o özü nəzarətçi olsun. Onun bu işə haqqı varmı və biz onu razı salmalıyıqmı?

Cavab: Məscidə təzəlikdə birləşdirilən yerlərin vəqf işi, vəqfnamənin tənzim olunması və onun üçün xüsusi bir nəzarətçi təyin edilməsi təzə vəqf edənlərin ixtiyarındadır. Sabiq nəzarətçinin bu işə etiraz etməyə haqqı yoxdur.

---

Sual: **2010**: Hüseyniyyənin nəzarətçiləri vəqf müddəti qurtarandan sonra daxili bir məramnamə yazsalar və onun bəzi maddələri vəqfin tələbi ilə zidd olsa, şərən bu bəndlərə əməl etmək düzgündürmü?

Cavab: Vəqf olunan şeylərin nəzarətçinin vəqfin tələbi ilə zidd olan qanun çıxarmağa haqqı yoxdur və şərən ona əməl etmək caiz deyil.

---

Sual: **2011**: Vəqf işlərinə nəzarətçi kimi təyin olunan şəxslərin sayı bir neçə nəfər olsa, onda şərən onlardan bəzilərinin digərlərinin rəyi ilə razılaşmadan təkbaşına həmin işləri yerinə yetirməsi düzgündürmü? Vəqf olunan şeyin idarə olunması ilə əlaqədar onların arasında fikir ayrılığı yaransa, onda onların hər biri təkbaşına öz rəyinə əməl edə bilərmi, yoxsa işi saxlayıb hökmən şəriət hakiminə müraciət etməlidirlər?

Cavab: Əgər vəqf edən şəxs onların nəzarətçi olmasını mütləq şəkildə bəyan etmiş olsa və hətta əksəriyyət təşkil etdikləri halda belə, (idarə etmədə) müstəqil olmalarına dəlalət edəcək dəlil-sübut olmazsa, onlardan heç biri üçün, əksəriyyət olduqda belə, vəqf işlərinin idarə olunmasında, hətta bəzi işlərdə də müstəqil idarə etmə haqqı yoxdur. Onlar vəqfin idarə olunma işlərini öz aralarında məsləhətləşərək yekdil fikrə çatmalı, yekdil rəydə olmalı və birlikdə əməl etməlidirlər. Əgər aralarında ixtilaf və münaqişə yaransa, şəriət hakiminə müraciət etməlidirlər ki, onları yekdil fikrə vadar etsin.

---

Sual: **2012**: Vəqfin bir nəzarətçisi tərəfindən digər nəzarətçisisi səlahiyyətdən salınması düzgündürmü?

Cavab: Bu iş düzgün deyil və onu nəzarətçi təyin edərkən ona belə bir icazə verilməyibsə, o, digər nəzarətçini işindən kənarlaşdıra bilməz.

---

Sual: **2013**: Vəqfin bir nəzarətçisi digər nəzarətçini xəyanətdə müttəhim edərək onun işdən çıxarılmasına israr etsə, bu işin hökmü nədir?

Cavab: Xəyanətdə müttəhim olunan şəxsin işinin şəriət hakiminə verilməsi vacibdir.

---

Sual: **2014**: Bir nəfər kişi öz sahəsini ümumi istifadəyə vəqf edir. Sağ olduğu müddətdə o yerin idarə olunması işlərinə özü başçılıq edir, vəfatından sonra isə böyük oğlunu bu işə təyin edir və vəqf olunan yerin işlərini idarə etməkdə ona xüsusi səlahiyyətlər verir. Vəqf və xeyriyyə işləri idarəsi müdiriyyətinin o şəxsin ixtiyar və səlahiyyətlərinin hamısını, yaxud bir qismini əlindən ala bilərmi?

Cavab: Vəqf edən şəxs tərəfindən təyin olunan nəzarətçi vəqfi idarə etmə səlahiyyətindən məhrum olmayınca, vəqfin idarə olunma işləri vəqf edən şəxsin vəqf əqdinin inşasında təyin etdiyi qaydalara uyğun olaraq onun öhdəsinədir. Vəqf edən şəxsin vəqf əqdində qeyd etdiyi səlahiyyət və ixtiyarları dəyişmək şərən düzgün deyil.

---

Sual: **2015**: Bir nəfər bir qədər torpaq sahəsini məscidə vəqf edib və onun idarə olunma işlərini özündən sonra nəsilbənəsil öz övladlarına, nəsli kəsildikdə isə həmin məsciddə gündəlik beş namazı qılan imam-camaata həvalə edib. Nəzarətçinin nəsli kəsildikdən sonra bir müddət gündəlik beş namazı o məsciddə qılan bir alim bu işi öhdəsinə alıb. Hal-hazırda o, infarkt keçirdiyinə görə camaat namazına imamlıq edə bilmir. İmam-camaat şurası digər bir alimi təyin edib ki, hal-hazırda məsciddə imam-camaat olsun. Bu alimin gəlişi ilə əvvəlki alim nəzarətçilik səlahiyyətini itirirmi, yoxsa o, camaat namazı qılmaq üçün bir nəfəri vəkil və ya təyin etməlidir və vəqfin idarə etmək səlahiyyəti onda qalır?

Cavab: Əgər alimin nəzarətçi olması məsciddə gündəlik namazlara imam-camaat olması ilə şərtlənirsə, onda hal-hazırda xəstəlik, yaxud başqa bir səbəb nəticəsində camaat namazına imamət etməyə qadir olmadığına görə onun nəzarətçilik səlahiyyəti qüvvədən düşür.

---

Sual: **2016**: Bir nəfər öz əmlakını vəqf edir ki, onun gəliri xüsusi xeyriyyə işlərində, məsələn seyyidlərə kömək, əzadarlıq məclislərinin təşkil olunması və s-də sərf olunsun. Hal-hazırda vəqfin mənfəətlərindən sayılan icarə qiyməti artması ilə bəzi müəssisələr və ya şəxslər vəqf olunmuş bu mülkü, imkanlarının azlığı, mədəni, siyasi, ictimai, yaxud dini və ya başqa səbəblər üzündən çox aşağı qiymətə icarə etmək istəyirlər. Vəqf idarəsinə, hazırkı qiymətdən aşağı qiymətə icarəyə verməsi caizdirmi?

Cavab: Vəqfin şəri nəzarətçisinə və vəqf işlərinin idarə olunmasında cavabdeh olan şəxsə vacibdir ki, icarəyə götürmək istəyən şəxslərlə əlaqədar və icarə məbləğinin təyin olumasında vəqfin məsləhət və mənafeyinə riayət etsin. Əgər icarə məbləğinin azaldılması icarəyə götürən şəxsin xüsusi şəraitdə olması ilə əlaqədar olsa, yaxud mülk hansı məqsədlə icarəyə verilirsə, bu iş çox əhəmiyyətli olsa və məhz buna görə vəqfin məsləhətinə olsa, bu işin heç bir eybi yoxdur. Əks halda isə caiz deyil.

---

Sual: **2017:** Mərhum İmam Xomeyninin “məscidin nəzarətçisi olmaz” - fətvası məscidə vəqf edilən əmlaka da şamil olurmu? Məsələn, məsciddə moizə məclisləri bərqərar etmək, şəriət hökmlərini bəyan etmək və xalqı düz yola hidayət etmək üçün vəqf edilən avadanlıqlara şamil olurmu? Cavabın müsbət olduğu fərz edilirsə, bunu da nəzərə alaq ki, məscidlərin çoxunda vəqf olunmuş əmlakın şəri və qanuni nəzarətçisi var. Vəqflər idarəsi də onlarla bir nəzarətçi kimi həmkarlıq edir. Bu vəqflərin nəzarətçilərinə nəzarət işindən kənara çəkilib onları idarə etmək vəzifəsini tərk etmələri caizdirmi? Halbuki, mərhum İmamın istiftaatında qeyd olunur ki, nəzarətçinin vəqf işlərini idarə etməkdən imtina etməyə haqqı yoxdur və ona vacibdir ki, vəqf edən şəxsin təyin etdiyi əsasda əməl etsin. Onun səhlənkarlıq etməsi də caiz deyil.

Cavab: Məscidin nəzarətçi qəbul etməməsi hökmü təkcə məscidin özünə aiddir və məscidin istifadəsi üçün vəqf olunan şeylərə şamil deyil. Deməli, məsciddə şəriət hökmlərinin təbliği, moizə məclisi, camaata düz yol göstərmək və s. kimi şeylərə vəqf olunan avadanlığa isə, təbii ki, aid olmaz. Deməli, xüsusi və ümumi vəqflərə, hətta məscidin avadanlığı, işıq, su kimi ehtiyaclarını təmin etmək üçün bir şey vəqf edilməsi, məscidin təmizlənməsi və bu kimi şeylər üçün nəzarətçi təyin edilməsinin heç bir eybi yoxdur. Bu işlərə təyin edilən nəzarətçinin bu qəbildən olan vəqflərdən imtina etməyə haqqı yoxdur

və o, vəqf edən şəxsin vəqf əqdində onun üçün qeyd etdiyi əsasda, hətta bir nəfəri bu işə naib seçməklə belə, vəqf işlərini idarə etməlidir. Heç bir kəsin də bu işə mane olmağa haqqı yoxdur.

---

Sual: **2018**: Vəqfin şəri nəzarətçisindən başqasına, vəqf işlərinə dəxalət etmək, vəqf işlərində təsərrüf etmək, yaxud vəqf əqdində qeyd olunan şərtləri dəyişdirməyə maneçilik törətmək caizdirmi? Onun üçün caizdirmi ki, nəzarətçidən vəqf olunan yeri, onun səlahiyyətli bilmədiyi bir şəxsə təhvil verməsini tələb etsin?

Cavab: Vəqfin işlərini, onu vəqf edən şəxsin vəqfi inşa edərkən təyin etdiyi şərtlərə əsasən idarə etmək haqqı yalnız xüsusi şəri nəzarətçinin səlahiyyətidir. Əgər vəqf edən şəxs tərəfindən təyin olunan xüsusi nəzarətçi olmazsa, onu idarə etmə haqqı müsəlmanların hakiminə məxsusdur, başqalarının ona dəxalət etmə haqqı yoxdur. Eləcə də heç bir şəxs, hətta şəri nəzarətçi üçün belə, vəqfi, vəqf olunduğu cəhətdən başqa yerə dəyişdirmək, onun inşasında qeyd olunan şərtləri dəyişdirmək haqqı yoxdur.

---

Sual: **2019**: Əgər vəqf edən şəxs bir nəfəri vəqf işlərinə nəzarət etmək üçün təyin etsə və onun vəqfə nəzarət etməkdən kənarlaşdırılması (lazım olduqda) yalnız müsəlmanların vəliyyi-əmrinin tərəfindən mümkün olmasını şərt etsə, onda həmin şəxsin özü özünü bu işdən kənarlaşdırması caizdirmi?

Cavab: Vəqf işlərinə nəzarət edən şəxsə, bu işi qəbul etdikdən sonra özü özünü işdən kənarlaşdırması caiz deyil, həmçinin bu iş vəqfin nəzarətçisi üçün də caiz deyil.

---

Sual: **2020**: Bizim məhəllədə bir hissəsi ümumi, bir hissəsi isə xüsusi istifadə üçün vəqf olunan yer var. Onu vəqf edən şəxs oranın idarə olunması üçün belə şərt qoyub: "Onun (hazırdakı) nəzarətçilərinin hamısı vəfat etdikdən sonra hər növbəti nəsildə oğlanlar içərisində ən böyük və ən səlahiyyətlisi vəqfin idarə olunma işlərini öhdəsinə götürməlidir. Bu işdə birinci nəsil həmişə ikinci nəsildən qabaqdır." Bir nəsil arasında qeyd olunan şərtlərə malik bir şəxs olsa, lakin vəqfin idarə işlərinə başçılıq etməkdən imtina etsə və öz içərilərində yaşca ən kiçik şəxsin bu işi görməsinə razılıq verib onu bu iş üçün ən səlahiyyətli və ən layiqli hesab edirsə, ən kiçik şəxsin, sair şərtlərə də malik olduğu halda, qeyd olunan vəqfin idarəsini öhdəsinə alması caizdirmi?

Cavab: Vəqfin idarə olunmasında nəzərdə tutulan şərtlərə malik olan şəxs nəzarətçiliyi qəbul etməkdən imtina edə bilər. Amma qəbul etsə, ehtiyata görə özünü bu işdən kənara çəkə bilməz, amma vəqf işlərini idarə etməyə ləyaqətli və əmanətdar olan başqa bir şəxsi bu işləri idarə etmək üçün özünə vəkil seçməsinin eybi yoxdur. Eləcə də birinci nəsildən olan bir şəxsdə, vəqfin idarə olunması üçün təyin olunan şərtlərə malik olan şəxsin olması ilə sonrakı nəsildən bir kəsə, vəqfin idarə olunmasını öhdəyə almaq caiz deyil.

---

Sual: **2021**: Mülkün vəqf olunduğu şəxslərdə (movqufun-əleyhlərdə) vəqfin idarə olunmasına lazım olan şərtlər mövcud olarsa, şəriət hakiminə müraciət edib özlərinin, bu işə öhdədar olmaq üçün təyin edilməsini tələb etsələr, lakin onlar vəqfi idarə etmək üçün lazım olan şərtlərə malik olmadığından müraciətlərinə baxılmadığı halda, onlar üçün həmin şərtlərə malik olan başqa şəxslə, onlardan yaşca kiçik olmasını əsas tutaraq mane olmaları caizdirmi?

Cavab: Vəqfin idarə olunması üçün lazım olan şərtlərə malik olmayan şəxsin vəqf işlərini öhdəsinə almağa və şərtlərə malik olan şəxslə müxalifət etməyə haqqı yoxdur.

---

Sual: **2022**: Vəqf işlərini idarə etmək üçün təyin edilən şəxs müəyyən səbəblərə görə vəqf işlərinin idarə olunmasında etinasızlıq göstərib nöqsanlı hallara yol versə, onu bu vəzifədən azad edib yerinə başqa bir adam təyin etmək caizdirmi?

Cavab: Vəqfin idarə olunma işlərində sadəcə səhlənkarlıq və ya nöqsanlı hallara yol vermək bu işlərə təyin olunan şəxsi işdən azad edib yerinə başqasını təyin etmək üçün şəri əsas ola bilməz. Bu məsələdə hökmən hakimə müraciət etmək lazımdır ki, həmin şəxsi vəqf işlərinə layiqincəsinə əməl etməyə vadar etsin. Vadar edə bilməsə, ondan tələb etməlidir ki, özünə, vəqf işlərini idarə etməyə səlahiyyəti olan bir vəkil seçsin, yaxud şəriət hakiminin özü əmanətdar bir şəxsi (nəzarətçi kimi) ona qoşmalıdır.

---

Sual: **2023**: Hamısının müsəlman olduğu halda, vəqfdən istifadə edən şəxslər üçün vəqf olunan şeylərə nəzarətçi təyin olunsun deyə, qeyri-müsəlman bir şəxsi vəqf idarəsinə təqdim etmək caizdirmi?

Cavab: Müsəlmanlar üçün vəqf olunan yerə qeyri-müsəlman bir şəxsin nəzarətçi olması caiz deyil.

---

Sual: **2024**: Vəqf edən şəxs tərəfindən təyin olunan şəxs və eləcə də onun tərəfindən təyin olunmayan kimdir? Əgər vəqf edən şəxs müəyyən bir şəxsi vəqf üçün təyin etsə və ona, özündən sonra nəzarətçi təyin etmə haqqı versə, onda birinci tərəfindən təyin olunan ikinci vəqf edən şəxs tərəfindən təyin olunan nəzarətçi sayılırmı?

Cavab: Təyin olunan nəzarətçi – vəqf edən şəxsin vəqfi inşa edərkən nəzarətçi kimi təyin etdiyi şəxsdir. Əgər vəqf edən şəxs, vəqfi inşa edərkən onun öz tərəfindən təyin etdiyi nəzarətçiyə, başqa bir nəzarətçi təyin etmək ixtiyarı vermiş olsa, onda onun (birinci) özündən sonra başqasını nəzarətçi seçməsinin eybi yoxdur. Bu halda onun vəqf işlərinə idarə etmək üçün təyin etdiyi şəxs də vəqf edən şəxsin tərəfindən təyin olunan şəxs hökmündədir.

---

Sual: **2025**: Vəqfin nəzarətçinin öz vəzifəsini vəqflər və xeyriyyə işləri idarəsinə həvalə etməsi caizdirmi?

Cavab: Vəqfin nəzarətçinin belə bir haqqı yoxdur, amma onun, vəqflər idarəsini, yaxud başqa bir şəxsi vəqf işlərini yerinə yetirmək üçün öz tərəfindən vəkil etməsinin eybi yoxdur.

---

Sual: **2026**: Məhkəmə vəqf işlərində nöqsanlı hallara yol verməsi və səhlənkarlıq etməsi ilə müttəhim olunan nəzarətçinin işlərinə nəzarət etmək üçün əmanətdar bir şəxs təyin etmişdir. Nəzarətçi də bu ittihamlardan özünə bəraət qazandırdıqdan sonra vəfat etmişdir. Bu halda həmin əmanətdar şəxsin haqqı çatırmı ki, (vəfat etmiş) nəzarətçinin ona nəzarətçi təyin olunmasından bir neçə il əvvəl çıxardığı qərar və qanunları imzalamaqla, qanunu qüvvəyə mindirməklə, yaxud qüvvədən salmaqla dəxalət edib nəzər versin? Yoxsa onun məsuliyyəti və nəzarətçilik haqqı (nəzarətçi) təyin olunduğu vaxtdan nəzarətçinin vəfatına qədər qüvvədədir? Nəzarətçiyə bəraət qazandırılması hökmü verildikdən etibarən, hələ də həmin əmanətdar şəxsin vəzifədən azad edilməsi barədə heç bir qərar çıxarılmadığını nəzərə alsaq, onda nəzarətçiyə, ittihamlardan bəraət hökmü verilməsi ilə ona təyin olunan əmanətdar şəxsin məsuliyyət və səlahiyyəti sona çatırmı? Yoxsa bu, məhkəmə tərəfindən onun işdən çıxarılmasına bağlıdır?

Cavab: Əgər həmin əmanətdar şəxsin şəri (qanuni) nəzarətçiyə başqa bir nəzarətçi təyin edilməsi vəqf işlərinin idarə olunması barədə ona edilən ittihamlar səbəbi ilə olmuşsa, onda yalnız nəzarət üçün təyin olunduğu işlərdə dəxalət edə bilər, onun ittihama məruz qalan nəzarətçinin işlərinə nəzarət etmə səlahiyyəti ona bəraət qazandırılan hökmün verilməsi və ittihamların aradan qalxması ilə eyni zamanda sona çatır. Eləcə də əvvəlki nəzarətçinin vəfatı və vəqfin idarə olunması işlərinin ondan sonra başqa bir şəxsin öhdəsinə keçməsi ilə həmin əmanətdar şəxsin vəqfin və yeni nəzarətçinin işlərinə dəxalət etmə haqqı yoxdur.

## Vəqf olunan şeyin şərtləri

---

Sual: **2027**: Bir neçə nəfər ehsan edən şəxslərdən pul toplayıb onunla ev alır və oranı Hüseyniyyə edirlər. Onların ehsan edilən pulları toplamaları, həmin evi hüseyniyyə kimi vəqf etməyə haqlı olmasına kifayət edərmi? Yoxsa ehsan edənlərdən bu işlə əlaqədar vəkalət də almalıdırlar? Bildiyimiz kimi, vəqf edən şəxsin şərtlərindən biri də budur ki, ya (vəqf etdiyi şeyin) sahibi, ya da sahibi hökmündə olsun. Onların vəqf etməyə haqqı olsun deyə, bu ehsanları bir yerə toplamaları onlara sahib adı verirmi?

Cavab: Əgər onlar həmin evi aldıqdan sonra hüseyniyyə adı ilə vəqf etməkdə ehsan edənlər tərəfindən vəkil olsalar, sahibləri tərəfindən vəkil kimi vəqf əqdini icra etmələri düzgündür.

---

Sual: **2028**: Yaranmasında heç bir insanın rolu olmayan və İran İslam Respublikasının konstitusiyasının 45-ci maddəsinə əsasən ənfaldan sayılan təbii örüşlər və meşələr vəqf oluna bilərmi?

Cavab: Vəqfin düzgün olmasında vəqf edən şəxsin əvvəlcədən (vəqf olunan şeyə) xüsusi şəri sahib olması şərt sayılır. Ümumi əmlak və ənfaldan sayılan təbii örüşlər və meşələr də heç bir kimsənin xüsusi mülkü olmadığından, kiminsə onları vəqf etməsi düzgün deyil.

---

Sual: **2029**: Bir nəfər əkin sahəsindən bir hissəsini müşa şəklində alıb rəsmi olaraq öz oğlunun adına sənədləşdirir. Oğlu üçün aldığı bu torpaq sahəsini vəqf etməsi caizdirmi?

Cavab: Mülkün sadəcə olaraq bir kəsin adına sənədləşdirilməsi adına yazılan şəxs üçün şəri mülkiyyət əsası deyil. Ata həmin torpaq sahəsini aldıqdan və oğlunun adına sənədləşdirdikdən sonra onu oğluna bağışlayıbsa və hədiyyənin təhvil alınması da düzgün tərzdə gerçəkləşibsə, onda atanın o mülkü vəqf etməyə haqqı yoxdur. Çünki artıq oranın sahibi deyil. Amma torpaq sahəsin yalnız sənəddə oğlunun adına keçirmiş olsa və əslində öz mülkiyyətində qalmış olsa, şərən onun sahibi sayılır və vəqf etmək haqqı da vardır.

---

Sual: **2030**: Neft şirkətinin və torpaq idarəsinin məsul işçiləri öz ixtiyarlarında olan ərazinin bəzi hissəsini məscid və dini mədrəsə tikmək üçün ayırmışlar. Vəqf əqdi də oxunmazdan əlavə, təhvil alınıb təhvil verilmə işləri sona çatmışdır. Belə olan halda bu kimi ərazilər vəqf olunmuş yer sayılırmı və vəqfin hökmləri ona da aid olurmu?

Cavab: Əgər bu ərazilər dövlətin ümumi mülkündəndirsə və onlar xüsusi işlərdə istifadə olunmaq üçün təyin olunmuşsa vəqf oluna bilməz. Amma dövlətin, neft şirkətinin, yaxud torpaq idarəsinin nəzarəti altında olan, heç bir kəsin şəxsi mülkiyyətində olmayan "məvat" (sahibsiz) ərazilərdən olarsa, onda əlaqədar məsul işçilərin icazəsi ilə məscid, mədrəsə və s. kimi şeylər tikilib abadlaşdırılmasının eybi yoxdur.

---

Sual: **2031**: Bələdiyyə idarəsinin özünün bəzi əmlakını ümumxalq istifadəsi üçün vəqf etməyə haqqı varmı?

Cavab: Bu məsələ, mülkün xüsusiyyəti və bələdiyyə idarəsinin qanuni səlahiyyətinin hansı həddə olmasına bağlıdır. Deməli, əgər qanun əsasında bələdiyyə idarəsi üçün yerli əhalinin poliklinika, xəstəxana, məscid və s. kimi ümumxalq mənafeyinə ayrılmağa caiz olan mülklərdən olsa, onda bu işin eybi yoxdur. Amma bələdiyyə idarəsinə aid olan işlərdə istifadə olunmaq üçün ayrılmış olsa, onda bələdiyyə idarəsi onu vəqf edə bilməz.

## Mülkün vəqf olunduğu şəxslərin şərtləri

---

Sual: **2032**: Yerli əhali torpaq şöbəsindən aldıqları bir yerdə məscid tikdikdən sonra onun ümumi, yoxsa xüsusi şəkildə vəqf olunmasında mübahisə yarandı. Bəziləri belə fikir irəli sürdülər ki, onun xüsusi vəqf adı ilə sənədləşdirilməsi vacibdir. Digər bir dəstə isə onun tikilişində bütün yerli əhalinin iştirak etdiyini nəzərə alıb dedi ki, ümumi vəqf kimi vəqf edilməsi vacibdir. Bu məsələnin hökmü nədir?

Cavab: Məscid ümumi vəqflərdəndir, onun məscid kimi vəqf olunmasında hansısa bir qrup camaata, tayfaya, yaxud da qəbiləyə məxsus edilməsi düzgün deyil. Ona ad verilməsinə gəldikdə isə, müəyyən münasibətlə əlaqədar hər hansı bir şəxsə, yaxud şəxslərə mənsub etməyin eybi yoxdur. Lakin məscidin tikilişində iştirak edən möminlər arasında bu məsələ ilə əlaqədar mübahisə yaranması yaxşı hal deyil.

---

Sual: **2033**: Azğın bir firqənin rəisi öz əmlakını həmin firqə üçün vəqf edib. Vəqfin düzgün olmasında vəqfin şəri yönə malik olmasının şərt sayıldığını, bu azğın firqənin məqsəd və məramlarının, əməl və inanclarının yanlış, batil və azğın olduğunu nəzərə almaqla, bu vəqf düzgün sayılırmı? Həmçinin, qeyd olunan həmin əmlakdan bu firqənin mənafeyinə istifadə etmək caizdirmi?

Cavab: Bu mülkün vəqf edildiyi yönün haram iş və (Allah dərgahında) günah və üsyankarlığa edilən köməyin nümunələrindən olması sübuta yetsə, onda belə vəqf batildir və bu əmlakdan şərən haram olan yerlərdə istifadə etmək düzgün deyil.

## Vəqf əqdinin ifadələri

---

Sual: **2034**: Bir məntəqənin əhalisi üçün təsis olunan Hüseyniyyədə o məntəqə əhalisi və orada təşkil olunan matəm mərasimi iştirakçılarının oranın vəqfnaməsində yazılanları təfsir etməkdə dəxalət etməyə haqqı vardırmı?

Cavab: Vəqfnamədə müəyyən anlaşılmazlıq mövcud olarsa onda yazılan qeyd və şərtləri başa düşmək üçün onda mövcud olan şahidlərə, yaxud yerli camaata müraciət etmək lazımdır. Heç kəsin də onu öz şəxsi rəyinə əsasən təfsir etmək haqqı yoxdur.

---

Sual: **2035**: Müəyyən bir yer dini elmlərin tədris olunması üçün vəqf edilmişsə, onda həmin yerdə təhsil alan tələbələr olduğu halda müsafirlər və adi camaatın oranın imkanlarından istifadə etməsi caizdirmi?

Cavab: Əgər həmin yer xüsusi şəkildə din tələbələrinə, yaxud din dərsləri tədris olunmasına vəqf olunubsa, başqalarının ondan istifadə etməsi caiz deyil.

---

Sual: **2036**: Vəqfnamədə belə yazılmışdır: "Vəqf əqdində şərt edilir ki, ümum əhalidən "münsiflər heyəti" kimi bir heyət seçilsin." Bu ifadə seçən şəxslərin təyin olunmasına dəlalət edirmi? Bu ifadənin seçən şəxslərin təyin olunmasına dəlalət etmədiyi fərz olunsa, münsiflər heyətini seçmək haqqı kimin öhdəsinədir?

Cavab: Qeyd olunan ifadədən münsiflər heyətini seçməkdə bütün əhalinin iştirak etməsinin lazım olduğu başa düşülür.

---

Sual: **2037**: «Ən səlahiyyətli» və «ən böyük» kimi qeydlər vəqf olunan şəxslər arasında yaşca ən böyük şəxsin nəzarətçi olmasında şərt qoymuş olsa, onda səlahiyyətli və ağıl sahibi olmasının isbat olunması da vacibdirmi, yoxsa təkcə yaşca ən böyük olmaq ən səlahiyyətli və ən rəşid olmağa bir əsl kimi şərt sayılır?

Cavab: Vəqfə öhdəçilik etməyin şərtlərindən hər biri hökmən aşkar olmalıdır.

---

Sual: **2038**: Bir şəxs öz əmlakını məhərrəm ayında və sair günlərdə Həzrət Əba Əbdillah Hüseyn (əleyhissalam)-ın əzadarlıq məclisi üçün vəqf edir. Özündən sonra isə öz övladlarını nəsilbənəsil bu işə nəzarətçi təyin edir, o əmlakın gəlirinin üçdə birini onun nəzarətçisinə ayırır. Müəyyən bir vaxtda vəqf edən şəxsin birinci, ikinci və üçüncü nəslindən (övlad, nəvə, nəticə) həm kişilər, həm də qadınlar mövcud olsa, onda vəqfi idarə etmə haqqı onların hamısına müştərək şəkildə aid olurmu və idarə etmə haqqı onların hamısının arasında bölüşdürülürmü? Hamısının arasında bölüşdürüldüyünü fərz etdikdə, kişilərlə qadınlar arasında bərabər şəkildə bölünür, yoxsa bu bölgü fərqlidir?

Cavab: İrs aparan dəstələrə uyğun olaraq, eləcə də əvvəl gələn dəstənin sonradan gələn dəstədən irəli olmasında ardıcıllığın nəzərdə tutulmasına hər hansı bir şahid olmayınca eyni vaxtda mövcud olan dəstələrin hamısı vəqfin idarə olunmasında bərabər və müştərək şəkildə olur. Bu iş üçün ayrılan haqq da heç bir fərq qoyulmadan kişi və qadınlar arasında bərabər şəkildə bölünməlidir.

---

Sual: **2039**: Vəqf edən şəxs özündən sonra vəqfin idarə olunmasında heç bir qeyd vurmadan, mütləq şəkildə alim və müctehidlərin öhdəsinə qoymuş olsa, onda müctehid olmayan bir alimin vəqfin idarə işlərini öhdəsinə almağa haqqı varmı?

Cavab: Vəqf edən şəxsin "alimlər" dedikdə xüsusi şəkildə müctehidləri nəzərdə tutduğu sübut olunmayınca, hətta ictihad dərəcəsinə çatmayan bir din aliminin bu işlərə öhdədar olmasının heç bir eybi yoxdur.

## Vəqfin hökmləri

---

Sual: **2040**: Bir neçə nəfər came məscidinin mədrəsəsinin otağı ilə məscidə birləşmiş olan Hüseyniyyənin mətbəxi arasında yerləşən kitabxananı, xüsusi nəzarətçinin icazəsi olmadan söküb məscidin bir hissəsi etmişlər. Onların bu işi düzdürmü? O yerdə namaz qılmaq caizdirmi?

Cavab: Əgər kitabxananın yerinin yalnız kitabxana kimi vəqf olunması sübut olunarsa, onda heç bir kəsin onu dəyişdirib məscidə çevirməyə haqqı yoxdur, orada namaz qılmaq da caiz deyil. Oranı sökən şəxsə də yenidən qurub əvvəlki vəziyyətinə qaytarması vacibdir. Amma o yerin xüsusi şəkildə kitabxana kimi vəqf olunması sübuta yetməzsə, onda orada namaz qılmağın eybi yoxdur.

---

Sual: **2041**: Bir yerin müvəqqəti olaraq, misal üçün, on il müddətində məscid kimi vəqf olunması və bu müddət başa çatdıqdan sonra vəqf edənin və ya onun vərəsələrinin mülkiyyətinə keçməsi caizdirmi?

Cavab: Bu iş müvəqqəti vəqf ilə düz deyil, oraya məscid adı da verilmir. Amma müəyyən müddətə qədər o yerin namaz qılanlar üçün qorunub saxlanılmasının işkalı yoxdur.

---

Sual: **2042**: Qəbristanlığın yanında camaatın ölülərinin dəfn olunacağı qədər geniş olmayan vəqf olunmuş bir yer var və o yerin şəraiti də qəbristanlıq üçün çox əlverişlidir. Oranı qəbristanlığa çevirmək caizdirmi?

Cavab: Ölülərin dəfn olunmasından başqa işlər üçün vəqf olunan yerin pulsuz olaraq qəbiristanlığa çevrilməsi caiz deyil. Amma əgər o, mənfəətin vəqf olunması kimi bir vəqf olsa və oranın şəri nəzarətçisi bu işi vəqfin mənfəət və məsləhətinə bilsə, ölülərin dəfn olunması üçün icarəyə verilməsinin eybi yoxdur.

---

Sual: **2043**: Vəqf olunan yerlərin bəziləri şəhərin genişləndirilib küçə, milli parklar və dövlət binaları tikilməsi üçün plana düşüb. Bəzi dövlət idarələri və müəssisələr şəri nəzarətçisinin icazəsi olmadan, eləcə də vəqfin icarəsini və pulunu vermədən o yeri müsadirə etmişdir. Onların bu işi şərən düzgündürmü? Vəqf olunan bu yerləri öz ixtiyarına keçirən və təsərrüf edən şəxs onun əvəzini və ya pulunu verməlidirmi? Təsərrüf etdiyi vaxtdan etibarən etdiyi təsərrüflər müqabilində ücrətül-misl (dəyərini) verməlidirmi? Müəssisə və idarələr tərəfindən onun əvəzində vəqf edilən yerin qiymətini, yaxud başqa bir şey vermək üçün şəriət hakimindən icazə almaq vacibdirmi? Yoxsa vəqflər idarəsi və ya vəqfin nəzarətçisi üçün vəqfin məsləhətini nəzərə almaqla onun pulunu, yaxud əvəzini almaqda razılaşması caizdir?

Cavab: Şəri nəzarətçinin icazəsi olmadan bir şəxsin vəqfdə təsərrüf etməsi caiz deyil. Eləcə də mənfəət vəqfi kimi olan yerlərdə də yalnız vəqfin nəzarətçisindən icazə aldıqdan sonra onda təsərrüf etmək caizdir. Vəqf olunduğu məqsəd üçün mənfəət verilməyə qabiliyyəti olan vəqfi satmaq, başqa bir şeyə çevirmək də caiz deyil. Əgər bir şəxs onu tələf etsə ona zamindir. Əgər onun şəri nəzarətçisinin icasi olmadan onda təsərrüf etsə, ücrətül-mislinə (dəyərinə) zamindir, onu şəri nəzarətçiyə verməlidir ki, (şəri nəzarətçi) onu vəqf olunduğu məqsədə sərf etsin. Bu məsələdə ayrı-ayrı şəxslər, müəssisələr və dövlət idarələri arasında heç bir fərq yoxdur. Vəqfin nəzarətçisinə hakimə müraciət etmədən onda təsərrüf edən, yaxud onu tələf edən şəxslə vəqfin məsləhətinə riayət etmək şərtilə dəyər və ya malın əvəzini vermək əsasında razılaşması caizdir.

---

Sual: **2044**: Bizim məntəqədə vəqf olunmuş bir torpaq sahəsi var. Onun yolu da yalnız mal-qaranın keçməsi üçün yararlıdır. İndi oranın qonşuluğunda yaşayış evləri tikildiyinə görə o yol genişləndirilməlidir. O yolun yarısının vəqf olunan yerdən, yarısının isə şəxsi mülkdən olmaqla iki tərəfə genişləndirilməsi caizdirmi? Caiz olmadığı təqdirdə yolun genişləndirilməsi üçün vəqfin nəzarətçisindən həmin miqdar yeri icarə etmək caizdirmi?

Cavab: Vəqf olunan yerin yola və ya keçidə çevrilməsi caiz deyil, yalnız ciddi zərurət olduqda, yaxud vəqf olunan yerdən istifadə etmək üçün yola ehtiyac duyulduqda caizdir. Lakin mənfəətə vəqf olunan yerin, vəqfin məsləhətini nəzərə almaqla gediş-gəliş yolunun genişləndirilməsi məqsədi ilə icarəyə verilməsinin eybi yoxdur.

---

Sual: **2045**: İyirmi il bundan əvvəl bir qədər tarpaq sahəsi yerli əhali üçün vəqf edilib ki, ölülərini orada dəfn etsinlər. Vəqf edən şəxs o yerin idarə olunmasını ilk növbədə özünə, özündən sonra isə vəqfnamədə qeyd etdiyi kimi, şəhər alimlərindən birinə həvalə etmişdir. Bu alimin vəfatından sonra da nəzarətçinin seçilmə qaydasını təyin etmişdir. Hazırkı nəzarətçinin vəqfin özünü, yaxud onun bəzi şərtlərini dəyişdirməyə, yaxud da ona bəzi şərtlər əlavə etməyə haqqı varmı? Bu cür dəyişiklik o yerin vəqf olunduğu məqsədə təsir qoyursa, məsələn, onu dayanacaq kimi qərar versə, onda vəqfin mövzusu öz halında qalırmı?

Cavab: Vəqfin şərən gerçəkləşməsi ilə qüvvəyə minib nüfuzlu olduğunu fərz etdikdə artıq, vəqf edən şəxsə və vəqfin nəzarətçisinə vəqfi dəyişdirmək, bəzi şərtlərini dəyişdirmək, hansısa yeni şərti ona əlavə etmək caiz deyildir. Vəqfin əvvəlki vəziyyətindən dəyişdirilməsi ilə vəqf olmaq aradan getmir.

---

Sual: **2046**: Bir nəfər öz mağazasını məscidin nəzdindəki qərzül-həsənə (faizsiz borc vermə) fondunun fəaliyyəti üçün vəqf edib. O şəxs vəfat etdikdən bir neçə il sonraya qədər o yer bağlı qalıb, hal-hazırda isə uçub-dağılmaq ərəfəsindədir. Oranı başqa işlərdə istifadə etmək caizdirmi?

Cavab: O mağazanın qərzül-həsənə fondunun fəaliyyəti üçün vəqf edilməsi tam gerçəkləşmiş olsa və hal-hazırda həmin məsciddə qərzül-həsənə fondu açmağa ehtiyac olmasa, onda başqa məscidlərin nəzdində fəaliyyət göstərən qərzül-həsənə fondları üçün ondan istifadə etməyin eybi yoxdur.

---

Sual: **2047**: Bir nəfər bir qədər torpaq sahəsini suyu ilə birlikdə vəqf etmişdir ki, məhərrəm və səfər aylarında "Həyy" məscidinə imam Hüseyn (əleyhissalam)-a, yaxud İmam Əmirəl-möminin Əli (əleyhissalm)-ın şəhid olduğu gecədə Əli(ə)-a matəm mərasimi keçirilsin. Sonradan öz vərəsələrindən birinə vəsiyyət etmişdir ki, həmin torpaq sahəsini Səhiyyə nazirliyinin ixtiyarına versin ki, orada xəstəxana tikilsin. Bu işin hökmü nədir?

Cavab: Vəqfi, mənfəət vəqfindən gəlirsiz vəqfə çevirmək caiz deyil. Amma o torpaq sahəsinin xəstəxana tikilməsi üçün icarəyə verilərək icarə pulunun vəqfdə nəzərdə tutulan istiqamətdə sərf olunmasının heç bir eybi yoxdur. Bu şərtlə ki, vəqfin məsləhəti bunda olsun.

---

Sual: **2048**: Vəqf olunan torpaqlarda məscid və ya hüseyniyyə tikmək caizdirmi?

Cavab: Vəqf olunan ərazilərin ikinci dəfə məscid, hüseyniyyə və sair kimi adlarla vəqf olunması caiz deyil. Hər hansı bir şəxs üçün də o yerləri pulsuz olaraq camaatın ehtiyac duyduğu namazxana və s. kimi ümumi yerlərin tikilməsinə ayırmaq caiz deyil. Lakin həmin yerlərin şəri nəzarətçisi tərəfindən oranın namazxana, mədrəsə, Hüseyniyyə və s. tikilməsi üçün icarəyə verilməsinin heç bir eybi yoxdur. Həmin yerlərin icarə haqqı da vəqf üçün nəzərdə tutulan istiqamətdə xərclənməlidir.

---

Sual: **2049**: "Xüsusi vəqf" və "ümumi vəqf"in mənası nədir? Bəziləri deyirlər ki, xüsusi vəqf, vəqf edən şəxsin nəzərinin əksinə olaraq, dəyişdirilə və ya şəxsi mülkə keçirilə bilər. Bu fikir düzgündürmü?

Cavab: Vəqfin xüsusi və ya ümumi olmasında onun vəqf edildiyi şəxslər nəzərə alınır. Deməli, insanın (bir şeyi) öz övladları və ya başqa bir şəxsə və onun övladları kimi müəyyən şəxslərə vəqf etməsi xüsusi vəqfdir. Ümumi vəqf dedikdə isə, ümumxalqın mənfəət və istifadəsi cəhətində vəqf olunan şeylər nəzərdə tutulur. Məsələn, məscidlər, (ümumi) istirahət yerləri, mədrəsələr və bu kimi şeylər yaxud ümumi ünvanlarla vəqf edilsin, məsələn, yoxsullara, yetimlərə, xəstələrə, yolda qalanlara və s. kimi işlərə vəqf edilsin. Bu üç qisimdən olan vəqflər arasında, hökm və onun təsirləri baxımından fərqlənsələr belə onların vəqfin əsli baxımından heç bir fərq yoxdur. Məsələn, ümumi istifadə üçün, eləcə də ümumi ünvanlarda vəqf edilən şeylərdə vəqf əqdinin bir kəsin tərəfindən qəbul edilməsi, eləcə də xaricdə vəqf edilən şəxslərin mövcud olması şərt

deyil. Halbuki, bu işlər xüsusi vəqflərdə şərtdir. Habelə, ümumi istifadə üçün vəqf edilən məscid, mədrəsə, qəbristanlıq, körpü və s. kimi intifa vəqfinin heç bir halda, hətta xarab olsalar belə, satılması caiz deyil. Amma xüsusi vəqflərdə və mənfəət götürmək şərti ilə vəqf olunan ümumi ünvanlı vəqflərdə belə deyil. Belə ki, bəzi istisna (xüsusi) hallarda onları satmaq və ya başqa yerə çevirmək caizdir.

---

Sual: **2050**: 1263-cü hicri şəmsi ilinə aid olan əlyazma Quran məscidə vəqf olunmuşdur. Hal-hazırda o, tələf olmaq üzrədir. Onu yenidən cildləmək və bu müqəddəs və qiymətli əsəri qorumaq üçün şəri icazəyə ehtiyac varmı?

Cavab: Qurani-Kərimi həmin məsciddə saxlamaq və onun cild və vərəqlərini düzəldib sahmana salmaq üçün hakimdən xüsusi şəkildə icazə almağa heç bir ehtiyac yoxdur.

---

Sual: **2051**: Vəqfi qəsb edib onda, vəqf edildiyindən başqa məqsədlərdə təsərrüf etmək ücrətül-mislə (dəyərinə) zamin olmasına səbəb olurmu? Onun tələf edilməsi, misal üçün, vəqf olunmuş binanı sökdükdə və ya vəqf olunmuş yeri küçəyə çevirdikdə əvəzinə (mislinə) və ya qiymətinə zamin olmağa səbəb olurmu?

Cavab: Övlada vəqf edilən xüsusi vəqflər kimi, eləcə də mənfəət tipli vəqf olan ümumi vəqfləri qəsb edib onda vəqf olunduğundan başqa işlərdə istifadə etmək və ya birincidə vəqfin sahiblərinin icazəsi olmadan, ikincidə isə şəri nəzarətçinin icazəsi olmadan təsərrüf etdikdə vəqfin özünün və ya mənfəətinin zamini olur, bu zaman istifadə etdiyi və istifadə etmədiyi mənfəətlərin əvəzini qaytarması vacibdir. Eləcə də malın özü qalmış olduqda özünü, şəxsin özünün vasitəsi ilə və ya onun işi nəticəsində tələf olduqda isə əvəzini qaytarmaq vacibdir. Onun mənfəətinin əvəzi vəqfin vəqf edildiyi istiqamətdə sərf edilməlidir. Vəqf olunan malın əvəzi isə tələf olan vəqfin əvəz vəqfində işlədilməlidir. Məscid, mədrəsə, karvansara, körpü, qəbristanlıq və s. kimi intifa tipli ümumi vəqflərdə, eləcə də vəqfin edildiyi şəxslərin istifadəsi üçün ümumi adla vəqf olunanlarda isə bir kəs onları qəsb edib vəqf edilərkən nəzərdə tutulan işlərdən başqa bir mənfəət alarsa, onda karvansara, mədrəsə və hamam kimi şeylərdə etdiyi təsərrüflərin ücrətül-mislini (dəyərini) verməlidir, amma məscid, qəbristanlıq, ziyarətgah və körpülərdə etdiyi təsərrüfün ücrətül-mislinə (dəyərinə) zamin deyil. Bu kimi vəqf olunan şeylərin özünü, tələf etdikdə onların qiymətinə və ya mislinin əvəzinə zamindir və bunlar da tələf olmuş vəqfin vəqf olunduğu istiqamətdə sərf edilməlidir.

---

Sual: **2052**: Bir şəxs öz mülkünü kənddə İmam Hüseyn (ə) üçün əzadarlıq məclisi təşkil edilməsinə vəqf etmişdir. Lakin vəqfin nəzarətçisi vəqfnamədə qeyd olunan o kənddə əzadarlıq məclisi təşkil edə bilmir. İndi əzadarlıq məclisini onun yaşadığı şəhərdə bərqərar etməsi caizdirmi?

Cavab: Əgər vəqf məhz xüsusi şəkildə, həmin kənddə əzadarlıq məclisi təşkil edilməsi üçün vəqf olunubsa, həmin kənddə vəqfə əməl etmək, hətta orada bir şəxsi vəkil etməklə olsa belə, mümkün oluncaya qədər onu başqa bir yerdə təşkil etmək haqqı yoxdur. O, həmin kənddə bir şəxsi vəkil tutmalıdır ki, əzadarlıq məclisini bərqərar etsin.

---

Sual: **2053**: Məscidin qonşularına, evlərinin binalarındakı dəmirləri qaynaq etmək üçün məscidin işığından istifadə etmələri caizdirmi? Bu şərtlə ki, istifadə olunan elektrik enerjisinin pulunu, hətta artıqlaması ilə məscidin idarə olunmasını öhdəsinə alan şəxslərə versinlər. Məscidin məsullarının məscidin elektrik enerjisindən istifadə etmək icazəsini vermələri caizdirmi?

Cavab: Məscidin elektrik enerjisini şəxsi işlər üçün istifadə etmək caiz deyildir. Məscidin məsullarına da bu kimi icazələri vermək caiz deyil.

---

Sual: **2054**: Bizim yerdə vəqf olunmuş bir bulaq vardır. Uzun illər boyu ümumxalq tərəfindən istifadə olunmuşdur. Ondan müxtəlif yerlərə və ya şəxsi evlərə su boruları çəkmək şərən caizdirmi?

Cavab: Oradan su borularının çəkilişi vəfqin dəyişilməsi və onun vəqf olunduğu məqsəddən başqa işlər üçün istifadə sayılmazsa, həmçinin digər vəqf olunan şəxslərin bu sudan istifadə etməsinə mane olmazsa, eybi yoxdur, əks halda isə caiz deyil.

---

Sual: **2055**: Bir torpaq sahəsi həm matəm mərasimi keçirilməsi, həm də dini tələbələr üçün vəqf edilmişdir. Bu yer kəndin əsas yolunun kənarında yerləşir. Hazırda kənd əhalisindən bəziləri onun o biri tərəfindən ikinci bir yol salmaq istəyir. Bu yolun salındığı təqdirdə həmin sahənin qiymətinin qalxacağını fərz etdikdə bu işi görmək caizdirmi?

Cavab: Vəqf olunan torpaq sahəsinin sadəcə olaraq bir hissəsində yol salınması nəticəsində qiymətinin qalxması vəqf olunan yerdə təsərrüf etməyə və onu yola çevirməyə şəri əsas sayıla bilməz.

---

Sual: **2056**: Məscidin yaxınlığında bir ev vardır. Sahibi onu məscidin imam-camaatının yaşaması üçün vəqf etmişdir. Lakin hal-hazırda onun ailəsinin böyüklüyünə, müraciət edənlərin çoxluğuna və bir sıra başqa səbəblərə görə həmin yerdə yaşaması münasib deyil. Onun özünün də yaşadığı bir evi var, o evin bir qədər təmirə ehtiyacı var. Onu təmir etmək üçün müəyyən qədər borc etmişdir. O, vəqf olunan evi icarəyə verib icarə pulunu hal-hazırda yaşadığı evin təmirinə və ya bu evə görə etdiyi borclarının ödənməsinə verə bilərmi?

Cavab: Əgər bu mənzil məscidin imam-camaatının yaşaması üçün intifa qəbilindən olan vəqfdirsə, onda, hətta onun icarə haqqını öz borclarını qaytarmaq və ya yaşadığı evi təmir etmək üçün istifadə etmək məqsədi ilə olsa belə, şərən onu icarəyə vermək haqqı yoxdur. Əgər mənzil kiçik olduğuna görə ailəsinin yaşayış yeri, qonaqların gəliş-gedişi və müraciət edənlərə cavab verməsinə görə onun bütün ehtiyaclarını təmin edə bilmirsə, onda bu evdən gecə-gündüzün bəzi saatlarında, misal üçün, müraciət edənlərə cavab vermək üçün istifadə etsin, yaxud o evi orada yaşayan başqa bir məscidin imam-camaatına versin.

---

Sual: **2057**: Karvanların istirahəti üçün icarəyə verilən karvansara vəqfdir. Onun nəzarəti o yerin qarşısında yerləşən hazırkı məscidin ratib (daimi) imam-camaatının ixtiyarındadır. Bu məsələ dəqiq şəkildə mərcəyi-təqlidlərə bəyan olunmadığından, o söküldü və yerində hüseyniyyə tikildi. Bu məkanın mənfəətləri dəyişiklik edilməzdən əvvəlki halətində qalırmı?

Cavab: Mənfəət tipli vəqf olan karvansaranı intifa tipli hüseyniyyəyə çevirmək caiz deyil, əksinə, karvansara binası əvvəlki vəziyyətinə qaytarılmalıdır ki, karvanlara və müsafirlərə icarəyə verilsin, icarə haqqı da vəqf edən şəxsin nəzərdə tutduğu istiqamətdə sərf olunsun. Lakin onun şəri nəzarətçisi vəqfin qısamüddətli və uzunmüddətli məsləhətinin o yerdə dini mərasimlərin (ayinlərin) bərqərar edilməsi üçün icarəyə verib icarə haqqının vəqf olunan istiqamətdə sərf olunmasında görsə, onda bu iş caizdir.

---

Sual: **2058**: Məscidin həyatində tikilmiş dükanı sərqüfli şəkildə satmaq caizdirmi?

Cavab: Məscidin həyatində mağaza tikmək şərən icazəli olsa, vəqfin xeyir və məsləhətinə riayət etmək şərti ilə və oranın şəri nəzarətçisinin icazəsi ilə eybi yoxdur. Əks halda dükanın binası sökülməli, onun yeri isə əvvəldə olduğu kimi, məscidin həyatinə əlavə edilməlidir.

---

Sual: **2059**: Bəzi hallarda müəyyən dövlət müəssisələri və sair müəssisələr məcburiyyət üzündən bənd tikmək, su elektrik stansiyaları qurmaq, ümumi (milli) park salmaq və s. kimi texniki işləri yerinə yetirmək üçün vəqf olunmuş yerlərdə təsərrüf etməyə məcbur olurlar. Bu kimi layihələrin icraçıları şərən onların əvəzini və ya ücrətini (dəyərini) verməyə borcludurmu?

Cavab: Xüsusi vəqflərdə oranı icarəyə götürmək və ya pulla almaq üçün vəqf olunan şəxslərə müraciət etmək lazımdır. Ümumi və gəlirinin vəqf olunan istiqamətdə sərf olunması nəzərdə tutulan mənfəət tipli vəqflərdə isə, onlarda təsərrüf etmək üçün vəqfin şəri nəzarətçisindən icarəyə almaq və icarə haqqını ona vermək lazımdır ki, o pullar vəqf istiqamətində sərf edilsin. Bu qəbildən olan vəqflərdəki təsərrüflər malın özünün tələf edilməsi hökmündədirsə, zəmanətə səbəb olur. Bu halda təsərrüf edən şəxs vəqf olunan malın əvəzini, gəliri vəqf istiqamətində sərf edilsin deyə vəqfin nəzarətçisinə verməlidir ki, onunla başqa bir mülk alıb birinci vəqfin yerinə vəqf etsin.

---

Sual: **2060**: Bir neçə il bundan əvvəl bir şəxs tikintisi yarımçıq qalmış bir yeri icarəyə götürmüş və elə o zaman da icarəyə verən şəxsə sərqüfli qiymətini vermiş, sonra sahibinin icazəsi və icarə etdiyi malın özü ilə təkmil etmişdir. İcarə müddəti əsnasında onun yarısını rəsmi dövlət sənədi ilə sahibindən almışdır. İndi isə iddia edilir ki, o tikili vəqfdir və nəzarətçinin naibi də iddia edir ki, sərqüfli haqqını yenidən verməlidir. Bu məsələnin hökmü nədir?

Cavab: Həmin tikilinin yerinin vəqf olduğu sübuta yetsə və ya icarə götürənin özü bu işi etiraf etsə, yerin mülkiyyətini iddia edən şəxsdən, vəqf olunan tikilinin yerindən aldığı imtiyazların heç bir etibarı yoxdur. Qeyd olunan tikilidə təsərrüfün davam edə bilməsi üçün vəqfin şəri nəzarətçisi ilə yenidən razılaşıb əqd bağlaması vacibdir. Öz pulunu da sahiblik iddiası edən şəxsdən ala bilər.

---

Sual: **2061**: Bir yerin vəqf olduğu məlum, vəqfin hansı cəhətdə olması isə naməlum olmasa, bu yerdə yaşayanların və əkin əkənlərin vəzifəsi nədir?

Cavab: Əgər vəqf olunan yerin xüsusi bir nəzarətçisi olsa, o yerdən istifadə edənlərin ona müraciət edib o yeri ondan icarəyə almaları vacibdir. Amma xüsusi bir nəzarətçisi olmasa, onun müqəddəratı şəriət hakiminin öhdəsinədir, o yerdə təsərrüf edənlər də ona müraciət etməlidirlər. Amma vəqfin (harada xərclənməsi ilə əlaqədar) müxtəlif ehtimallar verilən gəlirinə gəldikdə isə, əgər bu ehtimallar seyyidlər, fəqirlər, alimlər, filan şəhərin əhalisi və s. kimi qeyri-müəyyən ifadələr olsa, onların arasında yəqini miqdar olana sərf edilməsi vacibdir. Əgər ehtimallar qeyri-müəyyən olsa, bu halda yalnız müəyyən işlərdən ibarət olsa, onun sərf olunmasını püşk yolu ilə təyin etməlidirlər. Əgər ehtimallar saysız-hesabsız işlər arasında olarsa, bu halda əgər saysız-hesabsız şəxslər və ya ünvanlar arasında olarsa, məsələn, bir torpaq sahəsi övladlar üçün vəqf edilmiş olsa, amma qeyri-müəyyən şəxslərdən hansının övladlarına vəqf edilməsi məlum olmasa, onda bu kimi vəqfin mənfəəti məchulul-malik (sahibi məlum olmayan mal) hökmündə olacaq və bu halda onun fəqirlərə sədəqə verilməsi vacibdir. Əgər ehtimallar qeyri-müəyyən cəhətlər arasında olsa, məsələn, vəqfin məscid, ziyarətgah, körpü salmaq, zəvvarlara kömək və s. kimi işlər arasında tərəddüddə olsa, bu kimi hallarda vəqfin gəlirinin ehtimal olunan hallardan kənara çıxmamaq şərti ilə xeyir işlərdə sərf edilməsi vacibdir.

---

Sual: **2062**: Bir torpaq sahəsi uzun illərdən bəri qəbristanlıq olmuşdur. Orada imam (ə) övladlarından biri də dəfn ediilmişdir. Otuz il bundan öncə orada ölülərin yuyulması üçün bir yer də düzəldiblər. Amma bu yerin ölülərin dəfn olunması üçünmü, yoxsa orada dəfn olunan imam övladı üçün vəqf edilməsi məlum deyil. Biz də orada tikilmiş ölü yuyulan yerin şərən düzgün olub-olmadığını bilmirik. Bunları nəzərə alaraq, o yerin əhalisinin ölüləri orada yumaları caizdirmi?

Cavab: Bu işin o yerin vəqf olması ilə ziddiyyət təşkil etmədiyi vaxta qədər keçmişdə olduğu kimi, onların öz ölülərini bu məkanda yumaları, eləcə də ölülərini imamzadənin qəbri kənarında dəfn etmələri caizdir.

---

Sual: **2063**: Bizim məntəqədə camaatı ağac əkib, əkinçiliklə məşğul olduğu bəzi yerlər vardır. Əhali arasında belə bir söz var ki, o yer bu məntəqədə dəfn olunan imamlardan birinin övladı üçün vəqf edilib və o yerin nəzarətçisi də orada yaşayan seyyidlərdir. Amma o yerin vəqf olunmasına heç bir dəlil yoxdur. Həmçinin demişlər ki, keçmişdə onun vəqf olması barədə vəqfnamə də var imiş, lakin yanğın nəticəsində tələf olubdur. Keçmiş rejim dövründə camaat o yerlərin bölüşdürülməsinin qarşısını almaq üçün onun vəqf olmasına şəhadət vermişlər. Bəziləri də deyirlər ki, seyyidlərə hörmət edən şahlardan birinin dövründə o yerlər vergidən azad edilmək üçün seyyidlərə vəqf edilmişdir. İndi bu yerlərin hökmü nədir?

Cavab: Vəqfin sübut olunmasında yazılı vəsiqənin (vəqfnamənin) olması vacib deyil. Vəqfin sübut olunması üçün o yerin ixtiyarında olduğu şəxsin və ya onun vəfatından sonra vərəsələrinin həmin mülkün vəqf olmasını etiraf etməsi kifayətdir. Həmçinin elə əvvəldən bu mülklə vəqf kimi davranılması, yaxud onun vəqf olmasına iki ədalətli kişinin şahidlik etməsi, yaxud da camaat arasında elm və xatircəmlik gətirəcək tərzdə məşhur olması ilə də vəqf olması sübut olunur. Onun vəqf olmasına dair qeyd olunan bu dəlillərin biri mövcud olduqda onun vəqf olmasına hökm olunur, əks halda isə kimin ixtiyarındadırsa, həmin şəxsin mülkü olmasına hökm edilir.

---

Sual: **2064**: Bir mülkün vəqf olmasını göstərən vəqfnamə tapılmışdır ki, tarixi beş yüz il bundan əvvələ gedib çıxır. İndi o yerin vəqf olmasına hökm olunurmu?

Cavab: Məzmununun düzgün olmasına xatircəm olmayınca, sadəcə olaraq vəqfnamənin tapılması onun vəqf olmasına şəri bir sübut sayılmır. Lakin o mülkün vəqf olması camaat arasında, xüsusilə yaşlılar arasında məşhur bir iş olsa və onun vəqf

olması barədə elm və ya xatircəmlik gətirsə, həmçinin ixtiyarında olan şəxs onu iqrar etsə və ya əvvəllər də o mülklə vəqf kimi davranılması aşkar olsa, bu halda onun vəqf olmasına hökm edilir. Ümumiyyətlə, zamanın keçməsi mülkün vəqflikdən çıxmasına səbəb olmaz.

---

Sual: **2065**: Mən bulaq suyunun üç hissəsini atamdan irs aparmışam. İndi bilmişəm ki, atamın aldığı üç hissə su 15 payı vəqf olan yüz paydan imiş. İndi mənim ixtiyarımda olan üç hissənin vəqf olunanlardanmı, yoxsa satıcının öz mülkündən olması məlum deyil. Mənim bu barədə vəzifəm nədir? Bu üç hissənin al-veri batildirmi və mən onun hal-hazırda diri olan satıcısından pulumu tələb edə bilərəmmi?

Cavab: Əgər satıcı, müştərək sudan satdığı miqdarı al-ver edən zaman onun şəri sahibi olmuşsa və təkcə sahibi olduğu miqdarımı, yoxsa öz mülkü ilə vəqf olunan mülk arasında müştərək olan miqdarı satması məlum olmasa, onda al-verin düz olmasına hökm olunur. Həmçinin müştərinin aldığı şeyin öz mülkiyyətində olmasına və irs nəticəsində vərəsələrinə qalmasına hökm olunur.

---

Sual: **2066**: Alimlərdən biri mal-dövlətinin bir hissəsini – əkin sahələrini və bağını xüsusi şəkildə vəqf etmişdir. O, bu barədə bir vəqfnamə də yazaraq aşkar şəkildə qeyd etmişdir ki, vəqfin bütün şərtlərinə əməl etmiş və şəri vəqf əqdini icra etmişdir. Vəqfnamədə də elm əhlindən olan on nəfərin adını yazmışdır. Bu vəqfnaməyə əsasən həmin əmlakın vəqf olmasına hökm olunurmu?

Cavab: Əgər onun, vəqf əqdini oxumazdan əlavə, vəqf olunan şeyləri, vəqf etdiyi adamlara, yaxud şəri vəqf nəzarətçilərinə təhvil verməsi və onların ixtiyarına keçməsi sübuta yetsə, onda qeyd olunan bu vəqfin düzgün və vacib olmasına hökm olunur.

---

Sual: **2067**: Bir qədər torpaq sahəsi Səhiyyə nazirliyinə (idarəsinə) bu şərtlə vəqf olunub ki, orada xəstəxana və ya sağlamlıq mərkəzi tikilsin. Amma səhiyyə idarəsindəki məsul işçilər bu vaxta qədər sağlamlıq mərkəzi və ya xəstəxana tikmək üçün heç bir tədbir görməmişlər. O yeri vəqf edən şəxsin torpaq sahəsini geri alması caizdirmi? Torpaq sahəsinin sadəcə olaraq səhiyyə idarəsinə təhvil verilməsi onun vəqf olmasının gerçəkləşməsinə kifayətdirmi? Yoxsa orada nəyinsə tikilməsi də şərt sayılır?

Cavab: Torpaq sahibinin öz yerini səhiyyə idarəsinin məsul işçilərinə təhvil verməsi vəqfi şəri cəhətdən (düz olan tərzdə) icra edilməsindən – vəqfin şəri nəzarətçilərinə təhvil vermək adı ilə verməsindən sonra olmuşsa, onda oranı yenidən geri almağa haqqı yoxdur. Amma qeyd olunan iki işdən heç biri gerçəkləşməmiş olsa, öz torpaq sahəsini onlardan ala bilər.

---

Sual: **2068**: Sahibi bir qədər torpaq sahəsini məscid tikilməsi üçün məntəqənin din aliminin hüzurunda və iki ədalətli şahidin iştirakı ilə vəqf etmişdir. Bir müddətdən sonra bəzi şəxslər oranı öz ixtiyarına keçirib yaşayış evləri tikmişlər. Bu şəxslərin və vəqfin nəzarətçisinin vəzifəsi nədir?

Cavab: Əgər torpaq sahəsinin vəqf olunması, icra edildikdən sonra vəqf olunan şeyin əldə olunması vəqf edən şəxsin icazəsi ilə onun şəri nəzarətçisinə təhvil verilməsi gerçəkləşmiş olsa, vəqfin bütün hökmləri ona aid olacaqdır, başqalarının da orada özləri üçün tikdikləri yaşayış evləri qəsb sayılır. Onlara vacibdir ki, evləri söküb o yeri boşaltsınlar, sonra isə yeri oranın şəri nəzarətçisinə təhvil versinlər. Əks halda o yer şəri sahibinin mülkiyyətində qalır, başqalarının da ondan istifadə etməsi sahibinin icazəsindən asılıdır.

---

Sual: **2069**: Bir nəfər səksən il bundan əvvəl bir qədər torpaq sahəsi almışdır. Onun vəfatından sonra da vərəsələri həmin yerdə çoxlu müamilələr etmişlər. Bu yeri birinci müştəridən pulla alan sonrakı müştərilərin hamısı da vəfat etmiş, həmin yer də onların vərəsələrinin ixtiyarına keçmişdir. Axırıncı qrup da o yeri təqribən qırx il bundan əvvəl rəsmi şəkildə öz adlarına keçirib. Mülkiyyətlərinə dair rəsmi sənədi aldıqdan sonra orada özləri üçün yaşayış evləri tikmişlər. İndi isə bir nəfər iddia edir ki, bu yer, sahibinin övladlarına vəqf edilmişdi və onların bu yeri satmağa haqları yoxmuş. Bu uzun müddət ərzində (səksən il) heç kəsin belə bir iddia etmədiyini, onun vəqf olmasına dair yazılı bir sənədin də olmadığını, heç kimin də onun vəqf olmasına şəhadət vermədiyini nəzərə alsaq, hazırkı sahiblərinin vəzifəsi nədir?

Cavab: Onun vəqf olmasını və satışının caiz olmamasını iddia edən şəxs öz iddiasını əsaslı şəkildə isbat etməyincə həmin yerdə icra olunan müamilələrin düzgün olmasına və hal-hazırda torpaq sahəsi ixtiyarlarında olan şəxslərin mülkü olmasına hökm edilir.

---

Sual: **2070**: Vəqf olunmuş üçkəhrizli bir torpaq sahəsi vardır. Bir neçə il ardıcıl quraqlıq davam etdiyindən, bələdiyyə idarəsi əhalinin içməli suya olan ehtiyacını təmin etmək üçün onun iki kəhrizini (vəqfin şəri nəzarətçisindən) icarəyə götürmüşdür. Amma məntəqənin dini tələbələrinə və vəqf edənin övladlarına vəqf edilmiş üçüncü kəhrizin suyu quruyub batmış, nəticədə onun suyundan suvarılan yerlər isə dəmyə sahələrə çevrilmişdir. İndi isə şəhərin torpaq idarəsi iddia edir ki, bu torpaqlar sahibi olmayan yerlərdir. Bir neçə il əkin əkilmədiyinə görə bu yerlər sahibi olmayan torpaqlara çevrilirmi?

Cavab: Uzun illər keçsə də əkin işlərinin tərk edilməsi ilə vəqf olunmuş ərazilər vəqflikdən çıxmır.

---

Sual: **2071**: İmam Rza (ə)-ın müqəddəs ziyarətgahına vəqf olunmuş bir torpaq sahəsində örüşlər və meşələr vardır. Amma bəzi məsul təşkilatlar örüşlərə və meşələrə aid olan qanunlara istinad edərək bu örüş və meşələrə ənfal hökmü vermişlər. Bu halda vəqf olunan mülklərdə yerləşən meşə və örüşlər orada yerləşən sair ərazilər kimi vəqfin hökmünə malikdirmi və onlar barəsində vəqfə aid olan işlərə əməl etmək vacibdirmi?

Cavab: Vəqf olunan ərazilərin qonşuluğunda yerləşən örüşlər və meşələr onun sahəsindən sayılırsa, onda onlar da vəqf hökmündə olub vəqfə tabedir, ənfal və ümumi mülklərin hökmü onlara aid deyil. O sahənin hədd-hüdudunun ayırd edilməsi və onun qədəri yerli əhalinin və bu barədə mütəxəssis olanların nəzərinə bağlıdır.

---

Sual: **2072**: Qırx il bundan əvvəl bir neçə torpaq sahəsi yetimlərin saxlanıb tərbiyə edilməsi üçün vəqf edilib. Həmin vaxtdan indiyə qədər bu vəqfə uyğun şəkildə əməl edilib. Vəqflər idarəsinin təyin etdiyi bir şəxs də oranın nəzarətçisidir. Lakin son zamanlar bir adi sənəd tapılıb və iddia olunur ki, o, köhnə sənədin üzündən çıxarılıb. Onda deyilir ki, bu ərazilər üç yüz il bundan əvvəldən indiyə kimi vəqf olunub. Vəqfin daha qədim olması iddia edilən əsl sənədin mövcud olmadığını, eləcə də mövcud olan nüsxənin kamil olmadığını və onda nəzarətçi təyin olunmadığını¸əvvəllər onun barəsində vəqfə əməl edilmədiyini, xüsusilə oranın ixtiyarında olduğu şəxslərin bu iddianı inkar etdiyini və iddia olunan əvvəlki vəqfin el arasında məşhur olmadığını nəzərə almaqla, bu sənəd hal-hazırda yetimlərin saxlanıb tərbiyə edilməsi işi yerinə yetirilən yeni vəqfə əməl edilməsinə mane olurmu?

Cavab: Əsli və ya nüsxəsi köçürülmüş olmasından asılı olmayaraq, sadəcə olaraq vəqfin sənədi vəqfə dair şəri sübut ola bilməz. Sabiq vəqf mötəbər dəlil əsasında sübuta yetməyincə, hal-hazırda əməl olunan yeni vəqfin düzgünlüyünə hökm olunur, o qüvvədədir və ona əməl etmək caizdir.

---

Sual: **2073**: Bir nəfər imam Hüseyn (ə)-ın adına hüseyniyyə tikilsin deyə, torpaq sahəsini vəqf edib. Amma o yer kəndin ümumi yoluna çevrilib. İndi o Hüseyniyyənin ərazisindən yalnız təqribən 42 kv.m qalmışdır. Bu yerin hökmü nədir? Onu vəqf edən şəxsin oranı qaytarıb bir daha öz mülkünə keçirməsi caizdirmi?

Cavab: Əgər bu iş şəri cəhətdən (düzgün) olan vəqfin icrasından sonra olmuşsa və o, nəzarətçiyə və ya vəqf üçün istifadəyə təhvil verilmişsə, o yerin qalan hissəsi vəqfliyində qalır və vəqf edən şəxsin öz fikrindən dönüb onu öz mülkünə keçirməsi caiz deyil. Yuxarıdakı şərtlər mövcud olmadıqda isə o, vəqf edənin şəxs öz mülküyyətində qalır və onun ixtiyarı öz əlindədir.

---

Sual: **2074**: Vəfat edən şəxsin mirasında payı olan vərəsəyə, onun hamısını vəqf etməsi caizdirmi? Vəqf əqdini onların adından oxuması düzgündürmü?

Cavab: O şəxsin mirasından yalnız öz payına düşən miqdarı vəqf etməsi düzdür. Lakin sair vərəsələrin payına gəldikdə isə vərəsələrin icazəsinə bağlıdır.

---

Sual: **2075**: Bir nəfər bir qədər torpaq sahəsini özünün təkcə oğlanlarına vəqf edib. Onun vəfatından sonra vəqfləri qeydə alan idarə vəqfin necə gerçəkləşməsinə dair məlumat əldə etmədən qeyd olunan torpaq sahəsini həm oğlanların, həm də qızların adına sənədləşdirib. Bu iş qızların da oğlanlarla birlikdə bu yerdən şərikli istifadə etmələrinə səbəb olurmu?

Cavab: Vəqf idarəsi tərəfindən qızların da adlarının vəqf olunan torpaqda oğlanlarla birlikdə sənədləşdirilməsi onların vəqf olunan yerdən oğlanlarla şərikli istifadə etmələrinə səbəb ola bilməz. Əgər o yerin təkcə oğlanlara vəqf olunması sübut edilsə, onda o yer yalnız oğlanlara məxsusdur.

---

Sual: **2076**: Arxın yolu üzərində yerləşən bir mülk yüz il bundan əvvəl ümumi vəqf kimi vəqf edilib. Vəqf olunan ərazilərin al-verinin batil olması qanununa əsasən onun vəqf olması barədə rəsmi sənəd çıxarılıb. Lakin indi bu mülk dövlət tərəfindən mədən daşları çıxarılması üçün istifadə edilir. İndi o yer ənfaldan sayılır, yoxsa öz vəqfliyində qalır?

Cavab: Oranın şəri əsasda vəqf olunması sübuta yetərsə, hökumət və ya şəxsin mülkiyyətinə daxil edilməsi caiz deyil, o, öz vəqfliyində qalır və vəqfin bütün hökmləri onun barəsində qüvvədədir.

---

Sual: **2077**:. Təhsil mərkəzinin binasında bir otaq vardır ki, hal-hazırda labaratoriya kimi istifadə olunur. Onun yeri isə qonşuluqda yerləşən qəbristanlığın bir hissəsi idi, lakin keçən illərdə o qəbristanlıqdan ayrılıb. Bu qəbiristanlığın indiyə qədər də istifadə olunmasını nəzərə alaraq bu labaratoriyada namaz qılan tələbə və müəllimlərin hökmü nədir?

Cavab: Labaratoriyanın yerləşdiyi yerin ölülərin dəfn olunması üçün vəqf olunması sübut olunmayınca, onda namaz qılmaq və başqa istifadələr etməyin eybi yoxdur. Amma mötəbər dəlillərlə yalnız ölülərin dəfn olunması üçün vəqf edilməsi sübut olunsa, onda əvəlki vəziyyətinə qaytarılması, ölülərin dəfn olunması üçün boşaldılması vacibdir. Orada sonradan tikilən binalar da qəsb hökmündədir və orada namaz qılmaq səhih deyildir.

---

Sual: **2078**: Bizim yanımızda bir-biri ilə qonşu olan vəqf olunmuş iki mağaza vardır ki, vəqf edən şəxs və istifadə baxımından bir-birindən tam ayrıdırlar. Bu iki yeri icarəyə alan şəxsə onların birindən digərinə, yaxud onun xüsusi keçidinə qapı açmaq caizdirmi?

Cavab: Vəqfdən mənfəət eldə etmək və ya onda təsərrüf etmək hətta əgər başqa bir vəqfin məsləhətinə olsa belə, vəqfin şərtlərinə uyğun və nəzarətçisinin icazəsi ilə olması vacibdir. Bir-biri ilə qonşu olan vəqf olunmuş iki yeri icarəyə götürən şəxsin ikinci dükanın da vəqf olduğunu əsas tutaraq birindən digərinə qapı açmaqla və oradan başqa dükana yol açmaqla vəqfdə təsərrüf etməyə haqqı yoxdur.

---

Sual: **2079**: Bəzi mərkəzlərdə və evlərdə mövcud olan nəfis kitablar tələf olma ərəfəsindədir, onların həmin yerdə saxlanması çox çətindir. Ona görə də bəziləri belə bir təklif irəli sürürlər ki, şəhərin mərkəzi kitabxanasından bir hissəsi ayrılıb bu mərkəzin ixtiyarına verilsin ki, bu kitablar əvvəlki yerində olan vəqfliyində qalmaqla oraya göndərilsin. Bu iş caizdirmi?

Cavab: Vəqf olunmuş nəfis kitablardan istifadə olunması xüsusi bir yerdə saxlanmaqla şərtlənmişşə, onların həmin yerdə tələf olmaqdan qorunub saxlanması hər bir yolla mümkün oluncaya qədər həmin xüsusi yerdən başqa yerə aparılması caiz deyil. Əks halda onun əvvəlki yerindən çıxarıb qorunub saxlanmasına əmin olunan başqa bir yerə aparılmasının eybi yoxdur.

---

Sual: **2080**: Bir qədər torpaq sahəsi var ki, otlaqdan başqa heç nəyə yararlı deyil. Onun sahibi həmin yeri müqəddəs məkanlar üçün vəqf etmişdir. Onun nəzarətçisi də o yerin bir hissəsini bəzi şəxslərə icarəyə vermişdir. İcarəyə alanlar da tədrici olaraq otlaq üçün yararlı olmayan hissəsində yaşayış evləri və məişət üçün lazım olan evlər tikmiş və əkin üçün yararlı olan hissələrini də əkin sahəsinə və bağa çevirmişlər. Birinci Sualımız budur ki, təbii otlaqların və örüşlərin ənfaldan və ümumi yerlərdən oluduğunu nəzərə alsaq, onun vəqf olunması düzgündürmü və hazırda onun vəqf olmasına hökm

olunurmu? İkincisi, otlaqda icarəyə götürənlərin fəaliyyəti nəticəsində müəyyən qədər dəyişiklik edilib və əvvəlkindən daha yaxşı vəziyyətə salınıb. Onların verməli olduqları icarə haqqının miqdarı nə qədərdir? Üçüncüsü, əkin sahələri və bağların icarəyə götürənlər tərəfindən abad edildiyini nəzərə alsaq, bu kimi yerlər necə icarəyə verilr? Oranın icarə haqqı otlaq kimi, yoxsa əkin sahəsi və bağ kimi hesablanmalıdır?

Cavab: Vəqfin əslinin sübuta yetməsindən sonra otlaq yerlərinin vəqf edilən zaman ənfaldan olması və vəqf edən şəxsin şəri mülkü olmaması sübuta yetməyincə, şərən onun vəqfinin düzgünlüyünə hökm olunur və icarəyə götürən şəxslərin mənzil, əkin sahəsi və ya bağa çevirməsi kimi işlər görməsi ilə vəqflikdən xaric olmur. Vəqf olunan yeri, onun şəri cavabdehindən icarəyə götürdükdən sonra orada təsərrüf etmişlərsə, icarə əqdində qərara alındığı əsasda icarə haqqını şəri cavabdehə vermələri vacibdir ki, vəqfin vəqf edildiyi istiqamətdə sərf etsin. Amma onların təsərrüfləri şəri cavabdehin icazəsi olmadan baş vermiş olsa, təsərrüf etdikləri müddət ərzində ədalətli qiymətlə ücrətül-misli (haqqını) vermələri vacibdir. Lakin o ərazilərin vəqf edilən zaman zatən sahibsiz torpaqlardan və ənfaldan olması, eləcə də vəqf edən şəxsin şəri mülkü olmadığı sübuta yetərsə, bu halda onun vəqf olunması şərən batildir. Təsərrüf edənlərin yararlı hala salıb əkin sahəsinə və ya bağ-bostana, yaşayış evlərinə və s. çevirdikləri sahələr şərən onların öz haqqıdır. Onun əvvəlki vəziyyətində qalan və indiyə qədər sahibsiz olan hissələri isə təbii sərvətlərdən və ənfaldan sayılır, onun ixtiyarı islam dövlətinin əlindədir.

---

Sual: **2081**: Bir qadın, onunla sair əkinçilər arasında müştərək olan əkin sahəsinin öz payına altıda bir qədər düşdüyü halda, onun hamısını vəqf etmişdir. Bu da vəqflər idarəsinin bu işə qarışdığı üçün əhali arasında çoxlu problemlər yaratmışdır. Misal üçün, əhalinin mənzillərinə dövlət sənədi verməyin qarşısını almışdır. Bu vəqf o mülkün hamısına müşa şəkildə şamildir, yoxsa təkcə onun payına düşən hissədə (altıda bir miqdarda) qüvvədədir? Təkcə onun öz payına düşən miqdarda qüvvədə olduğunu fərz etdikdə vəqf o müşa yerin şəriklər arasında bölünməsindən əvvəl qüvvədədirmi? Müşa hissənin vəqf olunması bölgüdən qabaq düzgündürsə, sair şəriklərin vəzifəsi nədir?

Cavab: Müşa şəklində olan müştərək mülkdən öz payını hətta bölgüdən əvvəl də vəqf etməsinin eybi yoxdur. Bu şərtlə ki, vəqfin edildiyi istiqamətdə hətta bölgüdən sonra belə istifadə olunmağa yararlı olsun. Amma vəqf edən şəxsin müşa şəklində müştərək olan bir hissəsinə malik olduğu halda o yerin hamısını vəqf etməsi sair şəriklərin payı nisbətində füzuli (puç) vəqf sayılır və batildir. Şəriklərin vəqfdən öz mülklərinin payını ayırıb almaq haqları vardır.

---

Sual: **2082**: Vəqfin şərtlərindən dönmək caizdirmi? Əgər caizdirsə, onun həddi-hüdudu nə qədərdir? Uzun vaxtın keçməsi vəqfin şərtlərinə əməl etməyə təsir qoyurmu?

Cavab: Vəqf edən şəxsin vəqf əqdində qeyd etdiyi düzgün şərtləri pozmaq caiz deyil, yalnız o zaman caiz ola bilər ki, ona əməl etmək qeyri-mümkün və ya həddindən artıq əzab-əziyyətə və çətinliyə səbəb olsun. Uzun zaman müddətinin keçməsi də buna heç bir təsir qoymur.

---

Sual: **2083**: Bəzi vəqf olunmuş yerlərdə çaylar və ya sel məcraları vardır ki, onların içində çınqıl və mədən daşları vardır. Vəqf olunmuş mülkdə yerləşdiyi üçün bu çınqıl və mədən daşları vəqfə tabedirmi?

Cavab: Vəqf olunmuş yerlərin qonşuluğunda yerləşən və ya oranın ərazisindən keçən böyük çaylar, eləcə də sellərin ümumi məcraları vəqfin bir hissəsi deyil. Yalnız o miqdarı vəqfdən sayılır ki, camaat arasında vəqfin bir hissəsi sayılmış olsun, belə olan halda onunla vəqf kimi müamilə etmək lazımdır. Vəqf olunan kiçik çaylara gəldikdə isə, onların qumları və mədən daşları və s. ilə əlaqədar vəqf müamiləsi etmək vacibdir.

---

Sual: **2084**: Bizim məntəqədə dini elmlər mədrəsəsi vardır, lakin binasının çox qədim və köhnə olmasına və rütubət çəkdiyinə görə yararsız vəziyyətə düşüb və ondan istifadə olunmur. Onun əmlakının gəliri bir yerə toplanaraq banka əmanət qoyulmuşdur. İndi isə həmin mədrəsənin binasını banka qoyulan məbləğlə yeniləşdirmək istəyirik. Amma uzun müddət keçməlidir ki, biz binanın tikintisi üçün icazə sənədini alıb o məbləği mədrəsənin binasını yeniləşdirməyə sərf edək. Belə olan halda bu müddət ərzində vəqfə tabe olan əmlakı banklardan birinə sərmayə kimi qoymaq və banklarda mövcud olan müamilələrə uyğun vəqfin xeyrinə olaraq qazanc faizinin onun üstünə gəlməsi caizdirmi?

Cavab: Vəqfin şəri nəzarətçisinə onun gəliri ilə əlaqədar şərən vacib olan şey yalnız bu gəliri vəqfin vəqf olunduğu istiqamətə sərf etməkdir. Amma gəlirin bu istiqamətdə sərf olunması bir müddət keçməyincə mümkün olmazsa və bu istiqamətdə sərf olunması mümkün olan vaxta qədər bankda əmanət saxlanması mümkün olsa, eləcə də bank hesabında

əmanət saxlanması onun öz vaxtında vəqfə sərf edilməsini təxirə salmazsa, bu halda şəri olan əqdlərdən birinin yolu ilə onun banka qoyulmasının və gəlirindən vəqf üçün istifadə edilməsinin eybi yoxdur.

---

Sual: **2085**: Bir müsəlman şəxsin müsəlmanlar üçün vəqf etdiyi yerin müsəlman olmayan bir şəxsə icarəyə verilməsi caizdirmi?

Cavab: Əgər o yerin vəqf olunması mənfəəət qəbilindən olan vəqfdirsə, onda vəqfin mənafeyi və məsləhətinə uyğun olaraq onun qeyri-müsəlmana icarəyə verilməsinin eybi yoxdur.

---

Sual: **2086**: Bir neçə il bundan əvvəl alimlərdən biri vəqf olunmuş bir yerdə və vəqf edənlərin icazəsi ilə dəfn edilib. İndi isə bəziləri bu işə etiraz edib deyirlər ki, vəqf olunmuş yerdə kimisə dəfn etmək caiz deyil. Bu məsələnin hökmü nədir? Caiz olmadığını fərz etdikdə bu işkal meyyitin dəfn olunduğu torpaq əvəzində müəyyən bir məbləğin verilməsi ilə aradan qalxırmı?

Cavab: Vəqf olunmuş yerdə bir kəsin dəfn edilməsi vəqfin şəninə (vəqf olunduğu cəhətə) xələl gətirməzsə, eybi yoxdur. Amma onun dəfn edilməsi vəqfin cəhətinə zidd olarsa, onda caiz deyil və kimsə vəqf olunan belə yerdə dəfn elilərsə, əhvət nəzər budur ki, bədəni çürüməyənə qədər qəbri açıb meyyiti çıxararaq başqa yerdə dəfn etsinlər. Amma qəbrin açılması çətinlik üaratsa və ya möminə qarşı hörmətsizliyə səbəb olarsa, (elə orada qalmalıdır.) Ümumiyyətlə, bu işkal vəqf olunan torpağın əvəzində müəyyən məbləğ və ya torpaq sahəsini (onun nəzarətçilərinə) verməklə aradan qalxmır.

---

Sual: **2087**: Bir mülk bütün nəsillərdəki oğlan tayfasına vəqf edilmiş olsa, onda:

1- Hər hansı səbəbə görə vəqf edilmiş şəxslər öz hüquqlarından güzəştə gedərlərsə, vəqf aradan gedirmi? Əgər sabiq vəqfçilər öz hüquqlarından güzəştə getmiş olsalar, onda sonrakı nəsillərin vəzifəsi nədir? Belə olan halda vəqf olunan mülkün şəri nəzarətçisinin sonrakı nəsillər qarşısındakı vəzifəsi nədir?

Cavab: Movqufun-əleyhlərin öz hüquqlarından güzəştə getməsi ilə vəqflik aradan getmir. Sabiq nəslin vəqf barədə öz haqqından keçməsi sonradan gələn nəsillərin haqqına heç bir təsir qoymur və bu işlə də vəqf vəqflikdən çıxmır. Əksinə, sonradan gələn nəslin vəqfdən istifadə etmə növbəsi çatdıqda öz haqqının hamısını tələb etmə haqqı vardır. Hətta əgər əvvəlki nəsillərdə vəqfin satılması üçün şəri bir əsas olmuşsa belə, satdıqdan sonra onun pulu ilə sonradan gələn nəsillərin istifadə etməsi üçün onun əvəzinə başqa bir mülk almaq vacibdir. Vəqfin nəzarətçisinə də bütün vəqf olunan nəsillər üçün vəqfi qoruyub saxlamaq və onu idarə etmək vacibdir.

---

Sual: **2088**: Bir şey övladlara vəqf edildikdə vəqfin mənfəət və gəlirinin onun vəqf olunduğu şəxslər arasında necə bölüşdürüləcəyi məlum olmazsa, onda bu kimi hallarda vəqfin gəliri irs qanunu əsasında bölünməlidir, yoxsa onların arasında bərabər şəkildə?

Cavab: Əgər vəqfdə onun adamların sayına bərabər şəkildəmi, yoxsa irs qanununa uyğun olaraq qadınlarla kişilər arasında fərq qoyulması əsasında olması məlum olmadıqda, onda onların arasında heç bir fərq qoymadan bərabər şəkildə vəqf edildiyinə hökm olunur və onun gəliri də hər bir nəsildə qadınlarla kişilər arasında bərabər şəkildə bölünməlidir.

---

Sual: **2089**: Bir neçə il ərzində bir şəhərin elmiyyə hövzəsinə vəqf olunan yerin gəlirinin oraya çatdırılması mümkün olmadığı üçün həmin yerə sərf olunmayıb. İndiyə qədər də onun gəlirindən çoxlu miqdarını yığıb saxlamışam. Onu başqa şəhərlərdə olan elmiyyə hövzələrində sərf etmək caizdirmi? Yoxsa vəqf olunduğu şəhərə göndərilməsi mümkün olan vaxta qədər saxlamalıyıq?

Cavab: Şəri nəzarətçinin və ya vəqflər idarəsinin vəzifəsi budur ki, vəqfin gəlirini bir yerə toplayıb hansı məqsədlə vəqf olunubsa, elə o məqsədə də sərf etsin. Əgər müvəqqəti olaraq o şəhərdə ki, sərf olunmalıdır, o yerə çatdırılması mümkün olmazsa, onun gəlirini qoruyub saxlamaq və həmin yerdə sərf olunması mümkün olan vaxta qədər gözləmək lazımdır.

Əlbəttə, vəqfin işinin dayanmasına gətirib çıxarmamalıdır. Onun gəlrinin hətta gələcəkdə belə, xüsusi bir elmiyyə hövzəsinə çatdırılmasının mümkünlüyündən ümidinizi üzsəniz, onda başqa şəhərdəki elmiyyə hövzələrində işlətməyin eybi yoxdur.

## Həbs

---

Sual: **2090**: Bir nəfər öz torpaq sahəsini vəqf edilməsi düzgün olan müəyyən müddət ərzində, bu ümidlə həbs edir ki, müddəti qurtarandan sonra ona qayıtsın, onda həbsin müddəti qurtarandan sonra yer ona qayıdırmı və onun sair əmlakından istifadə etdiyi kimi, ondan da istifadə etmək haqqı varmı?

Cavab: Əgər torpaq sahəsi, onu həbs edənin şəri mülkü olsa və şəri əsaslara uyğun olaraq onu həbs etmiş olsa, düzgünlüyünə hökm olunur və həbsin şəri təsirləri ona aid olur. Həbsin müddəti qurtarandan sonra da mülk, onu həbs edənə qayıdır və onun sair əmlakı kimi olur. Onun mənfəəti və artımı ona məxsusdur.

---

Sual: **2091:** Sahibinin vasitəsilə əbədi olaraq vəqfin düzgün olduğu şeyə həbs etdiyi mülk, yaxud meyyitin, gəlirinin onun təyin etdiyi məqsədlərə sərf olunması üçün əbədi olaraq qorunub saxlanmasını vəsiyyət etdiyi üçdə bir qədərini varislər öz aralarında miras kimi bölüşdürsələr və onu rəsmi şəkildə öz adlarına sənədləşdirsələr və ya şəri bir əsas olmadan başqasına satsalar, onda vəqf olunan yerlərin, suların və əmlakın al-verinin və mülkiyyətə keçirməyin haram olması qanunu onlara da aid olurmu?

Cavab: Əbədi olaraq həbs edilən mülk və meyyitin malının üçdə biri, mülkiyyətə keçirməyin və al-ver etməyin caiz olmamasında eynilə vəqf kimidir. Onun irs kimi vərəsələr arasında bölüşdürülməsi və al-veri batildir.

## Vəqfin al-veri və dəyişdirilməsi

---

Sual: **2092**: Bir nəfər öz yerinin bir hissəsini hüseyniyyə tikilməsi üçün vəqf edib və həmin yerdə Hüseniyyə tikilişi sona çatıb. Amma əhalinin bir hissəsi hüseyniyyənin bir hissəsini məscidə çevirmişlər. İndi orada məscid adı ilə camaat namazı qılırlar. Onların hüseyniyyəni məscidə çevirmələri düzgündürmü? Məscidə çevrilən yerə məscidin hökmləri aid olurmu?

Cavab: Nə vəqf edən şəxsin, nə də başqalarının hüseyniyyə kimi ilə vəqf olunan yeri məscidə çevirməyə haqqı yoxdur və bu işlə o, məscidə çevrilmir, məscidin hökmləri də ona aid olmur. Amma orada camaat namazı qılmağın eybi yoxdur.

---

Sual: **2093**: Bir nəfər bir neçə il bundan əvvəl ona irsən yetişmiş yerini lazım bey kimi satsa və sonradan yerin vəqf olması məlum olsa, bu al-ver batildirmi? Əgər batildirsə, onda yerin indiki qiymətinin pulunu müştəriyə qaytarmaq vacibdir, yoxsa satdığı vaxtdakı pulunu?

Cavab: Satılan yerin əslində vəqf olduğu və satan şəxsin onu satmağa haqqı olmadığı məlum olandan sonra al-ver batildir və onun əvvəldə olduğu kimi vəqf halına qaytarılması vacibdir. Satıcının müştəridən torpaq sahəsini satması müqabilində aldığı pulu qaytarması vacibdir. Pulun alıcılıq dəyərinin düşməsi barədə də vacib ehtiyata görə bir-biri ilə razılaşmalıdırlar.

---

Sual: **2094**: Bir nəfər təqribən yüz il bundan əvvəl öz mülkünü oğlan övladlarına vəqf edib. Vəqfnamədə də qeyd edib ki, oğlan övladlarından biri kasıblasa, şərən özünün payını başqa varisə satmaq haqqı vardır. Onun övladlarından bəzisi də bir neçə il bundan əvvəl öz payına düşən miqdarı bəzi vəqf olunan şəxslərə satıb. Son zamanlar isə deyilib ki, "vəqf" kəlməsi mövcud olduğuna görə, vəqf edən şəxsin qeyd etdiyi şərtlər düzgün deyil, buna görə də onu almaq və satmaq batildir. Bu yerin ümumi vəqf deyil, xüsusi vəqf olduğunu nəzərə alsaq, vəqf edən şəxsin vəqfnamədə qeyd etdiyinə uyğun olraq onun satılması və alınması caizdirmi?

Cavab: Əgər vəqf edən şəxsin vəqf əqdini oxuyan zaman «vəqf olunan şəxslərdən hər hansı biri kasıblasa, onun öz payını vəqf olunan şəxslərdən başqa birisinə satması caizdir» deyə şərt etməsi sübut olunsa, onlardan hər hansı birinin kasıblıq və ya ehtiyac üzündən vəqfdən olan öz payını satmasının eybi yoxdur və bu zaman bu al-verin düzgünlüyünə hökm olunur.

---

Sual: **2095**: Mən bir qədər torpaq sahəmi məktəb tikilsin deyə, Təhsil nazirliyinə hədiyyə etmişəm. Lakin bir qədər məsləhətdən və məlumat topladıqdan sonra bilmişəm ki, o yerin qiyməti ilə şəhərin bəzi məhəllələrində bir neçə məktəb tikmək olar. Buna görə də Təhsil nazirliyinə müraciət etdim ki, bu nazirliyin nəzarəti altında o torpaq sahəsini satıb pulunun hamısını şəhərin cənub bölgəsində və ya imkansız yerlərdə bir neçə məktəb tikdirməyə xərcləyim. Bu iş mənim üçün caizdirmi?

Cavab: Əgər məktəb tikilişi üçün ayırdığın yeri vəqf edib onu bu yerin məsul şəxs və nəzarətçisi kimi Təhsil nazirliyinə təhvil verdikdən və bu iş başa çatdıqdan sonra sənin öz fikrindən qayıdıb o yerdə müdaxilə etmək və ya təsərrüf etməyə haqqın yoxdur. Amma əgər vəqf, hətta fars dilində olsa belə, icra olunmayıbsa, yaxud yer Təhsil nazirliyinə vəqfin "qəbz olunması" adı ilə təhvil verilməmişsə, onda o yer sənin mülkiyyətində qalır və onun idarə olunması sənin ixtiyarındadır.

---

Sual: **2096**: İmam övladlarından birinin ziyarətgahının mübarək günbəzində bir-birinə birləşmiş halda üç qübbə şəklində 3 kq. qızıl vardır. O indiyə qədər iki dəfə oğurlanıb, tapıldıqdan sonra yenidən öz yerinə qaytarılıb. Bu qızılların oğurluq və s. kimi təhlükəylə qarşılaşdığını nəzərə alsaq, onu satıb pulunu o ziyarətgahın təmir olunub genişləndirilməsinə sərf etmək caizdirmi?

Cavab: Oğurlanacağından törənən qorxu onun satılmasına və yaxud dəyişdirilməsinə əsas ola bilməz. Amma şəri nəzarətçi mövcud əlamət və şahidlərdən həmin qızılların o ziyarətgahın ehtiyaclarının təmin edilməsində və təmir olunmasında işlədiləcəyinə nəzərə çarpacaq dərəcədə ehtimal versə, yaxud həmin mübarək günbəzin təmir işlərinə zəruri ehtiyacı olsa və onun xərclərinin başqa yoldan təmin edilməsi mümkün olmasa bu halda qızılı satıb onun pulunun həmin günbəzin zəruri təmir işlərinə xərcləməyin eybi yoxdur. Yaxşı olar ki, vəqflər idarəsi bu işə nəzarət etsin.

---

Sual: **2097**: Bir nəfər bir qədər su və əkin sahəsini öz oğlanlarına vəqf etmişdir, lakin övladlarının çoxluğuna, əkinçilik işlərinin ağırlığına və məhsulun az olduğuna görə heç kəsin o yerdə əkin əkməyə marağı yoxdur. Buna görə də vəqf yaxın gələcəkdə xarab olub yararlı vəziyyətdən çıxacaqdır. Həmin səbəbə görə qeyd olunan torpaq və suyu satıb pullarını xeyir işlərdə xərcləmək caizdirmi?

Cavab: Vəqf olunduğu istiqamətdə istifadə olunmağa yararlı oluncaya qədər, hətta onu movqufun-əleyhlərinə, yaxud başqa bir şəxsə icarəyə verib icarə haqqını vəqf olunan istiqamətdə xərcləmək, yaxud ondan istifadə növünü dəyişdirmək mümkün oluncaya qədər satmaq və dəyişdirmək caiz deyil. İstifadə olunmağa heç bir vəchlə yararlı olmadığı halda onun satılması caizdir, lakin bu halda onun pulu ilə başqa bir mülk alıb mənfəətindən vəqf istiqamətində xərcləmək vacibdir.

---

Sual: **2098**: Məscidə bir minbər vəqf edilmişdir, lakin çox hündür olduğuna görə əməli olaraq istifadə olunmur. Onun başqa bir münasib minbərə çevrilməsi caizdirmi?

Cavab: Əgər o, hazırkı forması ilə həmin məsciddə, yaxud başqa məscidlərdə istifadə oluna bilməzsə, onun formasını dəyişməyin eybi yoxdur.

---

Sual: **2099**: Xüsusi vəqf olan, vəqf edən şəxsin də torpaq islahatı qanununun icra edilməsi nəticəsində əldə etdiyi torpaqların satılması caizdirmi?

Cavab: Əgər vəqf edən şəxs, bir şeyi vəqf edən zaman onun şəri sahibi olsa və vəqf də onun tərəfindən şəri əsasda gerçəkləşmiş olsa, hətta xüsusi vəqf olsa belə, özü və ya başqaları tərəfindən onun satılıb dəyişdirilməsi düzgün deyil. Amma şəri cəhətdən satılıb dəyişdirilməsi caiz olan istisna hallar bundan xaricdir.

---

Sual: **2100**:: Atam bir neçə xurma ağacı olan torpaq sahəsini Aşura günlərində və Qədr gecələrində ehsan verilməsi üçün vəqf etmişdir. Hazırda o ağacların yüzdən artıq yaşı vardır və artıq fayda (məhsul) vermə qabiliyyətlərini itirmişlər. Mən onun böyük oğlu, vəkili və vəsisi olduğum halda bu torpaqları satıb onun pulu ilə atam üçün cari sədəqə olsun deyə, mədrəsə, yaxud Hüseyniyyə tikməyim caizdirmi?

Cavab: Əgər torpaq da vəqf olsa, orada mövcud on ağacların məhsul verməyə yararlı vəziyyətdən xaric olması ilə onun satılması və yaxud dəyişdirilmisi caiz olmur, əksinə mümkün olan surətdə orada, hətta fayda (məhsul) vermək qabiliyyətini itirən ağacların pulu ilə olsa bel,ə yeni xurma ağacları əkilməlidir ki, onların mənfəəti vəqf istiqamətində sərf olunsun. Bundan qeyri hallarda vəqf olunan torpaqdan, hərçənd onun əkinçilik, ev tikmək və sair kimi işlər üçün icarəyə verilməsi ilə olsa belə, başqa cür istifadə edilməlidir. Onun gəliri də vəqf istiqamətində xərclənməlidir, ümumiyyətlə, vəqf olunan torpaqlardan hər hansı bir formada istifadə etmək mümkündürsə, onun alınıb-satılması və başqa şeyə çevrilməsi caiz deyil, lakin məhsul vermədiyi halda vəqf olunmuş xurmaların satılmasının eybi yoxdur. İmkan daxilində onların pulu yeni istifadə olunan ağacların əkilməsinə sərf edilməlidir. Mümkün olmadıqda isə həmin vəqf istiqamətində sərf olunmalıdır.

---

Sual: **2101**: Bir nəfər müəyyən bir yerdə məscid tikilməsi üçün bir qədər dəmir və qaynaq ləvazimatı hədiyyə etmişdir, iş qurtardıqdan sonra onlardan bir qədər artıq qaldı. Məscidin tikintisində başqa xərclərə görə borc edildiyini nəzərə alaraq artıq qalan o miqdarın satılıb pulunun da məscidin borclarını və sair ehtiyaclarını təmin etmək üçün xərcləmək caizdirmi?

Cavab: Əgər ehsan edən şəxs o vəsait və ləvazimatı məscid tiklişi üçün vermişsə və onları bu işi yerinə yetirmək üçün öz mülkiyyətindən xaric etmişsə, bu halda hansı biri istifadə olunmağa yararlıdırsa, hətta başqa məsciddə olsa belə, onun satılması caiz deyil, başqa məscidlərin təmiri üçün istifadə olunmalıdır. Amma əgər ehsan edən şəxs onlardan yalnız məsciddə istifadə olunmasına icazə vermişsə onda artıq qalan hissə onun malıdır və ixtiyarı da onun əlindədir.

---

Sual: **2102**: Bir nəfər öz kitabxanasını olan övladlarına vəqf etmişdir, lakin onun övlad və nəvələrindən heç biri dini elm kəsb etməmiş və nəticədə həmin kitabxanadan istifadə edə bilmirlər, taxtabitiləri də o kitabların çoxunu yeyib aradan aparmışdır, yerdə qalanlar da tələf olmaq üzrədir. Onların satılması caizdirmi?

Cavab: Əgər kitabxananın öz övladlarına vəqf olunması onların dini elmlər üzrə təhsil alması və din alimləri sırasına qoşulması ilə şərt edilibsə, bu vəqf müəyyən bir şeylə şərtləndirilməsinə görə kökündən batildir. Əgər onlardan istifadə etmək üçün vəqf edibsə, lakin hal-hazırda onların arasında o kitabxanadan istifadə edə biləcək bir şəxs yoxdursa və gələcəkdə də bu səlahiyyətin gerçəkləşməsinə ümid yoxdursa, bu halda qeyd olunan vəqf düzgündür və kitabxananı ondan istifadə etmək qabiliyyətinə malik olan şəxslərin istifadəsinə vermək caizdir. Həmçinin əgər kitabxana istifadə etmək səlahiyyəti olan şəxslərin istifadəsi üçün vəqf olunmuşsa, vəqfin nəzarəti onun övladları ilədir, onun qeyd olunan şəxslərin istifadəsinə verməyi vacibdir. Hər bir halda onu satmağa haqları yoxdur və şəri nəzarətçisinə vəqf olunan şeylərə xəsarət dəyib aradan getməsinin qarşısını münasib bir qaydada alması vacibdir.

---

Sual: **2103**: Vəqf olunan bir əkin sahəsinin səviyyəsi ətraf torpaq sahələrindən ucadır. Buna görə də oraya su çatdırmaq mümkün deyil. Bir müddətdir ki, onun başqa torpaq sahələri ilə eyni səviyyəyə çatdırılması üçün görülən işlər sona çatmışdır, artıq torpaqlar onun ortasında bir yerə toplanmış olduğuna görə o yerdə əkin əkməyə mane olur. Bu torpaq komalarını satıb onun pulunu həmin torpağın yaxınlığında yerləşən imamzadələrdən birinin ziyarətgahına xərcləmək caizdirmi?

Cavab: Əgər toplanmış artıq torpaqlar vəqf olunan torpaqlardan istifadə olunmasına mane olursa, onların həmin yerdən aparılıb satılması və pulunun vəqf istiqamətində xərclənməsinin eybi yoxdur.

---

Sual: **2104**: Bəzi vəqf olunmuş ticarət mərkəzləri vardır ki, vəqf olunmuş torpaqda tikilmişdir və onların sərqüfli haqqı satılmadan icarəçilərə icarəyə verilmişdir. İcarəçilərin mağazaların sərqüfli haqqını başqasına satıb pulunu özlərinə götürmələri caizdirmi? Caiz olduğunu fərz etdikdə o sərqüfli pulu icarəçinindir, yoxsa vəqfin gəlirindən hesab olunur və vəqfə işlədilməlidir?

Cavab: Əgər vəqfin nəzarətçisi vəqfin məsləhətinə riayət etməklə sərqüflinin satılmasına icazə verərsə, onun əvəzində alınan mal vəqfin gəlirindən hesab olunur və vəqf istiqamətində xərclənməsi vacibdir. Lakin müamiləyə icazə verməsə, al-ver batil, satıcının alıcıdan aldığı məbləği ona qaytarması da vacibdir. Hər bir halda sərqüfli haqqına malik olmayan, eyni zamanda onu başqa bir icarəçiyə satan icarəçinin o malda heç bir haqqı yoxdur.

# Qəbristanlıqların hökmləri

---

Sual: **2105**: Müsəlmanların ümumi qəbristanlığını mülkiyyətə keçirməyin, orada şəxsi mənzillər tikməyin və onu şəxslərin adına keçirməyin hökmü nədir? Müsəlmanların ümumi qəbristanlığı vəqf sayılırmı? Bir şəxsin ondan istifadə etməsi qəsb hesab olunurmu? Orada təsərrüf edənlər öz təsərrüflərinin ücrətül-mislini (dəyərini, haqqını) qaytarmalıdırmı? Ücrətül-mislə zamin olduğu fərz edildikdə o mal-dövlət hansı istiqamətdə sərf olunmalıdır?

Cavab: Müsəlmanlarının ümumi qəbristanlığının sənədini almaq mülkiyyətə dair şəri bir əsas, yaxud onun qəsb olunmasına bir dəlil olmaz. Eləcə də ölülərin ümumi qəbristanlıqda dəfn edilməsi də oranın vəqf olunmasına şəri bir höccət deyildir. Əksinə, camaatın nəzərində qəbristan, əhalinin ölülərini dəfn etmək və sair kimi istifadələr üçün şəhərin tabeliyindədirsə, yaxud mövcud şəri dəlilə əsasən müsəlmanların ölülərinin dəfn olunmasına vəqf olunubsa, hazırkı istifadə edənlərin özləri üçün etdikləri şəxsi təsərrüflər qəsb və haramdır, o qəbristanlıqdan əl çəkməlidirlər, orada tikdikləri mənzillər və sair şeylər uçurulub əvvəlki vəziyyətinə qaytarılmalıdır. Lakin təsərrüflərin ücrətül-mislinə zamin olmaq sübuta yetməyib.

---

Sual: **2106**: Qəbirlərinin yaşı təqribən otuz beş ilə çatan bir qəbristanlıq vardır ki, bələdiyyə idarəsi onu ümumi bir parka çevirmişdir. Sabiq hökumət dövründə də onun bəzi yerlərində binalar tikilmişdir. Əlaqədar təşkilatlar özlərinə ehtiyac duyulan binaları yenidən orada tikə bilərlərmi?

Cavab: Əgər qəbristanlığın yeri müsəlman ölülərinin dəfn edilməsi üçün vəqf olsa, yaxud orada nəyisə tikmək alimlərin, əməlisaleh və mömin insanların hörmətinin pozulmasına, qəbrin açılmasına səbəb olsa, yaxud da torpaq əhalinin istifadəsi üçün şəhərin ehtiyac duyduğu və ümumi məkanlardan olsa, orada nəsə tikmək, həmçinin oradan xüsusi şəkildə istifadə etmək və onu dəyişdirmək caiz deyil. Əks halda o işlərin öz-özlüyündə heç bir eybi yoxdur, lakin bu barədə mövcud olan qanunlara riayət etmək lazımdır.

---

Sual: **2107**: Ölülərin dəfn olunması üçün bir qədər vəqf olunmuş yer vardır və onun ortasında imamzadələrdən birinin qəbri yerləşir. Son vaxtlarda əziz şəhidlərdən bəziləri o qəbristanlıqda dəfn olunmuşdur. Gənclərin idman oyunları üçün münasib yerin olmadığını nəzərə alsaq, islam ədəb qaydalarına riayət etməklə qəbristanın daxilində oynamaq caizdirmi?

Cavab: Qəbristanlığın idman və oyun yerinə çevirilməsi, vəqf olunan yerdə vəqf edildiyi istiqamətdən başqa məqsədlər üçün istifadə etmək caiz deyil, müsəlmanların və əziz şəhidlərin qəbirlərinin hörmətinin pozulması da caiz deyil.

---

Sual: **2108**: İmamzadələrdən birinin ziyarətçilərinin öz nəqliyyat vasitələrini yaşı yüz ildən artıq olan qədim bir qəbristanlığın daxilində saxlamaları caizdirmi? Halbuki həmin qəbristanlıq keçmiş dövrdə yerli əhalinin və başqalarının ölülərinin dəfn yeri olmuş, hazırda isə ölülərin dəfn olunması üçün başqa yer seçmişlər.

Cavab: Bu iş camaatın nəzərində müsəlmanlara və qəbirlərin hörmətinin aradan getməsinə səbəb olmayınca və o imamzadənin müqəddəs məzarının zəvvarlarına maneçilik törətməyincə eybi yoxdur.

---

Sual: **2109**: Bəzi şəxslər ümumi qəbristanlıqda bəzi qəbirlərin kənarında ölülərin dəfn edilməsinə mane olurlar. Orada ölülərin dəfn olunması üçün şəri bir maneə vardırmı? Onların bu işin qarşısını almağa haqları varmı?

Cavab: Əgər qəbristan vəqf olsa, yaxud hər bir şəxs üçün meyyitin orada dəfn olunmasına icazə verilsə, heç kəsin ümumi qəbristanlıqda öz ölüsünün qəbrinin ətrafında bir sahə ayırıb təyin etməyə və möminlərin ölülərinin orada dəfn olunmasının qarşısını almağa haqqı yoxdur

---

Sual: **2110**: Çoxlu ölünün dəfn olunması nəticəsində tutumu (boş sahəsi) qurtarmış qəbristanlığın kənarında bir qədər torpaq sahəsi vardır ki, çoxlu torpaq sahəsinə malik olan bir şəxsin məhkəmə vasitəsilə müsadirə olunmuşdur. Hal-hazırda o torpaq sahəsi başqasına verilmişdir. Onun hazırkı sahibinin icazəsini almaqla ölüləri o torpaqda dəfn etmək üçün istifadə olunması caizdirmi?

Cavab: Əgər onun hazırkı sahibi o yerin şəri sahibidirsə, onun razılığı və icazəsi ilə oradan istifadə etməyin eybi yoxdur.

---

Sual: **2111**: Bir nəfər bir qədər torpaq sahəsini ölülərin dəfn olunması üçün vəqf etmişdir və onu müsəlmanların ümumi qəbristanlığına çevirmişdir. Nəzarətçilərin öz ölülərini orada dəfn edən şəxslərdən pul alması caizdirmi?

Cavab: Onların vəqf olunmuş ümumi qəbristanlıqda dəfn olunan ölülərə görə nə isə tələb etməyə haqları yoxdur, amma qəbristanlığa, yaxud ölülərin sahiblərinə öz ölülərini dəfn etmək üçün müəyyən xidmətlər göstərsələr, həmin xidmətlərin müqabilində əmək haqqı adı ilə müəyyən məbləğin alınmasının eybi yoxdur.

---

Sual: **2112:** Biz nəzərə almışıq ki, kəndlərdən birində rabitə qovşağı (mərkəzi) yaradaq. Buna görə də kəndin əhalisindən istəmişik ki, rabitə mərkəzi tikmək üçün müəyyən qədər torpaq sahəsini bizim ixtiyarımıza versinlər. Bu iş üçün kəndin ortasında boş torpaq sahəsinin olmadığını nəzərə almaqla onun qədim və artıq tərk olunmuş qəbiristanlıqda tikilməsi caizdirmi?

Cavab: Müsəlmanların ümumi qəbristanlığı ölülərin dəfn olunmasına vəqf olunsa, yaxud orada rabitə mərkəzinin tikilməsi qəbrin açılmasına, yaxud müsəlman qəbirlərinin hörmətinin aradan getməsinə səbəb olsa, caiz deyil, əks halda isə heç bir eybi yoxdur.

---

Sual: **2113**: Biz qərara almışıq ki, kənddə dəfn olunmuş şəhidlərin qəbirlərinin kənarında bu kəndin, başqa məntəqədə dəfn olunmuş sair şəhidlərin xatirəsinə müəyyən daşlar qoyulsun ki, gələcəkdə onların qəbirləri olsun. Bu iş caizdirmi?

Cavab: Əziz şəhidlərin adına qəbr formaları düzəldilməsinin eybi yoxdur, lakin o yer ölülərin dəfni üçün vəqf olunmuş olsa, başqalarının ölülərinin orada dəfn olunmasına maneçilik törətmək caiz deyil.

---

Sual: **2114**: Biz nəzərə almışıq ki, qəbristanların birinin qonşuluğunda yerləşən sahibsiz torpağın bir qismində səhiyyə mərkəzi tikək. Lakin əhalidən bəziləri iddia edib deyirlər ki, bu məkan qəbristanlığın bir hissəsidir, məsul şəxslər də həmin yerin qəbristanın bir hissəsi olub-olmamasını ayırd etməkdə çətinliklə qarşılaşmışlar. O yerin yaşlı şəxslərindən bəziləri şəhadət verirlər ki, bəzilərinin qəbir mövcud olduğunu iddia etdiyi o torpaqda heç bir qəbir olmamışdır, əlbəttə, hər iki dəstə şəhadət verirlər ki, səhiyyə mərkəzi tikilişi nəzərə alınan torpaq sahəsinin ətrafında qəbir mövcuddur. Bizim vəzifəmiz nədir?

Cavab: O torpaq sahəsinin müsəlmanların ölülərinin dəfn olunması üçün vəqf edildiyi aşkar olmayınca, eləcə də həmin torpaq sahəsi əhalinin müəyyən münasibətlərlə ehtiyac duyduğu ümumi məkanlardan olmasa, orada səhiyyə mərkəzinin tikilişi də qəbirlərin açılmasına və möminlərin qəbrinin hörmətinin aradan getməsinə səbəb olmazsa, həmin torpaq sahəsində bu mərkəzin tikilməsinin eybi yoxdur, əks halda isə caiz olmaz.

---

Sual: **2115**: Hələ heç bir ölünün dəfn olunmadığı və sahəsinin də çox geniş olduğu, necə vəqf edilməsi də dəqiq şəkildə məlum olmayan qəbristanlığın bir hissəsini məscid, yaxud məntəqənin uşaqları üçün səhiyyə mərkəzi olaraq ümumi mənfəət kimi istifadə olunması üçün icarəyə verilməsi caizdirmi? Bu şərtlə ki, icarənin pulu qəbristanlığın öz xeyrinə istifadə olunsun. (Qeyd olunmalıdır ki, bu məntəqədə xidmət mərkəzlərinin tiklişi üçün boş torpaq olmadığına görə bu cür xidmətlərə ehtiyac duyulur).

Cavab: Əgər o yer xüsusi şəkildə ölülərin orada dəfn olunması üçün gəlir gətirən vəqfdirsə, onun icarəyə verilməsi və məscid, yaxud səhiyyə mərkəzi və başqa şeyin tikilməsi üçün istifadəyə verilməsi caiz deyil. Lakin mövcud əlamətlərdən o torpaq sahəsinin ölülərin dəfni üçün vəqf edildiyi sübut olunmazsa və əhalinin öz ölülərini dəfn etmək və sair işlərdə istifadə etmək kimi məntəqənin ehtiyac duyduğu yerlərdən və ümumi məkanlardan olmazsa, orada qəbir də olmasa və o yer üçün xüsusi malik olduğu məlum olmazsa bu halda məntəqə əhalisinin ümumi mənafeyindən olan bir mənfəətdə ondan faydalanmağın eybi yoxdur.

---

Sual: **2116**: Energetika nazirliyi nəzərdə tutub ki, bir neçə su anbarı və elektrik stansiyası tiksin. Onlardan biri də Karun çayı üzərində tikilən səddin elektrik stansiyasıdır. Bu layihənin ilkin planları hazırlanmış və onun xərcləri də təmin olunmuşdur. Lakin layihə məntəqəsinin mərkəzində qədim bir qəbristanlıq vardır ki, onun həm nisbətən qədim, həm də yeni qəbirləri vardır və bu layihənin icra olunması da həmin qəbirlərin dağıdılmasına bağlıdır. Bu məsələnin hökmü nədir?

Cavab: Meyitləri çürüyüb torpağa çevrilmiş qədim qəbirlərin dağıdılmasının eybi yoxdur, lakin içində çürüməmiş bədənlər olan qəbirlərin açılması, dağıdılması, hələ torpağa çevrilməmiş cəsədlərin aşkar olunması caiz deyil. Əlbəttə, əgər o məkanda enerji istehsalı layihələrinin icra olunmasının ictimai və iqtisadi zərurəti olsa, belə ki, onun icra olunmasının başqa çıxış yolu olmasa və bu iş vacib olsa, o yerdən başqa yerə köçürülməsi, yaxud çayın qəbristanlıqdan başqa tərəfə yönəldilməsi çox çətin və müşkül iş olarsa, o yerdə sədd tikilməsinin eybi yoxdur, lakin bu halda vacibdir ki, bədənləri çürüyüb torpağa çevrilməyən qəbirlər "qəbrin açılması"nın gerçəkləşməsindən uzaq olmaqla başqa bir yerə köçürülsün, hərçənd qəbrin ətrafında olan torpaqları qazmaqla və qəbrin açılması gerçəkləşmədən onun başqa bir yerə köçürülməsi ilə olsa belə. Əkər iş əsnasında torpaqdan meyit çıxarsa, başqa yerə aparıb orada dəfn edilməsi vacibdir.

---

Sual: **2117**: Qəbristanların birinin kənarında bir qədər torpaq sahəsi vardır ki, orada heç bir qəbirdən əsər-əlamət yoxdur və qədim bir qəbristanlıq olmasına ehtimal verilir. Bu torpaqdan istifadə etmək və ictimai fəaliyyətlər üçün orada bina tikmək caizdirmi?

Cavab: Əgər o torpağın ölülərin dəfn olunması üçün vəqf olunan ümumi qəbristanlığın bir hissəsi olması aşkar olsa, yaxud camaatın nəzərində onun sahəsi hesab olunsa, qəbristanlıq hökmünə malikdir və oradan istifadə etmək caiz deyil.

---

Sual: **2118**: İnsanın öz sağlığında mülkiyyətinə keçirmək məqsədi ilə bir qəbri alması caizdirmi?

Cavab: Əgər qəbrin olduğu yer başqasının şəri mülkiyyətində olsa, onun alınmasının eybi yoxdur. Lakin möminlərin ölülərinin dəfn olunması üçün vəqf olunan totpaq sahələrinin bir hissəsi olsa, onu alıb insanın özü üçün saxlaması düzgün deyil, çünki labüd olaraq başqalarının ölülərini dəfn etmək üçün istifadə etməsinə mane olur.

---

Sual: **2119**: Əgər küçə və prospektlərin birində səki qurulması iyirmi il bundan qabaq prospektin qonşuluğundakı qəbristanlıqda dəfn olunmuş möminlərin qəbirlərinin bəzisinin uçurulmasına bağlıdırsa, bu iş caizdirmi?

Cavab: Əgər qeyd olunan qəbristanlıq vəqf deyilsə, müsəlman qəbrinin açılmasına və onun hörmətinin aradan getməsinə səbəb olmayana qədər piyadaların keçid yolu kimi səkiyə çevrilməsinin eybi yoxdur.

---

Sual: **2120**: Şəhərin mərkəzində istifadəsiz bir qəbristanlıq vardır ki, vəqf olub-olmaması məlum deyil. Orada məscid tikmək caizdirmi?

Cavab: Əgər həmin qəbristanlıq vəqf olunmuş bir yer olsa və o, bir şəxsin mülkiyyəti olmasa, həmçinin əhalinin müəyyən münasibətlərdə istifadə etdikləri və ehtiyac duyduqları ümumi məkanlardan olmasa, orada məscid tikilməsi də müsəlman qəbirlərinin açılmasına, yaxud onlara qarşı hörmətsizliyə səbəb olmazsa, onda eybi yoxdur.

---

Sual: **2121**: Təqribən yüz ildən qalmış ümumi qəbristanlıq olan bir torpaq sahəsi vardır və bir neçə il bundan qabaq arxeoloji işlər zamanı orada bir neçə qəbir aşkar olunmuşdur. Qazıntı işindən və onun torpaqllarının aparılmasından sonra bir neçə qəbir də aşkar oldu və onun içindən sümüklər tapıldı olundu. Bələdiyyə idarəsinin bu torpağı satması caizdirmi?

Cavab: Əgər həmin qəbristanlıq vəqf olsa, onun alınıb-satılması caiz deyil. Hər halda əgər qazıntı işləri qəbirlərin açılmasına səbəb olsa, bu iş də haramdır.

---

Sual: **2122**: Təhsil nazirliyi nisbətən qədim olan qəbristanlığın bir hissəsini əhalinin razılığını almadan öz ixtiyarına keçirib orada bir məktəb tikmişdir. Hal-hazırda şagirdlər orada namaz qılırlar. Bu işin hökmü nədir?

Cavab: Məktəbin tikildiyi yerin ölülərin dəfn olunması üçün vəqf olmasına dair mötəbər bir sübut tapılmayınca, həmçinin şəhər əhalisinin ölüləri dəfn etmək və sair kimi ehtiyac duyduqları ümumi məkanlardan olması, eləcə də bir kəsin şəxsi mülkü olması sübut olmayınca qayda-qanunlara riayət etmək şərtilə orada məktəb tikilməsinin, şagirdlərin namaz qılmasının eybi yoxdur.

---

[5212] Cameüş-şərait, yəni mərceyi-təqlid üçün lazım olan bütün şərtlərə malik olan.

[5213] Mövzular iki yerə bölünür: 1) Mükəlləfin öz əlində olan mövzular, məsələn; qarşısında olan mayenin şərab olub-olmamasını müəyyənləşdirmək. 2) İstinbat olunmuş mövzular və bunların müəyyənləşməsi müctehidin səlahiyyətinə qayıdan mövzulardır. Məsələn, ğina ritmik səslərdir və ritmik olmayan qalan bütün səslər ona aid olunmaz. İstinbat olunmuş mövzular da iki cürdür:

a) Zaman və məkanın müxtəlifliyi ilə dəyişməyib sabit qalan mövzular, məsələn; ğina.

b) Müxtəlif şəraitlərin təsiri ilə dəyişən mövzular. Mövqelər dəyişdikcə hökmlər də dəyişdiyinə və öz mehvərində hərəkət etdiyinə görə dəyişən və istinbat olunmuş mövzuların müəyyənləşməsi ictihada daxildir.

[5214] Ağıllı insanların ümumi şəkildə qəbul etdiyi məsələ.

[5215] Təyin və təxyir üsul elminə aid olan elmi qaydadır.

[5216] Təəbbüdi hökm- yəni bir hökmə Peyğəmbərin buyurduğu kimi, dəlil-sübut istəmədən yerinə yetirilən hökm deməkdir.

[5217] Təkvini hakimiyyət İslam şəriət hökmlərini pozmaq və əvəz etmək.

[5218] Həsbiyyə - camaat arasında adi və zəruri olan işlərə deyilir, məsələn, meyyit məsələsi, ixtilafları həll etmək, nigah və s.

[5219] Fasiq-kəbirə (böyük) günahları aşkar şəkildə edən və naticədə ədalətdən düşən şəxs.

[5220] Hüdud-yəni cəza tədbirləri.

[5221] Qəlil su kürdən az olan və yerdən çıxmayan suya deyilir.

[5222] Axar su yerdən qaynayan və cərəyanda olan suya deyilir.

[5223] Kür su eni, uzunluğu və hündürlüyü 3,5 qarış olan qabı doldurduqda tutduğu sudur (383 kq 906 q).

[5224] Mütləq su bir şeylə qarışıq olmayan, yaxud qarışıq olsa da camaat arasında qarışıq su deyilməyən sudur.

[5225] Müməyyiz pisi-yaxşını ayırd edə bilən şəxs.

[5226] Müzaf su bir şeydən çəkilən (gülab suyu kimi), yaxud bir şeylə qarışıq olub mütləq su deyilə bilməyən sudur (şərbət kimi).

[5227] İstihalə bir haldan başqa hala keçməklə (məsələn, nəcis olan şey yanıb pak külə çevrilməklə) pak olmağa deyilir.

[5228] Təxəlli -ayaq yoluna getmək.

[5229] Möhtərəm, yəni, müməyyiz və aqil şəxs.

[5230] İrtimasi dəstəmaz -dəstəmaz üzvlərini suya salıb çıxarmaqla olan dəstəmazdır.

[5231] Hədəs -təharətin pozulmasına səbəb olan şeylər, məsələn, hədəsi-əkbər: -cənabət qüslü, heyz və s. hədəsi əsğər isə bövl, qait, yuxu.

[5232] Möhtəlim -yatıb yuxuda cünub olmaq.

[5233] İstihazə 3 növdür: qəlilə, mütəvəssitə, kəsirə. Qəlilə odur ki, qan qadının övrətinə qoyduğu pambığa bir tərəfdən keçib digər tərəfdən çıxmasın. Mütəvəssitə odur ki, qan pambığı islatsın, lakin pambığın üstünə qoyulan parçanın üstünə axmasın. Kəsirə odur ki, qan pambığın islatsın, sonra axıb dəsmala da keçsin.

[5234] Yaisəlik dövrü doğuş dövrünün sona çatdığı dövrdür. (Seyid qadınlarda 60, qeyri-seyidlərdə 50 yaş.)

[5235] İstibra-burada bədənin təmizlənməsi üçün şəriətdə müəyyən olunmuş vaxtın keçməsi.

[5236] “Məhsurə şübhə” -(nəcasəti barədə olan) şübhə sayı (yaxud ölçüsü) məlum və məhdud olan şeylərə deyilir.

[5237] Hərbi kafir -islam və müsəlmanlarla müharibədə olan, qanuna tabe olmayan kafirlərdir.

[5238] Şəmsi tarixinin ayları ilə üçüncü ayın 4-də və dördüncü ayın 26-sında.

[5239] Bəzi paltarlarla (ipək və sair kimi) namaz qılmaq düz deyildir. Əgər namaz qılınması mümkün olmayan bu geyimlər nəcis olsalar, bununla yanaşı, insanın namaz qılmaq üçün başqa paltarı olmazsa, nəcis olmuş bu növ geyimlərin pak olması şərt deyildir.

[5240] Mövzuya olan şübhə =məsələn: insan paltarın nəcis olmasını bilməyə.

[5241] Hökmə olan şübhə =məsələn: insan nəcis olmuş bu növ paltarın hökmünü (namaz qılınmasının düz olub-olmamasını) bilməyə.

[5242] Şəri məsafə=8 fərsəx (45 km).

[5243] Qəsr= Səfərdə olarkən dörd rəkətli namazları iki rəkət qılmaq.

[5244] İqamət: Müəyyən yerdə daimi və ya müvəqqəti qalmaq.

[5245] Bir müdd=750 q yemək.

[5246] Ötürmə- bəzi xəstəliklərdə insanın ifrazat və cinsiyyət üzvlərindən dərman qəbul etməsidir.

[5247] Yatdığı halda boynuna cənabət qüslünün gəlməsi.

[5248] İnsanın öz-özünə əl hərəkətləri ilə özündən məni (sperma) xaric etməsi.

[5249] Bütün kəffarələr dedikdə, altmış gün oruc tutmaq, altmış fəqiri doyurmaq və bir qul azad etmək nəzərdə tutulur.

[5250] Burada "əsl »dən məqsəd əvvəldə olan hökmün davam etməsi, yəni ayın görünməsidir.

[5251] Üsul elminə aid olan bir qaydadır.

[5252] Rəhn ev icarə olunan zaman müəyyən məbləğdə girov şəklində verilən puldur.

[5253] Nisab xümsün və zəkatın vacib olması üçün lazım olan şəri hədd.

[5254] Müzaribə gəlirində şərik olmaq məqsədi ilə qoyulan sərmayədir.

[5255] Bəzi vaxtlarda xüms verən adamın imkansızlığı nəzərə alınır və xümsü alan adam həmin pulu ondan alıb yenidən özünə qaytarır.

[5256] Füzuli al-ver icazəsi sahibindən al-ver qurtarandan sonra alınan al-verə deyilir. Əgər sonradan sahibi icazə verməsə, al-ver batil sayılır.

[5257] Əhlüz-zimmə İslam dövlətində mövcud qanunlara riayət etməklə, vergi verib əmin-amanlıqda yaşayan kafirlər.

[5258] Yəni, onların içində haram olması məlumdur, lakin konkret olaraq hansı malın haram olması məlum deyil.

[5259] Naşizə - ərinə tabe olmayan və onun şəriətdə müəyyən olunmuş itaətindən boyun qaçıran qadına deyilir.

[5260] Mötərəm insan - İslam şəriətində toxunulmazlıq və təhlükəsizliyinin qorunması vacib olan şəxsə deyilir.

[5262] İslam şəriətində füzuli al-ver birtərəfli al-verə deyilir ki, onun düzgünlüyü üçün qarşı tərəfin də icazəsi lazımdır.

[5263] İxtiyar – hansısa səbəbə görə satıcı, yaxud alıcının al-veri pozmaq ixtiyarına deyilir.

[5264] Ğəbn – aldadaraq ziyan vurmağa deyilir.